# GÖRKƏMLİ ®
# ADAMLARIN
# HƏYATI

*Bioqrafiya seriyası*

Əsası 1890-cı ildə
F.Pavlenko tərəfindən qoyulmuş və
1933-cü ildə M.Qorki ilə
davam etdirilmişdir

BURAXILIŞ
1455

(1255)

*Hüseynbala Mirələmov*

# ZƏRİFƏ ƏLİYEVA

MOSKVA
MOLODAYA QVARDİYA
2010

BAKI 2018

Görkəmli
ADAMLARIN
HƏYATI

*Bioqrafiya seriyası*

*Hüseynbala Mirələmov*

# ZƏRİFƏ ƏLİYEVA

Bakı, NURLAR Nəşriyyat-Poliqrafiya Mərkəzi,
2018, 464 s. + 96 s. foto-şəkil

Akademik Zərifə xanım Əliyevanın anadan olmasının 95 illiyi münasibətilə işıq üzü görən bu kitab müəllifin 2010-cu ildə Moskvanın “Молодая гвардия” nəşriyyatında “Жизнь Замечательных Людей” (“Görkəmli Adamların Həyatı”) seriyasından çap olunmuş “Зарифа Алиева” monoqrafiyasının əsasında yenidən işlənmişdir.

ISBN: 978-9952-507-77-5

© H.Mirələmov, 2018

*Bu kitabı Zərifə xanımın*
*anadan olmasının 95 illiyinə ithaf edirəm.*

*Hüseynbala Mirələmov*

* * *

*Yer üzündə ağalıq edər ölüm və zaman,*
*Əbədi hakim olmaq deyil onların işi.*
*Fırlanaraq yox olur hər şey bir anda, inan,*
*Tərpənmədən qalan şey – tək məhəbbət günəşi.*

*Vladimir Solovyov*

## Ön söz

# TALE YOLLARI

*Ər ilə arvadın xəmiri bir yerdə yoğrulub.*
*Azərbaycan atalar sözü*

İnsan yarandığı gündən ana, qadın, ailə, vətən, sevgi mövzusunda düşünür, danışır, bu mövzularda şeirlər, nəğmələr, dastanlar qoşur, kitablar yazıb-yaradır.

XII əsrdə Şərqin böyük sufi şeyxi, övliya Hacı Bektaş Vəli "Oxunacaq ən böyük kitab insandır" deyirdi.

Ondan beş yüz il sonra – XVII əsrdə yaşamış və Qərbin görkəmli filosoflarından biri kimi tanınmış Çarlz Coffi də hər insan ömrünü bir kitaba bənzədirdi:

"...İnsanın doğulması bu kitabın titul vərəqidir. İlk ağlaması və qığıldaması kitabın girişidir. İnsanın sonrakı şüurlu həyatı və davranışları bu kitabın əsas məzmunudur... Ölümü – nəticə və son səhifədir. Bu kitab qalın cildlər halında və ya nazik ola bilər, cildi son dərəcə gözəl, bər-bəzəkli çəkilə və ya adi kağıza bükülə bilər, çox bahalı və ucuz kağızda çap oluna bilər. Lakin əsl mətləb kitabın kağızında və cildində deyil, onun məzmunundadır. Kitabların məzmunu, hər şeydən əvvəl, müəlliflərdən asılı

olduğu kimi, insan ömrünün də məzmunu, əsasən, onun özündən asılıdır".

Qədim Şərq aforizmində belə deyilir: "Hər şey yoldan başlanır".

Bütün səmavi və dünyəvi yollar öz başlanğıcını Tanrıdan, insanı işıqlı dünyaya – həyata gətirən yollar ANAdan, QADINdan başlanır. Odur ki, ərənlərimiz "Ana haqqı Tanrı haqqıdır" deyiblər. Anaların üzü qiblə, ətəyi dua yeridir!

Böyük Cəfər Cabbarlı Azərbaycan poeziyasının ən qiymətli incilərindən olan "Ana" şeirində bu məqamı necə də mükəmməl tərzdə ifadə etmişdir:

*Bütün vücudum əsər, ruhum eyləyər pərvaz,*
*Uçar səmalara o, aləmi-xəyalətdə.*
*Yatar, ölər bədənim, nitqdən düşər bir söz:*
*– Ana… Ana… Sənə mən rahibəm itaətdə!..*

Həyat adlı ömür yolunda hərəmizin qismətinə düşən bir tale payımız var. İnsan kimi yaşayıb-yaratdığımız, varlığımızla yoxluğumuz arasında mövcud olan və məsafəsindən asılı olmayaraq qət etdiyimiz enişli-yoxuşlu tale yolları...

Bu işıqlı dünyaya bizi qadınlar gətirir. Qadın – ANA öz təbiəti etibarilə yaradıcıdır, həyatın, varlığın nişanəsidir. Qadın həm yaradandı, həm də yaşadan!

Gil lövhələr üzərində yazılmış qədim şumer atalar sözləri və məsəllərində qadın, ana haqqında çoxlu maraqlı fikirlər bugünədək yaşayır:

*"Arvad – kişinin gələcəyidir,*
*Oğul – sığınacağı,*
*Qız – nicatı!"*

Qadın – ANA dünyanın ədalət tərəzisini neçə min ildir ki, əlində saxlayır.

Qədim yunan mifologiyasına görə, Zevsin arvadı, ədalət ilahəsi Femida sonralar ədalət mühakiməsinin mücəssəməsi kimi gözübağlı və əlində çəki daşları tutmuş vəziyyətdə təsvir olunurdu.

"Avesta"ya görə, "qadınsız həyatda sevinc və səadət də yoxdur!" Zərdüşt elmlə məşğul olan insanı ən yüksək zirvədə görürdü: "Alimlər həyatın yolgöstərənidir, – deyirdi. – Hər bir insan yaxşı nitqə, yaxşı düşünməyə və yaxşı hərəkətlər etməyə borcludur". Zərdüşt fəlsəfəsində tərbiyə insan üçün lazım bilinən ən mühüm həyati tələbat kimi nəzərdə tutulur və cəmiyyətin tərbiyəyə möhtac olduğu göstərilir. Ailədə kişi güclü, qayğıkeş, əməksevər, qadın isə tam ixtiyarlı sahibə olmalıdır.

Müqəddəs Qurani-Şərifə görə, Allah Həzrət Adəmi Yer üzərində canişini olaraq yaratmışdı və Adəmin zövcəsi – həyat yoldaşı olaraq Həzrət Həvvanı xəlq eləmişdi. Deməк, qadın yaradılışı baxımından kişi ilə cüt yaradılmışdır. Onların bu cütlüyü ilk ailəni əmələ gətirmişdir. Dini hədislərdən belə nəticə çıxarmaq olur ki, insan bir vahid nəfsdən yaradılmış, Allahın izni ilə iki budağa bölünmüşdür. Biri kişi (Adəm) və o biri qadın (Həvva) simasında.

Allahın bu sevimli bəndələrinin qapısı şər əməllərə bağlı olan könül dünyaları göy üzü kimi təmiz, bulaq suyu kimi saf və dumduru idi. O zamanlar Yer üzündə nə Naxçıvan vardı, nə Təbriz inşa olunmuşdu, nə Bakı... Hələ xarı bülbül möcüzəsi ilə dünyanı heyrətə gətirən cənnət Qarabağ da yox idi... Təkcə adına BEHİŞT deyilən bir ALƏM əbədi sakitliyə, dincliyə və yaşıllıqlar içində gül-çiçəyə qərq olmuşdu. Əgər sədd və sərhəd deyilən bir anlayış vardısa, o da Cənnətlə Cəhənnəmin arasındaydı.

Yer üzündə binə quran Allah bəndələri istədikləri vaxt göyün yeddi qatına pənah aparırdılar. Və əgər, necə deyərlər, xəmirləri eyni torpağın gilindən yoğrulmuş Adəm və Həvva İblisin təkidiylə qadağan olunmuş Cənnət almasının dadına baxıb oradan qovulmasaydılar, insanlar yalnız Cənnət sakini olardılar. O zaman insan oğlu nəfsinə hakim olub nə torpaq sevdasına düşərdi, nə də Cəhənnəm əzabı qədər münaqişələrin qurbanına çevrilərdi.

...Başqa dini rəvayətlərin birində nəql olunur ki, Allah insanların günahını yumaq üçün Yer üzünü suya qərq edəndə, yalnız Nuh peyğəmbərin gəmisinə götürdüyü canlılara nicat verib. Bu günə kimi Naxçıvanın bir adının "Nuh çıxan" sözündən yarandığını söyləyən tədqiqatçılar var.

Naxçıvanda qədim Gəmiqaya rəsmləri də tufandan nicat tapmış insanlara sanki Ulu Tanrının buyurduqlarını əks etdirir: "Mən sizi yaratdım. Sizə ağıl, istedad və gözəllik verdim. Bundan sonra bəxş etdiyim ömür payınızı insan kimi yaşayın! Mənim Uca Səltənətimi – ucsuz-bucaqsız Kainatımı düz əməllərinizlə şərəfləndirin. Bir-birinizə qarşı mehriban olun!"

...İnsanlığın baharı – YAZ, NOVRUZ bayramı, təzə gün səhnəsi Azərbaycandakı Gəmiqaya və Qobustan qayaüstü rəsmlərində əks olunan obrazlar dünyaya qədim insanın ismarıcı – sülh devizidir.

Ulu öndər Heydər Əliyev vaxtilə Gəmiqaya və Qobustan qayaüstü rəsmlərini həm Azərbaycan xalqına, həm də dünyaya göstərməyi tövsiyə etmişdir. Onun siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın tarixi və mədəni sərvətlərin qorunması ilə bağlı fəaliyyətləri də müstəqil

Azərbaycanın tarixi keçmişinin, o cümlədən adını çəkdiyimiz məkanların daha geniş və dərin elmi əsaslarla öyrənilməsinə şərait yaradır.

Tarixdən keçmişin səsi gəlir, ruhu boylanır. Tarixi şəxsiyyətlərin, görkəmli adamların əzəməti, mənəvi ucalığı göz önündə canlanır. Keçmişin ənənələrinə dayanıb bugündən gələcəyə doğru istiqamətlənən tarix ANİ vaxt axını deyil. Əsl tarix böyük şəxsiyyətləri obraz kimi seçir, öz tarixi hadisələrini onların adında, fəaliyyətində ifadə edir.

Bəli, qərinələr ötüb keçəcək. Allahın bəxş etdiyi ömür payını UCA tutan, boya-başa çatdıqları yurdu öz əməlləri ilə şərəfləndirən vətənin tarixinə adları qızıl hərflərlə yazılmış iki görkəmli İNSANın – Heydər Əliyev və Zərifə Əliyevanın tale yollarından bəhs edən HEYDƏR və ZƏRİFƏ dastanı da davam edəcək! Bu, bir əbədiyyət dastanıdır.

Bu kitab Azərbaycana işıq saçan Əliyevlər ocağının nəcib və xeyirxah anası, xalqımızın sevimlisi, dünya şöhrətli görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın mənalı ömür yolundan bəhs edir. Zərifə xanım Azərbaycanın görkəmli dövlət xadimi Əziz Əliyevin qızı, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin – Ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı, Azərbaycan Respublikasının 4-cü Prezidenti İlham Əliyevin anası olub.

Beləliklə, bu kitabın əsas qəhrəmanı öz adı ətrafında təkcə bir şəxsiyyətin TALE yollarını, elmi fəaliyyətini, insani keyfiyyətlərini deyil, Azərbaycanın XX əsr və ən yeni tarixinin bütöv və parlaq mənzərəsini, eləcə də tarixi simalarını canlandırır.

Gözəl ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq alim Zərifə xanım Əliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti ilə daha yaxından tanış olduqca, haqqında xatirələri oxuduqca yaddaşımızda Ulu Tanrının bu ən yüksək mənəvi xüsusiyyətləri bəxş etdiyi böyük insanın obrazı canlanır, gözlərimiz önündə onun portreti yaranır.

Zərifə xanım Əliyeva elə insan idi ki, bir dəfə ünsiyyətdə olanlar onu ömrü boyu unuda bilmirdilər. Bu böyük şəxsiyyət elə ilk andan onunla ünsiyyətdə olanların yaddaşında yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəssəməsi kimi əbədi qalırdı. Onun insanlara məhəbbəti qeyri-adi dərəcədə hüdudsuz idi. O, Azərbaycanın alim anası, nurlu şəxsiyyət idi. Sağlığında müasirləri bu bəstəboy, gülərüz xanımın zirəkliyinə, qeyri-adi mənəvi enerjisinə, iri gözlərinin işığına, nikbinliyinə, aşıb-daşan həyat eşqinə valeh olmuşdular.

Zərifə Əliyevanın adı bu gün də Azərbaycanda böyük fəxrlə, sonsuz qürur hissi ilə səslənir. Ölkəmizdə ana adının ucalığı, ömür-gün yoldaşının sədaqəti, nurlu həkimliyin müqəddəsliyi onun adı ilə əbədiləşir. O, tibb elmimizin zirvəsində parlayan əbədiyyət günəşi kimi işıq saçır.

Həyatını insanların gözünə işıq verməyə həsr edən, işığa, xeyirə, dostluğa və sülhə xidmət edən akademik Zərifə Əliyeva xalqımız üçün çox dəyərlidir. Gözlərə və könüllərə işıq paylayan bir şəxsiyyətin xatirəsi hər kəs üçün əzizdir.

İngilis yazıçısı Cefris kamil qadın dünyasından bəhs edərkən yazırdı: **"Kamil qadın 150 ildə bir dəfə dünyaya gəlir".** Gözəllik – qeyri-adi işığı ilə hamını cəlb edən sima, yüksək intellekt, bədii istedad, ali zəka, evdarlıq

səliqə-sahmanı, fövqəladə analıq duyğusu, xoş xasiyyət və s. bu kimi dəyərli keyfiyyətlərin vəhdətini nadir halda bir qadının şəxsində görmək olur. Zərifə xanım Əliyeva bu keyfiyyətlərin hamısını məharətlə öz varlığında cəmləşdirmişdi. Bu gözəl qadın və sevimli ana öz müasirlərini həm çöhrəsinin nuru, həm də sənətinin işığı ilə əfsunlayırdı. Yüksək intellekti, kübarlığı, milli dəyərlərə sədaqəti, möhkəm, güclü xarakteri də bu işığa əlavə rəng çaları qatırdı.

...İnanıram ki, yazıçı-dramaturq Hüseynbala Mirələmovun bu dəyərli kitabı Azərbaycan tarixinin son yarıməsrlik tarixinin öyrənilməsində təkcə tədqiqatçılar üçün deyil, oxucular üçün də son dərəcə qiymətli məxəzlərdən olacaqdır.

*İsa Həbibbəyli,*
*Akademik, AMEA-nın vitse-prezidenti,*
*Milli Məclisin komitə sədri*

## Birinci fəsil

# "BALA İSTANBUL"DAN BAŞLANAN YOL

*Ay gecənin üzünü ağartdığı kimi,*
*ismətli qadın da ərinin başını ucaldır.*
*Nizami Gəncəvi*

...Zərifə xanım dünyaya göz açanda – 28 aprel 1923-cü ildə Azərbaycanda Aprel sosialist inqilabının üçüncü ildönümü qeyd olunurdu (Bunu rəmzi təsadüf kimi də yozmaq olar!). Zəmanə adamlarından kimlərsə inqilabi əhvali-ruhiyyədə mahnılar oxuya-oxuya şənlənir, kimlərsə də əlləri qoynunda, göz yaşı içində hüznlü ağılar deyirdi:

*Arazı ayırdılar,*
*Qan ilə doyurdular.*
*Mən səndən ayrılmazdım,*
*Zülm ilə ayırdılar.*

...Bəli, Zərifə xanımın dünyaya gəlişindən üç il əvvəl Arazın suları günahsız insanların qanına boyanmışdı. 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan

xalqının dövlətçilik tarixində xüsusi yeri olan Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan düz üç il keçirdi. Qardaşı Tamerlanın və Zərifə xanımın anadan olduğu Şahtaxtı kəndi dərddən beli bükülmüş söyüdlərə təsəlli verirmiş kimi onların salxım saçlarını qırçın ləpələri ilə darayan Xan Arazın qonşuluğunda yerləşirdi...

O zaman bu kənd neçə-neçə qanlı ölüm səhnəsinin, zorakılığın şahidi olmuşdu. Araz çayına doğru uzanan Qıvraq yaylasının yamacındakı Şahbağı insanların ürəkparçalayan fəryadlarından baharın gəlişini heç duymamışdı sanki. Gecədən sübhə qədər yağan aprel leysanı yolda-rizdə xırda gölməçələr əmələ gətirmişdi.

Yaz günəşinin isitdiyi torpaqdan, havadan, sudan hələ də barıt qoxusu gəlirdi. Tale Zərifə xanımın valideynlərini Novruz bayramı ərəfəsində doğma dədə-baba ocağından, Şah İsmayıl Xətainin vəziri Rəvanqulu xanın tikdirdiyi İrəvan şəhərindən didərgin salıb qədim Naxçıvanın Şahtaxtı kəndinə gətirmişdi. Ailənin, demək olar ki, bütün var-dövləti, əmlakı əlindən çıxmışdı. Onların ev-eşiklərini qəddar erməni daşnakları qarət edib, sonra od vurub yandırmışdılar.

...Çar Rusiyasının süqutundan sonra bolşevik qiyafəsində peyda olan daşnaklar qədim Azərbaycan torpaqlarında qanlı cinayətlər törədirdilər. Quldur dəstələri təkcə İrəvan quberniyasında müsəlmanlar yaşayan iki yüzdən çox kəndi yandırıb külünü göyə sovurmuşdular.

Zərifə xanımın valideynləri İrəvandakı daşnak zülmündən baş götürüb Naxçıvana pənah gətirsələr də, ilk günlər burada da rahatlıq tapa bilmirdilər.

1918-ci ildə daşnak Andronik Ozanyanın başçılıq etdiyi quldur dəstələrinin Azərbaycanın şəhər və kəndlərinə hücumları ara vermirdi. İrəvandan, Zəngibasardan, Zəngəzurdan, Göyçə mahalından sonra növbəti hədəf qə-

dim Naxçıvan elləri oldu. Buradan ailənin ikinci qaçqınlıq həyatı başlandı. Şahtaxtı işğala məruz qalanda Əziz Əliyevin ailəsi məcburiyyət qarşısında qalıb, bütün kənd əhli kimi, Araz çayının o biri tayına keçdi və Cənubi Azərbaycanın Ərəblər kəndində məskunlaşdı.

Məşəqqətli didərginlik həyatı 1920-ci ildə ailənin başçısı – Əziz həkimin anası Zəhra xanımın ömrünə son qoydu. Bəy nəslindən olan bu xanım-xatın qadın Ərəblər kəndində dünyasını dəyişəndə heç qırx yaşı da yox idi...

Bir müddətdən sonra Naxçıvan daşnak quldurlarından təmizləndi. Əziz Əliyevin ailəsi yenə Şahtaxtıya döndü. Artıq bolşevikləşmiş qırmızı Rusiya Azərbaycanın halal dədə-baba torpaqlarını – İrəvanı, Zəngəzuru, Göyçəni, Dərələyəzi, Qaraqoyunlu mahallarını yaratdığı Ermənistan adlı yeni dövlətin tərkibinə qatmışdı.

Oğlu Tamerlanı, qızı Zərifəni Şahtaxtı kəndində dünyaya gətirən Leyla xanım özü də İrəvan xanlarının nəslindən olan əsilli-nəcabətli bir qadın idi. Atası Hacı Cabbar İrəvanda manufaktura sahibi olmuş, 1913-cü ildə vəfat etmişdi. Leyla xanımın nə qardaşı vardı, nə də bacısı.

Böyük qızları Ləzifə və Dilbərə baxanda həmişə Leyla xanımın gözlərinin önündə İrəvandakı 1918-ci ilin dəhşətli mart qırğınları canlanırdı. Axı Ləzifə də, Dilbər də İrəvanda dünyaya göz açmışdılar. O dəhşətli mart qırğınlarını gözləri ilə görmüş bu qızların və onların həmyaşıdlarının uşaq yaddaşına erməni vəhşiliyi əbədi həkk olunmuşdu...

Daşnakların amansızlıqla qətlə yetirdiyi uşaqların, qocaların meyitləri ilə doldurulmuş çalalar, quyular bəzən yuxularına girirdi.

Zərifənin dünyaya gəldiyi o aprel günü Leyla xanım öz övladlarına xoşbəxt, dinc, qorxusuz-hürküsüz həyat arzulayaraq ömür-gün yoldaşı Əziz həkimin yorğun çöh-

rəsinə baxırdı. Son günlərəcən o, həkim köməkçisi kimi həm Arazın o tayındakı Ərəblər kəndində, həm də Şahtaxtıda xəstələrə yardım göstərirdi. Şahtaxtı ilə Ərəblər kəndinin arası iki-üç kilometr olardı. Hər iki kənddə onu sevir, "həkim" deyə çağırırdılar. Biri Cənubi, digəri Şimali Azərbaycana aid olan hər iki kənd onun üçün doğma idi. Arazın iki yerə ayırdığı o taydakı torpaqda anası uyuyurdu.

Aprelin son günlərində dünyaya göz açmış körpə Zərifəyə Leyla xanım layla çalanda Əziz həkim özünün analı çağlarını xatırlayırdı. Anası Zəhra xanım İrəvan quberniyasının adlı-sanlı adamlarından olan İbrahim bəy Süleymanbəyovun böyük qızı idi. Zəhra xanımın anası İrəvan zadəganlarından Mirzə Cabbar Qazıyevin nəslindən idi.

1890-cı ildə Əzizin atası Məmmədkərim qoçaqlıq edib, onu bağda gəzərkən atının tərkinə alıb qaçırmışdı. Oğlanın qohum-əqrəbası o gün təlaş içindəydi. Gözəl, geyim-kecimli xanım-xatın qızı görəndə onun bəy qızı olduğunu anlamışdılar.

Sanki ahu ceyran qəfildən mahir ovçunun kəməndinə düşmüşdü. Atası İbrahim bəy qızının qaçırılmasından xəbər tutan kimi arxasınca jandarm göndərmişdi. Əzizin babası Kərbəlayı Qurbanəli kişi çox tədbirli və ağıllı tərpənərək, Zəhra xanımı öyrədir ki, jandarma özünün bura xoşluqla gəldiyini söyləsin! Beləliklə, Əzizin anası atasını Sibirə sürgündən qurtarır.

Amma İbrahim bəy kürəkəni ilə küsülü qalır.

Və 1897-ci ilin 1 yanvar günü Əziz dünyaya gəlir. Əzizin tərbiyəsi, təhsili ilə Zəhra xanım özü məşğul olurdu. Oğlunu həyata hazırlayan ilk müəllimi olmuşdu. Əzizin də elmə, təhsilə həvəsi hədsiz idi.

Onların yaşadıqları İrəvan quberniyasının Hamamlı kəndinə el arasında "Bala İstanbul" deyərdilər. Qədim-

dən azərbaycanlıların yaşadığı bu kənddə hamı bir-birinə qohum-əqrəba sayılırdı... Anaya, qadına, ağsaqqala böyük hörmət-izzət vardı.

Əziz Əliyevin atası Məmmədkərim Kərbəlayı Qurbanəli oğlu camaat arasında hörmətli ağsaqqallardan olmuşdu. Əziz də uşaq ikən bu kəndin kişilərinə "əmi", "dayı", qadınlarına "xala", "bibi" demişdi. Nənələrin bişirdiyi isti təndir çörəyinin ətri həmişə burnunda idi. Novruz bayramında o da tay-tuşlarına qoşulub qonum-qonşu qapısına qurşaq atmışdı.

Əzizin əmisi övladlarından olan, vaxtilə İrəvan quberniyasının Əştərək rayonundakı Uşi kəndində yaşayan Oruc kişinin söylədiyinə görə, Məmmədkərim kişinin Hamamlıda iyirmi hektardan artıq üç pay torpaq sahəsi, İrəvanın Dəlmə bağları adlanan yerində üzüm, tut, ərik bağları var idi.

Əziz dünyaya gələndən bir il sonra – 1898-ci ildə atası İrəvan quberniyasının Üçkilsə (Üçmüəzzin – indi oranın adını Eçmiədzin ediblər, dünya ermənilərinin katolikosu burada oturur) kəndinə kəndxuda təyin olunmuşdu. Əslində, bu kənd ona ailənin dolanışığı üçün Əzizin babası İbrahim bəy Süleymanbəyov tərəfindən bağışlanmışdı. Buna baxmayaraq, 1905-ci ildə – Əzizin səkkiz yaşı olanda ailəsi İrəvana – adına Təpəbaşı deyilən məşhur məhəlləyə köçmüşdü.

Əziz əvvəlcə İrəvandakı rus-tatar (Azərbaycan) məktəbində ibtidai təhsil almışdı. Görkəmli tədqiqatçı alim Əziz Şərif yazır ki, o zaman azərbaycanlı uşaqları gimnaziyaya hazırlamaq üçün İrəvanda iki pansionat vardı. Bunların birini müəllim Cəfər bəy Cəfərov, ikincisini İbadulla bəy Muğanlinski ilə Cabbar bəy Məmmədov saxlayırdı. Ədəbiyyatşünas professor Əsgər Zeynalovun "İrəvan xanlığı... gerçəkliyin aydınlığı" *(Bakı, "Mütərcim",*

*2016)* kitabında göstərilir ki, Əziz Əliyev ilk təhsilini İbadulla bəy Muğanlinskinin pansionatında almışdı. Ona pansionatda Fars Abbasın oğlu, gələcəyin dilçi-alimi Cabbar Məmmədzadə dərs demişdi. Burada onlar ərəb, fars, rus dilləri ilə yanaşı, fransız dilini də öyrənirdilər.

Əziz Əliyev 1908-ci ildə İrəvan şəhər gimnaziyasına daxil olmuş, təhsilini əla qiymətlərlə davam etdirmişdi. Buna görə onu təhsil haqqı ödəməkdən azad etmişdilər.

İki il sonra İrəvan gimnaziyasını qızıl medalla bitirdiyi gün Əzizin anası Zəhra xanımın sevinci, fərəhi köksünə sığmırdı. Düşünürdü ki, oğlunun çətin günləri daha keçmişdə qaldı. O, Əzizi el-obasına, vətəninə gərəkli olmağa ruhlandırırdı, oğlunun arzularına qol-qanad verirdi.

Bütün uşaqlar kimi, Əziz də anasını müqəddəs varlıq kimi sevirdi. 1917-ci ildə nəinki Rusiyanın, hətta dünyanın ən mötəbər təhsil ocaqlarının birində – Peterburq Hərbi Tibb Akademiyasında təhsil almağa yola düşəndə anası arxasınca su atıb ona xeyir-dua diləmişdi. Lakin...

Bu barədə kitabımızın Əziz Əliyevin ömür yoluna işıq salan "Əvəzsiz insan" fəslində bəhs edəcəyik.

Deyirlər, hər bir insan dünyaya gələndə Ulu Tanrı onun taleyini, ömür payını qabaqcadan verir. Amma zəmanənin acı rüzgarları ömür adlı o gözəl nemətə bəzən elə acı zəhər qatır, elə ağlagəlməz faciələrin dəhşətli burulğanına salır ki, işıqlı günləri zülmət qaranlığa bürünür.

Bir çox azərbaycanlı – müsəlman ailələri kimi, Əzizgilin ailəsinin də Novruz bayramı qabağı İrəvanda – Təpəbaşı məhəlləsində gördüyü son dəhşətli hadisələr, erməni təcavüzü qurub-yaratmaq eşqi ilə yaşayan Əzizin və həmyaşıdlarının ömür kitablarına yazılan ən acı səhifələr idi.

Azərbaycanın hər yerində olduğu kimi, "Bala İstanbul"da (Hamamlıda) da hamı Novruzun gəlişini səbirsizliklə gözləyirdi. Bu bayram təntənə ilə qeyd olunurdu.

Hamının üst-başı təzələnirdi. Ən imkansız ailənin də ocağında qazan asılırdı, aş dəmlənirdi, bayram çörəkləri və şirniyyatları bişirilirdi.

Amma 1918-ci ilin yazı da, Novruz bayramı da əvvəlkilərə heç bənzəmirdi. Vaxtilə Türkiyədən, İrandan İrəvana köçürülmüş və buradan Azərbaycanın bir çox bölgələrinə səpələnmiş erməni ailələri yerli azərbaycanlıların əziz Novruz bayramını qara gətirmişdilər. Güllləni qənimət bilən daşnak quldurları hamilə qadınları, ahılları, uşaqları işgəncələrlə qətlə yetirirdilər. Müsəlman türklərini ailəlikcə diri-diri quyulara töküb, üstünü daşla dolduran gözüqanlı erməniləri, elə bil, dünyaya gətirən ana deyildi...

Deyirlər, dünyada kişilər qanunları, qadınlarsa əxlaqı yaradır. Bəs qaynar samovarı günahsız azərbaycanlı ANAnın kürəyinə bağlayan, onun gözlərinin qarşısında körpə uşaqlarının başını kəsib insanlığa zidd vəhşiliklər törədən Andronikin anası, görəsən, ona necə əxlaq öyrətmişdi?

"Революционный Восток" jurnalındakı məqaləsində *(1936, № 2-3, c.92-93)* o qanlı hadisələrdən bəhs edərək "Daşnak dəstələri türk qadınlarının və uşaqlarının, qocaların və xəstələrin qarşısında maksimum cəsarət nümayiş etdirirdilər. Daşnak dəstələrinin tutduqları türk kəndləri canlı insanlardan təmizlənib, eybəcər hala salınmış qurbanları ilə birlikdə xarabalığa çevrilib" yazan erməni tarixçilərindən A.Lalayan Vahram adlı daşnak quduzunun dilindən azərbaycanlılara qarşı törədilmiş amansızlıqları belə təsvir edir: "Mən Basarkeçərdə heç nəyi nəzərə almadan türk əhalisini qırdım. Ancaq bəzən gülləyə heyfim gəlirdi. Bu itlərə qarşı ən yaxşı üsul odur ki, döyüşdən sonra salamat qalanların hamısını su quyusuna doldurub üstünə ağır daşlar tökəsən. Belə də etdim: bütün kişiləri,

qadınları, uşaqları quyuya doldurub üstünə ağır daşlar tökdüm".

Aradan uzun illər ötüb keçəcək: 80-90 il sonra Azərbaycan ərazisində 1918-1920-ci illərdə daşnak vəhşiliyinin nişanəsi olan çoxlu kütləvi məzarlıqlar aşkarlanacaq. Torpağın köksündə gizli saxlanılan məzarlıqlar toplusunu tarix bir-bir üzə çıxaracaq.

Hələliksə o müdhiş hadisələrin üstündən vur-tut beş il keçmişdi. Artıq İrəvanın baharı beş il idi ki, Əzizsiz ötüşürdü. Beş il əvvəl atası Məmmədkərim Kərbəlayı Qurbanəli oğlu dünyasını dəyişmişdi. Ondan iki il sonra isə anası Zəhra xanım İbrahim bəy qızı vəfat etmişdi.

Rus-tatar məktəbində, İrəvan gimnaziyasında təhsil aldığı zaman dünyəvi elmlərlə yanaşı, şəriət və din dərslərini də əla öyrənmişdi. Bilirdi ki, Məhəmməd peyğəmbərin sevimli qızı Zəhra da çox qısa ömür sürüb. Amma o qısa ömründə zəmanəsinin ən müdrik qadını, həya və ismət rəmzi, qayğıkeş ailə başçısı, İslam əxlaqının qoruyucusu və təbliğatçısı olmuşdu.

Bəlkə, bu adı – peyğəmbər qızının adını daşıdığına görə Zəhra xanım həmişə övladlarına xeyirxah, xoşrəftar, qayğıkeş olmağı, insanlara sevgi bəsləməyi tövsiyə edərdi?

Bəlkə, insanların taleyində, fəaliyyətində daşıdığı adın rolu olur?

Aminə, Xədicə, Kübra, Zəhra, Ümmügülsüm, Zeynəb, Fatimə, Tomris, Nüşabə, Nigar, Həcər, Sara, Məryəm və sadalamaqla bitməyən gözəl qadın adlarının işığında yaxşı əməlləri ilə xatırlanan o qədər şərqli, azərbaycanlı xanımlar var ki!.. Onların hər birinin zəkasından, xeyirxahlığından, nəcibliyindən, sadəliyindən, xoşrəftarlığından, qoçaqlığından, vəfasından saatlarla söbət açmaq olar!

Amma qoca tarix heyrətamiz qəddarlıqlar törətmiş məşhur qadınları da xatırlayır. Fransa tarixində ən qanlı bazar günlərindən birinin təşkilatçısı Yekaterina Mediçi (1519-1589) katoliklərlə protestantlar arasında qanlı "Varfolomey gecəsi"nin əsas təşəbbüskarı olmuşdu. İspaniya kraliçası İzabella Kastilskayanın (1451-1504) əmri ilə qeyri-xaçpərəstlər tonqalda yandırılırdılar.

İngilis kralı VIII Henrinin (1491-1547) və onun birinci xanımının qızı kraliça I Mariyanı (1516-1558) günahsız adamları qətlə yetirdiyinə görə xalq Qanlı Mariya adlandırırdı. Dünyanın ən qəddar qadını kimi tarixə düşən rus mülkədar qadını Darya Nikolayevna Saltıkova (1730-1801) 139 kəndlisini öldürtdürmüşdü. Öldürülənlərin çoxu isə ...qadınlar və qızlar idi.

19 il zindanda saxlandıqdan sonra edam edilən Şotlandiya kraliçası Mariya Stüart (1542-1587), İngiltərə hökmdarı Mariya Tüdor (1516-1558), Macarıstan qrafinyası Erjebet Batoriy (1560-1614), Rusiyada 34 il hökmranlıq edən və zülmkarlığın canlı mücəssəməsi sayılan II Yekaterina (1729-1796) və onlarca başqaları qızıldan taxt-tac sahibi olsalar da, analıq və qadınlıq taxtını fəth edə bilməmişlər...

Amma qəlbi azadlıq eşqi ilə alovlanan Janna d'Ark (1412-1431), sürgün həyatına məhkum edilmiş dekabrist ərlərinin arxasınca Sibirə yollanan cəfakeş rus qadınları, rus şeirinin günəşi A.S.Puşkinin (1799-1837) nənəsi Mariya Hannibal (1745-1818), əri Fətəli xana sədaqətin, vəfanın gücü ilə qılınca sarılıb Dərbənd taxt-tacını qoruyan Tuti Bikə (?-1786) və çoxları bu mənəvi ucalığı – qadınlıq taxt-tacını fəth etmişlər.

Xalq qəhrəmanı Koroğlunun ömür yoldaşı Nigar xanımın neçə il yaşadığı məlum deyil, məlum olan odur ki, övladı olmasa da, mərd təbiəti, ismətli rəftarı

ilə neçə-neçə igidin anası kimi bu xanımın adı dillərdə dastandır.

Son tikəsini ehtiyacı olanlarla bölən Zəhra xanıma da Allah geniş ürək, ali qadınlıq məqamı, müqəddəs analıq dəyəri bəxş eləmişdi. Kim bilir, bəlkə, elə Zəhra xanım kimi Azərbaycan analarının öz övladlarını xeyirxah ruhda, humanizm əxlaqında, dünyaya və insanlara səmimiyyət hissi ilə tərbiyə etməsinin nəticəsi idi ki, onların çoxu buvaxtacan yaxın qonşu bildikləri erməni fitnəsinin qurbanı olurdu.

O, qadınlıq qürurunu uca tutan, bir elin şirinli-acılı xatirələrini köksündə yaşadan, mənsub olduğu xalqın abır-həya, əxlaq etalonu sayılan bir Azərbaycan qadını idi. Erməni zülmündən qaçıb Arazın o tayına pənah aparandan sonra Zəhra xanımın sinəsi doğma yurd, ocaq həsrəti ilə çalın-çarpaz dağlanmışdı. Ana qəlbi düşmən qəddarlığına tab gətirməmişdi.

Onların Şahtaxtıda dünyaya göz açan övladlarına nə babaları Məmmədkərim Kərbəlayı Qurbanəli oğlunun İrəvan yaxınlığındakı Hamamlı kəndindəki mülkünü, nə də ulu babaları, məşhur İrəvan əsilzadələrindən olan İbrahim bəy Süleymanbəyovun İrəvandakı imarətini görmək nəsib oldu. O gözəl yurdlar 1918-ci ildə erməni-daşnak başkəsənləri tərəfindən qəsb olunaraq dağıdılıb. O torpaqların özü qədər gözəl olan sakinləri dədə-baba yurdlarından didərgin düşüblər və bir daha doğma ocaqlarına qayıda bilməyiblər.

Dünya yaranandan bəri bəşəriyyətin ən böyük nailiyyəti ailənin yaranması, uşaqların dünyaya gəlməsidir. Azərbaycan ailələrində dünyaya göz açan körpələrə anaların, nənələrin laylalarında gözütoxluq, insaflı, ədalətli davranmaq, özgə malına tamah salmamaq kimi ali duyğular aşılanır. Analarımızın laylaları, sinədəftər nənələri-

mizin bayatıları, oxşamaları ailə əxlaqını formalaşdıran şifahi məramnamələr, kitabələrdir.

*Lay-lay, beşiyim, lay-lay,*
*Evim-eşiyim, lay-lay.*
*Sen get şirin yuxuya,*
*Çəkim keşiyin, lay-lay.*

* * *

*Lay-lay dedim yatasan,*
*Qızılgülə batasan.*
*Qızılgülün içində*
*Şirin yuxu tapasan.*

* * *

*Balama can demişəm,*
*Ağlama, can demişəm.*
*Balam dil açan günə*
*Quzu qurban demişəm.*

Ağbirçək nənələr "Oğul dirəkdir, qız ürəkdir" deyirlər. "Yaxşı övlad behiştin güllərindən biridir", – bunu Əziz həkim də, Leyla xanım da el-obanın böyüklərindən eşitmişdilər: "Qız bir dəstə güldür, ruzusu Allahdandır".

Zərifənin dünyaya göz açdığı o aprel günü Əziz həkimi – 26 yaşlı qayğıkeş ailə başçısını xəyal qoynuna alıb çox uzaqlara aparmışdı...

Düşünürdü ki, Yer üzündəki bütün insanların hamısı Tanrının bəndəsidir. Ona görə də dünyaya göz açan körpə uşaq nə valideynini, nə vətənini özü seçir, bu seçim Tanrıya məxsusdur. Fəqət, Yaradanın bu seçiminə qarşı çıxan, təbiətin və cəmiyyətin qanunlarını pozanlar, acgözlüklə, hərisliklə "bura mənimdir!" deyib qan tökənlər,

dilsiz-ağızsız körpələri qətlə yetirənlər bəşər övladı, Tanrı bəndəsi cərgəsinə necə daxil ola bilərlər?

Dünyanın ən zərif məxluqu sayılan anaların isti qucağında qızılgül ətirli nəfəsiylə ev-eşiyə sevinc gətirən çocuqlara qıyıb, onları beşik-bələkdə boğanlara necə insan demək olar?!

Cəngəlliklərdə yaşayan ən vəhşi heyvanlar belə körpə uşağa toxunmurlar, hətta onlara döşlərindən süd verib bəsləyən şirlər, canavarlar barədə onlarca maraqlı faktlar var təbiət aləmində...

Məgər bəşəriyyətin ölməz dühaları öz ağıllı məsləhətləri və müdrik tövsiyələri, hikmətli kəlamları ilə insanları tərbiyələndirmək üçün azmı əsərlər yazıb-yaratmışlar? Bəs insan övladı bu əsərlərdəki ali həqiqətləri niyə öyrənmək istəmir?! Niyə öz həyatını bəşəri dəyərlərə uyğun qurmur?! Niyə dünyada bu qədər gözəlliklər varkən qan tökür, dünyanı vəhşətə bürüyür, pisliklərə qucaq açır?!

Güllü-çiçəkli bahar ətirli o aprel günü zərif üzü balaca günəş kimi nur saçan qızının adını Zərifə qoyacağına qərar vermiş Əziz həkimi düşüncələr qoynundan eşitdiyi həzin mahnı səsi ayırdı. Kimsə uzaqlarda "Sarı gəlin"i oxuyurdu...

Bulaq suyu kimi büllur səs yanğılı, həzin kədər notları üzərində köklənmişdi. Haradasa cavan bir oğlan lap Kərəm kimi eşq oduna yanıb-qovrulurdu. "Səni mənə verməzlər" deyib Şahtaxtıdan dünyaya nalə çəkə-çəkə dərdini izhar edirdi. Yamyaşıl bahar nəğməli yamacdan süzülüb Araz adlı ümmana qovuşan səs gah zildən bəmə enir, gah da bəmdən zilə qalxırdı.

Şahtaxtı Naxçıvanı dünyaya tanıdan böyük sənətkarların, görkəmli şəxsiyyətlərin ünvanı olan kiçik Azərbaycan kəndi idi. Bura qədim zamanlarda Naxçıvanın iri tayfa ittifaqlarından birinin mərkəzi olmuşdu. Azərbaycanın

tibb sahəsində xaricdə təhsil almış ilk qadın professoru Adilə Şahtaxtinskaya (1894-1951), Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin həqiqi üzvü, ictimai xadim Məhəmməd ağa Şahtaxtlı (1846-1931), akademik Həbibulla Şahtaxtinski (1900-1986), hərbçi, çar ordusunun polkovniki Əbülfət Şahtaxtinski (1858-1912), Moskva və Qars müqavilələrinin bağlanmasında müstəsna xidmətləri olan diplomat Behbud ağa Şahtaxtinski (1881-1924), Leyla Şahtaxtinskaya (1886-1907), Zəhra Şahtaxtinskaya (1895-1977), Xalq Rəssamı Elmira Şahtaxtinskaya (1930-1996) kimi tanınmış simaları bu kəndin sorağını dünyaya yaymışlar. İrəvanda, Qarabağda, Bakıda, Tiflisdə, Qarsda dünyaya gələn məşhur Şahtaxtinskilərin çoxunun soykökü bu kəndlə bağlıdır.

Zərifə Əziz qızı Əliyeva da Şahtaxtıda dünyaya gəlmişdi. Bürcü Buğa bürcü idi. Bu bürc altında doğulanlar yüksək qabiliyyətləri və əməksevərlikləri ilə diqqəti cəlb edirlər. Güclü yaddaş, özünəinam, dəqiqlik, hədsiz təmkin onların ən mühüm keyfiyyətlərindən hesab olunur. Bu bürc altında doğulanlar həm də çox hissiyyatlıdırlar.

Buğa bürcündən olan şəxs öz yaradıcılığı sayəsində başqalarına da dünyaya öz prizmasından yanaşmağı öyrədə bilər. Bu bürc altında doğulmuş insan başqalarına böyük sevgi bəsləyir. Gəzdikcə, qulaq asdıqca, danışdıqca onun daxildən gələn hisslərini görə bilərsiniz. Bu zaman əmin olursan ki, o, həqiqətən də, yaşayır.

Hələ qədimlərdə bu bürc altında dünyaya gələnləri hakimiyyətə iddialı hesab edirdilər (II Yekaterina, II Nikolay, Karl Marks, Mustafa Kamal Atatürk, Vladimir İliç Lenin, Heydər Əliyev, Ayaz Mütəllibov, Səddam Hüseyn və b.). Belə ki, daha çox rəhbər vəzifələrdə çalışan Buğa bürcü altında doğulmuşlar digərlərinə nisbətən idarəetmə funksiyasını mükəmməl bilirlər.

Deyilənə görə, həkimlərin adına and içdikləri Qədim Yunanıstanın məşhur həkimi Hippokrat iddia edirmiş ki, “astrologiyanı bilməyən həkim düzgün diaqnoz qoya bilməz və xəstələri tamamilə müalicə etmək üçün istedadı yetməz... Dünyada hər şey vahid inkişaf qanununa tabedir”.

Zərifə xanım doğulandan bir ay sonra – 1923-cü ilin mayında Əziz Əliyevin ailəsi Bakıya köçdü və sonrakı taleyini bu böyük şəhərlə bağladı.

Şahtaxtı kəndində Buğa bürcü altında dünyaya gələn Zərifə xanıma tale şahlıq taxtına çıxmağı nəsib etməsə də, bu qismət onun gələcək ömür-gün yoldaşının və oğlunun taleyinə yazıldı.

Tale Əziz Əliyevin qızı Zərifəni ailəsinə və Azərbaycana təsadüfən nəsib etməmişdi. O da, atası kimi, ömrünü vətənə həsr edəcəkdi. Bu barədə hekayətimizin ardında danışacağıq...

## İkinci fəsil

# "HEYDƏR VƏ ZƏRİFƏ" DASTANININ ƏVVƏLİ

*Günəşdən gənclik istədim,*
*Dənizdən coşqun həvəs.*
*Meşədən dinclik istədim,*
*Küləkdən ılıq nəfəs.*
*Güllərdən ətir istədim,*
*Quşlardan iti qanad.*

*Yarpaqdan çətir istədim,*
*Ömürdən coşqun həyat.*
*Dağdan əzəmət istədim,*
*İnsanlardan məhəbbət.*
*Nə istədim, nə istədim –*
*Verdi mənə təbiət…*

*Nigar Rəfibəyli*

Sevgi, istək duyğusu həyatın, bəşəriyyətin gözəlliyini dərk etmək üçün ruhumuza, könlümüzə yerləşən ilahi bir nemətdir. Biz bu duyğuları yaşaya-yaşaya, acılı-şirinli dadını-tamını hiss edə-edə, fəsildən-fəslə, nəsildən-nəslə, mərhələ-mərhələ adlayıb ömür adlı bir yol keçirik. Bu yolda yalnız özünü xeyirxah əməllərinin bəhrəsilə, sevgi və sevinclə zənginləşdirənlər əzab-əziyyətə də qatlaşırlar. Sevgi – əbədi hicrandan, gündəlik qayğıdan, xeyirxahlıqdan və cavabdehlikdən doğan ülvi və müqəddəs bir hissdir.

Sevgi – özümüzdən xəbərsiz yaradılışımızdan bizimlə birgə ali bir duyğu kimi doğulub, köksümüzün altında göyərib boy göstərir. Həyatı əlvanlaşdıran, daha da müqəddəsləşdirən, düşüncələrimizə hakim kəsilən o duyğu ən dar məqamlarda yaxın köməkçimizə, xilaskarımıza çevrilir. Həyatdan əlimizi üzəndə o duyğu əlimizdən tutur, inamımızı, istinadgahımızı itirəndə o duyğu bizim üçün inama, istinadgaha çevrilir...

"Ailə cəmiyyətin özəyidir". Bu fikri bütün dövrlərə şamil etmək olar. İstər antik dövr olsun, istər orta əsrlər, istərsə müasir. Sosioloqların fikrincə, möhkəm, xoşbəxt ailə, əslində, elə möhkəm dövlət deməkdir.

Ad-sana, maddi imkana və nəsil-nəcabətə görə ailə həyatı quranlar həmişə olub! Eləcə də kiçik vəzifəsini itirməsin deyə sevgilisindən və ilk eşqindən vaz keçənlər də...

Mental yaddaşımız Leyli və Məcnun, Əsli və Kərəm, Yusif və Züleyxa, Tahir və Zöhrə, İlham və Fərizə misalında ilahi sevginin mükəmməl nümunələrini xatırlayır.

Şərq dünyasında məhəbbət dastanlarının əksəriyyətinin sonu kədərlə bitir. Bir az irəli gedib oxuculara nəql etdiyim "Heydər və Zərifə" dastanı çətin sınaqlara məruz qalsa da, sonu nikbinliklə qurtaracaqdı. Niyə?

Çünki Heydər Əliyev öz ömür-gün yoldaşı, mərhum akademik Zərifə xanıma olan sonsuz sevgisi və bu sevginin etirafı ilə mənəviyyat tariximizdə bütöv nəsillərə örnək ola biləcək bir sevgi dastanı da yaratmışdır. Bu dastanın qəhrəmanları Azərbaycanımıza qürur, iftixar gətirən əziz, möhtərəm insanlar olduqları üçün...

Söhbətimin bu yerində Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü professor Nurlana xanım Əliyevanın bu günlərdə oxuduğum müsahibəsində Zərifə xanım Əliyeva haqqında maraqlı bir qeydini xatırlayıram.

Nurlana xanım deyir ki, məni ən çox düşündürən onun (Zərifə xanımın – *H.M.*) analıq fenomenidir. Zərif bir ana necə böyük bir qüdrət daşıya bilir. Dünyaya necə böyük insanlar bəxş edə bilir, xalqın taleyində necə misilsiz iz qoya bilir. Analıq, doğrudan da, təbiətin ən böyük möcüzəsidir! Analar həyatda ən çətin olan iki şeyə qadirdirlər: həm böyük tale, həm də böyük xoşbəxtlik bəxş edə bilmək qüdrətinə. Düşünürəm ki, bu cəhətdən də **Zərifə xanım nadir, unikal bir qadın idi**.

Mən həyatda çox şeylərin anadan miras qaldığına inanıram. Zərifə xanımın anası Leyla xanım da xoşbəxt taleli bir qadın idi... Deyirlər ki, uşaqlıqdan qismət olan ana məhəbbəti insanı xoşbəxt edir. Zərifə xanımı anası da, görkəmli dövlət adamı və həkim olan atası da çox istəyirdi. Xalqın tarixində iz qoymuş bu ailə sovet dövrü Azərbaycan elitasının seçmə və tipik nümunəsi idi...

Dövlət Təhlükəsizlik Komitəsinin gənc zabiti Heydər Əliyevlə ilk dəfə görüşəndə Zərifə xanımın 25 yaşı vardı…

Elə ilk baxışdan gənc qəlblərdə zaman ötdükcə əfsanəvi məhəbbətə çevrilən qarşılıqlı simpatiya alovlanmağa başladı… Ən başlıcası da odur ki, bu simpatiyanın gizli “əl-kimya”sı böyük cazibə qüvvəsinin təsiri altında baş verdi. Bu cazibə qüvvəsini meydana çıxaran səbəb isə onların hər ikisinin ağlının, istedadının və mənəvi paklığının kamilliyi, bütövlüyü idi. Onları nə maddi mənfəət, nə də başqa bir niyyət birləşdirmişdi. Onları birləşdirən mənəvi tellər, ürəklərinin telləri idi. İlahi qüvvənin birləşdirdiyi telləri onlar bütün ömürləri boyu qoruyub saxladılar və möhkəmləndirdilər.

Naxçıvan şəhərinin mərkəzində ucalan Heydər Əliyev Muzeyində maraqlı bir eksponat var. Bu, böyük rəssamlıq istedadına malik Heydər Əliyevin öz əlləri ilə və o

vaxtın pero-qələmi ilə çəkdiyi yeniyetmə bir qızın rəsmidir. Rəsmin altında Ulu öndər öz dəst-xətti ilə beləcə yazıb: “Zərifənin şəkli 12 yaşında çəkilib. 1942-ci il aprelin 27-də, axşam saat 9.30-da”. İlk baxışda bu şəkil baxanları təəccübləndirir. Çünki Heydər Əliyev Zərifə xanımla hələ illər sonra tanış olacaqdı. Rəsmin altında muzey tərəfindən verilmiş qısa izahat isə bəzi təfərrüatları aydınlaşdırır: “Ümummilli liderimizin Naxçıvanda ilk maarif komissarı olmuş Mirzə Əbdülvahab Həsənzadənin 12 yaşlı qızı Zaryanın tuş-pero ilə 1942-ci il aprelin 27-də axşam saat 9.30-da çəkdiyi şəkil”.

Həmin rəsmi çəkərkən Heydər Əliyev 12 yaşlı qızdan adını soruşur, qız özünü Zarya kimi təqdim edir. Heydər Əliyev isə onun özünü təhrif olunmuş yabançı adla təqdim etməsinə iradını bildirərək qıza anladır ki, onun adı Zarya yox, əslində, Zərifədir. Rəsmin altında da öz əlləri ilə məhz belə yazır: “Zərifənin şəkli...”

Gözəgörünməz bir qüvvənin bu görüşdən də əvvəl, Zərifə adına bu cür həssaslıqla müəyyənləşdirdiyi birgəlik taleyi Zərifə xanıma doğulandan bəri daşıdığı Əliyev soyadını nikahdan sonra da dəyişməyə lüzum yaratmadı.

* * *

Dürüst xarakteri, xeyirxah əməlləri, elm-sənət hünəri, vətənə, el-obaya sədaqəti ilə yaxşı ad qazanmış belə böyük insanlar haqqında söz söyləməyin bir çətinliyi var: haqqında nə desən, nə yazsan, sanki təkrar səslənir. Çünki gözəlliyin, yaxşılığın, xeyirxahlığın, insanlığın tərifində söz acizdir. Amma görkəmli insanlar haqqında söz söyləməyin bir asan cəhəti də odur ki, sən nə desən, nə yazsan, hər kəs sənin fikrinə şərik olacaq.

Belə bir deyim var: İNSAN haqqında xatirələr yaşadıqca insan özü də yaşayır.

Bu iki şəxsiyyət – Heydər Əliyev və Zərifə xanım Əliyeva haqqında nə qədər yazılsa, yenə deməyə söz, danışmağa xatirə var.

Bir neçə il öncə "Xalq qəzeti"ndə əslən bakılı olan, hazırda Moskvada yaşayan Mixail Qusmanın "Lider formulu" adlı bir məqaləsini oxudum. O, 12 ilə yaxın müddətdə "Hakimiyyət formulu" adlı silsilə televiziya verilişlərində 170-dən çox dövlət və hökumət başçısı ilə həmsöhbət olmuş tanınmış telejurnalistdir. Və bu 170 dövlət xadimi ilə söhbətin yekunu olaraq o bu qənaətə gəlib ki, Heydər Əliyev ŞƏXSİYYƏTİnin siyasi miqyası rəhbərlik etdiyi ölkədən qat-qat böyük idi…

Heydər Əliyevlə bağlı film üzərində işlərkən Mixail Qusman qəribə bir detalı misal çəkir: "Əliyevlərin evində Nuh əyyamından qalma sovet kamerası ilə çəkilmiş arxiv kadrları tapdım. Həmin kadrlarda Heydər Əliyevin həyat yoldaşı – fantastik dərəcədə xeyirxah, çox ağıllı və çox nəcib qadın, böyük alim, akademik, təbabət professoru Zərifə Əziz qızı piano arxasında əyləşmişdi. Heydər Əliyev özü isə oxuyurdu. Bu, insanın qəlbini riqqətə gətirən çox səmimi səhnə idi. Heydər Əliyevin necə cazibəli insan olması hətta bu köhnə kadrlarda da aşkar görünür".

Mənsə düşünürəm ki, Heydər Əliyevin bu cazibəsi, bu əzmi Zərifə xanımın sevgisindən, vəfasından, ona verdiyi dəyərdən, dəstəkdən güc alırdı.

* * *

Sənədli filmlərdən, xatirələrdən bilirik ki, polad iradəli insan, mətin və qüdrətli bir şəxsiyyət olan Heydər Əliyev yaşının ixtiyar çağlarında yalnız onunla, Zərifə xanımla son vida mərasimində hönkür-hönkür ağlayıb göz yaşı tökmüşdü. Mən həmişə ekrandan bu ürəkdağlayan səhnəni seyr edəndə düşünürəm ki, İlahi, böyük sevgi

gör nələrə qadir imiş. Bu əzəmətli, nəhəng insan Zərifəsindən sonra belə düz 18 il ömrünün ilk və son məhəbbətinin nisgilini yaşadı, kövrəldi və kövrəltdi.

Kimsənin dərdinə, kədərinə biganə qalmayan, dara düşənə dayaq, yıxılana söykək olan, ürəyində və əməllərində işıqlı amallar, nəcib duyğular yaşadan və ləyaqətli bir ömür yaşayan Zərifə xanımın parlaq xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaq.

Bu ecazkar qadının bioqrafiyasını vərəqlərkən qeyri-iradi olaraq Dostoyevskinin qəhrəmanlarından knyaz Mişkinin Nastasiya Filippovnanı ilk dəfə görəndə onun haqqında nə düşündüyünü xatırlayırsan. Həqiqətən, gözəllik dünyanı xilas etmək gücünə malikdir. Bununla belə, knyaz bu müstəsna şəraitdə: "Budur, bilmirəm, o, xeyirxahdırmı? Ah, xeyirxahlıq! Hər şeyi xilas etsəydi!" – deyir. Bizim qəhrəmanın surətində isə daxili və xarici gözəllik ahəngdar şəkildə birləşmişdi. Bu, onun hər bir rəftarında, əməlində, insanlara, dünyaya olan münasibətində özünü açıqca göstərirdi.

* * *

Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları çoxdur və onların hər biri bizim üçün, bütövlükdə Azərbaycan xalqı üçün qürur, iftixar mənbəyidir. Ancaq bu adlar sırasında ən şərəflisi, ən müqəddəsi və ən nəcibi sədaqətli həyat yoldaşı və Ana adıdır. İçində mələklərə məxsus ilahi xüsusiyyətləri ehtiva edən bu adların hər birinə monumental bir əsər həsr etmək olar. Amma bunlardan ən möhtəşəmi, mənim yazıçı duyumuma, düşüncəmə görə, ilahi bir sevginin bənzərsiz, ecazkar nümunəsi olan sədaqətli həyat yoldaşı obrazıdır.

Biz bilmirik dünyada hansı sevgi dastanı həyatın gerçək faktı olub. Amma biz bilirik ki, Heydər və Zərifə sev-

gisi əsl məhəbbət haqqında gerçək həyat faktıdır. Müqəddəs ANA da ülvi hisslərin, ilahi sevginin qüdrətindən dünyaya gəlir.

"Hansı daha güclü idi" sualına cavab axtararkən demək olarmı ki, Heydər Əliyevin sevgisi və yaxud, Zərifə xanım Əliyevanın sevgisi daha üstün gəlirdi? Ulular nahaq deməyiblər ki, insanlar bu dünyaya cüt gəlirlər. Bax onlar da bu dünyaya cüt gəlmişdilər. Gəlmişdilər ki, insanlığa pak, ilahi sevginin, hörmət və ehtiramın, etibar və sədaqətin bənzərsiz nümunəsini göstərsinlər. Təkcə buna görəmi? Əlbəttə yox!

Zərifə Əliyeva şəxsiyyətinin gücü məhz onun insanların qayğı və iztirablarına, niyyət və arzularına fədakarcasına xidmətindədir. Zərifə xanım dövlət və mədəniyyət sahələrində daha böyük səmərə verə bilərdi. Lakin taleyin əmri ilə elə bir insana rast gəldi ki, onun qismətinə millətin lideri olmaq missiyası, qüdrətli dövlət qurucusu, cəmiyyəti dəyişdirən islahatçı olmaq missiyası yazılmışdı. Zərifə xanım bu adamın sevilən və sevən həyat yoldaşı olaraq onun görəcəyi işlərin miqyasını dərk edərək onun arxadaşı olmağı özünə borc bildi.

* * *

Zərifə xanım eyni zamanda İlahinın sevgisindən pay almış bir ANA idi. Professor **N.Şulpina** yaxşı tanıdığı həmkarının əsl qadın keyfiyyətlərinin vurğunu kimi onu çox sonralar belə xarakterizə edəcəkdi: "Biz onu sevmişik, sevirik və ömrümüzün sonuna qədər sevəcəyik. Zərifə xanımın bədii duyumu, bədii istedadı bənzərsiz idi. Zərifə xanım necə böyük məharətlə ifa edir, nəğmələr oxuyurdu. Onun incə barmaqları sürətlə pianonun dilləri üstündə gəzir, toplaşdığımız otağı bəzən gur, bəzən də həzin musiqi sədaları bürüyürdü.

Bir qadın kimi də Zərifə Əziz qızı haqqında bir neçə kəlmə deməyə bilmərəm. Təbiət ona qeyri-adi qadın cazibədarlığı bəxş etmişdi. Onun görkəmi, qalın saçları, sifətinin ayparaya bənzər cizgisi, açıq alnı, insanın qəlbini riqqətə gətirən qara gözləri heyranlıq doğurmaya bilməzdi. Zərifə Əziz qızının bütün varlığı hərəkətlərindən və üzünün mimikasından oxunurdu. Mən onu heç zaman əsəbi, qəzəbli görməmişəm. O, həmişə gülərüz, xeyirxah idi. Zərifə xanımın əlləri xüsusilə insanı valeh edirdi. Bu balaca qadın-cərrah əlləri sanki təmasda olduğu hər şeyə istilik verirdi, eyni zamanda bu əllərdə ailə qayğılarının, qadın əməyinin izlərini də sezmək mümkün idi. Belə ki, Zərifə xanım yüksək təbəqəyə mənsub olsa da, ev işlərindən boyun qaçırmazdı".

Qadınlıq bəşəriyyət üçün sülh, birlik, mədəni tərəqqi deməkdir. Hamımız bu adın işığından doğulduq, bu adın kölgəsinə sığındıq.

Elə insanlar da var ki, bir ömürdə sanki yüzlərlə, minlərlə adamın mənalı, dəyərli, parlaq, zəhmət və xidmət dolu taleyini yaşayır. Bu insanlar artıq bioloji varlıqdan zamanın heç də tez-tez yetişdirmədiyi şəxsiyyətə, dühaya, fenomenə çevrilir. Öz ağlı, zəkası, istedadı, bacarığı, təcrübəsi, insanpərvərliyi, əməksevərliyi, yurdsevərliyi ilə.

* * *

Həyat yolunun sonunda Heydər Əliyev qızı Sevilə etiraf edir ki, əgər onun anası ilə görüşməsəydi, heç vaxt evlənməzdi…

Görüşdən məhəbbətin doğulduğu qədim zamanların hekayələrindən məlumdur. Hadisələrin təvazökar şərhçisi rolunu müəllifdə saxlayaq. Mövzunu qəhrəmanın müasirlərinin təəssüratları və xatirələri ilə zənginləşdirərək davam etdirək.

1948-ci il. Əks-kəşfiyyatın gənc zabiti Heydər Əliyev Leninqrada oxumağa göndərilir. Zərifə xanım Moskvada həkim-oftalmoloq kimi təkmilləşir. Zərifə xanımın atası Əziz Əliyev artıq tanınmış dövlət rəhbəridir, İctimai Elmlər Akademiyasında oxuyur və Azərbaycan Kommunist Partiyasının MK-sında işləyir. Gələcək ümidverici, xoşbəxt görünürdü. Ölkə Böyük Qələbənin şəfəqləri altında parlayırdı. Qocalmaqda olan rəhbər növbəti partiya qurultayında nikbin sözlər söyləyirdi: "Yoldaşlar, yaşamaq daha xoş, daha sevindirici olmuşdur!" Döyüş meydanlarından qayıdan, ölüm-dirim savaşında faşizmi darmadağın edən adamların ruh yüksəkliyi, coşqunluğu təbii idi. Dinc əmək üçün, doğma ocaqları üçün qəribsəmiş bu insanlar xarabalıqlar, küllüklər içərisindəki şəhərləri və kəndləri bərpa etmək istəyirdilər…

Lakin rejim hələ öz üzünü göstərəcəkdi. Sistemin təbiəti dəyişməmişdi. O, gənc insanların, Zərifə Əliyevanın, onun sevib-seçdiyi, adı Azərbaycan tarixində qalacaq insanın taleyinə öz təsirini göstərəcəkdi. Ancaq bunlar hamısı sonra olacaq…

Müharibə illərinə qayıdaq…

## Üçüncü fəsil

# HİPPOKRAT VƏ OFTALMOLOGİYA

*…Bütün biliyimi və qüvvəmi sağlamlığın qorunmasına və yaxşılaşdırılmasına, insanların şəfa tapmasına və xəstəliyin qabağının alınmasına sərf edəcəyəm, harada olsam, cəmiyyətin xeyrinə şərəflə və ləyaqətlə çalışacağam; …xəstənin mənafeyi tələb etdiyi hallarda məsləhət üçün peşə yoldaşlarıma müraciət edəcəyəm və özüm də həmişə həmkarlarıma məsləhət verməyə və kömək etməyə hazır olacağam…*

*"Hippokrat andı"ndan*

…Faşist Almaniyasının Sovet İttifaqına hücumu dinc həyatın xoşbəxtliyinə son qoydu, gənc Zərifənin, onun çoxlu yaşıdlarının arzu və planlarını alt-üst elədi. Az qala bütün Bakı məktəbləri, ali təhsil müəssisələri və onların yataqxanaları hərbi xəstəxanalara çevrilmişdi. Respublikanın arxa cəbhə hospitallarında bir milyondan çox yaralı döyüşçü müalicə olunurdu, onların yetmiş faizi yenidən cəbhəyə qayıdırdı.

Tarix elmləri doktoru, professor **Püstəxanım Əzizbəyova** öz xatirələrində qeyd edir ki, müharibə illərində

onlar Zərifə Əliyeva ilə ovaxtkı Kommunist (indiki İstiqlaliyyət) küçəsində Bakı Dövlət Universitetində (indi orada İqtisadiyyat Universiteti yerləşir) məskunlaşan hərbi hospitaldakı xəstələrə tez-tez baş çəkirdilər:

“Bir palatanı hamiliyə götürmüşdük. Zərifə o vaxtacan görmədiyi bu şəraitə çox tez öyrəşdi. Mən indi başa düşürəm ki, o vaxt məktəb yaşlı qız uşağından ötrü heç nədən, ən çirkli işlərdən belə çəkinmədən ağır yaralılara qulluq etmək üçün nə qədər güc-qüvvə, nə qədər iradə lazım idi…

Bizim palatamız xatirimdən çıxmır. Pəncərənin qabağında üz-gözü yanmış, sümükləri sınıq-sınıq olmuş təyyarəçi arxası üstə uzanıb. O, yeməkdən imtina edirdi, gözləri daim yumulu olurdu, palatada baş verənlərə qarşı tamamilə etinasız münasibət bəsləyirdi. Zərifə hər dəfə vaxtının çox hissəsini onun yatağının yanında keçirir, ailəsi barədə hal-əhval tutur, cəbhədən aldığımız sevindirici xəbərləri ilk dəfə ona deyirdi. Öyrənə bilmişdi ki, yaralı təyyarəçinin də elə biz yaşda qızı var. Təyyarəçi ailəsinə yük olmaq istəmir, elə buna görə də öz vəziyyəti haqda onlara xəbər göndərmirdi. Bir müddət keçəndən sonra o, nəhayət ki, birinci məktubunu Zərifəyə diktə elədi və biz tələsik o məktubu poçt qutusuna atdıq. Beləliklə, Zərifə öz boynuna daha bir iş götürmüş oldu: yaralıların diktəsi ilə məktublar yazır və onların doğmalarına göndərirdi.

Bir dəfə biz Kommunist küçəsindən üzüaşağı, Zevin küçəsinin döngəsi ilə evə qaçırdıq, birdən cavan bir gəlin gördük. Gözəl qadın idi, ancaq özünü qeyri-təbii bir tərzdə dimdik tutub, başını dikəldərək divarın böyrü ilə ehtiyatla yeriyirdi. Zərifə donub qaldı, titrəyən əlləri ilə məni tutdu: “Gördün? Gördün? O, kor idi…”

Bir az gözləyəndən sonra astaca əlavə elədi: “Bilirsən, mən çoxdandır ki, həkim olmaq haqda fikirləşirəm.

Axı bizim ailəmizdə hamı həkimdir – atam da, anam da, böyük bacım da, Tamerlan da. Mən göz həkimi olacağam. Mənə elə gəlir ki, bu an tale mənim qəti seçimimə son nöqtəni qoydu: mən insanlara ən böyük, ən əvəzsiz neməti – dünya işığını qaytaracağam…" Zərifə qəlbində yuva quran bu arzu, bu niyyət haqqında daha sonra da mənə çox danışmışdı".

…Dövlət imtahanları başlamışdı. Əla oxuyanlar da, bir o qədər yaxşı oxumayanlar da həyəcanlı, narahat idi. İmtahan hamı üçün imtahandır. Zərifə suallara cavab verdikcə professor Ümnisə Musabəyovanın üzünün güldüyünü hiss edirdi. Gənc tələbə müxtəlif göz xəstəlikləri, onların müalicəsi və profilaktikası haqqında elə ətraflı, dolğun və həvəslə danışırdı ki, elə bil bu sahədə uzun müddət işləmiş və təcrübə toplamışdı…

İmtahanlardan sonra professor Zərifəni çağırdı. "Həkimlik, ümumiyyətlə, çox gözəl, xeyirxah peşədir, – dedi o. – Ancaq tibb elmlərindən ən xeyirxahı oftalmologiya elmidir. Mən istəyirəm ki, sən oftalmoloq olasan".

Professorun təklifi Zərifənin arzuları ilə üst-üstə düşürdü. Qız özü çoxdan bu haqda fikirləşirdi. Yeri, göyü, təbiəti bütün əzəməti ilə görmək necə xoşbəxtlikdir! O, gözlərini yumaraq özünü görmə qabiliyyətini itirmiş insanın vəziyyətində təsəvvür etməyə çalışdı. Bu zaman həyat ona dözülməz dərəcədə kədərli göründü. Evlərinə yaxın küçədə hər gün gördüyü qoca kor kişini xatırladı. O, yolu çətinliklə axtarıb tapırdı. Onun qocaya yazığı gələrdi. Səs-küylü rəfiqələrindən xəyalən ayrılaraq, təsirli baxışlarla qocanı xeyli izləyərdi. Üzündə qayğısız gülüş yoxa çıxdı, onu kədər kölgəsi əvəz etdi.

O uzaq illərin belə xatirələrinin təsiri altında Zərifənin gənc qəlbində başqalarının dərdinə, kədərinə acımaq,

köməyinə çatmaq kimi alicənab hisslər daha da inkişaf edirdi. Sonralar ağ xalat geyəndə də o, bütün ömrünü insanların sağlamlığını qorumağa həsr etdi. Fitri həssaslığı xəstələrin qəlbinə yol tapmaqda, körpü salmaqda ona kömək etdi. Müasir həkimi bunsuz təsəvvür etmək belə mümkün deyil. Xəstələr də bu gənc qızın onların dərdlərinə acıdığını o dəqiqə başa düşür, ona etibar edir, ən gərgin dəqiqələrdə ona ümid bəsləyirdilər.

İllər keçirdi. Hər uğur, gözünün nurunu qaytardığı hər insan onun sevincini qanadlandıran mükafat idi.

Yola saldığı illərdə Zərifə xanım həmişə ilk dəfə əməliyyat etdiyi xəstəni xatırlayardı. Orta yaşlı qadının tam kor olmaq qorxusu vardı. Ümid ancaq əməliyyata qalmışdı. Qadın onu yaxalayan bədbəxtlikdən ümidsizləşmiş, özünə qapılmışdı, suallara qısa və həvəssiz cavab verirdi. Əməliyyat Zərifəyə tapşırılanda o həyəcanlandı. “Xəstə həkimə inanmalıdır, bunsuz həkim hətta adi bir xəstəliyi də müalicə edə bilməz…” – Tez-tez atasının bu sözlərini xatırlayırdı. Burada isə söhbət heç də adi naxoşluqdan getmir, peşəkar təcrübə tələb edən mürəkkəb əməliyyatdan gedir. Naümid, ruhdan düşmüş qadın gənc cərraha inanarmı? Burada Zərifə xanımın köməyinə insanlarla qarşılıqlı münasibət yarada bilmək bacarığı gəldi. O, söhbətlərilə qadını əməliyyata razı sala bildi.

Nəhayət, ən məsuliyyətli an gəlib çatdı. Gənc cərrah öz əlləri ilə xəstənin gözündən sarğını açdı. Dərin sükut hökm sürürdü. Xəstə elə vəziyyətdə idi ki, baxışları bir nöqtəyə dikilmişdi. “Doğrudanmı görmür?” Bu uğursuzluq ehtimalı Zərifə xanımı elə sarsıtdı ki, dizlərinin taqəti kəsildi.

Birdən o, inamsız səs eşitdi:

– Deyəsən… mən… görürəm… – Sonra sevinc dolu bir səs: – Həkim, mən görürəm!

Həkim isə qeyri-iradi axan göz yaşlarını gizlətmək üçün palatadan çıxmışdı…

Nə qədər belə həyəcanlı, gərgin, unudulmaz anlar yaşadı o! Hər dəfə xəstələr üçün həyəcan keçirir, iztirab çəkirdi. İnsan əzabına dözməyə öyrəşməmişdi, öyrəşmək də istəmirdi… Onun ürəyindən keçən ilk şey kömək etmək idi.

Həyat öz qaydasında gedirdi. Bu vaxt ərzində Zərifə xanım kifayət qədər təcrübə toplamışdı. Vətəninin tibb elminin aktual məsələlərinin həllinə kömək etmək üçün bu təcrübəni ümumiləşdirmək vaxtı çatdığını fikirləşirdi. Elmi-tədqiqat mövzusunu müəyyənləşdirərkən respublika səhiyyəsi üçün böyük əhəmiyyət kəsb edən sahəni seçdi.

Namizədlik dissertasiyasının mövzusu ictimai nöqteyi-nəzərdən oftalmologiyanın aktual probleminə – traxoma ilə mübarizəyə aid idi. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada 400 milyon insan bu xəstəlikdən əzab çəkirdi, 80 milyon nəfər isə bu xəstəlikdən kor olub. Görmə qabiliyyətinin itirilməsinin çox geniş yayılmış səbəblərindən biri olan traxoma, həqiqətən, həmin illərdə Azərbaycanda ictimai bəlaya çevrilmişdi. Zərifə xanım dissertasiya üzərində işləyə-işləyə yüzlərlə, minlərlə xəstənin sağlamlığını özünə qaytardı. Uşaq evlərindəki çoxlu yetim uşağı müalicə etdi.

Tibb elmləri doktoru **Həcər Nəsrullayeva** xatırlayır:

“60-cı illərin əvvəllərində respublika hökuməti Azərbaycanda traxomanın kökünün kəsilməsi haqqında qərar qəbul etmişdi. Bununla əlaqədar biz respublikanın rayonlarına gedir, orada on-on beş gün qalırdıq. Profilaktika işi aparır, traxomalı xəstələri aşkarlayır və onları müalicə edirdik. Adətən, xəstəxanalarda gecələyirdik. Bir dəfə rayon mərkəzindən yetmiş kilometr uzaqda olan kəndə getdik və bütün günü orada işlədik, geri ac qayıt-

dıq. Bizim otaqda yeməyə bir cüt toyuq yumurtasından başqa heç nə yox idi. Yumurtaları bişirmək üçün qaba su töküb sobanın üstünə qoyduq. Lakin yorğunluq üstün gəldi – biz yuxuladıq. Bir də səhər ayıldıq. Qazançadakı su qaynayıb çəkilmişdi, yumurtalardan isə ancaq cızdağ qalmışdı…"

Elmi-tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru **Kərim Kərimov** danışır:

"Bizim institutda işləməyə başladığı ilk günlərdən Zərifə xanım özünün peşəkarlığı və insani keyfiyyətləri ilə nəzərəçarpacaq dərəcədə seçilməyə başladı. O illərdə Azərbaycanın bir sıra rayonlarında traxoma kimi təhlükəli xəstəlik tüğyan edirdi. Kəndlərdə, qəsəbələrdə traxoma xəstəliyinə meyilli adamlar, bütöv ailələr kor olurdu. Elə o vaxt Zərifə xanım tərəddüd etmədən könüllülərdən ibarət briqadanın sıralarına daxil oldu. Bu xəstəliyə yoluxmaq təhlükəsini unudaraq o, xəstələri müalicə edirdi, əhali ilə görüşürdü, profilaktiki tədbirlər görürdü… Azərbaycanda traxoma üzərində çalınan qələbədə onun layiqli payı vardır".

Bundan əlavə, Zərifə xanım qlaukoma və zəifgörmənin qarşısını almaq məqsədilə tədbirlər keçirmək üçün dəfələrlə respublikanın regionlarına getmişdi. Qlaukomaya meyilli xəstələri aşkar etmək üçün o, uzun illər Əli Bayramlı (indiki Şirvan) şəhərinin sənaye müəssisələrində ciddi diaqnostik iş aparmışdı. Bu xəstəliyə meyilli olanları Zərifə xanım tez dispanser uçotuna götürüb, stasionar müayinə və müalicəyə cəlb edirdi. Bundan başqa, o bu şəhərin məktəblərində yaxını görən uşaqları müəyyənləşdirmək üçün böyük iş aparırdı.

Zərifə xanım sevdiyi təbabətə inamla və ədalətlə xidmət edirdi. Bu xidmət çətin, lakin fərəhli idi. Məşhur təyyarəçi-kosmonavt German Titovun dediyi kimi: "Əgər

insan həyatda sevdiyi sənətə yiyələnibsə, əmək ona zövq verir". Seçdiyi elm sahəsindəki nailiyyətləri Zərifə xanımı ruhlandırırdı, kiçik uğursuzluqlar isə onu mütəəssir etmirdi, təslim olmur, problemi daha da inadla öyrənirdi. Öz təbiətinin xüsusiyyətləri sayəsində o, böyük tədqiqat potensialına yiyələnmişdi və buna görə də nəzəri problemlər üzərində işləməyə həvəslə başlayır, bununla belə, nəzəri nəticələri təcrübəyə tətbiq etməyə, tibbi biliklərin praktikada işlədilməsinə çoxlu vaxt və əmək sərf edirdi. Onda yüksək peşəkarlıq və biliklərin vüsəti rəftar, insanpərvərlik və xeyirxahlıq mədəniyyəti ilə üzvi şəkildə birləşmişdi. Bütün bu keyfiyyətlər Zərifə Əliyevanı peşələrin ən humanisti olan həkimlik peşəsinə fədakarcasına xidmətin simvolu kimi qəbul etməyə əsas verir. Bütün çətinliklərə baxmayaraq, həkimlik onun üçün sadəcə iş deyil, həm də fasiləsiz ilham mənbəyi idi. O, təkcə öz varlığıyla belə həmkarları və xəstələri arasında xüsusi inam və xeyirxahlıq atmosferi yaradırdı.

Bununla belə, o, heç vaxt seçilməyə çalışmırdı, özünü camaata göstərmək üçün işləmirdi. Ordinatordan başlayaraq tanınmış həkimə, alim-akademikə qədər uzanan bu çox çətin və şərəfli yolda o öz ciddiyyətini qoruyub saxladı.

...Bu epizod 1962-ci ilə aiddir. Azərbaycanın ucqar kəndlərindən birində, sadə bir kənd əməkçisinin ailəsində bədbəxt hadisə baş vermişdi: yeddinci sinif şagirdi Nazilə xəstəlik nəticəsində iki gözündən kor olmuşdu. Amma onun anası taleyin hökmü ilə barışmayaraq Bakıya, Göz Xəstəlikləri İnstitutuna gəldi. Gənc xəstəni müayinə edən kişi həkim ümidsiz halda əllərini yellədi. Ondan gözlərini çəkməyən ana hönkür-hönkür ağlamağa başladı. Göz yaşları arasında belə yalvardı: "Allah xatirinə, mənim qızıma kömək edin!" Həkim ayağa qalxdı, başını yelləyərək

bəd xəbər verdi: "Əfsus, sizin qızınız ömrü boyu kor qalacaq..."

Bu sözlər ananın ürəyini deşib keçdi və o qışqıraraq: "Yox! Həkim, ola bilməz!" deməkdən özünü saxlaya bilmədi. On dörd yaşlı Nazilə durdu, inamsızlıqla divarlara toxuna-toxuna qapıya doğru yönəldi. Göz yaşlarını güclə saxlayaraq pıçıldadı: "Anacan, ağlama, gəl buradan gedək!"

Həkim bu dramatik səhnədən məyus olsa da, artıq gec idi, ana öz qızı ilə kabineti tərk etmişdi. Ana-bala onları bürüyən bədbəxtlikdən dəhlizdə donub qalmışdılar. Qonşu kabinetdən çıxan ağ xalatlı, xoşsifət qadın onların yanında ayaq saxladı. Cəld hərəkətlə Nazilənin saçını sığalladı:

– Qızım, adın nədir?

– Nazilə, – qız güclə cavab verdi.

– Gəl mənimlə gedək! Nə dərdin varsa, mənə danışarsan...

Qadın onları öz kabinetinə apardı. Ətraflı sorğu-suala başladı, qızın gözünə baxdı və ürək-dirək verdi:

– Su için, sakit olun, heç vaxt ümidi itirmək olmaz...

O, naümid anaya Allahın göydən göndərdiyi mələk kimi göründü...

Bir müddətdən sonra baş həkim Nazim Əfəndiyev kabinetə gələrək soruşdu:

– Zərifə xanım, burada nə baş verib?

– Professor, xahiş edirəm bu qızın gözünü yoxlayın, məncə, hələ operasiya aparmaq olar.

Əfəndiyev xəstəyə baxaraq rəyini verdi:

– Əvvəlcə terapiya etmək lazımdır... Altı ay... Bundan sonra operasiya etmək olar. Şans var ki, o görsün.

Uzun sürən altı ay... Bütün bu vaxt ərzində Zərifə xanım onları yoxlamağı bir gün də yaddan çıxarmadı. Ba-

kıda heç tanışları, qohumları olmayan ana ilə qız Zərifə xanıma rast gəldikləri üçün talelərindən çox razı idilər. Zərifə xanımın gəlişi onlara şəfalı bir məlhəm kimi təsir edirdi. Nəhayət, gözlənilən gün gəlib çatdı. Operasiyadan sonra Nazilənin gözlərindən sarğı açıldı. O, artıq görürdü! Qız qətiyyətsiz baxışları ilə üzünü görmədiyi xilaskarını axtarmağa başladı… və onu tanıdı:

– Bu, sizsiniz… Siz mənə gözlərimin işığını qaytardınız!

Hamı onları təbrik etdi:

– Gözləriniz aydın olsun!

Zərifə xanım bununla öz missiyasını bitmiş hesab etmədi: uzun illər Nazilə və onun anası ilə əlaqələrini kəsmədi, bacardığı qədər onlara köməklik göstərdi.

Xalq Şairi Nigar Rəfibəyli sanki bu misraları Zərifə xanım üçün yazmışdı:

*Mən işıq övladı, işıq qızıyam,*
*Dünyanı qaranlıq görə bilmərəm.*
*Zülmətlə girərəm pəncə-pəncəyə,*
*İşıq yandıraram qara gecəyə.*

Bu misralarda Zərifə xanımın yaşantılarının, arzularının, xarakterinin, bütövlükdə ömür yolunun yığcam və aydın mənzərəsini görmək mümkündür.

Homerin "İliada" əsərində belə bir fikir var: "Mahir bir həkimin həyatı çox-çox insanın həyatından daha qiymətlidir". Əlbəttə, bir yaxşı həkimin çox insana yeni həyat verməyə qabil olduğu məlumdur.

**Fərhad Məmmədov**un xatirələrindən:

"1973-cü ilin payızı idi. Mənim on doqquz yaşım vardı. Hələ uşaq ikən mən ağır sətəlcəm keçirmiş, çətinliklə sağalmışdım, ancaq onun təsiri sonralar gözlərimdə özünü göstərdi. Azacıq bir gərginlikdən gözlərim qızarır,

sancı məni incidirdi. Mən özümü insanlar arasında pis hiss edirdim… Mənə Oftalmologiya İnstitutuna müraciət etməyi məsləhət gördülər. Günlərin birində ora getdim. Qapıda yaşlı kişi – qarovulçu durmuşdu. Ona öz dərdimi danışdım, vəziyyətimi izah elədim, sonra içəri keçdim. Gördüm ki, bir xanım pilləkənlə asta-asta aşağı düşür. Mənə gülümsədi, sonra iltihabdan qızarmış gözlərimə baxaraq nə baş verdiyi ilə maraqlandı. İş vaxtının qurtarmış olmasına və evə getməyə hazırlaşdığına baxmayaraq, mənimlə birlikdə geri qayıtdı. Gözlərimi diqqətlə müayinə etdi, keçirdiyim xəstəlikləri soruşdu, sözümü kəsmədən məni diqqətlə dinlədi. Onun xoş rəftarı, sadəliyi və şəfqəti məni mütəəssir etmişdi. Haradan olduğumu soruşdu və biləndə ki, Qubadanam, Quba əhalisinə böyük hörmət bəslədiyini dedi. Söhbət zamanı atası Əziz Əliyevi xatırlayaraq kədərlə ah çəkdi, səsi titrədi. Yenidən mənim dərdimlə kədərləndi və dərman üçün resept yazdı, təkidlə məsləhət verdi:

– Əgər gözlərin səni təngə gətirməsə, əgər ağrılara dözmək mümkün olsa, çalış dərmandan istifadə eləməyəsən.

Habelə məsləhət verdi ki, tünd müdafiə eynəyi taxım. Və təbəssümlə əlavə etdi:

– Toya qədər sağalar…

Həqiqətən, otuz yaşıma qədər görmə ilə əlaqədar bütün problemlərim aradan qalxdı. O vaxtdan çox illər keçib, ancaq mən indi də eynəksiz gəzirəm, xırda şriftləri yaxşı ayırd edirəm və həmişə o qayğıkeş insanı və gözəl həkimi minnətdarlıq hissi ilə xatırlayıram…"

Yazıçı və maarifçi Məhəmməd Tağı Sidqi belə deyirdi: "Xoşbəxtliyin əsasında dörd şey dayanır**: təmiz nəsil, təmiz qəlb, təmiz əl və təmiz niyyət".** Bu sözlər tamamilə Zərifə xanımın şəxsiyyətinə aiddir.

Türkiyənin böyük oğlu və dövlət xadimi Mustafa Kamal Atatürk belə bir vəsiyyət qoyub getmişdir: "İnsanlar həmişə təmiz, yüksək və müqəddəs amallara can atmalıdırlar". Bizim qəhrəmanımız həkim fəaliyyətinin əxlaqi məzmununa xüsusi əsər həsr etmişdir. Əgər bu məsələni sosial kontekstdə götürsək, söhbət sağlam və mədəni cəmiyyətin humanist dəyərlərindən və əxlaqından gedir.

Zərifə Əliyeva müasir dünyada həkim etikasının məsələləri və prinsipləri mövzulu "Yüksək əqidə" adlı əsərində məxsusi olaraq özünün insan kredosu ilə bütövlük təşkil edən sənətini açır:

"Vicdan bizim əsas hakimimizdir. Çətin dəqiqələrdə də, xoşbəxt saatlarda da onunla baş-başa qalanda o soruşur: Ağ xalat geyməyə haqqın varmı? Sənin əllərin xəstəlikdən əziyyət çəkənə yalnız biliyini deyil, həm də qəlbinin həyəcanını, ürəyinin yanğısını çatdıra bildimi? Düzünü desək, vicdanın şəxsi mühakiməsindən şərəflə keçmək böyük xoşbəxtlikdir. Yaxşı həkim həmişə xəstə ilə birlikdə həyəcan keçirir, xəstənin ağrısı elə həkimin şəxsi ağrısıdır. Əgər sağlamlığını itirən şəxs yenidən ona malik olursa, demək, həkim də yenidən həyata qayıdır, doğulur. Bizim sənətimizin mənəvi təməli də elə bundadır. N.A.Semaşko "Həkimlik etməkdən gözəl sənət yoxdur: xəstə bizə yalnız öz sağlamlığını yox, bütün həyatını etibar edir" deyə yazırdı".

Qədim kəlamları tez-tez xatırlayan Zərifə xanım bunu da yada salardı: "Sağlam bədəndə sağlam ruh olar".

O deyərdi ki, bizim hər birimiz öz həyatımızda bu və ya başqa şəkildə səhiyyə işçiləri ilə qarşılaşırıq. Həkim körpənin – gələcək vətəndaşın dünyaya gəlməsini gözləyir, ilk addımlarını atmaqda ona kömək edir, onun baxışları qarşısında dünyanı bütün rəngarəngliyi ilə açır, qayğısı və şəfqəti ilə onun fiziki və mənəvi sağlamlığını

möhkəmləndirir. Milyonlarla adamın səhhəti və fəaliyyətinin məhsuldarlığı əhəmiyyətli dərəcədə tibbi xidmətin vəziyyətindən və effektivliyindən asılıdır.

Hələ miladdan əvvəl IX əsrdə Qədim Hindistan alimi Çaraka "Çaraka Supxeta" traktatında həkimlik etikasının bir sıra tezislərini şərh etmişdi. Bu, həkimi xəstə qarşısında peşə fədakarlığına və təmənnasız xidmətə səsləyən ilk əxlaq kodeksi idi. Çaraka daim insanların sağlamlığını qorumağı və yaxşılaşdırmağı, lazım gəldikdə xəstəni xilas etmək xatirinə öz həyatını qurban verməyə hazır olmağı həkimin borcu hesab edirdi.

Qədim Elladanın məşhur loğmanlarından biri olan Hippokrat da rəftar və mənəviyyatın bir çox qaydasını formalaşdırdı ki, bunlar da indiyə qədər peşəkar tibb etikasının əsasını təşkil edir. Bu qanun məcəlləsinin əsas fikirləri "Hippokrat andı" kimi bütün dünyada məlumdur. Hippokrat təmənnasızlığı, məsləhətləşməni, təmizliyi, düzlüyü, müxtəlif qüsurların qarşısını almağı, xurafat önündə qorxunu qəbul etməməyi həkimin vacib keyfiyyətləri hesab edirdi.

Tibb sahəsindəki bütün fəaliyyəti müddətində Zərifə xanım insanlara bu cür xidmət etməyin nümunəsi olmuşdur. Onda yüksək peşəkarlıq təbii şəkildə insanpərvərlik və xeyirxahlıqla, borc hissi və vətənpərvərliklə birləşmişdi.

O, tez-tez böyük rus yazıçısı və həkimi Anton Pavloviç Çexova istinad edərdi:

***"Həkimin peşəsi – mücahidlikdir. O, əsl fədakarlıq, geniş ürək və təmiz niyyət tələb edir. Heç də hamı buna qadir deyil".***

Niyyətin təmizliyi məsələsi barədə. Beyrut qəzetlərindən "Əl-Nida"nın məlumatına görə, Misirin keçmiş prezidenti Camal Əbdül Nasirin ölümündə başqa ölkə-

nin agenti olan Uteyfl adlı bir masaj həkiminin əli olub. O, masaj vaxtı prezidentin ürəyini iflic edən xüsusi preparat tətbiq edib. Bu, kriminal hadisə idi. Tibb işçisi öz vəzifəsindən cinayət törətmək məqsədilə istifadə edəndə bu, kriminal hadisə olur. Ən elementar şəfqət hissindən məhrum olan tibb "xidmətçilər"inin abırsızlığına şahidlik edən başqa bir misal. Amerika qəzetlərindən birinin verdiyi məlumata görə, şəxsi Baton-Ruj klinikasına (Arizona ştatı) avtomobil qəzasına düşmüş iki cavan adam gətirirlər. Vəziyyətləri ağır olsa da, həkimlər onları qəbul eləmir ki, zərərçəkənlərin sığorta polisi yoxdur. Klinikanın sahibi riyakarlıqla elan edir: "Düzdür, bizim ürəyimiz daş deyil, amma nə edəsən, axı biz ilk növbədə biznesmenik".

Bu, Hippokrat andına necə uyğundur? Qədim dövrlərdən həkimlik peşəsinin bünövrəsində dayanan və dəyişilməyən xeyirxahlıq və insanpərvərlik kimi dəyərlərlə necə uzlaşır?

Zərifə Əziz qızı dəfələrlə təkrar edirdi: "Həkim üçün xəstənin mənafeyi hər şeydən yüksəkdir". Gözəl psixoloq olan Zərifə xanım başa düşürdü ki, xəstə ilə etibarlı ünsiyyət həkimin ən yaxşı köməkçisidir. Həkimlə xəstə arasındakı qarşılıqlı ünsiyyət, səmimi dialoq xəstənin orqanizminin müqavimətinin artmasına, onun gizli resurslarını sağlamlıq üçün səfərbər etməsinə təsir göstərir. Əksinə, ehtiyatsız söz, kəskin jest, ani nəzakətsizlik, kobudluq, ədəbsiz rəftar xəstənin vəziyyətinin pisləşməsinə gətirib çıxarır.

XIII əsrdə yaşamış suriyalı həkim Əbül-Fəradisi xəstəyə xitabən deyirdi:

"Biz üç nəfərik – sən, xəstəlik və mən. Əgər sən xəstəliklə əlbir olsan, mən tək qalacağam və onda siz üstün gələcəksiniz… Əgər sən mənimlə əlbir olsan, onda biz

gücümüzü ikiqat artıracağıq, xəstəlik isə tək qalacaq və biz qalib gələcəyik…"

Müalicə prosesinə müxtəlif profilli tibb işçiləri cəlb olunur. Amma əsas məsuliyyət müalicə həkiminin üzərinə düşür. Həkimin xəstəyə qayğısını ancaq iş günü ilə məhdudlaşdırmaq primitiv məmur yanaşması deməkdir. Burada bəraət üçün gətirilən "siz çoxsunuz, mən isə təkəm" bəhanəsi və buna bənzər digər bəhanələr əxlaq prinsipinə zidd səslənir. Həkimin bir xeyirxah sözü, xəstənin yatağı yanında bir neçə dəqiqə söhbət etməsi, gülümsəməsi bəlkə də həblərdən, yaxud müəyyən edilmiş müalicə prosedurundan daha effektiv ola bilər… Rəsmiyyətçilik ("mən məşğulam, başqa vaxt gəlin" və s.) yolverilməz hərəkətdir. Bunlar gözlənilməz nəticələr törədə bilər. Hətta xəstənin ölümünə səbəb olar.

Zərifə xanım təcili tibbi yardıma da böyük əhəmiyyət verirdi. "Təcili" – demək, söhbət dəqiqələrdən, bəlkə saniyələrdən gedir; əsas məsələ vaxtında köməyə çatmaq, vəziyyəti yoxlamaq, düzgün diaqnoz qoymaq və xəstəni xilas etmək üçün lazımi tədbirlər görməkdir. İnsanın həyatı təhlükə altında ola bilər. Təəssüf ki, emosiyalara qapılan insanlar tərəfindən yalan, əsassız "təcili" çağırışlar da olur. Məsələn, Bakı Təcili Yardım Stansiyasına hər gün üç yüzə qədər belə çağırış daxil olur! Bu, tibb işçilərinin, həqiqətən, təcili köməyə ehtiyacı olanlara xidmət göstərməsinə mane olur. İçib bir az keflənən "zarafatcıllar" təciliyə zəng edirlər. Belə "oyunbazlar"ı pisniyyətli dələduzlar kimi cəzalandırmaq lazımdır.

Müdrik Hippokratın həkimin mütləq təmənnasız xidmət göstərməsi haqqında sözlərini bu məqamda xatırlamaq yerinə düşərdi. Təəssüf ki, bəzi təbiblər hər xəstəni ancaq qazanc mənbəyi olaraq görürlər. Bundan daha yaramaz və biabırçı yanaşmanı təsəvvür etməksə çətindir.

Rüşvətxor həkimlə həqiqi həkim arasında yerdən göyə qədər fərq var. "Daha çox qoparmaq üçün nə etmək lazımdır" düşüncəsi əsl həkimə yaddır. Əsl həkim xəstəyə qarşı mərhəmətlidir, sağalmanın, şəfatapmanın sevincini xəstə ilə bölüşür. Əsl həkim, hər şeydən əvvəl, həyat uğrunda mübarizə aparır, qazanc, fayda uğrunda yox. Bəli, həkimin əməyi də hər cür əmək fəaliyyəti kimi qiymətə, o cümlədən maddi qiymətə layiqdir. İndi azad bazar iqtisadiyyatının mövcud olduğu hər yerdə, həmçinin Azərbaycanda da pullu tibbi xidmət var. Ola bilsin ki, yaşlı nəsil, sovet dövründə pulsuz tibbi xidmət görənlər buna çətin öyrəşsinlər. Sosial dəyişikliklər bir tərəfə, ancaq həqiqət köhnəlməyib: insanlar təkcə çörəklə yaşamırlar. Və heç kim "İnsanın ən birinci vəzifəsi yaxşılıq etməkdir" kimi əbədi vəsiyyəti ləğv etməyib. Zərifə xanım da başqalarına təmənnasız yaxşılığı özünə həyat kredosu kimi müəyyənləşdirmişdi. O, həkimlik sənətinə könül vermiş başqa həmkarlarının da eyni cür davranmasını istəyirdi.

Tibb elmləri doktoru, tibb xidməti polkovniki **V.İ.Vaynşteyn** Zərifə Əziz qızı Əliyevanı ehtiramla xatırlayır:

"Onun xarakteri heyrətamiz idi. Onu yüksək vətəndaşlıq və peşəkar prinsipiallıq səciyyələndirirdi. İstər söhbətlərində, istərsə də məqalələrində – həmişə həkimlik peşəsinin təmizliyindən danışır, dönə-dönə bildirirdi ki, elmi-texniki tərəqqi dövründə həkimlərin mənəvi-əxlaqi keyfiyyətləri nəinki aşağı düşməməli, əksinə, daha da yüksəlməlidir. Hər cür mənəviyyatsızlıq, ruhi eybəcərlik Zərifə xanımı çox narahat edirdi…

Respublika Oftalmoloqlarının Elmi Cəmiyyətində keçən iclaslardan biri indiki kimi yadımdadır. Bir həmkarımızın işini müzakirə edirdik – həmin adam özünü reklam etməyi sevirdi. Lakin çox vaxt xəstələrə ziyan vururdu. Bir çoxlarının qızğın və ədalətli çıxışından sonra

iclas iştirakçılarının əhvali-ruhiyyəsi coşmuşdu. Onda Zərifə xanım söz aldı. Çıxışına belə başladı ki, bütün peşə sahələrində yüksək etik-əxlaqi tələblərə əməl olunmalıdır. Ancaq həkimlik elə bir işdir ki, burada ümumi tələblərlə yanaşı, xüsusi keyfiyyətlər də zəruridir. Həkim şərəfi, həkim vicdanı, təvazökarlıq və təmənnasızlıq kimi kateqoriyalar təbabətdə olduqca mühüm yer tutur. Bu baxımdan Zərifə xanım həmin həmkarımızın ümumi işə ziyan vuran əməllərini sərt, kəskin tənqid etdi. Bundan sonra iclasda hökmlər daha gur səslə eşidilməyə başladı. İşi belə görəndə Zərifə xanım sözünə ara verdi. Gülümsər çöhrəsindən zala sanki nur səpərək çıxışının tonunu dəyişdi. Və bildirdi ki, işinin belə nüfuzlu bir məclisdə müzakirəyə qoyulmasının həmin həmkarımız tərəfindən ciddi surətdə nəzərə alınacağına əmindir. Elə buna görə o, müzakirələrin bununla da kəsilməsini təklif edir və inanır ki, əlavə tədbirlərə ehtiyac qalmayacaq.

Başqa bir hadisə də yadımdadır. Bir dəfə həyat yoldaşımla məni məşhur dramaturq və şair A.Safronovun "Ürək əməliyyatı" pyesinin ilk tamaşasına dəvət etmişdilər. Heydər Əliyev, Zərifə xanım və pyesin müəllifi də tamaşaya baxmağa gəlmişdi. Bizim Rus Dram Teatrının aktyorları onların qarşısında əsl möcüzə yaratdılar. Onlar xüsusi ruh yüksəkliyi nümayiş etdirdilər. Öz bənzərsiz oyunları ilə həkimlərin gündəlik həyatını, ümumbəşəri şücaət göstərmiş cərrahlardan birinin fəaliyyətini və faciəli taleyini inandırıcı bir tərzdə işıqlandıra bildilər. Həmin cərrah öz həyatı bahasına xəstəni ölümdən xilas etmişdi. Biz Zərifə xanımın səhnədə baş verənlərə canlı, birbaşa reaksiyasını yaxından izləyə bilirdik. Fasilə zamanı tamaşa haqqında onun xoş rəyini eşitdik. Etiraf etdi ki, artistlərin oyunundan gözləri yaşarıb. Zərifə xanımda belə qeyri-adi emosionallıq vardı".

Professor **A.N.Dobromıslov** Zərifə Əliyevanın zəngin həkimlik praktikasına və müdrik həyat təcrübəsinə əsaslanan tövsiyələrini yüksək qiymətləndirir. Bu cəhətdən o, həkimin "sözlə müalicə"sini xüsusi qeyd edir. Professorun fikri Zərifə xanımın səmimilik, xəstəni başa düşmək bacarığı, xeyirxahlıq, təvazökarlıq, təmənnasızlıq kimi keyfiyyətlərin səhiyyə əxlaqının əsasını təşkil etməsi fikrinə tamamilə uyğundur. Dobromıslov bir dəfə Zərifə xanımın xəstələrini necə qəbul etdiyinin şahidi olduğunu xatırlayır:

"Zərifə Əliyevanın müayinə və müalicə təyin etməsindən sonra xəstələr kabineti təbəssümlə, ruhla, ümidlə, minnətdarlıq və inam hissi ilə tərk edirdilər".

Zərifə Əliyevadan aldığı dərslərin sonralar həkimlik təcrübəsində onun karına gəldiyini professor belə xatırlayır:

"Mən çalışırdım ki, əməkdaşlara və tələbələrə onun metodikasını, üsulunu çatdırım. Beləliklə, Zərifə Əziz qızının zəngin təcrübəsi, ola bilsin ki, onun özündən xəbərsiz, zəncirvarı reaksiya ilə başqa həkimlərə ötürülürdü".

Tibb elmləri doktoru, professor **Məmməd Sultanov**un söylədiklərindən:

"Zərifə xanım həmkarlarının kiçik uğurlarına belə ürəkdən sevinərdi. Bunu mən şəxsən doktorluq dissertasiyamı müdafiə edərkən hiss elədim. O, laboratoriyada çay süfrəsi təşkil edir, evdən çay, konfet, şirniyyat gətirirdi. Belə stol arxasında, sərbəst bir şəkildə görülən işləri yekunlaşdırır və görüləcək işləri planlaşdırırdıq.

Zərifə xanım həmkarlarının yaddaşında əzəmətli, nəzakətli insan kimi qalıb. O, heç vaxt heç kimi səhvə, diqqətsizliyə görə məzəmmət etməzdi, bircə kəlmə də acı söz söyləməyi özünə rəva görməzdi. Lakin adamları yaxşı tanıyırdı və kadrları seçməkdə əvəzedilməz idi".

Böyük tibb bacısı **Nigar İsmayılova** danışır:

"Zərifə xanım xəstələrlə şəfqətlə rəftar edərdi. Heç kimi ümidsiz qoymazdı. Xoş sözlə, adi söhbətlə xəstənin vəziyyətini yüngülləşdirməyi bacarırdı. Bir yerdə işlədiyimiz iyirmi bir il ərzində mən ondan "qurban olum", "xahiş edirəm" müraciət formalarından başqa heç nə eşitmədim. O, xəstələrlə o qədər çox məşğul olurdu ki, elmi iş üçün vaxtı qalmırdı. Kafedranın bazası bölünəndə bizi 4-cü klinikaya keçirdilər. Dəhşətli darısqallıqda qaldıq. Kiçik otaqlardan birinin pəncərəsindən pərdə asaraq onu diaqnoz otağına uyğunlaşdırdıq. Bununla belə, Zərifə xanım narahatlıqdan şikayətlənmirdi. İşini yenə də qüsursuz yerinə yetirirdi. O, sadəliyin, xeyirxahlığın təbii təcəssümü idi".

Tibb bacısı Nigar İsmayılova Zərifə xanımın xəstələrlə rəftarını ifadə etmək üçün necə də dəqiq bir söz tapıb: şəfqətlə! Bu sözün mənası çox genişdir. Onda mehribanlıq da, mülayimlik də, diqqət də, xeyirxahlıq da var. İnsana, xüsusən də xəstəlikdən əziyyət çəkən insana belə yanaşma sadəcə olaraq gərginliyi aradan qaldırmır, xəstənin qəlbini həkimə açır. Xəstəliyin başlanma vaxtı və cərəyanı haqqında daha dəqiq məlumat almaqda və düzgün diaqnoz qoymaqda həkimə kömək edir.

Professor **T.Hüseynova** Zərifə xanım haqqında bunları xatırlayır:

"Həddən artıq nizam-intizamlı adamdı. Ciddi və özünə qarşı tələbkar idi, başqalarından da bunu umurdu. Mənəvi borc və məsuliyyət duyğuları onu bircə an da tərk etmirdi. Vədinə xilaf çıxmaq ona yad idi. Kifayət qədər nüfuzlu bir şəxsiyyət kimi ətrafındakıların hörmət və ehtiramını qazansa da, həmişə özünü sadə və təvazökar tutardı. Başqalarının vaxtına qiymət verməyi də bacarırdı, ünsiyyətdə olduğu insanlarda yalnız yaxşı keyfiyyətləri görməyi də…"

Bu həssas qadın nadir qabiliyyəti – çətin anda öz kömək əlini uzatmaq bacarığı ilə bu sətirlərin müəllifinin də yaddaşında böyük iz qoyub. Çətin vaxtımda ona müraciət etdim. O, məni səbirlə dinləyərək dəyərli məsləhətlər verdi. İnandırdı ki, həlli mümkün olan məsələlərdən ötrü həyəcanlanmağa dəyməz. O, məni beləcə sakitləşdirdi, ruhlandırdı…

Onun haqqında fikirləşdikdə qeyri-iradi bu kəlamı xatırlayırsan: "Hörməti pulla almaq olmaz, onu ancaq səxavətlə, xeyirxahlıqla və şəfqətlə qazanmaq olar".

Mirkazım Seyidov və Məmməd Rzayevin Ümummilli liderə həsr olunmuş "Zamanı qabaqlayan dahi" adlı kitabında Zərifə xanım Əliyeva haqqında ətraflı söhbət açılır. Onun professional fəaliyyətindən bəhs edən müəlliflər bildirirlər ki, Zərifə xanımın həkim etikasına diqqəti yalnız kadrların peşə hazırlığını yox, həm də onların mənəvi hazırlığını nəzərə alırdı. O, həmişə gənc nəslə dar bir ixtisasda qalmamağı, elmi diapazonu genişləndirməyi məsləhət görürdü. İnsanların həyatı və sağlamlığı uğrunda müvəffəqiyyətlə mübarizə aparmaq üçün hər bir insanı başa düşmək və ona məhəbbətlə yanaşmaq vacibdir. Zərifə xanım deyirdi ki, həkim peşə erudisiyası ilə bərabər yüksək mədəniyyətə malik olmalı, incəsənət dünyasını, musiqini, ədəbiyyatı… başa düşməlidir.

Müasir elmi-texniki tərəqqi dövründə ancaq yeni tədqiqat metodları haqqında məlumat alan və onlardan yaradıcılıqla istifadə edən həkim dövrün tələblərinə cavab verə bilər.

Zərifə xanım cəmiyyətdə nəzərinə dəyən bütün qüsurlara həkim kimi yanaşırdı. Elə bil, həkim kimi cəmiyyətin xəstəlik tarixini oxuyur, "xəstəliyin simptomları"nı müəyyən edir və onun aradan qaldırılması üçün səbəblərini aydınlaşdırmaq lazım gəldiyinə inanırdı.

1977-ci ilin 22-24 oktyabrında Bakıda Ümumittifaq Oftalmologiya Cəmiyyətinin VII plenumu keçirilirdi. Onun işində uşaqların görmə qabiliyyətində problemlər və gözün kəskin zədələnməsi, qlaukomanın müalicəsi kimi məsələlərlə məşğul olan iki yüz alim-həkim iştirak edirdi. Forumun materialları ilə tanışlıq zamanı Zərifə xanımın çıxışında irəli sürülən fikirlər, ideyalar yeniliyi və aktuallığı ilə diqqəti cəlb edir.

Plenumdan sonra Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev qonaqlarla və iştirakçılarla görüşərək onlarla iki saat söhbət edir.

Respublika rəhbərinin Azərbaycanda iqtisadiyyatın, ədəbiyyatın və incəsənətin, səhiyyənin vəziyyəti haqqında real, dolğun faktlarla zəngin nitqi qonaqları heyran qoyur.

Növbəti, VIII plenum 1981-ci il oktyabrın 8-9-da İrəvanda oldu. Zərifə xanımın bu forumdakı çıxışı tibbin deontologiyasına həsr olunmuşdu. Onu və həmin dövrün bütün qabaqcıl səhiyyə nümayəndələrini tibb işçiləri arasında qarşılıqlı həkim-xəstə münasibətlərində əxlaq kriterilərinin aşağı düşməsi narahat edirdi… Elmi-texniki tərəqqinin səhiyyədə etdiyi dəyişikliklər, yeni aparatların və cihazların tətbiqi xəstələri müxtəlif profilli həkimlərin, texniklərin və laborantların mühitinə daxil etdi. Baxmayaraq ki, Zərifə Əziz qızı müalicə prosesinin bu “konveyer” üsulunu yanlış saymırdı; amma o, bunda həkimin şəxsi fikrinin nəzərdən qaçırılması təhlükəsini çox yaxşı görürdü və bilirdi ki, bu, gələcəkdə düzəldilməsi mümkün olmayan səhvlərin sayını artıra bilər. O, həkimlə xəstə arasında birbaşa, canlı ünsiyyətə üstünlük verirdi. Belə ünsiyyət xəstənin psixoloji gücünü və imkanlarını, iradəsini xəstəliyə qarşı mübarizə aparmaq üçün səfərbər etməyə, onda op-

timizmin oyanmasına təsir edir. Zərifə xanım dəfələrlə qeyd edirdi ki, müasir dövrdə müalicə prosesində onlarla profil üzrə mütəxəssis iştirak edir. Ancaq əsas məsuliyyət yenə də müalicə edən həkimin üzərinə düşür. Həkimlərin "qrup halında məsuliyyəti" isə, əslində, peşə kriterilərinin aşınmasına səbəb olur və məsuliyyətsizlik yaradır.

Zərifə xanımın Moskva Oftalmoloqlar Cəmiyyətində oxuduğu və sonralar çap olunan məruzəsində kadrların ali məktəblərdə və Həkimləri Təkmilləşdirmə İnstitutunda hazırlanmasının əsl strategiyası irəli sürülmüşdür. Zərifə xanım çox doğru olaraq qeyd edirdi ki, xəstə özünə qapılanda, heç kimi yaxına buraxmayanda sürətlə zəifləyir, xəstəliyə müqavimət göstərmək üçün zəruri olan həyat sevincini itirir və nəhayət, həyat enerjisindən məhrum olur. Buna görə də xəstəyə onun vəzifəsindən, dərəcəsindən, maddi vəziyyətindən asılı olmayaraq mənəvi kömək göstərmək, dayaq olmaq hər bir həkimin vəzifə borcu olmalıdır, həkim çalışmalıdır ki, xəstənin yaşamaq iradəsini yüksəltsin. Zərifə xanım təkrarlamaqdan yorulmurdu ki, insanın iradəsi, mənəvi sağlamlığı – onun fiziki sağlamlığının mühüm dayağıdır. Bu mənada hər bir həkimin borcu yalnız xəstəni konkret olaraq hansısa xəstəlikdən müalicə etmək yox, həm də onun ruhunu, iradəsini sağaltmaqdır, müalicə etməkdir.

Məşhur həkim insanları sağlamlıqlarını qorumağa, onu qiymətləndirməyə, xüsusən gözün – onlara xidmət edən bu nemətin qədrini bilməyə çağırırdı. O, qeyd edirdi ki, müasir dövrdə yalnız xəstəliklərin yaranmasına səbəb olan faktları, səbəbləri əsaslı surətdə öyrənməklə kifayətlənmək olmaz, həm də insanları bu xəstəliklərdən qorumaq üçün lazım olan şəraiti necə yaxşılaşdırmağı, onların tam sağlam olmaq xoşbəxtliyinə nail olmalarına

necə kömək eləməyi də öyrənmək lazımdır. Zərifə Əliyeva belə deyirdi:

"Tibb qədim dövrlərdən etibarən ancaq xəstəlikdən əzab çəkənin müalicəsi ilə, xəstəlikdən əzab çəkənə kömək göstərməklə məşğul olub. Bizim günlərdə isə həkimlərin qarşısında müxtəlif xəstəliklərə qarşı mübarizə aparmaq vəzifəsi ilə bərabər, həm də insanların sağlamlığını qorumaq vəzifəsi durur".

O illərdə respublika rəhbərliyinin apardığı çoxşaxəli və planlı iş səhiyyənin inkişafına güclü təkan verdi. Səhiyyə sistemində və əhalinin sağlamlığında baş verən dəyişiklik dövlətin sosial siyasətinin məntiqi nəticəsi idi.

Dünya şöhrətli cərrah, Lenin mükafatı laureatı akademik F.Q.Uqlov özünün "Adamlar arasında insan" adlı kitabında *("Молодая гвардия", 1978)* yazır ki, həkim yalnız bədəni yox, ruhu da müalicə etməlidir. Əsl cərrah insan qəlbinin ən gizli guşələrinə xüsusi "cərrah bıçağı" ilə daxil olmaq üçün, hər şeydən əvvəl, cərrah stoluna yaxınlaşmazdan qabaq həyat və insan haqqındakı biliklərlə silahlanmalıdır. Sözün məcazi mənasında yox, həqiqi mənasında sözlə öldürmək olar. Eləcə, sözlə xəstəyə dayaq olmaq, onu ruhlandırmaq, insanpərvərlik göstərməklə onun sağalmasına kömək göstərmək mümkündür. Zərifə Əliyeva öz təcrübəsində məhz bu prinsiplər əsasında hərəkət edirdi.

Ümumiyyətlə, onun peşəyə, cəmiyyətə, insanlara münasibətinin başlanğıcı əxlaqi, psixoloji, mənəvi dəyərlərdən keçib gəlirdi. Qədimdə deyirdilər: sağlam bədəndə sağlam ruh olar. İndi isə Zərifə xanımın gənc nəslə müraciətlə dediyi sözlərə qulaq asın:

"Milli xarakterin ən yaxşı keyfiyyətlərini: sadəliyi, təmənnasızlığı, dostluqda sədaqətli, sözünə etibarlı olmağı, ürəyigenişliyi qoruyun. Mənəvi sağlamlıq – fiziki sağlamlığın rəhnidir".

İnsan varlığının əsasını təşkil edən və bir məqsədə xidmət edən iki qütb cümlədə sanki yerlərini dəyişib.

Zərifə xanımın həmkarlarının, onu yaxından tanıyan çoxsaylı adamların kitabda verilmiş rəyləri oxucunu inandırır ki, Zərifə Əliyeva yüksək əyarlı əxlaqa malik bir insan idi. O, xəstələri yalnız işdə, klinikada qəbul etmirdi, onları hər yerdə, zərurət halında hər şəraitdə qəbul edirdi; onlara məsləhətlər verir, əgər şərait tələb edirdisə, təcili surətdə işə qarışırdı; operasiya edir, heç kimi köməksiz qoymur, heç kimi ümidsiz qaytarmırdı.

Zərifə xanım kənd əhalisi arasında tibbi biliklərin təbliğini də fəal surətdə müdafiə edirdi. "Ailə həkimləri"nin rolunu yüksək qiymətləndirir, ailə həkimliyi institutunun yaradılmasını təkidlə tövsiyə edirdi. Onun 1983-cü ildə nəşr olunmuş "Həkimlərin mənəvi tərbiyəsi, deontologiya, tibbi etika və əxlaq məsələləri" adlı kitabı yalnız tibb işçilərinin stolüstü kitabı olmadı. Onu həm də insan münasibətlərinin, cəmiyyət əxlaqının nizamnaməsi saymaq olar. Zərifə Əliyeva həkimin həyat mövqeyini müəyyənləşdirərkən onun xəstəyə münasibətini əsas götürürdü. O, hesab edirdi ki, həqiqi həkimin xəstənin əzabına laqeyd qalmağa, xəstənin dərdinə şərik olmamağa haqqı yoxdur.

Zərifə Əliyevanın Özbəkistanın "Tibb" nəşriyyatı tərəfindən buraxılan "Şəkərli diabetdə göz xəstəlikləri" kitabı Orta Asiya və Cənubi Qafqazda geniş yayılmış bu xəstəliklə mübarizədə böyük rol oynadı. Bu əsər indi də oftalmoloqların stolüstü kitabıdır.

Qəhrəmanımızın maraq dairəsinin genişliyi, musiqi istedadı, teatra və musiqiyə olan marağı haqqında dəfələrlə danışdıq. Leninqrad (indi Sankt-Peterburq) Sanitar-Gigiyena İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri professor **A.N.Dobrolyubov**un şəhadətini də hekayəmizə əlavə edək. O deyirdi ki, Zərifə Əliyevanın mu-

siqini necə dinlədiyini və başa düşdüyünü onun “danışan gözlər”indən oxumaq olardı. Zərifə Əliyevanın sözlərinə görə, musiqi – insanı mənən təmizləyən sehrli incəsənət növüdür.

O, Üzeyir Hacıbəyovla, Müslüm Maqomayevlə, Qara Qarayevlə, Tofiq Quliyevlə, Fikrət Əmirovla və əsərləri təkcə Azərbaycanda deyil, onun sərhədlərindən çox uzaqlarda səslənən digər bəstəkarların yaradıcılıqları ilə fəxr edirdi, onların əsərlərinin vurğunu idi.

Onun fitri, təbii cazibədarlığı yüksək mədəniyyəti ilə fərqlənən nitqində də özünü göstərirdi. Aydın diksiya, ifadəli səs, təbii artistizm onun məzmunlu, dərin professionallıqla işlənmiş məruzə və çıxışlarının müvəffəqiyyət qazanmasına əhəmiyyətli dərəcədə təsir edirdi.

Hegel yazırdı ki, “…danışan adamın səsinin cazibəsinə əsasən onun daxili dünyasının gözəlliyini inamla müəyyənləşdirmək olar; səsin kobudluğu ilə də onun mənəvi pozğunluğunu…” Bu mənada qəhrəmanımızın nitqi və səsi onun daxili dünyasının harmoniyasını və yiyələndiyi mədəni zənginliyin və mənəvi dəyərlərin yüksək səviyyəsini əks etdirirdi.

Səsin ifadəliyi, intonasiyanın zənginliyi ünsiyyətdə əhəmiyyətli amildir. Zərifə xanım şəraitdən asılı olaraq həmişə lazım olan tonu tapmağı bacarırdı. Oxucu başa düşər ki, həkim praktikasında bəzən mürəkkəb şəraitlə qarşılaşmaq lazım gəlir. Düzgün səs tonu seçmək xüsusilə xəstəylə ünsiyyətdə vacibdir; axı xəstələr müxtəlif yaşlarda, müxtəlif xarakterlərdə olan adamlardır. Onlar sağlamlıqlarının ümumi vəziyyətinə və eləcə də xəstəliklərinin ağırlıq dərəcəsinə görə bir-birindən fərqlənirlər. Burada həkimin xəstəyə dediyi sözlərin psixoterapevtik təsiri haqda danışmaq lazım gəlir. Zərifə xanım belə qabiliyyətə, sözün tam mənasında, malik idi.

Biz onun musiqiyə olan məhəbbəti haqda danışdıq, lakin Zərifə xanım poeziyanı, ədəbiyyatı heç də musiqidən az sevmirdi, şairləri, yazıçıları mənəvi loğman hesab edirdi.

Azərbaycan Dövlət Tibb İnstitutunun keçmiş kafedra müdiri, mərhum professor **Adil Nəcəfov** öz xatirələrində yazırdı ki, Zərifə Əliyeva ədəbiyyatın vəzifəsini kamil, nəcib, güclü şəxsiyyət yetişdirməkdə, gözəllikdən və yaxşılıqdan güc almaqda, hər cür pisliyə və ədalətsizliyə qarşı barışmaz olmaqda görürdü.

Hələ əllinci illərin əvvəllərində istedadlı şair və dramaturq İslam Səfərli "Göz həkimi" pyesi üzərində işləyərkən Zərifə xanımdan məsləhətlər almaq üçün Oftalmologiya İnstitutuna gedir. Sonralar o, etiraf etmişdi ki, Zərifə xanımın iradları ona milli ədəbiyyatda və dünya ədəbiyyatında oftalmoloqlara aid tapdığı məlumatlardan daha çox kömək etmişdi. İ.Səfərli yaradıcılığında bu iradları nəzərə almışdı. Lakin Zərifə xanım pyesin rəsmi məsləhətçisi olmaq təklifini nəzakətlə, ancaq qəti şəkildə rədd edərək əlavə etmişdi ki, tibb və ədəbiyyat idealda eyni məqsədə xidmət edir.

Zərifə xanım çox məşğul olmasına baxmayaraq, teatr repertuarlarını izləməyə çalışırdı və deyirdi ki, klassik tamaşaların sehrli bir təsir gücü var; incəsənət nümayəndələri teatrın böyük sehrindən, həkimlər kimi, insanların xeyrinə istifadə etməyin daha effektli yollarını axtarmalıdırlar.

Məşhur oftalmoloq sözün rolunu şəfaverici bir vasitə olaraq görürdü. Akademik Dmitri Sergeyeviç Lixaçevin "Sözün çalarları" məqaləsində *("Литературная газета", 25 yanvar 1984)* poeziyanı "şəfaverici sənət"ə oxşatması da bu fikri təsdiqləyir. Əlbəttə, biz poeziyanın, incəsənətin şəfaverici rolunu məcazi mənada, mənəvi mənada başa düşürük.

Həkimlə xəstə arasındakı etibarlı münasibətə, bəlkə də, heç bir peşə fəaliyyətində insanlar arasında rast gəlmək mümkün deyil. Güman etmirəm ki, digər peşələrin nümayəndələri insanın həyatına – fiziki, psixi vəziyyətinə və mənəvi dünyasına bu qədər dərindən daxil ola bilsinlər (ədəbiyyatla məşğul olan həmkarlarım qoy məni məzəmmət etməsinlər)… Peşəsi həkim olan istedadlı söz ustası Anton Pavloviç Çexov yazırdı: "Əgər həkim geniş təfəkkürü qəbul etmirsə, o, tibbi inkar edir". Rus klassiki burada o keyfiyyətdən danışır ki, onu bizim kitabın qəhrəmanı öz tələbələrinə aşılayırdı.

Zərifə Əliyeva bütün bu yüksək keyfiyyətləri – yaxşılıq etməyi, səxavəti, alicənablığı böyüdüyü ailədən əxz etmişdi. Bunlar hamısı o ailəyə məxsus keyfiyyətlər idi: ziyalılıq, əməksevərlik, səmimilik, doğma ocağa, xalqa və vətənə məhəbbət, bəşəri dəyərlərə bağlılıq… Bu xüsusiyyətlər onun həyatında öz təcəssümünü tapmışdı.

Ocağın mühafizəçisi olmaq – öz-özlüyündə böyük bir işdir. Lakin bununla bərabər, ictimai həyatın fəal iştirakçısı olmaq, elm fədaisi olmaq, minlərlə xəstəni müalicə edib onlara gözünün nurunu qaytarmaq, tam dəyərli ömür yaşamaq – əsl xoşbəxtlikdir.

## Dördüncü fəsil

# ƏVƏZOLUNMAZ İNSAN

*Tərbiyə – böyük işdir.*
*İnsanın taleyi onunla həll olunur.*
*V.Belinski*

Alman filosofu və psixoloqu Karl Yaspers vaxtilə qeyd edirdi ki, TARİX, əslində, şəxsiyyət yaradıcılığının nəticəsidir, yəni şəxsiyyətdən kənarda heç bir tarix ola bilməz! O, əsərlərində bu barədə yazırdı: "Tarix ayrı-ayrı adamların daim və təkidlə irəliyə doğru hərəkətidir. Onlar başqalarını da öz arxalarınca getməyə çağırır, onları eşidənlər və başa düşənlər bu hərəkata qoşulurlar".

Görkəmli tarixi şəxsiyyət, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlunun portretinə baxanda daxili azadlıq, ləyaqət, ağıl, iradə – bunların hamısı onun çöhrəsindən oxunur. Qəhrəmanımızın həkim peşəsini seçməsində də başlıca rolu məhz onun atası – Əziz Əliyev oynamışdı.

Əziz Əliyev öz sələflərinin – mücahid və maarifpərvər N.Nərimanov, C.Əfəndiyev, Q.Musabəyov, M.İsrafilbəyov, T.Şahbazi, M.Vəkilov və digərlərinin şanlı

işini davam etdirən, Sovet Azərbaycanında səhiyyənin ilk qurucuları olan nəslə mənsubdur. İnqilabaqədərki Rusiyanın ali məktəblərində təhsil alan milli ziyalıların çoxu yalnız professional praktika ilə kifayətlənməmişdi. Onların vətəndaş kimi formalaşması bütün Rusiya imperiyasına yayılmış azadlıq fikrinin və inqilabi ideyaların güclü təsiri altında baş verirdi. Bu prosesə, hər şeydən əvvəl, qabaqcıl ideyalı, inqilabi düşüncəli rus ziyalılarının, mədəniyyət xadimlərinin təsiri olmuşdu. Onlar mədəniyyəti gözlənilən inqilabi yenidənqurma ilə bağlayaraq öz xalqlarının dirçəlməsinə, müstəqilliyinə, cəmiyyətin humanist başlanğıclar əsasında təzələnməsinə ümid edirdilər.

Məsələn, təhsilinə görə həkim olan, yaxşı dramaturq və yazıçı, Qoqolun "Müfəttiş" əsərini Azərbaycan dilinə tərcümə edən Nəriman Nərimanov şüurlu şəkildə inqilabi hərəkata qoşuldu və sonralar sovet dövlətinin görkəmli xadimlərindən biri oldu. O, bolşeviklərin ideyalarına səmimi surətdə inanaraq inqilabın yaratdığı fəlakətli və çarəsiz mühitin qurbanına çevrildi. Sovet Azərbaycanında hakimiyyətdə olarkən görkəmli ədəbiyyatşünas alim və maarifpərvər Firidun bəy Köçərlini ədalətsiz məhkəmədən xilas etməyə cəhd göstərdi. Təəssüf ki, qırmızıların gülləsi onun teleqramını qabaqladı. Ola bilər ki, Azərbaycan İnqilab Komitəsi sədrinin teleqramına etinasız yanaşdılar…

Amma o, çar ordusunun generalları, Port-Artur epopeyasının əfsanəvi qəhrəmanları Əliağa Şıxlinskini və Səmədbəy Mehmandarovu ölüm təhlükəsindən qurtara bildi. Nərimanov Leninə məktub göndərərək təkidlə tövsiyə edirdi ki, bu böyük sərkərdələrin təcrübəsindən və biliyindən bolşevik ordusunun qurulmasında istifadə edilsin.

Bu vətənpərvərin xeyirxahlığını nümayiş etdirən digər bir epizod da başqa cür düşünənlərə qarşı mübarizə aparılan vaxtda ("Kim bizimlə deyil, o – bizim əleyhimizədir") böyük yazıçı, bütün müsəlman Şərqində və türk dünyasında məşhur olan "Molla Nəsrəddin" jurnalının banisi və naşiri C.Məmmədquluzadə ilə bağlıdır. N.Nərimanov onu Təbrizdən Bakıya qayıtmağa inandırarkən çox xoş niyyətdə idi. Ancaq böyük satirikə Sovet Azərbaycanında pis münasibət göstərildi. Jurnal "yuxarı"dan vəzifəyə təyin edilən birinin imzası ilə çıxmağa başladı və sonra da nəşrini dayandırdı. 1926-cı ildə jurnalın yubileyi qeyd olundu. Cəlil Məmmədquluzadəni hətta yubileyə belə dəvət etmədilər.

Bizim gənc ziyalılarımız, o cümlədən Əziz Əliyev belə tarixi mühitdə formalaşırdı. O, şəxsi taleyində millətlərarası ədavətin, daşnak dəstələrinin cəzasız azğınlıqlarının, "bulanıq su"da hazırlanan ssenarilərin bütün ağrı-acısını dadmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti cəmi iki il yaşadı, qırmızı qvardiyaçıların süngüləri altında yıxıldı. Yeni hakimiyyət yarandı. N.Nərimanovu Moskvaya – ÜMİK-də rəhbər vəzifəyə çağırdılar və o, 1925-ci ildə şübhəli bir şəraitdə qəflətən vəfat etdi.

Lakin inqilabi eyforiya və bolşeviklərin yaratdıqları mif çox insanın şüuruna böyük təsir göstərərək öz işini gördü. "Ekspropriatorlar ekspropriasiyası"na və sinfi mübarizə haqqında ideyalara xoşbəxt gələcək haqqında gözəl ideyaları – bərabərlik, qardaşlıq, beynəlmiləlçilik və ədalət kimi ideyaları "yamamaq" boş şüar, şirma oldu, bunların təsiri altında cəmiyyətdə parçalanma dərinləşdi, konfrantasiya gücləndi.

* * *

Birinci fəsildə qeyd etdiyimiz kimi, Əziz Əliyevin ailəsi 1905-ci ildə İrəvana köçmüşdü. Bu dövrdə İrəvan qaynar çağlarını yaşayırdı. Bu tipik müsəlman şəhəri XX yüzilliyin əvvəlində Qafqazda elmin, maarifin, mədəniyyətin inkişaf etdiyi mərkəzlərdən biri idi. Köhnə İrəvan inqilabaqədərki Tiflis və Bakı kimi çoxmədəniyyətli bir cəmiyyət olaraq regionun iqtisadi, elmi və mədəni həyatında əhəmiyyətli rol oynayırdı. Əgər İrəvan mühitindən çıxmış azərbaycanlılar haqqında danışası olsaq, bu sırada xeyli görkəmli şəxsiyyətin, maarifpərvərin, alimin, tacirin adını çəkməliyik. Məsələn, Mirzə Abbas Məmmədzadə, İbadulla Muğanlı, soy-kökləri məşhur olan Mirbabayevlər, Bağırbəyovlar, Topçubaşovlar, İbrahimbəyovlar…

Akademiklər Mustafa Topçubaşov, Heydər Hüseynov, Əhməd Rəcəbli, görkəmli dövlət xadimləri Maqsud Məmmədov, Həsən Seyidov, Mir İbrahim Seyidov, bəstəkar Səid Rüstəmov İrəvan gimnaziyasının məzunu olublar.

Məşhur irəvanlı tacir Məşədi Bağırın – Kərbəlayı Hüseyn İbrahimovun xatirələrinə görə, onların Armudlu məhəlləsində, məscidin yanındakı evlərində o vaxtların irəvanlı Azərbaycan ziyalıları, o cümlədən Topçubaşovlar, Bağırbəyovlar yığışardı. Bu evdə akademik M.Kərimovun babası – Cabbar Kərimov da dəfələrlə ailəsi ilə qonaq olub. Məşədi Bağır xeyriyyəçi, mesenat kimi özü haqqında xoş xatirə qoyub; şahidlərin söylədiklərinə görə, o, 1919-cu ilə qədər ehtiyacı olan ailələrə, onların uşaqlarının oxumasına səxavətlə kömək göstərib. Müxtəlif məişət problemlərinin həllində onlara dəstək olub. Oğlanları Həsənağa və Kərbəlayı Hüseyn də İrəvanda təhsil alıblar – gimnaziyanı və tibb məktəbini bitiriblər.

O zaman İrəvanda "Leylək" satirik jurnalı, "Həqiqət" adlı ədəbi-bədii jurnal nəşr olunur, teatr tamaşaları nü-

mayiş etdirilirdi. Belə bir işıqlı mühitdə Əzizin oxuyub-öyrənmək həvəsi onu erkən yaşlarından digərlərindən fərqləndirirdi.

Birinci Dünya müharibəsi, cəmiyyətdə qarşıdurmanın artması, səfalət, bərbad vəziyyət… Hərc-mərclik zəmanəsi Məmmədkərim kişinin də ailəsinə öz təsirini göstərməkdə idi. Onda Əziz o dövrün qabaqcıl təhsil ocağı sayılan gimnaziyada oxuyurdu. Atasının ailəni saxlamaq imkanı azaldığına görə Əzizin təhsil haqqını vermək iqtidarında deyildi. Hərçənd, Əziz gimnaziyada əla oxuduğuna görə təhsil haqqı verməkdən azad edilmişdi. 1914-cü ildə atası xəstələndiyindən o, təhsilini davam etdirməklə yanaşı, ailəyə kömək üçün axşamlar uşaqları hazırlamaqla da məşğul olurdu.

Gələcəkdə Əziz Əliyev öz tərcümeyi-halında bu sətirləri yazacaqdı: "...İrəvan gimnaziyasında bütün təhsil illərində həmişə əla qiymətlərlə oxuduğumdan təhsil haqqı verməkdən azad olunmuşam. Əslində, heç təhsil haqqı vermək imkanımız olmayıb. Gimnaziyanın 6-cı sinfində oxuyarkən ailəni dolandırmaq, anamı və kiçik qardaşımı saxlamaq üçün axşamlar şagird hazırlamaqla pul qazanmışam".

Müəllimləri onu hədsiz tərifləyirdilər. Əzizgilin ailəsi o vaxtlar Topçubaşovlar ailəsi ilə bir-birinin xeyir-şərində yaxından iştirak edərdi. Ağa bəy Topçubaşov ağıllı və fərasətli uşaq olduğuna görə Əzizin xətrini çox istəyirdi. Həmişə onu oğlu Mustafa bəyə nümunə göstərirdi. Əzizdən iki yaş böyük olan və gələcəkdə Azərbaycan səhiyyəsində misilsiz simaya çevriləcək Mustafa bəy Topçubaşov da İrəvan gimnaziyasını 1915-ci ildə əla qiymətlərlə bitirib Kiyev Tibb Universitetinə qəbul olunmuşdu. Gələcəkdə Azərbaycanın görkəmli şəxsiyyətləri olacaq bu iki insanın ömür yolları bir-birinə çox bənzəyirdi...

Akademik **Mustafa Topçubaşov** öz xatirələrində yazırdı ki, Əziz qeyri-adi gənc idi – təhsildə, rəftarda, çalışmaqda, həlimlikdə və xeyirxahlıqda tayı-bərabəri yox idi. Görünür, tibbin atası Hippokrat "Həkimin andı"nı onun kimilərə baxıb yazıb.

...Mən Əzizi İrəvandan tanıyırdım. Biz ikimiz də bir gimnaziyada oxuyurduq… Bizim ailələrimiz arasında çox isti münasibət var idi. Onların ailəsi bizə hətta qohumlarımızın çoxundan daha yaxın idi. Xoşbəxt və kədərli vaxtlarda bir yerdə olardıq. Fərasətli və qabiliyyətli Əzizi atam xoşlardı. O, məndən iki sinif aşağıda oxuyurdu. Amma mənim dərsliyimdəki məsələlərdən başı çıxırdı. Məktəbdən sonra tez-tez məhəllə uşaqlarına dərslərini izah edirdi. Atam tez-tez Əzizin çalışqanlığını və dərrakəsini nümunə göstərirdi: "Əziz səndən iki yaş kiçikdir, amma ikiqat fərasətlidir. Müəllimlər əbəs yerə onunla fəxr etmirlər. Bütün şəhər onun haqqında danışır. Bax beləsindən nəsə çıxacaq…"

Əziz Əliyev nümunəvi gimnaziya təhsili almaqla yanaşı, uşaq yaşlarından həyatın sınaqlarına da öyrəşmişdi. Kasıblığın nə olduğunu bilirdi. Bəlkə də, məişət sıxıntıları ilə erkən yaşlarından tanışlıq, əhalinin əziyyətli yaşayışını görməsi onda güclü mərhəmət hissi doğurmuşdu. Bu hiss onun əxlaq kredosuna çevrilmişdi. Gənc Əziz insanlara xidmət etmək kimi yüksək ali ideyalarla yaşayırdı. Maddi çətinliklər onun cəmiyyətə faydalı xidmət etməsinə mane ola bilməzdi.

O, 1917-ci ildə gimnaziyanı qızıl medalla başa vurub, təhsilini Rusiyada davam etdirmək haqda fikirləşir. Və məşhur Bakı neft sənayeçisi, səxavətli xeyriyyəçilik fəaliyyəti ilə ümumxalq hörməti qazanmış Hacı Zeynalabdin Tağıyevə məktubla müraciət edir. Hacı da bu gənc oğlana təhsil almaq üçün üç yüz manat pul verərək ona həm

maddi, həm də mənəvi kömək göstərir. O vaxta görə bu, böyük pul idi. Əziz bu pulun bir hissəsini anasına verir, bir hissəsini də özü götürüb Peterburqa yollanır.

O, Sankt-Peterburqda tələbkar alimlərin iştirakı ilə aparılan müsabiqədən müvəffəqiyyətlə keçərək Rusiyanın ən öncül ali tibb müəssisələrindən sayılan, ölkənin sərhədlərindən uzaqlarda da məşhur olan Hərbi Tibb Akademiyasına daxil olur.

Budur, biz artıq tələbə Əziz Əliyevi səpmə yatalağına qarşı mübarizə aparan dezinfeksiya briqadasının tərkibində gənc sanitar kimi görürük. O vaxt bu yoluxucu xəstəlik, sözün həqiqi mənasında, minlərlə adamı qırıb tökürdü.

Əziz Əliyev aldığı maaşla həm özünün minimal güzəranını təmin edir, həm də valideynlərinə yardım göstərirdi.

...1918-ci ildə atasının ölümü haqqında acı xəbər gəldi. İrəvana qayıdan Əziz azərbaycanlı əhalinin yurd-yuvasından qovulmasının, onlara tutulan dəhşətli divanın şahidi oldu. Daşnak hökuməti, demək olar ki, genosid siyasəti aparırdı. Mahiyyət etibarilə antitürk və antiazərbaycan mahiyyətli siyasət müəyyən iri dövlətlər tərəfindən dəstəklənirdi. Bu siyasət insanlıqdan kənar məqsədlər güdürdü və ağlasığmaz vəhşiliklərlə icra edilirdi.

Belə qorxulu çağlarda anasına və kiçik qardaşına bir müddət xalası G.Qədimbəyova himayədarlıq etmişdi. Lakin burada daşnakların qəddarlıqlarına tab gətirmək qeyri-mümkün idi.

Elə həmin il tələbə Əziz Əliyev ailəsi ilə İrəvandan qovulan didərginlərin cərgəsinə qoşulur. Daşnak başkəsənlərindən canını qurtaran Əliyevlər ailəsi Naxçıvan diyarının Şərur rayonuna, sonra da Şahtaxtı kəndinə köçür. Lakin bir neçə ildən sonra Naxçıvan torpağı da

avantürist Andronikin başçılıq etdiyi erməni silahlı dəstələrinin müsəlman əhalini məqsədyönlü şəkildə qırıb məhv etdiyi cəbhəyə çevrilir. Qırğından sonra Əliyevlər sağ qalmış yerliləri ilə birgə Cənubi Azərbaycanın Ərəblər kəndində sığınacaq tapırlar. Əziz Əliyev sonralar qeyd edirdi ki, Şahtaxtı kəndi ilə Ərəblər kəndi arasındakı məsafə cəmi üç kilometr idi. Buna görə də onlar sərhəd olan Araz çayını keçərək ən qısa yolu seçmişdilər. O vaxtlar bütün azərbaycanlılar ucdantutma qırğın təhlükəsi altında idilər.

Həmin hadisələrin canlı şahidi olan Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, professor **Abbas Zamanov** yazırdı:

"Naxçıvanın, o cümlədən Şərur rayonunun əhalisinin həyatı daim təhlükə altında idi; daşnakların hücumundan ehtiyat edən əhalinin əksəriyyəti Cənubi Azərbaycana qaçmışdı. 1918-ci ildə bizim Şahtaxtı kəndinin əhalisi də İrana köçməyə məcbur oldu. Anam o vaxta qədər vəfat etmişdi. Atam, qardaşım İsmayıl və mən Xoy şəhərində sığınacaq tapdıq. Atam bir mülkədarın yanında muzdurluq edirdi. Həyat şəraitimiz çox ağır idi. Qardaşım məhrumiyyətlərə dözməyərək öldü… Biz öz kəndimizə gec qayıtdıq".

Yuxarıda qeyd etdiyimiz kimi, 1920-ci ildə Əziz Əliyevin sevimli anası Zəhra xanım Ərəblər kəndində vəfat etdi. Bu, Əziz üçün çox ağır itki olsa da, çətinliklər, sınaqlar, əziyyətlər onu sındırmadı, əksinə, onun xarakterini daha da möhkəmləndirdi, ən çətin şəraitdə ona qətiyyətlə hərəkət etməyi öyrətdi. Təəssüf ki, taleyin bu gözlənilməz faciələri ona Peterburqa qayıtmağa, orada təhsilini bitirməyə imkan vermədi. Amma o, tibdən ayrılmadı. Öz biliyini müstəqil surətdə artırdı. Tibbə aid dərslikləri dərindən öyrəndi. Aşağı vəzifələrdən başlayaraq müxtəlif

müalicəxanalarda, apteklərdə işlədi. Əhaliyə tibbi kömək göstərilməsində yaxından iştirak etdi. 1921-ci ildə Şahtaxtı kəndinə qayıdaraq, 1923-cü ilin yazına qədər orada çalışdı. Sonra Bakıya gələrək təhsilini davam etdirməyə qərar verdi.

Həmin vaxt Azərbaycan Dövlət Universiteti artıq yaradılmışdı. Və gənc Əziz təhsilini bu ali məktəbdə davam etdirməyə başladı. Nəhayət, 1927-ci ildə tibb fakültəsini bitirib uzun müddət intizarla gözlədiyi həkim diplomunu aldı. Bu istedadlı və bacarıqlı gənci Daxili xəstəliklər kafedrasında saxladılar. Əziz Əliyev bu sahədə sürətlə irəlilədi – ordinator, aspirant, assistent, dosent oldu. O özünü bütünlüklə universitetin ictimai və elmi həyatına həsr etdi.

1929-cu ildə o, artıq Kliniki İnstitutun direktoru idi. Bu vəzifə Əziz Əliyevin təşkilatçılıq istedadını, idarəçilik qabiliyyətini üzə çıxardı. Bir ildən sonra universitetin tibb fakültəsinin bazası əsasında Tibb İnstitutu yaradıldı. Böyük işgüzarlığı və professional keyfiyyətləri sayəsində Əziz Əliyev bu ali məktəbə rəhbər seçildi. O vaxt Tibb İnstitutunun qarşısında çox çətin vəzifələr və problemlər dururdu: Azərbaycan dilində dərsliklər və vəsaitlər yox idi, milli pedaqoji kadrlara böyük ehtiyac vardı…

Təkcə üç il ərzində qırx beş dərsliyin və vəsaitin hazırlanıb nəşr edilməsi Tibb İnstitutunun ilk rektorunun nəhəng işini göstərən faktdır. Kadrların hazırlanması işi də müvəffəqiyyətlə irəliləyirdi.

Əziz Əliyevin fəaliyyəti tədricən ümumdövlət əhəmiyyəti kəsb etməyə başlamışdı. Onun respublikada səhiyyənin təşkili və inkişafındakı xidmətləri 1930-cu illərdə özünü parlaq şəkildə göstərirdi. O, Xalq Səhiyyə Komissarlığındakı şöbələrdən birinə, sonra Bakı Səhiyyə Şöbəsinə rəhbərlik edir, xalq səhiyyə komissarının müa-

vini, sonra səhiyyə komissarı olur… Əziz Əliyev daşıdığı vəzifələrdə kabinetə qapanıb qalmağı qətiyyən xoşlamırdı. O, bütün Azərbaycanı rayon-rayon, kənd-kənd gəzirdi, insanların sağlamlığı ilə bağlı problemlərlə birbaşa tanış olur və onların həlli üçün üzərinə düşən vəzifələri yerinə yetirirdi.

Akademik Mustafa Topçubaşov xalq komissarının parlaq və fədakar fəaliyyətini xatırlayır:

"Səhiyyə Komissarlığının növbəti kollegiyası keçirilirdi. Kollegiyada qoyulmuş məsələlərdən biri ucqar xəstəxanalardan hansındasa işləyən bir cərrah barədə idi. Əməliyyat zamanı hamilə qadın qanitirmədən vəfat etmişdi.

Cərrah xəstənin ölümünün əsas səbəbini xəstəxanada qanəvəzedicilərin olmaması ilə izah etdi və komissarlığı günahlandırdı. Əziz Əliyev etiraf etdi ki, respublikada çox dərman vasitəsi, o cümlədən qanəvəzedicilər çatışmır. Və gözlənilmədən həmin cərrahdan soruşdu:

– Bəs sizin özünüzün necə, qanınız qaydasındadırmı?

– Hər şey qaydasındadır deyə bilməsəm də, şikayətim yoxdur.

– Mənimsə var.

– Şikayətiniz var?

– Bəli. Deyin görüm bu vaxta qədər qanköçürmə məntəqəsində neçə dəfə qan vermisiniz?

– Nə qədər qan vermişəm? – cərrah tutuldu, nə cavab verəcəyini bilmədi.

Xalq komissarı isə davam etdi:

– Siz də soruşa bilərsiniz ki, bəs sən özün nə qədər qan vermisən? Gəlin buradan birbaşa mərkəzə gedək və öyrənək…

Kollegiyadan sonra biz qanköçürmə mərkəzinə yollandıq. Girişdə Əziz bizi ağxalatlı adama göstərdi və dedi:

– Buyurun, sizə donor qrupu gətirmişəm! Prosedura başlayın!..

O özü bizdən yüz qram artıq qan verdi. Beləliklə, biz öyrəndik ki, o, həqiqətən, donordur. Hər il bir litrdən az olmayaraq qan verirdi. Mənim heç ağlıma da gəlməzdi…

1930-cu ildə Qarabağın indiki Xocavənd, keçmiş Martuni rayonunda gözlənilmədən taun xəstəliyi yayılmağa başladı. Təhlükəli epidemiya tədricən ətraf rayonlara da keçirdi. Əziz Əliyev dərhal bütün tibb ordusunu səfərbər etdi.

Ən görkəmli mütəxəssisi – akademik Lev Aleksandroviçi köməyə çağırdılar. Ancaq epidemiya qorxunc sürətlə artırdı. Çaxnaşma başladı, cahil və savadsız adamlar əhali arasında qeyri-adi, qorxulu şayiələr buraxdılar: guya Cənnətə düşmək üçün ölmüş adamın ciyərini yemək lazımdır; yaxud elə həmin ciyər guya tauna yoluxmanın qarşısını alır və digər belə cəfəngiyyatlar. Sadəlövh adamların bu tilova düşməsi qurbanların sayını artırırdı… Nəhayət, çaşdırılmış adamların etirazına və qəzəbinə baxmayaraq, qoşun hissələrinin mühasirəsi altında meyitləri yandırmağa başladıq. Ancaq bu yolla epidemiyanı aradan qaldırmaq mümkün oldu".

Gənclik vaxtından həmkarları tərəfindən "Təcili yardım" ləqəbi almış Əziz Əliyev həmişə ən mürəkkəb və çətin sahələrə can atırdı və vəziyyətin düzəlməsindən ötrü var qüvvəsini sərf edirdi.

Onun professional səriştəsi, geniş erudisiyası, uzaqgörənliyi, təşəbbüskarlığı, təşkilatçılıq istedadı, həssaslığı, ürəyiaçıqlığı, hər cür rəsmiyyətçiliyin, özünü "böyük məmur" kimi göstərmək adətinin ona yad olması Əziz Əliyevə ictimaiyyətin simpatiya və məhəbbətini qazandırmışdı. 1934-cü ildə o, Bakı Səhiyyə Şöbəsinə rəhbərlik edirdi. Bir ildən sonra isə onu Azərbaycan Tibb İnstitu-

tunun rektoru vəzifəsinə qaytardılar. 1937-ci ildə ona bu vəzifədən əlavə Azərbaycan Dövlət Universitetinin rektorluğunu da həvalə etdilər. Eyni vaxtda bir neçə belə vəzifə aparmaq, əslinə baxanda, bu görünməmiş iş onun professional imkanlarının olduqca genişliyini, çox böyük bacarığını sübut edirdi. İki ali məktəbin rektoru olan Əziz Əliyev 1936-cı ildən "Azərbaycan Tibb Jurnalı"nın baş redaktoru olur. Tibb İnstitutunun bu günə qədər "Təbib" adı ilə nəşr edilən çoxtirajlı qəzetinin əsası da onun təşəbbüsü ilə qoyulur (jurnal o vaxt "Tibb kadrları uğrunda" adlanırdı).

Əziz Əliyev Tibb İnstitutunda tibb elminin Mir Əsədulla Mirqasımov (sonralar Azərbaycan Respublikası Elmlər Akademiyasının ilk prezidenti), Mustafa Topçubaşov, Cahangir Hüseynov, Kamil Balakişiyev, Əbülfəz Qarayev (sonralar Azərbaycan Dövlət Universitetinin rektoru, dünya şöhrətli bəstəkar Qara Qarayevin atası) kimi ən məşhur simaları ilə çiyin-çiyinə işləmişdi. Həmin illərdə işıq üzü görən K.Balakişiyevin "Normal anatomiya", C.Hüseynovun "Patoloji anatomiya", Ümnisə Musabəyovanın "Göz xəstəlikləri" kitabları və başqa əsərlər Azərbaycan tibb elmində yeni mərhələ açdı. Təbii ki, Əziz Əliyevin də əsərləri bu kitabların arasında idi.

O, təkcə istedadlı təşkilatçı və öz təcrübəsini başqalarına öyrədən həkim deyildi, həm də dərin nəzəriyyəçi idi. Universiteti bitirdikdən iki il sonra Ə.Əliyev müvəffəqiyyətlə namizədlik, səkkiz il sonra isə doktorluq dissertasiyalarını müdafiə etmişdi. Onun nəzəri tədqiqatları təcrübə ilə üzvi surətdə bağlı idi. Ə.Əliyev klinik və eksperimental təbabətə aid çoxsaylı əsərlər yazmışdı. Bunların içərisində "Həzmetmə zamanı qanda xloridlər", "Eksperimental nefrit", "Naftalan – onun keçmişi və gələcəyi", "Müxtəlif yod məhlullarında saxlanılmış təcrü-

bə heyvanlarının daxili orqanları və gözləri üzərində bəzi morfoloji və sırf kimyəvi tədqiqatlar" və başqa əsərlərin adını çəkmək olar.

Onun "Kliniki analiz üzrə dərslik" kitabı tibb ictimaiyyətinin həyatında əsl hadisəyə çevrilmişdi. Bu kitab gənc kadrların hazırlanmasında əvəzsiz rol oynadı. Onun doktorluq dissertasiyası olan "Eksperimental nefrit" isə azərbaycanlı həkimin müdafiə etdiyi ilk doktorluq işi oldu.

Əziz Əliyevin işləyib hazırladığı kəskin nefritin patogenezi ilə bağlı allergiya nəzəriyyəsi bu xəstəliyin terapiyasını dərəcələrə ayırmaq üçün geniş imkanlar açdı. Onun doktorluq dissertasiyası gənc alimlərin Ümumittifaq müsabiqəsində SSRİ Tibb Elmləri Akademiyasının və ÜİLKGİ-nin xüsusi mükafatına layiq görüldü.

Mütəxəssislər qeyd edirlər ki, Əziz Əliyevin bu əsərinin heç indi də bənzəri yoxdur. Görkəmli alim və dövlət xadimi özündən sonra səksən üç elmi əsər qoyub. Onlardan yetmişi tibb elminin müxtəlif sahələrinə, qalanları isə tarix və siyasət məsələlərinə həsr olunub.

1930-1940-cı illərdə respublikada tüğyan edən malyariya və traxomanın kökünün kəsilməsi Əziz Əliyevin ən böyük xidmətləri sırasına daxildir. Onun təşəbbüsü ilə yeni dispanserlər, xəstəxanalar yaradılır. Elə həmin illərdə o, respublika üzrə fövqəladə antiepidemiya komissiyasının sədri seçilir. Başqa sözlə, qorxulu yoluxucu xəstəliklərlə mübarizə cəbhəsinə rəhbərlik edir.

Lakin tale onu başqa cəbhəyə də hazırlamışdı – faşist qoşunlarının xaincəsinə hücumuna qarşı ümumxalq mübarizəsi cəbhəsinə.

O, tarixi kataklizmlərin hökmü ilə Şimala və Cənuba ayrılmış Azərbaycan torpağına, xalqına dərin məhəbbətlə bağlı idi. Öz milləti ilə qan bağlılığı, onun dərdlərinə,

arzularına və maraqlarına bəslədiyi hərarətli hisslər özünü sonra – Sovet hökumətinin tapşırığı ilə İrana yollanan mədəniyyət xadimlərindən və partiya işçilərindən ibarət böyük bir qrupa rəhbərlik edəndə daha parlaq surətdə büruzə verəcəkdi.

Əziz Əliyev Sovetlər ölkəsinə sədaqətlə, can-başla qulluq etdi və bununla belə, kommunist rejiminin və ideoloji amirliyin sərt mühitində vətəndaş rəftarının yüksək mənəvi qayəsini qoruyub saxlaya bildi. O öz dünyagörüşünə görə humanist idi. Xalqların milli mentalitetinə hörmət edirdi. Müxtəlif xalqların mədəniyyətini öyrənməyə çalışırdı. Bu həqiqi beynəlmiləlçilik böyük müharibənin dəhşətli günlərində, Əziz Əliyev Dağıstan Vilayət Partiya Komitəsinə rəhbərlik edəndə özünü bir daha göstərdi.

Azərbaycanın sadiq oğlu kimi qalaraq o, Dağıstan xalqlarının da, Arazın o tayındakı qardaş və bacılarımızın da yüksək hörmətini qazandı. Əziz Əliyevi yaxından tanıyan yazıçı İmran Qasımov qeyd edirdi ki, müxtəlif dövlət missiyalarını yerinə yetirən Əziz Məmmədkərim oğlu ömrünün iyirmi ildən çoxunu Azərbaycandan kənarda keçirib. Fəaliyyət göstərdiyi bütün sahələrdə Vətəndaş, Humanist və Vətənpərvər vəzifəsini şərəflə daşıyıb…

1941-ci ilin aprelində Əziz Əliyevi Azərbaycan K(b)P MK-nın katibi təyin etdilər.

Artıq Qərbdə İkinci Dünya müharibəsinin alovu yanırdı. İyunun 22-nə, dan yerinin faciəli bir xəbərlə ağardığı günə lap az qalırdı…

Bakı Səhiyyə Şöbəsinin keçmiş rəhbəri kimi şəhərin səhiyyə sisteminə nəzarət edən, uzun illər komsomol, partiya və sovet orqanlarında işləyən Xosrov Ağayev o dəhşətli günlər ərəfəsində Əziz Əliyevlə ünsiyyətdə olmuşdu və Azərbaycan səhiyyəsinin liderinin tükənməz

enerjisini, prinsipiallığını və məhsuldar işini yaxşı xatırlayırdı. 1941-ci ildə Ağayevi Kirovabada (indiki Gəncə) köçürürlər. Xosrov Ağayev orada şəhər komsomol komitəsinə rəhbərlik edir. Ancaq əvvəlki vəzifəsinə hələ təyinat olmadığından Bakı səhiyyəsinə nəzarət işini bir müddət davam etdirir. İyun ayında müharibənin başlandığı ilk günləri **Xosrov Ağayev** belə xatırlayır:

"Biz fövqəladə iş rejiminə keçmişdik. Artıq ilk yaralıları qəbul edirdik. Hər şey cəbhənin ehtiyacları üçün səfərbər edilmişdi. Həmin ağır saatlarda da biz hələ fırıldaqçı, natəmiz adamlarla toqquşurduq. Baxmayaraq ki, həmin dövrdə belə ünsürlərə qarşı barışmaz mübarizə aparılırdı… Əziz Əliyev Gəncəyə gəldi. O, şəhər rəhbərliyi ilə görüşdə müharibə şəraitində səhiyyə problemlərinin həlli ilə bağlı bir sıra təxirəsalınmaz məsələlər irəli sürdü. Görüşün sonunda Əziz Məmmədkərim oğlu Zilberman familiyalı can həkimi ilə bağlı çoxsaylı şikayətləri yerində yoxlamaq istədiyini bildirdi…"

X.Ağayevin söylədiyinə görə, şəhər xəstəxanasının həkimi olan Zilberman müalicə bəhanəsi ilə xəstələrdən pul alırdı və onlara əsli məlum olmayan dərmanları zorla qəbul etdirirdi. Müalicənin müsbət təsiri olmadıqda isə xəstələrin özlərini günahlandırırdı. Guya onun göstərişlərini yerinə yetirməyiblər. Məlum oldu ki, bu həkim ürək-damar xəstəlikləri üzrə "ixtisaslaşıb". Xəstələrin əksəriyyətini şəhərin və ətraf rayonların əhalisi təşkil edirdi.

Xosrov Ağayev söhbətinə davam edir:

"Biz öyrəndik ki, bu həkimin arvadı hərdənbir Moskvaya, Leninqrada, Kiyevə gedirmiş. O şəhərlərdən müxtəlif adi ağrıkəsici dərmanlar alıb gətirirmiş… Bundan başqa, aydın oldu ki, onun mənzilində kirayənişin olan adam hər yerdə, hətta ətraf rayonlarda da bu adamı hey tərifləyərək xidmətinə görə aylıq haqq alırmış. Adamlar

da onun məsləhəti ilə gəlirlərmiş. Sonra məlum oldu ki, əmanət kassasında Zilbermanın adına o vaxta görə çox böyük məbləğdə, yüz min manat pul var. Əziz Əliyev sadə araşdırmalarla kifayətlənmədi. Faktları təsdiqləmək üçün zərərçəkənlərin çoxunu şəxsən özü qəbul etdi. Bir çox məqamları tamamilə aydınlaşdırdı. Sonra şəhər səhiyyə şöbəsinə bu xəstələri müalicə etmək haqqında göstəriş verdi. Aşkarlanan faktlar başabəla təbibin öz vəzifə borcunu yerinə yetirməkdə tam yararsız olduğunu göstərdi. Ancaq bundan sonra Əziz Əliyev onun işdən uzaqlaşdırılması qərarına gəldi. Müvafiq materiallar təhqiqat üçün prokurorluğa göndərildi".

M.Topçubaşov uşaqlıq dostunun həyatının sonrakı dönəmlərindən maraqlı epizodlar xatırlayır:

"Çətin dəqiqələrdə biz dərhal onun yanına qaçardıq. Mən Əzizin yanında müxtəlif peşəli, maraqlı adamlara rast gəlmişəm. Əzizin onlarla necə ünsiyyət qurduğunu görüb valeh olurdum. Əzizin yüksək elminə heç kim şübhə etməzdi, ancaq onun hansı ali məktəbi qurtardığını müəyyənləşdirmək çətin məsələ idi. O, bütün elmlərdən xəbərdar idi…

O, artıq Azərbaycan KP MK-da işləyirdi. Bakıda cərrahların müşavirəsi keçirilməli idi. Bununla əlaqədar mən onun yanına yollandım. Katibə məni tanıyırdı. Buna görə birbaşa kabinetə keçdim. Qapını açanda onun üç-dörd nəfərlə söhbət etdiyini görüb qayıtmaq istədim, amma o məni yanına çağırdı. Keçib oturdum. Söhbətdən aydın oldu ki, bu adamlar inşaat mühəndisləridir. Onların nə isə mübahisəli məsələləri vardı. Əziz onlarla bərabər səviyyədə, bu sahənin mütəxəssisi kimi söhbət apardı, dəyərli məsləhətlər verdi. Mən zarafatla soruşdum:

– Əziz, görünür, sən indi də təhsilini mühəndis institutunda davam etdirirsən?

– Yox, həkim, – üzündə təbəssüm izi olmadan cavab verdi. Sonra məndən soruşdu: – Sən tələsmirsən? – Özü də cavab verdi: – Əlbəttə tələsirsən. Tələsmək – bu, pis deyil. Ancaq təkcə tibbin xatirinə tələsmək, məncə, azdır… Daim tibbin xatirinə tələs, daim mühəndisliyin xatirinə, daim fəlsəfənin xatirinə, hələ daim aqronomluğun xatirinə… Amma, həkim, bu qədər ömrü haradan alasan?

Bizim hamımız kimi, Əzizə də bir ömür düşdü, bir neçə ömür yox. Elə bir ömür də onun bir çox elmlə maraqlanmasına çatdı. Lakin o heç vaxt özündən, öz biliyindən razı deyildi…"

1941-1945-ci illərdə Faşist Almaniyası ilə müharibə Əziz Əliyev şəxsiyyətinin daha bir keyfiyyətini – bacarıqlı hərbi təşkilatçı və istedadlı siyasi rəhbər olduğunu üzə çıxardı.

1941-ci ilin 25 avqustunda Zaqafqaziya hərbi dairəsinin qoşun hissələri Sovet–İran sazişinə əsasən İranda faşist agenturasının fəaliyyətini aradan qaldırmaq və sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə qonşu ölkənin ərazisinə daxil oldu və Təbrizə girdi.

İranda sovet kontingentinin siyasi rəhbəri vəzifəsinə polkovnik Əziz Əliyev təyin olundu.

Təbriz gərgin və həyəcanlı günlər yaşayırdı. Şah rejimi qədim prinsiplə – "parçala və hökmranlıq et" prinsipi ilə hərəkət edərək etnik qruplar arasına nifaq toxumu səpirdi. Hər dəqiqə kürdlərlə azərbaycanlılar arasında qardaş qırğını başlaya bilərdi. Digər tərəfdən, ölkəyə daxil olan qoşunun İranı "sovetləşdirmək" niyyətində olması barədə şayiə buraxılmışdı. Mülkədar ailələrindən, xan zümrəsindən olan fars zabitlər azərbaycanlılarla sovet qoşunlarını toqquşdurmaq üçün hər cür hiyləyə əl atırdılar.

Ovaxtkı İranda nasist təbliğatı nəzərəçarpacaq dərəcədə idi. Onun təsiri altında kürdlərin on min

nəfərlik silahlı yığma qoşunu sovet qoşunlarının gəlməsinə düşmən münasibət bəsləyirdi. Sovet tərəfinin vəzifələrindən biri bu qüvvələri neytrallaşdırmaq, daha yaxşı halda isə kürdlərlə etibarlı münasibət qurmaq idi. Bu çətin, incə və qorxulu məsələ Əziz Əliyevin üzərinə qoyulmuşdu.

O, kürd yığma qoşunu başçısının kiçik qardaşının toyu olacağını bilib oğlana və qıza, eləcə də onların yaxın qohumlarına kürd adətinə uyğun hədiyyə hazırlamağı tapşırır. Hədiyyələrin toy mərasiminin hansı məqamında və necə təqdim olunması məsələsi də nəzərdən qaçırılmır. O, toya yollanaraq əvvəlcədən qərarlaşdırılmış mərasimi dəqiqliklə yerinə yetirir. "Rəisi-şurəvi"nin, yəni sovet rəisinin bu jesti kürdlərə çox xoş təsir bağışlayır və öz siyasi təsirini yaradır.

Onda milli azadlıq qüvvələrinin istinadgahı, Cənubi Azərbaycanın paytaxtı Təbriz şəhəri hakim rejim tərəfindən iqtisadi blokadaya məruz qalmışdı. Şəhərin ərzaqla təminatı məqsədyönlü şəkildə pozulurdu: kənd əhalisinin gətirdiyi ərzaq hər gün diversantlar tərəfindən qarət edilirdi. Sovet qrupunun siyasi rəhbəri kimi Əziz Əliyev daim dramatik səhnələrlə rastlaşırdı. Qəzəblənmiş camaat yolunun üstündəki hər şeyi dağıtmağa hazır idi. Bu qəzəb istənilən an sovet hərbçilərinə qarşı da yönələ bilərdi. Həmin vaxt Əziz Əliyev qorxmadan xalqın içinə gedir, birbaşa əhaliyə müraciət edir və onları sovet kontingentinin humanist və sülhsevər missiyasına inandırır. Həm də o, tabeliyində olan qüvvələrə şəraiti izah edir:

– Biz İranın daxili işlərinə qarışmırıq. Lakin çəkişməyə yol vermədən ölkədə sabitliyi qoruyub saxlamalıyıq. Biz bu ölkəyə müharibə etmək üçün gəlməmişik. Biz bütün əhaliyə açıq şəkildə elan etməyə borcluyuq ki, xanlarla, mülkədarlarla, tacirlərlə… işimiz yoxdur.

Əhali ilə inam və əməkdaşlıq atmosferinin yaradılmasında, etnik qruplar arasında körpü salınmasında, ən başlıcası, Arazın o tayındakı Azərbaycan xalqının mədəni həyatının bərpasında və yüksəldilməsində, maarif ocaqlarının və humanitar mərkəzlərin təsis edilməsində, Azərbaycan dilində qəzetin nəşr olunmasında və İranda yaşayan milyonlarla həmvətənimizin milli mədəniyyətə qovuşmasında Sovet Azərbaycanı ziyalıları, görkəmli ədəbiyyat ustaları, elm xadimləri Süleyman Rüstəm, Mirzə İbrahimov, Qılman Musayev, Osman Sarıvəlli, Abbas Zamanov, Cabbar Məcnunbəyov və başqaları mühüm rol oynadı. Onlar İranın Azərbaycan regionlarında tez-tez qonaq olur, Təbrizin, Mərəndin, Ərdəbilin, Urmiyanın əhalisi ilə görüşürdülər.

Həmin tarixi dövrün tam təfərrüatı ilə tədqiq olunmasını, Əziz Əliyev kimi görkəmli dövlət xadiminin həmin tarixi dönəmdəki fəaliyyətinin geniş ictimaiyyətə çatdırılması zərurətini müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev Əziz Əliyevin anadan olmasının 100 illiyi yubileyində çıxışı zamanı xüsusi vurğulamışdı: “Bəli, vaxt gələcək, onun (Ə.Əliyevin – *H.M.*) həmin dövrdəki fəaliyyətinin təfərrüatı da aşkara çıxarılacaqdır. Lakin, məsələn, mənə məlumdur ki, o, görkəmli Azərbaycan yazıçıları Süleyman Rüstəm, Mirzə İbrahimov, Süleyman Rəhimov və bir çox başqaları ilə birlikdə orada necə cəsarətlə və ağılla iş aparırdı”.

Polkovnik Əziz Əliyev emissar və rəhbər kimi hər gün əhalinin müxtəlif təbəqələri ilə ünsiyyətdə olur və özünəməxsus duyğu, incəlik və fərasətlə bu mürəkkəb işi istiqamətləndirirdi. Onun insanlarla təmiz, açıq, səmimi, ürəkdən gələn söhbətləri adamlarda simpatiya və etibar doğururdu. Qorxunu və yanlış fikirləri aradan qaldırır, etnik qruplar arasında etibar yaradırdı.

Provakatorların, Sovetlərin əleyhinə olanların yalan və iftiralarından qorxub qaçan tacirlər, mülkədarlar tədricən Təbrizə qayıdırdılar. Şəhərdə həyat sahmana düşürdü.

Əziz Əliyev "21 Azər" milli-azadlıq hərəkatının aparıcı iştirakçıları ilə də görüşürdü. Hərəkatın rəhbəri Seyid Cəfər Pişəvəri "şurəvi rəisi" Əziz Əliyevə xüsusi hörmət bəsləyirdi.

Əziz Əliyevin təşəbbüsü ilə Təbrizdə xəstələrə pulsuz xidmət göstərən xəstəxana açıldı. Sovet Azərbaycanının incəsənət ustaları şəhər əhalisinin qarşısında çıxış etdi, Opera və Balet Teatrı Təbrizə qastrol səfərinə getdi.

Həmin hadisələrin iştirakçısı, görkəmli şair **Süleyman Rüstəm** sonralar xatırlayırdı ki, Cənubi Azərbaycanda Əziz Əliyevin adı, həqiqətən, dillərdə gəzirdi. Əziz Əliyevin İrandakı fəaliyyətini hərbi kontingentə rəhbərlik edən general-polkovnik **N.Trufanov** da çox yüksək qiymətləndirirdi:

"Ordunun hərbi sovetinin üzvü olan Əziz Əliyev İranda işləyərkən özünü bacarıqlı təşkilatçı və dərin siyasi savada malik şəxs kimi göstərdi. Mübaliğəsiz demək olar ki, Əziz Əliyev, sözün həqiqi mənasında, mərd insan idi".

Əziz Əliyev İranda ictimai-siyasi və humanitar fəaliyyətdən əlavə, elmi tədqiqatlarını da davam etdirirdi. Bu ölkədə qazandığı bilik və təcrübələrini 1942-ci ildə nəşr olunan "Cənubi Azərbaycanın iqtisadi coğrafiyası oçerki" kitabında ümumiləşdirmişdi (SSRİ EA filialının nəşri).

Xalq Yazıçısı **İmran Qasımov** Əziz Əliyev barədə xatirələrində yazırdı:

"O, kitabı sevirdi, kitab xiridarı idi. Orduda da, Dağıstanda da, Moskvada da, Bakıda da – hər yerdə həmdəmi kitablar idi, özü də onu maraqlandıran bütün problemlərin cavabını və həllini kitablarda tapırdı".

## Beşinci fəsil

# SƏKKİZ İL DAĞLAR ÖLKƏSİNDƏ

*Mən ömrüm boyu mənim Dağıstanımın və*
*mənim Azərbaycanımın şanlı oğluna minnətdaram.*
*Rəsul Həmzətov*

1942-ci ilin sentyabr ayında Əziz Əliyev Moskvaya dəvət edilir. Ona Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsi tapşırılır. Moskvada onun şəxsən İosif Stalinlə görüşündəki söhbətlərdən bizə heç nə məlum deyil. Yeganə bir həqiqət gün kimi aydındır ki, Əziz Məmmədkərim oğlu vəzifəyə deyil, ölüm-dirim müharibəsinə göndərilirdi. O illərdə nə Qafqazda, nə də Moskvada belə bir çətin vəzifəni yerinə yetirməkdən ötrü onun layiqli alternativi vardı. Onun yüksək savada, insani keyfiyyətlərə malik olması Kremlin ikinci adamı sayılan Malenkova yaxşı tanış idi. Odur ki, müharibənin ağır vaxtlarında Əziz Əliyevin Dağıstana birinci katib göndərilməsinə Malenkov zəmanət vermişdi.

Stalin, Malenkov və Əziz Əliyevin namizədliyi üzərində dayanan digər bolşevik rəhbərlər belə çətin və mürəkkəb bir bölgəyə kimi göndərdiklərini yaxşı bilir-

dilər. Ağır fəlakətin və işğal təhlükəsinin qarşısını almaq üçün yalnız Əziz Məmmədkərim oğlu müdrikliyi, təcrübəsi, savadı, qətiyyəti, xalqla bağlılığı, ünsiyyəti və comərdliyi gərəkdi! Beləliklə, 1942-ci ilin sentyabrında Dövlət Müdafiə Komitəsinin sədri İ.Stalinin əmri ilə Əziz Əliyev K(b)P Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi təyin olundu. Eyni vaxtda Dağıstan Müdafiə Komitəsinin sədrliyi vəzifəsi də ona tapşırıldı; Əziz Əliyev 58-ci ordunun Hərbi Şurasının və Hərbi Hava Qüvvələri Bakı Şurasının üzvü seçildi.

Əziz Məmmədkərim oğlu Əliyevin çiyinlərinə çox ağır, çətin, məsuliyyətli, zəhmət və həyəcan dolu qayğı yükü düşmüşdü.

Sovet İttifaqı üzərinə xaincəsinə hücum edən Hitler armadası çətin vəziyyətə düşən sovet qoşunlarının qəhrəmancasına müqavimətinə baxmayaraq, müvəqqəti hərbi üstünlükdən istifadə edərək Şimali Qafqaza qədər gəlib çatmışdı. Blokada halqasında qalan Leninqradın qanı tökülürdü...

Vermaxtın ön hissələri Moskvanın otuz kilometrliyində idi... Reyxin nasist ruhlu, alpinist qiyafəli əsgərləri Elbrus dağının məğrur zirvəsinə mənfur faşist bayrağını sancmışdılar. Dağlar ölkəsi Bakıya, Bakı neftinə can atan Hitler qoşunlarının qarşısında son sipər idi. Müharibə qənimətlərindən olan bir kinoxronika xəritə üzərinə əyilmiş fürerin həvəslə “Bakı piroqu”na barmağını uzatdığı kadrları qoruyub saxlayır...

Alman komandanlığı Mahaçqalanı Xəzərdə özünün qalasına çevirmək – forpostu etmək niyyətində idi.

Cəbhə xətti zonasında olan Dağıstan çox çətin şəraitdə yaşayırdı. Bəzi müəssisələr köçürülmüşdü. Real işğal təhlükəsi Dağıstanın başının üstünü almışdı. Amansız düşmənlə qəhrəmancasına döyüşən Qafqazın cəsur oğul

və qızlarını ehtiramla yad etməklə bərabər, bəzən canını qurtarmaq üçün təlaşa düşənlərə, cılız ürəkli adamlara da rast gəlmək olurdu... Fərarilik halları artmışdı.

Bir yandan da aclıq və xəstəlik insanlara ağır zərbələr vurmaqda idi. Belə bir vaxtda Dağıstanın ən yaxşı qüvvələrini, vətənpərvərlərini, ləyaqətli adamlarını, müdrik yaşlılarını, yurdsevər gənclərini öz ətrafında birləşdirmək, otuzdan artıq müxtəlif xarakteri, fərqli adət-ənənələri olan xalq və etnik qrupları bir ailədə birləşdirib, Dağıstanın müdafiəsinə səfərbər etmək ən vacib məsələ idi.

Əziz Əliyevin xatirələrindən:

“Vilayət komitəsinin iclası çox kəskin keçdi... Yerli partiya, sovet orqanlarını ayağa qaldırmaq, rəhbərlərin məsuliyyət hissini yüksəltmək, xalq kütlələrini səfərbər etmək lazım idi. Ancaq necə, kimin köməyi ilə? Nədən başlamalı? Necə başlamalı?

Dağıstanın ərazisi əlli min kvadrat kilometrdən çoxdur. Burada əllidən çox inzibati rayon, bir neçə min kənd, qəsəbə, aul var. Onların çoxuna ancaq piyada, yaxud atla gedib çıxmaq olar. Elə birinci gündən muxtar respublikanın təbii şəraitini, yaşayış məntəqələrinin yerlərini, xalqların və etnik qrupların kompakt yaşadıqları məntəqələri, Çeçen-İnquş Muxtar Respublikası ilə sərhəd zonasının zəif nöqtələrini, dağ aşırımlarını, əsas yolları, dağ cığırlarını müəyyənləşdirmək və onların müdafiəsini təşkil etmək lazım idi.

Dağıstanda otuzdan çox xalq və etnik qrup yaşayır. Avarlar, ləzgilər, darginlər, kumıklar, laklar, azərbaycanlılar, tabasaranlılar, noqaylar, rutullar, tatarlar sayca daha çoxdurlar. Qarşıda müxtəlif xarakterli, müxtəlif adət-ənənələri olan çox sayda xalqı və etnik qrupu vahid bir ailədə birləşdirmək vəzifəsi dururdu...”

Necə və nədən başlamalı? Vilayət komitəsinin yeni təyin olunmuş rəhbəri tez və operativ surətdə ordu komandanlığı ilə, Hərbi Şuranın üzvləri ilə görüşür, vaxt çatışmazlığı üzündən Nazirlər Sovetinin rəhbərləri, nazirliklərin nümayəndələri ilə gecə yarısı söhbət edirdi. Lakin aldığı məlumatlar onu razı salmır; bu vaxt o, özünün sınaqdan çıxmış taktikası ilə hərəkət edir: özü rayonlara, kəndlərə və aullara yollanır. Aydın olur ki, bir sıra kəndlərin əhalisi işğal olunmuş zonalarda faşistlərin törətdikləri vəhşiliklər haqqında şayiələrdən qorxaraq meşələrə, əlçatmaz dağlıq yerlərə çəkilib…

Hekayəmizin əsas mövzusunu unutmuş kimi görünməyək. Zərifə Əliyevanın atasının parlaq bioqrafiyasına tarixi ekskursiyanı hər halda oxucu üçün faydasız hesab etmirik. Xüsusən ona görə ki, Əziz Məmmədkərim oğlu Əliyevin bioqrafiyası Sovetlər ölkəsinin tərkibindəki bir çox xalqın tarixindən, onların həyatındakı taleyüklü hadisələrdən, tarixi qələbənin ümumi xəzinəsinə daxil olan əmanətdən ayrılmazdır. Halbuki indi bunun əhəmiyyətini azaltmağa, yaxud təhrif etməyə çalışırlar. Ancaq Rəsul Həmzətov belə deyirdi: "Əgər keçmişə tüfəng atsan, gələcək səni topa tutar..."

Bu nöqteyi-nəzərdən bir neçə kəlmə də Dağıstanın paytaxtı haqqında danışaq. Gənc oxuculardan, bəlkə də, az qismi bilir ki, bu şəhərin rəsmi tarixi 1722-ci ildən – I Pyotr donanmasının İran üzərinə yürüşündən başlayır. O vaxt döyüş gəmiləri Əncirarx dağının ətəklərində Xəzərə çıxan əlverişli liman tapdılar. Burada Petrovsk-Port adlı qala tikildi; qalanın yaxınlığında məskunlaşan əhalinin sayı artdı. Çox sonra – 1857-ci il oktyabrın 24-də qala liman şəhəri Petrovsk adını aldı. Tezliklə liman tikildi və Vladiqafqaz dəmir yolu çəkildi.

Tarixin daha keçmiş dövrlərinə baxsaq, bilərik ki, bu gözəl və əlverişli buxta hələ qədim əcdadlarımızın diqqətini cəlb etmişdi. Yeddi min il bundan əvvəl burada Tarnair adlı yaşayış məntəqəsi olmuşdu. Sonra o böyüyərək Səməndər şəhərinə, xəzərlərin paytaxtına çevrilmişdi. X əsrin ərəb tarixçisi Müqəddəsi bu şəhər haqqında yazır: "O, Volqa üzərindəki məşhur İtil (İtil – Volqanın qədim adlarından biri – *H.M.*) şəhərindən böyükdür. Onun müdafiə divarları yanında dəhşətli müharibələr olmuşdur. Məhz bu müharibələr gedişində Qafqaz və Cənub-Şərqi Avropa xalqlarının taleyi həll olunmuşdur".

Petrovsk, demək olar ki, günbəgün yox, saatbasaat böyüyürdü. 1913-cü ildə bu şəhərdə on beş fabrik və zavod işləyirdi. Bundan iki il əvvəl isə ilk teatr açılmışdı. 1917-ci ildə Rusiyada inqilab oldu, burada hərbi inqilab komitəsi yaradıldı. Bu komitənin tərkibinə daxil olan Mahaç Dahadayev sonralar ağqvardiyaçılar tərəfindən öldürüldü. 1921-ci ildə Dağıstan İnqilab Komitəsi 14 may tarixli əmri ilə Petrovsk-Portun adını dəyişdirib Mahaçqala (Mahaçın qalası) qoydu.

…Əziz Əliyev rayonlara səfərdən gecə yarısı qayıtdı. Vilayət komitəsinin binası qarşısında onu qarovulçu qoca ləzgi qarşıladı. Söhbət başlandı və qoca gözlənilmədən belə bir məsləhət verdi: kəndlərini və ocaqlarını tərk etmiş dağlıları qayıtmağa kənd ağsaqqallarının və ruhanilərin köməyi ilə inandırmaq olar. Dağlıların itaət etdiyi iki qüvvə var: göydə – Allah, yerdə – ağsaqqal.

Birinci katib tez bir zamanda Mahaçqalada ağsaqqalların müşavirəsini keçirir. Yaşlıların şurası yaradılır. Qəsəbə mərkəzlərində və yaşayış məntəqələrində isə ağsaqqallar qrupu toplanır. Qocalar böyük məmnuniyyətlə əhalini dağlıq ərazilərdən doğma ocaqlarına qaytarmağı vəd edirlər.

Həqiqətən, adamlar yavaş-yavaş öz evlərinə qayıdır və fəal surətdə təsərrüfatın bərpasına başlayırlar. Eyni vaxtda təbliğat fəaliyyəti də inadla davam etdirilir. Həmin günlərin şahidləri – ləzgilər, avarlar və başqa xalqların nümayəndələri sonralar danışacaqlar ki, Əziz Əliyev vaxtla hesablaşmayaraq, yorğunluğa fikir verməyərək iki mindən çox kənddə olmuş, hər yerdə adamlarla görüşmüş və söhbət etmişdi. Gəncləri qayıtmağa, arxa cəbhədə işə qoşulmağa, vətənin müdafiəçiləri sırasında durmağa inandırmışdı. Birinci katib döyüş mövqelərini də gəzirdi. O, blindajda da gecələməli olmuşdu, çovğuna da düşmüşdü, dağlı yapıncısına bürünüb gecəni maşında da keçirmişdi…

Onun rəhbərliyi altında tez bir zamanda özünümüdafiə dəstələri təşkil edildi. Muxtar vilayətdə yerləşən nizami ordu hissələrinə yerli xalqdan bələdçilər təyin edildi. Təxribatçıların aşkar edilməsi və zərərsizləşdirilməsi üçün xüsusi qruplar təşkil olundu.

Düşmən təbliğatı ilə provakatorlar tərəfindən qızışdırılan, mürəkkəb və ziddiyyətli əhvali-ruhiyyəyə meyilli olan, müxtəlif dilli, çoxmillətli cəmiyyəti hərəkətə gətirmək və birləşdirmək üçün nə qədər qüvvə, mənəvi güc, diplomatlıq bacarığı tələb olunduğunu təsəvvür etmək belə çətindir. Bununla belə, vilayət partiya komitəsinin birinci katibi, hər şeydən əvvəl, məğrur dağlıların ənənəvi nizamnamələrinə və məcəllələrinə, heysiyyətinə, şərəfinə, igid döyüşçülər olan ulu babalarının xatirəsinə hörmətlə yanaşırdı.

Müharibə sərt qanunlar diktə edirdi. Çaxnaşmanın, sabotajın hər bir təzahürü amansız cəzalandırılırdı. Stalin rejimi, bir balaca inamsızlıq şübhəsi yarandıqda, bütöv xalqları köçürməkdə heç bir tərəddüd etmirdi. Dağıstanlılar Krım tatarlarının, Volqaboyu almanlarının, balkarla-

rın, çeçenlərin, inquşların… aqibəti haqqında eşitməmiş olmazdılar.

Azərbaycan EA-nın müxbir üzvü, professor **Hacı Həmzətov**un xatirələrindən:

"Müharibənin dördüncü ili gedirdi. Əziz Məmmədkərim oğlu Əliyevin vilayət komitəsinə rəhbərlik etdiyi o ağır illərdə mən vilayət komitəsinin mətbuat şöbəsinə rəhbərlik edirdim. Həmin muxtar respublikanın bir neçə dağlıq rayonunun əhalisi düzən əraziyə köçürülmüşdü. Köçürülənlər iqlimə uyğunlaşa bilmirdilər, xəstələnirdilər. Malyariya və yatalaq insanları həlak edirdi. Respublika hökuməti səyyar qərargah hazırladı, ərzaq məhsulları, müalicə preparatları ilə təmin etdi, tibb işçilərindən ibarət briqadalar göndərdi…

Qərargah Binay aulunda indiki Novolak kəndində yerləşirdi. Respublika xalq səhiyyə komissarının müavini, mənim uşaqlıq dostum Camal Əbdürrəhim oğlu Hacıyev qərargahın rəisi təyin edildi. Məni isə həmin kəndə siyasi işçi göndərdilər… O vaxtlar adamlar mənən sarsılmışdılar. Cəbhədə ölənlərdən başqa hər gün müxtəlif xəstəliklərdən 50-dən çox adamın öldüyü haqda məlumat daxil olurdu… Kənddə olduğum bir neçə gün ərzində mən heç kimi gülən görmədim. Hamı qaşqabaqlı, yorğun, gözləri şişmiş gəzirdi.

Kənd əhalisini ruhlandırmaq, onların əhvali-ruhiyyəsini yüksəltmək üçün baş sındırırdım. Fikrimi Camal Əbdürrəhim oğluna danışdım. Diqqətlə qulaq asdı və qətiyyətlə dedi:

– Doğrudur, mənəvi amil çox mühümdür… Kişen kəndində (1944-cü ildə bu kəndin adı dəyişdirilib Çapayev qoyuldu – *H.M.*) Qarakənddən köçmüş gözəl müğənni qadın yaşayır. Mən onu Kulində işlədiyim vaxtdan tanıyıram. Lakin… belə vəziyyətdə onu narahat etmək,

onun yanına getmək nə dərəcədə münasibdir? İndi insanlar ehtiyac içərisində yaşayırlar, heç yaxın qohumlara və tanışlara da qonaq getmək yaxşı deyil.

– Gəl risk edək, – mən təklif etdim. – Sənin imkanın daxilində kömək göstərmək səlahiyyətin var. Gəl un, yağ, lobya, hər ehtimala qarşı bir şüşə spirt götürək… Onun ailəsinə baş çəkək və kənd klubunda əhalinin qarşısında çıxış etməsini xahiş edək…

Biz elə də etdik. Bu konsert adamlara çox böyük sevinc bəxş etdi!

Burada mənim yaddaşımda bir epizod canlanır. Həmin dövrdə mən öz əsas işimlə paralel SSRİ Yazıçılar İttifaqının Dağıstan şöbəsinin məsul katibi vəzifəsini də yerinə yetirirdim… Yazıçılar da pis yaşayırdılar. Kitabları, demək olar ki, çap olunmurdu, ərzaq payı isə hamıya verilmirdi.

Yazıçılar İttifaqı rəhbərliyinin xahişi ilə hökumət bu qurumun bütün üzvlərinə ərzaq payı verməyi qərara aldı. Elə vəziyyət yarandı ki, dövlət qulluğunda olan yazıçılara iki ərzaq payı düşdü. Təftiş komissiyası bu barədə hökumətə məlumat verdi. Bu səbəbə görə Əziz Məmmədkərim oğlu məni yanına çağırdı və izahat tələb etdi. Mən ədiblərin çoxunun yoxsul vəziyyəti, uşaqlarının yalınayaq, paltarsız olduğu, doyunca yeməməkdən, xəstəlikdən əziyyət çəkdikləri haqqında məlumat verdim. Bu ailələr çoxlu digər həmvətənlərinin əksinə, aullardan heç bir kömək almırdılar, yazıçıların ikiqat ərzaq payından məhrum olması onların ailələrinin acınacaqlı vəziyyətə düşməsi ilə nəticələnə bilərdi. İki kartoçka alanlar arasında Ənvər Adjiyev, Abutalıb Qafarov, Hacı Zalov və bir çox başqaları vardı. Mən etiraf etdim ki, ehtiyac üzündən anamın tikdiyi yeganə kostyumumu satmışam. Əlavə etdim ki, başqa yazıçıların satmağa heç nəyi yoxdur…

Bir müddət sonra Əziz Əliyev bütün yazıçıları vilayət komitəsinə çaya dəvət etdi. Onları dinlədi, səmimi söhbət elədi. Sonra onlara yardım göstərilməsi haqqında sərəncam verdi və maddi yardımı təqdim etdi".

Digər bir hadisə haqqında sadə Dağıstan zəhmətkeşi danışır:

"Bir dəfə biz piyada Mahaçqaladan xeyli məsafədə olan kəndə yollandıq. Xalam da uşaqlarıyla bərabər mənimlə idi. Yolda güclü yağışa düşdük. Uşaqların əlindən tutaraq onları şiddətli yağışdan qorumağa çalışırdıq. Birdən bir maşın bizə çatdı və yanımızda dayandı. Şofer soruşdu:

– Yolunuz haradır?

Mən kəndin adını dedim. Maşından mötəbər bir kişi çıxdı və dedi: "Minin maşına". Və şoferə əmr elədi: "Onları kəndə apar və qayıt". Mən yolda maraqlandım ki, bu adam kimdi? "Vilayət komitəsinin birinci katibi Əziz Əliyev", – şofer cavab verdi".

Əziz Əliyev çoxmillətli Dağıstanı, onun fədakar, qonaqpərvər əhalisini ürəkdən sevirdi. Dağlılar da tezliklə Əziz Məmmədkərim oğlunu sevdilər, onun bütün təşəbbüslərini və işlərini müdafiə etdilər.

Dağıstanın müxtəlif xalqlarını və etnik qruplarını birləşdirmək və onlar arasında etibar yaratmaq Əziz Əliyevin əsas nailiyyətidir. Müharibə illərində orada milli zəmində bir dənə də olsun münaqişə olmadı. Dağıstanlılar həm arxada vicdanla işlədilər, həm də cəbhədə şərəflə döyüşdülər.

Əziz Əliyevin təşəbbüsü ilə Vətəndaş müharibəsi qəhrəmanı Qara Qarayevin adına milli eskadron yaradıldı. O, döyüşçü süvariləri cəbhəyə yola salarkən onlara üzərində "Dağıstan fövqəladə könüllü süvari eskadronu" yazılmış qırmızı bayraq verirdi.

Döyüşçülər and içirdilər ki, vətənin tapşırığını şərəflə yerinə yetirəcəklər və bayrağı təslim olmuş Berlinin üzərinə sancacaqlar. Və andlarına əməl etdilər. Mozdokun cənubundakı İşşer stansiyasından döyüşə başlayan eskadron 416-cı Taqanroq diviziyasının tərkibində mühüm döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirərək Berlinə qədər getdi.

416-cı diviziyanın komandiri vilayət komitəsinin birinci katibinə yazırdı:

"Dağıstan döyüşçüləri bizim sıralarımızda cəsarətlə və mərdliklə döyüşərək vətənimizin düşmənlərinə güclü zərbələr endirdilər. Diviziyanın bütün şərəfli döyüş yolu boyu Dağıstan süvariləri gözlənilməz zərbələri ilə, düşmən arxasına qəfil reydləri ilə fərqləndilər…"

Dağıstanda 91-ci atıcı diviziya da yaradılmışdı. Sonra ona fəxri Melitopolsk adı verildi. Əziz Əliyev şəxsən özü diviziyanın cəbhə yolu ilə, iştirak etdiyi döyüşlərlə maraqlanırdı. Diviziyanın döyüşçüləri məktublarından birində Əziz Əliyevə məlumat verirdilər:

"Biz Dağıstan zəhmətkeşlərinin gündəlik qayğısını hiss edirik. Bu qayğı düşmənlə vuruşlarda bizə yeni güc verir. Dağıstan zəhmətkeşləri ilə bizim diviziya arasındakı sıx əlaqə bizi güclü və məğlubedilməz elədi".

Vilayət komitəsinin birinci katibi əsgər ailələrinə qayğıya böyük əhəmiyyət verirdi. Hərbi qulluqçuların ailələrinə göstərilən nümunəvi yardıma görə Dağıstan təkcə 1944-cü ildə iyirmi beş dəfə Ali Baş Komandanlığın təşəkkürünü almışdı.

Bu da hərbi qulluqçu Penkolun 14 mart 1944-cü ildə Əziz Əliyevə yazdığı məktubdan bir parça:

***"Bu gün balaca qızımdan məktub aldım. O, məndən aldığı bağlamaya görə sevincini bildirir; bağlamanı isə, əlbəttə, mən göndərməmişəm. Arvadımın məktubundan***

***bildim ki, Sizin tapşırığınızla aparatınızın işçisi ailəmgilə gəlib və Qızıl Ordunun yaranmasının 26-cı ildönümü münasibətilə hədiyyə verib. Uşaqlar belə hesab ediblər ki, həmin yoldaş mənim adımdan gəlib və çox seviniblər. Yoldaş Əliyev, mənim ailəmə göstərdiyiniz qayğıya görə Sizə ürəkdən təşəkkür edirəm. Mən bunu heç vaxt unutmayacağam…"***

Mənzillə, ərzaq təminatı ilə, tibbi xidmətlə bağlı məsələləri Əziz Əliyev daim diqqət mərkəzində saxlayırdı. Onun nəzarəti altında Xalq Ticarət Komissarlığı və İstehlak Kooperasiyaları İttifaqının köməyi ilə cəbhədən təxliyyə olunanları paltarla təmin etmək üçün yardım fondu yaradılmışdı.

Mahaçqalada və digər şəhərlərdə cəbhənin ehtiyaclarına uyğun müdafiə əhəmiyyətli yeni istehsal sahələri təşkil olunurdu. Müharibə illərində Dağıstanda bir nəfər də olsun acından ölən olmamışdı.

Xəzərdə balıq ovu artır, yeni balıqçılıq briqadaları və məntəqələri yaradılırdı. Ovlanan balığın hər tonu SSRİ Dövlət Müdafiə Komitəsinin nəzarəti altında idi və balıq məhsulları hərbi hissələrə göndərilirdi. Hərbi hissələrə hər il əlli-altmış tondan çox balıq məhsulu verilirdi.

1944-cü ilin yazında Xəzərdə balıq ovu çox uğurlu oldu. İllik plandan iki dəfə çox balıq ovlandı. Müvəffəqiyyət balıqçıları ruhlandırdı və onlar payız ovunda daha birillik planı yerinə yetirməyi öhdələrinə götürdülər… Balıqçı gəmilərini təmir etdilər, gəmi iplərini, torları hazırladılar… Əfsus… Mövsüm ərəfəsində Xəzər özünün tərs üzünü göstərdi – fırtına qopdu, dalğaların hündürlüyü beş-on metrə çatırdı. Fırtına bir aydan çox davam etdi. Təbii ki, dənizə çıxmağa imkan yox idi və balıq ovu nəzərdə tutulandan az oldu… Cəbhədə isə verilmiş vədi gözləyirdilər. Vilayət komitəsinin rəhbəri Moskva rəh-

bərliyi qarşısında cavab verməli idi. İttifaqın hidrometeorologiya xidmətindən göndərilən sənədlər Əziz Əliyevin iddialarını təsdiq etdi. Ümumiyyətlə, Moskvada vəziyyəti başa düşdülər və artıq heç bir tələb irəli sürmədilər.

Özünün həkimlik təcrübəsindən faydalanan Əziz Əliyev hərbi xəstəxanalarda işin dəqiq təşkilinə çoxlu vaxt sərf edirdi. Onun tövsiyəsi ilə partiya təşkilatları ağır yaralıların yanında gecə növbələri təşkil edirdilər. Hərbi klinika fasiləsiz olaraq ərzaqla təmin olunurdu.

Dağıstanda müalicə olunmuş yüz otuz beş min xəstədən yüz iki mini yenidən cəbhəyə qayıtdı.

Faşistlərdən azad edilmiş respublika, ölkə və vilayətlərə Dağıstan zəhmətkeşləri böyük həcmdə meyvə və tərəvəz, iyirmi səkkiz min baş qoyun, min yüz at, min iki yüz iribuynuzlu qaramal göndərdilər.

Stalinqradda (indi Volqoqrad) dağıntılar aradan qaldırıldığı vaxt dağıstanlılar iki yüz əlli nəfər gənc oğlan və qızı traktor zavodunun bərpasına göndərdilər. Birinci katib şəxsən özü xeyir-dua verib onları vağzaldan yola saldı. Sonra Sevastopolun bərpasına kömək fondu yaradıldı. Çoxlu ərzaq, beş milyona yaxın pul yığıldı, habelə on iki vaqon tikinti materialı və avadanlıq Sevastopola göndərildi.

Fond üçün vəsait yığılmasındakı xidmətlərinə görə Dağıstan rəhbərliyi Ali Baş Komandanlıqdan yetmiş beş dəfə təşəkkürnamə aldı. Dağıstanda yaradılan azərbaycanlılardan ibarət diviziya, Dağıstan alayları və digər bölmələr Cənuba can atan düşmənin yolu üstündə güclü sipər yaratdılar, sonra öz cəbhələrində şiddətli hücuma keçdilər, Rostov vilayətinin, Taqanroqun azad edilməsində qəhrəmancasına vuruşdular. Və şərəfli yolu Berlində başa vurdular. Əlli Dağıstan döyüşçüsü Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü, otuz beş min nəfərdən çox döyüşçü orden və medallarla təltif olundu.



Zərifə xanım Əliyeva



Əziz Əliyev. 1928-ci il



Leyla xanım



Əziz Əliyev və Leyla Əliyeva. 1931-ci il



Zərifə xanımın körpəliyi. 1924-cü il



Əziz Əliyev. 1946-cı il



Leyla xanım. 1945-ci il



Zərifə xanım
qardaşı ilə.
1926-cı il



Əziz Əliyevin ailəsi. Zərifə xanım ikinci sırada ortada.
1932-ci il



Əziz Əliyev ailə üzvləri arasında.
Zərifə xanım ikinci sırada. 1936-cı il

Zərifə xanım
Əliyeva (sağda)
rəfiqəsi ilə.
1936-cı il





Zərifə xanım
qardaşı ilə



Zərifə xanım Yaltada istirahətdə. 1938-ci il

Əziz Əliyev
oğlu Tamerlan və
qızı Zərifə ilə.
1938-ci il





Əziz Əliyevin ailəsi. 1945-ci il



Əliyevlər ailəsi. 1947-ci il



Zərifə xanım atası
Əziz Əliyev ilə.
1948-ci il



Zərifə xanım doğmaları ilə. 1948-ci il



Zərifə xanım
Əliyeva



Gülarə, Leyla, Zərifə və Əziz Əliyevlər. 1948-ci il



Zərifə xanım Əliyeva



Zərifə xanım və Heydər Əliyev. 1954-cü il



Zərifə xanım və Heydər Əliyev. 1955-ci il



Zərifə və Heydər Əliyevlər qızları Sevil ilə.
1956-cı il



Qızları Sevil ilə.
1957-ci il



Qızları Sevil ilə. 1958-ci il



Qızları Sevil ilə. 1962-ci il





Oğlanları İlham ilə. 1963-cü il




Zərifə xanım Əliyeva



Qızları
Sevil ilə.
1964-cü il




1964-cü il



Zərifə xanım və Heydər Əliyev.
1968-ci il



Zərifə xanım və
Heydər Əliyev


Qızları Sevil və oğlanları İlham ilə. 1968-ci il


Zərifə xanım
oğlu İlham ilə.
1970-ci il



Zərifə xanım Əliyeva



Moskva. Qızıl meydan. 1976-cı il





Oğlanları İlham ilə. 1977-ci il





Qızı Sevil ilə.
1981-ci il



Zərifə xanım oğlu İlhamın
xidmət etdiyi hərbi hissədə

Əziz Əliyevin Dağıstanın yaradıcı ziyalılarına, mədəniyyət ustalarına və gənclərinə qayğıkeş, son dərəcə həssas münasibəti xüsusi söhbətə layiqdir.

Xarakterindəki işgüzarlıq, məsuliyyət, özünə və başqalarına qarşı nəzakətli olmaq, tələbkarlıq hissləri yaşamaq, yüksək tərbiyəvi, əxlaqi dəyərlərlə fərqlənmək və başqa keyfiyyətlər Əziz Əliyevi həm ailədə, həm cəmiyyətdə sevdirən, eyni zamanda fəaliyyətində ona uğurlar qazandıran amillər idi. Dağlar ölkəsinin çoxsaylı xalqları ona "Qurucu Əziz" ləqəbi vermişdilər. Çünki hansı sahəyə üz tuturdusa, o sahədə quruculuq işləri görürdü. İstedadlı gənclərə qayğıdan, abadlıqdan, yaşıllıqdan tutmuş əhali arasında maarifləndirici işlərə kimi bütün sahələrdə şəxsən özü iştirak edirdi.

Əziz Əliyev müharibənin ən ağır vaxtlarında da Dağıstanda mədəni quruculuğu hərtərəfli, sistemli şəkildə aparır və həm yaradıcılıq proseslərinə, həm də sənət ocaqlarının maddi-texniki bazasının, sənətçilərin sosial-məişət qayğılarının həllinə özü nəzarət edirdi. Bu baxımdan 1943-cü ilin əvvəlində Kumık Dövlət Dram Teatrının rəhbərliyinin və kollektivinin müraciəti ilə sənət ocağının diyarın paytaxtına – Mahaçqalaya köçürülməsinin müzakirəsi olduqca xarakterikdir. Əziz Əliyev deyir ki, indi idarə və müəssisələrin evakuasiyası dayandırılıbdır. Amma sənət adamlarının bu xahişini yerinə yetirmək lazımdır. Qərar layihəsi ilə tanış olandan sonra əlavə edir ki, teatrın köçürülməsi hələ məsələnin həlli deyil, bəs artistlər harada yaşayacaqlar? Layihədə bu məsələ ilə bağlı konkret təklif edilməlidir. Təklif isə belə olur: "Vilayət Partiya Komitəsinin birinci katibi, Şəhər Müdafiə Komitəsinin sədri Əliyev yoldaşa həvalə olunsun ki, Puşkin küçəsindəki 16 nömrəli dördmərtəbəli evin boşaldılmasına nail olsun". Bu bina artistlərin yaşaması üçün boşaldılmalı idi və büronun il-

kin qərar layihəsində yaddan çıxmışdı. Respublika rəhbəri başa düşürdü ki, bütün bir binanın boşaldılması, orada yaşayanların mənzillə təmin edilməsi, artistlərin həmin binaya köçürülməsi və s. məsələlər vəzifəcə ikinci-üçüncü şəxslərə tapşırılsa, sürətlə həll olunmayacaq, ona görə də məsuliyyəti öz üzərinə götürdü.

Bir cəhətə də diqqət yetirmək lazımdır. Adam heyrətlənir ki, respublika rəhbəri ağır günlərdə sənət məsələlərinə necə vaxt tapırdı? Bu məsələnin müzakirəsi gecə ötəndən sonra başlamış, qərar layihəsində düzəlişlər etmək üçün teatrın rəhbəri vilayət Partiya Komitəsinin müvafiq məsul işçiləri ilə başqa otağa keçmişdilər. Bu vaxt ərzində büroda başqa məsələlər müzakirə edilmiş, sonra yenə teatr məsələsinə qayıdılmış, sanballı qərar gecə saat 3-də qəbul olunmuşdu və bundan sonra da büro işini davam etdirmişdi.

Rusiya Federasiyasının Xalq Artisti, o illərdə Kumık Dövlət Dram Teatrının rəhbəri **Həmid Rüstəmov** xatirələrində yazır ki, Əziz Məmmədkərim oğlu teatrın repertuarının zənginləşməsinə, hərbi-vətənpərvərlik ruhlu pyeslərin səhnəyə qoyulmasına (pyesləri özü oxuyur, rejissor yozumu ilə tanış olur, tövsiyələrini verir, premyeralara baxırmış), teatrın maddi-texniki bazasının möhkəmləndirilməsinə diqqət yetirir, kollektivin məişət problemlərinə son dərəcə qayğı ilə yanaşırdı. Respublika rəhbəri Həmid Rüstəmovu teatr məsələləri ilə bağlı qəbul edib dinləyərkən bəzən söhbəti dayandırmalı olur, "BÇ" telefonu ilə cəbhədən həyəcanlı xəbərlər alır, dəqiq, konkret, müvafiq tapşırıqlar verirmiş.

Əziz Əliyevin H.Rüstəmova dediklərindən:

"...Çətin vaxtdır – müharibə gedir. Biz hamımız qələbə üçün çalışırıq. İnsan xarakterinin dəyərləri elə çətin günlərdə açılır". Bu dəyərlərin açılışı, qorunub saxlanma-

sı yalnız Dağıstan xalqları mədəniyyətinin o çətin illərdə də çiçəklənməsi sahəsində deyil, dağlar diyarının və Azərbaycanın düşməndən müdafiəsi, tarixi xilası məsələsində də çox iş gördü. Biz yalnız Kumık Dövlət Dram Teatrının fəaliyyətinə göstərilən qeyri-adi diqqətlə bağlı bir-iki epizodu qısaca şərh etdik. O ağır illərdə Dağıstan xalqlarının mədəniyyətinin inkişafı ilə bağlı yüzlərlə belə maraqlı epizodu xatırlatmaq olar. Təkcə onu demək kifayətdir ki, ölümlə üzbəüz vaxtlarda Əziz Əliyev Rus Dram Teatrını, Bunyak Avar Teatrını, Lak Milli Teatrını, Dargin Milli Teatrını və başqa xalqların peşəkar sənət ocaqlarını yaradır və inkişaf etdirir, SSRİ Xalq Komissarları Sovetinin Avar Teatrının dördüncü qrupdan ikinci qrupa, Azərbaycan və Ləzgi teatrlarının üçüncü qrupa keçirilməsi barədə qərar qəbul etməsinə nail olur.

Dağıstanda təhsilin inkişafı sahəsində də Əziz Əliyevin xidmətləri misilsizdir. Bu sistemdə ən böyük yeniliklərdən biri dağlı qızlarına orta və ixtisas təhsili üçün şərait yaradılmasıdır. Diyar rəhbərinin səyləri sayəsində yaradılan Qadın Müəllimlər İnstitutu, Qadın Pedaqoji Məktəbi, Tibb İnstitutu, habelə Tarix və Dil İnstitutu, Kənd Təsərrüfatı İnstitutu və onlarca başqa təhsil müəssisəsi savadsızlığın ləğvi, qadınların və bütün gənclərin ictimai həyatda öz yerlərini tapması ilə nəticələndi. Səhiyyə sahəsində əsaslı quruculuq işləri aparıldı: xəstəxanalar, poliklinikalar açıldı, uşaq kitabı nəşriyyatından başlamış elmin, mədəniyyətin bütün sahələrinə dair əsərlərin yerli xalqların dillərində çapı üçün uyğun bazalar yaradıldı. Və bütün bunlar ölümlə üz-üzə vaxtlarda həyata keçirilirdi.

Azərbaycanın Xalq Yazıçısı İmran Qasımov Əziz Əliyevlə bağlı xatirələrində onu belə xarakterizə edirdi:

“Əziz Məmmədkərim oğlu çox yaraşıqlı kişi idi və dəblə geyinərdi – zolaqlı köynək, bu rəngdə göz oxşayan

qalstuk – hər şey onda həmahəng idi. Təzə vəzifəsinə çox ciddi yanaşar, yeri gələndə zarafatından da qalmazdı...

Yox, onun işi zarafatsız aşmırdı, rastlaşdığı çətinliklərin öhdəsindən gəlmək üçün zarafatı özünə, bir növ, silah seçmişdi.

Bütün bunları fikirləşdikcə o böyük insanın parlaq şəxsiyyətinə, zəngin mənəviyyatına heyrət etməyə bilmirsən".

...O, ən ciddi söhbət əsnasında da işin xeyrinə zarafatından, gülüşündən qalmazdı.

İ.Qasımov Dağlar ölkəsində təyyarə ilə harasa gedəndə belə Əziz Əliyevin öz "silah"ından məharətlə istifadə etdiyini belə qələmə alır: "...Təyyarəni cəbhədən təzəcə qayıtmış məşhur təyyarəçi Nurəddin Əliyev idarə edir. Əziz Məmmədkərim oğlu yenə zarafatsız keçinə bilmir: "Bu fırfıra maşın bizi dağlara çırpıb qərq etməsə yaxşıdır! Amma sənət xatirinə bir aula da gərək uçaq, orada bir dəliqanlı avar balası peyda olub. Çox maraqlı oğlandır..."

Sağ-salamat həmin aulda yerə endik. Çox çəkmədi həmin avar balasını gördüm, bığ yeri təzəcə tərləyirdi.

Əziz Əliyev dedi:

– Hə, sizin ağsaqqallarla söhbət etmişəm, onlar səni tərifləyirlər.

– Məni atam Həmzət Sadasa da tərifləyir, – deyə gələcək şair ötkəm-ötkəm bildirdi.

– Sizin qocalardan soruşuram ki, bu necə olan işdir, balaca oğlan şeir yazır, axı avar dilinin lüğət tərkibi kasaddır. Onlar mənə deyirlər ki, balacalığına baxma, o, çox kamallı oğlandır, ağıl dəryasıdır. Şeirləri ürəyə yatır. Nə isə, məktəbi yaxşı bitir, sonra səni Moskvaya göndərərəm, təhsilini orada davam etdirərsən..."

Xalq Şairi **Həmzət Sadasa** xatırlayırdı ki, heç vaxt heç kimdən Əziz Məmmədkərim oğlunun yüksək mədəniy-

yətinə, xeyirxahlığına və alicənablığına kölgə sala biləcək bir söz və eyham belə eşitməmişdi. O, həqiqətən, çox gözəl insan idi.

Əziz Əliyev Həmzət Sadasanı ailəsi ilə birlikdə Sada aulundan Mahaçqalaya dəvət etdi, partiya komitəsinin həyətində mənzil ayırdı, Mahmudun, Yetim Eminin, Süleyman Stallının, Abutalıbın, başqa yazıçıların əsərlərini və folklor topluları nəşr etdirdi. Məhz onun səyləri sayəsində SSRİ Elmlər Akademiyasının Dağıstan filialı – Akademik Mərkəz yaradıldı, elmin müxtəlif sahələrinə, xüsusən Dağıstan tarixinə, dillərinə, etnoqrafiyasına dair ciddi elmi tədqiqatlar başladı, ali, orta ixtisas məktəbləri açıldı, təhsilin, səhiyyənin tərəqqisinin səviyyəsi yüksəldi. Dağıstan oxucusu ilk dəfə olaraq bir topluda öz diyarında müxtəlif dillərdə yaranmış ədəbi nümunələrlə tanış olmaq imkanı qazandı.

1944-cü ildə şəxsən Əziz Əliyevin təşəbbüsü ilə Lenin ordeni ilə təltif olunmuş Həmzət Sadasanın yaradıcılığının əlli illiyi Dağıstanda təntənəli şəkildə qeyd edildi.

Həmzət Sadasanın oğlu **Rəsul Həmzətov** xatırlayır:

"Atamı birinci məhz Əziz Əliyev təbrik etdi və birdən mənə müraciət etdi: Rəsul, gəl biz səni Moskvaya, Qorki adına Ədəbiyyat İnstitutuna göndərək".

Əziz Əliyevin yüngül əliylə gələcəyin şöhrətli şairinin böyük ədəbiyyata yolu beləcə başladı. Moskvada ədəbiyyatın beşiyi və rus ədəbiyyatının ustadları ilə tanışlıq və dostluğun gənc Rəsul Həmzətovun yaradıcılığının formalaşmasında və taleyində oynadığı rol hamıya məlumdur.

Lakin o vaxt Rəsul Həmzətov Əziz Məmmədkərim oğlunun təklifinə belə cavab vermişdi: "Şair olmaqdan ötrü mütləq Moskvaya getmək lazımdır? Budur, Süley-

man Stalski institut qurtarmayıb, amma şeir yazır". Ancaq sonralar şair etiraf etdi ki, "hər şey o vaxtlar təsəvvür etdiyim kimi deyilmiş".

Əgər sənin və gələcəyin haqqında fikirləşirlərsə, bu, xoşbəxtlikdir. Bu, ağır sınaq günlərində, əli silah tuta bilən hər kəsin vətən uğrunda düşmənlə vuruşduğu bir vaxtda xüsusilə qiymətlidir.

Rəsul Həmzətov qeyd edir ki, Əziz Əliyev vətənimizin böyük vətəndaşı idi. O, insanlara qarşı çox həssas və qayğıkeş bir adam kimi böyük nüfuz qazanmışdı. Mən öz ailəmizdən danışmıram. Hərçənd, atam oğlunu müharibədə itirən kimi Əliyev dərhal bizə gəlib başsağlığı, anama təskinlik və ürək-dirək verdi. Mənim, qardaşımın və bacımın başını sığalladı. Demək olar, o, hər gün gəlirdi – gah büro üzvləri ilə birlikdə, gah da təkcə özü. O, hər evə baş çəkirdi.

Əziz Əliyev şəxsiyyətinin və Dağıstan xalqlarının ona olan məhəbbətinin sirri nədədir? Əslində, burada heç bir sirr yoxdur. Sadəcə olaraq o, həyatının daha əvvəlki dövründə qazandığı təcrübə və hikməti ürəkdən, səxavətlə və təmənnasız olaraq Dağıstan xalqlarına vermişdi.

Müəllim **Camal Abubakarov** dağıstanlıların Əziz Əliyevə olan məhəbbətini sadə, ancaq alovlu və təlatümlü sətirlərlə belə ifadə etmişdir:

*Sən mənim xalqımın böyük dostusan,*
*Unudulmaz əsla etdiyin xidmət.*
*Səni Dağıstana bağladı, inan,*
*Əbədi olaraq bu tale, bu bəxt.*

*Layiqli oğlusan sən qardaş xalqın –*
*Azərbaycan doğma vətənin, yurdun.*
*Çoxdur Dağıstanın boynunda haqqın,*
*Böyük igidliklə onu qorudun.*

*Həm müəllim, həkim, həm də dost oldun,*
*Sən bütün canını verdin vətənə.*
*İşıqlı, parlaqdır bax həyat yolun,*
*Bütün nəsillərə oldun nümunə.*

Dağlılar həmçinin qeyd edirlər ki, Əziz Əliyev özü ilə Dağıstana Azərbaycanın və azərbaycanlıların ən yaxşı cəhətlərini gətirmişdi. Həmin vaxtlar Azərbaycandan Səməd Vurğun, Bülbül Dağıstanı ziyarət etdilər. Dağıstanlılar Rəşid Behbudovu ilk dəfə olaraq səhnədə gördülər, Niyazini alqışladılar.

Əziz Əliyev Mahaçqalanı mədəniyyət mərkəzinə çevirdi.

Görkəmli dövlət xadimi **M.Umaxanov** Əziz Əliyevin gənclərin tərbiyəsindəki böyük əməyini qeyd edir:

"Şəxsən mənim taleyimdə, düzgün həyat yolu seçməyimdə Əziz Məmmədkərim oğlunun rolu böyük olub. Mən il yarım bu əvəzedilməz insanla birlikdə işləmişəm".

Əvəzedilməz insan! Bu, çox dərin bir tərifdir. Bu, tanınmış filosof Tofflerin XX əsrin sonunda çap olunmuş "Hakimiyyətin metamorfozları" əsərində irəli sürülmüş konsepsiyanın açar tezislərindən biridir. Demək, hələ o vaxt, sovet cəmiyyətində "bizdə əvəzedilməz insan yoxdur" postulatının hökm sürdüyü bir vaxtda bəsirətli ağıl sahibləri bu sözün yanlışlığını dərk etmişlər. Xüsusən Əziz Əliyev kimi şəxsiyyətlərin nəhəng fəaliyyəti göz qabağında olanda. Ümumi işə zərəri olmayan qarşılıqlı əvəzetmə konsepsiyası sənaye inqilabının ilk mərhələsi ilə bağlıdır. Məhz həmin fəlakətli müharibə illərində transformasiya və köklü dəyişiklik SSRİ-də və Qərbdə sənayenin və cəmiyyətin sosial sahəsinin inkişafı ilə bağlı məsələlərin mürəkkəbləşməsinə səbəb oldu. Hər bir fəaliyyətin mahiyyətində mexaniki vərdişlər yox, bilik du-

rur. Məhz o, insanın səriştəlik səviyyəsini yüksəldir və buna görə rəhbərin – idarəedənin (fərqi yoxdur: o, həkimdir, yoxsa mühəndis) sənəti daha çox fərdiyyət kəsb edir.

Dövlətin Əziz Əliyevin fəaliyyətini qiymətləndirdiyi yüksək mükafatlardan – iki Lenin ordeni, "Vətən müharibəsi" ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni, "Qafqazın müdafiəsi uğrunda", "Almaniya üzərində Qələbəyə görə", "Böyük Vətən müharibəsi illərində şərəfli əməyə görə" medallarından onun şərəfli və inadlı əməyinin əks-sədası gəlir. Amma, görünür, Əziz Məmmədkərim oğlu üçün ən böyük mükafat qədirbilən Dağıstan xalqının məhəbbəti idi.

Müharibədən sonrakı illərdə, 1948-ci ilin dekabrına qədər o, həmişəki kimi, tükənməz enerji ilə muxtar respublikanın rəhbəri vəzifəsində işləyir. Akademik Mərkəzin, sonra isə SSRİ EA Dağıstan filialının yaradılmasında, muxtar respublikanın ali məktəblərinin inkişafında onun töhfəsi misilsizdir. Dağlı gənclərin təhsilə cəlb edilməsi, qadın mütəxəssis-kadrların hazırlanması və onların ictimai fəaliyyətə, təsərrüfat fəaliyyətinə cəlb olunması, Mahaçqalada Qadın Pedaqoji İnstitutunun və Qadın Pedaqoji Məktəbinin əsasının qoyulması da vilayət partiya komitəsinin birinci katibinin xidmətləri sırasına daxildir.

1946-cı ildə Əziz Əliyev muxtar respublikadan SSRİ Ali Sovetinin katibi, bir il sonra Dağıstan Ali Sovetinin deputatı seçilir. Dekabrda onu Moskvaya oxumağa göndərirlər, ancaq o, Dağıstanla sıx əlaqə saxlamaqda davam edir.

Hafizəsi möhkəm dağlılar indi də bu qeyri-adi və istedadlı rəhbəri minnətdarlıqla xatırlayırlar. **Məhəmməd Qurbanov** yada salır:

"O, şablondan uzaq şəxsiyyət idi. Yüksək prinsipiallıq, dövlət xidmətində fədakarlıq və bununla bərabər adi

insani işlərdə xeyirxahlıq və qayğıkeşlik – Əziz Əliyev öz xarakterində bax bu keyfiyyətləri birləşdirirdi”.

Onun sözünü **X.Pirsəidov** davam etdirir:

“Dağıstanlılar heç vaxt Əziz Əliyevin bizim xalqların taleyində oynadığı rolu unutmayacaqlar. Dağıstan və Azərbaycan uzun əsrlər boyu sülh və mehribanlıq şəraitində yaşayıb, bu münasibətlərin bəşəri dəyərlərə, mədəniyyətlərimizin, adət və ənənələrimizin eyniliyinə əsaslanan dərin tarixi kökləri var. Azərbaycanın, Dağıstanın, Rusiyanın çiçəklənməsi naminə biz həmişə dostluğumuzu möhkəmləndirəcək, iqtisadi, elmi və mədəni əlaqələrimizi inkişaf etdirəcəyik”.

Bəli, dağıstanlılar Əziz Məmmədkərim oğlu Əliyevi daim hörmətlə xatırlayır və nəsillər dəyişdikcə də hər zaman ehtiramla xatırlayacaqlar. Əziz Əliyevin Dağıstanda keçirilən yüz illik yubileyi mərasimində Rəsul Həmzətovun çıxışındakı bu məqamlar çox ibrətlidir: “Dünyaya Nizami, Füzuli, Mirzə Fətəli Axundov, Şəhriyar, Səməd Vurğun, Rəsul Rza, Mehdi Hüseyn, Məmməd Rahim kimi görkəmli xadimlər və qədir-qiyməti hələ axıradək lazımınca dəyərləndirilməmiş, əziz xatirəsi qarşısında borclu qaldığımız Əziz Məmmədkərimoviç Əliyev kimi görkəmli şəxsiyyət verdiyinə görə, Azərbaycan xalqına böyük minnətdarlığımızı bildiririk”.

Dağıstan Universitetinin Tarix kafedrasının dosenti **Murad Qurbanov** belə deyir:

“Əziz Əliyev Böyük Vətən müharibəsi dövründə Dağıstanın rəhbəri olaraq bir xilaskar rolunu oynayıb. Əziz Əliyev Dağıstan və Dağıstan xalqının bütövlüyünü qoruyub saxlaya bilib. 1944-cü ildə onun səyləri nəticəsində yerli əhali mümkün deportasiyadan xilas olub. Əziz Əliyev həm də müharibə illərinin çətinliyinə baxmayaraq, Dağıstan mədəniyyətinə də böyük önəm və töhfə verib”.

Tarixçi alim bildirir ki, Əziz Əliyevin xatirəsi hər bir dağıstanlı üçün çox dəyərlidir və Dağıstan xalqı tarixinin ən çətin illərində belə rəhbəri olduğuna görə çox şanslı olub. Murad Qurbanovun sözlərinə görə, Azərbaycan və Dağıstan xalqlarının dostluq münasibətinin formalaşmasında Əziz Əliyevin böyük xidmətləri var.

* * *

Buradaca hörmətli oxucularıma möhtərəm Prezidentimiz İlham Əliyevin 2016-cı il dekabrın 26-da Dağıstan Respublikasının keçmiş başçısı Ramazan Abdulatipovla görüşündə söylədiyi dəyərli, ibrətamiz sözləri xatırlatmaq istəyirəm:

"Sizin təşəbbüsünüzlə Dağıstandakı küçələrin biri bizim dahi lider Heydər Əliyevin adını daşıyır. Həmçinin Sizin təşəbbüsünüzlə bir qədər əvvəl Mahaçqalada Böyük Vətən müharibəsi illərində dağıstanlıları normal həyatla təmin etmək üçün böyük işlər görmüş Əziz Əliyevin abidəsinin açılışı olub.

Mənim üçün bunun xüsusi mənası var. Çünki mənim babamın və atamın xatirəsi qardaş Dağıstanda əbədiləşdirilib. Gənc nəslin bu barədə bilməsi çox vacibdir. Sizin tərəfinizdən atılan bu addımlar həm onların xatirəsinə ehtiram əlamətidir, həm də gənclərin bizim ənənə və köklərimizi bilməsinə istiqamətləndirilib".

## Altıncı fəsil

# BÖHTAN

*Harada paxıllıq varsa, orada böhtan da var.*
*Hippokrat*

Azərbaycan və Dağıstan xalqlarının qəlbində əbədi heykəl qoyan, tibb tariximizə adını qızıl hərflərlə yazdıran görkəmli alim, ictimai-siyasi xadim Əziz Əliyevin keşməkeşli həyat yoluna işıq salmağa davam edirik.

Əziz Əliyev çox gözəl və mehriban bir ailə başçısı idi. Onun həyat yoldaşı Leyla xanım xeyirxahlıq və incəlik təcəssümü sayıla bilərdi. Bu mehriban, cazibədar qadın altı uşağın: iki oğlanın – Tamerlan və Cəmil, dörd qızın – Ləzifə, Dilbər, Zərifə və Gülarənin xoşbəxt anası idi. Uşaqlardan dördü atalarının yolu ilə getdi, həkim oldu. Dilbər rabitəçi-mühəndis peşəsini seçdi, ən balacası Gülarə isə istedadlı pianoçu kimi məşhurlaşdı.

Ömrün şöhrətli Dağıstan səhifələri arxada qalıb.

1942-1949-cu illərdə Dağıstana rəhbərlik etmiş Əziz Əliyev burada yerli əhaliyə qarşı həyata keçirilən siyasi repressiyalara son qoyulmasına, dağıstanlılardan ibarət milli hərbi hissələrin təşkil olunmasına, yerli hakimiyyət orqanlarına dağıstanlıların təyin edilməsinə nail olub. Əziz

Əliyevin sayəsində dağıstanlılar bir çox digər xalqlar kimi sürgün olunmayıblar. Artıq o, Moskvada İctimai Elmlər Akademiyasının dinləyicisi və eyni zamanda ÜİK(b)P MK aparatının əməkdaşıdır. Beləliklə, Əziz Məmmədkərim oğlu ittifaq əhəmiyyətli, daha görkəmli kadrlar sırasına daxil olur. 1950-ci ildə onu Bakıya məsul dövlət vəzifəsinə – Azərbaycan Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə dəvət edirlər. O vaxtın qaydalarına görə, yüksək vəzifə üçün nəzərdə tutulan kadrların siyahısı əvvəlcədən tərtib edilirdi; Siyasi Büroda baxılır və məxfi sənəd kimi saxlanılırdı. Ağır repressiya illərində Azərbaycanda milli həkim kadrların böyük bir dəstəsini səbəbsiz işgəncələrdən, vaxtsız ölümdən xilas etmiş Əziz Əliyev özü 50-ci illərin əvvəllərində haqsız olaraq təqiblərə məruz qalır. 37-ci il faciəsinin acı nəticələrinin zaman-zaman millətimizin qəlbini göynədəcəyini, bu dəhşətli tarixin XX əsrin vicdanında qara ləkə kimi qalacağını ürək ağrısı ilə anırıq. Repressiya dalğası XX əsrin 20-ci illərindən 50-ci illərin əvvəllərinə qədər davam etsə də, 20-40-cı illər arası baş verən hadisələr xüsusi amansızlığı ilə seçilir.

Repressiya illərində Azərbaycandan yüz minə yaxın ziyalı, hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi Sibirə, Qazaxıstana və digər yerlərə sürgünə göndərilmişdi. Bununla da Azərbaycan cəmiyyətinin ağıllı, elmli, istedadlı, əməksevər, mənəviyyatlı təbəqəsinin çox böyük hissəsi məhv edilmişdi. Bu bir faktdır ki, əhalinin hər min nəfərinə düşən repressiya qurbanlarının sayına görə Azərbaycan keçmiş sovet respublikaları içərisində birinci yerdə dururdu.

Konkret Azərbaycanda ümumilikdə 1930-1940 və 50-ci illərin əvvəllərində 70 min adam repressiya edilmişdi. Bunun da 29 min nəfəri ziyalılar idi. Təkcə 1937-ci ildə 16 Azərbaycan generalı qətlə yetirilmişdi. Azərbaycanın Qazaxıstandakı

səfirliyinin məlumatına görə, Stalin repressiyaları illərində Qazaxıstanda 150 min azərbaycanlı öldürülüb və bunlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnib.

Repressiyaya məruz qalanlar içərisində Abbas Mirzə Şərifzadə, Ayna Sultanova, Bəkir Çobanzadə, Cəmşid Naxçıvanski, Hüseyn Cavid, Mikayıl Müşfiq, Qambay Vəzirov, Ruhulla Axundov, Yusif Vəzir Çəmənzəminli, Ömər Faiq Nemanzadə, Əhməd Cavad və bu kimi görkəmli elm, mədəniyyət və ictimai xadimlərimizin adları var. Repressiya Azərbaycanın intellektual potensialına sarsıdıcı zərbə vurmuşdu.

Bəli, çox çətin dövr idi. Casusluq, çuğulçuluq Moskvadan, yuxarılardan başlayıb müttəfiq respublikaların paytaxtlarına qədər uzanırdı. Elə mühit idi ki, adam təkcə vəzifəsini yox, başını da itirə bilərdi. Budur, kim isə respublikanın ovaxtkı qəzəbli "sahibi" Mir Cəfər Bağırova qulluq göstərərək "qulağına pıçıldayır" ki, Əziz Əliyevin adı ÜİK(b)P Azərbaycan komitəsinin birinci katibi və hökumət başçısı vəzifəsini əvəz edəcək kadrların siyahısına salınıb. Əziz Əliyevin uğurla yüksəldiyini çoxdan bəri qısqanclıqla müşahidə edən və onun şəxsində öz rəqibini görən, onun artan nüfuzuna qərəzli münasibət bəsləyən Bağırov nəyin bahasına olur-olsun onu siyasət meydanından uzaqlaşdırmaq qərarına gəlir. Mir Cəfər Bağırovun Əziz Əliyev şəxsiyyətindən ehtiyatlanmasına dair maraqlı bir fakt. Əziz Əliyevin dövlət vəzifəsi ilə bağlı uzun müddət Bakıdan – ailə ocağından ayrı düşdüyü bir gün həyat yoldaşı Leyla xanım (onun öz söhbətinə görə) qızlardan böyüyü Ləzifənin əlindən tutaraq M.C.Bağırovun qəbuluna gedir. Xahiş edir ki, MK-nın birinci katibi Əzizi Azərbaycana qaytarsın, hansı vəzifə olur-olsun, vacib deyil, lap adi iş olsun. "Birinci" cavab verir: "Leyla xanım, Əziz Azərbaycana qayıtsa, ona yarayan heç bir iş yoxdur. Ona layiq yeganə vəzifə –

mənim vəzifəmdir. Bu vəzifəni isə mən tuturam”. Belə gözlənilməz və qorxulu cavabdan Leyla xanım çaşır, deməyə söz tapmır və xudahafizləşməyə tələsir…

Əziz Əliyevin Moskvada onun şəxsiyyətini, peşəkarlığını, xidmətlərini yüksək qiymətləndirən səlahiyyət sahiblərinin dəstəyi ilə Azərbaycanda yüksək vəzifəyə gətirilməsi Mir Cəfər Bağırovun onunla bağlı narahatlığını daha da gücləndirir. Daha gecikmək olmazdı. Özünün Əziz Əliyevə qarşı məkrli niyyətini həyata keçirmək üçün o, L.P.Beriyaya ümid bəsləyirdi. Onun köməyi olmadan Bağırov Əziz Əliyev kimi parlaq və istedadlı liderin təmiz adına xələl gətirməyə cürət edə bilməzdi.

Respublika Kommunist Partiyası MK-nın 12 iyun 1951-ci il tarixli qərarı ilə M.C.Bağırov ilk zərbəni vurur:

“Təqdim etdiyi avtobioqrafiyada və digər sənədlərdə özünün, doğmalarının və yaxınlarının həqiqi sosial vəziyyətini gizlətdiyinə, partiyanı aldatdığına görə şiddətli töhmət elan etmək”.

Həmin il iyunun 24-də verilən qərar nəticəsində Ə.Əliyev Nazirlər Soveti sədrinin müavini vəzifəsindən azad edilir. Yenə də həmin bəhanə:

“Partiya üzvünə yaraşmayan səhvlərə yol verdiyinə, öz valideynlərinin ictimai vəziyyətini, doğma bacısının İranda yaşadığını gizlətdiyinə, respublika fəalları arasında nüfuzunu itirdiyinə görə…”

Əlbəttə, bütün bu ittihamlar tamamilə əsassız idi. Əziz Əliyevin həm avtobioqrafiyasında, həm də başqa sənədlərdə ailəsi və qohumları haqqında dəqiq və etibarlı məlumatlar verilmişdi. Lakin həmin şəraitdə nəyi isə təkzib etməyə və ya sübuta yetirməyə çalışmaq mənasız idi. Nəticə fəlakətli ola bilərdi.

Əziz Əliyevin bacısı qızı Sona xanım İbrahimova da o dövrün canlı şahidlərindən olub. Sona xanım məşhur

həkim, mama-ginekoloq, uzun illər Krupskaya adına 5 nömrəli Doğum Evinin direktoru işləmiş Sosialist Əməyi Qəhrəmanı Şamama Ələsgərovanın qızıdır.

Əməkdar Jurnalist Tahir Talıblı **"Əziz Əliyev: dövrü, həyatı, şəxsiyyəti"** kitabında qeyd edir ki, **Sona Abdulla qızı İbrahimova** taleyin gərdişi ilə bağlı Zabaykalyenin Çita şəhərində 1925-ci ildə dünyaya gəlib. 1932-ci ildə ailələri Bakıya köçüb. Həmin ildən də məktəbə gedib. 1942-ci ildə Azərbaycan Tibb İnstitutuna daxil olub. 1947-ci ildən ali təhsilli həkim kimi əmək fəaliyyətinə başlayıb. 2 nömrəli poliklinikada terapevt-həkim işləyib. 1955-ci ildən 1 nömrəli Tibb Məktəbində işləməyə başlayıb. 1960-cı ildən Reabilizasiya və Fiziki Metodlarla Müalicə Elmi-Tədqiqat İnstitutuna elmi işçi keçib. 1968-ci ildən müsabiqə yolu ilə Həkimləri Təkmilləşdirmə İnstitutunun Funksional diaqnostika kafedrasına assistent keçirilib. Uzun müddət institutda çalışıb...

Sona xanım dayısı Əziz Əliyevlə bağlı keçən günləri xatırlayır:

"Əziz dayıma olan təzyiqlər çoxaldıqca, mənəvi repressiyaların təsirinə məruz qaldıqca bizim bütün qohumlar da sıxışdırılırdı. Anam Şamama Ələsgərova da belə repressiyalara, təzyiqlərə məruz qalanlardan oldu. Yaxşı yadımdadır, Azərbaycan KP MK-nın, səhv etmirəmsə, VIII qurultayı idi. Anam da Krupskaya adına Doğum Evinin baş həkimi idi. O, 30 ildən çox bu xəstəxanaya başçılıq etdi. Anam Şamama Ələsgərova baş həkim kimi qurultay nümayəndəsi idi. O, geyinib-kecinib qurultaya getdi. Heç bir saat keçməmiş geri qayıtdı. Mən təəccüb elədim. Anam dedi ki, Bağırov zalda məni görən kimi cin atına mindi. Əsəbi-əsəbi dedi:

***"Aleskerova, mandat ostavte, vıxodite iz zala".***

Krupskaya adına xəstəxananı 1944-cü ildə anam açmışdı. İşləri də çox ağır idi. Şəhər Sovetinin deputatı idi.

İctimai işlərlə çox məşğul olurdu. Bir gün Bağırov anamın yanına çekist göndərir ki, Şamama xanım xəstəxanada yatan Əfəndiyeva soyadlı bir xanıma zöhrəvi xəstə olması haqda arayış versin. Anam o arayışı vermir.

İkinci dəfə çekist yenə gəlir ki, ya Mariya Borisovna Əfəndiyevanın xəstə olması barədə arayış verin, ya da işdən çıxmanız haqqında ərizə. Bunu da Bağırov ona görə edirdi ki, o qadının yoldaşını sürgün eləmək istəyirdi. Anam o arayışı ikinci dəfə də vermədi. Çünki o qadında elə bir xəstəlik yox idi. Anam gedir raykoma. O vaxt raykomun bürosunun üzvü Bakun vardı, özü də admiral idi. Məsələdən agah olan Bakun anamı müdafiə eləmişdi".

Belə bir vəziyyətdə Əziz Əliyevin yaxınlarının, doğmalarının istər tibbi nailiyyətlərinin, istər sənət uğurlarının, istərsə də şərəfli adlarının hələ o dönəmdə hansı mürəkkəb situasiyaların, ziddiyyətlərin içindən keçdiyini təsəvvür etmək çətin deyil. Əziz Əliyevin həyat yolundakı maneələri dəf etmək bacarığı isə bu maneələrdən daha güclü olan xarakteri ilə bağlı idi.

Əziz Əliyevi əvvəlcə Ortopediya və Bərpaedici Cərrahiyyə İnstitutuna direktor təyin edirlər. Ancaq təqib zəncirinin halqaları bununla qurtarmır. Daha böyük zərbə vurmaq məqsədilə 1952-ci ilin oktyabrında onu elmi-tədqiqat institutunun direktorluğundan azad edib, aşağı bir vəzifəyə – Sabunçudakı Caparidze adına 3 nömrəli kliniki xəstəxanaya baş həkimin müalicə üzrə müavini təyin edirlər.

Bu təyinat 4 oktyabr 1952-ci ildə Azərbaycan Səhiyyə nazirinin 1430 nömrəli əmri ilə belə sənədləşib:

1. ***Əziz Məmmədkərim oğlu Əliyev Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru vəzifəsindən azad edilərək, Caparidze adına kliniki xəstəxananın baş həkiminin müavini təyin olunması üçün Bakı Səhiyyə Şöbəsinin sərəncamına göndərilsin.***

2. ***Nurəli Nağdəli oğlu Bünyatov Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun müvəqqəti direktoru təyin edilsin.***

***Azərbaycan SSR Səhiyyə naziri: (Əliyev)***

Ulu öndərimiz **Heydər Əliyev** həmin dövrü xarakterizə edərək demişdir: "Əziz Əliyev mənə danışırdı ki, 1938-ci il repressiyasından möcüzə nəticəsində xilas olmuşdur. Onu sonralar, 50-ci illərin əvvəlində repressiya etdilər. İşdən çıxarıb Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru təyin etdilər, amma tezliklə bu vəzifədən də çıxartdılar. Professoru, elmlər doktorunu, bu qədər xidmətləri olan bir insanı Sabunçu xəstəxanasına baş həkim müavini göndərdilər və o, üç il orada işlədi. Bu, onun ovaxtkı rejimin bilavasitə Mir Cəfər Bağırov tərəfindən həyata keçirdiyi repressiyalara məruz qaldığı dövr idi".

Yəqin, Bağırova elə gəlirdi ki, o, rəqibini əzib, hörmətdən salıb. O, necə də səhv edirdi! Əziz Əliyev nə yüksək vəzifəni, nə də rütbəni qiymətləndirirdi. Onun üçün həqiqi cəza ona işləməyi, fəaliyyət göstərməyi qadağan etmək olardı.

Burada isə sevinc, fərəh mühiti var: ona həvalə olunmuş sevimli həkimlik peşəsi! Hər gün zəhmətkeş insanlarla birlikdə elektrik qatarına minib bu fəhlə qəsəbəsinə yollanır. Xəstələrlə görüşən kimi bir anda "birinci"nin düşmən münasibəti də, köhnə tanışların qorxaqlığı – onu görəndə tələsik üzlərini yana çevirmələri də yaddan çıxır.

Bir dəfə onun yanına qəbula yeniyetmə bir oğlanla bərabər həyəcanlanmış bir qoca kişi gəldi:

– Həkim, ümidimiz bir sənədir…

Həkim oğlanın xəstə sifətinə baxdı və istədi ki, məsləhətləşmək üçün şöbə müdirini çağırsın. Lakin qoca onu qoymadı və əlindən tutaraq dedi:

– Xahiş edirəm səndən, bizi başqasının yanına göndərmə. Mən bilirəm kimin yanına gəlmişəm.

Əziz Əliyev özü xəstəni müayinə etdi, diaqnoz qoydu, palataya yerləşdirdi və müalicə təyin etdi. İki gün sonra yoxladı, oğlan yaxşı idi. Vəziyyəti yaxşılaşmağa doğru gedirdi.

Qoca bilmirdi necə təşəkkür etsin:

– Səni bura atan küləyə qurban olum! Sən oğlumu mənə qaytardın!..

Külək söhbəti həkimi güldürdü. Xəstəxanada heç vaxt görməmişdilər ki, baş həkim belə ürəkdən gülsün.

Evdə qocanın minnətdarlığı barədə danışıb evdəkiləri də güldürdü. Bu reaksiyada bütün ədalətsizliklərin səsini boğan, batıran məğrurluq, sevinc vardı…

Mənəvi terror onu sındırmadı. Hətta özü üçün ağır olan bu vaxtlarda da o, optimizmini, həyat eşqini itirmədi. Oğlu Tamerlan xatırlayırdı:

“Baxmayaraq ki, atam daxilən çox narahat idi, bunu büruzə vermirdi. Hər vasitə ilə çalışırdı ki, biz onun həyəcanını, iztirabını görməyək. O illər elə ağır illər idi ki, istər-istəməz öz təsirini göstərir, bizim taleyimizdə öz izini qoyurdu. Ancaq bununla belə, ruh yüksəkliyi, zarafat hissi atamı tərk etməmişdi”.

Sona xanım İbrahimova: “Heç vaxt dayımı acıqlı görməzdim. Onda yumor hissi çox güclü idi. Biz onlara gedəndə deyərdi ki, ay Leyla, evimiz işıqlandı”.

Dövrün tanınmış adamları, Əziz Əliyevlə yaxın ünsiyyətdə olanlar deyirlər ki, qarşılaşdığı təzyiqlərdən sonra da onun xarakterində, davranışında cəmiyyətə və insanlara münasibətində heç nə dəyişmədi, əvvəllər olduğu kimi, işgüzar, nikbin ovqatda fəaliyyət göstərdi, yenidən böyük elmə qayıtdı. “Azərbaycan Tibb Jurnalı”nda dəyərli elmi məqalələr çap etdirdi. İctimaiyyət tərəfindən təəccüblə qarşılanan Mərkəzi Komitənin qərarından diqqəti yayındırmaq üçün Həkimləri Təkmilləşdirmə İnstitutu-

nun rektoru vəzifəsinə dəyişdirildi və ömrü qəfil, vaxtsız qırılanadək (1962-ci il) səhiyyə işçilərinin peşəkarlığının artırılması, müxtəlif sahələr üzrə alimlərin, mütəxəssislərin yetişdirilməsi sahəsində gərgin, səmərəli fəaliyyət göstərdi. Hamı yenə onu "Təcili yardım", "Cəmiyyətin loğmanı", "Qurucu Əziz", "Qeyri-adi insan", ya da sadəcə "Əziz müəllim" kimi tanıdı və sevdi. Bu böyük ömür bir də onu təsdiqlədi ki, vəzifələr insanı zənginləşdirmir, insanlar vəzifələri zinətləndirirlər.

Tibb elmləri doktoru, professor **Nurəddin Hümbətov** xatırlayır:

"Əziz Əliyevin xatirəsi minlərlə insan üçün olduğu kimi, mənim üçün də əzizdir, unudulmazdır. Aspiranturaya daxil olduğum zaman Əziz Əliyevin mənə göstərdiyi mənəvi köməyi və qayğını heç vaxt unutmaram. O vaxt Əziz Əliyev institutun rektoru idi. Mən aspiranturaya sənəd verəndə artıq beş nəfər sənəd verən var idi, amma daxili xəstəliklər şöbəsinə bir yer ayrılmışdı, müsabiqə ciddi idi. Mən gecə-gündüz, cidd-cəhdlə imtahanlara hazırlaşırdım.

İmtahana dörd-beş gün qalmış məni kadrlar şöbəsinin müdiri çağırdı. Soruşdu: "Sən Gəncədənsən?" Mən "Bəli" dedim. Şöbə müdiri məsləhət gördü: "Sənədlərini götür, çıx get, boş yerə vaxt itirmə. Ona görə ki, keçməyəcəksən". Əhvalım pozuldu: "Niyə?" "Bu yerə nazirlərdən birinin qohumu ərizə verib, o keçəcək". Ovqatım tamam təlx oldu. Fikirləşdim və dərdimi rektora bildirməyi qərara aldım.

Əziz Əliyevi gözləyib onun qəbulunda oldum: "Möhtərəm rektor, mən öz sənədlərimi geri götürmək istəyirəm". "Niyə?" Mən hər şeyi olduğu kimi danışdım. "Sən heç kimə qulaq asma. Get, imtahanlara yaxşı-yaxşı hazırlaş. Yüksək səviyyədə bilik nümayiş etdirsən, keçəcəksən. İmtahana heç bir nazir, ya da başqa adam təsir göstərə bilməz".

Əsas fənlərdən "əla" qiymət aldım. Fəlsəfədən bir az ehtiyat edirdim. Bilet götürüb cavabını fikirləşmək üçün oturdum. Bir azdan Əziz Əliyev imtahanın gedişini yoxlamaq üçün içəri girdi. İmtahan sənədlərini komissiyanın sədrinə qaytarıb çıxışa doğru dönəndə məni gördü. Müəllimə doğru çevrilərək "Bu gəncəli oğlan yaxşı hazırlaşana oxşayır" dedi və getdi.

Biletin suallarına verdiyim cavablardan sonra imtahan götürən müəllimlər əlavə suallar vermədən mənə "əla" qiymət yazdılar. Beləliklə, Əziz Əliyev mənə elmdə irəli getməkdə böyük mənəvi kömək göstərdi.

Mən nazirin qohumunun zəif cavaba görə "kafi" qiymət aldığını gördükdə bir daha əmin oldum ki, Əziz Əliyevin rektor olduğu institut, həqiqətən, təmizliyin, zəhmətə verilən qiymətin, ədalətin ən yaxşı simvoludur.

...1982-ci ildə vaxtilə rektoru olduğu, yüksəkixtisaslı tibbi kadrların yetişdirilməsində, respublikada tibb elminin potensialının zənginləşdirilməsində böyük işlər görmüş Tibb İnstitutunda Əziz Əliyevin 85 illik yubileyi xüsusi təntənə ilə qeyd olundu. Yubiley gecəsində Əziz Əliyevin qızı, tibb elmləri doktoru, professor **Zərifə xanım Əliyeva** çıxış edib sevimli atasını məhəbbətlə xatırladı:

"...Ə.M.Əliyev istər öz ailə üzvləri üçün, istərsə də vətəni, xalqı üçün nəcib ideallarla dolu zəngin bir irs qoyub getmişdir. Bu gün biz hədsiz dərəcədə fəxr edirik ki, vaxtilə onunla birlikdə işləmiş həmkarları, yetirmələri və gəncliyimizin indiki nəsli bu irsi layiqincə öyrənir, onun arzu və tövsiyələrinə şərəflə əməl edirlər.

Atam ömrünün əvvəlindən ta sonunadək insanlarda yalnız nəciblik, xeyirxahlıq, humanistlik, beynəlmiləlçilik, prinsipiallıq hisslərinin aşılanması uğrunda çalışmış, adamları daim xoşbəxt görmək arzusu ilə yaşamışdır".

## AZƏRBAYCANIN GÖRKƏMLİ DÖVLƏT VƏ ELM XADİMİ ƏZİZ ƏLİYEVİN 120 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci il yanvarın 1-də Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 120 illiyi tamam olur.

Əziz Əliyev müxtəlif məsul vəzifələrdə çalışaraq dövlət idarəçiliyinin təkmilləşdirilməsində səmərəli fəaliyyət göstərmiş, respublikada səhiyyə sisteminin və tibb təhsilinin formalaşdırılmasına layiqli töhfələr vermişdir. Onun İkinci Dünya müharibəsi illərində apardığı işlər mühüm hərbi-siyasi əhəmiyyətə malikdir. Azərbaycan və Dağıstan xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi Əziz Əliyevin adı ilə sıx bağlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan xalqı qarşısında böyük xidmətlərini nəzərə alaraq görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əziz Əliyevin 120 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsinlər.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 noyabr 2016-cı il***

* * *

Burada bizi qələmi əlimizə götürməyə vadar edən əsas mövzuya – şanlı insanın şanlı qızı Zərifə Əziz qızı Əliyevanın ömür hekayəsinə qayıdırıq.

**Yeddinci fəsil**

# ÇƏTİN SINAQDAN KEÇƏN SEVGİ
## (Zərifə və Heydər)

*Tale onların hər ikisini məhəbbət yollarında sınaqdan keçirib, ömür yollarında yoldaş etmişdi.*
*Müəllif*

1949-cu ildə Zərifə Əliyeva Bakıya qayıdır. Bir ildən sonra da Heydər. Ayrılıq ancaq onların məhəbbətini möhkəmləndirib və onlar ailə qurmaq qərarına gəlirlər.

Hər şey yaxşı olardı, bir bu mənzil problemi olmasaydı – Dövlət Təhlükəsizlik Komitəsinin zabiti İçərişəhərdə yarımzirzəmi mənzildə anası və qardaşları ilə birlikdə kirayənişin yaşayırdı. Onlar – Zərifə və Heydər daha tez-tez görüşür və başa düşürdülər ki, öz xoşbəxtliklərini tapıblar. El arasında bu barədə belə deyirlər: "Onların ulduzları göydə barışıb".

1952-ci ildə mənzil problemi həll olundu. Heydər Əliyev çoxdan gözlədiyi ikiotaqlı mənzili aldı. Lakin… oxucu artıq bilir ki, M.C.Bağırovun qəzəbinə gəlmiş Əziz Əliyevin ailəsinin başının üstündə "Domokl qılıncı" asılıb və bu ailə ilə yaxından-uzaqdan əlaqəsi olan bir çoxları da vəziyyətin fərqindədirlər…

**Kamil Əliyev** xatırlayır:

“Hər gün bu evə gələn adamlar yox oldular. Əziz Əliyevin yaxın dostları da ayaqlarını kəsdilər. Yaxın qohumlar da üz döndərdilər. Çünki hamı güdülməkdən, izlənməkdən, həbs olunmaqdan qorxurdu”.

Stalin–Beriya–Bağırov dövrünü göstərən sənədli arxiv kinokadrları qüdrətli rəhbərin və onun satraplarının qarşısında hiss edilən dəhşəti gözlərimizin önünə gətirir. Bağırovun qəzəbinə gəlmiş ailənin saysız-hesabsız ağır problemlə üz-üzə qaldığını görəndə totalitar rejimin vəhşi və məhvedici mahiyyətini daha yaxşı təsəvvür etmək olur.

İndi bunu təsəvvür etmək çətindir, ancaq o illər elə illər idi ki, insan hakimiyyətin istəyi ilə yalnız işini, yaradıcılıq, yaxud elmi karyerasını yox, istənilən an şəxsi həyatını, fiziki varlığını da itirə bilərdi. Öz taleyini Zərifənin taleyi ilə birləşdirmək haqda düşünən Heydər Əliyev rejimin ən güclü və mötəbər köməkçilərindən biri olan M.C.Bağırova meydan oxuyurdu. Belə addımın nəticəsi Dövlət Təhlükəsizlik Komitəsinin zabitinə əvvəlcədən tamamilə məlum idi, lakin o, bu addımı atmaqdan qaçmadı. Heydər Əliyev könlünün sevdiyi ilə birgə olmaq hüququnu müdafiə etmək qərarına gəlmişdi.

Məşhur publisist, Azərbaycan parlamentinin deputatı **Elmira Axundova** Heydər Əliyevin bioqrafiyasının və dövrünün fundamental tədqiqatına həsr elədiyi birinci kitabında yazır:

“Maraqlı burası idi ki, həmin idarədə işləyən gənc zabitə gələcək qayınatasının işini yoxlamaq tapşırılmışdı”.

Heydər Əliyevin olduqca nümunəvi xidməti rəhbərliyi tələsik və kəskin reaksiya göstərməkdən saxlayır. Sadəcə, ona nüfuzunu itirmiş dövlət qulluqçusunun, respublikanın “birinci” şəxsinin gözündən düşmüş adamın qızı ilə görüşməmək tövsiyə olunur. Lakin “tövsiyə olun-

maq" yumşaq deyilmişdir. Əslində, məsələ qəti şəkildə qoyulmuşdu: ya iş və karyera, yaxud məhəbbət… Gənc zabit geri addım atmır, rəhbərliyin "məsləhət"inə məhəl qoymur. O, müəyyənləşdirilmiş konspirasiyanı gözləməklə sevdiyi qızla görüşməyi davam etdirir. Heydər mövcud problemi qıza açmasa da, həssas Zərifə hər şeyi başa düşür və növbəti görüşlərin birində daxili gərginliyini kədərlə boşaldır:

"Bilirsən, biz daha görüşə bilmərik, axı atamı işdən çıxarıblar və ona qarşı müxtəlif ittihamlar irəli sürürlər. Sən isə Dövlət Təhlükəsizlik Komitəsində işləyirsən, bu sənə zərər verə bilər… Görünür, bir yerdə olmaq bizə qismət deyilmiş…"

Heydər buna etiraz edərək qızı sakitləşdirməyə çalışır və onlar gizli görüşlərini davam etdirirlər.

Bu arada Əziz Əliyevin ailəsi haqqında tez-tez çuğulçuluq edirlər. Əziz Əliyevi həbs etmək üçün bəhanə axtarırlar. DTK-nın ovaxtkı sədri general Yemelyanov Heydər Əliyevi yanına çağırır və deyir:

– Sən gənc və qabiliyyətli əməkdaşsan, Leninqradda çox gözəl təhsil almısan, sənin gələcəyin var. Sən Əziz Əliyevin ailəsi ilə bütün əlaqəni kəsməlisən. Yoxsa biz səni işdən azad etməli olacağıq.

Lakin Heydər təmkinlə cavab verir ki, xidmətə görə heç vaxt məzəmmət almayıb, şəxsi həyatına gəlincə, məgər onun öz taleyi haqqında fikirləşməyə haqqı yoxdur?

Cavan oğlanın Əziz Əliyevin məhz nədə ittiham edildiyinə dair sualına cavab olaraq general açıq-aşkar həyasızlıqla deyir:

– Sən hələ gəncsən, çox şeyi başa düşmürsən… – qüdrətli general gülümsünür. – Mir Cəfər Bağırov yoldaş bizə göstəriş verib və biz onu yerinə yetirməyə borcluyuq…

…İl keçir. Qeyri-leqal görüşlər davam edir. Konspirasiya sahəsində peşəkar olan gənc zabit həmkarlarına cəsarətlə meydan oxuyur. O özü vəziyyəti belə xatırlayırdı:

“O vaxt Bakı indiki kimi parlaq işıqlı deyildi, şəhərdə çoxlu qaranlıq, xəlvət yerlər vardı. Mən bir neçə belə yeri gözaltı etmişdim. Belə yerlərdə nə onu, nə də məni görə bilərdilər. Bizim evin yaxınlığında, indiki Azadlıq prospektində park vardı. Sonra orada Caparidzeyə heykəl qoydular. Yolun qarşısında tramvay dayanacağı vardı. Ətraf isə qaranlıq olurdu. Mən görüşü orada, düz dayanacağın yanında təyin etdim. Mən ki kişiyəm, zabitəm, silahım da var, heç kimdən qorxmuram. O isə zərif, cavan, gözəl qız. Belə qızlar həmişə diqqəti cəlb edir. Buna görə də mən onu dayanacağın lap yanında gözlədim. O, vaqondan düşdü, mən onu qarşıladım və biz həmin parka getdik…”

İki aşiqin rəhbərliyin göstərişinə zidd olaraq gizli görüşmələrinə dair epizodlar öz təsirliyi ilə o uzaq illərin məşhur tanqosunu (“Şampan şərabı köpükləri”) kölgədə qoyur…

Cavan çekistin gizli görüş fəndləri onu general Yemelyanovun məzəmmətindən sığortalaya bilmədi.

1953-cü ilin lap əvvəlində Yemelyanov tabeliyindəki gənc zabiti yenidən “xalça üzərinə” çağırır və bu dəfə birbaşa xəbərdarlıq edir:

“Sən niyə mənim sərəncamımı yerinə yetirmirsən?.. Bil ki, sənin təhlükəsizlik orqanlarında qalıb işləməyin böyük sual altındadır…” – deyə Əliyevin neçə illər sonra işləyəcəyi kabinetin ozamankı yiyəsi bildirir.

Bu danışıq tərzi Heydər Əliyevdə heç bir şübhə yeri qoymur və ona aydın olur ki, “birinci” bütün vasitələrlə öz rəqibini aradan qaldırmağa hazırlaşır. Lakin o, nə olur-olsun, öz həyatını Zərifəsiz təsəvvür edə bilmirdi. Və bir dəqiqə belə tərəddüd etmir. – Bilirsinizmi, – uzun sürən sükutdan sonra Heydər Əliyev dillənir, – bir var iş,

bir də var insan həyatı. Mən öz işimi sevirəm və siz məni bir işçi kimi qiymətləndirirsiniz. Burada narahatlığa əsas yoxdur! Amma həyatımın ikinci, bəlkə də, mənimçün daha vacib tərəfi – mənim ailəm, mənim hisslərim, mənim məhəbbətimdir. Mən o qızı sevirəm. O da məni sevir. Mən ondan necə ayrıla bilərəm? Bu, heç cür ağlıma sığmır. Ona səbəbini söyləməliyəm, ya da deməliyəm ki, onu sevmirəm. Yaxud səndə məni açmayan nöqsanlar var, ona görə səninlə ayrılmalıyam. Mən orqanlarda qalmaq üçün sevdiyim insanla ayrılmalı olduğumu deyə bilmərəm.

Bu, Heydər Əliyevin xarakterini, onun yüksək hisslərə sədaqətini, ürəyinin, məhəbbətinin səsinə qulaq asdığını və – əgər işlədiyi idarədə xüsusilə o dövrdəki sərt subordinasiyanı nəzərə alsaq – cəsarətini açıb göstərən dramatik səhnədir.

Heydər Əliyevə elə gəldi ki, Yemelyanov onu başa düşmüşdür. Lakin qarşısında gənc zabit yaşında övladları olan iş yoldaşı Yemelyanov və dövlət təhlükəsizliyi naziri general Yemelyanov arasında fəqrlər vardı. Nazirin səsi sərtləşdi:

– Biz sənin işin haqqında məsələni həll etməli olacağıq. Çox güman ki, onu itirəcəksən...

Sonralar Heydər Əliyev o illərin düşüncələrini etiraf kimi dilə gətirəcəkdi:

“Bilirsiniz necə fikirləşirdim? Mən DTK-da işləyirdim və bilirdim ki, onun atasının ətrafında nələr baş verir, onu necə izləyirlər. Və mən bilirdim, eşitmişdim ki, onların ailəliklə Qazaxıstana sürgün edilməsi planı var. Mən fikirləşirdim ki, əgər onları sürgün eləsələr, mən Zərifənin ardınca Qazaxıstana gedəcəyəm, ola bilsin, orada mənə iş tapmaq buradan daha asan oldu”.

Amma ulduzların düzülüşü sevgililərin tərəfində idi... Necə deyərlər, sən saydığını say...

Nazirlə Heydər Əliyevin söhbətindən yarım il sonra – 1953-cü il martın 1-nə keçən gecə gözəgörünməz qüvvələr tarixin növbəti səhifəsini çevirdilər. Sovet İttifaqını və dünyanın yarısını idarə edən Stalin Moskvada bağ evində huşunu itirdi. Mühafizəçilər cürət edib ona yaxınlaşanda artıq nəfəsi kəsilmək üzrə idi. Martın 5-də bütün dünyaya elan olundu ki, İosif Vissarionoviç Stalin vəfat edib. Bu, Mir Cəfər Bağırov hakimiyyətinə də öldürücü zərbə idi.

İyun ayında isə artıq Beriyanı, ardınca ətrafındakıları və onların respublikalardakı adamlarını həbs etdilər. Elə həmin ilin dekabrında SSRİ Ali Məhkəməsi Beriya, Merkulov, Dekanozov, Kobulov, Qoqlidze, Meşik, Vlodzimirskini ağır dövlət cinayətlərinə və vətənə xəyanətə görə ən ağır cəzaya məhkum etdi.

Lavrenti Pavloviçin respublikadakı satrapı, boynunda çoxlu günahsız insan qanı olan M.C.Bağırov da müttəhimlər kürsüsündə oturdu. Yaxın köməkçiləri ilə birlikdə törətdiyi cinayətlərin ədalətli cəzasına çatdı.

Əliyevlər ailəsi və onlarla birlikdə minlərlə ailə azad nəfəs aldı. Qanunsuz cəzaların qurbanlarına bəraət verildi. Günahsız məhkum edilmiş və sürgün olunmuş adamlar kütləvi surətdə evlərinə qayıtmağa başladılar…

Əziz Əliyev ədalətin təntənəsinə qədər yaşadı. O, 1956-cı ildə Bakıda özünün keçmiş amansız təqibçisinin məhkəmə prosesini gördü… M.C.Bağırovla yanaşı müttəhimlər kürsüsündə general Stepan Yemelyanov da əyləşmişdi. Gözdən düşmüş general 25 il həbs cəzasına məhkum edildi. 70-ci illərdə cəzasını çəkib qurtarmış və Bakıya qayıtmış general özünün məişət problemlərinin həllinə kömək göstərməsi üçün məktubla Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevə müraciət etdi. Bax belə, taleyin istehzası… yaxud tarixin ədalətli mühakiməsi…

Heydərlə Zərifənin məhəbbəti isə qismətlərinə düşən sınaqlardan alnıaçıq çıxaraq öz ziyası ilə onların ailə ocağını nurlandırdı. 1954-cü ilin noyabrında gənclər kəbin kəsdirdilər. Heydər Əliyevin bir müddət əvvəl DTK-dan aldığı mənzildə sadə bir mərasim keçirdilər.

...Bu, yığcam, rəsmi tələblərə uyğun musiqisiz bir məclis idi. Gənclər nikah mərasimindən sonra evə gəlib stol arxasında əyləşdilər. Məclisdə Əziz Əliyev, Həsən Əliyev, akademik Murtuza Nağıyev, bəylə gəlinin anaları və yaxın qohumları iştirak edirdi. Toyun tamadalığı Heydər Əliyevin uşaqlıq dostu İbrahim İsmayılova həvalə edilmişdi. Qarşılıqlı məhəbbət üzərində qurulan ailə xoşbəxt idi. Gənc zabit Heydər Əliyev həyat yoldaşının simasında özünə həqiqi dayaq tapmışdı.

...Aradan 45 il ötəcəkdi. Onların və qohumlarının yaddaşında sadə və qəribəliyi ilə iz qoyan o toy günü ilə bağlı o xəfif ömür xatirəsi 1999-cu ildə Biləsuvarda məskunlaşmış 4 məcburi köçkün gəncin toyunda iştirakı zamanı Prezident Heydər Əliyevin dilində belə səhifələnəcəkdi:

“Mərhum həyat yoldaşım Zərifə xanımla biz iki-üç il idi ki, evlənmək istəyirdik. Zərifə xanımla müəyyən vaxt tanış idik. Ancaq mənim evim yox idi. Ona görə biz iki il gözləməli olduq ki, mən ev alım. Mən sonra ikiotaqlı ev aldım. Demək, evlənmək mümkün idi. O vaxt bir siyasi məsələ də var idi, onu bu gün burada deməyin yeri yoxdur. O zaman 1950-ci illərin əvvəllərində totalitar rejimin ən qatı vaxtı idi. Bir sıra dairələr bəzi siyasi səbəblərə görə bizim evlənməyimizə razılıq vermirdi. Ona görə biz müəyyən vaxt gözlədik. 1953-cü ildə Stalin öldü, ondan sonra ölkədə siyasi vəziyyət dəyişdi və 1954-cü ildə mən evləndim.

Ancaq nə təhər evləndim? Biz Bakıda şəhəri gəzirdik. O vaxt Voroşilov küçəsi var idi, indi həmin küçə Yusif

Məmmədəliyevin adını daşıyır. Gəlib gördük ki, orada bir ZAQS şöbəsi var. Biz həmin ZAQS-a getdik. Nə şahid, nə də başqa iştirakçı var idi. Heç kəs yox idi. ZAQS-da bir qadın oturmuşdu, ona dedik ki, biz kəbin kəsdirmək istəyirik. Bildirdi ki, yaxşı, gəlin oturun. Heç üzük də yox idi. Biz oturduq. Buradakı kimi belə təntənəli nitqlər olmadı. Həmin qadın bizdən soruşdu ki, ailə qurmağa razısınız? Dedik ki, bəli. Bildirdi ki, buraya imza atın, biz də imza atdıq. Bizim kəbin kağızımızı verdilər. Soruşdum ki, nə edək? O vaxt "Nizami" kinoteatrının yanında bir mağaza var idi, orada yaxşı konfet satırdılar. Yadınızdadır ki, o zaman "Mişka" konfeti var idi, amma baha idi. Biz həmin mağazaya getdik, bir kiloqram "Mişka" konfeti aldım. Sonra oradan piyada dəniz kənarına gəldik. Zərifə xanımın ailəsi orada yaşayırdı. Biz onların evinə gəldik. Zərifə xanım anasına və qohumlarına dedi ki, artıq kəbin kəsdirmişik. Bildirdim ki, bir kiloqram "Mişka" konfeti gətirmişəm ki, ağzımızı şirin edək..."

* * *

Əziz Məmmədkərim oğlu Heydər Əliyevi birinci dəfə görərkən onun təkcə layiqli kürəkən yox, həm də gələcəyin parlaq dövlət xadimi olacağını uzaqgörənliklə bilmişdi.

"Dayım Heydər Əliyevə çox inanırdı, onun gələcəyini elə bil əvvəlcədən görürdü. Yoldaşı Leyla xanıma dediyi sözlər indiki kimi yadımdadı", – deyə Sona xanım İbrahimova o günləri yaxşı xatırlayır.

Bəli, taleyin lütfünə şübhə etmədən o zaman həyat yoldaşına Əziz Əliyev belə demişdi:

"Ay Leyla, bu Heydər çox böyük adam olacaq…"

Ailədə bu gənc və istedadlı zabitin görünməsi taleyin bir mərhəməti idi.

Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşı Heydər Əliyev bu ailənin sevimli qonağı olduğu zaman isə insanı tanımaqda böyük təcrübə və bilik sahibi olan Əziz Əliyev yenidən təkrar etmişdi:

**"Bu oğlan əsl qızıl külçəsidir, onun parlaq gələcəyi var".**

Heydər və Zərifə anlayırdılar ki, onların görüşü taleyin nadir hədiyyəsidir.

Bu məhəbbətin tarixi haqqında sonralar çoxlu şeirlər yazılıb, kinofilmlər çəkilib. Vaqif Mustafayev bu mövzuya "Əsl məhəbbət haqqında" adlı həyəcanlı, dramatik film həsr edib. Və orada, ekranda biz baş qəhrəmanın – Heydər Əliyevin riqqət doğuran etirafını eşidirik:

"Mən, həqiqətən, onu çox sevirdim. Onun da mənə olan məhəbbətini hiss edirdim. Düşünürəm ki, bizim bir-birimizə olan məhəbbətimizin köklərinin nə qədər dərində olduğunu sübut etməyə ehtiyac yoxdur".

Xalq Şairi Zəlimxan Yaqub "Böyük ömrün dastanı" poemasında ayrıca bir fəsli Heydərlə Zərifənin məhəbbətinə həsr edib. "Dastan"dan misal gətirək:

*"Çiçəksən, arını sevmə" dedilər,*
*"Budaqsan, barını sevmə" dedilər.*
*"Zərifə adında, mələk donunda*
*İstəkli yarını sevmə" dedilər,*
*Qadağa qoydular məhəbbətinə.*

*"Bir də o tərəfdə izin olmasın,*
*Bu haqda söhbətin, sözün olmasın,*
*Bir daha o qızda gözün olmasın,*
*Sən dövlət adamı, o, bir yad qızı", –*
*Qadağa qoydular məhəbbətinə.*

*Duru bir bulağa "axma" dedilər,*
*Odlu bir şimşəyə "çaxma" dedilər,*
*"Duyğusan, durulma, dilsən, danışma,*
*Gözsən, gözəlliyə baxma" dedilər,*
*Qadağa qoydular məhəbbətinə.*

*O gün kök budaqdan ayrılmalıydı,*
*O gün ət dırnaqdan ayrılmalıydı,*
*O gün Ay ulduzdan, işıq Günəşdən,*
*Bərəkət torpaqdan ayrılmalıydı, –*
*Qadağa qoydular məhəbbətinə.*

*Bu söz sərt zamanın tapşırığıydı,*
*Tüstünün, dumanın tapşırığıydı,*
*Tutqun bir səmanın tapşırığıydı,*
*Yaxşını yaxşıdan ayırmaq üçün*
*Tapşırıq yamanın tapşırığıydı.*

Şair dövrün amansız qanunlarını ifşa etmək, insanların öz xoşbəxtliyini və şəxsi azadlıq hüququnu qoruyub saxlamaq cəsarətini tərənnüm etmək üçün ürəkdən gələn sözlər tapmışdır:

*Küləyə "yellənmə" demək olarmı?*
*Yağışa "sellənmə" demək olarmı?*
*Ürəyə "tellənmə" demək olarmı?*
*Gülün budağına qonan bülbülə*
*"Oxuma, dillənmə" demək olarmı?*

*Sevdilər, seçdilər, sehrləndilər,*
*Görüşüb, qovuşub mehrləndilər,*
*Zamanın hökmüylə ayrılmadılar,*
*Allahın hökmüylə möhürləndilər.*

*...Zamanın bağrından qopdu, yaşadı,*
*Nur olub torpağa hopdu, yaşadı,*
*Əbədi ünvanı tapdı, yaşadı*
*Zərifə sevgisi, Heydər sevinci.*

*Qılınca bağlanıb, qından gəlibdi,*
*Ürəkdən süzülüb, qandan gəlibdi,*
*Cövhərə çevrilib, candan gəlibdi*
*Zərifə sevgisi, Heydər sevinci.*

*Çiçək solasıdı, zər solasıdı,*
*Vaxtında gülləri dər, solasıdı,*
*Gələn nəsillərə dərs olasıdı*
*Zərifə sevgisi, Heydər sevinci.*

Qəhrəmanımızın qohumu, vaxtilə Naxçıvanda kənd xəstəxanasında həkim işləyən **Möhtərəmə xanım**ın dediklərindən:

"Zərifə Əziz dayının ailəsinin zərif gülü idi. Səmimi, zarafatcıl, şən Zərifəyə hamı "evimizin çiçəyi" deyirdi. Sonra o, İzzət xanımın ocağına köçdü və Heydər Əliyevin ailəsinin gülü oldu.

Yaşının çox olmasına baxmayaraq, İzzət xanım işgüzar və diribaş qadın idi. Bir dəqiqə də olsun işsiz dayana bilməzdi. Ev adamlarının dilə tutmağına baxmayaraq, Ağamalı bulağına suya özü gedərdi. Və orada ləngiməzdi: qonşular ona hörmət etdiklərindən tez vedrələrini doldurub geriyə – evə yola salardılar. Uşaqlarını, ailəsini hədsiz dərəcədə sevirdi. Özü evdar qadın olsa da, uşaqlarının təhsil alması üçün çox çalışırdı. Oğlu Heydəri lap çox sevirdi. Yaxınlarının dediyinə görə, Heydər anasının sevimlisi idi. Heydər ailə quranda gəlininin sədaqətinə və xeyirxahlığına əmin olan İzzət xanım özünü xoşbəxt sayırdı, müqəddəs ana arzusu həyata keçmişdi.

Belə bir Azərbaycan atalar sözü var: gəlin ocağa çəkər. Zərifə xanım qayınanasını çox sevirdi. İzzət xanım bir balaca naxoşlayan kimi gəlini onun yanından əl çəkməz, qayğısına qalar, qulluq edərdi… O, təkcə sədaqətli və sevimli həyat yoldaşı yox, həm də diqqətcil gəlin idi. Oxumaq, elmi yaradıcılıq, həkimlik – heç nə onun İzzət xanıma qayğısına mane ola bilməzdi. O deyirdi ki, gəlin ərinin ocağında, hər şeydən əvvəl, gəlindir, buna görə onun başlıca vəzifələrindən biri "evin ab-havasına diqqət eləməkdir". İzzət xanım da, öz növbəsində, Zərifəni həddindən çox sevir, ona ana nəvazişi göstərirdi. Zərifə haqqında söhbət düşəndə deyərdi: "Allah hamıya belə gəlin qismət eləsin".

Püstəxanım Əzizbəyova yada salır:

"Zərifənin bacısı qızı Svetlananın toyu bu gün də xatirimdən çıxmır. O, Ləzifə ilə Ağaəlinin qızı idi və 60-cı illərin əvvəllərində ərə getdi.

Bu, Əziz müəllimlə Leyla xanımın ömründə birinci nəvə toyu idi. Yəqin, buna görə də onlar rəqs etməkdən doymurdular. Toy, ümumiyyətlə, olduqca şən keçdi. İndiki 100-200 nəfərlik toylardan çox fərqlənirdi. Bura ən yaxın qohum və dostları çağırmışdılar və iştirakçılar o qədər az idi ki, hamı Ağaəli əmigilin yaşadığı qədimi evin geniş qonaq otağına yerləşmişdi.

Biz arada Zərifə ilə güzgülü qalereyaya keçdik. Zərifə o vaxt təzəcə ərə getmişdi və ondan sonra onunla doyunca söhbət eləməyə imkan olmamışdı. Birinci soruşduğum bu oldu: "Zərifə, xoşbəxtsənmi?"

O, sevinə-sevinə mənə öz xoşbəxtliyindən, hədsiz, dərin, sədaqətli və qarşılıqlı məhəbbətindən, həyat yoldaşının gözəl keyfiyyətlərindən xeyli danışdı. Ən əhəmiyyətlisi odur ki, toydakı həmin görüşümüzdən illər keçəndən sonra da Zərifə öz qadın xoşbəxtliyindən, ailə səadətindən eyni hərarət və ilhamla söz açmaqdan doymurdu…"

## Səkkizinci fəsil

# NURA QƏNŞƏR UZANAN YOL

*Qadın elə bir mələkdir ki, bizi uşaq*
*ikən qoruyur, gənc ikən xoşbəxtliyimiz üçün*
*çalışır, qocalanda isə təsəlli verir.*
*Qədim Roma filosofu Avreli Avqustin*

...İnsan ömrünün elə məqamları var ki, onun xatirəsini ömür boyu unutmaq olmur. İllər ötdükcə hər şey öz mahiyyətini dəyişir. Amma keçmişin xatirəsi bütün dövrlərdə dəyişilməz qalır.

Deyirlər, insan min bir budaqlı ağac kimidir, hər budağı bir ünvana gedir. Əliyevlərin ailə albomuna baxanda qollu-budaqlı, nəhəng gövdəli ağacın getdikcə şaxələnən budaqlarını, yaşıllaşan yarpaqlarını və gələcəyə bəhrə verən meyvələrini görürsən!

1932-ci ildə çəkilmiş bir şəkildə Zərifə milli geyimdə atasının arxasında dayanıb. Özü də Azərbaycanda oğlanların geyindiyi milli geyimdə. Başında papaq, yaxalığına patrondaş düzülmüş çuxa. Fotoobyektivə boylanan ağıllı gözləri sabah vətən üçün gərəkli işlər görməyə can atan 9 yaşlı qızcığazın kiçik qəlbindəki böyük arzulardan so-

raq verir. Valideynləri kimi, qardaşı ilə bacıları da gələcəyə ümidlə, inamla boylanırlar.

O vədələrdə Əziz Əliyev övladlarına "Siz mənim ulduzlarımsınız" deyirdi.

Zərifə xanımın tələbəlik illərində papaqla çəkdirdiyi başqa bir şəkli də diqqəti cəlb edir. Papaq həm də ucalığın simvoludur. Ucalığa, elmdə zirvələrə can atmaq Zərifə xanımı uşaqlıq və gənclik çağlarından fərqləndirən xüsusiyyətlərdən idi.

Zərifə xanımın həyat fəlsəfəsinin kökü, tərcümeyi-halına sonradan yazdıra biləcəyi uğurlu məqamların ilkinliyi onun uşaqlıq çağlarından qaynaqlanır.

Çox sonralar – özü də ailə qurub analıq sevincini yaşayan zamanlar təkrar-təkrar deyərmiş ki, uşaqlıq çağları insan həyatının ən vacib dövrüdür. O dövrü heç nə əvəz edə bilməz. O dövr insanın hər zaman müraciət etdiyi dövrdür. Uşaq olarkən uşaq xeyirxahlığın, şəfqətin nə olduğunu dərk edir və onu başa düşəndə sevincinin hədsiz-hüdudsuz olduğunu anlayır.

Zərifə xanım Əliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti ilə daha yaxından tanış olduqca, haqqında xatirələri oxuduqca yaddaşımızda Ulu Tanrının ən yüksək mənəvi xüsusiyyətlər bəxş etdiyi böyük insanın obrazı canlanır. Gözlərimiz önündə onun portreti yaranır.

Azərbaycanın Xalq Rəssamı Oqtay Sadıqzadənin uğurlu portret əsərlərindən olan "Akademik Zərifə xanım Əliyeva" portreti özünün lirik məziyyəti ilə diqqəti çəkir. Kompozisiyada qara fonda Azərbaycan oftalmologiya elminin parlaq nümayəndəsi, zərif təbiətli insanın obrazı böyük incəliklə təsvir edilib. Obrazın təbəssümü və sol əlinin hərəkəti əsərin ümumi əhvali-ruhiyyəsini gücləndirir. Əsərin koloriti incə rəng keçidləri ilə ustalıqla işlənib.

Görkəmli italyan rəssamı, alim və filosofu Leonardo da Vinçi deyirdi ki, elm sərkərdə, praktika isə onun əsgəridir. Kamilliyi, yeniliyə olan marağı ilə elmin zirvəsinə çatan akademik Zərifə xanım Əliyevanı bacarıqlı, təcrübəli həkim kimi tanıdan onun nəzəriyyə ilə təcrübəyə eyni dərəcədə dəyər verməsi, paralel olaraq öyrənməsi, sərkərdə hesab etdiyi elmin "dəyişməz qayda-qanunlarına, əmrlərinə" əməl edən "hazırlıqlı, nizam-intizamlı əsgər" olması idi.

Zərifə xanımın müxtəlif illərdə çəkdirdiyi şəkillərin "yaşından" asılı olmayaraq, hamısına xas bir cəhəti sezmək mümkündür. Xarici görünüşündəki təmkin, sərbəstlik, hər şeydən əvvəl, onun daxili harmoniyasından irəli gəlir.

Fotoşəkillərində olduğu kimi, portretlərində də işıqlı çöhrəsinin nurunu artıran xəfif təbəssümünün altında lirik duyğularla psixoloji cizgilər bir-birini tamamlayır.

Zərifə xanımın portret cizgilərində diqqəti cəlb edən obrazlar qalereyası çoxdur: o, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

O, nə edirdisə, böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

Bu fikirlər isə 80-ci illərdə Heydər Əliyevin şəxsi mühafizəsinin rəisi işləmiş, 2017-ci ildə dünyasını dəyişən mərhum **Aleksandr İvanov**un xatirələrindəndir. Uzun illər keçsə də, dadını-tamını itirməyən, unudulması mümkünsüz, qəlbi ehtizaza gətirən həmin xatirələrdən biri:

"Zərifə xanım... Əziz, mehriban Zərifə xanım. Səmimi, qayğıkeş, diqqətcil Zərifə xanım. Nəcib, şəfqətli,

əliaçıq Zərifə xanım. Hansı epitetləri, minnətdarlıq ifadələrini işlətsəm, yenə də azdır, o işıqlı əməli, niyyəti nur insanın məziyyətlərini açıb göstərməkdə acizdir. O, olduğu kimi görünən və göründüyü kimi olan nadir bir xanım idi. Hamımızın anası idi. Xatirələrimin içində bu insanın məxsusi yeri var. Onun haqqında çoxları danışıb, yazıb.

Portretini də çəkiblər, heykəlini də düzəldiblər. Hər birinin səmimiyyəti, sənətkarlığı qarşısında baş əyirəm, ancaq inciməsinlər. Zərifə xanım xeyirxahlığı, nəcibliyi, mehribanlığı, qayğıkeşliyi ilə, qəlbləri ovsunlayan, riqqətə gətirən diqqətcilliyi ilə sanki Tanrının öz tişəsi ilə insan cildində yonduğu bir abidə idi. Tanıyanlar nəinki mübaliğəyə yol vermədiyimi, hətta düşündüklərimi ifadə etməkdə xeyli "piyada" olduğumu təsdiq edərlər. Onun ürəyi hərənin ətrafına sığınıb isindiyi, qığılcım payı aldığı gur şöləli tonqal idi. Qəribə xilqət idi, yaxşılıq etməkdən həzz alırdı və buna adi şey kimi baxırdı..."

Mədəniyyət və incəsənət sahəsinə həsr etdiyi silsilə yazıları ilə tanınan jurnalist **Gülcahan Mirməmməd** demişkən, indiyədək onun fırça ilə çox portretləri çəkilib, sözün köməyi ilə çox rəsmi yaradılıb. Lakin yaxşı insanların, xeyirxah əməl sahiblərinin, özündən sonra xoş xatirə qoyub gedənlərin yaddaşlarda əbədi yaşayan işıqlı obrazı həmişə kiminsə, hətta ən istedadlı rəssamın, ən güclü qələm sahibinin belə yaratdığı portretdən daha canlı, daha sevimli, daha gerçəkdir...

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər doktoru, professor **Hicran Hüseynova** jurnalistin **"Zərifə xanım Əliyevanın portretinin xarakterik cizgilərindən bəhs edərkən həm də onun gözəl ana, vəfalı ömür-gün yoldaşı, səmimi insan olduğu da xüsusi olaraq vurğulanır..."** fikrinə belə cavab verir:

"Zərifə Əliyeva qayğıkeş, mehriban ana, vəfalı, sədaqətli ömür yoldaşı, səmimi dost, saf insan idi. O öz gücünə, qüvvəsinə nə qədər inansa, arxayın olsa, ömrünü tibb elminin inkişafına həsr etsə də, ailəsinin mənəvi durumu, övladlarının tərbiyəsi həmişə birinci yerdə dayanırdı. Ailəsinin şərəf və ləyaqətini hər şeydən uca tutan Zərifə xanım çalışırdı ki, onun uşaqları hərtərəfli inkişaf etmiş müasir gənclər kimi böyüsünlər. Xalqımızın milli dəyərlərini, adət-ənənələrimizi yüksək qiymətləndirərək şəxsi həyatı ilə də hamıya örnək oldu. Ömürgün yoldaşı Ulu öndər Heydər Əliyevlə bərabər öz şəxsi nümunəsində əsl Azərbaycan ailəsinin mövcudluğunu nümayiş etdirdi. O, müasir Azərbaycan tarixində mühüm yeri olan iki prezidentin həyatında vacib rol oynayıb. Ulu öndərin yaxın silahdaşı, cənab Prezident İlham Əliyevin tərbiyəçisi olub. Zərifə xanım elə bir tərbiyənin, sevginin əsasını qoyub ki, bu gün həmin ailənin hər üzvü mənsub olduqları nəslin gözəl ənənələrini yaşadaraq, Azərbaycanın ictimai-siyasi həyatında xüsusi fəaliyyətləri ilə fərqlənirlər. Bu ailə üzvlərinin gözəl xüsusiyyətlərindən biri də onların özlərinə və ətraflarındakı insanlara ciddi tələbkarlıqla, yüksək meyarlarla yanaşmaları, hər bir işdə peşəkarlıq nümunəsi göstərmələri, mənəvi harmoniyaya nail olmalarıdır" *(Səs.– 2016. – 27 aprel. – s.9).*

Azərbaycanın Xalq Rəssamı **A.M.Mirqasımov** Zərifə xanım Əliyevanın portret cizgiləri barədə xatirələrini "Zəriflik və böyük qüdrət" adı ilə nəql edir:

"Rəhmətlik atam – Azərbaycan Tibb İnstitutunun Hospital cərrahiyyəsi kafedrasının müdiri və Azərbaycan Elmlər Akademiyasının prezidenti Mirəsədulla Mirələsgər oğlu Mirqasımovla respublikanın səhiyyə naziri Əziz Məmmədkərim oğlu Əliyevi qədim və uzun dostluq mü-

nasibətlərinin birləşdirdiyini yaxşı bildiyimdən Əliyevlər ailəsinə əvvəldən də dərin hörmət və rəğbətlə yanaşırdım. Biz ailəlikcə Zərifə xanıma sidq-ürəkdən, hərarətli bir münasibət bəsləyirdik. Ancaq işgüzar və məsləhət xarakterli əlaqələrimiz artıb genişləndikcə mənim ona hörmətim get-gedə artır, ona görə qürur hissi duyur, onunla fəxr edirdim.

....Onun özünə, başqalarına, xidməti vəzifəsinə bəslədiyi saf, tərtəmiz münasibət, nadir insani məziyyətləri, istənilən mürəkkəb vəziyyətlərdə düzgün nəticələr çıxarmağa, hər hansı informasiyanı ani olaraq təhlil etməyə qadir qeyri-adi dərəcədə iti fəhmi və ağlı, fədakar vətənsevərliyi və bir sıra digər yüksək keyfiyyətləri hamını valeh edirdi. Biz – Zərifə xanımı yaxından tanıyanlar Yer üzündə belə gözəl insanlarla bizi rastlaşdırdığı üçün taleyimizə minnətdar olmalıyıq. O, insanlara inam, nikbinlik təlqin edir, səmimi bir müdrikliklə faydalı məsləhətlər verir, böyük nəzakət və nəvazişlə onları yanlış yoldan çəkindirir, pis fikirlərdən daşındıra bilirdi. O, ağlagəlməz bir lütfkarlıq və səbirlə həmsöhbətini dinləyərək, söylənilənlərin əhəmiyyətsiz tərəflərini nəzakətlə qulaqardına vurar, diqqətini ən əsas və vacib məqamlara cəmləşdirərdi. İşinin həddindən artıq olmasına baxmayaraq, məsələləri ən xırda təfərrüatlara qədər yadda saxlayar, hadisələrin gedişini düzgün hesablamağı bacarardı. Onu xalqımızın fəxri olan görkəmli, məşhur Azərbaycan qadınlarının simvolu hesab edirəm. Bu, ən gözəl, ən parlaq və ən böyük insan obrazıdır".

Zərifə xanım Əliyeva bütün ömrü boyu böyük ürək, yüksək intellekt və qadın gözəlliyinin canlı təcəssümü olaraq öz müasirlərinə tamamilə yeni tip qadın obrazı bəxş etmişdi. O, gəncliyində də, ömrünün müdriklik çağlarında da canlı ideal qadın obrazı olaraq qalırdı.

Professor H.Nəsrullayeva "Zərifə xanım Əliyeva mənim üçün yüksək mədəniyyət, ziyalılıq, düzlük, öz işinə sadiqlik, bütün bilik və bacarığını xalqına xidmət işinə yönəldən böyük bir İnsan obrazıdır" – demişdir.

Akademik Nadejda Aleksandrovna Puçkovskaya "Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi" deyərək, alimin yüksək insani keyfiyyətlərə malik olduğunu vurğulamışdır. Professor Alevtina Fyodorovna Brovkina isə onu "nəciblik və mənəvi paklıq timsalı" adlandırmışdır.

Gəlin Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunun direktoru **K.V.Trutneva**nın Zərifə xanım haqqında fikirləri ilə tanış olaq:

"Zərifə xanım, hər şeydən əvvəl, görkəmli alim-oftalmoloqdur. Təkcə oftalmoloqmu?! O, eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq idi. Onun elmdə məqsədyönlü fəaliyyəti indi də insanı valeh edir. Axı onun elmi fəaliyyətinin əsas istiqamətini görmə orqanının peşə patologiyası müəyyənləşdirirdi. Bu problemin həllinə çoxları girişə bilmirdi. Çünki elmin bu sahəsi olduqca ağırdır və onun araşdırılması təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi bilgilər tələb edir. Üstəlik yüksək təşkilatçılıq bacarığı da vacibdir. Məhz bütün bu keyfiyyətlər Zərifə xanım Əliyevaya xas idi. Zərifə xanım peşə patologiyası sahəsində görkəmli oftalmoloq, geniş profilli mütəxəssis həkim olmaqla yanaşı, həm də gözəl pedaqoq idi. Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasında oxuduğu mühazirələr bunu bir daha sübut edir".

Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir, Zərifə xanımın hər kəs üçün nümunə olan həyat yolu, həkimlik fəaliyyəti, oftalmologiya elminə gətirdi-

yi yeniliklər barədə çox danışılıb. Onun xeyirxahlığını daim hörmət və ehtiramla yad edən xəstələri, yaxınları bu nurlu əməl fədaisinin insan üçün ən qiymətli zinət olan sadəliyini, xeyirxahlığını unutmur, xatirəsini həmizə əziz tuturlar. Həkim ailəsində böyüdüyündən onu sevib-seçdiyi peşəsinə aparan yol bəlli olsa da, tale yolları alın yazısıdır. Tanrının sevdiyi bəndəsinə "səxavəti" isə hər yaratdığına nəsib olmur. Bunun üçün İlahinin əsl insan üçün "təsdiqlədiyi" meyarlara uyğun olmalısan. Zərifə xanım Əliyeva da belə seçilən sevimli bəndələrdən olub.

* * *

Zərifə xanım tipik Şərq qadını, ailəsini, ocağını qoruyan cəfakeş həyat yoldaşı, etibarlı dost, övladlarını əsl vətənpərvər kimi yetişdirən və hamıya nümunə olan ana obrazıdır. O, eyni zamanda bəşəri dəyərlərə hörmətlə yanaşan, yüksək mədəniyyəti ilə də seçilən ziyalılardan idi. "Heydər Əliyev: Tale yolları" kitabının müəllifi, Rusiyanın tanınmış tədqiqatçı-yazarı, sovet dövlət xadimi **Nikolay Zenkoviç** yazır:

"Mən Siyasi Büro üzvlərinin həyat yoldaşları barədə bioqrafik məlumatları diqqətlə araşdırmışam, müqayisə etmişəm. Hansı nəticəyə gəlmişəm: aydın olub ki, onların arasında ən savadlı qadın Siyasi Büro üzvü Heydər Əliyevin xanımı olub. O, hətta Sov. İKP MK baş katibinin arvadı Raisa Maksimovnadan da savadlı idi. Özü də təkcə savadlı yox, Zərifə xanım hərtərəfli bir şəxsiyyət idi. SSRİ siyasi rəhbərlərinin o biri üzvlərinin evdar qadın olan maraqsız arvadlarından fərqli olaraq, Heydər Əliyevin həyat yoldaşı dünyada tanınan bir insan idi".

Zərifə xanımın ictimai işlərdə fəallığını, cəmiyyətdə tutduğu mövqeyi yüksək dəyərləndirdiyi kimi, ta-

nınmışların övladları barədə də münasibətini bildirən müəllif yazır: "Yuxarılar"da əyləşən 229 nəfərin uşaqlarından ən böyük uğur qazananlar 3 nəfərdir. Birinci yerdə Heydər Əliyevin oğlu İlham durur. O, Azərbaycan Respublikasının Prezidentidir. Siyasi Büronun o biri üzvlərinin övladlarından heç biri bu cür böyük uğura nail olmamışdır. Dünyanın aparıcı dövlətlərinin başçıları onu səmimi qəbul etmişlər, onunla yaxşı, işgüzar münasibətlər qurmuşlar".

Eyni zamanda bildirilir ki, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, tibb elmləri doktoru, oftalmologiyada yeni müalicə metodlarının banisi sayılan Zərifə xanım Siyasi Büro üzvlərinin həyat yoldaşları arasında yüksək statusa malik yeganə qadın idi.

Zərifə xanımla bağlı kitabda yer almış xatirələr akademikin mənəvi dünyasının zənginliyini göstərir. Qırx ildən artıq SSRİ Bəstəkarlar İttifaqına başçılıq etmiş **Tixon Xrennikov**un qeydlərindən: "Fundamental erudisiyası ilə seçilən parlaq şəxsiyyət Zərifə xanım heyrətamiz insan idi. Musiqini, ədəbiyyatı, xüsusilə poeziyanı peşəsi qədər sevib, dəyər verən kamil bir insan, şəxsiyyət idi".

Milli Məclisin deputatı, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru **Gövhər Baxşəliyeva:**

"Zərifə xanım Əliyevanın timsalında ideal qadın və əsl Azərbaycan xanımı obrazı canlanır. Hesab edirəm ki, Zərifə Əliyevanın bu obrazı, siması, keçdiyi həyat yolu bizim gənc xanımlarımız üçün parlaq nümunədir. Buna görə də onun şəxsiyyəti, həyatı, keçdiyi yol daha geniş təbliğ olunmalıdır ki, bugünkü xanımlarımız nümunə götürsünlər. Həqiqətən də, Zərifə xanım davranışı, həyat tərzi, insanlarla rəftarı, övladlarına verdiyi tərbiyə, həkim kimi xəstələrə münasibəti baxımından, insanlığın parlaq siması kimi dəyərləndirilməlidir...

...70-ci illərdə Azərbaycanın rabitə naziri olmuş Hüseyn Rəsulbəyov (o həm də general idi) atamla dost idi. Hüseyn Rəsulbəyovun qızı Zərifə xanımın qardaşı Cəmil Əliyevin həyat yoldaşıdır. Bu qohumluq əlaqələrinə görə onların ailəvi gediş-gəlişi var idi. Mən H.Rəsulbəyovdan da Zərifə Əliyevanın respublikanın birinci şəxsinin həyat yoldaşı olmasına baxmayaraq, necə sadə insan olduğunu eşitmişdim. O danışırdı ki, Zərifə xanım işdən evə gələndə özü mətbəxə keçər, yeməklər bişirər, ailənin süfrəsini şəxsən hazırlayardı. Qeyd edirdi ki, Zərifə xanım çox mədəni, ziyalı, qayğıkeş və sadə insandır.

Eyni zamanda, bu cür yüksək alicənablıq Zərifə xanımın qardaşları Tamerlan və Cəmil Əliyevlərdə də var. Çünki bu insanlar yüksək mədəni mühitdə böyüyüb və yaşayıblar..."

...Hərdən yaradıcı adamlar bir sıra görkəmli adamlarla sağlığında görüşmədiyinə, müsahibə almadığına heyifsilənirlər. Tale belə adamlar haqqında yazmağı yalnız dünyasını dəyişdikdən sonra nəsib edir. O da zamandan öz kamını bildiklərini, eşitdiklərini bir xatirə yazısına çevirib yazmaqla alır...

Tanınmış jurnalist Gülcahan Mirməmməd belələrindəndir. Ona Zərifə xanımı həyatda görmək, müsahibə almaq nəsib olmasa da, "Rəsmini çəkmək istədiyim qadın..." yazısında eşitdiklərini ipə-sapa belə düzür:

"…Günlərin birində Zərifə xanım görür ki, onunla eyni korpusda işləyən sanitar qadınlardan biri çox bikefdir. Qadını yanına çağırıb dərdini soruşur. Demə, beş yetim saxlayan həmin qadının Tibb İnstitutunda oxuyan böyük qızının qiymətini bir insafsız müəllim kəsibmiş. Onu institutdan qovdurmaqla qorxudurmuş. Gələcəkdə göz həkimi olmaq xəyalı ilə yaşayan qızcığazın muradının gözündə qalmaq təhlükəsi varmış. Zərifə xanım işə qa-

rışır: tələbə qızın haqqı qaytarılır, həmin müəllim də cəzalandırılır. Qız institutu bitirənədək Zərifə xanım daim onun dərsləri ilə maraqlanır, sonralar özünün çalışdığı xəstəxanada işə düzəlməsinə köməklik göstərir, toyunda da həvəslə iştirak edir.

Zərifə xanımla birgə çalışmış həkim rəfiqələrinin xatirələrində rus millətindən olan başqa bir sanitar qadının mənzil şəraitinin yaxşılaşmasına köməyi, evgördüsü məclisində əziz adamının xeyrindəki kimi həvəslə iştirak etməsi kimi insanı kövrəldən əhvalatlar az deyil.

…Bir gün Zərifə xanımın yaşadığı binanın girişində keşikdə duran gənc milis işçisi onun gözünə bikef görünür. Təbii ki, əgər Zərifə xanım orada yaşayan bəzi xanımlar, bəylər kimi həmin mühafizəçinin yanından saymazyana ötüb keçsəydi, yəqin ki, cavan oğlanın halındakı dəyişikliyi sezməzdi. Amma insanların gözünün nurunu qaytaran, hər kəsə ana, bacı münasibəti bəsləyən bu xanımın iti baxışlarından yayınmaq mümkün idimi? Zərifə xanımın diqqətcilliyi sayəsində həmin oğlan sonralar pis fəsad verə biləcək xəstəliyin astanasından geri dönür".

* * *

İnsanın ömründə qonşuların necə böyük rol oynadığını önə çəkən Azərbaycan pianoçusu, Azərbaycan SSR Xalq Artisti (1974), Rusiyanın Əməkdar Artisti, "Şöhrət" ordeni laureatı, Moskva Dövlət Pedaqoji Universitetinin Musiqi fakültəsinin professoru **Tamilla Zahid qızı Mahmudova** "Nəğmələrə vida anı" xatirə-yazısında Bakıda yaşadığı məhəlləni belə xatırlayır: "İxtisasca cərrah olan atam cəbhədə həlak olmuşdu. Bizsə anamla başsız qalmışdıq. Ancaq, hər halda, uşaqlıq xatirələri həmişə işıqlı olur... Anamla bizim bəxtimiz onda gətirmişdi ki, Əliyevlərin böyük və mehriban ailəsi ilə qonşuluqda yaşayırdıq.

Ətrafda hamı bu ailənin işığına qızınırdı... Biz qonşular bu gözəl ailənin başçısı Əziz Məmmədkərim oğlu Əliyevi az-az görürdük. Hamı bilirdi ki, o, Tibb İnstitutuna, sonra Səhiyyə Nazirliyinə, sonra da Dağıstana rəhbərlik etdiyi dövrdə necə gərgin işləyib. Mən onun istirahət etdiyini heç görməmişdim. Ancaq yaddaşımda onun qanının qara olduğu, qaraqabaqlığı ilə bağlı bircə epizod da qalmayıb. İndiyəcən o kişini xatırlayanda gözlərim önündə həmişə isti, xeyirxah təbəssüm saçan gülərüz sifəti canlanır. Ailənin bütün işlərini Leyla xala idarə eləyirdi. O, zəhmətsevər və ağıllı ana, gözəl ev sahibəsi, müdrik insan kimi yadımdan çıxmayacaq...

Ailənin kiçik qızı Gülarə yaşına görə mənə daha yaxın idi. Bizi həm də "müqəddəs musiqi sevgisi" bağlayırdı. Musiqi sonralar hər ikimizin ixtisasımız oldu... Böyük bacıları Zərifə də musiqiyə qeyri-adi dərəcədə bağlı idi, yaxşı royal çalır, xoş səslə oxuyurdu. Ancaq o da, qardaşı Tamerlan da atalarının yolu ilə getdilər. Özlərini insanlar üçün vacib olan başqa bir sənətə – təbabətə həsr etdilər. Məlumdur ki, uşaq vaxtı iki-üç yaş fərqi daha çox hiss olunur, nəinki böyüyəndə. Zərifə də məndən ötrü əlçatmaz dərəcədə böyük idi. O, oturuşu, duruşu, görünüşü, davranışı ilə bizə örnək idi. O heç vaxt başqa böyüklər kimi kiçiklərə etinasızlıq göstərməzdi. Əksinə, ünsiyyət zamanı sanki yaşını unudar və bizimlə həmyaşıd kimi davranardı. Bu da bizi qürurlandırardı. Hər şeyi onunla məsləhətləşər, həmişə onunla bir yerdə olmağa çalışardıq.

Şüşəbəndin açıq pəncərələri qarşısında gecələr uzunu onunla söhbətləşməkdən usanmırdıq".

Tamilla xanım romantika ilə dolu o uzaq uşaqlıq çağlarını şairanə tərzdə qələmə alaraq daha sonra yazırdı: "Evimiz əla yerdə idi: İçərişəhərdə. Üstəlik şüşəbəndimiz hündürdə yerləşdiyindən pəncərəmizdən Bakı buxtası-

nın bütün gözəlliyi ovuc içi kimi aydın görsənirdi. Dənizə baxmaqdan doymaq olmurdu: o, ilin fəsillərindən, havadan və işığın düşməsindən asılı olaraq tez-tez görkəmini dəyişirdi. Dənizdəki həyat da maraqlı və canlı idi: nəhəng gəmilər fit verib keçir, buxta ara vermədən katerlər və yelkənli qayıqlarla dolub-boşalırdı. Ancaq günəşin qürubundan sonra dəniz daha cazibədar olurdu. Hərbi gəmilərin gur işıqları yanır, dənizdən evimizə uzanan ay işığı bizə gəl-gəl deyir, gəzməyə həvəsləndirirdi. Biz kiçiklər açıq pəncərələrimizdən durub durbinlə aya, ağ yola, dənizə baxar, böyük dostlarımız Tamerlan və Pərvizin maraqlı söhbətlərinə qulaq asardıq. Onlar çoxlu mütaliə edər və bildiklərini bizimlə bölüşərdilər. Buna görə də onların söhbətləri bizim üçün nağıllardakı qədər maraqlı idi. Bütün bunlar o illərin xatirələridir. O zaman hələ mavi ekran insanları canlı ünsiyyətdən, istiqanlı söhbətlərdən yadırğatmamışdı".

İlk musiqi təhsilini Azərbaycan Dövlət Konservatoriyası nəzdində xüsusi məktəbdə, məşhur pedaqoq, professor K.Səfərəliyevanın sinfində alan Tamilla xanım 1947-ci ildən Azərbaycan Radio Komitəsində solist olub. 1954-cü ildən Moskonsertin solisti olmaqla bərabər, təhsilini Moskva Konservatoriyasında davam etdirib. 1957-ci ildə professor Y.Zakın sinfində aspiranturanı bitirib.

Tamilla xanım daha sonra öz xatirələrində yazır: "İş elə gətirdi ki, biz iki il Zərifə ilə görüşə bilmədik: mən Moskvaya oxumağa getdim, sonra orada qalıb işlədim. Baxmayaraq ki, ürəyim Bakıda qalmışdı. Ancaq istəsəm də, buraya tez-tez gələ bilmirdim. Mən, əlbəttə, bu böyük insanın uğurlarından xəbər tuturdum, onun böyük alim, fəal ictimai xadim, iki uşaq anası, görkəmli dövlət xadiminin həyat yoldaşı olduğunu bilirdim. Bilirdim ki, bu sadaladıqlarımın hər biri hər hansı bir sadə qadının hə-

yatını tamamilə zənginləşdirmək üçün bəs edərdi. Bütün bunların bir nəfərin şəxsiyyətində cəmləşdiyini təsəvvür etmək asan deyildi. Zərifə xanım özü də belə qeyri-adi insan idi. Mən bilirdim ki, o, gərgin fəaliyyəti ilə yanaşı, teatr-konsert həyatının bütün hadisələrini diqqətlə izləməyə də macal tapır, incəsənətə xeyli vaxt və ürək yanğısı sərf edir. Mən onunla görüşməyə cürət etmirdim, onun vaxtını almağa qıymırdım.

Lakin həyat mənə onunla daha bir görüş bəxş etdi. Bu, mənim üçün çox gözlənilməz oldu. Azərbaycan bəstəkarlarının IV qurultayının yekun konsertindən sonra filarmoniyanın foyesində Zərifə xanımla rastlaşdıq. Sevinə-sevinə dedim ki, o heç dəyişməyib – gözəl, həmişə cazibədar görünən Zərifə xanım ətrafındakılarla maraqlı söhbət edirdi. Məni görən kimi hal-əhval tutdu, anamı, qızımı, xalamı soruşdu. Hamısı da adbaad yadında idi, hiss olunurdu ki, sadəcə nəzakət xatirinə verilən suallar deyil, həqiqətən maraqlanır. Çox təsirləndim. Açığını desək, hər birimiz çoxlu misal gətirə bilərik ki, çox vaxt hətta zahiri uğurlar adamları dəyişdirir. Lakin zaman bütün hallarda öz həqiqi mahiyyətini qoruyub saxlayan əsl insanı dəyişdirməkdə acizdir. Zərifə Əliyeva belə insan idi – dərin zəkalı, eyni zamanda sadə və xeyirxah. Bir-birini əvəz etmiş illər onu dəyişdirmək qüdrətində deyildi. Nə zahiri görünüşünü, nə zəngin daxili aləmini. Filarmoniyanın foyesində onunla söhbət edəndə ağlıma da gətirə bilməzdim ki, bu, bizim onunla son görüşümüzdür. O, Moskvaya köçdü, biz artıq bir şəhərdə yaşayırdıq və mən ümid edirdim ki, yenidən görüşəcəyik. Ancaq taleyin hökmü çox amansız imiş. Zərifə həyatdan çox erkən və gözlənilmədən köçdü: qüvvəsinin artdığı, yaradıcılıq düşüncələrinin genişləndiyi, həyat enerjisinin aşıb-daşdığı bir zamanda.

**Moskva, 15 aprel 1985-ci il. Alimlər Evi...**

Budur, mən onu – əziz, sevimli və füsunkar Zərifəmi son mənzilə yola salıram. Bununla da sanki öz uşaqlığımın ən işıqlı xatirələri ilə vidalaşıram...”

**Müəllifin əlavəsi:** Tamilla xanımın özünün də qismətində qürbətdə dünyasını dəyişmək varmış. O, 3 sentyabr 2014-cü ildə Almaniyanın Hamburq şəhərində vəfat etdi. Repertuarına rus və Qərbi Avropa klassiklərinin, müasir xarici ölkə bəstəkarlarının əsərlərini daxil edən Tamilla Mahmudova Azərbaycan bəstəkarlarından Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev və Arif Məlikovun fortepiano əsərlərinin ilk ifaçılarından idi. İngiltərə, Belçika, Lüksemburq, Macarıstan, Hindistan, Polşa, Zambiya, Tunis, Birləşmiş Ərəb Əmirlikləri və başqa xarici ölkələrdə qastrolda olmuş, konsertləri anşlaqla keçmişdi. Onu da qeyd edim ki, Tamilla xanım görkəmli yazıçı-dramaturq Sabit Rəhmanın qardaşı qızı olub.

* * *

...Əgər insanın daxili harmoniyası onun siması ilə üzvi vəhdət təşkil edirsə, əgər şəxsiyyət daxilən tamdırsa, bu harmoniyanın özü elə səadətdir, insan qəlbinə işıq saçan və hərarət gətirən mənbədir.

Bir vaxtlar Azərbaycan Tibb İnstitutunun Fəlsəfə kafedrasının müdiri vəzifəsində çalışan və Zərifə xanımı ötən əsrin 50-ci illərinin əvvəllərindən tanıyan, onun daxili aləminin ahənginə heyran olan professor **A.Y.Nəcəfov** “Vicdan həkimi” xatirə-yazısında qəhrəmanımızın xarakterik cəhətlərini belə qələmə alır:

“Zərifə xanım Əliyevanın obrazı onun dostlarının və saysız-hesabsız tələbələrinin qəlbində dərin kök salmışdır. Tibb İnstitutunun tələbələri, həkim dinləyiciləri, görkəmli alimlər, ədəbiyyat və incəsənət xadimləri, eləcə

də sadə adamlar onu tanıyır, ürəkdən sevir, yüksək qiymətləndirirdilər... Xeyirxahlığı və mənəvi gözəlliyi ilə seçilən, bizi çox erkən tərk etmiş bir insan haqqında keçmiş zamanda danışmaq adama ağır gəlir...

Yüksək peşəkarlığı, mədəni tələbatının genişliyi, dostpərvərliyi, ünsiyyətdə səmimiliyi və istiqanlığı, qayğıkeşliyi, ehtiyacı olanın köməyinə çatmağa can atması Zərifə xanımın həyatını insanlara humanist xidmət nümunəsi kimi, ləyaqətlə tibb elminin ön sıralarına çıxmış bir insan kimi səciyyələndirməyə tam əsas verir. Hədsiz dərəcədə xeyirxah bir insan olan Zərifə xanım yaşamaqdan, işləməkdən ilham alır, həyata və insanlara nikbin yanaşır, xeyirxahlıq və etimad ab-havası yaradırdı. Bu parlaq şəxsiyyət nurlu bir səmimiyyətə, həyatı xeyirin təntənəsi, ümumxalq səadəti uğrunda mübarizə üçün insana verilmiş bir hədiyyə, zəkanın və hissiyyatın qırılmaz vəhdəti kimi qəbul edən böyük istedada malik idi... Zərifə xanım elə nadir şəxsiyyətlərdən idi ki, tale ona adicə sözlərlə insanların qəlbində həyat eşqi yaratmaq qüdrəti vermişdi. Onunla danışmaq, ona qulaq asmaq çox maraqlı idi. O, qeyri-adi düşüncə tərzi ilə müsahibini heyran edir, ən adi həyat həqiqətlərində yenilik və bəşərilik işığı yandıra bilirdi.

...Zərifə xanımın unudulmaz obrazını xatırlayarkən biz inanırıq ki, bu gözəl insan onu tanıyanların, sevənlərin və ona hörmət bəsləyənlərin xatirində əbədi yaşayacaqdır".

Siyasi elmlər doktoru **Vaqif Abdullayev:**

– Zərifə Əliyeva həkimlik etikasının nümayişçisi idi. Akademik bütün fəaliyyəti boyu pasiyentlə tibbi etika anlayışlarını dialektik vəhdətdə götürmüşdür. Bu dialektikanın nüvəsini bir həqiqət təşkil edirdi: insan sağlamlığı ictimai sərvətdir. İnsanların gözünə nur vermək isə bəşəri

humanizmdir. Zərifə xanım öz həmkarlarına da həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq həm də onu özünə qaytaran əsl humanist xidmətdir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi idi: insanı sağaltmaqla onu öz məninə qaytarmaq. Zərifə Əliyeva insanlara xoş əməlləri ilə lazım olan mənalı həyat yaşayıb. Bu sözləri dahi Səməd Vurğun sanki Zərifə xanım barədə deyib: “Mən sadəcə istəyirəm ki, hər şey bizdə iz qoysun, istəyirəm ki, yüz yaşa qədər yaşaya bilməyənlər bir gününü on il kimi yaşasınlar”.

Zərifə xanımın insanlara nur bəxş edən hər mənalı günü xoş əməl naminə sərf olunmuşdur.

Cəlaləddin Rumi deyir: “İnsanın istəyi nə qədər kiçik olsa, xoşbəxtliyi də o qədər böyük olar”.

## Doqquzuncu fəsil

# XATİRƏLƏR, XATİRƏLƏR...

*O kəs də xoşbəxtdir ki,*
*hörmət etdiyi kəs haqqında xatirə belə*
*onu özünü təkmilləşdirməyə sövq edir.*
*Seneka*

Bəli, doğrudan da, "ölməzlik özündən sonra xoş xatirə qoyub getmək bacarığıdır".

Hörmətli oxucu, biz xatirələrin izi ilə yenidən geriyə dönürük! Əgər insanlar özləri bu gözəl qadını təriflərlə yad edirlərsə, müəllifə daha nə əlavə etmək qalır?!

M.Mirqasımov adına Respublika Xəstəxanasının həkimi **Alimə Əliyeva** öz ailəsinin Əziz Əliyevin ailəsilə dostluğundan səmimiyyətlə danışır. Əliyevlər ailəsinin başçısı Əziz Məmmədkərim oğlunu, onun həyat yoldaşı Leyla xanımı, qızları Ləzifəni, Dilarəni, Zərifəni və Gülarəni – qızlar Alimə xanımın rəfiqələri idi – və onlarla keçirdiyi maraqlı günləri xoş hisslərlə xatırlayır.

Qəribədir, insani münasibətlərlə peşəkar fəaliyyət necə də bir-birini tamamlayırdı: Tamerlan Əliyevin elmi rəhbəri, onunla eyni familiyanı daşıyan ziyalı, Azərbay-

canda əczaçılıq elminin banilərindən **Rüstəm Əliyev** Alimə xanımın qardaşı idi.

Alimə xanımın özünün sonrakı dövrlər haqqında xatirələrinə diqqət yetirək:

"Yaş fərqimizə baxmayaraq, Zərifə mənə çox bağlı idi. Aramızda inamlı münasibət yaranmışdı… O öz sirlərini, arzularını mənimlə bölüşürdü.

O vaxt bizim uzun hörüklərimiz vardı. O mənə çox vaxt "saçlı qız" deyərdi, mənə müxtəlif rəngli kiçik lentlər bağışlardı. Anam Zərqələm xanım Şuşanın tanınmış ziyalı ailəsindən çıxmışdı. Çox gözəl qadın idi və həqiqətən, xeyirxahlıq nuru ilə parlayırdı. Bundan başqa, o, Azərbaycan mətbəxinin ustası idi. Əla Qarabağ xörəkləri hazırlayırdı. Onu bu keyfiyyətlərinə görə hamı, xüsusən Əliyevlər ailəsi sevirdi. Əziz Məmmədkərim oğlu mənim anamın mətbəxdəki məharətini qiymətləndirirdi. Deyirdi ki, onun hazırladığı plovun ətri həyətə girən kimi hiss olunur.

Bizim evimizdə tanınmış Azərbaycan ziyalıları, dövlət xadimləri olurdu. Adətən, onlar şənbə günləri yığışırdılar. Əziz Əliyev, akademiklər Həsən Əliyev, Yusif Məmmədəliyev, Mustafa Topçubaşov, Abdulla Qarayev, Xalq Şairi Səməd Vurğun, məşhur yazıçı İlyas Əfəndiyev, SSRİ Xalq Artisti müğənni Bülbül, görkəmli bəstəkarlar Fikrət Əmirov, Süleyman Ələsgərov, səhiyyə naziri Fəxri Vəkilov, Tamerlan Əliyev sevimli qonaqlar idi…

Sentyabrın 1-də, mənim ad günümdə qonaqlar xüsusilə çox olurdu. Zərifə xanım isə həmişə bacıları ilə birgə gələrdi. Pianoda çalar, oxuyar, oynayar, şənlənərdik. Biz də Əliyevlər ailəsinin qızlarının – bacıların ad günlərini təbrik edərdik. Yay aylarında ailələrimiz birlikdə istirahətə gedərdilər.

Belə görüşlərin birində Zərifə xanım mənə balaca bir mücrü bağışladı və dedi: "Alimə, orta məktəbi bitirəndə anam mənə qədimi bir saat bağışlayıb. Mən səni çox sevdiyimdən onu sənə hədiyyə verirəm". Mən bu saatı indi də ən qiymətli xatirə kimi saxlayıram.

...Uşaqlığımda baş vermiş bir hadisəni heç vaxt unutmaram. Ailəmiz bağ evində istirahət edirdi. Yay idi, hava istiydi. Qonaqlarla birlikdə dənizə çimməyə getdik. Yolda anamın əlini ilan sancdı. Dəhşətli mərəkə qopdu. Anamı tez xəstəxanaya, həkimə apardılar. Xəstəxanada lazımi yardımı göstərdilər, sonra evə gətirdilər. Demək olar ki, Bakıda anama baxmamış, baş çəkməmiş bir ixtisas həkimi qalmadı. Ancaq onun vəziyyəti pisləşirdi. Mən anamı çox sevirdim, onun həyatı üçün narahatlıq keçirdiyimdən daim ağlayırdım. O günlərdə Əliyevlər ailəsinin bütün üzvləri bizə baş çəkir, ürək-dirək verirdilər. Müalicə ilə Əziz müəllim özü məşğul olurdu. Onun böyük qayğısı sayəsində anam sağaldı..."

Akademik P.Əzizbəyova isə uşaqlıqda bağ mövsümündə baş vermiş maraqlı bir əhvalatı xatırlayır:

"Bizim hasarın o üzündə hansısa idarənin istirahət evi, bağı yerləşirdi. Dəqiq xatırlamıram, ya Daxili İşlər Nazirliyinin idi, ya sərhədçilərin. Orada, hasarın lap yaxınlığında tezyetişən üzüm tənəkləri əkilmişdi. O tənəklər bar verəndə hər yerdə üzümlər hələ gömgöy olurdu. Əlbəttə, biz də uşaq həvəsi ilə o tənəklərdə bitən kəhrəba kimi sapsarı, şipşirin, şirəli şanılara biganə qala bilməzdik.

Bir dəfə böyük uşaqlar qərara gəldilər ki, bir-iki salxım üzüm dərsinlər. Mən də onların dalına düşdüm. Bir qədər sonra qarovulçu başımızın üstünü alanda onlar qaçıb aradan çıxdılar, mən ələ keçdim. Kişi bərk-bərk qolumdan yapışıb sıxır, mən isə qışqırıb uşaqları köməyə çağırırdım. Birdən hasar tərəfə açılan eyvanda Zərifə

göründü. O, qarovulçunu dilə tutaraq məni buraxmağı uzun-uzadı xahiş elədi. Ancaq qarovulçunun tərsliyi tutmuşdu. Bunu görəndə evlərinə girdi, bir-iki dəqiqə sonra isə atası Əziz əmi ilə birlikdə yenə balkona çıxdı. Əziz əminin bir-iki kəlmə sözündən sonra qarovulçu inadından əl çəkdi, məni hasara tərəf dartdı, Zərifə artıq orada idi. O, hasarı aşmağıma kömək elədi, ancaq birdən-birə mən onun əlindən çıxıb götürüldüm. Evdə cəzalanacağımdan qorxurdum. Tut ağacının başında bir gizli yerim vardı, ora dırmaşıb səsimi çıxarmadım. Onlar məni axtarıb, tapa bilmədilər. Yaman acmışdım. Gecədən xeyli keçmiş ara sakitləşdi. Mən Zərifənin pıçıltısını eşitdim: "Zina (uşaqlıqda məni belə çağırırdılar), qorxma, mənəm, Zərifəyəm. Aşağı düş, sənə yemək gətirmişəm". Əlbəttə, mən əmin idim ki, o məni ələ verməyəcək, buna görə də ağacdan düşdüm. Yadımdadır, Zərifənin mətbəxdən gətirdiyi yeməklərin hamısını görməmiş kimi gözümə təpirdim. O, gülümsər gözləri ilə mənə baxırdı. Sonra astadan: "Nədən qorxursan, atam artıq hər şeyi atana danışıb; onlar narahatdırlar, gedək evə", – dedi.

Püstəxanım yaddaqalan tarixlərdən biri olan 1945-ci ili xatırlayır:

"İnsan sevinci ilə aşıb-daşan Bakı Qələbə gününü bayram edirdi. Şəhəri hay-küy, sevinc nidaları başına götürmüşdü. Hamı bəxtiyarlıq içində idi. "Zina, Zina, – eyvandan Zərifənin gur və şən səsi eşidildi, – gedək bulvara. Qələbə çaldıq, təsəvvür edirsənmi, biz qələbə çaldıq!" Əl-ələ verib bulvara qaçdıq. Sanki bütün Bakı sahilə yığışmışdı. Bir-birini tanımayan adamlar da qucaqlaşır, bayramlaşır, doğmalarını, əzizlərini yada salıb ağlaşırdılar. Biz o vaxtlar çox sevdiyimiz ağaca çatdıq (o ağac indi də Kukla Teatrının yanındadır). Orada başdan-ayağa qara geyinmiş, ağ saçlarına qara kəlağayı bağlamış bir

qadın dayanmışdı. Sanki yıxılmamaqdan ötrü bir əli ilə ağacdan yapışmışdı, o biri əlində yaylıq tutmuşdu. Zərifə, adətən, tanımadığı adamlardan utanardı, ancaq bu dəfə cəsarətlə həmin qadına yaxınlaşdı, onu qucaqlayıb sakit səslə dedi: "Anacan, qara yaylığını başından götür, bu gün bayramdır". Qadın hönkürdü. Zərifə onu daha bərk qucaqlayıb sinəsinə sıxdı: "Əriniz?" Qadın hıçqırığını güclə boğub dedi: "Yox, oğlum… Üç oğlum…" O gün biz evə qayıdanda Zərifə yumruqlarını düyüb deyirdi: "Nifrət eləyirəm müharibəyə, insanların əzab çəkməsinə dözə bilmirəm". Onu tanıdığım bütün bu vaxt ərzində mən ilk dəfə Zərifənin gözlərinin yaşla dolu olduğunu gördüm…

İki dəfə valideynlərimiz bizi bir yerdə Moskvaya aparmışdılar. Yadımdadır, birində yay idi, mən məktəbi təzə bitirmişdim. Zərifə, anası Leyla bacı, mənim atam və o vaxt Azərbaycan Elmlər Akademiyasının prezidenti olan akademik Mirəsədulla Mirqasımovla yola düşdük. Zərifənin atası artıq Moskvada idi, orada SSRİ Ali Sovetinin sessiyası gedirdi. Üç gün yol getdik. Yolda çox şey barəsində söhbət eləməyə imkan tapdıq.

Zərifə mənim oxumağa hara gedəcəyimlə maraqlandı. Mən dedim ki, babam Məşədi kimi mühəndis-elektrik olmaq istəyirəm. Zərifə bir qədər fikrə gedib dedi: "Mənə elə gəlir ki, sən səhv eləyirsən. Babanın işini davam etdirmək üçün mütləq mühəndis-elektrik olmaq lazım deyil. Məncə, sən tarixçi olmalı, baban haqqında, onun dostları haqqında yazmalısan". Təəccübləndim: "Məndən tarixçi olar? Mən ona görə qızıl yox, gümüş medal aldım ki, attestatımda bircə dənə "dörd"üm var, o da tarixdəndi…"

Ancaq atam da, akademik Mirqasımov da Zərifənin sözünü təsdiqlədilər. Akademik belə dedi: "Tarix-

dən “dörd” almaq boş şeydir, əsas odur ki, sən sənətini sevəsən, yaxşı mütəxəssis olasan. Sən tarixçi olmalısan. Zərifə düz deyir, sənədlərini tarix fakültəsinə ver”.

Moskvadan qayıdandan sonra onların məsləhətinə qulaq asdım və sənədlərimi universitetin tarix fakültəsinə verdim.

Ümumiyyətlə, Moskvada birgə keçirdiyimiz xoşbəxt günlər haqqında xeyli xatirələrim var. Orada çoxlu söhbət edir, gördüklərimizi və oxuduqlarımızı müzakirə edir, öyrəndiklərimizi bir-birimizə danışırdıq. Günlərimizi incəsənət qalereyalarında, muzeylərdə keçirir, teatra gedirdik.

Zərifə gördüyü gözəllikləri tez özünün könül dünyasına həkk edər, şərə, ədalətsizliyə qarşı üsyana qalxardı. Xatirimdədir ki, Tretyakov qalereyasında Repinin “İvan Qroznı və oğlu İvan, 16 noyabr 1581-ci il” adlı əsərinə baxandan sonra uzun müddət özünə gələ bilmirdi, tez-tez təkrarlayırdı: “Ata öz oğlunu, ciyərparasını necə öldürə bilər?” Daha sonralar mən başa düşdüm ki, onun qəlbində hələ o zaman müqəddəs analıq hissi baş qaldırmağa başlamışdı.

Bir dəfə Böyük Teatra, “Karmen” operasına getdik. Karmen rolunda Davıdova var idi. Möhtəşəm və əzəmətli zalda nəfəsimizi içimizə çəkib oturmuşduq. Birinci hissə qurtaranda Zərifə qulağıma pıçıldadı: “Yadındadır, bir vaxt sənə demişdim ki, həyat – nağıldır. Bax biz bu gün səninlə böyük bir nağılın içinə düşmüşük”. Mən, elə bil, böyümüşdüm və böyüklərə xas bir əda ilə ondan soruşdum: “Zərifə, bəs sənin yadındadır, mən uşaq olanda sən nağılları düşünüb xəyala dalardın?” Fikirli-fikirli cavab verdi: “Yadımdadır, yenə də deyirəm: biz öz həyatımızı elə yaşamalı, elə can yandırmalıyıq ki, ömrümüz nağıla çevrilsin. O mənada yox ki, hər şey gözəl olsun və asan-

lıqla əldə edilsin. O mənada ki, daxilimizdəki xeyir vasitəsilə şərə qalib gələ bilək…"

…Yayda Kislovodskda istirahət edirdik. Bir dəfə balkonda oturmuşdum. Birdən Tofiq Quliyevin bəstələdiyi "Üzüyümün qaşı firuzədəndir" adlı mahnını eşitdim. Zərifə bu mahnını ifa etməyi çox xoşlardı. Yenə onun ifa etdiyini düşünərək aşağı endim və səsin gəldiyi tərəfə doğru getdim. Sanatoriyanın hasarına doğru getdim, hasarı aşıb qovaq talasına çıxdım. Yanılmamışdım: Zərifənin anası Leyla xanım, bacısı Ləzifə əri Ağaəli ilə birgə, kiçik bacısı Gülarə, qardaşı Tamerlan otların üstündə dövrələmə oturmuşdular, Zərifə akkordeonda ifa edirdi. Mənim gəlişim o qədər gözlənilməz oldu ki, Zərifə musiqini yarımçıq kəsdi, amma mən: "Davam elə, Zərifə! Mən sənin ifandan ötrü o qədər darıxmışam ki…" – dedim".

Tibb elmləri doktoru, professor **A.S.İmaməliyev** uzaq gənclik illərini, qorxulu 1942-ci ili yada salır:

"Qrupumuzda 13 oğlan idik. Dəhşətli müharibənin ikinci ilinin getdiyini nəzərə alsaq, bu rəqəm çox böyük sayıla bilərdi. Bizi "Qırmızı Bayraq" ordenlı qrup" adlandırırdılar, çünki yaxında hamımız əsgər olacaqdıq. Dərslər təzəcə başlamışdı. Qrupda və "potok"da bütün manqalar müəyyən edildi: qrup nümayəndələri seçildi…

Anatomiya ən çətin dərslərdən biri hesab olunurdu. Uşaqlar qruplara bölünür, birgə məşğul olurdular. İş elə gətirdi (Zərifə ilə – *H.M.*) ki, bir qrupa düşdük. Axşamlar tez-tez Əliyevlərin Zevin küçəsindəki evində olurduq. Əziz müəllimin ailəsi çox qonaqpərvər idi. Onun böyük oğlu Tamerlan bizdən bir kurs yuxarıda oxuyurdu, yeri düşəndə bizə kömək edirdi. Mehriban, ürəyiaçıq qadın olan Leyla xanım bizi həmişə qonaqpərvərliklə qarşılayır-

dı. Çətin müharibə illəri idi və gözümüz çox vaxt qazanda qalırdı… Onlar bizi yemək yeməmiş buraxmırdılar. Halbuki müharibə dövründə ərzaq məhsulları qıt idi. Müharibədən çox illər sonra o dövrü Tamerlanla yad edirdik. Mən Leyla xanımın bizi – ac-yalavac gəlmiş tələbələri bir dəfə "müharibə dövrünün nemətləri"ndən sayılan şprota qonaq elədiyini xatırladım. Tamerlan baxışlarını uzağa zilləyib bir müddət susdu, sonra dedi: "Bilirsən, o vaxtlar hamı dağılandan sonra anam bir xəlvətə çəkilib çörəyini şprotun yağına batıraraq yeyərdi".

Görün bu qadının, bu ananın ürəyi nə qədər böyük idi! "Kitabi-Dədə Qorqud"u oxuyarkən bir daha başa düşürsən ki, sevməyə qadir olan qadın nə qədər məğlubedilməzlik və böyük mənəvi gücə malik olur. Altı gözəl övlad böyütmüş Leyla xanımı da mən məhz belə bir ana olaraq xatırlayıram..."

Burada professor A.S.İmaməliyevin maraqlı xatirəsinə qısa ara verir, Leyla xanımın qayğıkeşliyi və fədakarlığı barədə Əziz Əliyevin bacısı qızı Sona xanım İbrahimovanın dediklərini misal gətirmək istəyirəm:

"Leyla xanım çox gözəl insan idi. Xasiyyəti ipək kimiydi. Heç vaxt onun qapılarını bağlı görmədim. Qonaq-qarası kəsilməzdi. Ən uzaq qohumlarına da hörməti keçərdi. Allah rəhmət eləsin, hər ikisinin – ər-arvadın torpaqları, elə bil ki, bir yerdən götürülmüşdü..."

İndi isə gəlin professor A.S.İmaməliyevin Zərifə xanımla bağlı gənclik xatirələrinin davamına nəzər salaq:

"…Nəhayət, ilk imtahanlarımızı verdik. İlk nəticələri dəyərləndirmək olardı. Sadəcə təhsil sarıdan deyil, qrup rəhbəri sarıdan da bəxtimiz gətirmişdi. Ən çətin vaxtlarımızda məhz Zərifəyə müraciət edirdik. Belə bir şey yadımdadı: qrupumuzdan bəzi uşaqlar tez-tez nizam-intizamı pozur, dərs buraxır, dərsə gecikirdilər. Biz özümüz

tədbir görmək istəyirdik, amma kimsə bizi qabaqlamış və dekanlığa məlumat vermişdi. Xəbərçini müəyyənləşdirdik və onunla "kişi kimi" haqq-hesab çəkmək istədik. Amma əvvəlcə Zərifə ilə məsləhətləşmək qərarına gəldik. Zərifə dedi ki, xəbərçi ilə özü danışar. Ona nə dediyi bizim üçün indiyəcən sirr olaraq qalmaqdadır, amma qısa müddətdən sonra xəbərçi bizim qrupdan getdi. Zərifənin hörməti əvvəlcə qrupumuzda, sonra isə bütün institutda ilbəil artırdı. Biz oğlanlar onu dar ayaqda bizə kömək göstərməyə hazır olan bacımız kimi görürdük.

Nəhayət, institutumuzdan, öz yoldaşlarımızdan, müəllimlərimizdən ayrılmaq vaxtı gəlib çatdı. Məzunlar ölkənin müxtəlif yerlərinə səpələndi. Tale məni yenə Əziz müəllimlə qarşılaşdırdı. O, Travmatologiya, Ortopediya və Bərpaedici Cərrahiyyə İnstitutuna rəhbərlik edirdi. Mənim ilan zəhərinə qarşı müalicəyə həsr olunmuş namizədlik dissertasiyam Əziz müəllimin müsbət rəyi və xeyir-duası ilə müdafiəyə buraxıldı.

Dissertasiyamı Şamaxı Rayon Xəstəxanasının materialları əsasında yazmışdım. Paytaxt klinikasında işləyən Zərifənin iradları çox karıma gəldi və bəzi sualların cavabını tapmaqda mənə kömək elədi. Bir müddət sonra işlədiyim klinikaya müalicə olunmaq üçün Tibb İnstitutunun Oftalmologiya kafedrasının müdiri Ümnisə xanım Musabəyova gəldi. İş saatı qurtarandan sonra tez-tez onunla söhbətləşirdik. O öz yetirmələrindən danışır və sözü tez-tez Zərifə xanıma gətirirdi. Professor Musabəyova onun haqqında istedadlı alim və həkim, sadiq dost, zəhmətsevər insan kimi danışırdı. Zərifənin çox gözəl keyfiyyətləri olduğunu deyirdi; deyirdi ki, o, xəstələrinin dərdlərinə şərik olur, başqalarının əzablarına az da olsa laqeyd qala bilmir və bu xüsusiyyət onun digər insanlarla ünsiyyətində o dəqiqə nəzərə çarpır.

Əlbəttə, Zərifə hamını fərq qoymadan sevmirdi. O, insanları yaxşı tanıyırdı, xeyirxahlarla pis adamlar arasındakı fərqi inamla və incəliklə anlayırdı.

Onun şəxsi düşmənləri yox idi, çünki ünsiyyətdə olduğu, onun köməyinə ehtiyacı olan hər kəsin ürəyinə yol tapmağı bacarırdı. Başqalarına mənəvi təsir göstərə bilmək qabiliyyətinə görə Zərifə xanım onu tanıyanlar arasında böyük nüfuz qazanmışdı. Ancaq bu nüfuzundan heç vaxt sui-istifadə etmirdi, özünü tərifləməyi, biliyi ilə qürrələnməyi sevmir, öz fikirlərini başqalarına zorla qəbul etdirmək istəmirdi. Əminliklə demək olar ki, Zərifə xanımın gözünün düşməni laqeydlik və ruh düşkünlüyü idi. Zərifə xanım bunlara qarşı yorulmadan mübarizə aparırdı.

Bir dəfə xəstə qadın mənə onun belə bir kağızını verdi: "Əgər bu qadının bir cərrah kimi sənin müdaxilənə ehtiyacı yoxdursa, mütləq konsilium keçir və qoy onun müalicəsi ilə başqa mütəxəssislər məşğul olsunlar. Lakin onu axıra qədər diqqətdə saxla..."

Zərifə xanım tez-tez deyərdi: "Xəstələr sənin köməyinə bel bağlayıb ümidlə yanına gələndə başa düşürsən ki, adamlara nə qədər lazımsan".

Mən Zərifə xanım Əliyevanı belə diqqətcil, qayğıkeş, canıyanan və həssas həkim kimi tanıyırdım..."

Tibb elmləri doktoru, professor **Nurəddin Hümbətov:** "Zərifə xanımla mən uzun illər bir yerdə işləmişəm. O, Oftalmologiya kafedrasında işləyirdi, mən Daxili xəstəliklər kafedrasında. O, alim kimi, qadın kimi, həkim və pedaqoq kimi hamının sevimlisi idi. Mən ancaq onun insani keyfiyyətləri, sadəliyi haqqında danışmaq istərdim.

Baxmayaraq ki, Zərifə xanım böyük bir alim və respublika rəhbərinin həyat yoldaşı idi, işdə də, hər hansı

başqa mühitdə də özünü çox sadə aparırdı. Hamı ilə – böyüklərlə də, kiçiklərlə də səmimi və xoşrəftar idi. Mənə və digər həmkarlara xeyirxah münasibət göstərirdi. Biz eyni ildə doktorluq müdafiə etmişik və professorluq dərəcəsi almışıq. Bizim doktorluq işlərimizin institutun elmi şurasında müzakirəsindən sonra sənədləri Moskvaya göndərmək lazım idi: o vaxt Bakıda Ali Attestasiya Komissiyası yox idi. İclasdan sonra Zərifə xanım məni çağırdı və dedi: “Nurəddin, sənədlərini hazırla, mən onları öz sənədlərimlə birlikdə Moskvaya göndərim, onda fikirləşərlər ki, sən Heydər Əliyevin ya qohumusan, ya da ona yaxın adamsan. Belə olanda sənin doktorluq işinin təsdiqi sürətlənər”. Heç kim belə şey eləməzdi. Mən sıravi həkim idim, yüksək vəzifə tutan heç bir himayəçim yox idi. Birinci katibin həyat yoldaşının belə xeyirxahlıq göstərməsi məni ruhlandırdı, sənədlərimi tez hazırlayıb Zərifə xanıma verdim. İki həftə keçməmiş Moskvadan məlumat gəldi ki, sənədlər təsdiq olunub.

Elmlər Akademiyasındakı təntənəli mərasimdə akademik Topçubaşov Zərifə xanıma və mənə doktorluq diplomu verdi.

Biz Bakı Məişət Kondisionerləri Zavodunda da əməkdaşlıq etmişik. Zərifə xanımın yaratdığı laboratoriyada o, oftalmologiya üzrə elmi axtarışlar aparırdı, mən isə daxili xəstəliklər üzrə. Zərifə xanım zavodun fəhlələri və xidmətçiləri ilə elə mülayim və nəzakətlə rəftar edirdi ki, çoxları onun yüksək statusunu duymurdular. Zavod laboratoriyasında mədə-bağırsaq, ciyər, endokrinologiya xəstəlikləri ilə məşğul olan daxili xəstəliklər şöbəsi vardı. Bu xəstəliklər üzrə tədqiqatlar həmkarlarımın və şəxsən mənim işimə aid idi.

Zavod işçiləri ilə görüşəndə, vəzifəsindən asılı olmayaraq, Zərifə xanım hamıya birinci salamı özü verərdi və

hamının işini, səhhətini soruşardı. Köməyə ehtiyacı olanlara qarşı heç vaxt laqeyd qalmazdı, onları qəbul edər, diqqətlə dinləyər, məsləhət verər və imkan daxilində kömək göstərərdi".

Yarım əsrdən çox həkim işləyən Suğra Babayeva Zərifə xanımı xatırlayanda qəhərlənir, onun həsrətlə yaşarmış gözləri eyni zamanda işıq saçır.

Qəhrəmanımızın bacısı Ləzifə xanım Tibb İnstitutunda tələbə Suğra Babayevaya dərs deyib. Tələbəsinin göz xəstəliklərinin diaqnostikasına və müalicəsinə olan xüsusi marağını görərək onu oftalmologiya sahəsində ixtisaslaşmağa ruhlandırıb. Suğranın operasiyalarda iştirakına da kömək edib.

Sonralar Zərifə xanımla tanış olan **Suğra Babayeva** həmkarını və müəllimini böyük rəğbətlə yad edir:

"Zərifə xanım, elə bil, insanlara yaxşılıq etmək üçün doğulmuşdu. Biz onda təcrübəsiz idik, xəstəlik tarixini yazanda, xüsusilə rus dilində yazmaq lazım gələndə çətinlik çəkirdik. Zərifə xanım bizim dadımıza çatırdı, sözlərin şəkilçilərini düzəldirdi, redaktə edirdi… İşə gələndə hamı ilə ürəkdən görüşürdü, Ləzifə xanımı isə hər dəfə öpürdü. Mən Əliyevlər ailəsində bacılar və qardaşlar arasındakı böyük məhəbbətə heyran qalmışdım.

Slutski soyadlı bir həmkarımız var idi, o vaxt təzə mənzil almışdı. Biz onu təzə mənzilə köçməsi münasibətilə təbrik etməyə getdik. Onun arvadı musiqi dərsi verirdi və Zərifə xanımın diqqətini o dəqiqə evdəki piano cəlb etdi. O, pianonun qarşısında oturdu və bizim milli operettalardan, dünya klassiklərinin əsərlərindən fraqmentlər çaldı. Bizim həkimlər həvəsə gəldilər və rəqs etdilər.

Yetmişinci illərin sonunda Bakıya sovet oftalmologiyasının böyük simaları gəlmişdi. Onların arasında Sosia-

list Əməyi qəhrəmanları, böyük göz mərkəzlərinin rəhbərləri vardı. Məşhur qonaqları bizim evə dəvət etməyi qərara aldıq. Zərifə xanım ilk dəfə bizim evdə olurdu, mənim ailəmlə tanış oldu, uşaqları nəvazişlə öpdü.

Biz qonaqlar üçün Azərbaycan mətbəxinin bütün zənginliyini əks etdirən süfrə açmışdıq: xuruşlu və ədviyyatlı bir neçə növ plov, toyuq əti, kabablar, şorabalar. Qonaqların diqqətini balkonumuzdakı üzüm salxımları cəlb etdi. Payız çoxdan gəlmişdi, salxımlar şipşirin, şirəli idi. Biz onları dərdik və hörmətli qonaqlara təqdim etdik.

Zərifə xanımın evimizdəki pianoda ifası bizə xüsusi sevinc bəxş elədi. Hamının əhvali-ruhiyyəsi əla idi. Zərifə xanım bu məclisdən çox razı qaldı, xudahafizləşərkən pianonun yaxşı köklənmədiyini deməyi də yaddan çıxarmadı…”

Zərifə xanımın sevimli aspirantlarından biri olmuş **Rasim Hacıyev** məşhur oftalmoloqdur və bu gün də müvəffəqiyyətlə işləyir. O öz müəllimini ən əziz insan kimi ehtiram və heyranlıqla xatırlayır:

“Zərifə xanımla mən 1978-ci ildə tanış oldum. O vaxt Zərifə xanım gənc və istedadlı göz həkimlərini axtarıb tapırdı. Tanışlıq zamanı hətta o, məni bir balaca imtahan da etdi. Sonra məni işə götürdü. Bir az vaxt keçəndən sonra mənə diabetik retinopatiya üzrə namizədlik dissertasiyası götürməyi təklif etdi. Mövzunun aktuallığını belə əsaslandırdı ki, kor olmanın əsas səbəblərindən biri budur. 4 saylı xəstəxananın endokrinoloji şöbəsində çoxlu xəstə vardı və şöbənin müdiri Tamerlan Əliyev (Zərifə Əliyevanın qardaşı – *H.M.*) idi. Biz onun məsləhətlərindən həmişə yararlanırdıq.

Mən bu mövzu üzrə referat hazırladım. Zərifə xanım onunla tanış oldu və müfəssəl rəy yazdı. Bu rəy onun im-

zası ilə birlikdə kafedranın muzeyində indiyə qədər saxlanılır.

Zərifə xanım o vaxt belə bir hipotez irəli sürdü: diabetik retinopatiyanın əmələ gəlməsinin səbəbi damarların zədələnməsi deyil. O zaman belə hesab edirdilər ki, diabetik retinopatiyanın əmələ gəlməsinin səbəbi damarların zədələnməsidir. Onun bu mövzuya aid ilk məqaləsi Azərbaycanda tibb jurnalında çap olundu. Məqalədə deyilirdi ki, diabetik retinopatiyanın əmələ gəlməsi prosesini gələcəkdə vitreotexnika üsulu ilə dayandırmaq olar. Sonrakı tədqiqatlar onun bu düşüncəsini təsdiq etdi.

Gözəl insan, humanist alim, mənim elmi rəhbərim olmuş Zərifə Əliyevanın xatirəsi mənim üçün həmişə əzizdir".

Professor, tibb elmləri doktoru Aydın İmaməliyev yazır:

"İnsan taleləri nə iləsə oxşardır, lakin tamamilə eyni deyil. Tamamilə eyni olan iki adam tapmaq çətindir. Bu cəhətdən Zərifə Əliyeva və Heydər Əliyev müstəsnalıq təşkil edirdilər. Bizim hamımız kimi, onlar da uşaq tərbiyə ediblər, valideynlərinin qeydinə qalıblar; bəzən şadlanıblar, bəzən kədərləniblər. İşlərində və ictimai fəaliyyətlərində müvəffəqiyyətlər və uğursuzluqlar bir-birini əvəz edib. Lakin bütün bunlara baxmayaraq, onlar həmişə bir-birini mənən zənginləşdiriblər, həmişə çətinliklər qarşısında mərdliklə dayanıblar".

Mərkəzi Neftçilər Xəstəxanasının baş direktoru, tibb elmləri üzrə fəlsəfə doktoru **Leyla Seyidbəyova**nın xatirələrindən:

– Akademik Zərifə xanım Əliyevanın alimliyi, elmi fəaliyyəti haqqında çoxlu xatirələr danışılıb. Amma mən onun şəxsən xeyirxahlığı barədə kiçik xatirə danışmaq istəyirəm.

Zərifə xanım bacısı, "Dan Ulduzu" instrumental ansamblının rəhbəri Gülarə xanım Əliyeva ilə bağa gedirmişlər. O günlərdə Kolya adlı sürcüsünün arvadı hamilə imiş və onu da özləri ilə bağa təmiz hava almaq üçün aparırlarmış. Bir gün elə olur ki, ovaxtkı "Əzizbəyov" (indiki "Koroğlu") metrostansiyasının yaxınlığından keçərkən Kolyanın arvadının ağrısı tutur. Zərifə xanımla Gülarə xanım məcbur olub o ətraflarda doğum evi axtarmalı olurlar. Və axtara-axtara gəlib çıxırlar 8-ci Kilometr qəsəbəsinə. Böyük fəhlə qəsəbəsi olmasına baxmayaraq, buradakı 14 saylı sanitar hissədə balaca doğuş şöbəsi vardı. Təcrübəli həkim Məlahət xanım Kavianinin məsləhəti ilə qadın burada uşağını dünyaya gətirir. Ertəsi gün uşaq və ana üçün lazım olan əşyaları alıb gəlirlər. Lakin Zərifə xanım öz işini bununla bitmiş hesab etmir. Çox keçmir ki, onun təşəbbüsü ilə bu ətraflarda Şamama Ələsgərovanın adını daşıyan 7 saylı doğum evi və "Neftçilər" metrostansiyasının yaxınlığında doqquzmərtəbəli binanın birinci mərtəbəsində 8 saylı qadın məsləhətxanası açılır.

Yeri gəlmişkən, mən həmin doğum evinin 14 il baş həkimi olmuşam. O doğum evinə və qadın məsləhətxanasına nəinki Nizami rayonu ərazisində yaşayanlar, hətta qonşu Abşeron və Xəzər rayonlarından da müraciət edirdilər. Hazırda Bakı şəhərindəki doğuşun 30 faizi burada keçirilir".

Bəli, Bakıda elə tibb ocaqları var ki, onların fəaliyyəti birbaşa Zərifə xanımla bağlıdır.

İndi bir məqama çox təəssüf edirəm ki, Zərifə xanım Əliyeva çiçəklənən Azərbaycanımızın bugünkü yüksəlişini görmədi. Amma inanıram ki, Zərifə xanımın ruhu şaddır, ona görə ki, vətənimiz – Azərbaycan bu gün onun ailəsinin yetirməsinin, Ulu öndər Heydər Əliyevin siya-

si kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli inkişaf edir...

Bəli, ürəkləri xeyirxah əməllərlə dolu insanlar dünyalarını adi adamlar kimi dəyişmirlər. Onlar nura qənşər uzanan bir yolun əbədi sakinləri olurlar.

## Onuncu fəsil

# ...İNSANLARI XEYRƏ ÇAĞIRAN

*Həqiqətən xeyirxah olmaq üçün*
*qeyri-adi xeyirxahlıqdan bir az artıq*
*xeyirxahlıq eləmək lazımdır.*
*Akademik Yevgeni Viktoroviç Tarle*

Azərbaycan epos və dastanları bizə ulu babalarımızın qəhrəmanlığından, vətənpərvərliyindən və əməksevərliyindən, o cümlədən ulu nənələrimizin çətin vaxtlarda, yadellilərin hücumundan müdafiə zamanı kişilərdən heç də geri qalmayan igidliyindən danışır.

Miladdan əvvəl 56-cı ildə məşhur Pompeyin legionları Azərbaycana soxulan zaman onun əsgərlərilə qəhrəmancasına döyüşdə qadınlar da əllərində silah iştirak etmişdilər. Qədim Roma tarixçisi Appian şahidlik edir: "Yaralı döyüşçülər içərisində qadınlar da vardı".

Millətimizin təşəkkülündə, dövlətçiliyimizin formalaşmasında görkəmli qadın həmvətənlərimizin – Herodotun adını çəkdiyi əfsanəvi qadın hökmdar Tomrisin, "Dədə Qorqud" dastanında Qazan xanın arxadaşı və arvadı Burla xatunun, Nizaminin poemalarında tərənnüm olunan Nüşabə və Şirinin, Füzuli qələmində adı əbədiləş-

dirilən, zərif və ülvi məhəbbətin təcəssümü Leylinin… adıyla bağlı şanlı səhifələr var. Azərbaycan tarixində belə adlar çoxdur: əfsanəvi Koroğlunun yol yoldaşı və arvadı Nigar, hakimlərin özbaşınalığına qarşı xalq qəhrəmanı Qaçaq Nəbilə çiyin-çiyinə vuruşan silahdaşı və arvadı Həcər…

Diplomatiya sahəsində maarifpərvər Avropanın elçilərini heyrətə salan Sara xatun – orta əsrlərin Azərbaycan dövlətinin hökmdarı Uzun Həsənin anası və Şah İsmayılın nənəsi. Qarabağın əfsanəvi hökmdarı Natəvan…

Rusiyanın tarix və incəsənətində də belə qadın fədakarlığına, qəhrəmanlığına, sədaqətinə, idarəçilik məharətinə aid nümunələr az deyil. Sibirə sürgün edilən dekabristlərlə birgə oraya gedən dekabristlərin arvadlarından Volkonskayanı, Muravyovanı və başqa qadınları, Nekrasovun təsvir etdiyi qadınları, Puşkinin Tatyanasını və Turgenevin qəhrəmanlarını misal göstərməklə kifayətlənmək olar.

Müqəddəs Quranda deyilir:

"İçərinizdə insanları xeyrə çağıran, yaxşı işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Məhz onlar nicat tapmış kimsələrdir".

Bu müqəddəs kəlamı oxuyanda yenə fikrən hekayəmizin qəhrəmanının üzərinə qayıdırıq. Onun həyatdakı əməlləri dinimizin də mənəvi təməllərindən birini təşkil edən, insanlara və cəmiyyətə qayğı göstərmək kimi ləyaqətli bir anlayışla üst-üstə düşür.

Peyğəmbərimiz Həzrət Məhəmmədin bir hədisində deyilir: "İki şəxsə qibtə etmək olar: bir Allahın var-dövlət verdiyi və öz ölümünün ağası etdiyi şəxsə, bir də Allahın hikmət verdiyi və bununla da öz həyatının sahibi elədiyi şəxsə". Bu fikrin dərin mahiyyəti ondadır ki,

dini üstünlük mənasız dünya malına sahib olana yox, fəzilət sahibinə verilir ki, bu da onun ömür yolunun əsl xəzinəsidir.

Biz Zərifə Əliyevanın timsalında cəmiyyətə faydalı xidmətin, insanların sağlamlığı, intellektual inkişafı naminə çəkilən zəhmətin dəyərinin daimi olduğuna inanırıq.

Uzun illər Zərifə xanımla yaxın ünsiyyətdə olmuş professor **Zəhra Quliyeva** deyir ki, o, hər şeydə təkrarolunmaz idi, şəxsiyyət kimi, həyat yoldaşı kimi, ana, həkim, alim kimi qeyri-adi idi:

"Bilirsiniz, yaxşı həkim olmaq və eyni zamanda yaxşı insan olmaq xüsusi məna daşıyır. Onu tanıyanlar, ona müraciət edən xəstələr təsdiq edə bilərlər ki, onun necə böyük ürəyi vardı, o, necə sadə insan idi. Yəqin, xəstələrdən çoxu bilmirdi ki, o, respublikanın rəhbəri Heydər Əliyevin arvadıdır. O özü də bunu hiss etdirmək, nəzərə çarpdırmaq istəmirdi. Bütün xəstələr onu şəxsiyyət kimi sevirdilər, ona şəxsiyyət kimi hörmət edirdilər. İnanın, ola bilsin ki, o, dünyanın ən təvazökar insanı idi…"

Alimə Əliyeva nəql eləyir:

"Zərifə xanım heyrətediləcək dərəcədə geniş qəlbli insan idi. Qətiyyən tərifi sevməzdi. Son dərəcə zərif, nəzakətli idi. Mən bir dəfə də olsa görmədim ki, o, kiməsə acıqlana. Ədəbli, gülümsər, ürəyiaçıq, sadə, xoşrəftar idi. Hətta xoşuna gəlməyən adamlarla da ehtiramla davranardı. Mənə də belə rəftar etməyi məsləhət görərdi. Kiminsə köməyə ehtiyacı olduğunu ona hiss etdirən kimi sözlə və işlə ona kömək etməyə tələsərdi. Xahiş edənlərdən heç kimi köməksiz və ümidsiz yola salmazdı, adamlar arasında fərq qoymazdı. O, böyük insan məhəbbətilə birgə doğulmuşdu. Bu məhəbbət ürəyinin genişliyindən, səxavətindən, müdrikliyindən irəli gəlirdi.

…Təvazökarlıq onun təbiətində idi. O, heç vaxt hiss etdirməzdi ki, respublikanın "birinci xanımı"dır. Təşəxxüş, özünütərifləmə onu iyrəndirərdi. Mən dəfələrlə şahidi olmuşam ki, onun haqqında yazmaq istəyən müxbirlərə etiraz edib.

…Məktəbi müvəffəqiyyətlə bitirib sənədlərimi Neft və Kimya İnstitutuna verdim. Arzum ictimai sahədə və dövlət qulluğunda işləmək idi. Mənim seçimim buna əsaslanırdı: bu ali məktəbin məzunlarından çoxu arzu etdiyim sahədə işləyirdi.

Həmin vaxt ailəmiz Kislovodskda istirahət edirdi, mən isə imtahanlara hazırlaşmaq üçün Bakıda qalmışdım. Niyyətimdən xəbər tutan Zərifə xanım mənimlə söhbət etdi və həkimlik oxumağımı məsləhət bildi: "Mən səni ağ xalatda görmək istərdim. Sənə mütləq Tibb İnstitutuna daxil olmaq lazımdır. Həkim – ən gözəl və xeyirxah peşədir, qızım… Sən elə ailədə böyümüsən ki, mən sənin həkim andına sadiq olacağına inanıram…"

Mənim ona hörmətim o qədər böyük idi ki, sözünə qulaq asmaya bilməzdim və öz planlarımı dəyişdim. 1954-cü ildə Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil oldum…

Zərifə xanım arzu edirdi ki, mən onun gənc qohumlarından kiminləsə ailə qurum, ancaq tale elə gətirdi ki, mən bibim oğluna ərə getdim. Zərifə xanım onu yaxşı tanıyır və hörmət edirdi. Mənim ərim də Zərifə xanıma böyük hörmət bəsləyirdi.

…Zərifə xanımın anası Leyla xanım rəhmətə gedəndə mən bacım Yaqut xanımla birgə matəm mərasimində iştirak etdik. Zərifə xanımın bizi necə qarşıladığını indiyə kimi xatırlayıram: göz yaşlarını zorla saxlayaraq məni yanında oturtdu, əllərimi əlinə alıb sığallayır, yanağımdan öpürdü… Orada olan digər xanımlar bizim kim olduğu-

muzu bilmək istəyi ilə pıçıldaşmağa başladılar. Nəhayət, o vaxt nazir işləyən Kübra xanım Fərəcova Zərifə xanımdan bizim haqqımızda soruşdu, o da bizi ətraflı şəkildə təqdim elədi, sonra əlavə etdi: "Yaqut mənim bacımdır, Alimoçka (o məni həmişə belə çağırırdı) isə mənim sevimli qızımdır…"

Heydər Əliyevin və Zərifə xanımın məhəbbəti haqqında deyim: bu, işıqlı, təmiz, müqəddəs hiss idi. Mən bunun şahidiyəm. Onlar evlənəndə mən sevindim və… həm də kefim pozuldu. Fikirləşdim ki, mənim Zərifəmi məndən aldılar, daha onunla görüşə bilməyəcəyəm… Ancaq əksinə oldu. Biz tez-tez Bakıda Əziz Əliyevin evində görüşürdük. Necə deyərlər, kədərli və xoşbəxt günlərdə də, bayramlarda, ad günlərində də onlarda yığışardıq… Bizim dostluğumuz davam edirdi. 1955-ci ildə Zərifə xanımın qızı Sevil anadan oldu, altı ildən sonra oğlu İlham dünyaya gəldi. Zərifə Əliyeva çox gözəl ana oldu. Uşaqları tərifəgəlməz, böyük məhəbbətlə sevirdi, onlara ürəyini çıxarıb verməyə hazır idi. Onun ana məhəbbəti çoxuna nümunə ola bilər. Biz tez-tez Sevil və İlhamla Dənizkənarı parkda gəzməyə çıxır, indiki Kukla Teatrının ətrafında dolaşırdıq. Onlar da mənə ürəkdən bağlanmışdılar. İlham sadə, ünsiyyətcil, ağıllı və dərrakəli oğlan idi, şuluqluq etməyi, ətrafındakıları incitməyi sevməzdi. Məlumdur ki, təmiz dəniz havasında gəzəndən sonra uşaqların iştahası açılır. Biz onlara evdən götürdüyümüz yeməklərdən, meyvələrdən verərdik. Uşaqlar bizim gözümüzün qabağında böyüyüb. Zərifə xanım arzu edirdi ki, Sevil həkim olsun".

Bu xatirələrdə Zərifə Əliyevanın öz gənc rəfiqəsinə peşə seçmək haqqında verdiyi məsləhət xüsusilə diqqəti cəlb edir. Zərifə xanımın buna oxşar bir məsləhəti Püstəxanım Əzizbəyovaya verdiyini artıq bilirik: o, qızın planlarını dəyişərək tarix fakültəsinə daxil olmasını məs-

ləhət görmüşdü. Məsləhət alanlardan heç biri sonralar bundan ötrü peşman olmayıb. Bu faktlar heç də Zərifə Əziz qızının avtoritarizmini, başqalarının həyatını özü istədiyi kimi qurmasını göstərmir. Zərifə xanım böyük bəsirət sahibi olmaqla başqalarından fərqlənirdi. O, gözəl psixoloq idi və adama baxmaqla belə şeyləri tərəddüdsüz görə bilirdi. Onun həmkarlarından biri necə də gözəl deyib: "Kadr seçməkdə o, əvəzsiz idi".

İllər keçdi… 1962-ci il iyulun 27-də Əziz Əliyevin qəflətən vəfatı Azərbaycan xalqının ürəyini ağrıtdı. Matəm mərasiminə Dağıstandan da çoxlu adam gəlmişdi: ziyalılar, partiya, dövlət xadimləri, mədəniyyət və incəsənət işçiləri, sadə adamlar…

Qocaman jurnalist **Aydın Vəlixanov** Əziz Əliyevin rəhmətə getdiyi o ağır günü xatırlayır:

"Əziz dayımgilin evlərində bir xidmətçi vardı. Tək, heç kimi olmayan rus qadını idi. Səhv etmirəmsə, adı Ninaydı. Bu qadın qohumlarının yanına – Rusiyaya getməli oldu. Əziz dayı qadını yola salmaq üçün vağzala özü gedir. Əlbəttə, kimisə yollaya bilərdi. Ancaq onda olan böyüklük və insana hörmət buna yol vermədiyi üçün məhz vağzala özü getmişdi. Bir maşını vardı, "Volqa". Çox yaxşı insan olan bir sürücüsü də vardı, adı yadımdan çıxıb. Nə isə, qadının bütün çamadanlarını, yükünü, barxanasını özü vaqona qaldırır. Həm də vaxt dar imiş, odur ki, tələskənlik, ağır çamadanların daşınıb vaqona qaldırılması kişini təngnəfəs edir, bu ara qatar yola düşür. Əziz dayı əl eləyib vidalaşmağa başlayır. Elə bu vaxt ürəyi bərk tutur. Əlini ürəyinin üstünə qoyub yavaş-yavaş yerə çökür. Bu mənzərəni arvad vaqondan görür və hiss eləyir ki, Əziz Məmmədkərim oğluna nəsə olub. Qadın şübhələndiyi üçün Biləcəridə düşüb geri qayıdır. Gəlib Əziz dayının cansız bədənini görür".

Dəfn məsələsi həll olunanda Əziz Əliyevin Fəxri xiyabanda dəfn edilməsinə etiraz edən çinovniklər tapıldı. Azərbaycan KP MK-nın birinci katibi Vəli Yusif oğlu Axundov onda Truskavetskdə müalicədə idi. Bakıyla telefon əlaqəsi saxlayarkən vəziyyətdən xəbərdar olub Əziz Əliyevin Birinci Fəxri xiyabanda dəfn edilməsi haqqında göstəriş verdi. Azərbaycan xalqının görkəmli oğlu məşhur elm və dövlət xadimlərinin izdihamlı dəstəsinin müşayiəti ilə son mənzilə yola salındı.

Əziz Əliyevin vəfatından iki ay sonra, 27 sentyabr 1962-ci ildə respublika hökumətinin qərarı ilə Həkimləri Təkmilləşdirmə İnstitutuna onun adı verildi.

Otuz ildən bir az çox vaxt keçəcək və onun qızının – Zərifə Əliyevanın adı Oftalmologiya İnstitutuna veriləcək. Zərifə xanım bu institutda uzun illər işləmişdi. Daha sonra Azərbaycan paytaxtının mərkəzi prospektlərindən biri də Zərifə xanımın adını daşıyacaq…

İndi yetmişinci, səksəninci illərə qayıdaq və qəhrəmanımıza onu yaxından tanıyanların gözləri ilə baxaq. Yenə Alimoçkaya – Alimə Əliyevaya qulaq asaq:

“Mən Füzuli rayonunda yaşayırdım. Bakıya gəldiyimi bilən kimi məndən ötrü “Volqa” göndərirdi və onun evində görüşüb saatlarla söhbət edirdik. Elə bir əhəmiyyətli mədəni tədbir olmazdı ki, mənim üçün dəvətnamə göndərməsin. Lenin (indi Heydər Əliyev Sarayı – *H.M.*) adına sarayda keçirilən hər hansı tədbirdə onu əhatə edən qonaqlardan ayrılaraq məni hərarətlə və ürəkdən qucaqlayar, öpərdi. Hamı qeyri-iradi olaraq bizə diqqət verər və təəccüblənərdi: Zərifə Əziz qızı belə hərarətlə kiminlə görüşür?..”

Onun Sankt-Peterburqdakı həmkarlarından Dobromıslovlar ailəsi ilə dostluğu Zərifə Əliyevanın əxlaqi dəyərlərinin spektrini və mənəvi dəyərlərə, tərbiyəyə,

ailənin özülünə olan məsuliyyətli münasibətinin ibrətamizliyini bütünlüklə işıqlandırır. Professor Dobromıslovanın sözlərindən biz onların etibarlı münasibətlərini, sıx ünsiyyətlərini, elm, iş, musiqi haqqındakı söhbətlərini öyrənirik. Elə olub ki, hər ikisinin uşaqları eyni vaxtda valideyn yuvasını tərk edib: Sevil və Dobromıslovların qızı ərə gedib.

Zərifə xanım gənc ailəyə – qızının ailəsinə dair gizli hisslərini və həyəcanlarını Dobromıslova ilə bölüşürdü. Bu gənc ailə xoşbəxt oldu. Nəvə doğulanda ona sevimli nənənin adını verdilər: Zərifə. Dobromıslovlarda isə belə olmadı: qızları sevib-seçdiyi ilə qarşılıqlı məhəbbətə inansa da, onların nikahı tezliklə pozuldu. Zərifə xanım bu məyus hadisəni öz məktubunda şəfqətlə yad edir:

"…Qızınıza görə keçirdiyiniz acı hissləri başa düşürəm. Məncə, o, düz hərəkət edib. O, mütləq yeni ailə qurmalıdır. Bundan sonra səhv buraxmamaq üçün həyat yoldaşını seçəndə tələsməmək, hər şeyi ölçüb-biçmək, onu yaxşı tanımaq lazımdır".

Bir neçə ildən sonra həmkarının qızının ikinci nikahı haqqında xəbər tutan Zərifə xanım yazır:

"…Qızınıza görə çox şadam. Ona ürəkdən xoşbəxtlik arzu edirəm".

Leninqrad Gigiyena İnstitutunun Göz xəstəlikləri kafedrasının professoru A.Dobromıslov sonralar Zərifə Əliyevanın pedaqoji qənaətləri və mövqeyi haqqında belə deyirdi:

"Mən uşaqların tərbiyəsi ilə bağlı müzakirədə bunun şahidi olmuşam. Zərifə Əzizovna heç bir güzəştə getmirdi… Lakin onun güzəştə getməməsi o biri analarda olduğu kimi sərt xarakter daşımırdı. O, həmsöhbətinə öz fikrini deməyə imkan verirdi".

Tibb elmləri doktoru, professor **Z.Skripçenko** qəhrəmanımızı xarakterizə edərkən yazır:

"Ailə həkimi, sevimli qadın, qayğıkeş ana! Mən Zərifə Əzizovnanı belə gördüm".

Skripçenko həmkarlardan birinin evində qonaq olmalarından və yüksək ziyalılar kampaniyasında Zərifə xanımın sadəliyi, həyatsevərliyi ilə hamını valeh etməsindən danışır:

"Fortepianoda ifa etdi, populyar melodiyaları, rəqs musiqisini ifa etməklə məclisə hərarət və şənlik bəxş etdi. Evə qayıdarkən gileyləndi ki, ailə və iş musiqiyə vaxt ayırmağına imkan vermir…"

Vaxtilə Zərifənin atası ilə birlikdə idarə sanatoriyasının insafsız qarovulçularından xilas etdikləri Püstəxanım Əzizbəyova (Zinoçka) görkəmli alim və ictimai xadim oldu. Onların uşaqlıq illərində başlayan dostluğu davam elədi. Bir dəfə Əzizbəyova piyada iş dalınca gedir. Dörd yol ayrıcında, işıqforun yanında dayanır. Bir maşın onun düz yanında dayanır. Zərifə! O, maşından çıxaraq rəfiqəsini salamlayır. Respublikanın qadın fəallarının hansısa tədbiri ərəfəsində fəallardan birinə bədbəxtlik üz verib. Ona mümkün olan hər cür köməyi göstəriblər. Zina maraqlanır: "Bu xeyirxah işin təşəbbüskarı Zərifədirmi?" Zərifə xanım suala cavab verməkdən yayınsa da, P.Əzizbəyovanın bu dəfə də "xilasedici mələk" rolunda kimin köməyə çatdığına heç bir şübhəsi yoxdur.

Zərifə xanım keçmiş rəfiqələrindən öyrənir ki, Püstəxanımın diabetdən əziyyət çəkən anası görmə qabiliyyətini itirir. İki-üç gündən sonra Püstəxanımın qapısının zəngi çalınır. Kandarda Zərifə xanımdır. O deyir: "İşə gedirdim, birdən yadıma düşdü ki, sən mənə ananın səhhəti haqqında danışmışdın. Bağışla ki, vaxtım azdır,

yenə də İzzət xanımın gözlərini özüm müayinə etmək istəyirəm”.

İzzət xanım bir neçə il idi ki, Zərifəni görmürdü. Amma səsindən tanıdı. Qonaq hələ dəhlizdə idi, o, səsləyib çağırdı: “Qızım, sən hara, bura hara?” İzzət xanım ümumiyyətlə həkimə müraciət etməkdən qaçanlardan idi. Lakin Zərifə niyyətini deyəndə o, bütün suallara həvəslə cavab verir və bu cavabların arasında keçmiş günləri, həyatdan getmiş yaxınlarını xatırlayaraq ah çəkir.

Zərifə ayrılarkən rəfiqəsini qucaqlayaraq kədərlə deyir: “Nə edəsən, Zinulya, sən möhkəm adamsan, dözmək lazımdır. Vəziyyət yaxşı deyil, mən İzzət xalaya heç nə ilə kömək edə bilmərəm. Diabetə görə bərpası mümkün olmayan proses gedir”.

İzzət xanım dünyasını dəyişəndə Zərifə xanım qardaşı Tamerlanla Püstəxanımın evinə gəlir. Adam çox imiş. Zərifə xanım sakitcə qapının yanındakı divanda oturur, onu tanıyaraq stolun yuxarı başına dəvət edirlər. Ancaq o, nəzakətlə təşəkkür edərək əyləşdiyi yerdə qalır. Zina da onunla yanaşı oturur. Bu vaxt onlar valideynlərinin, uzaq uşaqlıq illərinin nəvazişi və məhəbbəti ilə isinən xatirələrin qoynunda sanki öz aləmlərinə dalırlar…

Professor T.Hüseynova öz xatirələrində görkəmli oftalmoloqun xüsusi musiqi duyumuna malik olduğunu (kim bilir, bəlkə də, Zərifə Əliyevanın şəfqətli əlləri ona məşhur pianoçu şöhrəti də qazandırardı) qeyd edir:

“O, fortepiano sinfi üzrə musiqi təhsili almışdı. Mən onun ifasında klassik və müasir musiqini məmnuniyyətlə dinləyirdim. Zərifə xanım royalda ifa edərkən əsərin mahiyyətini, ən gizli hissləri dinləyicilərə çatdırmağı bacarırdı. Onun ifası öz emosionallığı ilə fərqlənirdi, elə bil

ki, o, musiqi əsərinin fikrini, əqidəsini öz xüsusi hisslərinin süzgəcindən keçirərək dinləyiciyə çatdırırdı. Onun yalnız ifası yox, musiqini dinləməsi də diqqətəlayiq idi. İfa olunan əsər onu ruhlandırırdı, onun simasını işıqlandırırdı. Konsert zamanı pianoçunun ifasının onun xoşuna gəlib-gəlmədiyini bilmək üçün onun üzünə baxmaq kifayət edərdi… O, heyranlıqla baxar, gözlərinin ifadəsi ilə təsdiqləyər, gülərdi; hərdənbir gözlərində narazılıq, yaxud qəti etiraz ifadəsi olardı… Lakin heç vaxt laqeyd qalmazdı. Onun danışan gözləri vardı. Biz bir dəfə estrada konsertində idik. Hiss olunurdu ki, müasir ansamblın zalın səs-küyü ilə müşayiət olunan çalğısı, solistin astadan oxuması onun ürəyincə deyil. Lakin təmkinli davranışı musiqi və ifa haqqında fikrini kəskin şəkildə bildirməsinə icazə vermədi. Zövqlərin müxtəlif olduğunu, bu musiqinin və ifanın da, bəlkə, kiməsə xoş gəldiyini deməklə kifayətləndi”.

Xeyirxahlıq, insanpərvərlik, ziyalılıq Zərifə xanımı əfsanələşdirmişdir. Alim kimi o, fundamental əsərlər qoyub getmişdir. Onun irsi, elmi nailiyyətləri, pedaqoji təcrübəsi daim tədqiqat obyekti olmuşdur.

Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru, Akademik Filatov mükafatı laureatı **V.Şmelyova** yada salır:

“Həyatda mənim bəxtim gətirib. Tale mənə qeyri-adi insanla ünsiyyətdə olmağı nəsib eləyib. Son günlərə qədər Zərifə Əliyeva mənim yaddaşımda eynən həyatda olduğu kimi – qeyri-adi bir şəxsiyyət kimi qalıb. Onu səciyyələndirən xüsusiyyətlər, hər şeydən əvvəl, həyat eşqi və geniş maraq dairəsi idi. O, oftalmologiya peşəsinə vurğun idi və vaxtının çoxunu elmi axtarışlara sərf edirdi. O, oftalmologiyanın yeni, çətin, az tədqiq edilmiş sahələrini tədqiq edir, göz xəstəliklərinin profilaktikası və müalicə-

sinə böyük töhfə verirdi. Həyatda olduğu kimi, elmdə də Zərifə xanım tapdanmış yoldan keçmirdi…

Həkimləri Təkmilləşdirmə İnstitutunda kafedra müdiri olanda Zərifə Əzizovna gənc oftalmoloqların yetişdirilməsi üçün əzmlə çalışır, onlara peşə sirlərini öyrətmək üçün çox zəhmət çəkirdi. Onun tələbələrindən dəfələrlə eşitmişdim ki, Zərifə Əzizovna onlara qarşı çox diqqətcil və qayğıkeş, eyni zamanda da tələbkardır; onlara həmişə kömək edir, dayaq olur. Onları həyatda da, elmdə də təmiz olmağa səsləyirdi. Yetirmələri öz aralarında onu "bizim anamız" deyə çağırırdılar.

Zərifə Əzizovna ilə tez-tez görüşmək şərəfinə nail olanlar onun necə xeyirxah insan olduğunu da bilirlər. Mən bunu deməyi özümə bir borc bilirəm: həyatda qarşılaşdığı hər insana bu qədər diqqət göstərən və xeyirxahlıq etməyə çalışan ikinci bir adama mən həyatım boyu rast gəlməmişəm.

Onun sadəliyi təsvirə gəlməz. Akademik, Əməkdar Elm Xadimi, müxtəlif mükafatların laureatı olmasına baxmayaraq, Zərifə Əzizovnaya hər hansı sadə insan müraciət edə bilərdi və o, çox məşğul olsa da, hamıya kömək əlini uzatmağa çalışırdı.

Əziz və unudulmaz Zərifə Əliyeva ilə biz şəxsi ünsiyyətimiz zamanı peşəmizə və ya gündəlik işlərə aid müxtəlif mövzuları müzakirə edirdik. O, hər şeylə yaxından maraqlanırdı. O, ailədə sədaqətli həyat yoldaşı, qayğıkeş ana, sevimli nənə idi. Və hər kəsə, hər şeyə vaxt tapırdı…

Zərifə Əzizovna öz işinə ciddi və məsuliyyətlə yanaşırdı. Biz onunla "Oftalmologiya xəbərləri" jurnalının redaksiyasında əməkdaşlıq etmişik. Əminliklə deyə bilərəm ki, redaksiya heyətində onun qədər ciddi və məsuliyyətli ikinci bir şəxs yox idi. Bütün sifarişləri, rəylə-

ri və digər işləri ən yüksək səviyyədə və qısa müddətdə yerinə yetirirdi. Heç vaxt təkəbbür göstərmirdi. Vəzifə borcunu yerinə yetirmək onun ən çox əhəmiyyət verdiyi məsələ idi. İşi başından aşırdı və bir saniyə belə boş vaxtı olmurdu, ancaq o, rəfiqələrinə zəng etməyə, onların və onların uşaqlarının halını soruşmağa, arabir görüşüb söhbət etməyə də vaxt tapırdı. Belə görüşlər həmişə bayram əhvali-ruhiyyəsində keçirdi.

Zərifə Əzizovnanın başlıca keyfiyyətlərini sadalamaq lazım gəlsə, mən xüsusilə vurğulamaq istərdim: o, əsl insana xas bütün ləyaqətli keyfiyyətlərə malik idi. Sadəlik, xeyirxahlıq, zəhmətkeşlik, qayğıkeşlik, dözüm və xüsusilə həyatının axırıncı aylarında üzə çıxan qeyri-adi iradə… Heç vaxt heç kimi, hətta ən yaxın adamlarını belə öz dərdi ilə kədərləndirmək istəməzdi. Yalnızca ətrafındakıları fikirləşirdi… Özünü yaddan çıxarırdı".

Görünür, Zərifə Əliyeva şəxsiyyətinin gücü məhz onun insanların qayğı və iztirablarına, niyyət və arzularına fədakarcasına xidmətindədir.

Qəribədir ki, işinin başından aşmasına, mühüm məsələlərlə – iş, elmi fəaliyyət, ailə məsələləri – məşğul olmasına baxmayaraq, kiçik şeylərlə sevinməyə də vaxt tapırdı. O, uşaq kimi adi məişət sevincindən zövq almağı bacarırdı və dünyanı bütövlükdə qavramaq qabiliyyətinə malik idi. Quşların nəğməsi, dənizin rəngi, yolun kənarındakı çiçək, kiminsə küçədə təsadüfən gülümsəməsi – bütün bunlar ona tükənməz həyat eşqi verir, onu valeh edirdi.

**Zəhra Quliyeva**, **Fəridə Nəsrullayeva** və **Püstə Məlikaslanova** Zərifə xanımın təşəbbüsü ilə təşkil edilən "qızlar yığıncağı"nı yada salırlar. Adətən, kimin evində yığışmaq üçün püşk atardılar. Əgər bu görüşlərdə Zərifə xanım iştirak etmirdisə, görüşün bütün mənası itirdi.

Ona görə ki, bitməz-tükənməz icadları ilə bu kampaniyanın canı məhz o idi: həm pianoda ifa edir, həm oxuyur, həm də şeir deyirdi. Rus, tatar, özbək, ləzgi, avar… mahnılarını bilirdi. Yəqin, bu, atasının xidməti keçmişi ilə bağlı olaraq ailənin diyardan-diyara köçməsinin və müxtəlif mədəniyyətlərlə təmasda olmasının nəticəsi idi. Lakin bütün bunlarla bərabər onun mənəvi dünyasını Azərbaycan mədəniyyəti, musiqisi və ədəbiyyatı təşkil edirdi…

Bizim qəhrəmanın mənəvi təşəkkülündə, şəxsiyyətinin formalaşmasında atası və anası eyni dərəcədə təsirə malik canlı nümunə olmuşdular. Leyla xanım haqqında biz kitabın əvvəlki fəsillərində söhbət etdik. Deyilənlərə bunu əlavə edək ki, Leyla xanım məişətə, geyimə, qadının təbii bəzəyinə münasibətdə son dərəcə təmkinli olması ilə fərqlənirdi. Onun bir əziz əmanəti – toy hədiyyəsi olan sırğası və qaşlı üzüyü vardı… Spartalı bəsitliyindən çox ənənəvi Şərq əndazəliyi.

Onun mətbəx məharəti, geyimə ciddi münasibəti, səbirliyi, çalışqanlığı, işdə sistemliyi, vaxtın qədrini bilməsi Zərifəyə keçmişdi. Bütün bunlarla bərabər, həyatı bütövlükdə yaşamaq qabiliyyəti, dünyanın gözəlliklərinə heyran olmaq, poeziyaya, musiqiyə, gözəlliyə həvəs… – hər şey onun valideynlərinin yaratdığı əlverişli mühitin, səmərəli iqlimin təsiri altında formalaşmışdı.

Deyirlər, göz qəlbin aynasıdır. Zərifə Əliyevanın oftalmoloq peşəsini seçməsində, yəqin, gözün insan həyatındakı, insanı əhatə edən dünyanın rəngarəngliyini dərk etməsindəki əvəzsiz rolunun və bununla bərabər, insanın daxili aləminin müxtəlifliyini əks etdirə bilmək qabiliyyətinin təsiri olmuşdur.

Qəhrəmanımızın zəngin intellektual, mənəvi potensialı imkan verir güman edək ki, onun ictimai və peşə

fəaliyyəti professional tibb sahəsi ilə çox dolu olmasaydı, Zərifə xanım dövlət və mədəniyyət sahələrində daha böyük səmərə verə bilərdi. Lakin taleyin əmri ilə Zərifə xanım elə bir insana rast gəldi ki, millətin lideri olmaq missiyası, qüdrətli dövlət təşkilatçısı, cəmiyyəti dəyişdirən islahatçı olmaq missiyası onun alnına yazılmışdı. Zərifə xanım bu adamın sevilən və sevən həyat yoldaşı olaraq, onun görəcəyi işlərin miqyasını dərk edərək, onun arxadaşı olmağı özünə borc bildi. Buna görə Zərifə xanımın qeyri-adi keyfiyyətləri, özünü yaradıcı şəxsiyyət kimi reallaşdıra bilməsi elmi fəaliyyətlə və ailə çərçivəsi ilə məhdud qaldı.

Zərifə Əliyeva haqqında danışarkən oxucunun diqqətini daha bir mühüm məqama cəlb etmək lazımdır. Öz-özümüzə sual verək: biz hakimiyyətdə yüksək vəzifə tutan çoxmu kişinin həyat yoldaşının professional fəaliyyəti haqqında bilirik? Dövlət xadimlərinin böyük əksəriyyətinin arvadları – təkcə Sovet İttifaqında yox, elə indi də, demək olar ki, bütün ölkələrdə (hələ qadınların ənənəvi olaraq qapalı ev şəraitində yaşadığı Şərq ölkələrini demirik) – camaat arasına ancaq seçkilərlə, ya xeyriyyə tədbirlərilə əlaqədar, yaxud da ərlərinin dövlət vəzifəsi ilə bağlı nümayəndəsi funksiyasında çıxırlar. Sovet İttifaqında yüksək vəzifəli rəhbərin – baş katib daxil olmaqla MK katiblərinin, müttəfiq respublikaların katiblərinin, nazirlərin və hətta aşağı dərəcəli məmurların arvadları da adətən işləmirdilər, ictimai həyatdan kənarda, səhnə arxasında qalırdılar. Bu mənada Zərifə Əliyeva böyük istisna təşkil edirdi. O, həyat yoldaşına, ailəyə sədaqətlə xidmət etməyi eyni vaxtda tibb elminə xidmətlə təbii şəkildə uzlaşdırırdı. O, hətta Heydər Əliyev respublikaya rəhbərlik edəndə, sonra sovet dövlətinin rəhbərlərindən biri olanda da öz işini tərk etmədi.

Onun vətəndaş mövqeyi məhz bunda təcəssüm edirdi, vətənə, doğma torpağa məhəbbəti, onu əhatə edən həyatın daha gözəl, daha dəyərli və daha qəşəng olması haqqındakı arzuları bunda ifadə olunurdu… Parlaq taleyini bölüşdüyü insanın qazandığı çox böyük nailiyyətlərdə onun əməyinin, qabiliyyətinin, ürəyinin hərarətinin də payı var idi…

Dünya incəsənətinin nəhəng əsərləri anaya həsr olunub. Zərifə Əliyevanın həyatı bu müqəddəs hissin himnidir. O, uşaqları Allahın verdiyi pay kimi, ilahi işıq kimi, həyatın əbədi təntənəsinin ecazkar davamı kimi qəbul edirdi…

Tibb elmləri doktoru **Ofeliya Hüseynova** qəhrəmanımızın qardaşı professor Cəmil Əliyevlə bir oxuyub, sonra onlar eyni institutda doktorluq işi müdafiə ediblər. Ofeliya xanım bu ailənin digər üzvləri ilə də yaxşı tanışdır, onların həyatından müxtəlif epizodları həvəslə xatırlayır. Xüsusilə Həkimləri Təkmilləşdirmə İnstitutunun "İnturist" mehmanxanasında keçirilən yubileyində şahid olduğu qəribə hadisəni. O, təntənə iştirakçılarının xüsusi diqqət göstərdikləri Zərifə Əziz qızı ilə bir stola düşüb. Bu, özünü xüsusilə meyvə ilə bol-bol doldurulmuş vazalarda və vazaların Zərifə xanıma yaxınlaşdırılmasında göstərirdi. Bu haqlı, ancaq bir qədər bezdirici xidmətin obyekti isə hər dəfə ona yaxınlaşdırılan neməti digər qonaqlara təklif etməklə bu ehtiramın pafosunu aşağı salırdı…

Ofeliya Hüseynovaya Zərifə xanımla Moskvada Tibb Elmləri Akademiyasının iclasında görüşmək nəsib olub. O, orada mötəbər və məsuliyyətli auditoriya, məşhur elm xadimləri qarşısında məruzə ilə çıxış etməli idi. Ofeliya xanım çox həyəcanlı idi. Bunu görən Zərifə xanım onu ruhlandırmağa söz tapır və vəd edir ki, göz-

lənilməz bir çətinlik olsa, ona mütləq kömək edəcək… Auditoriya məruzəni səmimiyyətlə alqışlayır. Ofeliya xanım qeyd edir ki, Zərifə Əliyeva yalnız ona yox, bütün həmkarlarına – Moskvada yaşayan həmyerlilərə mümkün olan bütün köməyi göstərirdi.

Hələ Napoleon qeyd etmişdi: "Nöqsanların ən pisi nankorluqdur". Professor A.Nəcəfov qəhrəmanımıza həsr olunmuş məqaləsində yazır:

"Təşəkkür hissinin Zərifə xanımın xarakterinin üzvi bir hissəsi olduğunu xüsusi qeyd etmək istərdim. Bu hissi mübaliğəsiz insan ürəyinin barometri adlandırmaq olar… Yumor hissi, təbii təvazökarlıq və zəngin fantaziya onun şəxsiyyətinin mahiyyətini təşkil edirdi.

…O, yalnız öyrədən professorlardan deyildi, həm də peşəkarlığın, müdrikliyin canlı nümunəsi olan professorlardan idi. Zərifə xanım tələbələrlə, gənc həkimlərlə söhbət edərkən onlara çox diqqətli münasibət göstərərdi. Bu, onlar üçün vətəndaş kamilliyi dərsləri olurdu. Mən dəfələrlə onun çıxışını eşitmişəm. O, həmişə məntiqlə və eyni zamanda ürəkdən danışardı, yüksək nitq mədəniyyəti ilə fərqlənərdi və dinləyicilərdə ruh yüksəkliyi yaradardı.

…O özünün dərin təfəkkür tərzi ilə həmsöhbətini valeh edərdi, gündəlik adi həqiqətlərdə yenilik və humanizm işığı yandırmağı bacarardı…"

Düşünürəm ki, onda İntibah dövrünün kamil insan haqqında, mənəvi gözəllik haqqında ideyalarını yada salan daxili bir harmoniya yaşayırdı.

Keçmiş əyyamda Cəlaləddin Rumi vəsiyyət etmişdi: "Ya göründüyün kimi ol, ya da olduğun kimi görün". Böyük humanist şair Nəsiminin müəllimi Fəzlullah Nəimi yazırdı ki, kamil insan günəşdən, aydan, ulduzlardan daha əzəmətlidir; bütün gerçəklik insandadır.

Xalq Şairi **Mirvarid Dilbazi** qəhrəmanımızı belə xatırlayır:

"…Mən Zərifə xanımı cavan vaxtlarından tanıyırdım. Biz onun rəhmətlik anası ilə 1 nömrəli xəstəxanada müalicə olunurduq və qonşu palatalarda yatırdıq. Mən tez-tez onun anasına baş çəkirdim, onunla söhbət edirdim. Gözəl qızı Zərifə daim ona qulluq edirdi. Bir dəfə xəstəxanaya cavan və yaraşıqlı bir kişi gəldi. Zərifənin anası onu təqdim elədi: "Zərifənin əri". Bu, Heydər Əliyev idi.

…Bəzən el arasında deyirlər: yaxşı adamdır. Bu, təkcə bir adamın fikri deyil, çoxlarının, olsun ki, yüzlərlə, minlərlə adamın bu şəxs haqqındakı fikirlərindən əmələ gələn rəydir.

Zərifə xanım haqqında mən həmişə gənclərdən eşitmişəm: "O, ana kimi bizim dərdimizə qalır". Yetişdirmələrindən biri mənə dedi ki, o, qeyri-adi insandır; o, sadəcə qeyri-adi insan deyil, o, mələkdir…"

Zərifə Əliyevanın həmkarı, Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri, Əməkdar Elm Xadimi N.Şulpina ona məqalə və duyğulu şeirlər həsr edib. O yazır ki, Zərifə Əziz qızı gözəl nitq mədəniyyətinə malik idi. Onun Azərbaycan və rus dillərində nitqi, elmi tribunalardan eşidilən çıxışları özünün dəqiqliyi və aydınlığı ilə həmkarlarının diqqətini cəlb edərdi. Bir qayda olaraq o, möhkəm yaddaşına arxalanaraq mətnə baxmadan çıxış edərdi və diqqətlə hazırlanmış rəngli slaydların, cədvəllərin köməyi ilə mövzunu açardı.

N.Şulpina öz həmkarının yalnız tibb sahəsində deyil, eyni zamanda mədəniyyət, incəsənət, siyasət məsələlərində də qibtəediləcək dərəcədə məlumata və səriştəyə malik olduğunu xatırlayır… Ukrayna incəsənəti dekadası vaxtı ona Zərifə xanımla birlikdə əfsanəvi Neft daşlarına səfər etmək nəsib olur və Zərifə xanım orada dəniz neftçilərinin

mədəniyyət evində parlaq çıxış edir. Sonra dinləyicilərin reaksiyasını öyrənmək məqsədilə sakitcə rəfiqəsinə müraciət edərək soruşur: “Necə alındı?” Sevincdən gözləri yaşarmış N.Şulpina həyəcandan həmkarının çıxışından duyduğu fərəh, qürur hissini ifadə etməyə söz tapa bilmir… Zərifə xanım royal arxasında əyləşir… Milyonlarla insanın sevdiyi mahnıların melodiyaları – Dunayevskinin filmlərə bəstələdiyi musiqilər səslənir:

*Qəlbim, sən ki dinclik istəməyirsən,*
*Necə də gözəldir həyatda hər gün!*
*Sənə minnətdaram nə qədər, bilsən,*
*Beləcə sevməyi bildiyin üçün!*

Zərifə xanım həmkarını səhnəyə dəvət edir. Onlar duet oxuyurlar… Zalın həyəcanlı reaksiyasını təsəvvür etmək olar… Dəfələrlə belə olub.

Oftalmoloqların Səmərqənddə keçirilən V qurultayında ciddi mühazirə və çıxışlardan sonra Zərifə xanım yenidən nümayəndələri özünün musiqi qabiliyyəti ilə təəccübləndirir. Onun musiqi istedadı haqqında tələbkar professionallar da xoş rəylər söyləyirlər.

Eləcə Şulpina da qəhrəmanımızın ailəyə, uşaqlara, nəvələrə olan qayğısını və məhəbbətini qeyd edir… Kimsə xəstələndikdə o, həkim kimi konsiliumlarda iştirak edir, rejimin gözlənilməsini, düzgün qidalanmanı izləyir… Ananın, nənənin ağıllı, bəsirətli və xeyirxah müdaxiləsinin lazım olduğu hallar az deyil! Şulpina yazır:

“Əgər Zərifə Əziz qızını ailənin xeyirxah dahisi adlandırsam, səhv etmərəm. Tale məni müxtəlif peşə sahibləri ilə rastlaşdırıb… Mən ailədaxili çəkişmələri də görmüşəm. Lakin tam səmimiyyətlə deyə bilərəm ki, Zərifə Əziz qızı kimi öz varlığını tamamilə ailəyə həsr

edən, ailənin qayğılarıyla yaşayan başqa bir adam xatırlamıram.

…Zərifə xanım çətin anda hər bir adamın köməyinə çatmağa çalışan insan idi… Bu, ondan uzaqda olan adamlara münasibətdə də özünü göstərirdi. Belə vaxtlarda o özünün bütün imkanlarından istifadə edərdi… Təbii ki, bu, onu hamının sevimlisinə çevirmişdi…”

İnsan üçün sağlığında xalqın hörmətini qazanmaqdan, həyatdan gedəndən sonra tarixdə özünə şərəfli ad qoymaqdan böyük xoşbəxtlik ola bilməz!

## On birinci fəsil

# KÖKLƏR

*Bəzi yazılmamış qanunlar*
*yazılanlardan daha güclüdür.*
*Kvint Horatsi Flakk*

Naxçıvan torpağı. Naxçıvan Dövlət Universitetinin rektoru akademik **İsa Həbibbəyli** "Elmin işığı" kitabında özünün maarifçilik ənənələri ilə məşhur olan Naxçıvan diyarının mənəvi və mədəni aurası haqqında, onun yetişdirdiyi görkəmli elm və mədəniyyət xadimləri haqqında ürəklə yazır. Zərifə Əliyevanın anadan olduğu, Arazın sahilindəki Şahtaxtı kəndindən keçmişdə Şimalla Cənubu, Şərqlə Qərbi birləşdirən karvan yolları keçirdi. Böyük Cəlil Məmmədquluzadə bu kəndi "görkəmli ziyalılar vətəni" adlandırmışdı.

Qabaqcıl gənclərin qəlblərində yaşayan fədakar insanların ruh yüksəkliyi, canlı tarixi yaddaş, ətalətə və xurafata qarşı mübarizə, həvəskar teatr tamaşaları, milli operanın ilk qaranquşları, vətəndaşlıq publisistikasının güc qazanması (bunun xüsusilə parlaq nümunəsi Məmmədağa Şahtaxtinski idi), Mirzə Ələkbər Sabirin satirik

gülüşləri, bütün müsəlman Şərqində məşhur olan "Molla Nəsrəddin" jurnalı (yaradıcısı Cəlil Məmmədquluzadə olmuşdur) – yaxın keçmişdə olmuş bu hadisələr, təbii ki, yüksək mənəvi səviyyənin göstəricisi, vətənə xidmətin etalonu idi.

Bu aura Əziz Əliyevin də vətəndaş kimi təşəkkülündə, onun ailəsinin yüksək mənəvi ölçülər, dəyərlər ətrafında qurulmasında böyük rol oynadı. Bunlar isə onun uşaqlarının gözəl ənənələrin davamçıları və varisləri kimi formalaşmasına təsir etməyə bilməzdi.

Hekayəmizə bu məşhur ailə ilə bağlı bir neçə epizod da əlavə edək: Zərifə xanımın qardaşı, tibb elmləri doktoru Tamerlan Əziz oğlu Əliyev haqqında danışaq. Tamerlan Əliyev 1921-ci ilin 3 oktyabrında dünyaya gəlmişdi. Əziz Əliyevin ailəsi Bakıya köçəndə onun cəmi 2 yaşı vardı. Tamerlan Əliyev sonrakı həyatının bütün dövrlərini Bakıda keçirmiş, bu şəhərdə böyüyüb kamilləşmişdi. O, ilk təhsilini Bakıdakı 3 nömrəli ibtidai məktəbdə almış, sonra isə Bakının keçmiş Oktyabr rayonundakı 176 nömrəli orta ümumtəhsil məktəbini bitirmişdi. Orta təhsilini əla qiymətlərlə başa vuran yeniyetmə o dövrün qaydalarına görə qəbul imtahanlarından azad edilmiş, həkim olmaq arzusunu reallaşdırmaq məqsədilə 1940-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdu.

Stalin təqaüdçüsü olan Tamerlan Əliyev eyni zamanda təhsildə və ictimai işlərdə əldə etdiyi nailiyyətlərə görə o zamanlarda nadir hallarda rast gəlinən yüksək təltifə – Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanına layiq görülmüşdü.

Müharibə illərində Azərbaycan Dövlət Tibb İnstitutunda təhsil müddəti 4 ilə qədər azaldıldığına görə Tamerlan Əliyev artıq 1944-cü ildə institutu bitirmiş və

əmək fəaliyyətinə başlamışdı. Lakin o, hələ 1943-cü ilin sentyabrında sonuncu kursda oxuyarkən artıq Bakıdakı Elmi-Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunda epidemioloq işləyirdi. 1944-cü ildə isə Azərbaycan Dövlət Tibb İnstitutunun Mikrobiologiya kafedrasında assistent kimi fəaliyyət göstərirdi.

Gənc məzun 1945-ci ildən etibarən Azərbaycan Dövlət Tibb İnstitutunun fakültativ terapiya – Azərbaycan Tibb Universitetinin indiki II müalicə-profilaktika fakültəsinin Daxili xəstəliklər kafedrasında əvvəlcə kliniki ordinator, sonra isə assistent, dosent, professor və kafedra müdiri vəzifələrində çalışmışdı. Onun bütün sonrakı fəaliyyəti Azərbaycan Tibb Universiteti ilə bağlı olmuşdu.

Professor T.Əliyev pedaqoji, müalicəvi, təşkilati fəaliyyəti ilə yanaşı, elmi-tədqiqat işlərinə də böyük əmək sərf etmişdi. O, XX əsrin 50-ci illərinin əvvəllərində Azərbaycan kurort amillərinin, o cümlədən İstisu və Darıdağ sularının, Naftalan neftinin insan və heyvan orqanizminə təsir mexanizmlərinin öyrənilməsi ilə məşğul olmuşdu. 1954-cü ildə "Heyvan orqanizminin immun reaktivliyinin Naftalan neftinin təsiri altında dəyişməsinin xarakteristikası" mövzusu üzrə namizədlik dissertasiyası müdafiə etmişdi.

Sonrakı illərdə o, elmi-tədqiqat işlərini endokrin sistem xəstəliklərinin patogenezinin, klinika və müalicə üsullarının, həmçinin miokard infarktının müalicəsi və hemostaziologiya problemlərinin öyrənilməsi istiqamətinə yönəltmişdi.

Professor T.Əliyev apardığı elmi-tədqiqat işlərinin nəticələrinə əsasən 1969-cu ildə "Şəkərli diabetin müxtəlif formaları olan xəstələrdə periferik damarların vəziyyəti: metabolizmin və qanın laxtalanmasının bəzi göstəriciləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək

tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdü. 1970-ci ildə isə SSRİ Ali Attestasiya Komissiyası onun professor elmi adını təsdiq etmişdi. Elə həmin ildə Tamerlan Əliyev Azərbaycan Dövlət Tibb İnstitutunun Daxili xəstəliklər kafedrasının müdiri vəzifəsinə seçilmiş, 20 il bu vəzifədə çalışmışdı.

Professor Tamerlan Əliyev XX əsrin 70-80-ci illərində əməkdaşları ilə birlikdə tədrisin islahatlar yolu ilə təkmilləşməsinə böyük töhfələr vermişdi. O, tədris-metodiki işlərin müasir tələblər səviyyəsində aparılmasına, tədrisin keyfiyyət göstəricilərinin, həmçinin nəticələri səhiyyə praktikasına tətbiq olunan elmi-tədqiqat işlərinin sayının və sanbalının artmasına nail olmuş, nümunəvi bir kafedra yaratmışdı. Tamerlan Əliyev təkcə Azərbaycan Tibb İnstitutunda deyil, bütövlükdə ölkədə tədris-metodiki işlərin ən gözəl bilicilərindən biri kimi tanınırdı.

Görkəmli alim 1990-cı ildə o dövrün yaş senzinin tələblərinə riayət edərək öz ərizəsi ilə kafedra müdiri vəzifəsindən çıxmış və yetirməsinin həmin vəzifəyə seçilməsinə zəmanət vermişdi. O, 1990-cı ildən ömrünün sonuna (1997) qədər kafedranın professoru vəzifəsində çalışmışdı.

1975-ci ildə professor Tamerlan Əliyev Fuad Əfəndiyev adına 4 nömrəli Bakı Şəhər Klinik Xəstəxanası nəzdində 90 yerlik endokrinologiya şöbəsi yaratmışdı və bu şöbə hazırda da fəaliyyətini davam etdirir. Həmin dövrdə Tamerlan Əliyevin təşəbbüsü ilə Daxili xəstəliklər kafedrasının nəzdində Azərbaycan Respublikasında ilk dəfə olaraq intensiv kardioloji yardım şöbəsi yaradılmış, reanimasiya və intensiv terapiya bloku, funksional diaqnostika şöbəsi təşkil edilmişdi.

Tamerlan Əliyev Azərbaycanda kardioloji xidmət sisteminin təşkili sahəsinin inkişafına böyük əmək sərf

etmişdi. Novator alimin təşəbbüsü ilə keçmiş SSRİ miqyasında ilk dəfə olaraq Bakıdakı 4 nömrəli şəhər Klinik Xəstəxanası nəzdində miokard infarktı və şəkərli diabeti olan xəstələrin distansion diaqnostikası, təxirəsalınmaz yardımı, həmçinin intensiv terapiyası təşkil edilmiş və bu da respublikada həmin xəstəliklərdən ölüm faizinin azalmasına səbəb olmuşdu.

Tamerlan Əliyevin Azərbaycan səhiyyəsində xidmətlərindən biri də bilavasitə onun təşəbbüskarlığı və təşkilatçılığı ilə inşa edilərək fəaliyyətə başlayan Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu olmuşdu. Belə bir möhtəşəm müalicə-diaqnostika mərkəzinin fəaliyyətə başlaması Azərbaycan səhiyyəsinin, tibb elminin inkişafına güclü təkan vermişdi.

Azərbaycan Endokrinoloqlar Cəmiyyətinin sədri olan Tamerlan Əliyevin endokrinologiya sahəsinin inkişafı yolunda göstərdiyi əvəzsiz xidmətləri ölkəmizin hüdudlarından kənarda da qiymətləndirilir və görkəmli alimə geniş nüfuz qazandırırdı. Azərbaycan alimi əldə etdiyi mükəmməl elmi nailiyyətlərinə görə vaxtilə keçmiş SSRİ-də Ümumittifaq Endokrinoloqlar, Kardioloqlar və Nefroloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü seçilmişdi.

Professor T.Əliyevin 1983-cü ildə Ümumittifaq Endokrinoloqlar Cəmiyyətinin səyyar elmi sessiyasının Bakıda keçirilməsinə nail olması Azərbaycan səhiyyəsində böyük tarixi hadisəyə çevrilmişdi. Görkəmli alim uzun illər Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş terapevti, Bakı Şəhər Səhiyyə İdarəsinin baş endokrinoloqu, ictimai əsaslarla ATİ-nin elmi işlər üzrə prorektoru və s. vəzifələri də yerinə yetirmiş, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin IV Baş İdarəsinin məsləhətçisi,

Respublika Hərbi Çağırış Komissiyasının və "Azərbaycan Tibb Jurnalı"nın redaksiya heyətinin üzvü olmuşdur. O, həmçinin Azərbaycan Tibb Universiteti nəzdində fəaliyyət göstərən terapiya ixtisası üzrə İxtisaslaşdırılmış Müdafiə Şurasının sədri vəzifəsində çalışmış, bu sahə üzrə gənc elmi kadrların yetişməsinə, bacarıqlı, savadlı alimlər ordusu sıralarının artmasına rəhbərlik etmişdi. Tamerlan Əliyevin elmi məsləhətçiliyi və rəhbərliyi altında 5 doktorluq və 25 namizədlik dissertasiyası yerinə yetirilmişdi.

Jurnalist **Zərifə Bəşirqızı** görkəmli alimin həyatının son illərini xatırlayır:

"…O, ağır xəstəlikdən sonra yenicə ayağa durmuşdu. Biz hər görüşdə beş-on dəqiqə söhbət edə bilirdik. Həyat yoldaşı Tamilla xanım xəbərdarlıq edirdi: "Onu çox yormaq olmaz". Həqiqətən, mən özüm də hiss edirdim ki, Tamerlan müəllim üçün danışmaq necə də çətindir.

İş hazır olanda atası ilə bağlı şəkli götürmək üçün mən onların evinə getdim. Otaqda çoxlu gül və stolun üstündə iri tort vardı. O gün Tamerlan müəllimin 75 yaşı tamam olurdu. Onu təbrik etmək üçün kafedradan iş yoldaşları gəlmişdi. Mən redaksiyaya qayıdaraq materialın sabahkı nömrədə verilməsini xahiş etdim və bu, yubilyara bizim hədiyyəmiz oldu. O, çox sevindi, gözləri yaşardı. Söhbət onun atası haqqında gedirdi, bizim təbrikimiz isə onun yubileyi ilə bağlı idi".

Jurnalist Z.Bəşirqızı Tamerlan Əziz oğlunun gözəl insani keyfiyyətlərini, pedaqoji istedadını, peşəkar bacarığı tələbkarlıqla və xeyirxahlıqla uzlaşdıra bilməsini qeyd edir.

Tamerlan Əliyevin həmkarı **Əlfəddin Abdullayev** onu lakonik və mənalı bir şəkildə belə xarakterizə edir:

“Tamerlan, sözün həqiqi mənasında, qarışqanı da tapdalamağı özünə rəva bilməzdi, o, əsl insan idi – xeyirxah, qayğıkeş, təmənnasız”.

1997-ci ildə Tamerlan həyatdan köçəndə Prezident Heydər Əliyev vida nitqində onun haqqında demişdi:

“Tamerlanın vəfatı bizim ailəmiz üçün ağır, böyük itkidir; şəxsən mənim üçün çox ağır itkidir. Tamerlanın ölümü eyni zamanda Azərbaycan tibb elmi üçün, Azərbaycan ali təhsili üçün, elm aləmi üçün ağır itkidir.

Uzun illər Tamerlan mənim yaxın dostum olub. Mən onunla əlli il bundan əvvəl tanış olmuşam, sonra biz qohum olduq. Bütün bu illər ərzində o mənim etibarlı yoldaşım olmuşdur… O, fitri istedada malik idi. Bununla bərabər fədakar, zəhmətsevər, çalışqan insan idi. O, seçdiyi peşəni həmişə sevdi və peşəsinə, insanlara məhəbbətlə xidmət etdi, cəmiyyətdə layiqli yer tutdu… O, Azərbaycan tibb elminə öz töhfəsini verdi, minlərlə, on minlərlə insanı müalicə etdi, onların ömrünü uzatdı.

Tamerlan Azərbaycan ziyalılarının görkəmli nümayəndəsi idi və hədsiz dərəcədə təvazökar insan idi. O, böyük bəsirəti, mədəniyyəti və sülhsevərliyi ilə fərqlənirdi… Həmişə insanlar arasında yaxşı münasibətlərin qurulmasına, xeyirxahlıq etməyə, insanları bir-birinə yaxınlaşdırmağa çalışırdı.

Onun bir fərqli cəhəti də son dərəcə təmənnasız insan olması idi.

O, yüksək ad almışdı, çoxlu elmi əsərlər yazmışdı, böyük xidmətləri vardı. Lakin heç vaxt heç bir vəzifəyə göz dikməzdi, karyera barədə fikirləşməzdi. Nəinki heç bir vəzifəyə tamahı olmazdı, hətta dəfələrlə bu cür təkliflərdən imtina etmişdi. Bu, mənim yadımdadır. O, ancaq öz peşəsilə məşğul olmaq istəyirdi. Bir daha təkrar edirəm, ona institutda, Səhiyyə Nazirliyində bir neçə

dəfə vəzifə təklif etsələr də, hamısından imtina etmişdi. Ona görə yox ki, öhdəsindən gələ bilməzdi, ona görə ki, öz işini, öz peşəsini sevirdi, başqa sahəyə keçmək istəmirdi.

Özünün genişqəlbliyi, yüksək mədəniyyəti, ziyalılığı və insanpərvərliyi ilə öz atasına – mərhum Əziz Əliyevə oxşayırdı.

Mənim üçün onun ən böyük ləyaqəti – dostluğa sədaqəti idi. İnsanlar öz həyatlarında müxtəlif sınaqlara məruz qalırlar. Əlli il ərzində mənim də həyatımda belə sınaqlar olmuşdur. Tamerlan həmişə mərd, sadiq dost olaraq qalmışdı. Güman edirəm ki, insanın mənəvi aləminin ən yüksək keyfiyyəti səmimilik və sədaqətdir. Tamerlan bu keyfiyyətlərə malik insan idi. Hətta deyə bilərəm ki, bu keyfiyyətlərə görə o, yüksək nümunə idi".

Zərifə xanımın həyatı haqqında danışarkən Əziz Əliyev ailəsinin ən kiçik övladı Cəmil Əliyev haqqında danışmamaq olmaz. Cəmil Əliyev ailənin ənənəsinə sadiq qalaraq ömrünü Azərbaycan səhiyyəsinə həsr etmişdir. O, bir çox ölkədə nəşr olunan iki yüz əllidən çox elmi əsərin, o cümlədən səkkiz monoqrafiyanın, iyirmi metodik vəsaitin, ixtiraların və səmərələşdirici təkliflərin müəllifidir. Akademik Cəmil Əliyev Azərbaycanda onkoloji məktəb yaradıb. Onun rəhbərliyi ilə qırx klinika ordinatoru hazırlıq keçib, otuzdan çox gənc tədqiqatçı namizədlik, üç nəfər doktorluq dissertasiyası müdafiə edib. Onun şərikli müəllifi olduğu "Dəri şişlərinin müalicəsi" monoqrafiyası 1979-cu ildə SSRİ Tibb Elmləri Akademiyasının N.N.Petrov adına mükafatına layiq görülmüşdü. Cəmil Əliyevin rəhbərliyi altında süd vəzilərində xərçəngin erkən diaqnostikası və kompleks müalicəsi üzrə tədqiqat aparılır. Elmi-tədqiqat prosesində xarici ölkələrin onkoloji mərkəzləri ilə geniş təcrü-



Zərifə xanım Əliyeva



1966-cı il





1968-ci il





1970-ci il



1972-ci il



1977-ci il



1981-ci il





Nəvəsi Zərifə ilə. 1981-ci il



Nəvələri Zərifə ilə. 1981-ci il



Nəvələri Zərifə ilə. 1982-ci il





Nəvələri
Zərifə ilə.
1982-ci il



Qızları Sevil və nəvələri Zərifə ilə. 1982-ci il





1982-ci il





1983-cü il



Nəvələri Zərifə ilə. 1983-cü il





Nəvələri Zərifə ilə. 1983-cü il



Nəvələri
Leyla ilə.
1984-cü il



1984-cü il





1984-cü il





1984-cü il

bə mübadiləsi edilir. Bütün bu işlər bədxassəli şişlərin meydana gəlmə və inkişaf səbəblərini öyrənməyə, onların kliniki diaqnostikasına, profilaktikasına və müalicəsinə istiqamətlənib.

1994-cü ildən indiyə kimi Cəmil Əliyev Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda Onkoloji kafedranın müdiri, Respublika Elmi-Onkoloji Mərkəzinin rəhbəridir. O, 1973-1978-ci illərdə Ümumittifaq Onkoloji Mərkəzində böyük elmi işçi kimi tədqiqat aparıb, 1973-cü ildə namizədlik, dörd il sonra doktorluq dissertasiyaları müdafiə edib. Tibb elminin inkişafındakı xidmətlərinə görə professor Cəmil Əliyev Akademik Yusif Məmmədəliyev adına mükafata layiq görülüb. 2001-ci ildə o, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü və Azərbaycan Milli Elmlər Akademiyasının akademiki seçilib.

Akademik Cəmil Əliyev Respublika Onkoloqlarının Elmi Cəmiyyətinin sədri, Azərbaycan Səhiyyə Nazirliyinin baş onkoloqu, Rusiya və Avropa onkoloji cəmiyyətlərinin üzvü, Rusiya Tibb Elmləri Akademiyasının və Nyu-York Elmlər Akademiyasının üzvü, Hammer-Smit Britaniya Kral Universitetinin professoru kimi təşkilatçılıq və yaradıcılıq fəaliyyəti ilə müvəffəqiyyətlə məşğul olan son dərəcə fəal bir şəxsiyyətdir.

Əliyevlərin humanist və alicənab ənənələri səhiyyəmizdə indi də ləyaqətlə davam etdirilir: Cəmil Əliyevin övladları İradə və Əziz də həkimdirlər".

İki məşhur ailənin nümayəndələrinin xarakterlərində, portretlərinin ştrixlərində hekayəmizin qəhrəmanı ilə ortaqlığı görmək çətin deyil – insanpərvərlik, təvazökarlıq, təmənnasızlıq, sədaqət. Düşünürəm ki, genetik varislik haqqında, yüksək əxlaqi dəyərlərin varisliyi haqqında danışmaq olar.

Zərifə Əliyevanın tükənməz enerjisi, əxlaq kredosu, böyük elmə yolu öz başlanğıcını buradan götürür. Onun pedaqoji və həkimlik fəaliyyəti, fədakar analığı, Sovet Azərbaycanının böyük islahatçısının və yeni, müstəqil vətənin qurucusunun silahdaşı olması da öz başlanğıcını buradan alır.

Bakı Dövlət Universitetinin Rus dili kafedrasının müəllimi **Elmira Hacıyeva:**

"Anam Leyla Qazıyeva İrəvan torpağında anadan olub və Əziz Əliyevin xalası qızı idi. Anam tez-tez onun qızı Zərifə haqqında söhbət salardı və maraqlı epizodlar danışardı. Bir dəfə anam ağır xəstələndi. Mən xəstəxanada şöbə müdiri olan professor Tamerlan Əliyevə müraciət etdim. Tamerlan böyük köməklik göstərib anamı həmin xəstəxanaya yerləşdirdi, özü müayinə edib müalicəsi ilə məşğul oldu. Bu klinikanın dördüncü mərtəbəsində göz xəstəlikləri şöbəsi yerləşirdi və Zərifə xanım orada işləyirdi. Anamın gözündən şikayəti olduğunu öyrənəndə o da xəstənin dərdinə şərik oldu və ona hər gün baş çəkməyə başladı. Bizim sıx ünsiyyətimiz onda başladı. Zərifə xanımın insanpərvərliyi, xeyirxahlığı haqqında uzun-uzadı danışmaq olar.

O, yüksək ziyalı idi, səbirli idi, insanları sevirdi və onlarla ünsiyyətdə olmaqdan həzz alırdı. Həmişə səliqəli və ciddi, lakin gözəl geyinərdi. Bəzən o, mənim geyimimə diqqət edib tərifləyərdi: "Çox gözəl görünürsən, sən öz geyiminlə bizim tələbələrə nümunə olursan". O, əhəmiyyətsiz şeyə də diqqət yetirməyi və ona xüsusi əhəmiyyət verməyi bacarırdı. Yadımda deyil, hansı bayramdasa mən ona böyük bir buket gül gətirdim. O, bütün gülləri həkimlərə, assistentlərə payladı, özünə yalnız anamın bağ evindən gətirdiyim nərgizgülünü saxladı: "Bu gül doğma hərarəti ilə seçilir" dedi".

Azərbaycan Dövlət Tibb Universitetinin Oftalmologiya kafedrasının dosenti **Rəfiqə Axundova** bizim qəhrəmanı 1955-ci ildən, kafedranın ordinaturasında oxuyan vaxtdan tanıyır.

Onda kafedraya rəhbərlik edən EA-nın müxbir üzvü, professor Ümnisə Musabəyova onu həmkarlarına təqdim edərək deyib ki, o, dosent Ləzifə Əliyevanın (Zərifə xanımın böyük bacısının) rəhbərliyi altında işləyəcək. Gözləri gülən, gözəl bir qadın yaxınlaşıb və onları salamlayıb. Bu, Oftalmologiya ETİ-nin elmi əməkdaşı Zərifə xanım idi. O zaman o, respublika üçün aktual problem olan traxomaya qarşı mübarizə aparırdı.

1961-ci ildə artıq ETİ-nin aspirantı olan Rəfiqə Axundovaya traxomanın çətin müalicə olunan formaları ilə məşğul olmaq təklif edilir. O, Zərifə Əliyeva ilə görüşür və belə xeyir-dua alır: "Sən xalqa böyük xidmət göstərirsən".

Oftalmoloq-cərrah **Əntiqə Ələkbərova** xatırlayır:

"Əvvəlcə biz Zərifənin böyük bacısı ilə – Ləzifə ilə əməkdaşlıq edirdik. Zərifə Moskvada Həkimləri Təkmilləşdirmə İnstitutunda kursu bitirib bizim ETİ-yə gəldi, hələ ərə getməmişdi, lakin nişanlı idi. Mehriban, ünsiyyətcil idi və kollektivə tez daxil oldu. Bir müddət sonra eşitdik ki, yaxın günlərdə toy olacaq. İş yoldaşlarından Ümnisə xanımı, Zəhra xanımı və məni dəvət etmişdi. Evində xudmani bir şadlıq oldu. Musiqi hissəsini Gülarə xanım öz üzərinə götürdü. Arabir gəlin də ona qoşulurdu və dörd əllə çalırdılar.

Zərifə xanım ocağın həqiqi qoruyucusu idi. O, uşaqları, əri üçün canından keçməyə hazır idi.

Bir kampaniyada görünən kimi dərhal canlanma başlayırdı, heç kim darıxmırdı. O, zarafat etməyi sevərdi. Danışmışdıq ki, guya ayda bir dəfə kiminsə evində

yığışaq. Menyunu əvvəlcədən "sifariş verirdik". Zərifə xanım bir dəfə də olsun bu "qızlar yığıncağı"ndan qalmadı. Hətta Ümnisə xanıma zarafatla xəbərdarlıq edərdi ki, mənsiz yığışsanız, inciyərəm. Əgər mənim evimdə yığışırdıqsa, ərim xanımları utandırmamaq üçün çıxıb gedirdi. Digər kişilər də belə ədəbli hərəkət edirdilər. Bu gecələrin canı Zərifə olardı. Onunla darıxmaq mümkün deyildi…

O, hamıya can yandırardı. Yaşadığı evin birinci mərtəbəsində təsərrüfat malları mağazası vardı. Bizdən kimə nə lazım olsa, yadında saxlayırdı və lazım olan mallar mağazaya gələn kimi özü alıb gətirirdi.

…Bir səhər mənə evə zəng elədi: "Əntiqə, sənin moruq mürəbbən qalıbmı? Mənim uşaqlarım soyuqlayıb…" Mən dedim: "Bəli, işə gətirərəm". Gətirdim. Mürəbbəni verəndə zarafatından qalmadı: "Qızlar, əgər Əntiqədən nəsə xahiş eləməli olsanız, yaxşı olar ki, səhər-səhər edəsiniz. Səhərlər o, belə xeyirxahdır!"

O öz sənətini hədsiz məhəbbətlə sevirdi. O vaxtlar Azərbaycanda təhlükəli traxoma xəstəliyi geniş yayılmışdı. Maştağa qəsəbəsində bu yoluxucu xəstəliyin kökünü o kəsdi…

…Sadə, iddiasız qadın idi. Bu, qeyri-adi görünürdü: elə adlı-sanlı ailədən çıxasan, böyük şəxsiyyətin həyat yoldaşı olasan və o dərəcədə sadə olasan!

O, Həkimləri Təkmilləşdirmə İnstitutuna keçəndən sonra da biz əlaqəmizi kəsmədik. Bir dəfə o, zəng elədi: "Oğlumun ad günüdür, tort bişir, gəl". Mən tort bişirdim və onlara getdim. Həmin vaxtlar Heydər Əliyev yenicə DTK-ya rəhbərlik edirdi. Zərifə xanım birdən ona müraciət etdi: "Əntiqənin mənimlə birlikdə işləməsini istərdim, onsuz mənim işim düz gəlmir. Bəlkə, sən kömək edəsən?" Mən tutuldum: "Heydər qardaş, narahat olma-

ğa dəyməz. Mən öz işimdən razıyam və Sizə zəhmət vermək istəmirəm".

…İşdə heç kim hiss eləməzdi ki, yüksək vəzifəli şəxsin arvadı ilə yanaşı işləyir. Orada o, "birinci xanım" yox, hər şeydən əvvəl həkim idi. Hamı kimi işə vaxtında gələr, iş gününün axırınadək işləyərdi. Onun yaxın iş yoldaşları Ümnisə Musabəyova, Zəhra xanım və mən idik. O, hamı ilə dostcasına rəftar edər, heç kimə yuxarıdan aşağı baxmazdı. Bütün ömrü boyu bir dəfə də olsun peşə borcunu ailəyə qurban vermədi və ailənin maraqları naminə işdən əl çəkmədi…"

İş yoldaşları, alimlər, mütəxəssislər və sadə zəhmətkeşlər onu xoş sözlərlə, minnətdarlıq hissi ilə xatırlayırlar. Akademik Mirqasımov adına Respublika kliniki xəstəxanasında uzun illər xadimə işləmiş **Məleykə Sadıqova** danışır:

"Tale məni çox sınaqlara məruz qoydu. Ərim hərbi xidmətçi idi və otuz yeddi yaşında bu dünyanı tərk elədi… Mən yeddi uşaq anası idim. Həqiqətən, Allah öz yaratdıqlarına rəhm edir… Uşaqlar böyüdülər. Nə gizlədim, çətinliklə dolanırdıq. O vaxt Allah göydən mənə Zərifə xanımı kömək göndərdi. Mən kim idim? Adi xadimə. O isə məşhur alim, həkim idi. Lakin mənim bəxtim gətirdi. O vaxt o, bizim xəstəxanaya təzə gəlmişdi. Rəfiqələrimdən biri soruşdu: "Sən, heç olmasa, bilirsən kimin kabinetini süpürüb-təmizləyirsən?" Mən çiyinlərimi çəkdim: "Haradan bilim?" Zərifə xanım çox rəhmdil insan idi. Bir dəfə məni yanına çağırıb oturtdu. Bir müddət susdu. Hiss edirdim ki, gözlərini məndən çəkmir. İynə üstündə oturan kimi oturmuşdum. Nəhayət, o, sükutu pozdu:

– Təmizliyə, cidd-cəhdinə görə çox sağ ol, mənim bacım. Sən səliqəli adamsan… – Yenidən susdu, fikirləşdi. Sonra yavaşca, nəvazişlə dedi: – Necə yaşayırsı-

nız, güzəranınız necədir? Eşitmişəm sənin yeddi uşağın var…

Elə bil, dilimi kəsmişdilər, bir kəlmə belə deyə bilmədim. O özünü stolun üstündəki kağızlarla məşğul olan kimi göstərdi. Amma fikri, and içərəm ki, məndə idi. Mən ona ancaq çəpəki göz gəzdirə bilirdim.

– Məleykə bacı, – o danışdı. – Mən mühasibatda kassirə demişəm ki, bu ay maaşımı sizə versinlər...

Həqiqətən bu pula böyük ehtiyacım vardı. Uşaqlar kiçikdilər, maaş isə az idi, çatmırdı...

O, müraciət edənlərin hamısını doğmaları kimi dinləyir, müayinə edir, resept yazırdı. Bir görsəydiniz xəstələr ona necə minnətdarlıq edirdilər! Vallah, o, müqəddəs bir insan idi… Heç vaxt heç kimi incitməzdi, heç kimi naümid qoymazdı. Heç kimə kömək etməkdən imtina etməzdi. Böyük Yaradan onu böyük ürəklə mükafatlandırmışdı. Bir dəfə yenə məni çağırdı. İşim, dolanışığım haqda soruşdu. Sonra mənə təzə, ütülənmiş xalat verdi: "Mənə dardır, sənə bağışlayıram". Vaxt keçdi, məni yenidən kabinetinə çağırdı. Stolun üstünə müxtəlif rənglərdə üç bağlama parça qoydu: "Mən bunları sənin qızların üçün almışam, maaş alaram, tikdirmək üçün də pul verərəm. Qoy qəşəng geyinsinlər". Mən ömrümdə belə xeyirxah adam görməmişdim. Acı taleyimdən, çətin dolanışığımdan xəbərdar olduğu üçün yükümü yüngülləşdirmək istəyirdi. Səxavətli adam idi… Mən göydə Allaha, yerdə isə Zərifə xanıma dua edirəm. Mənim uşaqlarım dəfələrlə onun qayğısını görüblər. Sonra mənim həkim qızım Xaçmaza köçdü. Bilirsiniz o, qızımın ərinə nə qədər kömək elədi? O biri qızım Yardımlıya getdi. Kürəkənimin mənzili darısqal idi. Zərifə xanıma müraciət elədim. Zərifə xanımın köməyi ilə ona rayonun mərkəzində şəhər tipli binada mənzil verdilər. Onun belə xeyirxah işlərini

saymaqla bitməz… Zərifə xanım ailəsi ilə birlikdə Moskvaya köçəndə də bizi unutmadı…"

Narahat və şəfqətli xarakterə malik qəhrəmanımız oftalmologiyadan çox uzaq olan tarixə də biganə qalmamışdı. Bu tarix kinematoqrafiya ilə, tarixi-qəhrəmanlıq mövzusundakı "Babək" filminin taleyi ilə bağlıdır. Çoxlu döyüş səhnələri və təbiət mənzərələri olan ikiseriyalı bu film böyük xərc və texniki vəsait tələb edirdi. Qərara alındı ki, film "Azərbaycanfilm" kinostudiyasında "Mosfilm"lə birgə çəkilsin. Quruluşçu rejissor Eldar Quliyev idi. Eldar Quliyev Rüstəm İbrahimbəyovun ssenarisi əsasında çəkdiyi "Bir cənub şəhərində" filmindəki müvəffəqiyyətinə görə çoxdan məşhur idi.

Texniki məsələləri, maliyyə və nəqliyyat problemlərini həll etmək üçün yüksək vəzifəli məmurlardan biri kurator təyin edilmişdi. Bu məmur vicdanlı, işlə ürəkdən maraqlanan adam idi. Amma hərdənbir yaradıcılıq, peşəkarlıq məsələlərinə müdaxilə etdiyindən onunla çəkiliş qrupu arasında toqquşma, mübahisə yaranmışdı.

Bir neçə il keçəndən sonra Moskvada filmin son variantına baxış keçirildi. Sonra "Mosfilm"in baş direktoru N.Sizov, Eldar Quliyev və Azad Şərifov (Azərbaycan KP MK-nın Mədəniyyət şöbəsinin müdiri) filmi Heydər Əliyevə göstərməyi qərara alırlar. Və burada kuratorla münasibətlər gərgin nöqtəyə çatır. Təbii ki, kinofilmi çəkənlər Bakıya xoş əhvali-ruhiyyədə yola düşmürlər. Lakin elə olur ki, Azad Şərifov Moskvadan Zərifə Əziz qızı ilə eyni reysdə uçur. Yolda onların söhbəti baş tutur. Zərifə xanım film haqqında söhbəti təfərrüatı ilə dinləyir və ona baxmaq arzusunu bildirir, sonra gözlənilmədən soruşur: "Film hazır olduğu halda sizin əhvalınız xoş deyil. Məgər problem var?"

Onu çoxdan tanıyan Azad Şərifov hər şeyi olduğu kimi danışır. Zərifə xanım gülümsəyərək onu sakitləşdirir: "Hər şey düzələr. Heydər Əliyev Eldar Quliyevin professionallığını bilir və sizi də təcrübəli bir əməkdaş kimi tanıyır".

Səhərisi "Mosfilm"in baş direktoru gəlib çıxır. Axşam Dövlət kino zalında baxış olur. Heydər Əliyev Sizovu mehribanlıqla qarşılayır, film üzərindəki işdə iştirakına görə ona təşəkkür edir. Nümayişdən dərhal sonra baş tutan müzakirədə kurator söz alır və çəkiliş zamanı təklif və qeydlərinin nəzərə alınmamasından şikayətlənir. Heydər Əlirza oğlu digər baxış iştirakçılarının da rəyinə qulaq asır, kuratorun "narahatlığ"ına heç bir münasibət bildirmir, sonra müzakirəni yekunlaşdıraraq uğurlu işinə görə rejissora minnətdarlığını bildirir, "Mosfilm"in direktoruna yenidən təşəkkür edir və əməkdaşlığın davam edəcəyinə ümid bəslədiyini deyir…

Zərifə Əziz qızı zalı tərk edərkən Azad və Eldarın yanından keçəndə gülümsəyərək bir an ləngiyir və deyir: "Di budur, siz isə qorxurdunuz…"

Qeyd edək ki, "Babək" Azərbaycanda çəkilmiş ən yaxşı tarixi filmdir və keçmiş SSRİ prokatında yaxşı göstəricilərlə fərqlənmişdir.

Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının müdiri professor **Paşa Qəlbinur** Zərifə Əliyeva haqqında söhbət açaraq iki əziz müəlliminin – professor Zəhra Quliyevanın və dosent Ləzifə Əliyevanın onun haqqında dediklərini xatırlayır:

"Onlar deyirdilər ki, Zərifə xanım uşaqlarını fanatikcəsinə sevən ana idi. İşdə olarkən o, evə zəng edib onların dərsləri, sağlamlıqları haqqında soruşmağı heç vaxt unutmazdı.

Mənə Zərifə Əziz qızının balaca nəvəsinin ad günündə iştirak etmək nəsib olub. Masa arxasında söhbət

Heydər Əliyevin bir gün əvvəl televiziya ilə verilmiş böyük çıxışından düşdükdə hamının diqqəti Zərifə xanımın həyəcanlı reaksiyasına cəmlənmişdi: "Mən nəfəs almadan qulaq asdım və valeh oldum", – şövqlə etiraf etdi o".

Paşa Qəlbinur öz anası Ulduz xanımın Zərifə Əziz qızı ilə olan çoxdankı söhbətini xatırlayır. Zərifə xanım uşaqları haqqında danışarkən qızı Sevillə bağlı, bəlkə, əhəmiyyətsiz görünən, ancaq rəmzi xarakter daşıyan bir təfsilatı yada salarmış. Deyərmiş ki, o lap kiçik yaşlarından çörəyə hörmətlə yanaşır (Çörəyi müqəddəs sayan xalq ənənələrinin əks-sədasıdırmı?) O, yeyilməyib qalan çörək tikələrini heç vaxt atmazmış. "Sonra yeyərik" deyərmiş. Çörəyə bu cür ehtiramlı münasibətə böyüklər arasında belə seyrək hallarda rast gəlmək olur.

Bir dəfə Zərifə Əziz qızı gənc həmkarı Paşa Qəlbinura Heydər Əliyevin onun elmi nailiyyətlərini izlədiyini xəbər verir və Paşa Qəlbinuru sevindirir. Müəyyən vaxtdan sonra o, Oftalmologiya ETİ-nin təqdimatı ilə elm sahəsində Ümumittifaq Komsomolu mükafatına layiq görülür. Heydər Əliyev Moskvadan onu telefonla təbrik edir. Sonra Bakıya qayıdanda tədbirlərin birində onunla görüşən Paşa telefon təbrikini minnətdarlıqla yada salır:

"Siz məni Moskvadan təbrik etdiniz, burada isə Kamran Bağırovun (Azərbaycan KP MK-nın ovaxtkı birinci katibi – *H.M.*) heç səsi çıxmadı". Heydər Əliyev gülümsəyərək deyir: "Fikir vermə, adamlar müxtəlif cürdür…"

Oftalmologiya ETİ-nin Uşaq şöbəsinin həkimi **Həyat Əfəndiyeva**nın da xatirələri, yəqin ki, oxucu üçün maraqlı olar:

"Biz Zərifə Əliyeva ilə iyirmi il bir yerdə işləmişik. O, həkimlikdə, elm sahəsində böyük uğurlara nail oldu. İlk

dəfə biz 1964-cü ildə görüşmüşük. Mən ordinaturanı qurtarmışdım. Zərifə xanım mənə böyük qayğı göstərirdi. Bir dəfə dedi ki, bu yolu seçən adam həssas, diqqətli və məsuliyyətli olmalıdır. Lap kiçik bir ehtiyatsızlıq xəstəni ömür boyu ümidsiz qoya bilər. Laboratoriya təcrübələrinə o özü rəhbərlik edərdi. Texniki personalın, tibb bacılarının olmasına baxmayaraq, sınaq şüşələrini özü yuyurdu. Bəlkə də dünyada belə sadə insan olmayıb…"

H.Əfəndiyeva ETİ-yə əri Nazim Əfəndiyevin rəhbərlik etdiyi vaxtı xatırlayır:

"Məhz Zərifə Əziz qızının təşəbbüsü ilə keçmiş SSRİ-nin məşhur oftalmoloqları institutumuzla əməkdaşlıq edirdi. Onların iştirakı ilə Bakıda ümumittifaq və beynəlxalq miqyaslı simpoziumlar, elmi disputlar keçirilirdi. Belə görüşlərin birində qonaqları institutda milli mətbəximizin yeməklərilə bəzədilmiş masaya dəvət etdik.

Nazim müəllim bizə – çoxluq təşkil edən qadınlara sərbəst "reqlament" verirdi. Hamı özünü bir ailənin üzvü kimi hiss edirdi. Zərifə xanım isə mehriban ev sahibəsi kimi yeməklərimizin məziyyətini tərifləyərək onlardan dadmağı təklif edirdi. Məsələn, Naxçıvandan göndərilmiş lavaş, qoyun pendiri, tərxun haqqında məlumat verib deyirdi ki, bunlardan daha dadlısını heç bir yerdə tapa bilməzsiniz. Zarafatla əlavə edərdi: "Bu nemətləri ona görə belə çox sevir ki, onları yetişdirən torpaq ona belə sədaqətli, qayğıkeş həyat yoldaşını, uşaqlarının sevimli atasını – Heydəri bağışlayıb…"

Buna oxşar bir görüş Odessada keçirildi. Rəsmi hissədən sonra akademik Puçkovskayanın 80 illiyi ilə bağlı yubiley təntənəsi oldu. Köhnə tanışlar yığışmışdı, keçmiş günləri xatırladılar, özlərinin elmi işləri, problemləri haqqında danışdılar. Süfrə arxasında mən Zərifə xanıma dedim: "Olarmı qonaqlara Azərbaycan musiqi-

sinin gözəlliyini nümayiş etdirək?" O, bir söz demədən fortepiano arxasına keçdi, əvvəlcə klassiklərdən nə isə çaldı, sonra hərarətli Azərbaycan rəqs havalarına keçdi. İnandırıram, elə bir adam yox idi ki, bu rəqs havalarının cazibəsinə qapılmasın. Musiqinin ritminə əsir olmuş zal rəqs edirdi. Milli mənsubiyyətindən asılı olmayaraq hamı tamamilə Azərbaycan musiqisinin sehri altına düşmüşdü. Bu hərarətli rəqsdə hamıdan çox sevinən Zərifə xanım idi".

O özü son dərəcə gözəl idi. N.Şulpina qeyd edir ki, təbiət Zərifə Əliyevaya nadir qadın cazibədarlığı bəxş etmişdi. Onun zərif dərisi, oval üzü, açıq alnı, dərin qara gözləri məftunluq doğururdu. Onun bütün mahiyyəti hərəkətlərindən, mimikalarından, jestlərindən oxunurdu:

"Mən onu heç vaxt əsəbi, acıqlı görmədim. Həmişə gülümsər, mülayim idi. Bu balaca qadının, cərrahın əllərini görən hər kəs o əllərdə ailə qayğısının, qadın əməyinin izlərini də o saat görərdi. Elit təbəqəyə mənsub olmasına baxmayaraq, o, ev işlərindən qaçmazdı. Puşkin öz şeirlərində məhz belə bir qadının surətini təsvir etmişdir: "Əsl gözəlliyin əsl nümunəsi…"

Bütün qadınlar kimi, o da modanın qanunlarına, tələblərinə laqeyd deyildi. Bununla bərabər, yaxşı zövqə malik idi, hər şeyin yerini və ölçüsünü bilirdi. Onun qarderobunda, necə deyərlər, adamın diqqətini xüsusilə çəkən, fövqəladə heç nə görmək olmazdı. Bir qayda olaraq o, müasir, rahat tərzə üstünlük verərdi. Kosmetikadan az istifadə edərdi. Brilyant sırğa, qaşlı üzük və paltarın rənginə uyğun əl çantası – vəssalam. Onun əqidəsinə görə, insanın daxili və xarici gözəlliyinin əlavə bəzəyə ehtiyacı yoxdur.

Zərifə xanım elə insan idi ki, onunla bircə dəfə ünsiyyətdə olanın onu unutması mümkün deyildi…

Heydər Əliyev danışırdı ki, xarici malların Azərbaycanda və ümumiyyətlə SSRİ-də az tapıldığı vaxtda ona zəng edirlər: "Respublikaya məhdud sayda fransız ətri gətirilib, sizə nə qədər lazımdır, deyin ayıraq". Əliyev həyat yoldaşına zəng edir ki, onunla məsləhətləşsin; onlar iki flakon götürmək qərarına gəlirlər. Mən bu barədə paylaşdırıcıya deyəndə, o, ah çəkərək: "Hamı bu ətirdən on-on beş flakon sifariş verir!" dedi".

Məşhur Azərbaycan modelyeri **Fəxriyyə Xələfova** danışır:

"Zərifə xanım mənim yadımda Azərbaycan qadınının, anasının idealı kimi qalıb. O, eyni vaxtda bir neçə işin öhdəsindən gəlməyi bacarırdı, daim hərəkətdə idi. Onun öhdəsinə böyük məsuliyyət düşmüşdü. Əvvəla – ailə, ikinci – rəhbərlik etdiyi böyük kollektiv, bir sıra ictimai vəzifələr. Bundan əlavə, doğmalarının, yaxınlarının qayğısı, ona ümidlə müraciət edən tanımadığı adamları da naümid, köməksiz qoymaması".

Zərifə xanımın həyat yolu müasir kamil qadının formalaşmasına, bir növ, qiymətli töhfə idi. Onun işində dərin fərdilik və yüksək professionallıq özünü göstərirdi. İşgüzar keyfiyyətləri onun cazibə qüvvəsi ilə ahəngdar surətdə birləşirdi. Daxili harmoniya, ruh yüksəkliyi, peşə mədəniyyəti hər yerdə – rəftarında, ünsiyyətində, geyimində özünü büruzə verirdi.

Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin müəllimi **Əsmətxanım Məmmədova**nın tələbələri sırasında Sevil Heydər qızı Əliyeva da vardı. Ə.Məmmədova xatırlayır:

"Sevil xanım ərəb dili şöbəsində oxuyurdu… O, sadə, lakin zövqlə geyinirdi, təhsildə nümunəvi idi… Kursun bütün tələbələri ilə mehriban, səmimi münasibəti vardı, müəllimlərə xüsusi hörmət bəsləyirdi, heç vaxt və heç nə

ilə yüksək vəzifəli şəxsin qızı olduğunu nümayiş etdirməzdi.

Sevilin və qardaşı İlhamın geniş dünyagörüşə malik şəxsiyyətlər kimi formalaşmasında, istedadlarını, işgüzar keyfiyyətlərini, aktiv fəaliyyətlərini gerçəkləşdirə bilmələrində, şübhəsiz, ailə mühiti, Zərifə xanımın tərbiyəsi öz sözünü demişdi".

Milli Məclisin deputatı, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva da tələbə yoldaşları arasında Sevil xanımı belə xatırlayır:

"Sevil xanımla mən tələbə yoldaşı olmuşam. Onunla beş il bir qrupda ali təhsil almışıq. Bu illər ərzində mən Sevil xanımda elə xüsusiyyətlər müşahidə etdim ki, bunların hamısı ailədən, ananın verdiyi tərbiyədən irəli gəlirdi. İlk növbədə onda dərin millilik var idi. Zərifə Əliyeva qızını da əsl azərbaycanlı xanımı kimi böyütmüşdü. Oxuduğumuz qrupda Sevil xanım özünün milliliyi, sadəliyi, nümunəvi davranışı, milli adət-ənənələrimizə diqqət və hörməti ilə hamıdan fərqlənirdi. Mən başa düşürdüm ki, bunların hamısı ailədən gələn məsələlərdir. Sevil xanım insanlara, o cümlədən ətrafına, tələbə yoldaşlarına son dərəcə diqqətcil və qayğıkeş idi. Məsələn, bir hadisəni danışım: bizim qrupda bir qız oxuyurdu, uşaq ikən anasını itirmişdi. Təhsil aldığı vaxt isə atası da dünyasını dəyişdi. Ailədə iki bacı idilər, kiçik bacısı hələ orta məktəbdə oxuyurdu. Kimsəsizdilər, onlara sahib çıxan qohum-əqrəbası da yox idi ki, atasının dəfnini təşkil etsin. Qrup üzvləri yığışaraq köməkləşdik. Atasının dəfnini və başqa məsələləri həll etdik. Bu hadisədən bir neçə gün sonra Sevil xanım həmin qıza yaxınlaşaraq nə köməyə ehtiyacı olarsa, yardım etməyə hazır olduğunu dedi. Əlbəttə, bunu hər kəs etməzdi. Amma Sevil xanımın ailədə aldığı tərbiyənin nəticəsi idi ki, ehtiyacı olan insana öz təşəbbüsü ilə kömək

etdi. Sevil Əliyeva obyektiv, təvazökar və çalışqan tələbə idi. Bütün bunlar isə ailədə ana və atanın verdiyi tərbiyədən, öyüd-nəsihətdən irəli gəlirdi...”

Düşüncələrin bu məqamında öz-özümə sual edirəm: Zərifə Əliyevanın sirri nədədir?.. Axı biz bunu kifayət dərəcədə aça bilmədik… Mən bu qadında daxili təmkin, insanpərvərlik, insanın imkanları daxilində yaşamaq arzusu, işdə, həyatda, məişətdə – bir sözlə, hər sahədə kamilliyə çatmaq arzusu görürəm…

* * *

Zərifə xanımı tələbəlik illərindən tanıyan və onun rəhbərliyi altında iyirmi il Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasında çalışan **X.A.Rəcəbli** 1979-cu ildə Oftalmoloqlar Cəmiyyətinin Moskvada keçirilən iclasında Z.Ə.Əliyevanın maraqlı çıxışını belə xatırlayır:

“...O, parlaq natiq kimi həkimin mənəvi tərbiyəsi, müasir deontologiya, tibb etikası və mənəviyyatı məsələləri haqqında həqiqətən çox təsirli çıxış etdi. Çıxışından sonra sovet oftalmologiyasının patriarxı akademik M.M.Krasnov ona yaxınlaşaraq, qarşısında baş əydi və əlindən öpüb dedi: “Sözüm yoxdur. Heyranam!”

... O, ensiklopedik biliyə malik bir insan idi.

Mənim musiqi təhsilim olduğu üçün həmişə onun musiqi anlayışına, dərin ilhamına heyran kəsilirdim. Kamil musiqi fəhmi vardı. Yadımdadır, Zaqafqaziya bəstəkarlarının əsərlərindən ibarət konsertdə böyük Üzeyir Hacıbəyovun ölməz notlarını eşidərkən Zərifə xanımın sevinci aşıb-daşırdı. O, hətta bu parçaları mənə zümzümə də etdi!

Biz bir neçə dəfə Zərifə xanımla “Min bir gecə” baletinə getmişik. Yadımdadır, mənə deyirdi: “Birinci dəfə

mən Toğrul Nərimanbəyovun gözəl dekorasiyalarına məftun olmuşdum. İkinci dəfə Fikrət Əmirovun ecazkar musiqisi məni heyran etdi. Bu musiqidə xəlqilik və müasirlik çox üzvi surətdə qovuşub. Baletə növbəti dəfə baxışımda mən baletmeyster Nailə Nəzirovanın tapıntılarından həzz aldım. İndi, nəhayət, dördüncü dəfə bütün bunları vahid tam kimi qəbul edirəm..."

Mən Azərbaycan və Rus Dram teatrlarının tamaşalarında, müxtəlif konsertlərdə, sərgilərdə dəfələrlə onunla birlikdə olmuşam... Hər yerdə də onun incəsənətə əvəzsiz məhəbbət hissini duymuşam. O, bəşəriyyətin mənəvi xəzinəsinə xalqımızın verdiyi töhfələrlə fəxr edirdi. Bu duyğu, belə demək mümkündürsə, onun sırf şəxsi, fərdi duyğusu deyildi. Zərifə xanım incəsənətə münasibətini mütləq başqaları ilə bölüşməyə çalışırdı..."

Xatirələrinin başqa bir epizodunda X.A.Rəcəbli yazır:

"...Zərifə xanımın güclü yaddaşı vardı. Nəyisə qeydə almışdısa, bunu harada, necə etdiyini, hansı fikrin kimə aid olduğunu fenomenal dəqiqliklə xatırlayırdı. Bir dəfə klinikamıza çox nadir müşahidə olunan bir xəstəliklə – göz almacığının çıxığı ilə bir xəstə gətirmişdilər. Hətta ən təcrübəli təbiblər belə çaşıb qalmışdılar. Zərifə xanımı dəvət etdilər. O, xəstəni müayinə edəndən sonra dedi:

– Deyəsən, tələbəlik illərində mən akademik Averbaxın oçerklərində belə maraqlı hadisələr haqqında oxumuşdum. Orada akademik sirk ustası olan bir yapondan bəhs edirdi. O, tamaşaçıları heyrətləndirməkdən ötrü özünün göz almacıqlarını çıxarıb atır, sonra isə götürüb yerinə salırmış.

Biz yubanmadan akademik M.İ.Averbaxın monoqrafiyasından həmin yeri axtarıb tapdıq. Gördük ki, Zərifə xanım uzun illər bundan qabaq oxuduğu şeyləri də müstəsna dərəcədə dəqiqliklə xatırlaya bilir.

Zərifə xanım ixtisası üzrə çoxlu mütaliə edir, aldığı informasiyanı kafedra əməkdaşlarının və dinləyicilərinin sərvətinə çevirirdi. Bu dəfə də belə oldu. Əldə etdiyimiz məlumatlar bizim birgə hazırladığımız orijinal məqalədə öz əksini tapdı. Məncə, qadın oftalmoloqlar arasında ilk dəfə olaraq məhz ona Akademik M.İ.Averbax adına Tibb Elmləri Akademiyasının mükafatının verilməsində bir qanunauyğunluq vardı...”

## On ikinci fəsil

# KONDİSİONERLƏR VƏ...
# OFTALMOSKOP

*Bizim bütün qəhrəmanlığımıza səbəbkar qadınlardır.*
*Qadınsız kişi çaxmaqsız tapança kimi bir şeydir.*
*Viktor Hüqo*

İcazənizlə mövzudan bir az uzaqlaşaq və Bakıda məişət kondisionerləri zavodunun tikilməsi haqqında danışaq. Bu zavod sonra oftalmoloq Zərifə Əliyevanın diqqət mərkəzində olacaq.

1972-ci il. Daşkənddə pambıqçıların ümumittifaq müşavirəsində müttəfiq respublikaların birinci şəxsləri və Sov. İKP MK-nın Baş katibi özü iştirak edirdi.

Səhər Daşkənd hava limanında Leonid İliç Brejnevi qarşılayırlar və onun üçün ayrılmış iqamətgahda rəhbərlər arasında söhbət başlayır. Brejnev Şərəf Rəşidovun yanındakı kresloda oturur. Sonra Baş katib yumorla yada salır:

– Şərəf Rəşidoviç məni iqamətgaha gətirdi, necə lazımdır, elə yerləşdirdi. Mənim isə istiyə dözümüm yoxdur. Görürəm, otaqda kondisioner var. Məmnuniyyətlə

onu işə saldım. Amma o, sərin hava əvəzinə otağı isti hava ilə doldurdu, həm də isti ilə birlikdə tozla. Soruşuram: bu nədir belə, Şərəf Rəşidoviç, siz qonaqları necə qarşılayırsınız?..

Özbəklərin birinci şəxsi isə azərbaycanlı həmkarını göstərir:

– Bu kondisionerləri Bakıda hazırlayırlar, burada mənim günahım yoxdur. Qoy Əliyev özü cavab versin.

– Aha, – Brejnev gülür, – demək, bütün günah Əliyevdədir…

Heydər Əliyev izahat verməli olur:

– Buzovnada təyyarə avadanlığı istehsal edən zavod var. 1970-ci illərin əvvəlində orada kustar üsulla məişət kondisionerləri istehsalına başlanıb. Bu kondisionerlərdən, əsasən, respublikada istifadə olunur. Lakin onu Özbəkistana necə, hansı yolla, kimin göndərdiyini bilmirik.

Brejnev deyir:

– Hə, yoldaşlar, niyə biz əhalisinin yarısı cənub respublikalarında yaşayan ölkəmizdə məişət kondisionerlərinin istehsalını təşkil etməyək?

İdeyanı hamı müdafiə edir.

– Moskvaya qayıdan kimi zavodun inşasına başlamaq haqqında göstəriş verəcəyəm, – Baş katib vəd edir.

Heydər Əliyev isə məişət kondisionerləri zavodunun Azərbaycanda tikilməsinə icazə verməyi xahiş edir:

– Söz verirəm ki, zavodu qısa vaxtda tikib başa çatdırarıq.

– Yaxşı, bunu sonra müzakirə edərik, – Baş katib mövzunu yekunlaşdırır.

Brejnev zavod haqqında məsələni tezliklə Siyasi Büroya çıxarır. İşi hansı nazirliyə tapşırmağı fikirləşir. Bu barədə əvvəlcədən bir nümunə yox idi. Texnologiyanı heç kim bilmirdi. Nazirliklər bir-birinin ardınca bu “faydasız”

sifarişdən boyun qaçırır. Süründürməçilikdən xəbər tutan Baş katib tikintini Elektrotexnika Sənayesi Nazirliyinə tapşırır. Nazirliyin məmurları yaxşı götür-qoy edərək görürlər ki, öz gücləri ilə bu işi görə bilməyəcəklər, xaricdən texnologiya gətirmək lazımdır. MK-dan soruşurlar:

– Sizə nə qədər vəsait lazımdır?

– İyirmi beş milyon dollar.

Bu məbləğin buraxılması haqda qərar qəbul edilir. Ancaq nazir Antonov zavodu Dnepropetrovskda tikməyi qərara alır. Bunu bilən Heydər Əliyev Moskvaya uçur, Antonovun yanına gəlir. Sonra da bu seçimin səbəbini aydınlaşdırmaq üçün Kosıginin müavini Novikovun yanında olur. Ona gətirilən bəhanələr bundan ibarətdir: Bakıda müvafiq mühəndislərin və texniki kadrların olmaması, belə böyük tikintilərdə təcrübəsizliyə eyham və Baş katibin "qısa müddətə" əmri…

Əliyev bu bəhanələrin sadəcə "közü öz qarşısına çəkmək arzusu" olduğunu başa düşür.

Kosıginə müraciət etməklə işin düzələcəyinə arxayın olmaq olmaz. Qalır Brejnev. Baş katib "ünvanın dəyişdirilməsindən" xəbərsizdir. Görüşdə Brejnev soruşur:

– Hə, Heydər, sənin zavodunun işləri necədir, gedirmi?

Əliyev əllərini yana açır.

– Nə olub?

– Sizin nazirlər zavodu Dnepropetrovskda tikməyi qərara alıblar.

– Necə?.. – Baş katib telefonun dəstəyini götürür, Novikova zəng edib özbaşınalığa görə danlayır.

Novikov günahı nazir Antonovun üzərinə atır. Nazir vəziyyətin mürəkkəbliyini, cənub respublikasının guya texniki tavanasızlığını bəhanə gətirsə də, "ağzının payını alır". Brejnev deyir:

– Mən özüm Zaporojyedə işləmişəm, bilirəm; bu region zavodlarla həddindən çox doldurulub, orada yeni zavod tikməyə ehtiyac yoxdur. İkincisi, kondisionerə hamıdan çox cənub respublikalarının ehtiyacı var. Niyə kondisionerləri Zaporojyedən Bakıya, Tbilisiyə, yaxud Aşqabada daşıyaq? Bu, Bakıda daha ucuza başa gələr.

Bir ay keçir, iki ay keçir. Moskva susur. Heydər Əliyev yenidən paytaxta uçur. Məlum olur ki, Elektrotexnika Sənayesi Nazirliyinin nümayəndələri amerikalılarla, italyanlarla, almanlarla danışıq aparıblar, onlar birgə iş üçün yüz iyirmi-yüz əlli milyon dollar istəyiblər. Nazirlik isə cəmi iyirmi beş milyon ayırıb. Nəhayət, yapon firması "Toshiba" sifarişi doxsan milyon dollara yerinə yetirməyə razı olub. Həm də yaponlar avropalı və amerikalı həmkarlarından daha yaxşı işləyirlər. Qalır bu məbləğin Siyasi Büro vasitəsilə alınması. Lakin heç bir idarə buna razılıq vermir. Baybakov Kosıginə müraciət edir, lakin Baş nazir etiraz edir: "Artıq pulumuz yoxdur". Heydər Əliyev yenidən Baş katibə müraciət edir. O, bunu bilib əsəbiləşir və yüksək vəzifəli süründürməçilərin ünvanına narazılığını bildirir: "Elə bu gün təklif edin, – telefonla əmr edir, – qərar verəcəyik". Qısası, doxsan milyonu almaq mümkün olur…

1973-cü ilin ikinci yarısında Azərbaycanda məişət kondisionerləri zavodunun tikintisinə başlanır. 1975-ci ilin dekabrında zavod istismara verilir, eyni vaxtda üç yüz adam Yaponiyada təcrübə keçir, beş yüz nəfər Moskvanın, Leninqradın, Ukraynanın elektrotexnika müəssisələrində ixtisasını artırır.

Nadir müəssisənin açılışına həsr olunmuş mitinqdə Heydər Əliyev çıxış edir.

Brejnev inşaatçıları teleqramla təbrik edir. Bir neçə ildən sonra Heydər Əliyev Mozambikə səfəri zamanı ora-

da, daha sonra Koreyada, Vyetnamda, Anqolada... Bakı kondisionerlərini görür.

Azərbaycanın başçısının keçirdiyi qürur hissini təsəvvür etmək olar!

Zəhra Quliyeva xatırlayır ki, məişət kondisionerləri zavodunun işə düşməsini bütün Bakı bayram edirdi:

"Oftalmoloq kimi keçmiş İttifaqın müxtəlif şəhərlərində olarkən konfranslarda, qurultaylarda, xəstəxanalarda, operasiya otaqlarında Bakı kondisionerlərini görüb sevinc hissi duymuşam. Məndən dəfələrlə xahiş ediblər ki, bizim zavodun fəhlələrinə onların minnətdarlıqlarını çatdırım".

İndi zavod süjetindən hekayəmizin əsas mövzusuna körpü salmaq vaxtıdır. İş ondadır ki, qəhrəmanımızın gələcək elmi fəaliyyəti birbaşa bu nəhəng müəssisənin – yüz əlli beş min kvadratmetr sahəni tutan zavodun çoxminli işçilərinin sağlamlığı ilə bağlıdır. Əgər həkimliyinin birinci mərhələsində Zərifə Əliyevaya birbaşa traxomanın kökünün kəsilməsi uğrunda mübarizədə iştirak etmək və tədbirlər işləyib hazırlamaq lazım gəlmişdisə (bu işlər onun elmi məqalələrinin və namizədlik dissertasiyasının mövzusu olmuşdu), indi meydana böyük sosial və dövlət əhəmiyyətli yeni vəzifə çıxırdı. Bakı sənaye şəhəridir və peşə xəstəlikləri belə iri sənaye nəhəngləri üçün xarakterik haldır. Buna görə də yetmişinci illərdə Zərifə xanımın yolu Həkimləri Təkmilləşdirmə İnstitutuna yox, paytaxtın kimya müəssisələrinə düşür. O, aylarla, illərlə bu müəssisələrin işçiləri arasında olur. Yeni nəhəng tikinti obyekti – Bakı Məişət Kondisionerləri Zavodu tezliklə onun elmi araşdırmalarının və həmvətənlərinin sağlamlığının qorunmasına əməli töhfəsinin mərkəzinə çevrilir.

Deməliyik ki, əmək adamları, xüsusən gənclər çox vaxt adicə tənbəllik, ətalət üzündən profilaktiki tədbirlərə, müayinəyə, tövsiyələrə, oftalmoskop, fonendoskop və sair tibbi avadanlıqların hikmətinə məsuliyyətsiz, əsassız münasibət bəsləyirlər. Söhbət tibbi maarifləndirmə, zəruri tibbi biliklər, əməyin gigiyenası və s. haqqında gedir. Ortaboylu, ağ xalatlı mühazirəçi qadının təbii təvazökarlığını, gülümsər sifətini, xoş rəftarını görənlər onun məşhur bir ailəyə mənsub olduğunu, respublikanın birinci şəxsinin həyat yoldaşı olduğunu, bəlkə, ağıllarına belə gətirmirdilər. Hətta çoxları inanmırdı ki, belə bir adam səs-küylü sexləri gəzərək minlərlə adamın görmə qabiliyyətini yoxlamağa başlasın.

Amma o, kimya zavodlarını gəzdi, dəfələrlə şin zavoduna baş çəkdi, Sumqayıtdakı alüminium zavodunda, "Neftkimyaavtomat", superfosfat zavodlarında oldu.

Bu fəaliyyətinə Zərifə Əliyeva altı-yeddi il vaxt sərf elədi. Oftalmologiya sahəsində sensasiya yaradan monoqrafiyası – "Azərbaycanın bəzi kimya sənayesi müəssisələrində işləyənlərin görmə orqanının vəziyyəti" adlı kitab meydana gəldi. 1977-ci ildə Moskva Göz Xəstəlikləri ETİ-də bu nadir monoqrafiyanın müzakirəsi keçirildi və monoqrafiya doktorluq dissertasiyası kimi qəbul edildi.

Zərifə xanım layiq olduğu təbrikləri qəbul etdi:

– Bu mənim milli səhiyyədə ilk addımımdır. Əsas yol irəlidədir.

O, yaxşı bilirdi ki, neft-kimya sənayesinin sürətli inkişafı məşğul olduğu problemin əhəmiyyətini gündən-günə artırır. Axtarışlarını, tədqiqatlarını davam etdirdi, İttifaq və beynəlxalq miqyaslı nəşrlərdə məqalələri çap olundu, tədqiqatlarının nəticələri yeni monoqrafiyaların səhifələrini bəzədi.

Onun təşəbbüsü ilə Bakı Məişət Kondisionerləri Zavodunda xüsusi elmi laboratoriya yaradıldı. İstehsal mühitinin görmə orqanına təsirinin analizi nəticəsində bu laboratoriyada nadir material toplandı. Bu material təsirli profilaktiki tədbirlərin həyata keçirilməsinə imkan verdi.

Beləliklə, Zərifə xanıma doktorluq dərəcəsi qazandıran monoqrafiya milli tibbin bu sahədəki tərəqqisini göstərən yeni elmi kəşflər üçün meydan açdı.

Zərifə xanım öz əsərlərini "atasının ömrünün davamı" sayırdı.

Heydər Əliyevin həyat verdiyi zavodun həyat yoldaşının mühüm bir fəaliyyət sahəsi olması əlamətdar hadisədir. Zərifə xanımın buradakı laboratoriyada apardığı axtarışlar onun taleyində silinməz izlər qoydu.

Həmin illərdə Bakı Məişət Kondisionerləri Zavodunda istehsalat üzrə direktor müavini işləmiş **Məhərrəm Baxşəliyev** xatırlayır:

"Zavodun direktoru Sənan Axundov Moskvada idi. Azərbaycan KP MK-dan Həsən Seyidov mənə zəng elədi və dedi ki, Zərifə Əziz qızının istehsalat sahəsində göz xəstəliklərinin profilaktikasına həsr edilmiş doktorluq dissertasiyası İttifaq miqyasında rezonans yaradıb və o, axtarışlarını sizin zavodda açılacaq laboratoriyada davam etdirmək niyyətindədir.

Səhər saat 8:45-də zavodun qabağında maşın dayandı, Zərifə xanım gəlmişdi. Mənə yaxınlaşaraq mülayim səslə soruşdu:

– Yoldaş Baxşəliyev sizsiniz?

– Bəli, Zərifə xanım.

– Laboratoriya üçün hansı mərtəbədə, hansı otaqları ayırmaq olar?

Üç mərtəbədə zavod idarəsi yerləşirdi. Dördüncü, beşinci, altıncı mərtəbələrə baxdıq. O, altıncı mərtəbəni seçdi. Üç-dörd otağı göstərib öz təkliflərini dedi. Sonra əlavə elədi: "Sabah gəlib sizə deyəcəklər hansı otağı hansı rəngdə rəngləmək lazımdır. Mən sizdən xahiş edirəm, qoy təmtəraqlı təmir eləməsinlər. İsrafçılıq lazım deyil".

Etiraf edim ki, Heydər Əliyev kimi böyük vəzifəli şəxsin həyat yoldaşından qəti göstərişlər eşitməyi gözləyirdik. Onun sadəliyi, mehriban müraciəti, iddiasız olması, hamıya şəfqətli münasibəti bizi heyran qoymuşdu. Başa düşdük ki, Heydər Əlirza oğlunun sadiq həyat arxadaşı elə belə də olmalıdır.

Mən laboratoriyanın normal fəaliyyət göstərməsi üçün şərait yaratmaq haqda düşünürdüm. Fikirləşdim ki, zavodun 8 min 500 nəfər işçisinin içərisində hər cür xasiyyətdə adam var. Əsas girişlər və dəhlizlər tez-tez adamlarla dolu olur və hamını izləyə bilmirsən. Buna görə də birinci mərtəbədə ayrıca giriş yolu olan otaqları laboratoriya üçün ayırmağı daha məqsədəmüvafiq bildim. Öz fikrimi MK-ya bildirdim, sonra Moskvaya, Sənan Axundova zəng elədim. O mənə bütün işləri kənara qoyub diqqəti laboratoriyaya verməyi tapşırdı.

Mənim variantımı Zərifə Əziz qızına xəbər verdilər və o, qardaşı Tamerlan Əliyevlə yenidən zavoda gəldi. Binaya, şəraitə baxdı və hər şey onun çox xoşuna gəldi. Yüngül kosmetik təmirdən sonra laboratoriya öz fəaliyyətinə başladı".

O, beş il ərzində 1.281 nəfər üzərində kliniki müşahidə apararaq tədqiqatları ilə oftalmologiya elminə yenilik gətirdi. Bakıda məişət kondisionerləri zavodunda yaratdığı laboratoriya, demək olar ki, onun ikinci iş yeri idi. Burada apardığı tədqiqatlar daha çox səmərə

verirdi. Müəssisədə çalışanlar arasında qadınlar çoxluq təşkil etdiyindən daha artıq diqqət tələb olunurdu. Zərifə xanım yaxşı başa düşürdü ki, istehsalatda çalışan qadınlar həm də ana kimi ailənin qayğısını çəkməli, cəmiyyət üçün layiqli övlad yetişdirib, tərbiyə etməlidir. Bunun üçün isə qadın fiziki cəhətdən sağlam olmalıdır. Sadə, xeyirxah insan kimi həkimlik fəaliyyətinə vətəndaş mövqeyindən yanaşan Zərifə xanım çalışdığı kollektivdə olduğu kimi, zavodda işləyən qadınların da hamisi idi. O, diqqət çəkmədən hər kəsin problemləri, ailə vəziyyəti, yaşayış tərzi ilə maraqlanır, onlara yardım göstərirdi. Kiminsə dərdinə şərik olduğu, tələbatını, ehtiyacını ödədiyi günü həyatının mənalı anları hesab edirdi.

Tibb elmləri doktoru, professor **Nazim Tağızadə**nin xatirələrindən:

"Zərifə Əliyeva mənim taleyimdə böyük rol oynayıb. Bizim tanışlığımız 1978-ci ildə, mən internaturanı qurtarıb Respublika Kliniki Xəstəxanasının Reanimasiya şöbəsində işləyəndə başlayıb. Bir gün şöbə müdiri məni çağırdı: "Göz xəstəlikləri şöbəsinin müdiri professor Zərifə xanım sizinlə söhbət etmək istəyir". Mən səhəri gün müəyyənləşdirilmiş vaxtda Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru akademik M.Cavadzadənin yanına gəldim. Kabinetə keçdim. Direktor məni Zərifə xanıma təqdim etdi. O dedi ki, göz xəstəlikləri üzrə elmi-tədqiqat laboratoriyası təşkil edir və məni bura işə dəvət edir. Təklif gözlənilməz oldu. Mən öz gələcək peşəmi reanimatoloq kimi təsəvvür edirdim. Lakin Zərifə xanım bildirdi ki, artıq bir ildən çoxdur işimi izləyir və hesab edir ki, mən elmi-tədqiqat fəaliyyətinə meyilliyəm. Buna görə o mənə fikirləşmək üçün vaxt verdi.

Biz tezliklə yenə görüşdük və mən razılığımı verdim. 1978-ci ilin oktyabrında Görmə fiziologiyası və peşə xəstəlikləri laboratoriyasında işə qəbul olundum. Beləliklə, mən Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun laboratoriyasının Bakı Məişət Kondisionerləri Zavodunun nəzdindəki şöbəsində işə başladım. Məndən başqa bura həkim S.Talışinskayanı da işə qəbul etdilər.

Zərifə Əziz qızı ilə zavoda ilk gəlişimiz zamanı bizə bir neçə boş otaq göstərdilər. Təxminən yarım il ərzində laboratoriyanı ən müasir cihazlarla təchiz etdik.

Zərifə Əliyeva bura həmçinin elmlər doktoru M.Sultanovu (baş elmi işçi) və T.Mirzəyevi (kiçik elmi işçi) də işə dəvət etdi. Bundan əlavə, iki laborant da götürdü. Sistemli iş başladı. Aydındır ki, bu işi Zərifə Əziz qızı koordinasiya edirdi. Xatirimdədir, o vaxt çoxları bu fəaliyyətin effektivliyinə şübhə edirdi: bu qədər müasir avadanlığı olan zavodda insanların sağlamlığına nə təsir edə bilər? Lakin Zərifə xanım inanırdı ki, kimyəvi maddələrdən istifadə olunan bütün müəssisələrdə bu maddələrin insan sağlamlığına təsiri labüddür. Zərifə xanım bu qənaətə daha əvvəl Bakının istehsal müəssisələrində apardığı tədqiqatlar nəticəsində gəlmişdi.

Zərifə xanım əvvəlcə işçilərin şikayətlərinin qeyd edildiyi diaqnostik xəritəni hazırlayırdı. Onda göz diaqnostikasının bütün müasir metodları verilirdi və mütəxəssislərin elmi tədqiqatlarının nəticələri şərh olunurdu.

Bizim peşəkar kimi yetişməyimizə Zərifə xanım xüsusi fikir verirdi. Biz kafedrada ixtisasartırma kursları keçirdik. Onun mühazirələri məzmunluğuna, məsələyə müfəssəl yanaşmasına görə digərlərindən çox fərqlənirdi. Mən indi də mühazirə oxuyanda gözümün qabağında müəllimimin pedaqoji üsulu canlanır. O vaxt onun

laboratoriyasında diaqnostikanın ən müasir üsulları tətbiq olunurdu. Zərifə xanım bizi vaxtaşırı Moskvanın, Leninqradın, Odessanın və digər şəhərlərin oftalmologiya mərkəzlərinə ezamiyyətə göndərirdi. Biz həmkarlarımızın təcrübəsini öyrənir və öz işimizdə bu təcrübədən istifadə edirdik.

Zərifə Əziz qızı hər dəfə görülmüş işləri təhlil edirdi, nöqsanların aradan qaldırılmasına və effektivliyin yüksəldilməsinə kömək göstərirdi. Vaxtilə onun təşəbbüsü ilə xüsusi cərrahiyyə şöbəsi yaradılmışdı. Burada təkcə bizim zavodun işçiləri yox, qonşu müəssisələrin işçiləri də müalicə olunurdu. Xəstələri xüsusi otaqda müəyyən adaptasiyadan – uyğunlaşmadan sonra evə buraxırdıq. O vaxt ambulatoriya şəraitində müalicənin təşkili özlüyündə mütərəqqi yenilik idi. Bu gün göz xəstəlikləri bu cür üsulla müalicə olunur".

Tibb elmləri doktoru, professor Rasim Hacıyev danışır:

"Mənim Zərifə xanımla tanışlığım Bakı Məişət Kondisionerləri Zavodu nəzdindəki laboratoriyada oldu. O, bu sahədə işləyən mütəxəssislərlə maraqlanırdı, tanışları vasitəsilə onları soruşub öyrənirdi. Məni yanına dəvət etdi. Söhbət elədi, görünür, mən sınaqdan keçə bilmişəm, işə qəbul elədi. Bir müddətdən sonra elmi axtarışa marağımı nəzərə alıb mənə mövzu təklif etdi: "Göz almasında diabetik retinopatiya". Mövzu məni maraqlandırdı və Zərifə xanım mənim elmi rəhbərim oldu. Onda bizim kafedra 4 nömrəli şəhər xəstəxanasında yerləşirdi. Zərifə xanım mənə qayğı göstərməyi, oftalmologiyanın incəliklərini öyrətməyi təcrübəli həkimlərə tapşırdı. Mən zavoddakı laboratoriyada diaqnostika fəaliyyətini davam etdirərək elmi işim üçün material topladım. Nəhayət, 1982-ci ildə "Azərbaycan Tibb Jurnalı"nda akademik Zərifə xanım

Əliyeva ilə şərikli məqaləmiz – "Yaxıngörmədə diabetik retinopatiyanın inkişafının yavaşlamasında şüşəyəbənzər cismin rolu" çap olundu. Qeyd edim ki, diabetik retinopatiya oftalmologiyanın ən mühüm problemlərindən biridir. Onun əlamətləri damarlarda pozulma şəklində özünü göstərir və kor olmağa gətirib çıxarır. Adıçəkilən dissertasiya mövzusunun müəllifi Zərifə Əliyeva idi. Bu əsər çoxsaylı təcrübə və axtarışların məhsulu idi. Sonralar Moskva nəşrlərində ("Oftalmologiya Xəbərləri"ndə), xarici mətbuatda Zərifə Əliyeva ilə şərikli məqalələrlə çıxış etmək şərəfi mənə nəsib oldu.

Gələcəyi görmək bacarığı ona çox kömək edirdi. O, istedadlı elm fədaisi idi, səriştəli kadrların hazırlanmasına köməklik göstərir, respublikada elmi kadrlara əvəz hazırlanmasına, həmkarlarının normal fəaliyyət göstərə bilməsi üçün yüksək texnologiyanın əldə edilməsinə və laboratoriyaların bu texnologiya ilə təchiz olunmasına çalışırdı.

Dəfələrlə bizim iş otağımıza onun adından tort, pirojna, müxtəlif şirələr gətiriblər. Zərifə xanım bizə analıq qayğısı göstərirdi, biz də öz sevincimizi və dərdimizi onunla bölüşürdük. O öz məsləhətləri ilə təkcə bizə yox, ona müraciət edənlərin hamısına köməklik göstərirdi. Bacardığı hər şeyi edirdi".

Məhərrəm Baxşəliyev söhbətinə davam edir:

"Hərdənbir zəng edirdi: "Yoldaş Baxşəliyev, sizin mənə dəyməyə vaxtınız olarmı?" Demək, ona istehsal prosesləri haqqında məlumat lazımdır.

Bir dəfə mən dedim: "Özünüzə telefonla zəhmət verməyin. İşçilərdən birinə deyin, mən o dəqiqə gələrəm". O dedi: "Sizin həddən çox işiniz var, nəhəng kollektivdə işləmək asan deyil, vaxtınız güclə çatır. Ona görə istərdim ki, sizin üçün münasib vaxtda gələsiniz".

Bir dəfə mən qəribə bir hadisə barədə eşitdim: Mustafa adlı cavan bir işçi həkimin qəbulunda növbə gözləyir. Qəbul edən həkimin Zərifə Əliyeva, Heydər Əliyevin həyat yoldaşı olduğunu bilən kimi elə qorxub qaçır ki, izi də qalmır… Əlbəttə, belə hallar nadir olurdu. Amma diaqnostikadan keçənlərin hamısı bir-birinə deyirdi ki, həyəcanlanmağa dəyməz, bu xanım çox alicənab insandır.

Bir müddət sonra mən başqa zavoda direktor təyin olundum. Onunla salamatlaşmağa gəldim. O məni xeyir-dua ilə yola saldı, uğurlar arzuladı, öz telefonunu verdi: “Bir şey lazım olsa, zəng elə, utanma”.

Çox sonra biz 4 nömrəli klinikada görüşdük. Dərhal tanıdı, əlini uzatdı: “Yoldaş Baxşəliyev, necəsiniz?” Mən təşəkkür etdim. Qısaca söhbət elədik. Zərifə xanımın xatirəsi unudulmazdır”.

Rusiya Tibb Elmləri Akademiyasının akademiki, tibb elmləri doktoru, professor, Diplomdan Sonrakı Tibbi Təhsil Akademiyasının kafedra müdiri **Alevtina Brovkina** Zərifə xanım Əliyevanın 90 illiyinə həsr olunmuş gecədə çıxışı zamanı o günləri belə yada salırdı:

“...Bu gün Zərifə xanımın elmə töhfələri haqqında çox danışdıq, amma nədənsə kiçik bir nüansı nəzərdən qaçırdıq. Həmin uzaq sovet dövründə Bakıda məişət kondisionerləri zavodu var idi. Zərifə xanım həmin müəssisədə işləyən pasiyentlərdə müşahidə olunan bəzi oftalmoloji simptomlara diqqət yetirmişdi. Təsadüfi deyildir ki, o vaxt Zərifə Əziz qızı göz yaşı ifrazının pozulması, göz yaşı ifraz edən orqanların xəstəlikləri məsələləri ilə məşğul olmağa başlamışdı. Uzun müddət belə halların mahiyyətini və səbəblərini anlamaq qeyri-mümkün idi. Biz yalnız bu gün bilirik ki, quru göz sindromu deyilən bir əlamət vardır. O illərdə isə bu haqda heç nə eşitməmişdik. Amma bu, alimin öncəgörmə qabiliyyətidir. Bu

keyfiyyət məhz istənilən istiqamətdə yaradıcılıqla işləyən insanlara xasdır...”

Sonra Alevtina Brovkina akademik Zərifə Əliyevanın Göz Xəstəlikləri İnstitutunun fəaliyyətinə verdiyi önəmi vurğulayaraq dedi:

“Bu səfərimdə, bu gün buraya gələndə institutu gördüm. Bilirsinizmi, Zərifə Əziz qızı haqqında keçmiş zamanda danışmaq istəməzdim. O, yenə vardır, orada, Oftalmologiya İnstitutundadır! Bu, çox mühüm məqamdır...”

Jurnalist **Telman Qafar**:

“Mən onun haqqında çox eşitmişdim. Hətta dünya işığını özlərinə qaytardıqları adamların Zərifə xanıma necə dua elədiklərini də görmüşdüm. Lakin jurnalist kimi mənə onunla görüşüb söhbət eləmək qismət olmamışdı. Mən Azərbaycan Televiziyasının “Xəbərlər” proqramında işləyirdim. Bir dəfə eşitdim ki, Zərifə xanım Bakı Məişət Kondisionerləri Zavodunda peşəylə bağlı görmə patologiyasını öyrənən təzə laboratoriya açıb. Bu, keçmiş SSRİ-də ilk belə laboratoriya idi. Kinooperatorla birlikdə zavodda olduq. Gördük ki, burada elmi axtarışlarla bərabər, görmədən şikayət edən xəstələri müalicə də edirlər. Laboratoriyanın rəhbəri Zərifə xanım bizi elə mehriban qarşıladı ki, elə bil, bizim doğma anamız, yaxud bacımız idi. Biz gəlişimizin məqsədini bildirdik: yenilik haqqında müsahibə almaq istəyirdik. O gülümsədi: “Günortadı, əvvəlcə nahar edin, laboratoriya haqqında sonra danışarıq”. İşçilərdən bir nəfəri çağırdı və o, bizi zavodun yeməkxanasına apardı. Bizdən pul götürmədilər. Yeməkxananın müdiri iki dəfə stolumuza gələrək bir şey lazım olub-olmadığını soruşdu…

“Biz müsahibə almağa hazırıq” dedik. Ancaq Zərifə xanımın təxirəsalınmaz işi çıxdı: “Bu dəfə müsahibə-

ni təxirə salırıq, gələn dəfə ola bilər…" Biz təkid etdik, əfsus ki, nəticəsi olmadı. Onda mən axırıncı, bir qədər sentimental dəlilə əl atdım: "Zərifə xanım, sizin babanız Məmmədkərim kişi İrəvanda, Dalma məhəlləsində mənim babamla qonşu olub… Olar…"

O, sözümü kəsdi: "Yox, baxarıq… Başqa dəfə…" Bu uğursuz cəhdlərdən sonra inamımı gələcəyə bağladım. Tezliklə Bakıda oftalmologiya üzrə beynəlxalq konfrans keçirildi. Yenidən cəhd etdim. Əfsus, müsahibə almaq tək mənə yox, Mərkəzi televiziyanın müxbirlərinə də qismət olmadı. Televiziya işçiləriylə çox nəzakətlə rəftar etməsinə baxmayaraq, Zərifə xanım ekranda görünmək istəmirdi…"

Tanınmış jurnalist **Svetlana Nəcəfova** "Riqqətverici xatirə" məqaləsində yazır:

"Mən növbəti nömrə üçün materialları hazırlayırdım. Telefon zəngi məni işdən ayırdı. Dəstəyi qaldıran kimi onun səsini tanıdım.

– Necəsiniz, – mən onu qabaqladım. – Sevil, İlham necədir?

– Çox sağ olun, – mehribanlıqla cavab verdi. – Bəs sizin qızlarınız necədir? – Qısa pauzadan sonra dedi: – Bir şey xahiş etmək istəyirəm. Əgər mümkünsə, məni tərifləməyin. Və qabaqcadan deyim ki, mənim şəklimi jurnalın üz qabığında verməyin. Bu nəyə lazımdır?

Mən etiraz edib dedim ki, sizin oftalmologiyanın inkişafındakı xidmətləriniz hamıya məlumdur. Jurnalın üz qabığındakı şəklə gəldikdə, burada nöqsanlı bir şey yoxdur, respublikamızın tanınmış qadınlarının fotoşəklini nəşr etmək jurnalımızın köhnə ənənəsidir.

Uzun bir pauza oldu. Mənə elə gəldi ki, onu inandıra bilmişəm. Lakin səhv edirdim. O, çox mülayim bir səslə dediyinin üstündə durdu:

– Siz mənə qulaq asın. Belə lazımdır. – Sonra əlavə elədi: – Onda siz haçan vaxt tapsanız, gəlin görüşək və fotoşəkilləri birlikdə seçək.

Elə həmin gün mənim üçün maşın göndərdi. Onun evində görüşdük. Bizim fotomüxbirin çəkdiyi, redaksiyanın bəyəndiyi və çap üçün hazırladığı şəkillərdən ancaq ikisinin çapına razılıq verdi. Bizim şöbənin işçiləri ilə birlikdə çəkilmiş şəkillərdən bir neçəsini seçib mənə yadigar verdi.

...Bu mənim professor Zərifə Əziz qızı Əliyeva ilə üçüncü və son görüşüm oldu.

Birinci görüşümüz bir müddət bundan qabaq, 4 nömrəli klinikanın göz şöbəsində olmuşdu...

Onda mən "Azərbaycan qadını" jurnalında işləyirdim. Jurnalın baş redaktoru Xalidə Hasilova Zərifə xanımı çox dilə tutmalı oldu. Bilirəm ki, onun razılığı böyük zəhmətlə alındı.

...Mən bilmirdim necə başlayım. Həyəcanımı hiss edib özü kömək elədi. İlk sualı özü verdi:

– Siz jurnalda çoxdan işləyirsiniz?

Sonra mənim neçə uşağım olduğu, onların yaşı ilə maraqlandı, ərimin ixtisasını soruşdu. Aramızda isti, etibarlı münasibətin necə yarandığını mən heç hiss eləmədim. İşlə bağlı söhbət ailə qayğıları, uşaqları böyütməyin necə çətin olması, bir sözlə, qadınların söhbətləşə biləcəyi hər mövzuyla növbələşməyə başladı. Onda mən istədim ki, onun şəxsi həyatı, ailə qurduqları ilk illərin çətinlikləri, qayğıları haqda bir-iki qeyd eləyim. O, əlini sakitcə əlimin üstünə qoyub dedi: "Bu, lazım deyil. Kimin çətinlikləri olmayıb?"

Yadımdadır, Sevil xəstələnmişdi və Zərifə xanım çox narahat idi. "Gənclər öz sağlamlıqlarına fikir vermirlər", – deyə gileyləndi. Sonra üzr istəyərək evə zəng

etdi. Sevili soruşdu, vəziyyətinin yaxşılığa doğru getdiyini bilərək bir qədər sakitləşdi.

...Laboratoriya haqqında (zavoddakı laboratoriya – *H.M.*) vurğunluqla danışırdı. Hiss olunurdu ki, təkcə böyük əmək sərf etməklə qalmadığı, həm də ürəyini verdiyi bu laboratoriya onun iftixarıdır. Tez-tez orada olmağı təklif edərdi. Şərtləşdik ki, iki gündən sonra bir yerdə kondisionerlər zavoduna gedək. Düz vaxtında müəyyən olunmuş yerdə görüşdük. Fotoqraf qabaqda, şoferlə yanaşı oturdu, biz arxa oturacaqda oturduq... Mən Sevilin səhhəti ilə maraqlandım. "Yaxşıdır, – dedi. – O məni çox qorxutdu. – Və gülümsəyərək əlavə elədi: – Əslində, qorxulu heç nə yox idi. Amma mən onların burnu axan kimi əsməyə başlayıram..." "Bütün analar belədir". Soruşdu ki, mən işə gedəndə uşaqları kimin yanında qoyuram. Dedim ki, uşaqlar böyükdü, artıq mənə də rahat olur.

...Səliqəli, elm və texnikanın son nailiyyətləri ilə təchiz edilmiş laboratoriyada bizi elmi əməkdaşlar Tahir Mirzəyev, Nazim Tağızadə qarşıladı. Zərifə xanım bizimlə söhbət edə-edə bəzi tapşırıqlarını verdi. Kiçik elmi işçi Svetlana Talışinskaya təkcə Azərbaycanda yox, bütün İttifaqda yeganə olan zavod haqqında bizə məlumat verməyə çalışdı. Laboratoriyanın əməkdaşları zavodun işçilərinə sistemli tibbi yardım göstərirdilər, bir il ərzində 1200 nəfər müayinədən keçmişdi... Buradaca – laboratoriya şəraitində profilaktika, müalicə – əməli yardım göstərilirdi.

Oçerkim "Azərbaycan qadını" jurnalında çap olundu. Zərifə xanım zəng edib mənə təşəkkürünü bildirdi, dedi ki, oçerk xoşuna gəlib. Etiraf edim ki, mən özüm müəllif kimi yazımdan elə də razı deyildim. Dəftərçəmdə apardığım maraqlı qeydlərin, səmimi və isti söhbəti-

mizin müqabilində oçerk mənə quru, rəsmi görünürdü. Üç görüşdə tanıdığım xeyirxahlıqla parlayan, səmimi və isti ünsiyyətli qadının yerinə quru, ciddi alim obrazı təqdim etmişdim. Nə etmək olardı?! Zərifə xanım özünün hər addımını, hər sözünü təkcə öz ləyaqət ölçüsüylə ölçmür, həyat yoldaşının yüksək mövqeyini də nəzərə alırdı. Buna görə də o, həyatının əhəmiyyətli anlarını bütün əzəməti, təfərrüatı ilə açan çoxlu faktın verilməsini rəva bilmədi…

Onun obrazını tamamlamaq üçün yenə şahidlərə müraciət edirik.

**Rafiq Qəmbərov** deyir ki, onun yaxın qohumu, klinikanın anesteziya və reanimasiya şöbəsində həkim işləyən Nazim Tağızadəni Zərifə Əliyeva ilə tale görüşdürmüşdü. Zərifə xanım gənc mütəxəssisi Bakı Məişət Kondisionerləri Zavodunda gözün fiziologiyası və peşə xəstəlikləri üzrə açdığı xüsusi laboratoriyaya dəvət etdi. Bu seçim Nazim Tağızadənin fəaliyyətinə verilən yüksək qiymət idi. Onun elmi tədqiqata daha çox meyil etməsinə əsaslanırdı. Seçimin doğruluğu gənc həkimin sonrakı elmi uğurları ilə parlaq şəkildə təsdiqini tapdı. Bu uğurlar Zərifə xanım Əliyevanın peşəkar təsiri və insanlıq qayğısı sayəsində qazanılmışdı. Nazim Tağızadə namizədlik, sonra doktorluq dissertasiyaları müdafiə etdi, professor oldu. Təəssüf ki, istedadlı alim həyatdan tez getdi – qırx doqquz yaşında…

R.Qəmbərov Nazimin öz müəllimi və rəhbəri haqqında necə hörmətlə, ehtiramla danışdığını xatırlayır. O, "Görmə nöqtələrinin və kanallarının cərrahi müalicəsi və patologiyası" adlı monoqrafiyasını Zərifə xanıma ithaf etmiş və üstündə belə yazmışdı:

"Əziz müəllimim və elmi rəhbərim Zərifə Əziz qızı Əliyevanın parlaq xatirəsinə həsr edirəm".

R.Qəmbərov danışır:

"O vaxtlar mən peşəkar kinooperator idim. Boş vaxtlarımda tez-tez bu laboratoriyaya (zavoddakı laboratoriyaya – *H.M.*) baş çəkirdim, Nazimin yanına gedirdim. İş təcrübəsi ilə, yeniliklərlə maraqlanırdım. Zərifə xanımın təşəbbüsü ilə zavodda xüsusi cərrahiyyə şöbəsi yaradılmışdı və orada zavod işçilərinin ambulator müalicəsi aparılırdı ki, bu özü proqressiv yenilik idi.

Mənə Zərifə Əziz qızı ilə şəxsən tanış olmaq şərəfi nəsib oldu. Rejissor Eldar Quliyev 1984-cü ildə "Gümüşgöl əfsanəsi" filmini çəkdi. Mən bu filmin quruluşçu operatoru idim. Filmə baxışdan sonra Eldar müəllim məni Zərifə xanım Əliyeva ilə tanış etdi. O, çox sadə, işıqlı insan idi və sadəliyində şəxsiyyətinin yüksəkliyi hiss olunurdu. Onun gözləri xeyirxahlıq və səmimiyyət işığı saçırdı. Zərifə xanım bizə təşəkkür etdi və dedi ki, bu iş onun çox xoşuna gəlib.

Mənim yaddaşımda dərin iz salmış bir tarixə diqqəti cəlb etmək istəyirəm. 1992-ci ilin payızı idi. Çox ağır dövr idi. Azərbaycanın ən yeni tarixinin məlum ictimai-siyasi hadisələri kinoxronika kadrları kimi sürətlə bir-birini əvəz edirdi. Bütün sahələrdə olduğu kimi, kino sənayesində də durğunluq hökm sürürdü. Dostum Tofiq İsmayılov mənə xəbər verdi ki, "Azərenerji" İŞ-in sifarişi ilə Azərbaycan energetikasının yubileyinə həsr olunmuş tammetrajlı film çəkməyə başlayıb və məni çəkilişə dəvət etdi. Razılaşdım. Həmin dövrdə bu sahəyə Müslüm İmanov rəhbərlik edirdi. Filmin çəkilişi ilə əlaqədar biz tez-tez onun yanında olurduq. O bizə Naxçıvana getməyi tövsiyə etdi. Deyirdi ki, bu sahəyə dərindən bələd olan iki adam varsa, onlardan biri Heydər Əliyevdir. Bu o dövr idi ki, Heydər Əliyev Moskvadan Naxçıvana qayıtmış və muxtar respublika Ali Məclisinin Sədri seçilmişdi.

Naxçıvan ağır blokada şəraitində yaşayırdı. Əhali arasında təşviş, ruh düşkünlüyü hiss olunurdu, ərzaq məhsulları, qaz, enerji çatışmırdı… Biz “Təbriz” mehmanxanasında yerləşdik… Axşamdan xeyli keçəndən sonra Heydər Əliyevlə görüşmək mümkün oldu. O, bizi gülərüzlə və mehribanlıqla qəbul etdi. Gəlişimizin məqsədini biləndə əvvəlcə tərəddüd etdi. Bizim taleyimiz haqqında nigarançılığını gizlətməyərək, “Sonra sizi incidərlər”, – dedi. Ancaq biz öz niyyətimizdə qaldıq. Nəhayət, o razılaşdı. Təxminən üç ay ərzində biz Naxçıvana gedib-gəldik. On beş gün çəkiliş aparırdıq, sonra Bakıya qayıdıb çəkilmiş materiallara baxır, yenidən Naxçıvana gedirdik. Deyim ki, əla film alındı və film indiyə kimi saxlanılır.

Bir dəfə çəkiliş arasındakı fasilədə mən filmimizin qəhrəmanına dedim: “Heydər Əliyeviç, mənim yaxın qohumum Zərifə xanımın ən yaxşı yetirmələrindən biri olub…” O, diqqətlə üzümə baxdı: “Kim?” “Nazim Tağızadə”. Heydər Əliyev bir neçə saniyə fikirləşdi: “Bəli… Zərifə xanım onu çox tərifləyirdi. Onlar iki nəfər idi, o birinin adı Rasim… Rasim Hacıyev idi. Bir dəfə Zərifə xanım mənə dedi ki, onun iki aspirantı var, onlara Moskvada, Göz Xəstəlikləri İnstitutunda müdafiə etməyə imkan vermirlər. Mən həmin institutun rektoruna zəng etdim. Məsələ dərhal həll olundu. Hər ikisi müdafiə elədi…”

Mən Heydər Əliyevin fenomenal yaddaşına heyran qaldım. On beş il qabaqkı hadisəni bütün təfərrüatı ilə xatırladı, Zərifə xanımın xahişi ilə kömək etdiyi aspirantların hətta ad və soyadlarını da unutmamışdı.

Zərifə xanım çox-çox insanın qəlbində dərin iz qoyub. Bəzilərinin taleyində parlaq rol oynadı, bəzilərinə elm sahəsində inkişafda kömək etdi, bəzilərinin də gözü-

nün işığını və gözünün işığıyla birlikdə həyat sevincini də qaytardı…"

Milli Məclisin deputatı, komitə sədri **Hadi Rəcəbli** xatırlayır:

"Lənkəranda bizim qonşuluğumuzda Talışxanovlar nəslindən olan Asəf müəllimin ailəsi yaşayırdı. Mənim xalam Mirxanım Asəf müəllimin həyat yoldaşı idi. Xoş iyun günlərindən birində bizim darvazamızın qabağında iki minik maşını dayandı. Maşınlardan birindən ucaboy, sərrast bədənli polkovnik və xoşsifət, ortaboy bir qadın düşdü. Bunlar o vaxt dövlət təhlükəsizlik orqanlarında məsul vəzifədə işləyən Heydər Əliyevlə həyat yoldaşı Zərifə xanım idi. O biri qonaqlar DTK-nın Lənkəran şöbəsinin rəisi Qasımov və onun həyat yoldaşı, Lənkərandakı 1 saylı məktəbin kimya müəllimi, Heydər Əliyevin bacısı Şəfiqə xanım idi. Biz, yerli uşaqlar gözlərimizi heyranlıqla igid zabitə zilləmişdik.

Həyat yoldaşını çox sevdiyi və onunla fəxr etdiyi hiss edilən Zərifə xanım Heydər Əliyevlə nə haqdasa qızğın söhbət edirdi. Mirxanım həkim o vaxta görə bahalı olan məxmər paltarda qonaqları qarşılamağa çıxdı.

1963-cü il idi. Bu gözəl cütlüyün səmimi, hərarətli münasibəti mənim – "əyalət"dən olan onuncu sinif şagirdinin yaddaşına əbədi həkk olundu…

Zərifə xanımı mən ikinci dəfə Bakıda, ovaxtkı Ali Partiya Məktəbində oxuyanda gördüm. Biz dinləyiciləri Bakı Məişət Kondisionerləri Zavoduna aparmışdılar ki, zavodun partiya təşkilatının işi ilə tanış olaq. Bizə partiya komitəsinin katibi Çingiz müəllim bələdçilik edirdi. Gündəliyə işçilərin sosial müdafiəsi məsələsi də daxil idi. Zavodda peşə xəstəliklərinin profilaktikasına böyük əhəmiyyət verilirdi. Fikir verdim ki, adamlar tibbi xidmət kabinetlərindən birinin qabağından nis-

bətən sakit və diqqətli keçirlər. Birdən qapı açıldı və qarşımda ağ xalatlı, mehriban baxışlı, gülərüzlü həmin qadın – on dörd il əvvəl gördüyüm xanım dayandı. Bu, Zərifə xanım idi. O, mənə köhnə tanış, doğma kimi göründü. Qeyri-iradi olaraq mən ona yaxınlaşdım və hörmətlə salam verdim. Salamımı mehribanlıqla aldığını eşitdim.

Sonralar öyrəndim ki, respublikanın rəhbəri Heydər Əliyevin həyat yoldaşı burada, bu zavodda göz xəstəlikləri ilə əlaqədar elmi axtarışlarla məşğul olur və zavod işçilərinin əmək şəraitinin yaxşılaşdırılmasına, sağlamlıqlarının qorunmasına fədakarlıqla xidmət edir. O, bir anlıq mənə nəzər salaraq dedi: "Mən sizi haradasa görmüşəm, sifətiniz mənə tanış gəlir…" Mən ona xeyli müddət əvvəl həyat yoldaşı ilə Lənkərana gəldiklərini, onları qonaq edən ev sahibinə qonşu kimi kömək etdiyimi xatırlatdım… Zərifə xanım çoxdankı hadisəni xeyirxah təbəssümlə xatırladı.

Qeyd edim ki, hörmətli Heydər Əliyev və onun ailəsi Lənkəran ellərini sevirdi. Bir dəfə respublika rəhbəri Lənkərana həyat yoldaşı Zərifə xanım və oğlu İlhamla gəlmişdi. O istədi ki, keçmişdəki – respublikanın ən yüksək vəzifəsinə təyin olunmamışdan əvvəlki vaxtlardakı kimi şəhərin küçələrini, parklarını gəzsin, ətraf meşəliklərə, gözəl mənzərələrə tamaşa eləsin, o yerlərin valehedici təbiətindən zövq alsın. Xanbulançayda katerlə gəzmək ona xüsusi ləzzət verirdi".

Biz indi milli-mənəvi dəyərlərimizin qorunması haqqında çox danışırıq, modeli dünya təcrübəsində axtarırıq, tariximizi, adət-ənənələrimizi təhlil edirik, ailənin özülü haqqında düşünürük… Halbuki bizim müasir həyata, Heydər və Zərifə Əliyevlər ailəsinə, onların qarşılıqlı münasibətinə, övladlarına və yaxınlarına, onların insan-

lara etdikləri xidmətə və vətənə məhəbbətlərinə baxdıqda dərk edirsən: məhz belə insanlar, belə ailələr bizim üçün parlaq nümunə, layiqli örnək ola bilər.

Ailə – müqəddəsdir. Ailə – əsasdır. Ailə – cəmiyyətin özülüdür. Ailənin ən etibarlı dayağı – ocağın qoruyucusu isə Zərifə xanım kimi həyat yoldaşı, Ana və məhəbbət simvoludur.

Lakin yuxarıda dediyimiz kimi, o, Heydər Əliyevin təkcə həyat yoldaşı yox, həm də silahdaşı, sirdaşı idi. Nə qədər yüksək vəzifə tutursan tut, insan hər zaman insandır. Onun da kiminləsə bölüşmək istədiyi sirlər olur. Ən yüksək vəzifə sahiblərinin də rejim tərəfindən izləndiyi sovet dövründə Heydər Əliyevin sirlərini etibar etdiyi, düşüncələrindəkiləri paylaşdığı ən etibarlı sirdaşı məhz Heydər Əliyev idi.

Sevil xanım Əliyeva Elmira Axundovanın "Heydər Əliyev: Şəxsiyyət və zaman" kitabında bunları xatırlayır: "Mən çoxdan, hələ 70-ci illərdə bilirdim ki, bizə nəzarət edirlər. Yadımdadır, ata-anamla Moskvaya gəlib mehmanxanada qalanda atam anama nəsə söyləmək istəyərkən onu vanna otağına aparıb su kranını açandan sonra danışardı".

Elmira Axundova yazır: "Əlbəttə ki, məişət məsələlərində Heydər Əliyev tam naşı, səriştəsiz idi. Uşaqlara, nəvələrə, böyük ailənin azuqəsinə, təsərrüfatın təşkilinə – bütün bunlara Zərifə xanım dəqiqliklə nəzarət edirdi. Bununla belə, MK-nın birinci katibi, yüksək vəzifəsinə baxmayaraq, mağazaları dolaşmağı, şəhərdə ticarətin necə getdiyini öz gözləri ilə görməyi xoşlayırdı. Xüsusilə də yetmişinci illərin sonu, səksəninci illərin əvvəllərində, ərzaq qıtlığı yarananda o, mağazalara daha tez-tez baş çəkirdi. Çox vaxt Heydər Əliyev mağazalara planlaşdırılmamış, qəfləti gedişlər də edir,

tabeliyində olanların “duyuq” düşməsinə, ayrı-ayrı qastronomlarda yalançı ərzaq bolluğu yaratmasına imkan vermirdi. “İşdən evə, “Gənclik” tərəfə gedirdik, – deyə Ümummilli liderin şəxsi mühafizəçisi Aleksandr İvanov danışır. – Marşrut “Azneft”dən keçir – Çkalov küçəsiylə üzüaşağı. Kommunist küçəsinə yaxınlaşırdıq, QAİ işçiləri Neftçilər prospekti boyu dayanıblar. Birdən Heydər Əliyev dedi: “Tolik, sola dön”. Qoşa qala qapıları tərəfdən Zevin küçəsinə döndük. O, yolboyu bütün mağazalara baş çəkdi. ...O, mağazalarda hər şeylə, qiymətlərlə, çeşidlərlə maraqlanırdı. Leytenant Şmidt küçəsində, 28 Aprel küçəsinin tinində məşhur ərzaq mağazası vardı. Mən həmişə bu hadisəni xatırlayıram. Heydər Əliyeviç piştaxtaya yaxınlaşdı. Orada Tambovda hazırlanmış iştahaçan qaxac bud qoyulmuşdu. Heydər Əliyev məndən soruşdu: “Saşa, pulun var?”. Daxili işlər naziri Cəfər Vəliyev məndən qabaq cavab verdi ki, “var”. “Mən səndən soruşuram, Saşa, pulun var? Bir kiloqram qaxac edilmiş bud al”. Satıcı qız böyük bir parça çəkdi. Mən kassaya yaxınlaşdım – 3 manat 70 qəpik. Sonra daha hansısa mağazaya baş çəkəndən sonra iqamətgaha gəldik. Həmişəki kimi, Zərifə Əzizovna onu qarşıladı. “Zarişa, – deyə Heydər Əliyev gülümsündü, – bax, sənə necə hədiyyə almışam!”

Ümummilli lider özü deyirdi:

“Mənim işim ağır və çətin idi, lakin şəxsi həyatım çox rahat idi. Həyat yoldaşım yüksək mənəviyyatlı insan idi və məni başa düşürdü. Mən onu çox sevirdim. O, həkimlik oxumuşdu, göz xəstəlikləri üzrə professor oldu. O, həyatda mənim ən böyük, ən müdrik dayağım idi. 1985-ci ildə o, Moskvada vəfat etdi. Onun ölümü məni dərindən sarsıtdı. Sonra mən infarkt keçirdim və uzun müddət xəstəxanada yatdım”.

**Sevil Əliyeva**nın öz anası haqqında danışdıqlarından:

“Bilirsiniz, o, qeyri-adi dərəcədə təvazökar idi. Hətta Lenin adına saraydakı rəsmi tədbirlərə anam az qala hamıdan tez, zal yarıboş olanda gələrdi, zalın dolu olduğu vaxtlarda isə foyedən yuxarı qalxar və oradan öz yerlərimizə düşərdik.

O, bəzi nazir arvadları kimi qəsdən gecikib, aşağıdan yuxarıyadək bütün zalı təntənə ilə keçib özünü nümayiş etdirməzdi. Həmişə mühafizəçidən xahiş edərdi: “Televiziya işçilərinə xəbərdarlıq edin ki, bizi çəkməsinlər”. Atamın tədbirlərə anamla birgə getməsinə gəldikdə isə, bu, atamın ona böyük məhəbbəti ilə bağlı idi. Atam onsuz yaşaya bilmirdi…

Anam uşaqlara, ailəyə çox bağlı idi. Bu, onun üçün həmişə birinci yerdə dururdu. Atam bilirdi ki, anamın böyük elmi potensialı, qabiliyyəti var. Buna görə də onun irəli getməsinə çalışırdı. Yadımdadır, gecə biz hamımız yatandan sonra anam öz elmi işini, məqalələrini, monoqrafiyalarını yazmaq üçün masa arxasında əyləşərdi.

Biz Moskvaya gedəndə o, həmişə həmkarları ilə – oftalmoloqlarla görüşərdi. O, təbrik nitqlərinə meyilli deyildi, məşhurlaşmaq, başqalarından seçilmək arzusu yox idi. Nail olduğu hər şey gərgin elmi axtarışların və böyük zəhmətin nəticəsiydi. Onun imkanlarını bilən atam icazə verə bilməzdi ki, bu potensial gerçəkləşməmiş, istifadəsiz qalsın. Siz fikir ayrılıqları, mübahisələr haqqında bilmək istəyirsiniz. Onların mübahisələri məhz bundan ötrü idi: atam deyirdi ki, dayanmaq olmaz, tədqiqatları davam etdirmək lazımdır. O, anamı həmişə buna ruhlandırırdı”.

Respublika parlamentinin deputatı, vaxtilə Azərbaycan KP MK-nın birinci katibinin referenti olmuş **Mixail Zabelin**in müəllifə dediklərindən:

“Ümumiyyətlə, Zərifə Əzizovna qeyri-adi insan idi. Elə vaxt olurdu ki, mən gündə beş-altı dəfə onunla telefonda danışırdım. Heydər Əliyeviç nadir hallarda onu evlə calaşdırmağı xahiş edərdi, Zərifə xanım özü tez-tez zəng edərdi. “Heydər Əliyeviç gəldi?” “Bəli, gəldi”, – mən cavab verirdim. “O necədir?” “Hər şey yaxşıdır”. “Saat on birdə ona dərman və yerkökü şirəsi verməyi unutmayın”. “Unutmaram, Zərifə Əzizovna”. Heydər Əliyeviç bir stəkan şirə içib, saat on birdə dərmanını qəbul edərdi. Bir azdan Zərifə Əzizovna yenidən zəng edərdi: “Qoy orada nahar eləməsin, mən buğda bişmiş kotlet hazırlamışam, göndərirəm, qoy yesin”. Bir azdan yenə nə üçünsə zəng edirdi. Bir sözlə, daim həyat yoldaşının qayğısına qalırdı, onun üçün narahat olurdu. Belə vəziyyət o zümrədən olan kişilərin əksəriyyətini əsəbiləşdirə bilərdi. Lakin Heydər Əliyeviçi belə qayğı əsəbiləşdirmirdi, əksinə, onun xoşuna gəlirdi. Ona görə ki, o, həyat yoldaşını çox sevirdi”.

**Lidiya Rəsulova** Musiqili Komediya Teatrında Rauf Hacıyevin “Yol ayrıcında” operettasının premyerası zamanı Zərifə Əliyevadan eşitdiyi qəribə bir hadisəni yada salır:

“Başda MK-nın birinci katibi olmaqla, bütün büro üzvləri operettaya baxmağa gəlmişdilər. Zərifə xanım danışdı ki, bir dəfə o, Moskvada olan uşaqlarına baş çəkmək qərarına gəlir, geriyə qayıdarkən Tsviqun ona öz xidməti təyyarəsində uçmağı təklif edir. Yenicə havaya qalxanda təyyarədə qüsur meydana çıxır: şassi kilidlənib, yığılmayıb. Ekipajın komandiri elan edib ki, problem var. Yanacağı sərf eləyib qurtarmamış yerə enmək riskli imiş. Əvvəlcə sərnişinlərə heç nə deməyiblər. Lakin onlar illüminatora baxıb başa düşüblər ki, təyyarə havada dövrə vurur. Zərifə xanımın dediyinə görə, o, enmə zolağının

yaxınlığında yanğınsöndürən və təcili yardım maşınları görür. Fikirləşir ki, hər saniyə nəsə qorxulu bir şey ola bilər. Həmin dəqiqələrdə ona ancaq bir fikir hakim kəsilir: bu haqda Heydər Əliyevə necə məlumat verirlər? O, bu xəbərə necə tab gətirəcək?"

Lidiya Rəsulova şərh edir:

"Belə ağır şəraitdə qadın özü haqqında düşünmür, ehtimal daxilində olan itkiyə həyat yoldaşı necə dözər, – o haqda düşünür…"

Heydər Əliyevin mühafizə dəstəsinin rəisi Aleksandr İvanov Zərifə xanımla birgə o başıbəlalı təyyarədə olub və bu qadının son dərəcə gözəl keyfiyyətini heyranlıqla xatırlayır:

"Təyyarə ilə bağlı hadisə baş verən zaman Heydər Əliyeviç hələ MK-nın birinci katibi idi. Bir dəfə səhər biz üzgüçülük hovuzundan öz kottecimizə qayıdırdıq. Heydər Əliyeviç mənə dedi: "Saşa, sən Zərifə Əzizovna ilə qayıtmaqdan ötrü bu gün Moskvaya uçacaqsan". Belə hallarda bəzi tədbirlər görmək lazım olur: təyyarənin, pilotların attestasiyası və s. Mən Moskvaya zəng etdim, özüm üçün bilet sifariş verdim, nahardan sonra yola düşdüm. Moskvada məni Yuri Kamayev qarşıladı, mehmanxanada yerləşdirdi və bizim üçün bilet sifariş verdi. Axşam mənə Zərifə Əzizovna zəng vurub xəbər verdi ki, "atamız" (biz öz aramızda Heydər Əliyeviçə belə deyirdik) məlumat verib ki, Bakıya Tsviqunla birlikdə, DTK-nın xətti ilə müşavirədə iştirak etmək üçün göndərilən xüsusi reyslə qayıdacaqlar. Mənim əlimdə isə adi reysə iki bilet vardı və təyyarənin ekipajı bizim tərəfimizdən attestasiyadan keçirilmişdi.

Heydər Əliyevin özünün şəxsi təyyarəsi yox idi, heç bir Siyasi Büro üzvünün də belə təyyarəsi yox idi. O vaxt Siyasi Büro üzvlərinə və üzvlüyə namizədlərə, xarici

dövlət başçılarına xidmət edən xüsusi “55-ci aviadəstə” vardı.

Sözün qısası, axşam “atamız”a zəng eləyib dedi ki, biz “Vnukovo-1”dən Tsviqunla birlikdə çıxacağıq. Zərifə Əzizovna Tsviqunla yanaşı əyləşdi, mən onun iki mühafizəçi zabitindən azca aralıda oturdum. Reysdə biz cəmi 5 nəfər idik. Havaya qalxdıq, stüardessa yaxınlaşdı, karamel konfeti payladı. Birdən şassidən qəribə səslər gəlməyə başladı. Mən tez-tez təyyarə ilə səfər etdiyimdən bu səs xoşuma gəlmədi. Ancaq heç kimi narahat etməmək üçün səsimi çıxarmadım, susdum. Mən Tsviqunun mühafizəçilərini tanıyırdım, amma onlarla yaxın münasibətim yox idi. Gözümün ucu ilə illüminatordan baxanda gördüm ki, dövrə vura-vura qalmışıq, heç cür yuxarı qalxa bilmirik.

Təyyarə üçüncü dəfə dövrə vuranda Tsviqun əmr elədi: “Öyrənin görüm təyyarəyə nə olub?” Onun mühafizəçisi nə olduğunu öyrənməyə getdi, rəngi ağarmış qayıtdı: “Uşaqlar, nə isə baş verib, stüardessa ağlayır, ekipaj isə qapını bağlayıb, açmır”. Zərifə Əzizovna bunu eşidib dərhal mənim yanımda oturdu, hiss olunurdu ki, narahatdır. Soruşdu: “Nə olub?” Dedim: “Heç nə, hər şey qaydasındadır, indi qalxırıq…” Hara qalxırıq? Təyyarə yenə aşağı endi. Beləcə, beş dəfə qalxıb-endik. Sonra öyrəndik ki, bu yolla yanacağı yandırırlar. Enmə zolağının ətrafına yanğınsöndürən, təcili yardım maşınları yaxınlaşmışdı. Zərifə Əzizovna əlimdən tutdu, təsəvvür edin ki, özü haqqında bir kəlmə də demədi: “Əgər Heydər Əliyeviç və İlham eşitsələr, necə olacaq? Bu xəbəri necə qarşılayacaqlar?” Zərifə Əzizovna həmişə özü haqqında hamıdan az fikirləşirdi”.

Görkəmli rəssam **Tahir Salahov** Əliyevlər ailəsinin çoxdankı dostları sırasındadır. Onunla görüşəndə so-

ruşdum ki, Zərifə xanımla Heydər Əlirza oğlunun münasibətləri haqqında nə deyə bilər? Tahir Salahov cavab verdi:

"Onlar heyrətamiz dərəcədə bir-birini tamamlayırdılar. Bizi çox xatirələr bağlayır… Məsələn, Heydər Əlirza oğlu Moskvada oxuyanda, yaxud təcrübə keçəndə Zərifə xanım mənə Bakıdan zəng edib deyirdi: "Tahir, ona qarşı diqqətli ol, onu tək qoyma, orada o, evdən ayrıdır". O, çox qayğıkeş qadın idi…"

Görkəmli ictimai xadim **Svetlana Qasımova** danışırdı:

"Mən Sovet Azərbaycanının 60 illiyinə həsr olunmuş təntənə ilə əlaqədar Bakıya gəlmiş müttəfiq respublikaların birinci katiblərinin arvadlarının Zərifə Əziz qızı haqqında necə ehtiramla və məhəbbətlə danışdıqlarının şahidi olmuşam.

Mən Zərifə xanımla ilk dəfə nümayəndələri qarşılayanda yaxın ünsiyyətdə olmuşam. Biz istər-istəməz respublikaların birinci şəxslərinin arvadlarının nə haqda və necə danışdıqlarını müqayisə edirdik. Zərifə Əziz qızı yüksək mədəniyyətə, dərin biliyə, geniş dünyagörüşə malikdi, eyni zamanda çox sadə və təvazökar qadın idi. O öz ətrafında xoş atmosfer yaradan, hər bir qonaqda Azərbaycan haqqında, Azərbaycan qadını haqqında yüksək və yaxşı təsəvvür yaranmasına kömək edən qadın idi. O, həqiqətən alicənab Azərbaycan xanımı idi".

Sovet dövründə, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə Azərbaycana tez-tez rəhbər işçilər, SSRİ nazirləri gəlirdi. Onlar bizim iqtisadiyyatımıza, mədəniyyətimizə böyük maraq göstərirdilər. Yüksək qonaqlar çox vaxt öz arvadları ilə gəlirdilər.

Müharibə veteranı, SSRİ DTK-nın əməkdaşı, general-mayor **Mustafa Nəsirov** xatırlayır:

“Azərbaycana Keçici Qırmızı bayrağı vermək üçün Sov.İKP MK-nın kənd təsərrüfatı üzrə katibi F.D.Kulakov öz arvadı ilə Bakıya gəlmişdi. Qonaqların Lənkərana və Astaraya səfəri nəzərdə tutulmuşdu. Biz DTK-nın sədri S.Krasilnikov və daxili işlər naziri Arif Heydərovla birlikdə Lənkərandan bir az tez çıxmışdıq. Birdən öyrəndik ki, rayon partiya komitəsinin birinci katibi zəhmətkeşlərlə görüşü rayon partiya komitəsinin binası qarşısında təyin edib. Mən isə astaralıları xəbərdar etmişdim ki, yüksək qonaqlar sərhəd zastavasında olacaqlar, onlar da zastavanın qabağına yığışsınlar. İki nazirliyin əməkdaşları ictimai nizamı gözləmək üçün oraya gəlmişdilər. Meydana daxil olduq, amma ora boş idi. Astaranın kənarında bir az gözləyib, maşınları zastavaya sürməyi əmr etdik. Həmin vaxt Zərifə xanım və Kulakovun arvadı artıq zastavada idilər, əsgərlərin yaşayışı və məişəti ilə tanış olurdular. Onlar addımlarını yavaşıtdılar və Sovet İttifaqı Qəhrəmanı Qujevin portreti asılmış “Qırmızı guşə”nin önündə dayandılar. Onların ana şəfqəti ilə susduqları aydın idi. Sonra sərhədə doğru yollandılar.

Zastavanın şəxsi heyəti yüksək qonaqları qarşılamaq üçün meydanda sıraya düzülmüşdü. Sərhədçilər Heydər Əliyevə və Fyodr Kulakova sadə, adi hədiyyələr – yaşıl furajka və müşahidə qülləsinin maketini bağışladılar.

Sərhəd körpüsünə çıxmaq vaxtı çatdı. Əsas darvazalardan küçəyə çıxmaq lazım gəlirdi, küçə isə respublika rəhbərini və onun qonaqlarını qarşılamağa çıxmış adamlarla dolu idi. Astaralılar darvazanı sıx tutmuşdular.

Heydər Əliyev burada toplaşan adamların qarşısında çıxış edərək onları salamladı və Kulakova xitabən dedi: “Onlar bura bizə olan hörmətlərini göstərmək üçün yığışıblar, bizi sevinclə salamlayırlar”. Alqışlar altında aralanmış izdihamın içərisindən keçdi və Kulakov da onun

ardınca getdi. Bir qədər aralıda onları mühafizə dəstəsi izləyirdi.

Sərhəd zastavasını gəzib qayıdandan sonra Kulakov Zərifə xanım və öz həyat yoldaşı haqqında belə dedi: "Heyif ki, onlar xalqın Heydər Əliyevə və onun qonaqlarına göstərdikləri hörməti və məhəbbəti görmədilər, iki sahili birləşdirən körpünü görmədilər". Qadınların bunların hamısını gördüklərini və sərhəddə dayandıqlarını biləndə isə Heydər Əliyevə bir daha minnətdarlıq etdi".

SSRİ Xalq Artisti mərhum **Müslüm Maqomayev** xatırlayırdı:

"Simfonik konsertlərdən birində Heydər Əlirza oğlunun həyat yoldaşı Zərifə xanım gördü ki, arxa sıralardan birində kim isə yatır və ərinə dedi: "Sən niyə onları konsertə gəlməyə məcbur edirsən? Görürsən, o artıq yuxulayır". Heydər Əlirza oğlu cavab verdi: "Eybi yoxdu, sabah mənim yanımda oyanar..." "Zərərçəkənlər"dən kimsə simfonik konsertə getməyi "əzab" adlandırmışdı; elə bil ki, bundan daha böyük cəza onun ağlına gəlmirdi. Heydər Əlirza oğlu Moskvaya, yeni işinə gedənə qədər belə davam elədi: deyinirdilər, lakin klassik musiqini dinləyirdilər, bu səbəbdən çoxları klassik musiqinin pərəstişkarı oldu.

...Moskvada işlədiyi zaman Heydər Əliyevə ağır itki üz verdi – o, Zərifə xanımı itirdi. Zərifə xanım müdrik və şən bir insan idi, musiqi istedadı vardı, royalda yaxşı ifa edirdi. Əri oxuyanda onu müşayiət etməyi sevirdi. Heydər Əlirza oğlunun xoş bariton-tenor səsi vardı. O, ümumiyyətlə, musiqini çox sevirdi. Heydər Əlirza oğlunun teatra, səhnəyə məhəbbət bəslədiyi hiss olunurdu. Bu yaxınlarda çapdan çıxmış memuarlarından öyrəndik ki, bir vaxtlar artist olmağı arzulayıbmış. Biz əvvəllər bu haqda bilmirdik.

Nə vaxtsa özü mənə toyunun çox sadə olduğunu, cüzi xərclə başa gəldiyini danışmışdı. Nikahdan sonra o vaxtın ən bahalı konfetlərindən bir kiloqram konfet alıbmış – vəssalam. Evə gəlib çay süfrəsi təşkil edirlər. Gənclərin bahalı stol açmaq üçün pulu yox idi…

Biz Tamara ilə həm Bakıda, həm də Moskvada qonaqsevər Əliyevlər ailəsini ziyarət etmişik. Biz xüsusilə Zərifə Əzizovna ilə sıx ünsiyyətdə olmuşuq. Həmişə söhbət eləməyə bir mövzu tapırdıq. Əsasən o bizə zəng edirdi, biz özümüzü yada salmağı artıq sayırdıq, utanırdıq. Artıq Zərifə Əzizovna həyatda yoxdur…

Biz Əliyevlərdə Zərifə xanım həyatdan getməmişdən az müddət əvvəl olmuşduq. Heydər Əliyeviç masa arxasında onun şərəfinə tost dedi. Heydər Əliyeviç həmişə həyat yoldaşı haqqında hərarətlə, lakin qısa danışardı, hisslərini saxlaya bilirdi. Görünür, ona həyat yoldaşı haqqında başqalarının danışması daha xoş gəlirdi. Burada isə birdən özü Zərifə Əzizovna haqqında, onların həyatı haqqında müfəssəl danışmağa başladı… Heydər Əlirza oğlunun məhəbbətdən danışmasına baxmayaraq, mən onun sözlərində nə isə bir kədər hiss etdim. Nitqinin tonu da mənə nə isə qeyri-adi göründü; bu, vida nitqinə oxşayırdı, baxmayaraq ki, o, Zərifə Əzizovnanın səhhəti haqqında ağzından bircə kəlmə də söz qaçırmamışdı. Sonra Zərifə xanım ona cavab olaraq xoş sözlər söylədi və göz yaşlarını saxlaya bilmədi…

Sonra biz Tamara ilə həmin gecəni yada salanda başa düşdük ki, o vaxt ikimiz də nəyinsə yaxınlaşdığını hiss etmişik. İkimiz də bu yaxınlaşan məqamın Zərifə Əzizovna ilə bağlı olduğunu hiss etmişdik. Ancaq o, bizə tez-tez zəng edirdi və danışığında qeyri-adi heç nə yox idi. İki ay belə keçdi. Axırıncı dəfə o, bizə ölümündən bir həftə əvvəl zəng etmişdi, adəti üzrə mehribanlıqla danışmışdı. Və birdən – elə bir zərbə aldıq!

Zərifə xanımla vida mərasimində mən ilk dəfə Heydər Əlirza oğlunu gözüyaşlı gördüm. Mən onu güclü, igid, dözümlü insan kimi tanıyırdım. Burada isə… Biz ona yaxınlaşanda tamamilə başqa şey gördük – elə bil o, atılmış böyük uşaq idi… Bu mənzərə adamın ürəyini sıxırdı. O, ayağa qalxdı, bizi öpdü və dedi: "Siz təsəvvür edə bilməzsiniz ki, o, sizi necə sevirdi. Öz uşaqları kimi…"

Zərifə xanımın həyatdan getməsinin bir ilini qeyd edəndə biz qəbir üstünə getdik. Heydər Əliyev məndən onun qəbrinin üstündə oxumağı xahiş etdi. Mən Zərifə xanımın çox sevdiyi, Üzeyir Hacıbəyovun "Sənsiz"ini astadan oxudum. Beləliklə, biz onunla bir daha vidalaşdıq (Sonralar Heydər Əlirza oğlu onun cənazəsini Azərbaycana gətirdi, burada dəfn elədi).

Nikolay Dobronravovun sözlərinə yazdığım **"Elegiya"** adlı mahnımı mən Zərifə Əzizovnaya həsr etmişəm. Yadımdadır, mən bu mahnını ilk dəfə televiziyada ifa edəndə Heydər Əlirza oğlu mənə zəng etdi: "Sən necə mahnı oxudun! Mən bu mahnını eşidəndə ağladım!" "Mən bu mahnını Zərifə Əzizovnanın vəfatından təsirlənərək yazmışam". Ona həsr olunmuş daha bir mahnını Sevil Əliyeva yazıb. Sevilin çox gözəl musiqi istedadı var, görünür, bu istedadını o, anasından alıb. Heydər Əlirza oğlu Fikrət Əmirovun "Sevil" operasının qəhrəmanının şərəfinə qızına bu adı verib. Yadımdadır, bir dəfə Sevil bizdə qonaq olanda royalın arxasına keçdi və nə isə çalmağa başladı. Musiqi mənim çox xoşuma gəldi və soruşdum:

– Sən nə çalırsan? Bu melodiya mənə tanış deyil.

– Elə-belə, bəzən nə isə yazıram…

– Bu da sənin musiqindir?

– Bəli, mən onu anama həsr etmişəm…

– Bir qədər işləmək lazımdır, çox yaxşı mahnı olar. Mən onu oxuyaram.

Biz işlədik, sonra Nikolay Dobronravovdan bu musiqiyə şeir yazmağı xahiş etdik. “Qayıt, əzizim” adlı təsirli mahnı alındı. Mən onu konsertlərdə ifa etdim. Sonralar da mən Sevilin bir neçə mahnısını oxudum…”

## On üçüncü fəsil

# VƏZİFƏ – TALE – ÖMÜR

*Ömür uzunluğu ilə yox, əhəmiyyəti ilə ölçülür.*
*Seneka*

Lənkəran Rayon Partiya Komitəsinin keçmiş birinci katibi **Dilrubə Camalova** (2009-cu ildə vəfat edib) Əliyevlərin bu regiona gəlişini müfəssəl surətdə və maraqla yada salır. Heydər və Zərifə Əliyevlər Lənkərana cavan oğulları İlhamla birgə gəliblər. İstirahətə və bu bərəkətli yerin torpağı ilə tanışlığa bir neçə saat vaxt ayrılıbmış…

"Bu, 1982-ci ildə olmuşdu. Təsərrüfatlara baş çəkəndən sonra Xanbulançay su anbarına getdik. Zərifə xanım və İlham artıq buradakı qonaq evində idilər. Burada yaşamaq və istirahət etmək üçün hər şey vardı. Heydər Əlirza oğlu üçün biz bir neçə otaq hazırlamışdıq (biz bu otaqlara "Kennonenin apartamenti" deyirdik). Heydər Əliyevi onun üçün ayrılmış otaqlara ötürəndən sonra mətbəxə düşdüm. Gördüm ki, orada işlərə Heydər Əlirza oğlunun şəxsi aşpazı Sona rəhbərlik edir. Biz isə nə qədər yemək hazırlamışdıq! Mənə dedilər ki, Heydər Əliyev ancaq onun hazırladığını yeyir. O, həm aşpaz idi, həm də hə-

kim. Sona mənə xəbərdarlıq elədi ki, bizim yeməklərimizi yoxlamalıdır. Mən dedim:

– Buyurun, yoxlayın. Heydər Əliyeviç həyat yoldaşı və oğlu ilə Lənkərana gəlib, onlar bizim qonağımızdır, lazımdır ki, o, Lənkəran yeməklərindən dadsın.

– Bu, qətiyyən mümkün deyil, – dedi Sona.

Mən öz adamlarımıza göstəriş verdim ki, hər şeyi hazır saxlasınlar, mən deməmiş süfrəyə verməsinlər. Belə ki, hər şeydən bir az vardı. Biz müxtəlif yeməklər hazırlamışdıq və istəyirdik ki, qonaqlar onların dadına baxsınlar. Zərifə xanım narahat olurdu və ərinə deyirdi:

– Bu, sənə zərərdir, yemək olmaz. Ehtiyatlı ol.

Heydər Əlirza oğlu zarafata saldı:

– Biz Lənkərana gəlmişik və Dilrubə xanımın qonağıyıq, ona tabe olmalıyıq.

Onda gözəl münasibət yarandı və dilə tutmaq üçün söhbətə başladım:

– Mərciməkli plovun dadına baxın.

– Hə, – o öz rəyini bildirdi, – anam dünyadan köçən vaxtdan mən belə plov yeməmişdim.

– Sənə olmaz, – Zərifə xanım yenidən narahat oldu.

Həmin vaxt Heydər Əlirza oğlunun mədəsində problem vardı, buna görə də onun üçün bütün yeməkləri duxovkada hazırlayırdılar. Lakin o, bizim təklif etdiyimiz yeməklərin hamısından məmnuniyyətlə daddı. Ehtimal ki, belə yeməklər üçün darıxmışdı.

– İcazə verin, indi də süfrəyə qızardılmış kütüm verək, – dedim; hər dəfə yeni yemək verəndə mən ondan icazə alırdım.

– Qoy versinlər… Baxaq…

Kütüm verdilər. Qonağımız ondan da daddı.

Mən bilirdim ki, o, şam və səhər yeməklərini bizdə yeyəcək. Ona görə hər dəfə menyunu dəyişirdim.

Axşam katerlə Xanbulançay anbarına gəzməyə getdik. O, bunu elə çox istəmirdi, ancaq mən onu dilə tutdum ki, on-on beş dəqiqə gəzməyə vaxt ayırsın. Bizi arxada mühafizə kateri izləyirdi. Gəzinti zamanı mən Lənkəran meşələri, bizim nadir ağaclar və fauna haqqında söhbət açdım... Su anbarını hər tərəfdən əhatə edən meşə valehedici mənzərə yaradırdı.

– Həqiqətən bura necə gözəldir! – sevinclə dedi o. – Zərifə, Bakıya qayıdan kimi səni və Sevanı bura göndərəcəyəm. Dilrubə xanımın yanına gələrsiniz, yaxşı istirahət edərsiniz.

Bizi müşayiət edən katerdən İsay Rubençik fotoşəkillərimizi çəkirdi. Sonralar bu şəkillər Ümummilli liderə həsr edilmiş çoxlu alboma daxil edildi.

Səhəri gün Heydər Əliyev Astaraya getdi, biz isə Zərifə xanım və İlhamla şəhəri gəzməyə çıxdıq. İstisuda (kurort qəsəbəsində) olduq, sonra meşənin içərilərinə, bulaqlara getdik. Biz ora Finlandiyanın prezidenti Koyvistonu və digər yüksək qonaqları aparmışdıq. Finlandiyalı qonaq qayıdanda demişdi: "Belə füsunkar meşəni maşınla gəzmək olmaz. Burada ancaq piyada gəzmək lazımdır". Dörd kilometr yolu o, piyada getdi. Bizim adamlar ucaboy, iri addımlarla irəliləyən birinci katibin ardınca zorla çatırdılar... Mən Zərifə xanım və İlhamı da oraya apardım. Valehedici qoruq guşəsi, dağ yamacları, sıx meşə, diş göynədən buz bulaqlar... Heç bir soyuducu lazım deyil – yol üçün meyvə və su götürməkdən azad olursan.

Artıq bizi çay süfrəsi gözləyirdi: evdə hazırlanmış nehrə yağı, bal, təzə kənd sovqatları. Samovar qaynayırdı. Meşə cığırına qədər maşınla gəldik. Qalan yüz-iki yüz metr yolu isə piyada qalxmaq lazım idi. Zərifə xanım dedi ki, Dilrubə xanım, ayaqlarım bərk ağrıyır, orada on dəqiqə oturaq və qayıdaq.

Dağ cığırı ilə qalxmaqda İlham anasına kömək elədi. Nəhayət, bulağa çatdıq.

Meşəbəyi artıq xalçanı yerə sərmiş, süfrəni açmışdı. Hər şey layiqincə idi. Oturduq, söhbət başlandı. Zərifə xanım meşəbəyidən bu yerlərin faunası və florası, yaşlı ağacların xüsusiyyətləri haqqında məlumat aldı… Oradan-buradan söhbət edə-edə çay süfrəsi başında qırx dəqiqə oturduq. İlham xatırlatdı:

– Ana, sən burada cəmi on dəqiqə oturmaq istəyirdin…

– Burada hava çox gözəl, kristal kimi təmiz və səfalıdır! Həm də yayın bu qızmar vaxtında! (İyunun 30-u idi). Su isə necə gözəldir! Adətən, mən çiy su içmirəm, burada isə doyunca içdim.

Bir sözlə, Zərifə xanım gəzintidən razı qaldı. Qızı Sevilə zəng edərək təəssüratını onunla bölüşdü.

– Mənim nəvəm hələ körpədir, – Zərifə xanım dedi. – Buna görə də onu özümlə gətirmədim. Baxmayaraq Heydər Əliyeviç təkid edirdi ki, birlikdə gələk, Sevili də uşaqla birlikdə götürək.

Bakıya qayıdarkən Heydər Əliyev mənə dedi:

– Qoy uşaq bir qədər möhkəmlənsin, mən mütləq qızımı Zərifə ilə birlikdə sənin yanına göndərəcəyəm. Sən onları şəhərə gəzməyə, Xanbulançaya, Qızılağaca (qoruq – *H.M.*) apar. Qonaqpərvərliyə görə çox sağ ol. Mən burada lap yaxşı istirahət etdim…"

Bu kitabın səhifələrində görkəmli tibb alimi Əbülfəz Qarayevin gəlini, məşhur həkim **Böyükxanım Nəzirova**nın xatirələrinə yer verməmək mümkün deyil. O, respublikanın baş cərrahı mərhum Mürsəl Qarayevin həyat yoldaşı idi. Dünya şöhrətli bəstəkar Qara Qarayev, Mürsəl Qarayevin qardaşı – Böyükxanım Nəzirovanın qaynı idi. Cəmil Əliyev vaxtı ilə Mürsəl Qarayevin tələbəsi ol-

muşdu. Digər tərəfdən, Mürsəl Qarayevi görkəmli rəssam, Azərbaycan xalçaçılıq sənətinin inkişafına əvəzsiz töhfələr vermiş Kamil Əliyevlə – Zərifə xanımın əmisi oğlu ilə möhkəm dostluq telləri bağlayırdı. Bu dostlar – həkim və rəssam bərk ovçu idilər, tez-tez təbiətin qoynuna çıxardılar. Bu ailələri bir-birinə isti, etibarlı münasibətlər bağlayırdı.

Xatirələrə dalan Böyükxanım Nəzirova onları yaddaşında bir-bir ayırır və üzü zəifcə işıqlanır:

"Zərifə xanımı və onun ailəsini məhəbbətlə xatırlayan tək mən deyiləm. Onu hamı – qoca da, cavan da tanıyırdı. Təkcə məşhur nəsildən olduğuna görə tanımırdılar. Zərifə xanım özü qeyri-adi insan idi. Xalqımıza məxsus bütün yaxşı cəhətləri siz Zərifə xanımın şəxsində tapa bilərdiniz. Mən onu tələbəlik illərindən tanıyırdım. Ortaboy, çox ağıllı bir qız idi, adlı-sanlı ailənin qızı idi. Bununla belə, hamı ilə sadə, səmimi, isti münasibət saxlayırdı. Hər dəfə onunla görüşəndə, doğmalarımla görüşəndə olduğu kimi, məni sevinc hissi bürüyürdü.

Mənim həyat yoldaşım Mürsəl Qarayev haqqında Bakıda "Həkim Qarayev" adlı xatirə kitabı buraxılıb. Kitabı qabaqcadan görən yazıçı Anar ona yazdığı ön sözü bu cümlə ilə başlayır: "Elə ailələr, elə nəsillər var ki, təkcə cəmiyyətin özəyi deyil, bəlkə, onun dayaq sütunlarıdır". Anar düz deyir, bu, həqiqətən, belədir. Son əsr yarımda Azərbaycanda elə nəsillər yetişib ki, onlarla bütün xalq, hətta bütün dünya fəxr edə bilər. Belə nəsillərin xatirələri Azərbaycanda da, onun sərhədlərindən kənarda da ehtiramla yad edilir: bu, Cavanşirin, Bakıxanovların, Rəfibəylilərin, Əliyevlərin, Topçubaşovların, Qarayevlərin, Şıxlinskilərin və digərlərinin nəsilləridir.

Xalq bu nəsillərin görkəmli nümayəndələrinin mənəvi irsini əxz edib və edir, onların gördükləri alicənab,

mərd əməllərlə fəxr edir. Belə şəxsiyyətlər millətin formalaşmasına və yüksəlməsinə, milli dəyərlərin bərqərar olmasına əvəzsiz töhfə veriblər, vətənə təmənnasız və fədakarcasına xidmət etməyin nümunəsi olublar. Bu nəsillərin baniləri cəmiyyətin inkişafını onillərlə, yüzillərlə qabaqcadan görən müdrik və uzaqgörən ilk qurucular olublar. Təbiidir ki, gələcək nəsillər böyük sələflərindən nümunə götürərək öz gələcək nəsilləri üçün iftixar mənbəyi olacaqlar.

Zərifə xanım iki məşhur nəslin ləyaqətli nümayəndəsi olmuşdur: o, Əziz Əliyevin qızı, digər Əliyevlər ailəsinin isə gəlini idi. Mən Zərifə xanımın qardaşlarını və bacılarını da, onların uşaqlarını da tanıyırdım. Onlardan hər biri ilə, bütün ailə üzvləri ilə bizim yaxşı əlaqələrimiz vardı.

Zərifə xanımın atası Əziz Əliyevin həyatı çətinliklərlə, gərgin sınaqlarla keçmişdi (Biz kitabın əvvəlki fəsillərində Əziz Əliyevin həyatındakı gözlənilməz hadisələri müfəssəl surətdə göstərmişik – *H.M.*).

Atasını haqsız yerə gözdən salmağa çalışdıqları dövrdə Zərifə xanımla Heydər Əliyevi qarşılıqlı böyük məhəbbət yaxınlaşdırdı. Sonralar Heydər Əliyev hakimiyyətin ən yüksək təbəqəsinə qalxanda fitnəkar hücumlara məruz qaldı, yuxarı vəzifələrdəki paxılların qazdıqları quyularla qarşılaşdı.

Partiya nomenklaturası Əliyevi həm Moskvada, həm də Bakıda təqib etmək məqsədi güdürdü. Bu, çox ağrılı və acı tarixdir. Onu demək istəyirəm ki, Zərifə xanım atasının və ərinin çətinliklərini bölüşürdü, onlar üçün həyəcan keçirirdi, ağır günlərdə onların dərdinə şərik olurdu.

Çoxları belə güman edir ki, rəhbər şəxslərin uşaqlarının həyatı tamamilə sakit, dinc keçir. Amma mən başqa cür düşünürəm. Tale elə gətirdi ki, Zərifə xanımın ata evində yiyələndiyi yaxşı ad üçün, ailənin namusu üçün

daşıdığı məsuliyyət hissi gəlin getdiyi ailədə daha da gücləndi. Axı o, əvvəlcə Azərbaycanın rəhbəri olmuş və sonra 250 milyonluq ölkənin yüksək hakimiyyət pilləsinə qalxmış Heydər Əliyevin həyat yoldaşı idi…

Mən bütün həyatımı həkim peşəsinə həsr etmişəm. Ona görə Zərifə xanımın gözəl həkim, istedadlı alim kimi, səhiyyənin fədakar təşkilatçısı kimi nələr etdiyini yaxşı bilirdim. Biz onunla fəxr edirdik. Təkrar edirəm, respublikanın birinci şəxsinin, İttifaqın rəhbərlərindən birinin həyat yoldaşı olmasına baxmayaraq, o, bizim hər birimizə yaxın, doğma adam kimi münasibət bəsləyirdi. Sadə, səmimi idi. Sirr deyil ki, ona xahişlə müraciət edən hər kəsə Zərifə xanımın Əziz Əliyevin qızı kimi, Heydər Əliyevin həyat yoldaşı kimi yardım etmək, kömək göstərmək imkanı var idi. Düzü, bütün dövlət xadimlərinin, onların ailələrinin şəxsi həyatı, demək olar ki, gizli saxlanılır. Heydər Əliyevin xəbəri və icazəsi olmadan heç kim onun ailəsi ilə qeyri-rəsmi danışığa cürət edə bilməzdi. Bununla belə, Zərifə xanım çoxlu gənc həmkarına yardım edib, onların işdə və elmdə inkişaf etmələrinə kömək göstərib. Zərifə xanım müalicəyə, tibbi xidmətə ehtiyacı olan minlərlə xəstəyə də kömək əlini uzadıb. Onun xeyirxah işlərini minnətdarlıqla xatırlayırıq.

Mənim qaynım, bəstəkar Qara Qarayev Əliyevlər ailəsinin sevimlisi idi. Mən dəfələrlə Qara Qarayev haqqında söhbətlərin şahidi olmuşam: bəstəkarın istedadı bütün gücü ilə parlasın deyə Heydər Əliyev onun üçün nələr etmədi! Qara Qarayev də özünü tərifləməz, öyünməzdi. Bu gülərüz ailənin, Zərifə xanımın alicənablığına, yüksək mədəniyyətinə heyran olardı. Belə bir hadisəni xatırlayıram. Necə olursa, ərim Mürsəl Qarayev öz dostları ilə – rəssam Kamil Əliyev və Tahir Salahovla qonaq qarşılamaq üçün aeroporta gedirlər. Moskvadan

gələsi təyyarə bir neçə saat gecikir. Kamil Əliyevin təklifi ilə dostlar o vaxt DTK-da işləyən Heydər Əliyevgilə gedirlər. Otururlar, yeyirlər, içirlər və maşınla aeroporta gəlirlər. Yolda Tahir Salahov maşını özü sürmək istəyir və sükan arxasına keçir. Sabunçu qəsəbəsində qəza baş verir: onların maşını başqa maşınla toqquşur. Tahirlə Mürsəl travma alırlar: birinin ayağı, digərinin qolu sınır… Gecə yarısı bu bədbəxt hadisəni bilən Heydər Əliyev və Zərifə xanım dərhal xəstəxanaya gəlirlər. Təbii, xəstələrə hərtərəfli yardım göstərilir. Onlar tamamilə sağalana qədər Zərifə xanım daim klinikaya zəng edib xəstələrin vəziyyətini soruşurdu…

**Bayram Hüseynli**nin **"Heydər Əliyev: yaşanan və yaşadan ömür**" kitabının **"Siyasi Büro və Zərifə xanım nigarançılığı"** adlı fəslinin də oxucularımız üçün maraqlı olacağını düşünürük:

"Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi kimi sonuncu dəfə kabineti tərk edirdi. Respublikanın ziyalı təbəqəsi ilə sonuncu görüşdəki söhbətlər, fikirlər, ayrılıq notları Heydər Əliyevi təsirləndirmişdi. Çox yorğun halda ayağa durdu, sonuncu dəfə kabinetə göz gəzdirdi – sakitlik idi. Heydər Əliyev hiss etdi ki, doğma yurddan ayrılmaq çox çətin imiş, amma qismətdən də qaçmaq mümkün deyildi. Könülsüz kabineti tərk edib sakit addımlarla xidməti maşınına çatanda dayandı. Tikintisi tam başa çatmamış Mərkəzi Komitənin möhtəşəm yeni binasına doğma nəzərlərlə baxdı. Nazirlər Sovetinin yerləşdiyi köhnə bina ilə Mərkəzi Komitənin yeni binasının üz-üzə dayanması Heydər Əliyevə xoş təsir bağışladı. Ulu öndər özlüyündə fikirləşdi ki, Mərkəzi Komitənin yeni möhtəşəm binasını sadə azərbaycanlı ucaltmaqla çox inkişaf edib. Deməli, azərbaycanlı balaları hələ çox möhtəşəm tikililəri ucaltmağa qadirdir, – qə-

naətindən məmnun qaldı. Razı halda ətrafa nəzər saldı: gündüzün qaynar həyatı sakitliyə qərq olmuşdu. Heydər Əliyev bu sakitlikdən bir az qayğılandı. Nədənsə 1969-cu ilin iyul ayındakı sakitliyi xatırladı. Xəyalında həmin illərin sakitliyi ilə bu axşamın sakitliyini müqayisə etdi. Sonra nəyi isə fikrində çözüb sakitləşdi – bu axşamkı sakitlikdən razı qalmışdı. Çünki 1969-cu ildəki sakitlik xalqın süstlük, apatiya, ümidsizlik günlərinin sakitliyi idisə, bu axşamkı sakitlik xalqın coşqun əməkdən, quruculuq işlərindən sonrakı istirahət sakitliyi idi. Bu qənaətə gəldiyi üçün dərindən nəfəs alıb maşına əyləşdi. Yolboyu Heydər Əliyev görüşlərin təsirindən hələ ayrılmamışdı. Doğma Azərbaycandan ayrılmaq müdrik rəhbərə çox ağır gəlirdi. Ömür-gün yoldaşı Zərifə xanımın da nigarançılığı onu xeyli düşündürürdü. Hiss olunurdu ki, Zərifə xanım Heydər Əliyevin Moskvaya dəvəti ilə heç cür razılaşa bilmir. Bir də ayıldı ki, artıq evə çatıb: həmişə olduğu kimi, Zərifə xanım onu qarşıladı. Heydər Əliyev Zərifə xanımın çöhrəsindəki narahatlığı o dəqiqə hiss etdi. Ona elə gəldi ki, ömür-gün yoldaşı çaşqınlıq içərisindədir. Amma özünü o yerə qoymadı, əynini dəyişib divanda rahatladı. Üzünü Zərifə xanıma tutub, "Eşidirəm" deyə bir balaca gülümsədi. Zərifə xanım bir anlığa susdu, ani sükutdan sonra o, başını qaldırıb ömür-gün yoldaşının narahat gözlərinə baxdı. Nədənsə yenidən başını yana çevirib sanki xəyala daldı. Heydər Əliyev hiss etdi ki, Zərifə xanım danışmaq istəyir, amma bilmir necə başlasın. Heydər Əliyev ayağa durdu, Zərifə xanıma lap yaxınlaşdı, əli ilə onun yana çevrilmiş başını ehtiyatla düzəltdi, gözlərinin lap içinə baxdı:

– Zərifə, əzizim, sənə nə olub, həyəcanlısan...

– Bilirsən, Heydər, – deyə Zərifə xanım sakit danışmağa çalışsa da, hiss olunurdu ki, bunu bacarmır. Zərifə

xanımın səsi titrəyirdi, içində nəyisə boğmağa çalışırdı, amma səs tellərindəki titrəyiş hər şeyi büruzə verirdi. Elə bu tərzdə də sözünə davam etdi: – Dünənki söhbətdən sonra özümü çox narahat hiss edirəm, Heydər. Düzdür, Moskvaya getməyini Nəriman Nərimanovun getməyi ilə əsaslandırdın. Lap yaxşı. Elə məni də Nərimanovun taleyi çox düşündürür. Bütün günü onun təzadlı həyat tərzi mənim düşüncələrimdə yenidən yaşayıb. Sənin siyasi gedişlərini də duyuram, bilirəm ki, Moskvaya getmək barədə az düşünməmisən. Ancaq mən bəzi fikirlərimi elə bu gecə səninlə bölüşmək istəyirəm. Heydər, sən istədin ki, Nəriman Nərimanovun heykəlini Bakının möhtəşəm yerində ucaldasan. Özü də lap dağ boyda heykəl ucaltmaq istəyirdin. İndi de görüm, nə oldu? Gördün altdan-altdan sənə hər tərəfdən necə hücumlar oldu! Özü də “sapı özümüzdən” olanlar daha çox fəallıq göstərdilər. Doğrudur, Nəriman Nərimanovun Azərbaycan xalqı qarşısındakı xidmətlərini unutmadın, çalışdın-vuruşdun, çox əzab çəkdin, amma istəyinə tam olmasa da, qismən nail oldun: Nəriman Nərimanovun heykəli nisbətən kiçik ölçüdə elə həmin yerdə ucaldı. Heydər, bunlar səbəbsiz deyil axı!

Zərifə xanımın nəfəsi təngidi. Bəlkə də, ömründə birinci dəfə idi ki, belə həyəcanlanmışdı. Heydər Əliyev də sanki həyat yoldaşını birinci dəfə idi ki, dinləyirdi. Sakitcə qulaq asırdı, hərdən əli ilə alnını ovuşdururdu. Ömürgün yoldaşının fikirlərini axıra qədər dinləmək istəyirdi. Zərifə xanım da nəfəsini dərib sözünə davam etdi:

– Yaxşı, Nərimanovu Moskvaya nə üçün apardılar? Guya vəzifəsini böyüdürdülər… Apardılar, vəzifəsini böyütdülər və sonra da sakitcə aradan götürdülər. Çünki Nərimanov Azərbaycan üçün bütün varlığı ilə çalışırdı. Düzdür, Nərimanovun siyasi fəaliyyəti, tə-

zadlı həyatı zamanın tələbi baxımından doğru-düzgün araşdırılmayıb. Ancaq mən inanıram ki, nəinki Nəriman Nərimanovun, eləcə də Azərbaycanın bir çox tarixi şəxsiyyətinin siyasi baxışları öz dövrünün siyasi prizması çərçivəsində araşdırılacaq. Heydər, sən bunları məndən qat-qat yaxşı bilirsən. Mən bilmirəm necə deyim, necə izah edim, sənin Moskvaya, Siyasi Büroya getməyinə heç razı deyiləm. Mənim ana ürəyim, mənim azərbaycanlı ürəyim, mənim vətənə bağlı ürəyim çox narahatdır. Axı sən Azərbaycanda Azərbaycan üçün çox işlər görürsən. Mənə elə gəlir ki, Moskva səni elə buna görə öz "qoynuna" çəkir… Onların məqsədi səni Azərbaycanın ürəyindən qoparmaqdır…

– Zərifə, Zərifə, əzizim, həyəcanlanma, özünü ələ al. Düz deyirsən, çox düzgün qiymətləndirirsən tarixi hadisələri. Mən elə bilirdim sən təkcə yaxşı həkimsən, qayğıkeş anasan, sözün yaxşı mənasında millətçisən. Sən demə, Zərifə xanım həm də böyük siyasətçidir, – deyə Heydər Əliyev ömür-gün yoldaşını sakitləşdirmək üçün özünə xas olan yumorunu işə saldı. Sonra sözünə davam etdi: – Sənin narahatlığın başadüşüləndir və təqdirəlayiqdir. Buna görə də siyasi fəndən sənə bir yağlı "beş", – deyib diqqətlə Zərifənin gözlərinə baxdı. Hiss etdi ki, ömür-gün yoldaşı sakitləşir, çöhrəsindəki gərginlik azalır. O, artıq maraqla Heydər Əliyevi dinləyirdi. – Zərifə, düz deyirsən, Nərimanov öz doğma xalqının vətənpərvər oğlu olduğu üçün onu aradan götürdülər. Nəriman aldadıldığını başa düşəndə artıq gec idi. Qatar yola düşmüşdü. Bu barədə danışmağın vaxtı deyil. Arxivlərdə çox sirlər yatır, amma nə etmək olar, zamanın üzü qara olsun, vaxt gələr, çox mətləblər aydınlaşar. Nəriman Nərimanov öz aldanışını başa düşmüşdü, xalq qarşısında məsuliyyətini çox gözəl duyurdu. Ona görə də onun yeganə bir yolu, yəni

olum, ya ölüm yolu qalmışdı. Nərimanov vətənpərvər olduğunu öz həyatını qurban verməklə sübuta yetirmişdir. O, xalq qarşısında, vətən qarşısında, vicdanı qarşısında öz səhvini etiraf etdi. Leninə düz dörd məktub, özü də çox kəskin məktublar yazıb tələb etdi ki, Azərbaycanla tərəfdaş kimi, eyni hüquqlu respublika kimi rəftar olunsun… Ruhu şad olsun, yazdı… və müəmmalı şəkildə vəfat etdi…

Heydər Əliyev də, deyəsən, bu məqamda bir az tutulan kimi oldu. Hiss olunurdu ki, ömür-gün yoldaşı ilə daha ağır mövzuda danışmağa hazırlaşır:

– Zərifə, mənim fikrimcə, Nəriman Nərimanov səhv etməklə Azərbaycan xalqını daha böyük bəlalardan xilas etmək yolunu seçib. Fərz edək ki, Azərbaycan Demokratik Respublikası Rusiya qoşunlarına silahlı müqavimət göstərdi. Təbii ki, gənc, demokratik Azərbaycanın məğlubiyyəti şəksiz idi, həm də o, böyük itkilərə məruz qalacaqdı. Məncə, Nərimanov böyük siyasi xadim kimi zamanın siyasi durumunu çox müdrikcəsinə qiymətləndirib. 1920-ci ildə Azərbaycana kim arxa dura bilərdi? Türkiyə Birinci Dünya savaşından yaxasını qurtarmaqla öz quruculuq hayında idi. Necə deyərlər, vaxt Bolşevik Rusiyasının xeyrinə işləyirdi. Ona görə də Nərimanov vaxtın siyasi kursunu düzgün qiymətləndirdi və xalqı daha böyük fəlakətdən xilas etdi. Çox güman ki, vaxt gələcək, Nəriman Nərimanov şəxsiyyəti yaşadığı dövrün ab-havasına uyğun qiymətləndiriləcək, onun vətənə, doğma xalqına göstərdiyi tarixi xidmətlər özünün əsl qiymətini alacaq…

Heydər Əliyev fikrini tamamlayıb susdu… Sükutu divar saatının kəfkiri pozurdu. Hər ikisi həyatın siyasi gedişlərini xatırladan saatın kəfkirinə baxdı. Onlara elə gəldi ki, bu saat kəfkiri zamanın ağır yükünü öz çiyinlərində daşıyan yenilməz qüvvədir…"

“Heydər Əliyev” kitabını oxuyanlar onun müharibə və daxili çəkişmələr nəticəsində dağılmış Azərbaycanda siyasi hakimiyyətə qayıdışının təfərrüatları ilə yaxşı tanışdırlar. Respublikanın daha sonra, Heydər Əliyevin rəhbərliyi altında necə dirçəldiyi, iqtisadiyyatın, dövlət qurumlarının, qanunvericiliyin inkişafı, Azərbaycanın dünya arenasındakı nüfuzunun yüksəlişi də oxuculara məlumdur.

Zərifə xanım bu günləri görə bilmədi. Həyat yoldaşının doğma ölkəsində ən yüksək vəzifəyə seçildiyini görə bilmədi; oğlu İlham Əliyevin ölkənin seçilmiş Prezidenti olaraq xalq qarşısında and içdiyini görə bilmədi. Ancaq inanırıq ki, onun ruhu Azərbaycanın şərəfi, ləyaqəti və müstəqilliyi uğrunda mübarizə aparan doğmalarını bu çətin və şərəfli mübarizədə qorudu, himayə elədi.

## On dördüncü fəsil

# "MƏN MOSKVADAYAM..."

*Hər sübh şəfəqinə həyatının başlanğıcı kimi və hər qüruba bu həyatın sonu kimi bax. Qoy bu qısa ömürlərin hər biri hansısa xeyirxah əməllə yadda qalsın.*

*C.Reskin*

Zərifə xanım SSRİ-nin tanınmış oftalmoloqu, professor Apollon Nikolayeviç Dobromıslovun həyat yoldaşı professor **Olqa Petrovna Dobromıslova**ya ünvanladığı məktubda yazırdı:

"Hələlik Bakıda qalıram, olduqca əhəmiyyətli və maraqlı bir işi yerinə yetirən laboratoriyamdan ayrılmağa heyifsilənirəm. Laboratoriyada "fəaliyyət göstərdiyi 3 il ərzində gözün dəqiq funksional tədqiqatları da daxil olmaqla 6 mindən çox fəhlə müayinədən keçib. Laboratoriyanın yerləşdiyi zavodda çoxlu cərrahiyyə əməliyyatı aparılıb. Hətta başqa ixtisas sahibi olan görkəmli tibb xadimləri bizə baş çəkir. Onların arasında xarici qonaqlar da var... Hələ Bakıda görməli işlərim həddindən artıq çoxdur".

Öz xatirələrində Zərifə xanım Əliyevanı İnsan və Qadın kimi səciyyələndirən professor Olqa Petrovna Bakıda onunla ilk tanışlığından bəhs edərək yazır: “Zərifə Əziz qızı səmimiyyəti və təbii davranışı ilə məni elə ovsunladı ki, elə ilk görüşün ilk saatlarından mənə elə gəldi, onu lap çoxdan tanıyıram, onunla çoxdan dostluq əlaqələri saxlayıram. Odur ki, həmin andan etibarən aramızda mənəvi ünsiyyət yarandı. Bizim tanışlığımız yeddi il davam etdi və bu müddət ərzində iki dəfə görüşdük. Görüşlərarası müddətdə isə məktublaşdıq...”

Aradan illər ötəndən sonra Olqa Petrovna çox təəssüflənəcək ki, həyatda rastlaşdığı xeyirxah adamların məktublarının heç də hamısını saxlamayıb və buna o qədər də əhəmiyyət verməyib.

Elə biz də indi buna təəssüf edirik. O məktubların sətirlərində mehriban bir qadın, ana, ömür-gün yoldaşı olan xanımın ürəyinin döyüntülərini eşitmək necə də xoş olardı. Olqa Petrovnanın yazdıqlarından:

“Zərifə Əziz qızının da yazdığı bir çox məktublar məndə qalmayıb. O zaman mənə elə gəlirdi ki, bu məktublar, olsa-olsa, şəxsi xarakter daşıyır. Yalnız indi fərqinə varıram ki, o məktubları saxlamamaqla çox şey itirmişəm. A.Gertsenin yazdığı kimi, “məktublardakı sadəlik və sərbəstlik, onlarda əks olunan gündəlik qayğılar məktublaşanları istər-istəməz bir-birinə yaxınlaşdırır...”

Beləliklə, professor Olqa Petrovna Dobromıslova Zərifə Əziz qızının onda qalan məktublarına istinad edir və etiraf edir ki, o məktublar Zərifə xanımın gündəlik qayğılarından soraq verir, onun insani keyfiyyətləri haqqında, necə də qeyri-adi bir qadın olması barədə mühakimə yürütməyə imkan yaradır:

“...Zərifə Əziz qızı təkcə görkəmli alim, istedadlı pedaqoq və tərbiyəçi, fəal ictimai xadim deyildi, həm də

kövrək qəlbli insan, qayğıkeş və sevimli qadın, ana, nənə idi, qeyri-adi şəxsiyyət idi. Onun şəxsiyyəti ictimai və fərdiliyin bir vəhdəti idi..."

Professor O.Dobromıslova yadında qalan çox kiçik, lakin səciyyəvi detalları böyük həvəslə qələmə almışdır...

"...Bakının ətrafındakı sanatoriyada bir axşam Zərifə xanım məni ərimlə birlikdə qonaq çağırdı. Ərimin söhbətlərindən bilirdim ki, Zərifə Əziz qızı oftalmologiya professorudur, görmə orqanının peşə patologiyası üzrə məşhur mütəxəssisdir, gözəl nitq mədəniyyətinə malikdir və elmi müşavirələrdə onun çıxışları hamıda heyranlıq doğurur. Həmkarı ilə görüş ərimin ürəyincə idi, fikir mübadiləsi aparmalı, elmi məsələləri müzakirə etməli idi. Mən isə bu görüşdə sadəcə olaraq ərimin həyat yoldaşı kimi iştirak etməli idim. Bununla belə, ixtisasca fizioloq olduğum üçün görmə orqanının fiziologiyası və patologiyası ilə bağlı məsələlərin müzakirəsinə müdaxilə də edə bilərdim. Bu dəvət bir qədər gözlənilməz olduğundan bizi sıxırdı, çünki Zərifə xanımın ərinin yüksək dövlət xadimi olduğunu bilirdik. Təbii olaraq belə güman edirdik ki, onun yaxından tanış olmadığı adamlarla görüşməyə də vaxtı məhdud olmalı idi. Üstəlik Zərifə xanım məzuniyyətdə olsa da, ailənin bütün ağırlığı onun üzərinə düşürdü: tələbə oğlu və aspirant qızı əri ilə birlikdə tətilə buraxılmışdı. Təyin olunan vaxtda biz evə daxil olduq və mən ilk dəfə Zərifə xanımı gördüm. Bəstəboy, çox çevik olan bu qadın həmin an nəinki diqqətimi cəlb etdi, hətta məndə bir rəğbət oyatdı. Adi ev paltarında idi, ayağına yüngül ayaqqabı geyinmişdi. İri, qara gözlərindən xeyirxahlıq yağırdı. O, bizi mehribanlıqla qarşıladı, salamladı, hara gedəcəyimizi göstərdi. Mənə elə gəldi ki, o, çox cavandır (sonradan Zərifə xanımın mənimlə yaşıd olduğunu öyrəndim). Digər tərəfdən, mənə elə gəldi ki, biz

nə vaxtsa əvvəllər də tanış olmuşuq. Odur ki, ilk tanışlıq üçün lazım olan ifadələr seçmək lazım olmadı...”

O gün Əliyevlər ailəsində Dobromıslovların dostluq görüşü uzun sürdü, Olqa Petrovnanın əri Apollon Nikolayeviç pianoda Raxmaninovdan musiqi parçaları çaldı, sonra hər iki ailədə boya-başa çatmış uşaqlardan söhbət açdılar. Azərbaycan bəstəkarlarından, müğənnilərindən söz düşəndə Olqa Petrovnaya məlum oldu ki, Bakı Konservatoriyası Üzeyir Hacıbəyovun, filarmoniya isə Müslüm Maqomayevin adını daşıyır. Üzeyir Hacıbəyovun musiqisi “Arşın mal alan” komediyasından, “Leyli və Məcnun” operasından qonaqlara yaxşı tanış idi. Olqa Petrovna etiraf edir ki, bəstəkar Müslüm Maqomayevin adını ilk dəfə eşidirdim. “Təbii ki, mənə və bir çoxlarına müğənni Müslüm Maqomayevin adı tanışdır. Məlum oldu ki, bəstəkar Müslüm Maqomayev Azərbaycanda musiqi teatrının əsasını qoyanlardan biridir. “Nərgiz” operasının müəllifidir...

Artıq gec idi və şam yeməyindən sonra getməyə hazırlaşırdıq. Bu zaman Zərifə xanımın əri işdən qayıtdı. Hündürboy, şux qamətli bir kişi iri addımlarla otağa daxil oldu. Sifətindən yorğun olduğu sezilirdi. Biz mürəxxəs olmağa tələsdik. Zərifə xanım isə üzündə təbəssüm ərini qarşıladı. Boyca ondan xeyli uca olan ərinə yanaşıb ayaq barmaqları üstə qalxdı və nəvazişlə yanağından öpüb nəsə pıçıldadı. Görünür, evdəki qonaqların kim olduğunu xəbər verirdi. Ev sahibi nəzakətlə salamlaşdıqdan sonra təkidlə bir qədər ayaq saxlamağı və birlikdə Azərbaycan çayı içməyimizi xahiş etdi. Ailənin bütün üzvləri masa ətrafına toplaşdı və ev sahibəsinin sanki bir dirijor kimi ailədə necə böyük rol oynadığı üzə çıxdı. Zərifə xanım ailədə xüsusi mehribanlıq əhvali-ruhiyyəsi yaradır, sanki ailənin yeni üzvləri arasında səmimilik körpüsü salırdı. Bu ailədə əsl səmimiyyətin hökm sürdüyünə ikinci gəli-

şimdə bir daha yəqinlik hasil etdim. Hələlik isə ev sahibi ilə birlikdə armudu stəkanda Azərbaycan çayı içirdik...

Onların övladları xüsusilə xoş təsir bağışladılar. Belə ki, Sevil xanım da, onun əri də, İlham da özünü sərbəst aparır, artıq boya-başa çatsalar da, dərin hörmətlə analarının sözünə baxırdılar. Bizim söhbətlərimiz onların maraq dairəsindən kənarda olsa da, onlar özlərini əsl tərbiyə almış övlad kimi aparır, söhbətə yerli-yersiz qarışmır, eyni zamanda diqqətlə qulaq asır, lazım gəldikdə isə verilən sualları cavablandırmaqla kifayətlənirdilər..."

Bir-iki gündən sonra Zərifə xanım ailəsilə Bolqarıstana yollandı. Ardınca Dobromıslovların da Xəzər sahilində məzuniyyəti sona yetdi. Yaşlı adamlar o zaman təyyarəyə, qatara bilet almağın necə çətin olduğunu xatırlayırlar. Sanatoriyalarda, istirahət evlərində biletlər siyahıyla satılır, sərbəst dincələnlər isə axşamdan kassalar qarşısında növbə tuturdular. Belə bir vaxda ər-arvad Dobromıslovlar, doğrudan da, Zərifə xanımın qeyri-adi qayğıkeşliyinin şahidi oldular. Bolqarıstandan Bakıdakı tanışlarına zəng vuran Zərifə xanım xahiş edir ki, moskvalı qonaqları üçün bilet alıb onları yola salsınlar...

Dobromıslova məktublarına istinadla qeyd edir ki, Heydər Əliyev Moskvada yeni iş yerinə təyin olunanda Zərifə xanım daha mürəkkəb bir işin öhdəsindən gəlməli olur. Onun ürəyi sanki iki yerə bölünmüşdü. Ailəsindən müvəqqəti olaraq ayrı düşmək Zərifə xanım üçün çox ağır idi. "Mən hələlik Bakıda qalıram, fikirləşirəm ki, bu il işlərimi yekunlaşdırım, sonra gedim. Övladlarım və nəvələrim üçün çox darıxıram" və yaxud: "...Ötən il mənim üçün ağır keçdi, Bakıda özümüzünkülərdən uzaqda yaşadım". Və ya: "Şənbə və bazar günlərində, bayram günlərində tez-tez onlara baş çəkirəm. Onlardan ötrü dəhşətli dərəcədə darıxıram".

Nəhayət, Zərifə xanım Moskvaya köçür: "...Hələlik Moskvada iş yerim müəyyənləşdirilməyib"; "İndi mən Moskvadayam. Məni çox yaxşı qarşıladılar. Bir çox maraqlı təkliflər var, amma mən hələlik bir qərara gəlməmişəm... Lakin fikirləşməyə hələ vaxt var". Bu sətirlər Zərifə xanımın 30 yanvar 1985-ci ildə yazdığı məktubdan götürülüb, iki ay yarımdan sonra Zərifə xanım artıq həyatda yox idi.

"Kimin ağlına gələrdi ki, hər şey tezliklə və gözlənilməz bir sonluqla bitəcək. Təvazökar, istedadlı, xeyirxah bir İnsanı və Qadını vaxtsız itirməyin isə necə də ağır olduğunu ifadə etməyə söz tapmıram..."

Akademik N.Puçkovskaya da həyati bir detalı xatırlayır. Oftalmoloqların qurultayında iştirakçılardan birinin ayağı zədələnir. Təbii ki, onu ən yaxşı Bakı xəstəxanalarında yerləşdirir və ən nüfuzlu həkimləri məsləhət üçün dəvət edirlər. Amma bu, azmış kimi, Zərifə xanım öz doğma yurdundan çox-çox uzaqlarda yatağa düşmüş həmin insan üçün xəstəxanada maksimum rahatlıq yaratmaq məqsədilə evindən nə lazımdırsa gətirir.

Gənc yaşlarında Əziz Əliyevin ailəsində görüb-götürdükləri yaxşı bir həyat təcrübəsi kimi ölkənin birinci şəxsinin xanımı olduğu zamanlarda Zərifə xanımın köməyinə çatmışdır. O, ömür-gün yoldaşına Azərbaycanın rəhbəri olduğu müddətdə mənəvi dayaq, arxa idi.

Jurnalist Gülcahan Mirməmmədin təbirincə desək: "XX əsrin səksəninci illərinin əvvəllərində birinci xanım statusu olmasa da, Zərifə xanımı yaxından tanımaq, onunla birgə çalışmaq, dostluq etmək, onun xeyirxahlığından bəhrələnmək şərəfinə nail olmuş, təəssüf ki, illər keçdikcə sıraları seyrələn şəxslər, yəqin, bu fikirlə razılaşarlar ki, o, dünyanın çoxdan məqbul saydığı, sadəcə, keçmiş sovet adamlarının gec görüb anladığı ölkənin bi-

rinci xanımı missiyasını yerinə yetirirdi. Zərifə xanım heç vaxt xeyirxahlığını kimsədən əsirgəmirdi, ona müraciət edənləri naümid qaytarmırdı. Sadəcə, bunu yalnız onun yaxın çevrəsi bilirdi. Eynilə qədimdən, gen yaddaşımızla xislətimizə hopmuş "sağ əlin verdiyindən sol əlin xəbəri olmamalıdır" kəlamında deyildiyi kimi…"

O, başqaları kimi oturub evinin xanımlığını da edə bilərdi. Ancaq zəhməti, sənəti naz-nemətdən, "saray xanımlığı"ndan üstün tutdu. Bir ailənin deyil, xalqının, millətinin xanımına, şəfqət sahibəsinə çevrildi. Yer üzündə bundan uca, bundan qiymətli xoşbəxtlik olurmu?

Qadınlar bəşəriyyətin tərbiyəsində filosoflardan çox xidmət göstərmişlər.

Professor A.Dobromıslov: "Zərifə Əziz qızını xəyalımda oftalmoloqlar forumunun kürsüsündə canlandırıram. Bəstəboy bir qadın öz fikirlərini, baxışlarını ciddi şəkildə dinləyicilərə çatdırmaq istəyir və o bu istəyinə həmişə nail olur. Ona görə ki, təqdim etdiyi materialları məntiqi baxımdan dəqiq əsaslandırmağı bacarırdı.

...Mən bir dəfə Zərifə Əziz qızının xəstələri necə qəbul etdiyinin şahidi oldum. Xəstələr üzlərində təbəssüm müayinə olunduqdan və müalicə təyin edildikdən sonra tezliklə sağalacaqlarına ümidlə, professor Z.Ə.Əliyevaya inam hissi ilə otağı tərk edirdilər".

Keçmiş Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, hazırda Şimali Osetiyanın Prezidenti Aleksandr Sergeyeviç Dzasoxov[1] söyləyir: "Mən onu Bakıda, Zuğul-

---

[1] 3 aprel 2014-cü ildə Aleksandr Sergeyeviç Dzasoxov Azərbaycan Respublikası və Rusiya Federasiyası xalqları arasında dostluq əlaqələrinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Dostluq" ordeni ilə təltif edilmişdir

bada Əliyevlər ailəsinin qonağı olarkən görmüşdüm. Zərifə xanım nadir xeyirxahlığı ilə fərqlənirdi. O, tibb elmləri doktoru elmi adına tam uyğun gəlirdi. Onlar xoşbəxt ailə sahibi idilər. Əfsus ki, Heydər Əliyev 1985-ci ilin aprelində Moskvada ömür yoldaşını itirdi. Onun bu faciədən necə sarsıldığının şahidi olmuşam. Əminliklə deyə bilərəm ki, Zərifə xanım Əliyevlər ailəsinin yetişməsində, gözəl övladların – şərqşünas alim Sevilin, Rusiyaya dostluq münasibəti bəsləyən, bu gün Heydər Əliyevin işini davam etdirərək müstəqil Azərbaycana başçılıq edən İlhamın tərbiyəsində mühüm rol oynamışdır".

* * *

"Xoşbəxtəm ki, uzun illər boyu Zərifə xanımla işgüzar, ailəvi və dostluq şəraitində görüşmək mənə nəsib olmuşdur, – bunu Helmqolts adına Göz Xəstəlikləri İnstitutunun direktoru **K.V.Trutneva** yazırdı. – Rəhmətlik ərim, professor İvan İvanoviç Şerbatov Əliyevlər ailəsilə məndən əvvəl tanış idi. Və ilk dəfə ondan Zərifə Əziz qızı, Heydər Əliyeviç və onların o vaxt hələ balaca olan uşaqları İlya və Seva (İlham və Sevil – *müəl.*) haqqında xoş sözlər eşitmişdim".

Professor **V.Şmelyeva** demişdir: "Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu "Əvəzolunmaz insan haqqında povest" adlandırardım".

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin sabiq müdiri, 1-ci dərəcə dövlət müşaviri, fizika-riyaziyyat elmləri doktoru **Fatma Abdullazadə:**

"Sənsiz günəşsiz qaldı günlər..." Bu sözlər o böyük qadının – Zərifə xanım Əliyevanın həyat amalının mahiyyətini və onun əziz xatirəsindən bizlərə qalan nisgili

kifayət qədər ifadə edir. O, özü qədər xeyir dünyasının günəşi idi. Elə bil o, insan dünyasının hüdudsuzluğunu sübut etmək üçün doğulmuşdu. Bu günəşin cazibə dairəsinə düşən bütün böyük və kiçik planetləri sanki Zərifə xanıma xas olan daxili bir qüvvə hərəkətə gətirirdi. Bu günəş sistemində tükənməz enerji və işıq mənbəyi o özü idi".

Heydər Əliyevlə Zərifə xanımın bir-birinə münasibəti bir başqa aləm idi. Onları tanıyıb-bilənlərin dediyinə görə, Zərifə xanımın Heydər Əliyevə bəslədiyi ülvi hisslərin Yer üzündə tayı-bərabəri yox idi.

Məsələn, Aleksandr İvanov söyləyir ki, Zərifə xanım həmişə Heydər Əliyevi qapıdan yola salar, arxasınca su atardı. Heydər Əliyev də, öz növbəsində, bir səfərə çıxdımı, çatan kimi dərhal Zərifə xanımı arayırdı ki, nigaran qalmasın. O, Heydər Əliyevi, sözün əsl mənasında, ana nəvazişi və məhəbbəti ilə əhatə etmişdi, onun tək ömürgün yoldaşı deyil, həm də vəfalı dostu, sirdaşı, etibarlı sipəri idi. Bu insan özü üçün yaşamırdı, ailəsi, uşaqları ilə nəfəs alırdı. Hələ başqa Siyasi Büro üzvlərinin xanımlarından fərqli olaraq işləyirdi də, insanlara xidmət edirdi.

– Zərifə xanımda anadangəlmə bir ziyalılıq, qeyri-adi təvazö vardı. Bu ailə ilə daha yaxından tanış olduqca bildim ki, bu, genlərin işidir. Zərifə xanım xəstələnəndə ağrılarına mətanətlə sinə gərir, Heydər Əliyevin, uşaqların yanında özünü şux tutmağa çalışırdı. Bir Allah bilirdi ki, bu ona nəyin bahasına başa gəlirdi. Bir dəfə xəstəxanada yanında idik. Heydər Əliyev həkimlərlə danışırdı. Birdən Zərifə xanım məndən soruşdu: "Sən bu gün nahar etmisən?" Quruyub qaldım; vücudu qəddar bir xəstəliyin pəncəsində əsir qalan, özünə kömək edə bilməyən bu mərhəmət mücəssəməsi başqası üçün narahat olurdu. Özümü güclə saxlayıb: – Axı Siz indi o halda deyilsiniz,

– deyə bildim. Ancaq nə olsun, bağa qayıdanda gördüm ki, baş aşpaz məndən incik gəzir. Demə, Zərifə xanım ona da zəng edib məni yedizdirmədiyi üçün məzəmmət edibmiş. Bax, belə bir İnsan idi Zərifə xanım”.

Üstündən illər ötəndən sonra Rusiya Televiziyasının əməkdaşı Oksana Puşkinaya Zərifə xanımın ömürgün yoldaşına bəslədiyi məhəbbətin misilsiz həssaslığını göstərən heyrətamiz təfsilatı Heydər Əliyev özü söyləmişdi: “Xəbər verəndə ki, yanına yollanmışam (adətən, xəbər verirdilər, qardaşı, başqa qohumları daim yanında olurdular) o, yatağından qalxıb əynindəki paltarını sahmanlayar, üzünə, sifətinə diqqət yetirərdi. Ümumiyyətlə, kirşan-boya işlətməzdi, yalnız azca dodaqlarını çalarlayıb əyləşər, yolumu gözləyərdi. Yəni Heydər görsün: onun səhhəti yaxşıdır, hər şey normaldır. Mənimlə söhbətləşincə heç bir giley-güzarı dilə gətirməzdi. Mənə sonra danışardılar: mən gedən kimi o, yatağında uzanıb yenə də öz xəstəliyinə qapanırmış.

...Bir dəfə mənim hərarətim qalxdı. Məlum oldu ki, əsəbilik ucbatından iki tam sağlam dişim hovlanıb. Məni Miçurin prospektində yerləşən həmin xəstəxanaya apardılar. Orada Siyasi Büro üzvləri üçün ayrıca palata var. Mən artıq xəstə geyimində onun yanına gəldim. Təşvişə düşdü. “Bu nədir? Niyə belə eləyirsən? Sən yataqda qalmalısan”. Dedim ki, heç nə olmaz, azca hərarətim var, məni bir balaca müalicə eləmək istəyirlər. Həm də sənin yanında olmaq istəyirəm. Və mənimlə olan həkimlərə nə desə yaxşıdır? Dedi ki, xahiş edirəm, gedin elə eləyin ki, o tez sağalsın. Mənimki bitib. Bax, belə”.

* * *

Bu gün də onu Moskvada böyük sevgiylə, sayğıyla xatırlayırlar. İstər Həkimləri Təkmilləşdirmə İnstitutun-

da, istərsə də vaxtı ilə redaksiya heyətinin üzvü olduğu "Вестник офталмологии" jurnalında. Həm də sovet oftalmologiyasının görkəmli nümayəndəsi kimi. Əslində, bunu heç də təsadüfi saymaq olmaz!.. Ən azı bu fakta görə: Zərifə xanım Əliyeva SSRİ-də Akademik Averbax adına mükafatı alan ilk qadın oftalmoloq olub. Və sovet oftalmologiyasının az qala atası sayılan Mixail İosifoviç Averbaxın adına olan bu mükafat indi, demək olar ki, hər il təqdim olunur. Amma sovetlər dönəmində nadir hallarda sahibini taparmış.

## On beşinci fəsil

# MOSKVANI TİLSİMƏ SALAN RUH...

*Öləndən sonra unudulmaq istəmirsinizsə,*
*ya oxumağa dəyən şeylər yazın,*
*ya da yazılmağa dəyən şeylər edin.*
*Franklin*

Unudulmaz Zərifə xanıma ithaf olunan bu şeiri Xalq Şairi Mirvarid Dilbazi 1985-ci ildə qələmə alıb:

*O ağıl, o kamal, sədaqət rəmzi*
*Bənövşə fəslində tərk etdi bizi.*
*Üstünə tökülən güllər ağladı,*
*Ona ana deyən dillər ağladı.*
*Analıq etdiyi neçə oğul, qız,*
*Parlaq istedadlar qaldı anasız.*
*O qüdrət timsalı, böyük sərkərdə*
*Ağladı, dözməyib bu acı dərdə.*
*Tabutun üstünə əyilib başı,*
*Güllərə qarışdı onun göz yaşı.*
*Kişilər ağlasa, ağlayar vətən,*

*Zəriflər zərifı Zərifəmiz sən –*
*Nə ülvi qadındın, nə zəngin xilqət,*
*Sənsiz gözüyaşlı qalan məhəbbət*
*Sənin şöhrət oldu təmiz adına.*
*Eşq olsun qüdrətli o sərkərdənin*
*Qəlbini fəth edən müdrik qadına!*

15 aprel 1985-ci il...

Həmin gün Azərbaycan xalqı çox layiqli bir övladını, öz şəxsiyyətində Azərbaycan qadınına xas olan ən yüksək keyfiyyətləri təcəssüm etdirən bir xanımı, böyük alimi itirdi.

Aprelin 17-də Moskvada SSRİ Elmlər Akademiyasının Alimlər Evi matəm libasına bürünmüşdü. Mərhumun gül-çiçəyə qərq olmuş cənazəsi önünə dövlət rəhbərləri və onların ailələri adından əklillər qoyulurdu.

Böyük bir əklilin matəm lentinin üzərində yazılmışdı: "Hədsiz dərəcədə sevdiyim əziz və əvəzolunmaz həyat yoldaşım Zərifə Əziz qızına Heydər Əlirza oğlundan". Bu əklilin yanında mərhumun uşaqlarının, nəvələrinin adından da əklillər qoyulmuşdu: "Əziz sevimli və unudulmaz anamıza Sevildən və Mahmuddan", "Əziz, sevimli və unudulmaz anamıza Mehribandan və İlhamdan", "Əziz, sevimli nənəmizə Zərifədən, Əhməddən və Leyladan".

Bu hüznlü gündə Moskva səmasını səhərdən qara buludlar almışdı. Yağış gah yağır, gah ara verirdi. Alimlər Evinin yerləşdiyi küçə və məhəllələrlə, hava şəraitinə baxmayaraq, irəliləyən ucu-bucağı görünməyən insan axını Zərifə Əziz qızı Əliyeva ilə vidalaşıb, ona son borcunu verməyə tələsirdi.

Matəm melodiyaları səslənirdi.

V.İ.Vorotnikov, A.A.Qromıko, N.A.Tixonov, V.M.Çebrikov, Y.K.Liqaçov, K.V.Rusakov, N.İ.Rıjkov, N.K.Bay-

bakov, İ.İ.Bodyul, N.V.Martınov, G.İ.Marçuk, Z.N.Nuriyev, Y.P.Ryabov, N.V.Talizin, V.V.Smirov, V.Y.Serbina, T.N.Menteşaşvili Z.Əliyevanın parlaq xatirəsini yad etmək, H.Ə.Əliyevə, mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı vermək üçün buraya gəlmişdilər. K.M.Bağırov, H.Ə.Həsənov, S.Ç.Qasımova, H.N.Seyidov, S.B.Tatlıyev, Q.A.Xəlilov, Z.M.Yusifzadə, SSRİ Səhiyyə naziri S.P.Burenkov, SSRİ EA-nın prezidenti A.P.Aleksandrov, SSRİ Tibb Elmləri Akademiyasının prezidenti N.N.Bloxin, Sülhü Müdafiə Komitəsinin sədri G.A.Jukov, respublikaların nazirlər sovetlərinin sədrləri, Azərbaycanın bir sıra nazirlik və baş idarələrinin rəhbərləri, görkəmli sərkərdələr, alimlər, mədəniyyət xadimləri fəxri qarovulda dayanmışdılar.

V.İ.Vorotnikovun, V.V.Qrişinin, A.A.Qromıkonun, Q.V.Romanovun, B.N.Ponomaryovun, V.M.Çebrikovun, İ.V.Kapitonovun, Y.K.Liqaçovun, K.V.Rusakovun, N.İ.Rıjkovun, mərhum L.İ.Brejnevin, K.U.Çernenkonun həyat yoldaşları öz kədərlərini bildirmək, mərhumun ailəsinə başsağlığı vermək üçün buraya gəlmişdilər.

Keçmiş Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd Aleksandr Dzasoxov bizi Zərifə xanımla vidalaşma gününə qaytarır:

"…Bu, çox kədərli gün idi. Biz Zərifə xanımı Moskvada son mənzilə yola salanda hava da, insanlar da tutqun idi. Zərifə xanım füsunkar qadın və Heydər Əliyevin gözəl dostu idi. O, bizi tərk etdi və Heydər Əliyevin həyatında çox şey dəyişdi. Zərifə xanım elmlər doktoru idi, ziyalı ailəsində, nümunəvi bir ailədə böyümüşdü və təbii olaraq, Heydər Əliyevi ən gözəl şəkildə tamamlayırdı".

Mərhumun həmkarları – tibb işçiləri, elm və mədəniyyət xadimləri, əmək kollektivlərinin nümayəndələri tibb elminə və praktikasına, yüksəkixtisaslı tibb kadrlarının hazırlanması işinə sanballı töhfələr vermiş həkim, alim

və pedaqoqa dərin ehtiram və minnətdarlıq borcunu yerinə yetirərək cənazəsi önündən keçirdilər. Bu kədərli anlarda Z.Ə.Əliyevanın parlaq xatirəsini yad etməyə gələnlər arasında onun çoxsaylı tələbələri də vardı. Z.Ə.Əliyeva onlara nəinki öz dərin biliklərini, həm də ürəyinin hərarətini, işə əvəzsiz sədaqət ruhunu verməyə çalışmışdı.

Budur, salon boşalır: mərhumun ən yaxın adamları sonuncu dəfə vidalaşmaq üçün onunla təklikdə qalırlar...

* * *

***Haşiyə:*** "İndiki kimi yadımdadır. Zərifə xanımın dünyasını dəyişməsi xəbərini axşam televiziyadan eşitdim. Mərhumla vidalaşma yerini də elan etdilər... Səhər tezdən birbaşa Alimlər Evinə yollandım". Bu sətirlər Moskva Beynəlxalq Münasibətlər İnstitutunun məzunu **Teymur Yəhyayev**in "Tanıdığım kimi, başa düşdüyüm qədər" kitabından götürülüb.

Müəllif yazır: "Dərd o qədər ağır idi ki, bilinmirdi kim kimə ürək-dirək versin. Hamı təsəlli gözləyirdi.

Heydər Əliyevi gördüm. Rəsmiyyəti, dünyanı unutmuşdu. Dərdi ilə döş-döşə, ara vermədən hönkürürdü. Gözlərindən gilə-gilə yaş tökülürdü. O qədər insanın arasında sanki tənha idi. "Ən böyük, ən ağıllı dayağı"ndan məhrum olmuşdu. Anladım ki, Azərbaycandan başqa hər şeydən, hamıdan çox istəyirmiş həyat yoldaşını. Qəribə, çox qeyri-adi ağlayırdı bu nəhəng insan. Məsum bir uşağa dönmüşdü. Amma şir kimi nərə çəkirdi. Diqqət mərkəzində olduğunun fərqinə varmırdı. Qəm-qüssə yaddan çıxarmışdı hər şeyi.

...Heydər Əliyev saatlarla toxtamaq, sakitləşmək bilmədi. Necə ağlayırdı, elə də ağladı. Hıçqıra-hıçqıra, nəfəs yandıra-yandıra. Böyük şəxsiyyətlər dərdlərini də böyüklüklə, bütövlüklə yaşayırmışlar. Başsağlıqları verildikcə

sanki sözləri eşitmirdi, başını azacıq tərpətməklə razılığını bildirirdi. Axıra qədər kədərinə söykənib qaldı. Gördüm ki, biz ömür-gün yoldaşına vəfanı, sədaqəti ondan öyrənməliyik. Sədaqət dərsi almalıyıq.

Heydər Əliyev bu ağır dəqiqələrdə necə var, elə də görünürdü.

...Bir müsəlman qızının ruhu, elə bil, Moskvanı tilsimə salmışdı.

İlham sarsılmışdı. Ağrısında da məsuliyyət hiss edirdi".

Matəm mərasiminin iştirakçısı olan müəllif Zərifə xanımın insanlara sonsuz sevgisindən, Moskvada tanıdığı azərbaycanlı gənclərə göstərdiyi ana qayğısından, onların dərsi, dolanışığı, səhhəti ilə maraqlanmasından, çətinliklərdən qorxmamağa ürəkləndirməsindən bəhs edir.

...Zərifə xanımın vəfatının bütün ailə üzvlərinin taleyindən izsiz ötüşmədiyini, qəfil gələn ayrılıq adlı arzuolunmaz "qonağ"ın onların təbəssümünə kölgə saldığını, övladları İlhamın gözlərinə, Sevilin mahnılarına qəm ələdiyini qeyd edən T.Yəhyayev həm də Zərifə xanımın ailə üzvlərinə sevgisindən söhbət açır:

"Zərifə xanımın İlhama məhəbbəti ananın oğula olan adi sevgisindən çox-çox böyük idi. Münasibətlərində bacı-qardaşlıq mehri də duyulurdu, dost dəyanəti də hiss olunurdu. Belə bir bütöv istək heç nağıllarda, əfsanələrdə olmur. Zərifə xanım fikirlərini İlhamla bölüşməkdən sanki ləzzət alırdı. Onu dostlarından ayrı təsəvvür etmir, onları da doğma övladı tək sevir, diqqətində saxlayırdı. Oğlunu həmişə sağlam əhatədə görmək istəyirdi, onları ən etibarlı arxa, dayaq sanırdı.

...Onun üçün xoş ülfət, insani dəyər hər şeydən üstün idi. Kiməsə köməklik göstərmək, kiminsə sevincinə şərik olmaqdan uca zövq tanımırdı. Böyük insanın həyat yoldaşı olmaq ona fəxrlə yanaşı, məhrumiyyətlər də gətir-

mişdi. Heydər Əliyevin gərgin iş rejiminə, vaxtının çoxunu, demək olar, hamısını vəzifəsinə sərf etməsinə özünü və uşaqlarını öyrətmişdi.

Zərifə xanım təkcə tanınmış göz həkimi deyildi. İnsanın xasiyyətini gözlərindən oxuyurdu. Bir dəfə zənlə baxmaqla kimin kim olduğunu bilirdi. Təsadüfi deyil ki, Qorbaçovu SSRİ-də birinci o tanımışdı və Heydər Əliyevə bu barədə açıq demişdi".

Zərifə xanımın bu keyfiyyəti fransız yazıçısı Onore de Balzakın "Qadın instinkti böyük insanların uzaqgörənliyinə bərabərdir" fikrini yada salır.

Qoca tarix zora, məkrə arxalanan qoluzorlulular üzərində çəlimsiz, müdrik anaların, ağbirçək və səbirli qadınların vuruşsuz-silahsız qalib gəldiyinə az şahid olmayıb.

Biz isə ağrılı-acılı da olsa, qayıdaq Zərifə xanımın dəfn mərasiminə...

* * *

...Saat 16-dır. Hüznlü melodiyaların sədaları altında mərhumun cənazəsi Alimlər Evinin binasından çıxarılır.

Küçəni bürüyən matəm korteji Novodeviçye qəbiristanlığına yönəlir. Burada matəm mitinqi keçirilir.

Matəm mitinqini SSRİ Səhiyyə naziri **S.P.Burenkov** açdı.[1]

O dedi: "Tibb elmi, səhiyyəmiz ağır itkiyə məruz qalmışdır. Böyük alim və ictimai xadim, tibb elmləri doktoru, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri professor Zərifə Əziz qızı Əliyeva vaxtsız vəfat etmişdir. O, həmçinin Azərbaycanın Əməkdar Elm Xadi-

---

[1] Matəm mitinqindəki çıxışlar ixtisarla verilib

mi, Sülhü Müdafiə Komitəsinin üzvü, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü idi.

...Z.Ə.Əliyeva özünü tibbi tədqiqatların istedadlı təşkilatçısı, sənaye oftalmologiyası sahəsində görmə orqanının peşə patologiyası məsələləri üzrə böyük mütəxəssis, dərin klinik təfəkkürə və zəngin pedaqoji təcrübəyə malik alim kimi göstərmişdir. O, ölkədə ilk dəfə olaraq sənaye istehsalının müxtəlif sahələrində göz xəstəliklərinin profilaktikasına dair geniş tədqiqatlar aparmışdır".

Natiq tibb ictimaiyyəti adından dərindən kədərləndiyini bildirdi, mərhumun qohumlarına və yaxın adamlarına başsağlığı verdi. S.P.Burenkov dedi: "Böyük alim, həkim, pedaqoq, həssas və qayğıkeş insan Zərifə Əliyevanın parlaq xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".

Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri professor **N.B.Şulpina** da mərasimdə çıxış etdi. O dedi: "Ölkəmizin oftalmoloqları bizə qəfil üz vermiş bədbəxt hadisədən mütəəssir olmuşlar. İnanmaq istəmirsən ki, tibb doktoru, professor, Əməkdar Elm Xadimi, Tibb Elmləri Akademiyası mükafatının laueratı, Azərbaycan EA-nın akademiki Zərifə Əliyeva artıq bizimlə deyil. Onun bir alim, pedaqoq, həkim kimi istedadı çoxcəhətliyi və dərinliyi ilə insanı heyrətə gətirirdi. Zərifə xanım canlı zəkası, orijinal mühakimələri və parlaq mətbu çıxışları ilə seçilirdi. O özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması ilə hamının hörmətini qazanmışdı. Zərifə xanımla ünsiyyət saxlamaq səadətinə nəsib olmuş hər bir şəxs onun bu insani keyfiyyətlərini öz üzərində hiss etmişdir.

Zərifə Əliyeva seçdiyi sənətin yorulmaz fədaisi idi.

Zərifə xanım Moskva və Azərbaycan tibb işçilərinin uzun illər səmərəli dostluq əlaqələrinin təşəbbüskarı olmuşdur. Onun səyləri ilə Mərkəzi Həkimləri Təkmilləş-

dirmə İnstitutunun Oftalmologiya kafedrasının əməkdaşları tərəfindən Azərbaycanın göz həkimlərinin səyyar təkmilləşdirilməsi işi aparılmışdır. İndi biz Zərifə xanımın öyüdlərini yerinə yetirməkdə davam edərək, əvvəlki kimi, yenə də respublika üçün aspirantlar hazırlayırıq.

Biz öz aramızda bu təkrarolunmaz insanı, tükənməz nikbinlik xəzinəsini, şəfqətli qadını oftalmologiyanın mirvarisi adlandırırdıq...

Zərifə Əliyevanın işıqlı obrazı yüksək vətənpərvərlik və humanizm nümunəsi kimi həmişə bizimlə qalacaqdır. Zərifə xanım elə bir böyük cazibə və kristal təmizlik sahibi idi ki, onun qarşısında diz çöküb baş əyməmək mümkün deyildir".

* * *

Tribunaya Azərbaycan EA-nın prezidenti **Eldar Salayev** çıxır.

O deyir: "Bu gün biz ən görkəmli sovet oftalmoloqlarından birini, böyük alim, gözəl pedaqoq, ictimai xadim, Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycanın Əməkdar Elm Xadimi Zərifə Əziz qızı Əliyevanı dərin hüzn və ürək ağrısı ilə son mənzilə yola salırıq. O öz parlaq həyatının hər bir anını xalqına, onun elminə, insanların sağlamlığı işinə həsr etmişdir. Zərifə xanım Əliyeva oftalmologiyanın inkişafına böyük töhfələr vermişdir. Elmi tədqiqatların bacarıqlı təşkilatçılığı, dərin klinik düşüncə, parlaq pedaqoji istedad onun şəxsində üzvi surətdə qovuşmuşdu. Bu, çox nadir şəxsiyyətlərə nəsib olan bir keyfiyyətdir. Görmə orqanının peşə patologiyalarına həsr olunmuş tədqiqatları onu nəinki ölkəmizdə, onun hüdudlarından uzaqlarda da tanıdırdı. Həmin araşdırmaları alimin beş nəhəng monoqrafiyasında və yüzdən artıq digər elmi əsərində öz əksini tapmışdır. Bu əsərlər nəzəri və tətbiqi baxımdan müstəsna əhəmiyyət daşıyır.

Zərifə xanımın öz tədqiqatları ilə elmin yeni və perspektivli bir sahəsinin – sosial oftalmologiya adlandıra biləcəyimiz istiqamətin əsasını qoyduğunu söyləməyə bu gün bizim haqqımız çatır. Görmə orqanının peşə zədələnmələrinə həsr etdiyi silsilə tədqiqatlarına görə Zərifə Əziz qızı Tibb Elmləri Akademiyasının Akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. Ölkəmizdə ilk dəfə olaraq məhz o, Bakı Məişət Kondisionerləri Zavodunun nəzdində Azərbaycan EA Fiziologiya İnstitutunun Görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyasını təşkil etmişdi. Bu, unukal bir elmi müəssisədir. Orada müxtəlif kimyəvi tədqiqatlar aparılır. Dünyada misli-bərabəri olmayan bu elmi tədqiqatların bir çoxunun elmi rəhbəri və ilhamvericisi Zərifə xanım idi.

...Bütün ömrünü insanlara xidmət işinə həsr etmiş bir insanı son mənzilə yola salmaq həddən artıq ağırdır. Biz hamımız bu erkən, vaxtsız və əvəzedilməz itkidən dərindən sarsılmışıq. Unudulmaz Zərifə xanım hələ insanlara nə qədər fayda verə bilərdi! Onun haqqında belə düşünməyin özü də çətindir. Bircə şey ürəklərimizə təskinlik verir ki, onun adı müqəddəs elm məbədində, qədirbilən xalqımızın hafizəsində əbədilik həkk olunmuşdur".

Natiq sözünün sonunda Azərbaycan alimlərinin dərd və ələmini ifadə edərək bu ağır dəqiqələrdə Zərifə Əliyevanın ailəsinə dərin hüznlə başsağlığı verdi. Dedi ki, mərhumun adı həmişə vətənə sədaqət simvolu kimi ürəklərdə yaşayacaqdır.

Söz Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, Tibb Elmləri Akademiyasının müxbir üzvü **M.C.Cavadzadə**yə verildi:

"Biz Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının müdiri, Azər-

baycan EA-nın akademiki, tibb elmləri doktoru, professor, Azərbaycanın Əməkdar Elm Xadimi Zərifə Əziz qızı Əliyevanın vaxtsız vəfatı xəbərini dərin hüzn və ürək ağrısı ilə qarşıladıq.

Yaradıcılıq gücünün çiçəkləndiyi dövrdə dünyadan vaxtsız köçmüş bu alimin ağır itkisindən keçirdiyimiz sarsıntını dilə gətirmək mənim üçün ağırdır.

Zərifə xanımın həyat və fəaliyyətinin təxminən on səkkiz ili Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrası ilə sıx bağlı olmuşdur. O, burada əmək fəaliyyətinə dosent kimi başlamışdır.

Çoxlarınız Zərifə xanımın Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müvəffəqiyyətlə keçmiş doktorluq dissertasiyasının müdafiəsini xatırlayırsınız. O, həmin işdə görmə orqanının müasir patologiyalarının aktual problemlərini dərindən öyrənərək, elmi oftalmologiya və gigiyenaya töhfələr vermişdir.

Zərifə xanım bizim institutun göz xəstəlikləri şöbəsinin professoru olmuş, sonra isə müdiri seçilmiş və ömrünün sonuna qədər bu vəzifənin öhdəsindən uğurla gəlmişdir...

...Hədsiz zəhmətsevərlik, böyük təşkilati iş bacarığı, xeyirxahlıq, güclü şəxsi cazibə, hər bir əməkdaşa daim kömək göstərmək və eyni zamanda bu işi tələbkarlıqla sıx surətdə qovuşdura bilmək... Bütün bu əsl alimə xas yüksək insani keyfiyyətlər Z.Ə.Əliyevaya imkan vermişdi ki, kafedradakı vəzifəsini yerinə yetirməklə bərabər həm də ölkəmizdə ilk dəfə olaraq görmə orqanının patologiyasının öyrənilməsi üzrə elmi-tədqiqat laboratoriyası açıb onun da işinə rəhbərlik edə bilsin.

Z.Ə.Əliyevanın xarakterik cəhətlərindən biri də təbabət sahəsindəki yeniliklərə diqqətcilliyi, həmin yenilikləri

öz elmi yaradıcılıq sferasına daxil etməsi və tədqiqat nəticələrinin klinik praktikada tətbiqi idi. Elə son illər institutumuzda araşdırılan irsi xəstəlik problemləri də buna görə onu maraqlandırmış və Zərifə xanım həmin problemin öyrənilməsinə qoşulmuşdu. Sevimli akademik yoldaşımızın elmi işlərindəki rəngarənglik onun maraq və tədqiqat dairəsinin nə qədər geniş olduğuna əyani sübutdur.

...Zərifə xanımın xəstələrə yüksəkixtisaslı yardım işinin təşkili üzrə xidmətləri də misilsiz olmuşdur. Hərtərəfli klinik erudisiya, geniş cərrahiyyə diapazonu, insanlara həssas münasibəti həmkarları və xəstələri arasında ona böyük hörmət-izzət gətirmişdi.

Bizi vaxtsız tərk etmiş məşhur alim, istedadlı oftalmoloq, cərrah və pedaqoq, savadlı həkim, həssas və qayğıkeş yoldaşımız akademik Zərifə Əziz qızı Əliyevanın işıqlı xatirəsi onunla işləyənlərin, onu tanıyanların qəlbində həmişəlik yaşayacaqdır.

Biz Zərifə xanımın nurlu siması qarşısında baş əyirik.

Əlvida, əziz dostumuz, bacımız!"

* * *

N.M.Piroqov adına İkinci Moskva Tibb İnstitutu Göz xəstəlikləri kafedrasının müdiri professor **A.P.Nesterov** çıxış etdi:

"Zərifə xanımı tanıyanlar onu sevməyə bilmirdilər. Qadın zərifliyi, ipək kimi yumşaq xasiyyət, xeyirxahlıq, ailəsinə, dostlarına böyük məhəbbət və sədaqət hissləri onun şəxsiyyətində müstəsna zəhmətsevərlik, qarşıya qoyulmuş məqsədə çatmaq üçün inadkarlıq, tibb elminə təmənnasız xidmət borcu ilə üzvi surətdə qaynayıb qovuşmuşdu.

O, oftalmologiyanın inkişafı üçün həddindən artıq böyük işlər görmüşdü. Onun bu xidmətlərini əskiltmək

mümkün deyil. Biz dəfələrlə onunla birgə planlarımızı müzakirə etmişik. Zərifə xanım ömrünün son günlərinə qədər elmimizi düşünür, onun inkişafı üçün hələ çox şey edəcəyinə ümidini itirmirdi. O, yorulmadan çalışdığı görmə orqanının patologiyası sahəsini olduqca dərindən bilirdi. Belə biliklərə nadir hallarda rast gəlinir.

Bəli, onun gələcək üçün böyük planları vardı... Biz əlimizdən gələni edəcəyik ki, onun fikirləri gerçək əməllərdə maddiləşsin, yaxın vaxtlarda tibb elminin və həkimlik praktikasının reallıqlarına çevrilsin".

* * *

"...Alimlər Evində vidalaşma mərasimi xeyli çəkdi. Mərhumənin tabutunu aparanlar arasında həyat yoldaşı və oğlu öndə gedirdilər, – yazır Teymur Yəhyayev. – Heydər Əliyev öz xidməti "Çayka"sına minməyib son məqamda da ömür-gün sirdaşından ayrılmadı. Novodeviçye qəbiristanlığına Zərifə xanımın tabutu yanında getdi. Mən dahi Azərbaycan qızının portretini əlimdə tutaraq sarsıntı içində "RAF" maşınında əyləşmişdim.

Ulu öndərin həyəcanları öz yerini ağır bir sükuta vermişdi. O, yolboyu baxışını bir nöqtəyə zilləyib dərin düşüncələrə dalmışdı.

Həyat yoldaşının Novodeviçye qəbiristanlığında dəfn olunması hakimiyyət və ictimaiyyət tərəfindən onun şəxsiyyətinə böyük hörmət, Zərifə xanımın ruhuna dərin ehtiram, xidmətlərinə verilən qiymət idi...

Novodeviçye öz statusuna görə Kreml divarlarından sonra dövlət, mədəniyyət, elm, incəsənət xadimlərinin əbədi uyuduqları çox möhtəşəm bir qəbiristanlıq sayılırdı. Akademik Zərifə Əliyeva knyazların, Stalinin həyat yoldaşı Nadejda Alliluyevanın, Sosialist Əməyi və Sovet İttifaqı qəhrəmanlarının, filosofların, şair Yeseninin,

Vısotskinin və digər tanınmış şəxsiyyətlərin dəfn olunduğu yerdə torpağa tapşırıldı...”

* * *

Azərbaycan xalqının bu əziz qızına dərin hörmət və məhəbbət əlaməti olaraq narın yağış damlaları altında Novodeviçye qəbiristanlığında onun doğma yurdunda bəstələnmiş melodiyalar səslənir. Xalq Artisti Müslüm Maqomayev qəhər içində Üzeyir Hacıbəyovun kədərli və zərif “Sənsiz” romansını ifa edir.

* * *

SSRİ Xalq Artisti **Lütfiyar İmanov** mərhuma sağ adam kimi müraciət edərək dedi: “Əziz Zərifə xanım! Azərbaycanın mədəniyyət və incəsənət xadimləri Sizin işıqlı xatirəniz önündə baş əyirlər. Azərbaycanın şərəfli qızı, Siz doğma respublikamızı çılğın məhəbbətlə sevirdiniz, ömrünüzün sonuna qədər ona şərəf və vicdanla xidmət etdiniz. Vətən də sizi heç zaman unutmayacaq. Siz həyatı və musiqini çox sevirdiniz. Qoy bu vida günündə Sizi son mənzilə sevdiyiniz melodiyalar yola salsın!”

Müğənni bu sözləri deyib göz yaşlarını güclə boğaraq bəstəkar Emin Sabitoğlunun şair Zeynal Xəlilin sözlərinə bəstələdiyi “Bu gecə” mahnısını oxudu:

*Fikrimdə aylı, ulduzlu*
*Asiman var bu gecə.*
*Könlümdə körpə quzutək*
*Bir ümman var bu gecə.*
*Bircə sən yoxsan, əzizim,*
*Bilir aləm bu gecə!*
*Neyçin olmadın, de, ey yar,*
*Mənə həmdəm bu gecə?*
*Bircə sən yoxsan, əzizim,*

*Bilir aləm bu gecə!*
*Neyçin olmadın, de, ey yar,*
*Mənə həmdəm bu gecə?*

*Həmdəmim sıldırım dağlar,*
*Buludlardır bu gecə.*
*Qonağım qırmızı güllər,*
*Göy otlardır bu gecə.*
*Bircə sən yoxsan, əzizim,*
*Bilir aləm bu gecə!*
*Neyçin olmadın, de, ey yar,*
*Mənə həmdəm bu gecə?*
*Bircə sən yoxsan, əzizim,*
*Bilir aləm bu gecə!*
*Neyçin olmadın, de, ey yar,*
*Mənə həmdəm bu gecə?*

*Şimşəyə çaxma desəm mən,*
*İnan, çaxmaz bu gecə!*
*Araza axma desəm mən,*
*Bil ki, axmaz bu gecə!*
*Bircə sən yoxsan, əzizim,*
*Bilir aləm bu gecə!*
*Neyçin olmadın, de, ey yar,*
*Mənə həmdəm bu gecə?*
*Bircə sən yoxsan, əzizim,*
*Bilir aləm bu gecə!*
*Neyçin olmadın, de, ey yar,*
*Mənə həmdəm bu gecə?*

Matəm mitinqi bağlı elan olunur. Matəm melodiyalarının sədaları altında Zərifə xanımın cənazəsi onun doğmalarının, əzizlərinin çiynində son mənzilə yollanır...

Tabut aramla məzara endirilir. Himn səslənir.

Məzarın üzərində təzə-tər çiçəklərdən sanki bir dağ yaranır.

* * *

...Zərifə Əziz qızı Əliyevanın dəfn mərasiminə aid bu yazıları təkrar-təkrar oxuyandan sonra Xalq Şairi Nigar Rəfibəylinin "ƏLVİDA" şeirindən bu parçanı xatırladım:

*Əlvida, otağım, mavi dənizim,*
*Əlvida, qumlarda görünən izim.*
*Yollara tökülən xəzəl, əlvida,*
*Soyuq təbiətli gözəl, əlvida.*
*Dənizdən xoş əsən həzin rüzgarım,*
*Sahilə düzülən qağayılarım,*
*Suda qanad açan yelkən, əlvida...*
*Sabah ayrılıram sizdən, əlvida...*
*Görüşə gələndə hər yay, hər payız*
*Sizi yenə belə xoşhal görəydim.*
*Dünya sevinc ilə dolaydı yalnız.*
*Hicran görməyəydim, vüsal görəydim.*

"Həyat yoldaşı, övladları, həmkarları, Moskvada yaşayan Azərbaycan ziyalıları, Əliyevlər ailəsinə hörmət bəsləyən başqa xalqların nümayəndələri bura Zərifə xanımın məzarı üstünə tər gül-çiçək dəstələri gətirirdilər. Orada güllər solmurdu. Novodeviçyenin xidmətçiləri deyirdilər ki, Heydər Əliyev Zərifə xanımın ziyarətinə hər gün gəlir…"

Teymur Yəhyayev öz kitabında belə yazır:

"1993-cü ilin iyununda məni Novodeviçyedə, Zərifə xanımın məzarı yanında görən tanımadığım bir qadın gözlənilmədən mənə yaxınlaşdı və özünü təqdim etdi. Onun adı Tamara idi. Mərhumun yaxını olub-olmadığımı soruşdu. Biləndə ki, Əliyevlər ailəsinə xüsusi hörmətim

var və İlhamla dostluq edirəm, çox mütəəssir oldu. İTAR-TASS tərəfindən Bakıya ezam edildiyimi, Heydər Əliyevlə görüşmək ehtimalımın olduğunu söylədim. O, Zərifə xanımın xatirəsinə həmişə hörmət edəcəyini və onun məzarına yaxşı baxacağını çatdırmağımı xahiş etdi.

Bakıda, təzəcə Milli Məclisin Sədri seçildiyi vaxt Heydər Əliyevin kabinetində, söhbətin sonunda mən həmin moskvalı qadının sözlərini ona çatdırdım.

Onun baxışları uzaqlara dikildi. Bir anlığa respublikanın ən böhranlı çağlarında üzərinə götürdüyü saysız-hesabsız dərdlərdən ayrıldı, xəyalən ötən günlərə qayıtdı... Bəlkə də, o, Zərifə xanımın son məktubunu xatırlayırdı…"

**Son məktub**

Zərifə xanım Əliyeva bu dünyada böyük bir eşq və mənalı ömür yaşadı. Həyat yoldaşına, övladlarına, sənətinə, millətinə, vətəninə... sevgi qarşılıqlı, ömrü faydalı oldu. Bir də deyirlər ki, məhəbbət heç vaxt ölmür.

Çox-çox sonralar moskvalı telejurnalist Oksana Puşkinanın "Röyaya oxşayan məhəbbət" verilişinə müsahibəsində Heydər Əliyev deyirdi ki, həyata vida etdiyi günün axşamı Zərifə xanım ömür-gün yoldaşına "...Məndən ötrü narahat olma, uşaqlardan muğayat ol və unutma ki, mən səni çox sevirəm..." kəlmələri ilə bitən bir məktub veribmiş.

Bəli, o böyük ürək sahibinin, elm fədaisinin bu da son məktubu. "Məndən ötrü narahat olma, uşaqlara yaxşı bax. Unutma ki, mən səni sevirəm…"

"Unutma ki, mən səni sevirəm!.."

## On altıncı fəsil

# GƏLDİM ÇİÇƏKLƏRLƏ VİDALAŞMAĞA...

*Ömür keçir, yolun sonu bəllidi,*
*Hər kəsə can deyib, can eşitməli.*
*Aşıq Ələsgər*

Böyük filosof olsa da, Sokratın şagirdi, Aristotelin müəllimi Platonun qüdrəti çatmadı ki, görünməyəni görə bilsin. Və elə buna görə dedi ki, görünməyən gerçəklər barədə fikir yürütməyin. Yəni ölümdən sonrakı həyat barədə heç danışmayın. Ondan fərqli olaraq, İtaliya İntibahının rəmzi sayılan "universal insan" – ensiklopedik alim, riyaziyyatçı, mühəndis, ixtiraçı, rəssam, heykəltəraş, memar, musiqiçi və yazıçı Leonardo Da Vincinin belə bir kəlamı var:

"Yaxşı keçən bir gün necə xoşbəxt bir yuxu gətirsə, yaxşı keçən bir ömür də xoşbəxt bir ölüm gətirər".

Sokratın və Leonardo Da Vincinin yaşadığı dövrdən bizi çox əsrlər, qərinələr ayırır. İndi zaman dəyişib, başqa əyyamda yaşayırıq. Ölüm yaşanılmış insan ömrünün son nəticəsidir. Elə bir qüvvə varmı ki, təbiətin bu hökmünü

dəyişə bilsin? Bütün istəklərin sonu ayrılıq, qüssə, qəm olsa da, insan sevgisi xariqələr yaradır. Ağac öz kökləri ilə torpaqda möhkəmləndiyi kimi, dünyasını dəyişmiş insan da öz yaxşı əməlləri ilə zamanın və tarixin yaddaşında möhkəmlənir.

Varlıqla yoxluq arasında hər insan özü bir dünyadır.

Heydər Əliyevdən müsahibə götürən Rusiya jurnalisti **Aleksandr Budberq** onun çoxşaxəli fəaliyyətinin əhatə dairəsinin genişliyi qarşısında öz təəccübünü gizlədə bilməyib: "Bu qədər böyük müvəffəqiyyətlərə nail olmaq üçün nə etmək lazımdır?" Heydər Əliyevin cavabı çox sadədir: "Öz işini sevmək lazımdır".

Jurnalist bu lakonik cavabın üzərində dayanır, onu şərh edir: "O, əslində, belə demək istəmişdi: "Öz işini mənim kimi çox sevmək lazımdır". Belə olanda hər şey öz həllini tapır".

Başqa bir maraqlı söhbət. "Журналист"in baş redaktoru, Rusiya Jurnalistlər İttifaqının katibi **Gennadi Maltsev** Heydər Əliyevlə söhbət edir:

**"– Siz gündə neçə saat işləyirsiniz?**

– Bu gün həftənin hansı günüdür?

**– Şənbə.**

– Əgər mən şənbə günü işləyirəmsə… Siz sabah da mənim yanıma gələ bilərsiniz, mən burada olacağam. Mən necə işləyirəm? Mənim üçün iş saatı yoxdur, bilirsinizmi? Mənim həyatımda şənbə-bazar günləri yoxdur. Mən həmin günlərdə də işləyirəm. Ona görə ki, görüləsi işlər hələ qurtarmır. Mən evə gəlirəm və görürəm ki, bazar ertəsinə qədər təxirəsalınmaz məsələlər var, onda bazar günü də işləyirəm. Həmişə belə olur. Yadımdadır, mən Azərbaycanda işləyəndə mərhum həyat yoldaşım hərdən deyirdi: "Qulaq as, sən respublikanın rəhbərisən, səni heç kim yoxlamır". Mənim həyat yoldaşım göz həki-

mi idi, professor, elmlər doktoru idi. Onun iş yerində belə bir qayda vardı: səhər işə gəlirdilər və işə çıxmaq haqqında jurnala qol çəkirdilər. Təbii ki, o da klinikaya gedirdi və jurnala qol çəkirdi. O mənə deyirdi: "Axı səni heç kim yoxlamır. Bizi isə yoxlayırlar. Əgər mən işə gecikirəmsə, onda özümü pis hiss edirəm". Şəxsiyyət kimi ona hörmətlə yanaşırdılar, həm də axı o mənim həyat yoldaşım idi… O mənə deyirdi: "Sən nə üçün belə tələsirsən? Sən bir az gec gedə bilərsən. Sən niyə gedirsən? Bazar günü heç kim işləmir". Mən həmişə ona cavab verirdim: "Bu, vərdişdir, başqa cür ola bilməz", – deyirdim".

Heydər Əliyevin türk jurnalisti İrfan Ülküyə verdiyi müsahibədən:

"Mən yorulmağın nə olduğunu bilmirəm. Bu mənim təbiətimdədir, anadangəlmə xüsusiyyətdir. Mən hər gün on səkkiz-on doqquz saat işləyirəm. Mən sosialist iqtisadiyyatını, sosialist quruluşunu inkişaf etdirməyə çalışmışam, bunların hamısı həqiqətdir və mən bunu inkar etmək istəmirəm. Ancaq mən bu rejimdən istifadə edərək Azərbaycan xalqına çox şey vermişəm. On dörd il öz ölkəmə rəhbərlik etmişəm".

Tanınmış yazıçı, jurnalist Elmira Axundova Heydər Əliyevin həyat və fəaliyyətinə bədii-publisistik kitab həsr edib. Kitabda Heydər Əliyevi yaxından tanıyan, müşahidə edən çox adamın xatirələri var. Bunlardan biri mühüm dövlət tədbirlərinin təhlükəsizliyini təmin edən **Əkrəm Səlimzadə**nin şahid olduğu bir epizoddur. Onun danışdığı epizodda Zərifə Əliyevanın öz həyat yoldaşı, respublikanın rəhbəri haqqında qayğıkeşliyinin daha bir cəhətini görürük:

"1980-ci ildə Sovet Azərbaycanının 60 illiyi qeyd olunurdu; müttəfiq respublikaların rəhbərləri Bakıya gəlmişdilər: Rəşidov, Maşerov, Şevardnadze və başqaları

öz arvadları ilə birlikdə. Təntənə "Gülüstan" sarayında banketlə başa çatdı; qonaqlar saraya "Çayka"larda gəldilər. Zərifə xanım Əliyeva da gəldi. Mühafizə dəstəsinin rəhbəri Aleksandr Bantseryevə yaxınlaşıb təlaşla bildirdi:

– Heydər Əliyeviç səhərdən ağzına bir loxma da qoymayıb. O hətta səhər yeməyi də yeməyib. Mən çox narahatam.

– Narahat olmayın, – deyir Aleksandr Bantseryev, – yəqin, haradasa ayaqüstü qəlyanaltı edib.

– Yox, yox, siz onu tanımırsınız, mən əminəm ki, o, heç nə yeməyib…"

Ə.Səlimzadə sonra müttəfiq respublikaların rəhbərlərinin arvadlarının özlərini necə apardıqları haqda danışır:

"Rəşidovun arvadı şənlənir, qonaqların ətrafında rəqs edirdi; Şevardnadzenin xanımı öz gözəlliyi ilə işıq saçırdı. Zərifə xanım həyəcan içində üzülür, intizardan hərəkətsiz qalıb. Nəhayət, Heydər Əliyev "Volqa"da gəlir (dörd "Çayka" avtomobilinin hamısı hörmətli qonaqlara verilmişdi).

– Sən harada ləngidin? Necəsən?

O, həyat yoldaşının suallarına cavab verməyə macal tapmır: qonaqlarla məşğuldur, hər biri ilə salamlaşır və onları zala dəvət edir… Zərifə xanım Bantseryevi qonaqlara təqdim edir:

– Bilirsiniz bu kimdir? Bu adam Heydər Əliyeviçlə bir kabinetdə oturur.

Xidmətçilərlə mehribanlıqla xudahafizləşib o da zala keçir".

Heydər Əliyev ailəsi ilə birlikdə respublikadan kənarda istirahət etməyi sevirdi. Əslində, belə imkan az olurdu, xüsusən o, DTK-ya rəhbərlik edəndə. Heydər Əliyevin qızı Sevil xanım valideynləri ilə birgə Leninqrada, oradan da maşınla Baltikyanı respublikalara etdikləri



Zərifə xanım Əliyeva



Zərifə xanım sinif yoldaşları ilə.
6 yanvar 1937-ci il



Zərifə xanım sinif yoldaşları ilə.
1941-ci il



Zərifə Əliyeva Azərbaycan Tibb İnstitutunda kurs yoldaşları ilə (birinci sırada soldan dördüncü). 1943-cü il



Zərifə xanım Azərbaycan Tibb İnstitutunun bir qrup tələbəsi ilə. 1946-cı il



Zərifə xanım kafedra əməkdaşları ilə
(birinci sırada soldan birinci). 1951-ci il



Zərifə xanım iş yoldaşları ilə.
1951-ci il



Zərifə xanım (ikinci sırada sağdan birinci)
əməliyyat otağında. 1957-ci il



Zərifə xanım (soldan beşinci) Oftalmologiya İnstitutunda.
1957-ci il



Əməliyyat otağında. 1957-ci il



Əməliyyat otağında. 1970-ci il



Astara. 16 yanvar 1974-cü il



Heydər Əliyev, Zərifə xanım və SSRİ aviasiya sənayesi
naziri Dementyev Lenin adına sarayda tədbirdə.
Mart,1974-cü il



Heydər Əliyev və Zərifə xanım SSRİ aviasiya sənayesi naziri Dementyevi Bakının görməli yerləri ilə tanış edirlər. Mart, 1974-cü il



6 nömrəli məktəbdə. 1974-cü il



6 nömrəli məktəbdə. 1974-cü il



“Azərbaycan qadını” jurnalının 50 illiyinə həsr olunmuş təntənəli iclasın iştirakçıları: Heydər Əliyev, Zərifə Əliyeva, V.Tereşkova, X.Həsənova. 14 may 1974-cü il



Azərbaycan Dövlət Dram Teatrının 100 illiyinə həsr olunmuş tədbirin iştirakçıları ilə. 31 may 1974-cü il



Azərbaycan Dövlət Dram Teatrının 100 illiyinə həsr olunmuş tədbirdə. 31 may 1974-cü il



Azərbaycan Dövlət Dram Teatrının 100 illiyinə həsr olunmuş tədbirdə. 31 may 1974-cü il



Seçki məntəqəsində.
16 iyun 1974-cü il



Seçki məntəqəsində.
16 iyun 1974-cü il



Heydər Əliyev, Zərifə xanım və SSRİ Xalq Artisti
Arkadi Raykin. 1 oktyabr 1975-ci il



Zərifə xanım Moskvada XTNS-də.
May, 1977-ci il



Moskvada "Bakı" restoranında.
May, 1977-ci il



Moskvada XTNS-də.
May, 1977-ci il



6 saylı məktəbdə buraxılış gecəsində.
İyun, 1977-ci il



Oftalmoloqlar konfransının iştirakçıları ilə.
18 oktyabr 1977-ci il



Oftalmoloqlar konfransının iştirakçıları banketdə.
18 oktyabr 1977-ci il



Oftalmoloqlar konfransının iştirakçıları banketdə (soldan dördüncü Zərifə xanım Əliyeva). 18 oktyabr 1977-ci il



Oftalmoloqlar konfransının iştirakçıları ilə.
18 oktyabr 1977-ci il


Oftalmoloqlar konfransının rəyasət heyətində.
18 oktyabr 1977-ci il


Oftalmoloqlar konfransında.
18 oktyabr 1977-ci il



Zərifə xanım oftalmoloqların konfransında çıxış edir.
18 oktyabr 1977-ci il



Oftalmoloqlar konfransının rəyasət heyətində.
18 oktyabr 1977-ci il



Oftalmoloqlar konfransının rəyasət heyətində.
18 oktyabr 1977-ci il



Oftalmoloqlar konfransının rəyasət heyətində.
18 oktyabr 1977-ci il



Oftalmoloqlar konfransının iştirakçıları (soldan ikinci
Zərifə xanım Əliyeva). 18 oktyabr 1977-ci il



Respublikaya Keçici Qırmızı Bayraq verilməsi
münasibətilə keçirilən təntənəli iclasda.



Konfransda.
22 oktyabr 1977-ci il



Heydər Əliyev, Zərifə Əliyeva, Sevil Əliyeva, Tamara Sinyavskaya Bizenin "Karmen" tamaşasından sonra.
20 may 1978-ci il



Heydər Əliyev və Zərifə xanım L.İ.Brejnevi yola salırlar.
22 sentyabr 1978-ci il




Heydər Əliyev və Zərifə xanım Bakı dəmir yolu vağzalında L.İ.Brejnevi yola salırlar. 22 sentyabr 1978-ci il



Heydər Əliyev və Zərifə xanım L.İ.Brejnevi yola salırlar. 22 sentyabr 1978-ci il



“Moskva” mehmanxanasında.
10 oktyabr 1978-ci il



M.F.Axundov adına Opera və
Balet Teatrında mədəniyyət xadimləri ilə.
1978-ci il



Seçki məntəqəsində.
4 mart 1979-cu il



Moskvada keçirilən kitab sərgisində.
1979-cu il



Seçki məntəqəsində.
24 fevral 1980-ci il



SSRİ Nazirlər Sovetinin sədr müavini L.V.Smirnov
Heydər Əliyevin qəbulunda. 29 fevral 1980-ci il



Ümumittifaq yazıçılar konfransının iştirakçıları ilə.
1 noyabr 1980-ci il



Ümumittifaq yazıçılar konfransının iştirakçıları ilə.
1 noyabr 1980-ci il



Zərifə xanım "Azərbaycan qadını" jurnalının
əməkdaşlarını qəbul edərkən.
1980-ci il



Zərifə xanım təltif olunanlar arasında.
12 fevral 1981-ci il



Zərifə Əliyeva təltif olunan gün.
12 fevral 1981-ci il



Sov. İKP-nin XXVI qurultayının iştirakçıları ilə.
23 fevral 1981-ci il



Sov. İKP-nin XXVI qurultayının iştirakçıları ilə.
23 fevral 1981-ci il



SSRİ Rəssamlar Akademiyasının sessiya iştirakçıları ilə.
30 mart 1981-ci il



Elmi konfransda



Heydər Əliyev, Zərifə Əliyeva,
Niyazi, T.Xrennikov M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında konsertdə. 20 yanvar 1982-ci il



Moskva Sovet Ordusu teatrının aktyorları ilə.
23 yanvar 1982-ci il



Zərifə xanım Əliyeva



Q.Qarayevin yaradıcılığına həsr olunmuş konsertdə.
26 mart 1982-ci il



Q.Qarayevin yaradıcılığına həsr olunmuş konsertdə.
26 mart 1982-ci il



“Bilik” cəmiyyətinin X qurultayında.
17 may 1982-ci il



A.Safronovun “Ürəkdə əməliyyat” tamaşasının
premyerasında. 5 iyun 1982-ci il



SSRİ Böyük Teatrının artistləri ilə “Gülüstan” sarayında.
7 iyun 1982-ci il



Seçki məntəqəsində.
İyun, 1982-ci il




Əziz Əliyevin 85 illiyinə həsr olunmuş yubiley gecəsi.
1982-ci il



Əziz Əliyevin 85 illiyinə həsr olunmuş təntənəli yığıncaq.
1982-ci il



Həkimlər konfransında.
1982-ci il



Şuşada poeziya bayramında.
2 avqust 1982-ci il



İ.Pavlov adına Ümumittifaq Cəmiyyətinin
XIV qurultayında. 1983-cü il



İ.Pavlov adına Ümumittifaq Cəmiyyətinin
XIV qurultayında. 1983-cü il



Heydər, Zərifə və İlham Əliyevlər maestro Niyazi ilə.
1983-cü il



Konsertdə. Oktyabr, 1983-cü il

gözəl səfəri xatırlayır. Bu səfər 1966-cı ildə, Heydər Əliyev Moskvada DTK rəhbərləri üçün təşkil edilmiş kursda oxuyanda olmuşdu.

Elmira Axundova "**Heydər Əliyev: Şəxsiyyət və zaman"** kitabında Sevil xanımın sözləri ilə Əliyevlər ailəsinin istirahətlərini və asudə vaxtlarını necə keçirdiyinə dair təfsilatlar verir:

"Qışda bazar günləri şəhərdən kənara çıxırdıq, Zuğulbaya gedirdik… Yayda oraya köçürdük. Bizim yeganə ünsiyyət dairəmiz bağdakı qonşulardan ibarət idi… Bizim ailə dostlarımız Vitali Sergeyeviç və Nadejda Alekseyevna Krasilnikovlar (Krasilnikov o vaxt Azərbaycan DTK-sına rəhbərlik edirdi – *H.M.*) idi. Biz tez-tez bir yerə yığışırdıq. Anam Nadejda Alekseyevna ilə, mən isə onların qızı Aneçka ilə dostluq edirdim. Atam və anam süfrə başında şənlənməyi, zarafat etməyi sevirdilər. Anam pianoda ifa edirdi, atam isə oxuyurdu. Hamı şadlanırdı, kefimiz kökəlirdi. Sonra hərdənbir dəniz kənarında nahar edirdik.

Atam üzməyi sevirdi. Qardaşımla mən, demək olar ki, dənizdə böyümüşük. Mənim uşaqlığım DTK-nın Bilgəhdəki evində keçib. Atam birinci katib olanda biz Zuğulbaya, onun şəhər kənarındakı iqamətgahına köçdük, ilk vaxtlar mən dostlarım üçün darıxırdım…

Atam məzuniyyət götürəndə ailəliklə Yaltaya gedirdik. Orada hökumət bağları vardı. Səhər yeməyindən sonra çimərliyə gedirdik. Nahara qayıdırdıq. Atam kağızlarla məşğul olurdu, xüsusi rabitə ilə Bakıya zəng edirdi, axşamlar filmlərə baxırdıq. Valideynlərimiz bəzən Leonid İliç Brejnevin bağına gedirdi, anam onun arvadı Viktoriya Petrovna ilə dostluq edirdi".

Respublikanın keçmiş Nazirlər Sovetinin sədri **Həsən Seyidov**un Elmira Axundova ilə söhbətindən şəhər kə-

narındakı iqamətgahın sakinlərinin məişəti haqqında müfəssəl məlumat alırıq:

“Bu bağı M.C.Bağırovun vaxtında MK-nın katibi, sonralar Nazirlər Sovetinin sədri olmuş Teymur Quliyevin adı ilə əvvəllər “Teymur Quliyevin bağı” adlandırırdılar.

Çoxlu meyvə ağacları olan böyük bir sahədə ikimərtəbəli ev tikilmişdi. Bizim həmkarlardan biri zarafatla bu iqamətgahı “mədəni həbsxana” adlandırmışdı. Ona görə ki, biz işdə bir yerdə olurduq, buraya gəlib yenə həmin adamlarla rastlaşırdıq. Ərazi böyük idi, evlər hasarla ayrılmamışdı. Biz bəzən qonaq evində bir yerdə kinoya baxırdıq.

**– Siz Heydər Əliyevin ailəsi ilə qeyri-rəsmi şəraitdə görüşürdünüzmü; hər hansı ailə şənliyi, ad günü keçirirdinizmi? Sizin şefiniz işdən kənar vaxtlarda necə idi?**

– Düzü, biz tez-tez ev şəraitində görüşürdük, amma ad günlərində süfrə başında yox. O, belə şeylərə çox da əhəmiyyət verməzdi.

**– Bəs siz nə münasibətlə görüşürdünüz?**

– Bayram günlərində yığışırdıq: Yeni ildə, 7 noyabrda, 1 mayda və s. O da həmişə yox.

**– Sizin görüşləriniz necə keçirdi? Sizdən kimsə evdə yemək-içmək təşkil edirdimi?**

– Yox, axı nə üçün?.. Bizim həm şəhərdə, həm də Zuğulbada qonaq evlərimiz var idi. Ailələrimizlə birgə orada yığışırdıq. Əlbəttə, Heydər Əliyev sevinclə, yüksək əhvali-ruhiyyə ilə gəlirdi. Bəzən zarafat edirdi, lətifə danışırdı.

**– Siz nə haqda söhbət edirdiniz? İş haqqında, yoxsa hansısa başqa mövzuda?**

– İş haqqında az danışırdıq. Çünki Zərifə xanım həmişə zarafatla söhbətimizi kəsirdi: “İş haqqında danışdı-

nız, bəsdir" deyirdi. O, fortepianoda əla ifa edirdi. Ümumiyyətlə, onların ailəsi musiqi qabiliyyətli ailədir. Zərifə xanımın bacısı Gülarə xanım "Dan ulduzu" ansamblının rəhbəri idi. Zərifə xanım əyləncəni sevirdi və fortepianoda ərini özü müşayiət edirdi. Heydər Əliyev isə həvəslə oxuyurdu.

**– Repertuarda hansı mahnılar olurdu?**

– Əsasən Azərbaycan mahnılarını ifa edirdi, amma rus mahnılarını da bilirdi. Yadımdadır, yetmişinci illərin ortalarında Bolqarıstan Kommunist Partiyası MK-nın birinci katibi Todor Jivkov qızı və kürəkəni ilə Bakıya gəlmişdi. Banket zamanı hansısa bolqar mahnısını ifa etdilər. Onda Heydər Əliyev dedi: "Gəlin biz də nə isə oxuyaq". Biz də xorla "Moskva axşamları"nı oxuduq. Siz bir görəydiniz Heydər Əlirza oğlu necə rəqs edirdi! Əsl peşəkarlar kimi... Milli rəqsləri də, valsı da, Qərb rəqslərini də..."

HHM qoşunları Bakı dairəsinin keçmiş komandiri **Anatoli Konstantinov**a da Heydər Əliyevlə bir süfrə başında oturmaq qismət olub. Anatoli Ustinoviç bunları xatırlayır:

"Heydər Əliyev dostları qəbul edəndə, banketlərdə özünü dövlət adamı kimi yox, sadə vətəndaş kimi aparırdı. Belə şənliklərdə onlar Zərifə xanımla bir-birlərini çox yaxşı başa düşürdülər. Zərifə xanım pianoda çalırdı, oxuyurdu, Heydər Əliyev isə bütün qadınlarla rəqs edirdi. Başqa rəhbərlər danışmağa başlayır, heç kimə də macal vermirdilər. Burada isə hər şey başqa cür olurdu... Mən də, arvadım da çıxış edirdik, başqaları da söz alırdılar. Sağlıq deyilir, maraqlı əhvalatlar danışılırdı.

Hamı qeyd edirdi ki, onunla Zərifə xanım arasında həqiqətən həssas, duyğulu münasibət var. Heydər Əliyev onu çox sevir və əzizləyirdi.

Onların çox mehriban ailəsi vardı. Rəqs etmək vaxtı çatanda təşəbbüsçü Zərifə xanım olurdu. O, gah milli paltar geyirdi, gah şlyapa qoyurdu, bir sözlə, oyunu təşkil edirdi. O, şən, zarafatı sevən adam idi. Heydər Əliyev də ona qoşulurdu.

Uzun illər Tibb Universitetində dərs demiş **Faqumə Bağırlı** xatırlayır:

"Cavan vaxtımda bir dəfə xəstəxananın uşaq şöbəsində növbətçilik edirdim. Xəbər verdilər ki, DTK sədrinin övladını müayinəyə gətiriblər. Mən çıxdım və balaca, zəif İlhamı Zərifə xanımın əlləri üstündə gördüm. O, oğlunun vəziyyətindən çox narahat idi, ağlayırdı. Heydər Əliyev isə ona təskinlik verir, sakitləşdirirdi: "Zərifə, ağlama, bizim yeganə oğlumuz var, Allah onu bizdən almaz…"

Zərifə xanım çox həssas ana idi, onun ürəyi uşaqlara məhəbbətlə dolu idi. O, bütün ömrünü mənəvi dəyərlərə sədaqətlə yaşadı. Etibarlı həyat yoldaşı idi, uşaqların sağlamlığına can yandırırdı. Çalışırdı ki, onlar layiqli vətəndaşlar kimi böyüsünlər. Buna görə də onun həyatında xoşbəxt, qayğısız günlərlə yanaşı, həyəcanlı, narahat günlər də az olmamışdır.

Onun alicənab insani keyfiyyətləri, həkimliyi və elmi fəaliyyəti haqqında çox kitablar yazılıb. Bütün müəlliflər bir fikirdə yekdildirlər ki, Heydər və Zərifə Əliyevləri bir-birindən ayrı təsəvvür etmək olmaz".

Zərifə xanım Heydər Əliyevin çətin dəqiqələrdə söykənə biləcəyi etibarlı arxa idi. Onların qarşılıqlı münasibətinin özülünü bir-birlərinə və ətrafındakılara hörmət təşkil edirdi. Həyat yoldaşının vaxtsız vəfatından sonra da Heydər Əliyev bu prinsiplərə sadiq qaldı.

Müslüm Maqomayev xatırlayır:

"Heydər Əliyeviç həyat yoldaşına "Zəriş" deyərdi. Zərifə xanım onu daban-dabana izləyirdi. Tamara ilə

mənim yanımda Zərifə xanım ona adı və atasının adı ilə müraciət edirdi: "Heydər Əliyeviç, bu Sizə kifayət edər… Bu Sizə olmaz…" Belə bir əhvalat olmuşdu: bir məsələdən ötrü mən Heydər Əliyeviçlə görüşmək üçün Bakıya gəlmişdim. Mahiyyətcə elə bir məsələ deyildi, lakin mən bir nəfərə söz vermişdim ki, Heydər Əliyeviçlə danışaram. Gəlib Rəfael Allahverdiyevə zəng etdim və dedim: "Heydər Əliyeviçə xəbər verin ki, mən Bakıdayam". "Baş üstə". Mən üç gün gözlədim, heç bir xəbər olmadı. Nəhayət, Zərifə Əzizovnaya zəng edib dedim: "Moskvada mənim təcili işim var, lakin Heydər Əliyeviçlə görüşməliyəm, cəmisi beş dəqiqə söhbət edəcəyəm. Bununla əlaqədar Siz mənə kömək edə bilərsinizmi?" "O hələ səni qəbul etməyib? Bir gör". Yəqin ki, mənim xəttin bu başında olduğumu və hər şeyi eşitdiyimi unudaraq Zərifə xanım başqa telefonda Heydər Əliyeviçə gileylənməyə başladı: "Heydər, oğlan gəlib, üç gündür burada oturur, məgər sən beş dəqiqə vaxt ayıra bilmirsən?"

Bu sözlər elə tonda deyilirdi ki, mən Zərifə xanımın onunla necə inamlı münasibətdə olduğunu başa düşdüm. Onun tez-tez işlətdiyi "Heydər Əliyeviç" xitabı isə kənar şəxslərin yanında etiketin gözlənilməsi idi.

Zərifə xanım çox şən, zarafatcıl olduğundan kampaniyaların canı olurdu. Müdrik və həyatsevər idi, musiqini düzgün qavrama qabiliyyəti vardı, royalda çox gözəl ifa edirdi. O, həkim olmasaydı, siyasətçi arvadı olmasaydı, musiqiçi olardı.

Heydər Əliyev də yaxşı rəssam, aktyor ola bilərdi. Çıxış edəndə o, əsl aktyorlara məxsus qaydalarla danışırdı".

Sevil xanım danışır:

"Heydər Əliyev plenumlarda, iclaslarda, sessiyalarda iştirak etmək üçün Moskvaya gedəndə Zərifə xanımı və

uşaqları da özü ilə götürürdü. Atam bizsiz qala bilmirdi. Biz hər yerə dördlükdə gedirdik. 1976-cı ildə onu Siyasi Büroya üzvlüyə namizəd seçəndə biz də onunla idik. Biz sevinirdik, fəxr edirdik!"

Sevil Əliyeva söhbəti atasının xarici görkəmə, paltara olan diqqətli münasibətinə gətirir:

"Onun üçün köynək seçmək çətin məsələ idi, ancaq müəyyən biçimdə olan köynəklər onun xoşuna gəlirdi. Klassik formaya üstünlük verirdi. Köynəyin yaxalığı qalstukun düyününə ideal şəkildə uyğun gəlməli idi…

Köynəyi və qalstuku onun üçün anam alırdı. Ümumiyyətlə, o, parlaq qalstuklara üstünlük verirdi və deyirdi ki, belə qalstuklar sifətə yaxşı çalar verir. Mən ona qalstuk seçməkdə çətinlik çəkirdim: rəngi, düyünü, naxışı onun ürəyincə olmalı idi. Xatırlayıram, mən ona Londondan parlaq mavi rəngdə bir neçə qalstuk gətirmişdim. Onlar elə xoşuna gəlmişdi ki, hər gün birini bağlayırdı və mənə: "Görürsən, hər gün sənin gətirdiyin qalstukları vururam", – deyirdi".

**V.P.Nesterov** və **A.F.Brovkina** yazırlar ki, Zərifə Əziz qızı həyatının son gününə qədər işdən ayrılmadı:

"Ağır xəstə olmasına baxmayaraq, o, ölümünə bir neçə gün qalmış xəstəxanadan bizimlə telefonla danışdı, əsasən ailə və iş haqqında söhbət etdik. O, hərtərəfli istedada malik idi. İstedadlı alim, həkim və pedaqoq kimi o, kafedra və laboratoriya rəhbəri olmaqla yanaşı, həm də qayğıkeş, zərif qadın, ana, nənə olaraq qalırdı.

Biz otuz ildən çoxdur ki, klinikada işləyirik və çox xəstələr görmüşük. İnsan xəstələnəndə onun xarakteri üzə çıxır: bəziləri özünə qapılır, adamayovuşmaz olur, bəziləri bütün diqqətini yalnız xəstəliyə yönəldir, daim xəstəliyin ayrı-ayrı məqamlarını araşdırmağa aludə olur,

üçüncülər tərslik edir, bəzən ətrafındakılara qarşı həddindən artıq kobud olur.

Ağır xəstəliyi dövründə Zərifə xanım, sözün əsl mənasında, ləyaqətini və mənəvi gücünü göstərdi".

**M.M.Krasnov** da Zərifə xanımın dəyanətini və həyat eşqini heyranlıqla nəql eləyir:

"O, xəstəliyi ilə necə də mübarizə aparırdı! Müalicə ağır idi, ağrılı idi. İnsanı təkcə fiziki cəhətdən yox, həm də psixoloji cəhətdən yorub əldən salırdı. Ancaq mən də, mənim tanışlarım da onun bir dəfə olsun şikayət elədiyini eşitmədik. Həyatının son anına kimi Zərifə Əliyeva gələcək planlarla yaşadı. Yaxınlaşan ölümü hiss edirdimi? Bunu demək çətindir. Ölümün yaxınlaşdığını hiss edən xəstələrin əksəriyyəti sanki vaxtından bir az da əvvəl həyatdan əlini üzür, ümidsizliyə qapılır; həyatla, insanlarla özü arasında gözə görünməyən bir pərdə çəkir. Ancaq burada vəziyyət tamamilə başqa cür idi. Zərifə Əzizovna, bəlkə də, sağalmaz xəstəliyə tutulduğunu bilirdi, ancaq bunu başqalarına hiss etdirməməyə çalışırdı.

1984-cü ildə tibb işçiləri günü qeyd olunurdu. Zərifə xanım həmin dövrdə dəhşətli xəstəliyi ilə mübarizə aparırdı və onun müalicəsi mümkün olmayan xəstəliyə tutulduğunu az adam bilirdi. Mən zalda əyləşmişdim. Birdən onun zalda ən çox sevdiyi bir professor həmkarı ilə (o da istedadlı bir qadın idi) yanaşı oturduğunu gördüm. Hər ikisi deyib-gülür, bir-biri ilə ünsiyyətdən zövq alırdı. Zərifə xanımda bu güc, həyat eşqi haradan idi?! Ölümünə iki həftə qalmış o, uzaq bir ezamiyyətə hazırlaşırdı: "Aspirantlarıma kömək etməliyəm" deyirdi".

**Nəriman Həsənli**nin təsirli xatirələrindən:

"Novodeviçye qəbiristanlığı. Bu, pravoslav xristian dünyasının müqəddəs qəbul elədiyi dini mərkəzdir. Burada türk dünyasının iki şəxsiyyəti uyuyur: böyük

şair Nazim Hikmət… və tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, respublikada səhiyyənin görkəmli təşkilatçısı, tibb elmləri doktoru Əziz Məmmədkərim oğlu Əliyevin qızı, müasir dövrün görkəmli ictimai-siyasi xadimi Heydər Əlirza oğlu Əliyevin həyat yoldaşı.

Xalqımızın unudulmaz, sevimli və möhtərəm qızının qəbri üstünə hər cümə axşamı qırmızı Bakı qərənfilləri və qızılgülləri qoyulur…

Həmin yağışlı, tutqun günü mən heç vaxt unutmaram. Azərbaycan torpağının bütün gülləri sanki həmvətənimizi Novodeviçyedə son mənzilə yola salmaq üçün dayanan fəxri qarovulda donub qalmışdı. Bura, bu məşhur Moskva qəbiristanına Azərbaycan ziyalıları, fəhlələri, kəndliləri… gəlmişdi. Vidalaşma mərasimi sona çatanda bizim keçmiş yaşlılara məxsus aqilanə təmkinlə bir hörmətli ağsaqqal adını demədən Heydər Əliyevə yaxınlaşdı və dedi:

– Heydər, oğlum, başını dik tut! Sən böyük bir millətin fəxrisən! Mən müharibədə dörd oğlumu itirmişəm, daha neçə ağır itki görmüşəm… Buna görə xalqın ağsaqqalı kimi deyirəm: başını dağ zirvəsi kimi dik tut, sən türk dünyasının əziz oğlusan. Xalq Şairi Bəxtiyar Vahabzadə Almaniyada fəhlə işləyən iki yüz iyirmi min insanın əllərində "Türk oğlu – Sovet İttifaqının lideri!" transparantları ilə Maqdeburqda, Bonda, Frankfurtda nümayişə çıxdıqlarını görüb… İnsan kədərə mərdliklə dözməlidir. Sənin kimi ümumdünya nüfuzu və şöhrəti qazanmış, adı qədirbilən xalqının dilindən düşməyən dövlət xadiminin əgər bir dostu varsa, ola bilər ki, beş düşməni olsun, oğlum! Allah Zərifə xanımın ruhunu şad eləsin! Qəbrini nurla doldursun! Budur, bu adamların hamısını arxanca Sən gətirmisən. Mən Səni sevən, Səninlə fəxr edən yüzlərlə adamdan biriyəm…"

Respublika Səhiyyə Nazirliyi Onkoloji Mərkəzinin direktoru akademik **Cəmil Əliyev**in – Zərifə Əliyevanın qardaşının xatirələrindən:

"Mən onun qədər ünsiyyətli, həssas, xeyirxah başqa bir insan, qayğıkeş bacı, mərhəmətli və mehriban ana, etibarlı və sədaqətli həyat yoldaşı, onun qədər şanlı, vətənpərvər və səxavətli digər bir türk qadını tanımıram… Mən bütün Azərbaycan qızlarını, öz uşaqlarımı onun çatdığı təmizlik, müqəddəslik zirvəsində görmək istərdim…

Bu yaxınlarda mənim bacım haqqında yazmaq istəyən "Aydınlıq" qəzetinin müxbiri Dərviş Cavanşirə demişdim: "Mən çox istərdim ki, gəlinim ona oxşayaydı. "Can" sözü onun dilindən düşməzdi". O mənə bacı yox, ana idi… Mən onun hansı insani keyfiyyətləri haqqında danışım? Məgər onun yaxşılıqlarını, xeyirxah işlərini, alicənablığını, genişürəkliyini bir-bir saymaq olarmı? Mənim bacım xalqına ürəkdən kömək edirdi və onun qayğısına qalırdı, o, əfsanəvi həkim – loğman idi. Xilasedici vasitələri axtarır və tapırdı… Mən ağır operasiya keçirmişəm. Appendisitin çıxarılmasından sonra ağırlaşma baş verdi. Məni həyata qaytaran bacım Zərifə və Heydər Əliyev olmasaydı, bu gün sizinlə burada görüşə bilməzdim. Həmin günlərdə bacım daim mənim yanımda oldu, yuxu və dinclik nə olduğunu bilmədi, mənə ürək-dirək verdi, sakitləşdirdi. Onun daimi qayğısı, köməyi, şəfqəti sayəsində, nəhayət, mən ölümün pəncəsindən qurtuldum.

Ailə üzvlərinə həssas, müstəsna dərəcədə qayğıkeş münasibət bəsləyirdi: Sevilə, İlhama, nəvələrinə (Leylaya, Azərə), doğmalarına. Onun xəstəliyinin ağır günləri kino lenti kimi gözümün qabağından keçir. Hamını sakitləşdirirdi: "Mən özümü çox yaxşı hiss edirəm, narahat olmayın. İlham, Sevil, sən də, Mahmud, sən də gedin, öz işlərinizlə məşğul olun. Mənə görə kefinizi pozmayın…"

Yaxınları ona baş çəkməyə gedəndə onları arxayın edirdi, inandırırdı ki, vəziyyəti yaxşıdır, yatağından qalxıb otururdu. Mən həkim kimi həmin dəqiqələrdə bunun onun üçün necə ağır olduğunu çox yaxşı başa düşürdüm. Bu, heç vaxt mənim yadımdan çıxmaz… Bacımın son sözləri, zəifləmiş, sakit, lakin əvvəlki nəvazişini itirməmiş səsi indiyə kimi qulağımdadır…

Bacım Zərifə gözümüzün qabağında şam kimi gündən-günə əriyirdi, ulduz kimi səssiz sönürdü. O, yazda doğulmuşdu, ad gününə on üç gün qalmış onu sonsuz məhəbbətlə sevən doğmalarından ayrılaraq gözlərini əbədi yumdu…

Biz hamımız hiss edirdik ki, onun ömür payı sona çatmaqdadır, o, son günlərini, saatlarını yaşayır. Mənim yazda doğulmuş bacım sevdiyi güllərin əhatəsində idi… Mənə elə gəlir ki, o özü dünyanın işığından, bütünlüklə saysız-hesabsız yaz güllərinin, al qızılgüllərin, nərgizlərin… ətrindən doğulmuşdu. Yazın o nəhs günündə – 15 aprel 1985-ci ildə mənim bacım doğma Azərbaycan güllərinin qucağında Moskva qəbiristanlığında əbədi olaraq güllər səltənətinə qayıtdı…"

* * *

Həmin aprel günlərində Azərbaycan poeziyası da Zərifə xanıma ağladı. Azərbaycanın Xalq Şairi Bəxtiyar Vahabzadə Moskvada dərin kədərlə **"Mərsiyə-rekviyem"**i yazdı:

*…Axır qəbristana el axın-axın,*
*Başlarda çətirlər yaşıl, qırmızı.*
*Qəbrin nurla dolsun!*
*Mənim xalqımın*
*Novodeviçyedə yatan tək qızı!*

*...Sən hörmət qazandın ləyaqətinlə,*
*Hörmət qazanılmaz qəzəblə, kinlə,*
*Hər şeyi dərk edir; insan büt deyil,*
*İçində yatdığın o tabut deyil,*
*Ləyaqət taxtıdır, ləyaqət taxtı!*

*Başlardan yuxarı səni ucaltdı,*
*Bu bahar günündə yağmurlu göy də*
*Bu gün için-için qan ağlayırdı.*
*Sənin matəminə Üzeyir bəy də*
*"Sənsiz"in diliylə yas saxlayırdı.*

Bu ağır itkiyə başqa bir görkəmli şair, Azərbaycan ədəbiyyatının böyük simalarından olan Süleyman Rüstəm də hay verdi. Zərifə xanımın xatirəsinə həsr olunmuş şeirdə o, Heydər Əliyevə təsəlli verən, onun kədərinə şərik olan sözlərlə müraciət edir:

*...Sənə gör nə deyir bu gün hər ürək,*
*Əziz Heydərimiz, başın sağ olsun.*
*Həyat yollarında həmişəki tək*
*Alnın açıq olsun, üzün ağ olsun.*

*Duyuram, ağırdır, dərindir yaran,*
*Deyirəm ki, bu qəm son qəmin olsun.*
*Ey sadə, ey nəcib, ey böyük insan,*
*Təsəlli ömürlük həmdəmin olsun.*

Alimə Əliyeva bu əvəzolunmaz insanın itirildiyi günü xatırlayır:

"Aprelin 15-də Moskvadan gələn ağır və qəfil xəbər mənim üçün əsl sarsıdıcı zərbə oldu. Mənəvi anamın ölümü haqqındakı xəbər belimi sındırdı. Elə bil, dünya boşaldı, mən yetim qaldım. Sevimli, əziz, pərəstiş etdiyim, kristal kimi təmiz, əvəzolunmaz Zərifə xanım dünyanı tərk etdi...

Mənim böyük oğlum Moskvada idi. Mən isə yaxın günlərdə ağır xəstəlik keçirdiyimdən həkimlər təyyarəyə minməyə icazə vermədiyinə görə matəm mərasimində iştirak edə bilmədim. Buna görə indiyə qədər ürəyim ağrıyır, təəssüflənirəm. Mən onun ailəsinə və uşaqlarına dərin hüznlə başsağlığı teleqramı göndərdim. Mənə xəbər verdilər ki, dəfn mərasimini televiziya ilə verəcəklər. O kadrlara göz yaşları içində baxdım.

Oğlum arvadı ilə birgə Novodeviçye qəbiristanlığında ailəmiz adından onun qəbri üstünə gül qoydu.

Zərifə xanımın gözlənilməz ölümü çox ürəkləri yandırdı. Mən indiyə qədər inana bilmirəm ki, bir daha onu görməyəcəyəm, onun səsini, məsləhətlərini eşitməyəcəyəm. Lakin Zərifə xanım indi cismən mənimlə olmasa da, bütün ömrüm boyu qəlbimdə olacaq… Mən təkrar-təkrar Heydər Əliyevə dua edirəm ki, həyat yoldaşına böyük məhəbbətini bir daha nümayiş etdirərək onun cənazəsini əbədi dinclik tapdığı doğma torpağa gətirdi.

Tez-tez onun dəfn olunduğu Fəxri xiyabana gedirəm, onun qəbrinə salam verərək dua oxuyuram.

İyirmi dörd il keçir, amma mən hələ də bu böyük itki ilə barışa bilmirəm.

…Ürəyim sıxılanda onun yanına gedirəm. Mərmər heykəlinin yanında dayanıb ona baxıram. Baxıram, gözümü çəkə bilmirəm. Sanki onunla söhbət edirəm, kədərimi bölürəm. Rahat yat! Qəbrin nurla dolsun! Qoy səni ağuşuna alan vətən torpağı sənin üçün cənnət olsun!"

## On yeddinci fəsil

# İNSANLARA QALAN İŞIQ

*Odlar içində də yanıb qaralmaz*
*Məhəbbət, sədaqət, həqiqət, kamal!*
*Səməd Vurğun*

"İki sahil" qəzetinin müxbiri, səksəninci illərdə Azərbaycan Televiziyasının Xəbərlər redaksiyasında işləmiş Telman Qafar Moskvada Zərifə Əliyeva ilə kədərli vidalaşma mərasiminin daha bir şahididir:

"Məlum olanda ki, mərhumun tabutu Alimlər Evində qoyulacaq və dəfn Novodeviçye qəbiristanlığında olacaq, Moskvaya təcili iki operator qrupu göndərildi. Zərifə Əliyeva ilə vidalaşma və onun dəfni zamanı çəkilmiş kədərli kadrlar indiyə qədər mənim gözlərimin qabağındadır.

Vidalaşma mərasiminə Qorbaçovun arvadı Raisa Maksimovna da gəlmişdi. Mərhumun başı üstündə Heydər Əliyev, sağında və solunda İlham və Sevil dayanmışdılar. Yüz minlərlə adam bu gözəl qadını son mənzilə yola salırdı. Zərifə xanım Azərbaycandan gətirilmiş qərənfillərə və qızılgüllərə qərq olaraq, elə bil, dərin yuxuya get-

mişdi. Həmin gün bütün ölkə televiziya ekranlarına baxaraq ona ağlayırdı.

On minlərlə həmvətənimiz, Moskvada yaşayan azərbaycanlılar, SSRİ-nin müxtəlif şəhərlərindən gəlmiş insanlar tabutu qəbiristanlığa çiyinlərində apardılar. Deyirlər, Moskva hələ belə izdihamlı dəfn mərasimi görməmişdi. Mən Zərifə Əliyevanı son anlarda Müslüm Maqomayevin oxuduğu "Sənsiz" romansının təsirli sədaları altında gördüm".

P.Məlikaslanova öz xatirələrində yazır:

"Azərbaycan ziyalılarına, elmi ictimaiyyətimizə ağır itki üz vermişdir. Görkəmli oftalmoloq həyatdan vaxtsız getmişdir və biz hələ uzun müddət bu itkinin ağrısını hiss edəcəyik. Bu yaxınlarda Oftalmoloqlar Cəmiyyətinin qurultayında biz Zərifə xanımı Akademik M.İ.Averbax adına mükafatın laureatı olması münasibətilə təbrik etmiş və belə təbriklərdə, həmişə olduğu kimi, ona uzun ömür, cansağlığı, yaradıcılıq uğurlarının davam etməsini arzulamışdıq… Əzizimiz Zərifə xanım isə özünə xas olan təvazökarlıq və ehtiramla bizə təşəkkürünü bildirmişdi. O vaxt Zərifə xanımla vidalaşmaqda olduğumuzu, onun yaxın vaxtda bizləri tərk edəcəyini ağlımıza belə gətirməzdik…

Mən xəstələrin üzündəki ifadədən Zərifə xanımın onlara necə təskinlik verdiyini, ağrılarını unutdurduğunu və sağalmaq inamını onların qəlbinə yerləşdirdiyini görürdüm. Bəlkə, bir çox xəstənin şəfa tapmasında onun məntiq gücü və müalicənin müsbət nəticəsinə inamı müalicənin özündən daha böyük rol oynayıb. O, nadir görülən bir qabiliyyətə – insanlarda inam yaratmaq qabiliyyətinə malik idi; ən ağır anlarda belə insanları sağalıb ayağa qalxacaqlarına inandıra bilirdi. Mən bu inamın gücünü şəxsən öz üzərimdə də hiss etmişəm…

İnsanlar ən müxtəlif xahişlərlə tez-tez ona müraciət edirdilər. Onun hər kəsə nə qədər səbirlə qulaq asdığını, imkan dairəsində hər kəsə kömək əli uzatdığını, heç kimi diqqətsiz qoymadığını yaxşı xatırlayıram. Qonşuları tərəfindən qəddarcasına incidilən qoca, tənha qadın sanitarımız yadıma düşür. Zərifə Əziz qızı o adamları öz yanına dəvət etdi və qocanı incitməmələri barədə xoşluqla xəbərdarlıq elədi. O qoca arvadı bu hadisədən sonra yenə gördüm, öz təşəkkürünü bildirmək üçün gəlmişdi. Əziyyətlərdən, təhqirlərdən xilas olandan sonra o, yenidən mənəvi güc qazanmışdı, sanki ona öz insanlığını qaytarmışdılar.

...Zərifə xanım həmişə tələsirdi. Sanki taleyin ona ömür payı ayıranda xəsislik etdiyini bilir və daha çox iş görmək üçün ləngimək istəmirdi. Və o, həm elmi fəaliyyətdə, həm peşəkar həkimlik fəaliyyətində, sözün əsl mənasında, zirvəyə qalxmışdı. Zərifə Əziz qızı mükəmməl pedaqoq idi. Bilik və təcrübəsini heç kimdən əsirgəmirdi. Onun görmə orqanının patologiyası mövzusunda mühazirələri xüsusilə məzmunlu və dolğun idi. Zərifə xanım bu mövzuya böyük diqqət ayırırdı. Böyük oftalmoloq-alim və mükəmməl bir insan – bu ikisi onun şəxsində ahəngdarlıqla birləşmişdi: o, prinsipiallıq, ciddiyyət, geniş dünyagörüşü, ürəkdən gələn xeyirxahlıq və səmimiyyət kimi keyfiyyətlərə malik idi. Onun iş otağının qapıları həmişə, müdrik məsləhətlərinə qulaq asmaq istəyən hər kəsin üzünə açıq olurdu. Ona müraciət edən hər kəslə öz biliyini və möhtəşəm təcrübəsini bölüşürdü. Geniş dünyagörüşə sahib mütəxəssis, dərin tədqiqatçı, maraqlı insan, incə yumor hissinə və böyük intellektə malik ağıllı həmsöhbət – mən Zərifə xanımı belə tanıyırdım. Geniş bilik və təcrübəsi, peşəsinə vurğunluğu, xeyirxahlığı işçilər, həmkarları və dostları

arasında ona böyük nüfuz qazandırmışdı. Zərifə xanım büllur kimi təmiz bir insan idi; əyninə geyindiyi ağ xalat ömrünün sonuna kimi ağappaq, tərtəmiz qaldı, zərrəcə ləkələnmədi".

Zərifə Əliyeva ilə uzun illər əməkdaşlıq və səmimi dostluq etmiş tibb elmləri doktoru, professor Z.M.Skripniçenko öz xatirələrində sağalmaz xəstəliyin əzablarından qovrulduğu kritik dəqiqələrdə belə əzablara mərdliklə dözən, doğmalarını, yaxınlarını təşvişdən, təlaşdan qoruyan qeyri-adi qadın, alim, dost obrazı yaradır:

"Zərifə Əzizovna məni Bakıya dəvət etmişdi. O vaxt mən onun səmimiyyətini, istiqanlığını və maraq dairəsinin nə qədər geniş olduğunu daha yaxşı başa düşdüm. Apardığımız tədqiqatların nəticələri barədə fikir mübadiləsi elədik və yeni tədqiqat planlarından danışdıq. Kənd təsərrüfatında istifadə olunan preparatların Azərbaycan zəhmətkeşlərinin görmə orqanına təsirini öyrənən geniş tədqiqat işi aparmaq fikri meydana çıxdı. Belə söhbətlərin birində iştirak edən Heydər Əliyev oxşar tədqiqatların vacibliyindən danışdı və qiymətli məsləhətlər verdi. Görmə orqanının peşəyə bağlı olaraq zədələnməsi məsələsinin tibbi ədəbiyyatda öz əksini tapmaması ilə barışmaq olmazdı. Buna görə peşə oftalmotoksikozu mövzusunda monoqrafiya qələmə almaq qərarına gəldik. Bu mövzu həm oftalmoloqların, həm də kimya zavodlarının sanitar həkimlərinin diqqətini cəlb etməli idi.

Bakıdan yeni yaradıcılıq planları ilə ayrıldım. Bu məni həm sevindirir, həm də həyəcanlandırırdı. Elmi maraqları mənim elmi maraqlarımla üst-üstə düşən bir alimlə qarşılaşmaq çox xoş idi. Üstəlik, o, xeyirxah, səmimi və bununla bərabər həm də ciddi bir insan idi. Bir mütəxəssis olaraq Zərifə Əzizovnanın iş otağında tibbin müxtəlif məsələlərinə aid ən yeni ədəbiyyatı, hətta oftalmologiya-

dan uzaq sahələrə dair ədəbiyyatı da görmək məni çox sevindirmişdi.

İşlə çox məşğul olmasına baxmayaraq, o, ailə qayğılarına da vaxt tapırdı. O vaxtlar Moskvada oxuyan oğlu İlhamın evdən, ailədən uzaq olması Zərifə xanımı çox narahat edirdi.

Zərifə Əzizovna atasının – tibb professorunun xatirəsini həmişə əziz tuturdu. Onun ən yaxşı keyfiyyətlərini öz uşaqlarına aşılamağa çalışırdı. Əziz Əliyev haqqında kitabın oğluna bağışladığı nüsxəsindəki təsirli qeydi də buna bir sübutdur.

…Onun elmi maraqlarının dairəsi olduqca geniş idi. Ayrıca bir dəftərə yeni tibb kitabları, elmi işlər, toksiki katarakt və qlaukoma barədə tədqiqat əsərləri, mühazirələr haqqında qeydlərini yazırdı.

O vaxtlarda biz Ukraynada keçirilməsi planlanan oftalmoloqlar qurultayı üçün birgə məruzəmizi işləyib hazırladıq. Zərifə Əzizovna bu qurultayın işində mütləq iştirak etmək istəyir və Odessanı görməyə tələsirdi. Mən də, ətrafındakı digər insanlar da onun ağır xəstə olduğunu ağlımıza belə gətirmirdik. O, həmişəki kimi, gülərüz, işgüzar idi. Üzündə ağır xəstəliyindən heç bir əlamət görünmürdü.

Fəqət o, Odessaya – oftalmoloqların qurultayına gələ bilmədi. Məktubundan bildim ki, uzun müddətdir xəstəymiş və elmi işini də başa vura bilməyib. Yaxın vaxtda səhhətinin düzələcəyinə və Odessaya gələcəyinə ümid edirdi. Kitab üzərindəki işi barədə də məktubunda müfəssəl məlumat verirdi.

1984-cü ilin qışında Zərifə Əzizovna ilə yenə bağda görüşdük. Onu ağır xəstə görəndə ürəyim pis oldu. Amma davranışlarında, əhvali-ruhiyyəsində faciəli sonun yaxınlaşdığını göstərən bir əlamət yenə yox idi. Özünə xas ma-

raqla Bakıda kondisionerlər zavodunda aparılan tədqiqat işlərindən danışdı. Kimyəvi məhlulların zərərli təsiri ilə üzləşən işçiləri necə müalicə etmələrindən bəhs elədi. Öz torpağının doğma qızı kimi o, hələ də ürəyi Azərbaycana bağlı olaraq yaşayırdı. Xalq təsərrüfatının aparıcı sahələrində görmə orqanının patologiyasına dair tədqiqatlar aparırdı.

Bu maraqlı peşə söhbətinin arasında o, məni ailəsinin yeni üzvləri ilə tanış elədi. Onun sözlərində, gözlərində qeyri-adi məhəbbət, hərarət var idi. Adaşı, balaca Zərifənin bir qardaşı olmuşdu. İlhamın da bir övladı dünyaya gəlmişdi. Körpəsini qucağında saxlayan Sevilin anasına baxan gözlərində ondan gizlətməyə çalışdığı bir nigarançılıq vardı. Balaca Zərifə isə nənəsindən heç cür qopmaq istəmirdi. Moskvadan gələn İlham anasıyla mehribancasına görüşdü. Evdə bir gərginlik, həyəcan hiss olunurdu; ancaq heç kim vəziyyətin ümidsiz olduğuna inanmaq istəmirdi. Bu dəfə Zərifə Əzizovna ailə haqqında – bütün qəlbilə sevdiyi həyat yoldaşı, övladları, nəvələri haqqında lap çox danışdı.

Axşam biz onunla ayrılanda Zərifə xanım qızının və nəvələrinin əhatəsində idi. Ağlıma belə gətirmirdim ki, bu, son görüşümüzdür. Zərifə Əzizovna yaxın zamanda Moskvaya getməli idi. Elə yaxın zamanda da telefon zəng çaldı və mən onun yenə xəstəxanaya düşdüyünü öyrəndim. Gündə bir neçə dəfə telefonla əlaqə saxlayırdıq. Şərtləşmişdik ki, həkimlər icazə verən kimi mən xəstəxanaya gəlib ona baş çəkim. Gecə yarısına qədər telefonun yanında gözləyirdim. Gecə də ona məktub yazırdım. Sabah açılanda isə onunla görüşmək mümkün olmadığını öyrənir və evə qayıdırdım. Odessadan elədiyim telefon zənglərinə hər dəfə eyni cavab gəlirdi: o, hələ xəstəxanadadır…

1985-ci ilin fevral ayında Zərifə Əzizovna artıq öz xəstəliyindən açıq və ciddi danışırdı: "Xəstələnmək asan, sağalmaq çətindir!" Yaxın adamlarına kədər verdiyi üçün narahatlıq keçirir, bununla belə, elmə olan canlı marağını və həyat eşqini qoruyub saxlayırdı… Məlumat verirdi ki, uzunmüddətli xəstəxana həyatından sonra həkimlər, nəhayət ki, bir həftəliyə evə qayıtmağına icazə veriblər.

Zərifə Əzizovna kitabın qalan işlərini mənə tapşırdı və xahiş etdi ki, materiallar hazır olan kimi əvvəlcədən onu xəbərdar edim və biz Moskvada və ya Odessada görüşmək barədə danışaq…

Sonra mən əzizim Zərifə xanımın vəfatı haqqında xəbər aldım və buna inana bilmədim… Ancaq onun haqqında dərc olunan nekroloq, təəssüf ki, bu acı xəbəri təsdiqləyirdi.

"Qəbiristanlıqda, onun qəbri başında dayananda kədərlə belə düşündüm: mən ən ağır itki olan dost itkisini çox erkən vaxtda, hələ müharibə illərində, cəbhədə dadmışam. Ancaq bu itkilərə öyrəşmək mümkün deyil və hər il hər yeni itki insana daha çox təsir edir…"

İlham Əliyevin 1995-ci ilin oktyabr ayında "Günay" qəzetinə verdiyi müsahibədə söhbət oğul məhəbbətindən, heç kimin etinasız qala bilmədiyi ana itkisindən gedir. Həmin müsahibədən parçalar:

"**– Siz dediniz ki, məktəbə altı yaşında getmisiniz. Onda Sizi məktəbə kim aparırdı, Sizin əlinizdən kim tuturdu?**

– Anam.

**– Siz Zərifə xanımı necə xatırlayırsınız?**

– Ən əziz insan kimi. Onun vəfatından sonra mənim həyatım, bütün ailəmizin həyatı dəyişdi. Yəni indi mən o vaxtlardakı kimi gülə bilmirəm, baxmayaraq ki, onun

həyatdan getməsindən on ildən çox vaxt ötür. Mənim həyatımda xoşbəxt hadisə olanda düşünürəm: o da bunun üçün sevinərdi. O, vəfat edəndə mənim böyük qızımın bir yaşı vardı. Yəni mənim qızlarım öz nənəsini görməyib, bu, onların tərbiyəsində böyük itkidir…"

Azərbaycan Milli Məclisinin deputatı, komitə sədri **Eldar İbrahimov** Əliyevlər ailəsini yaxından tanıyırdı və bu ailəyə böyük hörmət bəsləyirdi. Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinə sədrlik edəndə Azərbaycanın mərkəzi rəhbərliyi tərəfindən Naxçıvan ciddi nəzarət altına alınmışdı. Bakı ilə əlaqə saxlamaq çətin olmuşdu. Bakıdan Naxçıvana ancaq təyyarə ilə getmək olurdu. Bu zaman adamlar diqqətlə yoxlanılır, sorğu-sual edilirdilər, onların telefon danışıqları dinlənilirdi.

Azərbaycan Ali Sovetinin deputatı kimi Eldar İbrahimov bu maneələrdən yan keçə bilirdi. O, işlə əlaqədar tez-tez Bakıya gedirdi: Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı, muxtariyyət rəhbərliyinin müəyyən tapşırıqlarını müvafiq orqanlara çatdırmaq üçün, Ali Sovetin sessiyalarında iştirak etməkdən ötrü…

1993-cü ilin axırında Eldar İbrahimov növbəti dəfə Bakıdan Naxçıvana qayıdarkən təyyarədə "Səs" qəzetini nəzərdən keçirən vaxt baxışlarını Zərifə Əliyevanın yetmiş illiyinə həsr olunmuş müsahibənin üzərində saxlayır. Eldar İbrahimovun dediyinə görə, o, Tamerlan və Cəmil Əliyevlərin unudulmaz bacıları haqqındakı sözlərini və Zərifə xanımı yaxından tanıyan bir neçə nəfərin müsahibəsini oxuyarkən göz yaşlarını zorla saxlayıb.

Həmin müsahibələrdə bütün həyatını xalqa şərəfli xidmətə sərf edən şəfqətli və parlaq şəxsiyyətin həyatına amansız xəstəliyin faciəli surətdə və vaxtından əvvəl son qoyduğu qeyd edilirdi.

Eldar İbrahimov Naxçıvana gələn kimi Heydər Əliyevin yanına gedir və həm aldığı tapşırıqlar, həm də "Səs" qəzetindəki müsahibə haqqında məlumat verir. Heydər Əliyev müsahibəni ucadan oxumağı xahiş edir. Eldar müəllim onda etiraf edir ki, təyyarədə oxuyanda ağlamamaq üçün özünü zorla saxlayıb. Üzr istəyir ki, yenə təyyarədəki kimi ola bilər… Heydər Əliyev özü oxumağa başlayır. Eldar İbrahimov görür ki, o, son dərəcə mütəəssir olur, ədəblə kabineti tərk edir.

"Bir az gözlədikdən sonra o, məni yenidən dəvət etdi və mənim nə üçün getdiyimi soruşdu, sonra əlavə etdi: "Eldar, sənin nə həssas ürəyin var, bu müsahibə məni kədərə qərq etdi, mənə keçmiş günləri xatırlatdı…" Mən nə üçün kabinetdən çıxdığımı izah etdim: "Siz Zərifə xanım haqqındakı xatirələrlə təklikdə qalın deyə…"

Çap olunmuş müsahibənin təsiri altında Heydər Əliyev həyat yoldaşı haqqında, onların məhəbbəti haqqında, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləyəndə ona göstərdiyi qayğı haqqında, ondan eşitdiyi yaxşı məsləhətlər haqqında xoş və ehtiramlı sözlər dedi. Moskvadakı o çətin vaxtlarda Zərifə xanımın onun etibarlı dayağı və müdafiəçisi olduğu haqda danışdı".

Eldar İbrahimov davam edir:

"Bütün bu deyilənlərdən sonra məndə belə möhkəm bir inam formalaşdı ki, Heydər Əliyevlə Zərifə xanımın ailə həyatı – bu, bizim hər birimiz üçün, hər bir azərbaycanlı ailəsi üçün yüksək nümunədir".

Zərifə Əliyeva haqqındakı xatirələrini bizimlə A.Brovkina da bölüşür:

"Zərifə Əliyevanı mən uzun illər idi ki, tanıyırdım. Bizim elmi tədqiqatlarımız ayrı-ayrı idi, bizi birləşdirən şəxsi münasibətlər idi. Onun vəfatının üstündən çox illər

ötüb, ancaq o, mənim üçün sanki diridir. O, çox gözəl iki uşaq tərbiyə etmiş qeyri-adi ana idi. Mən ana və qızın rəfiqə olduğunu nadir hallarda görmüşdüm, amma Əliyevlər ailəsində məhz belə idi. Zərifə Əliyeva seçdiyi yola bütövlükdə sadiq idi və qarşısına qoyduğu məqsədin həyata keçməsi üçün axıra qədər mübarizə aparırdı. O, çox gözəl təşkilatçı idi, zərurət yarandıqda rəhbərlik etdiyi kollektivin qüvvəsini lazım olan istiqamətə yönəldə bilirdi.

Özünün rəftarı, işə münasibəti, ürək təmizliyi ilə o, onu əhatə edənləri də özünə oxşamağa həvəsləndirirdi. O, insanlardakı müsbət keyfiyyətləri, istedadı, təmizliyi, ədaləti həmişə yüksək qiymətləndirirdi. Bu nöqteyi-nəzərdən Zərifə Əliyevanın həyatı alicənablığın etalonu idi”.

Sözlərinə yuxarıda da müraciət etdiyimiz N.Şulpina bu gözəl elm xadimi və parlaq insan haqqında rusiyalı həmkarlarının rəylərinə bunları əlavə edir:

“Zərifə Əzizovna – bizim gözümüzün işığı, geniş profilli alimdir, Azərbaycanın tibb kadrlarını yetişdirən böyük pedaqoqlardan biridir… Onun sərvəti – xalqının xoşbəxtliyi, tələbələrinin razılığı və xəstələrinin təşəkkürüdür. Biz onu sevirdik, sevirik və son günümüzədək sevəcəyik”.

…1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Heydər Əliyev Naxçıvandan Bakıya dəvət olunur və xalqın iradəsi ilə ikinci dəfə – bu dəfə artıq suveren Azərbaycan Respublikasında – hakimiyyətə gəlir.

Bir ildən sonra Zərifə Əliyevanın qəbri Moskvadan Bakıya köçürülür. Onun doğma torpaqdakı son sığınacağında qoyulan, məşhur heykəltəraş Ömər Eldarovun ağ mərmərdən yaratdığı “Elegiya” və Zərifə xanımın tunc heykəli, gələcək nəsillər üçün onun parlaq obrazını –

Ana, Alim, Həyat yoldaşı, çox gözəl Azərbaycan Qadını obrazını canlandırır…

* * *

"Qaranlığa nur saçan zəka" poemasında Mirkazım Seyidov yazır:

*Tunc heykəli qəlblərdə*
*Ucalan abidədi,*
*Solmayan sevgisindən*
*Səpələnir xoş ətir.*
*İlləri salamlayan*
*Bir şirin salnamədi*
*Analıq məbədinin*
*Özü şöhrətim, şanım,*
*Şərafət kürsüsünün*
*Adı Zərifə xanım!*

## On səkkizinci fəsil

# UNUDULMAZ İNSAN

*Bəşəriyyətin tərbiyəsində*
*filosoflardan çox qadınların xidməti var.*
*Tofiq Fikrət, türk şairi*

1995-ci ilin 28 apreli.

Zərifə xanımın ad günü və xatirə günüdür.

Mərasimdə Heydər Əliyev çıxış etdi. Artıq on ildir ki, sədaqətli həyat yoldaşı və silahdaşı – Zərifə xanım həyatda yoxdur.

Və necə on il!

Taleyüklü, faciəli, şücaətli on il… Böyük bir dövlət dağılanda və milyonlarla insanın taleyi onun qalıqları, tör-töküntüləri altında qalanda Heydər Əliyev bu tarixi fəlakətin tam ortasında idi. Vulkan ağzından qopub guruldayan lava kimi qızğın ehtiraslar: vətənpərvərlərin azadlıq istəyi, arzusu, təsadüfən hakimiyyətə gəlmiş adamların cinayətkar demaqoqluğu, özgə torpaqlarına olan iddialar, qonşuların Azərbaycana birbaşa müharibə təcavüzü, qurbanlar, qaçqınlar… Nəhayət, Heydər Əliyevin səyi ilə atəşkəsin əldə edilməsi, əvvəlcə Naxçıvan-

da, sonra da suveren respublikanın paytaxtında üçrəngli bayrağın göyə qaldırılması…

Bunlar hamısı Heydər Əliyevin ürəyindən və taleyindən keçmişdi. Əvəzedilməz itkinin dinclik vermədən ağrıtdığı ürəyindən keçmişdi.

Onun həmin aprel günündəki sözləri şəxsi və ümumxalq xatirəsinin ən həssas tellərinə toxunan inam, etiqad kimi təsirli səslənirdi:

"Bilirsiniz ki, mənim həyatım gənclik illərimdən dövlət xidməti ilə bağlı olub. Mən bütün həyatımı buna həsr etmişəm və indi də bu sahə ilə məşğul oluram. Hesab edirəm ki, mənim müvəffəqiyyətli xidmətimdə ailəm böyük rol oynamışdır. Mən ona görə xoşbəxt idim ki, mənim Zərifə xanım kimi həyat yoldaşım vardı və o, mənim ailəmdə çox gözəl mənəvi mühit yaratmışdı.

Mən həyatımın bütün dövrlərində işlə məşğul olmuşam, ailə məsələlərinə vaxt ayıra bilməmişəm. Bu, Zərifə xanımın öhdəsinə düşüb və o, bu vəzifəni şərəflə, inamla və qeyri-adi məharətlə yerinə yetirib.

Zərifə xanım böyük alim idi. Mən onunla təzəcə ailə həyatı quranda o, artıq bu sahədə özünü təsdiq etmişdi.

Onun elmi fəaliyyəti hamıya məlumdur. O, çox istedadlı, xeyirxah, sadə insan idi. Mən burada çox danışa bilərəm, mən Zərifə xanımın qəbri qarşısında baş əyirəm. Mənim ailəmdə onun rolu əvəzolunmazdır – mənim ailəm bu günə onun tərbiyəsi nəticəsində gəlmişdir. Baxmayaraq ki, on il keçib, mən onu unutmuram və heç vaxt unutmayacağam. Mənim uşaqlarım da öz ürəklərində onun əbədi xatirəsini və məhəbbətini saxlayırlar. Bu gün bizim üçün müqəddəs gündür.

Bu gün ona görə xoşbəxt gündür ki, dünyaya məni xoşbəxt edən, mənə gözəl övladlar bəxş edən Zərifə xa-

nım kimi böyük şəxsiyyət gəlmişdir. Eyni zamanda bu gün kədərli gündür. Aradan on il keçsə də, mən bu kədərdən uzaqlaşa bilmirəm”.

1997-ci ilin 15 aprelində Zərifə xanım başqa bir təsirli hadisə ilə – Azərbaycanın məşhur heykəltəraşı, Xalq Rəssamı, respublika parlamentinin deputatı Ömər Eldarovun onun xatirəsinə həsr etdiyi “Elegiya” heykəli və bu heykəllə bağlı albomun təqdimatı ilə yad edildi.

Mərasimi Azərbaycan Elmlər Akademiyasının mərhum prezidenti **Fərəməz Maqsudov** açaraq dedi:

“Çox vaxt heykəli daşda donmuş musiqi adlandırırlar. Mənsə bu xatirə abidəsini mərmərdə təcəssüm etmiş məhəbbət adlandırardım”.

Mərmərdə canlandırılmış uca məhəbbətin, sədaqətli həyat yoldaşının, qayğıkeş ananın, vətənpərvər ziyalının, istedadlı həkimin, müdrik alimin mərmərdə canlı surətdə döyünən ürəyi… Bu obraz könüllərə yol tapıb, onları mənən təmizləyən, xeyir işlər görməyə, səmimiliyə çağıran işıq saçır. Bu işıq mahir və zəkalı oftalmoloqun bütün həyatı boyu insanlara qaytardığı gözlərin işığı idi…

Bir az istirahət etmək üçün qoltuqlu kürsünün qoltuqlarına doğru sallanmış əllərin şəfaverici enerjisi sanki hələ də canlıdır, hələ də təsirlidir…

Ola bilsin, elə böyük Füzulini də bu qədər ilhamlı, coşqun sözləri deməyə bənzər gözəllik sövq etmişdir:

*Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,*
*Surəti-halım görən surət xəyal eylər məni.*

İstedadlı heykəltəraşımız Ömər Eldarovun “Elegiya” kitabını vərəqləyib belə bir abidənin yaradılma təfərrüatını öyrənirsən. Məlum olur ki, bu parlaq müvəffəqiyyət yalnızca müəllifin deyil, eyni zamanda hey-

kəltəraşı Zərifə xanımın bu ecazkar və həqiqi obrazının yaradılmasına təhrik edən insanların – Zərifə xanımın həyat yoldaşı Heydər Əliyevin, övladları İlham və Sevil Əliyevlərin də müvəffəqiyyətidir. Onlar heykəltəraşın yaradıcı təxəyyülündə cazibədar, sevilən və unudulmaz qadının, ananın obrazının yaradılmasına kömək etmişlər. Və Ömər Eldarov özünün parlaq istedadının və ilhamının gücü ilə bu adamların məhəbbətini və kədərini əbədiləşdirmişdir.

Zərifə Əliyevanın elmi fəaliyyətindən, onun oftalmologiyaya, səhiyyənin inkişafına verdiyi töhfələrdən danışarkən bu elmi fəaliyyətin ictimai fəaliyyətlə müvəffəqiyyətlə birləşdiyini xüsusi qeyd etmək lazımdır. Zərifə xanımın, ailə ocağının qoruyucusu, fədakar ana, Heydər Əliyev kimi məşhur şəxsiyyətin həyat yoldaşı və silahdaşı rolu, ola bilsin ki, geniş xalq kütlələrinin nəzərinə elə də çarpmamışdır. Bizdə belə bir xalq məsəli var: aslanın erkəyi, dişisi olmaz.

"Zərifə" – kövrək, zərif deməkdir. Və o, özünün kövrək çiyinlərində böyük məsuliyyət və fədakar məhəbbət yükünü, millətin lideri, respublikanın rəhbəri, adı böyük dövlət rəhbərləri sırasına daxil olan şəxsiyyətlə yanaşı olmaq, çiyin-çiyinə getmək, onun dayağı olmaq, qayğısına qalmaq və ağır günlərdə dərdinə şərik olmaq yükünü daşıdı. Uşaqların əsas qayğısını və tərbiyəsini öz üzərinə götürmək və onları vətənin layiqli və şanlı vətəndaşları kimi, öz nəslinin yüksək mənəvi dəyərlərinin varisi kimi yetişdirmək…

Zərifə xanımın həyatı indi də onun övladlarının və nəvələrinin həyatında davam edir. "Elegiya" albomunda onun obrazını təcəssüm etdirən iki heykəl var – mərmər və tunc heykəl. Onun digər böyük abidəsi – mənəvi abidəsi ürəklərdədir.

Zərifə xanımın məhəbbətinin işığı daim onun doğmalarının və yaxınlarının, həmkarlarının, şagirdlərinin yolunu işıqlandırır…

1997-ci ilin o aprel günündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev xatirə nitqində belə dedi:

"Bu gün bizim üçün əziz, eyni zamanda kədərli gündür. Əzizdir o mənada ki, Zərifə xanımın xatirə günüdür. Kədərlidir o mənada ki, Zərifə xanım 12 ildir bizdən ayrılıbdır. Ancaq bu hadisə bu gün bizim buraya toplanmağımızda bir məna daşımır. Ailəmiz üçün bir xatirə günü olaraq biz bu günü həmişə yad edirik. Eyni zamanda bu gün Zərifə xanımın surətini əks etdirən gözəl bir incəsənət, heykəltəraşlıq əsəri nümayiş etdirilir. Ona görə də bu, bizim respublikamızın mədəniyyətində, heykəltəraşlıq, incəsənət sahəsində yeni bir əsərin meydana çıxmasını nümayiş etdirir.

Ola bilər, mənim fikirlərim subyektiv olsun. Ancaq mən həmişə düşündüyümü demişəm. Ömər Eldarovun yaratdığı heykəl – Zərifə xanımın surətini əks etdirən heykəl, həqiqətən, böyük, gözəl bir əsərdir… Hələ on, iyirmi il bundan əvvəl mən Ömər Eldarovu Azərbaycan mədəniyyətinin, incəsənətinin ən görkəmli simalarından biri hesab etmişəm… Ömər Eldarovun yaratdığı heykəltəraşlıq əsərləri Azərbaycan xalqının mədəni, mənəvi sərvətidir və onlar Azərbaycan xalqının mənəviyyatını zənginləşdirmişdir…

Zərifə xanımın həyatdan getməsi bizim ailəmizi, şəxsən məni və mənim övladlarımı çox sarsıtdı. Hər bir ailə üçün itki itkidir… Ancaq hər bir insan, ailə özünün daxili mənəviyyatına, yaxud xüsusiyyətinə uyğun olaraq baş vermiş faciəyə, bədbəxt hadisəyə, yaxud itkiyə öz münasibətini bildirir…

On il keçibdir. Biz bu gün də razılaşa bilmirik ki, onsuz yaşayırıq. Onun xatirəsi bizim qəlbimizdə, nəinki bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində əbədi yaşayacaqdır…"

Azərbaycan Dövlət İncəsənət Akademiyasının rektoru Xalq Rəssamı **Ömər Eldarov** bizimlə öz xatirələrini bölüşür:

"Zərifə xanımla mənim üçün mühüm olan bir hadisə sayəsində tanış olmuşam. 1985-ci ildə iki dəfə Sosialist Əməyi Qəhrəmanı olmuş Heydər Əliyevin büstü üzərində işləyirdim. Mən bu əsərə bütün canımı qoymuşdum və gücümü, qüvvəmi əsirgəmirdim ki, xalqımızın şanlı oğlunun büstü kamil və nümunəvi olsun. Bu iş çox məsuliyyətli idi.

Zərifə xanım iki dəfə mənim emalatxanamda oldu. Artıq, demək olar ki, başa çatmış işə xeyli müddət diqqətli bir şəkildə baxdı. Bir neçə maraqlı irad və təklif irəli sürdü. Axı o, heykəltəraş deyildi və tibb sahəsində alimlik dərəcəsi vardı. Mən öz təəccübümü gizlətməyərək soruşdum ki, heykəltəraşlığın sirləri ona haradan məlumdur? Onda o, gülümsəyərək cavab verdi: "Bunun üçün heykəltəraş olmaq lazım deyil. Sizin mərmərə həkk etmək istədiyiniz insanı kim məndən yaxşı tanıya bilər?"

Zərifə xanım mənim emalatxanamda az dayandı. Amma onun işıqlı surəti həmişə yaddaşımdadır. Məhz buna görə ölümündən sonra məndə Zərifə xanımı elegiya – xatirədə əbədiləşdirmək ideyası yarandı. Mən heykəldə kədəri və təntənəni ifadə etmək istəmişəm. Bu dünyadan getmiş qadının ruh yüksəkliyini, cazibədarlığını mərmərdə canlandıraraq sanki onun ömrünü uzatmaq istəmişəm…

Alicənablıq və zəriflik – Zərifə Əliyevanın obrazını yaratmaqda mənim əsaslandığım nöqtələrdir. Ağ rəng tə-

mizliyin simvoludur. Mərmərin ağlığı – daşın möhkəmliyi… Onun paltarının zərif, hamar xətləri, işıqlı üzünün və əllərinin incəliyi, xarici görkəminin nəcibliyi və baxışının mülayimliyi daşda səslənən musiqidir. Bu qadın – alim və ictimai xadim, həyat yoldaşı və ana Zərifə xanım Əliyevadır. Abidə onun vəfatından sonra yaradılıb və buna görə belə kədərli adı var: "Elegiya".

Zərifə xanım Əliyevanın obrazının yaradılması üzərində iş 1986-cı ildə başlamışdı. Mən çoxlu eskizlər hazırlamışdım və dəfələrlə Heydər Əlirza oğlu Əliyevlə və bu ailənin digər üzvləri ilə məsləhətləşmişdim. Nəhayət, işin birinci mərhələsi başa çatdı. Sonra üç il emalatxanada gərgin iş getdi. Uraldan, "Koelqa" daş karxanasından 2,5x2,2 metr ölçüsündə blok gətirildi. Abidə üzərində iş 1989-cu ildə başa çatdı. Heykəlin ölçüsü 1,2x0,8x1,8 metr oldu. Memar Elbəy Qasımzadə ilə birlikdə tunc abidə üzərində iş 1993-cü ildə başladı və abidə iki ildən sonra hazır oldu. Abidə 1995-ci ildə Fəxri xiyabanda ucaldıldı.

Elə həmin il Zərifə Əliyevanın mərmər büstü hazırlanmışdı və bu büst Naxçıvan Mərkəzi Xəstəxanasında qoyulmuşdu. 1996-cı ildə Zərifə xanımın bir vaxtlar yaşadığı binada qranit xatirə lövhəsinin açılışı olmuşdur. 1998-ci ildə Oftalmologiya Mərkəzinin önündə onun ağ mərmər heykəli ucaldılmışdır. Bununla bərabər mənim hazırladığım iki işdən biri (mərmər büst) Bakıda Göz Xəstəlikləri ETİ üçün, digəri (qranit və tunc xatirə lövhəsi) Fiziologiya İnstitutu üçün nəzərdə tutulmuşdu".

1999-cu ilin 14 aprelində Rəşid Behbudov adına Mahnı Teatrında "Zərifə xanım Əliyeva" adlı kitab-albomun təqdimatı keçirildi. Heydər Əliyev Zərifə xanım ilə yaşadığı xoşbəxt və gözəl günləri yenidən xatırladı:

"Bugünkü mərasim məni bir daha 14 il bundan əvvəlki günlərə qaytardı. Nə qədər il keçib, ancaq biz, ailəmiz bu itkinin kədərini əvvəlki kimi dərindən hiss edirik. Güman edirəm ki, tək biz yox, mənim nəvələrim də bu hisslə yaşayacaqlar. Əziz, unudulmaz Zərifə xanım həmişə bizim ürəyimizdə yaşayacaq.

...Burada dəfələrlə qeyd olundu ki, Zərifə xanımın ən gözəl xüsusiyyətlərindən biri onun böyük optimizmi idi... Onun üçün əsas şey insanlara xeyirxah münasibəti idi. O, insanları sevirdi, insanlar da onu sevir. Buna görə mən bu gecəni xüsusi olaraq dostluq, həmrəylik gecəsi adlandırıram..."

**28 aprel 2001-ci il.**

Yenə Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş gecə. Heydər Əliyev yenidən öz taleyinin unudulmaz ulduzu haqqında təsirli və nəcib sözlər deyəcək:

"...Eyni zamanda Zərifə xanımı xatırlamaq, bəlkə, mənim üçün daha da təsirlidir. Çünki Zərifə xanım mənim həyat yoldaşım idi. Bəlkə də, mənim qədər onu tanıyan, onu mənim qədər hiss edən adam olmayıbdır. Hətta, bəlkə, onun valideynləri də. Təbiidir ki, valideynləri onu bəsləyiblər, böyüdüblər, təhsil veriblər, ona həyat veriblər. Ancaq mən onunla həyat qurandan sonra birgə yaşadığımız dövrdə, təbiidir ki, mənim fikirlərim onun haqqında bütün deyilənlərdən daha genişdir. Ancaq, təbii, mən burada heç bir şey demək istəmirəm. Bunlar hamısı insanın qəlbində yaşayır və hər bir insanın, dünyasını dəyişmiş insanı tanıyanların qəlbində yaşayır. Siz isə, əziz incəsənət ustalarımız, xadimlərimiz, bununla Zərifə xanım haqqında mənim qəlbimdə yenidən hisslər oyatdınız. Güman edirəm ki, bu xatirə gecəsinə zəhmət çəkib gəlmiş insanları da təsirləndirdiniz və Zərifə xanımın nə

qədər gözəl insan olduğunu burada bir daha nümayiş etdirdiniz.

Onun haqqında çox sözlər dediniz və çox sözlər də demək olar. Ancaq mənim üçün o, birinci növbədə böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban, sədaqətli ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır.

…Biz həmişə bu günü öz ailəmizdə, ancaq öz ailəmizdə qeyd edirdik. Mən bunu xüsusi vurğulamaq istəyirəm. Çünki bizim ailəmizdə geniş mərasimlər keçirmək, ad günləri keçirmək adəti olmayıbdır. Yəqin ki, bu da həm Zərifə xanımın xasiyyətindən, həm də mənim xasiyyətimdən irəli gələn haldır. Ancaq bu gün onun doğum günüdür. İndi Allahın yazısı belə gətirib ki, o, aprel ayında doğulub, aprel ayında da həyatdan gedibdir.

Xatirimdədir, Moskvada xəstəxanada müalicə edilərkən, onun artıq ağır xəstəliyə düçar olduğunu bilərkən mən arzu edirdim ki, o, doğum gününə qədər, anadan olan gününə qədər yaşasın. Ancaq mənim bu arzum yerinə yetmədi və aprelin 15-də o, vəfat etdi.

…Bu qəm-qüssə mənim üçün təbiidir. Ancaq mən istəməzdim ki, bu gün xatirə gecəsinə zəhmət çəkib gəlmiş adamlar qəm-qüssə, kədər hissi ilə dağılsınlar. Əksinə, biz Zərifə xanımı xatırlayaraq bu gün onun uşaqları, onun nəvələri, onun dostları ilə ad gününü qeyd edirik. Ona görə də mən istərdim ki, artıq bu əhvali-ruhiyyə salondan götürülsün. Hesab edirəm ki, biz bununla onun ruhunu daha da şad edərik".

Zərifə xanıma, onun xatirəsinə tükənməz məhəbbətini və ehtiramını dəfələrlə göstərən Heydər Əliyev bu hisslərini Zərifə Əliyeva adına Naxçıvan şəhər po-

liklinikasında Zərifə Əliyevaya həsr edilmiş muzeyin açılışında da ifadə etdi və rəy kitabına belə bir qeyd yazdı:

"Mənim mərhum həyat yoldaşım Zərifə xanımın adını daşıyan poliklinika ilə tanışlıq, onun xatirəsinə həsr olunmuş guşəyə baxış mənim dərin təəssüratlarımı silkələdi, oyatdı. Mənim üçün çox əziz olan bir insanın həyat və fəaliyyətini əks etdirən bu guşə məni təsirləndirdi. Bütün bunlar – onun böyük insani keyfiyyətlərinə, onun böyük alimlik və həkimlik fəaliyyətinə layiqli xatirədir".

2005-ci ildə Tallində Türk və Qafqaz Xalqlarının Mədəniyyət Cəmiyyətləri Assosiasiyasının təşəbbüsü ilə Zərifə Əliyeva adına Şərq Xalqlarının Mədəniyyət Universiteti yaradıldı. Estoniya hökuməti bu haqda xüsusi qərar qəbul etdi. Universitetin fəaliyyətini qismən Estoniya dövləti maliyyələşdirirdi.

2009-cu ilin 22 mayında Bakıda Akademik Zərifə Əliyeva adına Göz Xəstəlikləri ETİ-nin yeni binasının açılışı oldu. İnstitut ən müasir tibb avadanlıqları, cihazlar və laboratoriyalarla təchiz edildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev açılış mərasimindəki nitqində dedi:

"Zərifə Əliyeva çox istedadlı, bilikli alim idi və eyni zamanda peşəkar, qayğıkeş həkim idi. O, çoxlu monoqrafiyalar, elmi əsərlər yazmışdır. Onun elmi fəaliyyəti keçmiş sovet məkanında yüksək qiymətləndirilmişdir. Zərifə Əliyeva oftalmologiya sahəsində ən yüksək mükafat olan M.İ.Averbax adına mükafata layiq görülmüşdür. Tədqiqatçı-həkim kimi onun fəaliyyəti hərtərəfli idi. 1970-1980-ci illərdə onun təşəbbüsü ilə bir neçə sənaye müəssisəsində elmi-tədqiqat laboratoriyaları yaradılmışdı. Bu laboratoriyaların əsas məqsədi istehsal prosesinin

gözə zərərli təsirini öyrənmək idi. Bu kiçik mərkəzlərdə adi insanlar, fəhlələr ixtisaslaşdırılmış tibbi yardım alırdılar. Minlərlə insan Zərifə Əliyevanın sayəsində görmə qabiliyyətini bərpa etdi. Eyni zamanda o, bizim yaddaşlarımızda unudulmaz, gözəl insan və yaxşı həkim kimi qaldı. Bu gün, onun adını daşıyan bu gözəl mərkəzdə bir daha demək istəyirəm: ən mürəkkəb operasiyaları keçirmək üçün burada bütün şərait var. Burada həm də elmi fəaliyyətlə məşğul olmaq üçün imkan var. Eyni zamanda burada uşaq şöbəsi var… Bu institut, sözün tam mənasında, region üçün əvəzolunmaz müəssisədir. Mən istisna etmirəm ki, müalicə olunmaq üçün bura xarici ölkələrdən də insanlar gələcək".

Biz artıq Zərifə xanımın qızı Sevil Əliyevanın öz anası haqqındakı fikirlərini, xatirələrini eşitmişik. Kütləvi informasiya vasitələrinin nümayəndələri həmişə onunla görüşməyə çalışsalar da, onları maraqlandıran suallara cavab almağa az-az hallarda müvəffəq olublar. Sevil xanımın "Panorama" qəzetinə verdiyi müsahibənin bəzi fraqmentlərini indi sizə xatırlatmaq istəyirik:

"**– Sizə kimsə kömək edir?** (Söhbət uşaqların tərbiyəsindən gedir – *H.M.*)

– Uşaqlarımla mən özüm məşğul oluram, çünki uşaq üçün ananın yerini heç kim tuta bilməz.

**– Bu xasiyyətinizlə, deyəsən, ananıza oxşamısınız. O da evdar qadın idimi?**

– "Evdar qadın" sözü xoşuma gəlmir. Bu söz nə anama, nə də mənə yaraşır. Sadəcə olaraq anam öz varlığını tamamilə atama və bizə həsr eləmişdi. Bununla belə, elmi fəaliyyətlə və ictimai işlərlə məşğul olmaqdan da heç vaxt geri qalmamışdır.

**– Sizin hansı xüsusiyyətləriniz ananıza oxşayır?**

– Bir çox xüsusiyyətlərim. Məsələ burasındadır ki, mənim valideynlərim xarakter etibarilə bir-birlərinə çox oxşayırdılar. Mənə elə gəlir ki, belə hallarla az-az rastlamaq mümkündür. Buna görə, düşünürəm ki, anama da, atama da bərabər dərəcədə oxşayıram".

Bəlkə, oxuculardan kimə isə bizim hekayəmiz yarımçıq görünə bilər. Lakin güman edirik ki, real adamların – doğmaların, yaxınların, həmkarların şahidliyi qəhrəmanımızın obrazını, onun öz işığıyla aydınlatdığı mühiti yenidən parlaq bir şəkildə canlandırmağa daha yaxşı kömək edər. Bizə belə gəlir ki, burada əlavə şərhlər yersiz olardı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xatirələrinə üz tutaq:

"Mənim anamın həyat fəlsəfəsinin köklərini, hər şeydən əvvəl, onun uşaqlığında axtarmaq lazımdır. O, bizə tez-tez deyərdi ki, uşaqlıq – insan həyatının çox mühüm dövrüdür və heç nə bu dövrü əvəz edə bilməz. Uşaqlıq – insanın ömrü boyu təkrar-təkrar müraciət etdiyi dünyadır. İnsan xeyirxahlığın, şəfqətin nə olduğunu uşaqlıqda dərk edir. O, çox xoşbəxt uşaq olub, uşaqlıq onun yaddaşında məhəbbət və əziz xatirələr mənbəyi kimi qalmışdı.

Mənim anamın ailəsi ovaxtkı cəmiyyətin ən ziyalı hissəsinə mənsub olub. Uşaqların yanında çox vaxt cəmiyyətin mənəvi həyatının bir çox sahəsini əhatə edən söhbətlər olurdu. Bu ailədə uşaqların tərbiyəsinə böyük əhəmiyyət verilirdi və musiqi dərslərindən başqa, onlara öz biliklərini inkişaf etdirmələri də aşılanırdı.

Atasının – Əziz Əliyevin həyatı Zərifə xanım üçün doğma xalqının tarixinin ayrılmaz hissəsi idi. Zərifə xanım həkim etikasına həsr olunmuş kitabının fəsillərindən birini belə adlandırıb: "Fədakarlara günəş kimi ehtiyacımız var". Bu fikrə müraciəti onun rus mədəniyyətinə münasibətilə bağlıdır. Bütün həyatı boyu o, Çexova və Raxmaninova dərin hörmət bəsləyib. Əgər Çexov ona həkim kimi, insan kimi cəmiyyətin problemlərini başa düşməkdə yaxın idisə, Raxmaninovun musiqisi ona daxili sakitlik verirdi, onu təlaşdan, qərarsızlıqdan azad edirdi, onun daxili harmoniyasını qaytarırdı.

Ailədə mənim nənəmin, Leyla xanımın təsiri güclü olub. Zərifə xanım ondan çox şey öyrənmişdi. O, hər şeyi bacarırdı: əla aşpaz kimi xörək hazırlayır, elmi işlə məşğul olurdu; qəlblərə təsir edən oxumağı vardı; zərif və sadə olmağı bacarırdı…

Tale Zərifə xanıma elə bir insan qismət etmişdi ki, onunla tanışlığın nəticəsində Zərifə xanımın bütün həyatı dəyişmişdi. Onlar – siyasi hakimiyyətdəkilərin gözündən düşmüş keçmiş dövlət xadiminin qızı və dövlət təhlükəsizlik orqanlarının gələcək vəd edən gənc əməkdaşı bir yerdə olmaq üçün hansı sınaqlardan keçmədilər! Bu, onların "şəxsi sirri"dir.

Bizimlə keçirdiyi son günlərdə Zərifə xanım bilirdi ki, ömrü sona çatır, özü də, bütün həkimlər də tam açıq danışırdılar, üstüörtülü danışıqlardan uzaq idilər. Onun ürəyi elə işıqlı qalırdı. Ölüm fikri onu qorxutmurdu. Onu narahat edən onsuz qalacaq adamlar idi. Gücdən, qüvvədən düşmüşdü. Bütün ömrü boyu olduğu kimi, səssiz bir məğrurluqla əriyirdi. Ölümü də ona həyatı kimi dərin hörmət gətirdi. O, çox gözəl başa düşürdü ki, əbədiyyət qarşısında hər şey kiçikdir, müvəqqətidir, qalan ancaq yaxşılıqdır. Onu sakitləşdirən məhz bu idi.

Mənim anam əsl alim idi. O, tibbin bütün incəliklərini öyrənməyə səy göstərirdi. Bununla bərabər mənimlə, Sevillə məşğul olmağa, bizi Azərbaycanın layiqli vətəndaşları kimi tərbiyə etməyə, böyütməyə vaxt tapırdı. O, həmişə mənim qəlbimdədir”.

## On doqquzuncu fəsil

# İŞIĞIN DAVAMI

*Uşaqlara öyüd-nəsihət yox, nümunələr lazımdır.*
*Jozef Juber*

Zərifə xanım vəfatından az əvvəl uşaqların ailə qurması məsələsi üzərində təkidlə dururdu. "Bu, tez başa gələydi", – deyirdi o. Elə bil ki, tezliklə həyatdan gedəcəyini hiss etmişdi. "Gəlinimizi də o özü seçmişdi. Ölümündən bir az əvvəl İlhamın gələcək həyat yoldaşı ilə görüşmək üçün Bakıya getdi, – illər sonra Heydər Əliyev xatırlayırdı. – Toyu Moskvada elədik. Biz qızımız, oğlumuz və gəlinimizlə birlikdə Siyasi Büronun Moskvadan qırx beş kilometr məsafədə bizə ayırdığı bağda yaşayırdıq. Əliyevlər ailəsi xoşbəxt idi…"

Yəqin, Zərifə xanımın həyatında ən xoşbəxt, yaddaqalan və şad gün onun yeganə oğlunun toy günü idi. Həmin gün iki nəcib ailə doğmalaşdı: Heydər Əliyevlə Zərifə xanımın ailəsi və Arif Paşayevlə Aida İmanquliyevanın ailəsi; məşhur yazıçı Mir Cəlal Paşayevin nəvəsi Mehriban xanım Heydər Əliyevin gəlini və İlham Əliyevin həyat yoldaşı oldu.

Mehriban xanım Azərbaycan tarixində böyük rol oynamış iki qeyri-adi ailəni doğmalaşdırdı və böyük soyadın şərəfli və layiqli davamçısı oldu. O, Prezident İlham Əliyevin sevimli və vəfalı həyat yoldaşı, etibarlı silahdaşı olaraq dünyaya üç gözəl uşaq gətirdi – iki qız və Heydər Əliyevin adını daşıyan bir oğlan.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin o illərlə bağlı xatırələrini oxuyaq:

"Biz iyirmi beş il əvvəl Bakıda konsertdə tanış olduq. Bundan bir neçə ay sonra evləndik. Həmin vaxtdan bir yerdəyik. Bizim mehriban ailəmiz və gözəl uşaqlarımız var və onlarla fəxr edirik. Mən belə hesab edirəm ki, ailədə səmimi münasibət hər bir insan üçün ən böyük sərvətdir. Uşaqların ailədə aldığı tərbiyəni nə məktəb, nə institut tərbiyəsi əvəz edə bilər. Uşaqlar valideynləri arasında məhəbbət, qarşılıqlı incə münasibət görəndə xeyirxah adamlar kimi böyüyürlər. Mən ailəmə görə çox xoşbəxtəm, iyirmi beş ildir sevimli həyat yoldaşımla yaşayıram, amma elə bil ki, lap bu yaxınlarda evlənmişik. Yaşı iyirmini keçmiş böyük qızımı görəndə fikirləşirəm ki, artıq elə də cavan deyiləm. Amma on yaşlı oğlumu görəndə deyirəm: yox, mən hələ cavanam, axı mənim belə balaca oğlum var! Ailə – bu, çox şəxsidir, mən bu mövzuda, adətən, çox danışmağı xoşlamıram. İşdən evə gələndə doğmalarımın üzündə təbəssüm, gözlərində sevinc görəndə işimlə bağlı bütün problemləri, pislikləri və çətinlikləri unuduram, mehribanlıq və məhəbbət dünyasına dalıram".

Oğlu İlhamın ailə xoşbəxtliyi həmişə Zərifə xanımı ruhlandırırdı. Qayınana və gəlin arasındakı qarşılıqlı münasibət xüsusi mehribanlığı, həssaslığı və səmimiliyi ilə seçilirdi. Ailə həyatına yenicə qədəm qoyan cavan gəlin ocağın müdrik qoruyucusundan öyrəndi, demək olar, böyük məktəb keçdi.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri **Mehriban Əliyeva**nın 2005-ci il mayın 31-də "İzvestiya" qəzetinin müxbiri Oleq Seqanova verdiyi müsahibədən:

"**– Siz ixtisasınıza görə həkim-oftalmoloqsunuz. Zəhmət olmasa deyin, öz peşənizi unutmamısınız ki?**

– Mən uzun müddət ixtisasım üzrə işləməmişəm, buna görə, əlbəttə, çox şeyi unutmuşam. Oftalmologiya tibbin elə bir sahəsidir ki, burada fasilə vermək olmaz. Bir-iki ay fəaliyyətsiz qalanda itirilənlərin yerini doldurmağı tələb edir.

**– Sizin peşə seçmənizə nə təsir edib?**

– Mənim anam şərqşünas alim idi. Lakin o, həkim olmaq istəyirdi. Orta məktəbi bitirdikdən sonra sənədlərini Tibb İnstitutuna vermişdi. Amma hansı səbəbə görəsə valideynləri bunun əleyhinə olublar və anamı fikrindən daşındıra biliblər. Sonralar o, filoloq oldu. Məhz anamın baş tutmayan bu arzusu mənim seçimimi müəyyənləşdirdi. Habelə gələcək peşəmi seçməkdə mənə o vaxt İlhamın anası da – oftalmoloq həkim Zərifə xanım da böyük təsir göstərdi. Təəssüf ki, mənim Zərifə xanımla ünsiyyətim qısa oldu. Biz 1983-cü ildə tanış olduq, 1985-ci ildə Zərifə Əliyeva həyatdan getdi. Bu istedadlı və gözəl qadınla bağlı xatirələr hələ də mənim qəlbimdə yaşayır".

Anton Semyonoviç Makarenko deyirdi:

"Siz oğlunuzu və yaxud qızınızı ailənin sevinci üçün həyata gətirib tərbiyə etmirsiniz. Sizin ailənizdə, sizin nə-

zarətiniz altında gələcək vətəndaş, gələcək xadim və gələcək mübariz yetişir".

Qızıl kimi sözlərdir. Valideyn olmağın məsuliyyəti elə bundadır. Qədim dövrlərdən bütün xalqların əxlaq qaydaları və böyük dinlərin ehkam və vəsiyyətləri ananın və atanın doğma ocaqda, cəmiyyətdə rolunu yüksək tutub. Şəriət müəllimləri "Öz atana hörmət et" fikrini təlqin ediblər. Məhəmməd peyğəmbər buyurmuşdur:

"Cənnət – anaların ayaqları altındadır".

Televiziya ilə xəbər verdilər ki Çili arxeoloqları Amerikada Kolumbaqədərki dövrə aid qəbir kəşf ediblər: yanında qədim silahı olan cavan qadın skeleti. Tarix qadının xalqın, millətin, vətənin həyatında oynadığı rolu təsdiq edən nümunələrlə doludur. Antik mifologiya və ədəbiyyatdan qadınların müxtəlif taleyüklü hadisələrdə iştirakına dair çox sayda əfsanə və süjet qalmışdır.

Azərbaycan xalqının və türk dünyasının qədim və gözəl abidəsi olan Dədə Qorqud hekayələrindəki füsunkar və qəhrəman Burla xatun obrazı – uca və fədakar ana məhəbbətini və qadın ləyaqətini təcəssüm etdirən obraz gözümüzün önündə durur.

Eposun iştirakçısı və nəqledicisi, şair və müdrik Dədə Qorqud qəbilənin oğullarının layiqli gənclər kimi yetişməsi üçün onları bəzi vacib sınaqlara çəkir və sonra gənclərə ad verir. Əsrlər keçdi, şanlı ulu babaların adlarını nəvələrə, nəticələrə, gələcək nəsillərə vermək ənənəsi formalaşdı. Bununla da mənəvi abidə, ataların və babaların, anaların və nənələrin vəsiyyətləri və dərsləri əbədiləşdirildi.

Buna oxşar bir ənənə də Heydər və Zərifə Əliyevlər ailəsində izlənir. Zərifə xanımın adı onun nəvəsinin – qızı Sevil Əliyevanın qızının adında təkrarlanır. Nənə öz balaca adaşını hədsiz dərəcədə çox sevirdi. O, oğul nəvəsi

arzulayırdı. Əfsus, onun taleyinə bu xoşbəxt günü görmək yazılmamışdı. Amansız xəstəlik onun həyat yolunu yarımçıq qoydu.

Lakin Allah Zərifə xanımın sağlığında həyata keçməyən arzusunu həqiqətə çevirdi və onun ruhunu sevindirdi. İlhamın oğlu dünyaya gəldi və ona babasının adını verdilər. Və Heydər Əliyev balaca Heydər Əliyevi gördü…

Bir neçə il bundan əvvəl İlham Əliyevin Bakı Universitetinin tələbələri ilə görüşündə söhbət bu hadisə üstünə gəldi və ona belə bir sual verdilər:

> **"– İlham müəllim, bilmirəm bu sualı vermək nə dərəcədə nəzakətlidir, lakin hər halda soruşmaq istəyirəm: Siz oğlunuza Heydər adını atanızın təkidi ilə vermisiniz, yoxsa bunun ayrı səbəbi vardır?**
>
> – Bilirsinizmi, bu haqda mən heç yerdə danışmamışam, indi sizə danışacağam. Mənim oğlum 1997-ci il avqustun 2-də doğulub. Onda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Amerikada rəsmi səfərdə idi. Bizim ailədə belə bir fikir vardı. Lakin biz bu adı uşağın babasının razılığı ilə verməliydik. Buna görə atamla söhbətdə xəbər verdim ki, uşağa Heydər adını qoymaq istəyirəm. Atam razılıq verdi. Soruşdu: "Bəlkə, sən uşağa başqa ad qoymaq istəyirsən?" Mən cavab verdim ki, fikrimdə başqa ad yoxdur. Bilirsiniz, adətən, uşaq doğulanda valideynlər beş-altı addan ibarət siyahı tuturlar. Birinci, ikinci uşaqlar anadan olanda biz də belə eləmişik… Lakin bu dəfə belə bir siyahı yox idi".

Azərbaycan Respublikası Prezidentinin şəxsi fotoqrafı **Rafiq Bağırov** Azərbaycanın Ümummilli liderinin həyatının sevincli, kədərli və çətin anlarını şəkillərə həkk

edərək, tarix üçün fotoşəkillərdən ibarət çox qiymətli bir fond yaratmışdır. Rafiq müəllim yüksək peşəkarlıq məharəti ilə Ümummilli liderin üz cizgilərini həyəcanlı və ilhamlı dəqiqələrdə də, gözləri sevinclə gülən və ürəkdən sarsıldığı anlarda da şəkillərin yaddaşına köçürmüşdür. Rafiq Bağırov Zərifə xanımı Fəxri xiyabanda son mənzilə yola salarkən bu mərd insanın gözlərinin yaşla dolduğunu xatırlayır; yada salır ki, o, bəzən xoş xəbər eşidəndə də gözləri sevinclə gülürdü və gözlərində sevinc yaşları görünürdü…

Rafiq Bağırov danışır:

"Bu, 1997-ci ilin avqust ayının ilk günlərində olmuşdur. Prezident ABŞ-da rəsmi səfərdə idi. Bill Klintonla görüşəndən sonra biz Hyustona gəldik və şad xəbəri burada öyrəndik: Heydər Əliyev növbəti dəfə baba olmuşdur. Adətən, təmkinli olan Prezident indi sevincini gizlədə bilmirdi. Nümayəndə heyətinin bütün üzvləri ilə görüşdü, onların təbriklərini qəbul etdi. Heydər Əliyevin axırıncı dəfə nə vaxt belə sevindiyini xatırlamırdım. Bakıya qayıdanda o, Londonda dayandı və yenicə doğulmuş nəvəsinin olduğu klinikaya baş çəkdi. Sözün həqiqi mənasında, Prezident bu görüşə qaçırdı. Nəvəsini ona göstərəndə Prezidentin gözləri yaşardı. O, təntənə ilə, eyni zamanda titrək səslə bildirdi: "Bu uşağa Heydər adını verirəm!" Palatada olanların hamısının gözləri yaşardı…"

Biz indi kədərlə fikirləşirik: Zərifə xanım bu günə kimi yaşasaydı, bu xoşbəxtliyi görsəydi, o da çoxdan gözlədikləri körpəni sığallayar, öpüşlərə qərq edər və həyat yoldaşına deyərdi: "Səni təbrik edirəm, Heydər! Nəvəmiz Heydərin dünyaya gəlməsi mübarək!"

Əgər o, ailə ocağında iki Heydərin – baba və nəvə Heydərin olduğunu görsəydi, böyüyən nəvənin babası-

nı işə yola salanda adətimiz üzrə arxasınca su atdığını görsəydi…

Əgər o, nəvələrinin toyuna qədər yaşasaydı, onlara xeyir-dua versəydi, xoşbəxtlik arzulasaydı, nəticələri Əlini, Mikayılı, Əminəni, Aydını qucağına alsaydı…

Əgər o, İlhamın yeni Azərbaycanın Prezidenti olduğu günü görsəydi, ana ürəyi iftixar hissi ilə, xoşbəxtliklə dolub-daşardı! Əgər o, oğlunun dövlət başçısı olaraq yerinə yetirdiyi layiqli işləri, respublikanın yüksəlişini, Bakının gündən-günə gözəlləşdiyini görsəydi… Əgər o, Əziz Əliyevin və Heydər Əliyevin müqəddəs vəsiyyətinin – bütün qüvvəni, ürəyini, canını vətənə vermək vəsiyyətinin oğlu tərəfindən layiqincə davam etdirildiyini, müvəffəqiyyətlə həyata keçirildiyini gözüylə görsəydi…

Bəli, o, az yaşadı. Lakin insan həyatının dəyəri heç də illərin sayı ilə ölçülmür; onun işi ilə, yaradıcılığı ilə, insanlara və cəmiyyətə verdiyi xeyirlə, mənəvi qüvvə ilə ölçülür. Zərifə xanımın həyatının hər günü xalqına səmimi və coşqun xidmətə həsr edilmişdir. Yaşadığı xoşbəxt günlər də, doğmaları, xalqı və vətəniylə bağlı hadisələr də onun, nəsillərin əbədi yaddaşında yaşayan xatirəsini və ruhunu hər zaman şad edəcək…

Böyük mütəfəkkir Hegel bir vaxtlar insanın özü qarşısındakı, ailəsi qarşısındakı, başqa adamlar qarşısındakı və dövlət qarşısındakı borcu haqqında yazmışdı. Filosofun fikrinə görə, insanı insan edən, yüksəldən şey gündəlik işlərdə daxili borcu hiss etmək, görməkdir. Zərifə xanımın bu dünyadakı həyatı bu çətin və şərəfli borcun yerinə yetirilməsinin ən gözəl nümunəsidir…

Hekayəmizi davam etdirərək, Əliyevlər ailəsinin yeni nəslinin nümayəndəsinə – Heydər Əliyev Fondunun vitse-prezidenti, ictimai fəaliyyəti ilə ölkəmizdə və res-

publikadan kənarda böyük nüfuz qazanmış nəvə Leylaya müraciət edirik. Onun bəxtinə fövqəladə insan olan nənəsini görmək düşməsə də, böyüklərin söhbətlərindən həssas uşaq qəlbində nənənin obrazı yaranmışdı. Bu, xoş atmosfer yaradan, yaddaşları titrədən, Əliyevlər ailəsinin ocağını qızdıran bir obraz idi… Balaca, ancaq yaşına görə çox düşüncəli və həssas Leyla ailənin ümumi harmoniyası içində bu işıqlı melodiyanı eşidərək, böyüklərin onu əvəzolunmaz itkinin sakitləşmək bilməyən ağrısından qoruduqlarını hiss edərək balaca qəlbi ilə babasına yapışır, ona meyil edirdi. Bəlkə də, qeyri-iradi olaraq babasının nəvazişli himayəsində, nəfəsində, onun çox sevdiyi nənəsinin işıqlı əksini hiss eləmək, duymaq istəyirdi… Zərifə xanımla nəvəsi arasında necə gözəl ünsiyyət ola bilərdi – bunu ancaq düşünmək, təsəvvür etmək olar. O öz yaşıdlarından nəzərəçarpacaq dərəcədə fərqlənirdi. Hələ məktəb illərində öz hisslərini çoxunu babasına həsr elədiyi şeirlərdə ifadə etməyə çalışmışdı. Gənc Leylanın "Panorama" qəzetinin müxbiri Fazil Ələsgəroğluya verdiyi müsahibəyə müraciət edək:

"**– Gəl tanış olaq.**

– Mənim adım Leyladır. Leyla İlham qızı Əliyeva. Mən altıncı sinifdə oxuyuram. Mənim babam Prezidentdir!

**– Sən ona necə müraciət edirsən?**

– Baba, babacan.

**– Əgər sənə məktəbdə belə tapşırıq versələr: ən çox sevdiyin insan haqqında yaz, sən kimin haqqında yazarsan?**

– Bütün ailəmiz haqqında. Axı mən kimi isə ayıra bilmərəm.

**– Sən hamını sevirsən?**

– Bəs necə!.. Yox, mən babamı o birilərindən balaca çox sevirəm.

**– Deyə bilərsənmi, sən onu nə üçün çox sevirsən?**

– İnsanı nə üçün çox sevirlər? O, mənim babamdır. Vəssalam. Bilirsiniz, o çox nəvazişli, çox ağıllı, çox həssas babadır.

**– Yəqin, sən özün bilirsən ki, sənin baban başqalarının babalarından fərqlidir. Hamının belə babası yoxdur. Onun səninlə oynamağa vaxtı azdır, belə deyilmi?**

– Bəli. O, həmişə məşğuldur. Biz çox az görüşürük.

**– Yəqin, nahar vaxtı, yaxud şam yeməyi vaxtı süfrə başına yığışırsınız, nə haqdasa söhbət edirsiniz?**

– Çox az-az hallarda. O, evə gec qayıdır və axşam yeməyini yuxarıda, öz otağında yeyir. Bayramlarda, ailə şənliklərində bir yerə yığışırıq. Bax onda çox xoş olur, görüşürük, şənlənirik…

**– Axı, görünür, o həmişə şən əhvali-ruhiyyədə olmur. İşdə hər şey ola bilər…**

– O, heç vaxt evə işdə olan əhvali-ruhiyyə ilə gəlmir. Nə olur-olsun, kandara ayaq basanda evə təbəssümlə daxil olur. Babam heç vaxt işi haqqında danışmır. Amma biz o saat hiss edirik ki, nə isə yolunda getmir.

**– Siz ikiniz bir yerdə olanda nə ilə məşğul olursunuz?**

– Bilirsiniz onunla necə maraqlı olur?! O, hər şeyi, hər şeyi, hər şeyi bilir. Nə haqda soruşsan, hamısına cavab verir.

**– Sən çox sual verən qıza oxşayırsan. Bir az oxşayırsan, elə deyimli?**

– Ümumiyyətlə, hər şey haqqında, xüsusilə özüm haqqında soruşmağı sevirəm. Babam danışır: Sən lap balaca idin. Mən isə xatırlamıram, hamısını babamın sözlərindən öyrənirəm. Hələ… biz Zuğulbada olanda o, mənə orada hər şeyin necə tikildiyini danışır.

**– Elə olur ki, hamınız bir yerdə istirahət edirsiniz? Onda vaxtınızı necə keçirirsiniz?**

– Hə… Onda ya dənizdə çimirik, ya da parkda gəzirik. Babam uşaqlıq illəri və dostları haqqında maraqlı əhvalatlar danışır. Ümumiyyətlə, gülməli əhvalatlar onun xoşuna gəlir… O, tez-tez zarafat edir.

**– Aha, deməli belə! Demək o, səninlə də zarafatlaşır?**

– Yox, yox, nə deyirsiniz! O, məni həddindən çox sevir.

**– Bəs sənə nə isə hədiyyə edib? Yadına sala bilərsən?**

– Mən hər şeyi yadımda saxlayıram. Mənim ən sevimli kuklamı babam bağışlayıb. Bir itim də var, o da babamın hədiyyəsidir.

**– Diri?**

– Yox, siz nə danışırsınız!.. Babam mənə hələ dovşanlar da bağışlayıb – onlar diridir… Onlar elə gözəldir, yumşaq tükləri var… Mən dovşanlarla oynayıram.

**– Sən hər şeydən çox nəyi sevirsən?**

– Şeiri çox sevirəm. Özüm də yazıram. Oyunlardan isə… Hər şeydən çox öz dovşanlarımla oynamağı sevirəm.

**– Bəs sənin babanı nə maraqlandırır? Asudə vaxtında o, nə ilə məşğul olur?**

– Televizora baxır. “Vremya”, “Novosti”, “Xəbərlər”… Sonra qəzet oxuyur.

**– Hansı yeməklər onun xoşuna gəlir? Sizin zövqləriniz uyğun gəlirmi?**

– Hə, uyğun gəlir. Onun xoşuna plov və südlü çay gəlir.

**– Oktyabrın 4-də, sənin baban televiziya ilə çıxış edəndə sən harada idin? Kimdən ötrü daha çox qorxurdun?**

– Onda biz Türkiyədə idik. Mən onda ən çox babam üçün qorxurdum, axı işin başında olan, işi aparan o idi. Sonra biləndə ki bütün xalq onu müdafiə edir, biz çox sevindik.

**– Sən onunla xaricdə olmusan?**

– Biz bir yerdə Mərakeşdə olmuşuq. Ancaq o, işdən ayrıla bilmirdi… Və bir dəfə də biz Türkiyədə olanda ora gəlmişdi.

**– Sən şeir haqqında danışdın. Sən babana şeir həsr etmisənmi?**

– Əlbəttə, istəyirsiniz birini oxuyum...

*Bilirsinizmi niyə*
*İşıqlıdır vətənim?*
*Belə parlaqdır günəş*
*Gözəl yurdumda mənim?*

*Deyim bilsin bu sirri*
*Gərək bütün insanlar:*
*Onlar üçün durmadan*
*Zəhmət çəkən babam var.*

*İşi başından aşır,*
*Evə yorğun gəlir o.*
*Nə bir an dinclik tapır,*
*Nə yatıb dincəlir o.*

*Harada bir çətinlik*
*Olsa, çatar köməyə.*
*İşıq saçar, nur saçar*
*Bütün elə, ölkəyə.*

Mən bu şeiri onun ad gününə yazmışam…

**– Sən dəcəllik etməyi sevirsən?**

– Əlbəttə, amma ancaq tənəffüslərdə, fasilələrdə.

**– Bəs baban sənin dəcəlliyinə nə deyir? Narazılığını bildirirmi?**

– Yo-o-ox! O, ancaq necə oxumağımı soruşur.

**– Olubmu ki, baban nə üçünsə sənə hirslənsin?**

– Heç vaxt. Mən elə bir hərəkət eləmirəm ki, babam ona görə hirslənsin.

**– Bəs sən özün? Elə bir hal olubmu ki, ondan inciyəsən?**

– Heç vaxt. Axı o, məni hamıdan çox sevir.

**– Sən onun ad gününü necə keçirmək istərdin?**

– Olar açığını deyim?

**– Əlbəttə, de.**

– İstərdim ki, həmin gün onu heç kim narahat etməyəydi – o, heç yerə tələsməyəydi, heç bir xarici qonaq və təcili iş olmayaydı. Zuğulbaya gedəydik, babam məzəli əhvalatlar danışaydı, bizimlə zarafat

edəydi, sonra hamımız süfrə başına yığışıb gülərdik, şənlənərdik…"

Bu da başqa bir müsahibədən:

"**– Sən bizim qəzetimiz vasitəsilə ona nə isə demək istəyirsən?**

– Bəli. Baba, mən səni lap çox sevirəm! Mən sənə möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram! İstərdim ki, müharibə qurtarsın! İstərdim ki, qaçqınlar evlərinə qayıtsınlar! İstərdim ki, ölkəmizə sülh və əmin-amanlıq gəlsin. İstərdim ki, sən mənimlə daha çox gəzəsən və söhbət edəsən. Səni bağrıma basıram və öpürəm".

Bir neçə il keçdi. Leyla böyüdü. "Panorama" qəzetinin 1998-ci il 9 may sayında onun yeni müsahibəsini oxuyuruq. Söhbət onun qələm təcrübələrindən gedir:

"**– Babana həsr elədiyin şeirlərdən başqa daha nə haqda yazırsan?**

– Əsasən lirik şeirlər. Mövzular müxtəlif olur. Öz düşüncələrim haqqında…

**– …Hər bir insanın, xüsusən sənin baban kimi məşhur şəxsiyyətin yubileyi həmişə bayramdır, əlamətdar hadisədir. Doğrudur, sənin baban yubileyinin bütün respublikada qeyd olunmasını istəmir. Bununla belə, həmin günü siz, yəqin, ailədə qeyd edəcəksiniz. Əgər mümkünsə, de, babana nə hədiyyə hazırlamısan?**

– Mənə belə gəlir ki, babam üçün ən qiymətli hədiyyəm mənim öz əllərimlə hazırladığım şey olardı. Buna görə də mən kitab yazmışam. Köhnə və yeni şeirləri kitaba yığıb mən onu babama, onun yubileyinə həsr etmişəm. Ona həsr etdiyim kitab "Azərbay-

can" adlanır. Ancaq o, hələ bu haqda bilmir. Ümid edirəm ki, bu, onun üçün sürpriz olacaq.

**– Bu, sənin ilk kitabındır?**

– Yox, ikincidir. Birinci 1995-ci ildə nəşr olunub. Mən səkkiz yaşımda şeir yazmağa başlamışam. Lakin köhnə şeirlərimlə təzələr arasında çox fərq var.

**– Bakıda olarkən yaşıdlarının, hətta yaşca səndən böyük olanların sənə Prezidentin nəvəsi kimi xüsusi münasibətini hiss edirsənmi?**

– Məncə, yox, hiss etmirəm. Ola bilsin, bu, bizim özümüzü son dərəcə sadə aparmağımızla bağlıdır. Mən müxtəlif tədbirlərə, konsertlərə babamla getməyi sevirəm…

**– Biz bilirik ki, sən Şən və Hazırcavablar Klubunun konsertlərini sevirsən. Hətta bu konsertlərdə iştirak etmisən. "Bakılı oğlanlar"ın axırıncı konsertində necə, olmusanmı?**

– Yox, onda mən Azərbaycanda deyildim. Lakin onların axırıncı konsertinin kasetinə baxmışam. Çox xoşuma gəldi.

**– Sənin maraq dairən dəyişibmi? Sən indi hansı sənəti arzulayırsan?**

– Əlbəttə, maraqlarım çox dəyişib. Yuxarı siniflərdə oxumağa başladığım vaxt məşğələlərə bir az çox vaxt ayırmaq lazım gəlirdi. Maraqlarıma – daha çox nəyə həvəs göstərməyimə gəldikdə, rəsm çəkməyi çox sevirəm, kompüterlə maraqlanıram, şeir yazmaqda davam edirəm və bilirəm ki, sonralar da, böyüyəndə də şeir yazacağam…

**– Sən dedin ki, rəsm çəkməyi daha çox sevirsən. Mən onu da bilirəm ki, sizin ailənizdə belə bir qabiliyyət var. Buna görə də soruşuram: babana həsr etdiyin kitabın rəsmlərini sən özün çəkmisən?**

– Hə, özüm.

**– Sən nə ilə rəsm çəkməyi sevirsən: karandaşla, flomasterlə, yoxsa boyalarla?**

– Boyalarla. Ancaq boyalarla işləmək çox çətindir. Ona görə də kitabın rəsmlərini karandaşla və flomasterlə çəkmişəm.

**– Sən çoxdan rəsm çəkirsən? Çəkdiyin rəsmləri babana göstərirsən?**

– Hə, çoxdan. Adətən, rəsmləri də, şeirləri də babama göstərirəm.

**– Sənin baban incəsənəti yaxşı başa düşür. Bundan əlavə, mən eşitmişəm ki, o özü də yaxşı rəsm çəkir. Sənin rəsmlərin haqqında babanın fikri necədir?**

– Həmişə rəsmlərə baxıb məni tərifləyir.

**– Yaradıcılıqda hansı sahəyə üstünlük verirsən?**

– Hər şey vaxtdan və şəraitdən asılıdır. Bəzən mən şeir yazmağa meyil edirəm, bəzən rəsm çəkmək məni cəlb edir…

**– Sənin rəsmlərin öz fantaziyanın, təxəyyülünün məhsuludur, yoxsa naturadan çəkirsən?**

– Kitabım üçün rəsmləri özüm fikirləşmişəm. Onlar şeirlərə uyğun olmalı idi. Ümumiyyətlə, vaxtımı təbiətin qoynunda keçirərək, mənzərələrə baxıb rəsm çəkməyi sevirəm…

**– Sən sevimli oyuncaqlarını saxlamısanmı?**

– Baxmayaraq ki, o günlər deyil, sevimli oyuncaqları qoruyub saxlayıram. Uşaqlıqdan xatirə kimi. Onlar şkafdadır, hərdən tapıb baxıram…

**– Bu oyuncaqlar haqda müfəssəl danışa bilərsən? Məsələn, bu kukla haqqında?**

– Bu oyuncaqlarla mən lap körpəlikdə oynamışam. Oyuncaqlar nə qədər köhnədirsə, sənin üçün o

qədər qiymətlidir. Amma kuklalar yox. Nə üçünsə heç vaxt kuklalarla oynamamışam. Onların içərisində balaca rezin it də var…

**– Sənə ən çox kim oyuncaq hədiyyə edib?**

– Ad günlərimdə mənə həddindən çox oyuncaq hədiyyə edirdilər. Düzü, onların heç də hamısı xoşuma gəlmirdi.

**– Bəs o balaca rezin iti kim bağışlayıb?**

– Vallah yadımda deyil.

**– Təbiətən istedadlı olan bütün insanlar kimi, yəqin, sən də musiqiyə qulaq asmağı sevirsən…**

– Tez-tez maqnitofonu qoşub astaca dinləyirəm. Amma deməzdim ki, mənim böyük musiqi qabiliyyətim var. Şeir, rəsm çəkmək məndə daha yaxşı alınır. Ümumiyyətlə isə Azərbaycan musiqisini, rus estradasını sevirəm.

**– Sən kitablar haqqında nə deyə bilərsən? Çoxmu oxuyursan? Sənin sevimli kitabların varmı?**

– Hə, çox oxuyuram və çox oxumağa çalışıram. Çünki nə qədər çox oxusan, o qədər çox təb, ruh qazanırsan… Həm rus, həm də ingilis dillərində kitablar oxuyuram. Kitab maraqlı olanda uzun müddət yadda qalır.

**– Uşaqlığından yadında qalan nağıl varmı? Sənin elə bir qəhrəmanın varmı ki, nə vaxtsa özünü onun yerində təsəvvür etmisən?**

– Mən özüm nağıl yazmağı sevirəm, ancaq bütün nağıllarda nə isə oxşarlıq var, buna görə də onların hamısını yadda saxlamaq olur… Amma mənim xüsusilə sevdiyim nağıl yoxdur. Və mən özümü heç bir nağıl qəhrəmanının yerində təsəvvür etmirəm… Nağıl kitabları, adətən, rəsmli olur. Ancaq onlar rəsmli olmasa daha yaxşıdır. Çünki onda sənin təxəyyülün daha yaxşı işləyir…

**– Məktəbdə müəllimlər, sinif yoldaşların sənin şeir yazdığını, rəsm çəkdiyini bilirlərmi? Onların buna münasibəti necədir?**

– Demək olar, mən rəsm dərsindən həmişə yaxşı qiymət almışam. Öz şeirlər kitabımı müəllimlərimə göstərmişəm. Onlara ingilis dilində öz şeirlərimi də oxumuşam. Doğrusu, mənə elə gəlir ki, rusca şeirlərim daha yaxşı alınır… Fənlərdən daha çox riyaziyyatı, informatikanı və ədəbiyyatı sevirəm.

**– Sən öz şeirlərini sinifdə oxuyursan?**

– Oxuyuram və uşaqların çox xoşuna gəlir. Xahiş edirlər ki, onlara da şeir həsr edim.

**– Ancaq sən bütün şeirlərini babana həsr edirsən?**

– Yox, mən bütün ailə üzvlərinə şeir həsr edirəm. Anama, atama, Arzuya, qardaşıma… O şeirlər ad günləri münasibətilə yazılıb, ona görə də kitabıma daxil etməmişəm.

**– Qardaşın Heydər dünyaya gələndə sən hansı hissləri keçirdin? Şübhə etmirəm ki, sən bu günə də mütləq bir şeir həsr etmisən…**

– Həmin gün mən xoşbəxt idim. Mən hətta inana bilmirdim ki, mənim qardaşım olub. Balaca qardaşımı həddindən çox sevirəm. Mən ona bir uzun və bir neçə qısa şeir həsr etmişəm.

**– Sən onları qardaşına oxumusan?**

– O hələ balacadır. Düşünürəm ki, heç nə başa düşməz. Bəzən ona nə isə danışmağı sevirəm. Görürəm qulaq asır, mən də daha çox danışıram. Arzu edirəm ki, o, tez danışsın…

**– Baxmayaraq ki, balaca Heydər hələ danışa bilmir, bütün balaca uşaqlar kimi hər şeylə maraqlanır, yəqin ki, babanın onu necə sevdiyini hiss edir**

**və yəqin, babanın yubileyi ərəfəsində onun balaca ürəyi tamamilə məhəbbət və sevinclə doludur…**

– Qardaşım babasını gördükdə elə sevinir!

**– Sən ailədə hər kəsin ad gününə şeir həsr etmisən. Bəs elə olubmu ki, özünə də şeir həsr edəsən?**

– Yox, özümə heç şeir həsr etməmişəm…

**– Adətən, məktəblilər tətili çox sevirlər. Sən də çox sevirsən?**

– Əlbəttə, istirahət etmək çox gözəldir. Ancaq mən başa düşürəm ki, oxumaq da lazımdır. Tədris vaxtı dərslərimlə çox məşğul oluram. Həm evdə, həm məktəbdə… Bəzən adam məşğələləri unutmaq, istirahət etmək istəyir…

**– Sənin tez-tez görüşdüyün, oynadığın dostların, rəfiqələrin varmı?**

– İbtidai siniflərdə tez-tez uşaqlarla oynayırdım. İndi isə tənəffüslərdə oynamıram.

**– Tez böyümək, yaşa dolmaq istəyirsənmi?**

– Hələ bilmirəm böyük adam olmaq yaxşıdır, ya pisdir. Bu haqda fikirləşməmişəm. Əlbəttə, sən böyük olanda azadlığın da böyük olur. Bəlkə, buna görə uşaqların əksəriyyəti böyüməyi səbirsizliklə istəyir… Mən bu haqda fikirləşmirəm. Mənə belə həyat da xoşdur…

**– Sən ailə üzvləri ilə tez-tez məsləhətləşirsən?**

– Hə, onlar məndən böyükdür, onlar nə deyəcəklərsə, ola bilsin, doğrudur.

**– Sən öz sirlərini kimlə bölüşürsən?**

– Əgər bu sirr məktəb işlərinə aiddirsə, bacımla. Bundan əlavə, anamdan bəzi məsləhətlər alıram. Atamla da, babamla da məsləhətləşirəm.

**– Sənə paltar seçmək lazım gələndə ananla məsləhətləşirsən, yoxsa öz zövqünü üstün tutursan?**

– Adətən, öz zövqümə görə seçirəm. Amma anamla mənim zövqüm çox oxşardır. Və əlbəttə, onun fikri ilə hesablaşıram.

**– Sən ailənizdə kimə oxşamaq istərdin? Sənin idealın var?**

– Düzünü desəm, bilmirəm. Mən onların hər birindən nə isə götürmək istərdim. Nədə isə anama, nə iləsə atama, yaxud babama oxşamaq istərdim…

**– Rəsm çəkən adamlar üçün, yəqin, rəng böyük əhəmiyyət kəsb edir. Sənin sevdiyin rəng varmı?**

– Mənim xoşuma sarı rəng gəlir. Çünki o, daha parlaqdır. Mən hətta sarı rəng haqqında şeir də yazmışam. Paltara gəldikdə isə, qəhvəyi və açıq-çəhrayı rəngləri. Paltar üçün qara rəng də yaxşıdır.

**– Sən öz şeirlərinə münasibətdə kimin tənqidi mühakiməsini qəbul edirsən? Yeni şeirlərini ilk dəfə kimə oxuyursan?**

– Şeir yazanda, adətən, özüm yoxlayıram, nə isə xoşuma gəlmirsə, düzəldirəm. Öz şeirlərimi, adətən, yanımda kim varsa, ona oxuyuram, ilk rəyi eşitmək istəyirəm.

**– Leyla, sən özünü xüsusi, nə iləsə başqalarından fərqlənən adam hesab etmirsən?**

– Yox.

**– Ancaq mənə elə gəlir ki, sən başqalarından fərqlənirsən. Ona görə yox ki, sən Prezidentin nəvəsisən. Ona görə ki, sən istedadlısan. Axı heç də hamı sənin yaşında şeir yazmağı, rəsm çəkməyi bacarmır.**

– Məncə, hər bir adamı başqasından fərqləndirən xüsusiyyət var. Adamlar müxtəlif istedada malik ola bilərlər. Kim isə yaxşı rəsm çəkə bilər, kim isə yaxşı oxuya bilər, kim isə fortepianoda yaxşı ifa edə bilər. Hər kəsin bir qabiliyyəti var.

**– Sənin sevdiyin şair varmı?**

– Puşkini çox sevirəm.

**– Sən necə fikirləşirsən: şair üçün məşhur olmaq yaxşıdır? Sən istərdin ki, şeirlərin dildən-dilə gəzsin?**

– Hə. Yəqin, ona görə şeirlərimi oxuyan adamların onlara qiymət verməsi xoşuma gəlir. Ancaq şair gərək bu şöhrəti özü qazansın.

**– Leyla, mən çox istərdim ki, sən babanın yubileyi ilə əlaqədar öz arzularını bizim qəzetimiz vasitəsilə bildirəsən.**

– Mən ona möhkəm cansağlığı arzulayıram. Mən onu çox-çox sevirəm… Bilirəm ki, o, bizim hamımızı çox sevir və bizim üçün narahatdır.

*Babam çox gözəl insandır mənim,*
*O bizi qəlbdən sevir, biz onu.*
*"Yüz yaşa" deyir ona vətənim,*
*Yenə də azdır, bilirəm bunu.*

*Heyif, dünyada var xəbis insan –*
*Onlar fərq qoymaz qarayla ağa.*
*Babam qoruyar haqqı hər zaman,*
*Vüqarlıdır o – bənzəyər dağa.*

*Həmişə yardım əli uzadar*
*Dara düşəndə xalq, ölkə, vətən.*
*Bax, mənim babam beləcə yaşar,*
*Ona oxşamaq istəyirəm mən".*

## İyirminci fəsil

# ZƏRİFƏ XANIMIN GƏLİNİ

*Birinci xanım prezident üçün ən yaxşı partiyadır.*
*Amerika aforizmi*

Hələ Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti vəzifəsini yerinə yetirərkən universitetdə tələbələrlə görüşü zamanı İlham Əliyevə siyasi rəhbərlərin həyat yoldaşlarının ictimai fəallığı məsələsi barədə də sual verilmişdi:

"**– Biz hamımız bilirik ki, xarici ölkələrdə dövlət rəhbərlərinin həyat yoldaşları ölkənin ictimai həyatında mühüm rol oynayır. Cənab Əliyev, Sizin həyat yoldaşınız ölkənin ictimai həyatında nə dərəcədə fəal iştirak edir?**

– Hər şeydən əvvəl deməliyəm ki, mən dövlət rəhbəri deyiləm, neft şirkəti prezidentinin müaviniyəm. Hesab edirəm ki, həyat yoldaşının əsas vəzifəsi hansısa stereotiplərlə, şablonlarla ölçülmür. Hər bir ailənin öz xüsusiyyətləri var, bir ailə digər ailəyə oxşamır. Yeganə bunu deyə bilərəm ki, mənim həyat yoldaşım uzun illər oftalmologiya xəstəxanasında həkim işləyib. Uşaqlar ba-

laca olduğuna görə indi işləmir. Sizin sualınıza mücərrəd formada cavab verərək sözün düzünü deyim: şəxsən mən dövlət başçısının arvadının ancaq rəhbər işçinin arvadı olduğu üçün hansısa vəzifə tutmasının, yaxud ekrandan düşməməsinin tərəfdarı deyiləm… Hər kəs öz qabiliyyətinə uyğun, ürəyincə olan işlə məşğul olmalıdır. Əgər işi zorla görürsə, nəyin xatirinəsə, deyək ki, imic xatirinə, onda bu, təbii görünmür. Belə ki, bu məsələyə mən hər hansı bir məhdudiyyət qoya bilmərəm. Düşünürəm ki, hər bir adam öz ürəyinin hökmü ilə hərəkət etməlidir… Lakin, ümumiyyətlə, demək istəyirəm ki, bəzən bizim qəzetlərdə, hansısa digər nəşrlərdə liderlərin, təşkilat rəhbərlərinin arvadlarının geniş təbliğ edildiyini müşahidə edirəm. Şəxsən mən bir insan kimi, kişi kimi, ər kimi bunun əleyhinəyəm. Hesab edirəm ki, ailə ailədir, iş isə işdir. Buna görə onları qarışdırmaq olmaz…”

Başa düşmək çətin deyil ki, İlham Əliyevin söylədiyi fikirdə kütləvi informasiya vasitələri işçiləri tərəfindən müəyyən məqsədlərlə bəzi şəxslərin fəaliyyətinin süni surətdə şişirdilməsi, reklamı nəzərdə tutulur. Güman edirəm ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın cəmiyyətdəki real fəaliyyəti ilə, real faktlarla tanış olan oxucu bu kitabın müəllifini elələrinin sırasına aid etməyəcək…

Bu məsul vəzifələrin sadalanması özlüyündə onun fəaliyyət diapazonunu göstərir.

Artıq geniş oxucu dairəsinə məlum olan “İlham Əliyev” adlı kitabda Azərbaycanın birinci xanımının ictimai qayğılarını və işlərini işıqlandırmağa bizim imkanımız olmuşdur. Buna görə də nəşr edilmiş faktları təkrarlamayaraq, Mehriban Əliyevanın portretini onun humanitar işindən və təşəbbüsçüsü olduğu mədəni tədbirlərdən

götürdüyümüz ştrixlərlə və nümunələrlə əks etdirməyə çalışacağıq. Bu kitabda ümumi planda verilmiş epizodlar, güman edirik ki, bu ailənin əxlaqi və mənəvi mühiti haqqında, nəsillər arasındakı əlaqələr haqqında, Zərifə xanım Əliyevanın ailəsində mövcud olan və daha sonra digər iki ləyaqətli ailənin – Paşayevlər və İmanquliyevlər ailələrinin ənənələri ilə üzvi surətdə birləşən mənəvi atmosfer haqqında təsəvvürləri daha da genişləndirər.

Yazıçı-publisist **Atababa İsmayıloğlu** yazır:

“Mehriban xanımın bəxtini tale qabaqcadan çox gözəl müəyyənləşdirib və bunu, əvvəla, onun kökləri vasitəsilə edib… Onun ata tərəfdən babası Mir Cəlal (Paşayev), ana tərəfdən babası Nəsir İmanquliyevdir. Mir Cəlal məşhur yazıçı, Nəsir İmanquliyev isə Azərbaycan jurnalistikasının ustadlarından biri olmuşdur.

Bu gün Mir Cəlal müəllimi xeyirxahlıqla xatırlayanlar arasında çoxlu yazıçı və filoloq, Nəsir müəllimin yetişdirmələri içərisində isə jurnalistlərin bir neçə nəsli var. Onların hər ikisi Bakı Dövlət Universitetində pedaqoji fəaliyyət göstərib. Onların hər ikisi gənc nəsillərin ürəyinə yol tapmağı, istedadları müəyyənləşdirməyi, onların qüvvəsini xalqa, cəmiyyətə xidmət etməyə istiqamətləndirməyi bacarıb…

Mənə görə, Mehriban xanımın və onun bacısı, məşhur filoloq Nərgiz xanımın həyatında görkəmli babalarından nümunə götürmələrinin böyük rolu olmuşdur. Və əlbəttə, ikinci nümunə onların valideynləri: anası – çox gözəl şərqşünas alim Aida İmanquliyeva və atası – görkəmli fizik, akademik Arif Paşayev olmuşdur.

Valideynlərin yüksək məqsədləri, nəcib idealları onların övladlarının formalaşmasına təsir göstərməyə bilməzdi. Mən əminəm ki, Mehriban xanımı Tibb İnstitutuna gətirən ailənin xeyirxahlıq ənənələri, şəfqət və insani

hisslər olmuşdur. Sonra isə o öz qayınanasının, məşhur oftalmoloq Zərifə Əziz qızı Əliyevanın məsləhəti ilə oftalmoloq ixtisasına yiyələnir… Fərqlənmə diplomu alan Mehriban xanım bu sahədə işləsəydi, şübhəsiz ki, məşhur həkim-oftalmoloq olardı…"

Həkimlik peşəsini davam etdirmək, diaqnoz qoymaq, xəstələri müalicə etmək, onlara gözlərini qaytarmaq, dünyanın sonsuz gözəlliklərini görmək sevinci bəxş etmək olardı. İnsanlara işıq bəxş eləmək – necə ki, bunu Zərifə Əziz qızı Əliyeva eləmişdi…

Mehriban xanım gələcək qayınanasının rəhbərliyi altında müvəffəqiyyətlə həkim-oftalmoloq işləyib. Lakin tale onu başqa vəzifə üçün hazırladı…

O, məşhur ailənin evinə gəlin getdi. Gələcək dövlət başçısının həyat yoldaşı oldu. Onun uşaqlarının anası oldu.

Mehriban Paşayeva Mehriban Əliyeva olaraq elə bir ailəyə daxil oldu ki, dövlət qayğıları güclü bir cərəyan kimi bu ailənin içindən keçirdi; ictimai həyatın, milli arzuların, həyəcanların, ümidlərin… nəbzi bu ailədə atırdı. Həyatın bu yeni ritmi, belə demək mümkünsə, soyadının statusu onu ictimai həyatda daha fəal iştiraka təhrik etdi, şəxsi potensialının açılmamış enerjisini oyatdı.

Mehriban Əliyevanın 27 aprel 1996-cı ildə "Panorama" qəzetinə verdiyi müsahibədən:

"**– Zəhmət olmasa, bir az özünüz haqda danışın. Uşaqlığınız haqda, peşəniz haqda. Sizin valideynləriniz kim olublar?**

– Mənim valideynlərim alimdirlər. Anam filologiya elmləri doktoru, professor olub. Ömrünün son illərində Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna rəhbərlik edirdi. Atam fizikdir, Elmlər

Akademiyasının müxbir üzvüdür… Mən məktəbi qızıl medalla bitirib Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşam. Bir ildən sonra Moskvaya köçməyimizlə əlaqədar Seçenov adına Moskva Tibb İnstitutuna köçürülmüşəm. Oranı qurtarıb fərqlənmə diplomu almışam. Göz Xəstəlikləri ETİ-də həkim işləmişəm.

**– Həyat yoldaşınızla necə tanış olmusunuz?**

– Respublika sarayında bolqar müğənnisi Lili İvanovanın konserti vardı. Orada, konsertdə tanış olduq.

**– Həyat yoldaşınız Sizə evdə, uşaqların tərbiyəsində kömək edirmi?**

– Xeyr, ev işlərində kömək etmir. Uşaqların tərbiyəsinə gəldikdə isə, biz heç vaxt onların tərbiyəsi ilə xüsusi məşğul olmuruq, onlara öyüd vermirik. Mənə elə gəlir ki, ən yaxşı tərbiyə – ailədə hökm sürən atmosferdir. Xoşbəxtlikdən bizim uşaqlarımız ağıllı və sözəbaxandırlar.

**– Bəs Siz necə, həyat yoldaşınıza öz işində kömək edirsinizmi? O öz problemlərinə Sizi şərik edirmi, Sizin məsləhətlərinizə qulaq asırmı?**

– İlham işdə çox yorulur, ona görə də evə gələndə bütün problemlərdən uzaqlaşmağa çalışır. Bunda mən ona kömək edirəm.

**– Siz boş vaxtınızı necə keçirirsiniz? Konsertə getməyi, qonaq getməyi sevirsinizmi, yoxsa asudə vaxtınızı evdə, ailədə keçirməyə üstünlük verirsiniz?**

– Ailəmlə birlikdə istirahət etməyi sevirəm. Lakin maraqlı konsertləri, sərgiləri, təqdimatları buraxmamağa çalışıram.

**– Həyat yoldaşınız daha çox hansı yeməkləri sevir?**

– İlham, ümumiyyətlə, yemək məsələsində vasvası deyil, lakin bizim milli yeməklərə üstünlük verir. Plovu çox sevir.

**– Siz uşaqlarınızın gələcəyini necə görmək istərdiniz?**

– Mən, hər şeydən əvvəl, uşaqlarımın sağlam və xoşbəxt olmasını istəyirəm. Qoy onların həyatında xoşbəxt və işıqlı günlər daha çox olsun. Qoy ləyaqətli, parlaq insanlar olaraq böyüsünlər…"

Onun bütün fəaliyyəti Prezident İlham Əliyevə sədaqətə və Ümummilli lider Heydər Əliyevə ehtirama söykənir. Buna əmin olmaq üçün Mehriban xanımın özünün yazdığı bu sətirləri oxumaq kifayətdir:

"Heydər Əlirza oğlu qeyri-adi enerjiyə malik idi, radikal dəyişikliklər etməyə qabil idi. Onun gəlişi ilə hər şey kökündən dəyişdi. Fenomenal yaddaşı, böyük zəkası, həmişə həyatın nəbzini tuta bilmək bacarığı ona hətta ən çətin problemləri həll etməyə imkan verirdi".

O, hələ 1995-ci ildə "Azərbaycan mədəniyyətinin dostları" fondunu yaradır. Suveren Azərbaycan Respublikasının tarixindəki həmin çətin dövrü – insanlara ölüm və kədər gətirmiş, çoxlu şəhər və kəndi yandırıb külə döndərmiş müharibədən yenicə çıxmış dövrü xatırlayaq.

Qaçqınlar, xaraba qalmış ocaqlar, dağıntı, inflyasiya. Heydər Əliyev cəmiyyəti birləşdirmək, cəmiyyətdə qayda yaratmaq, qanunçuluğu bərpa etmək, dövlət institutlarının işini normaya salmaq üçün nəhəng qüvvə sərf edirdi, səy göstərirdi. Bütün bu fəaliyyət müxalifətin, təsadüfən hakimiyyət başına gəlmiş və iflasa uğramış adamların azğın müqaviməti ilə qarşılaşırdı.

Mədəni həyat can üstə idi, mənəvi geriləmə və tənəzzül sürətlənirdi, respublika ərazisinin beşdəbirinin itirilməsindən irəli gələn ətalət, pessimizm hər yerdə hökm sürürdü. Bütün bunlar bizim yaxın və uzaq xarici düşmənlərimizin muzdlu xidmətçilərinin müşayiətilə güclü və incə bir təbliğat fəaliyyətinin təsiri altında baş verirdi…

Belə bir şəraitdə insanlarda inam yaratmaq, Azərbaycan mədəniyyətinin dostlarını axtarmaq, bu işə cəlb etmək çətin idi, lakin cürətli və zəruri iş idi.

Söhbət Azərbaycan mədəniyyətinin nüfuzundan, onun yaxşı adından, zəngin mənəvi irsinin təbliğindən, onun dünya ictimaiyyətinə tanıdılmasından gedirdi. Fondun mətbuatdakı tribunası "Azərbaycan – İrs" jurnalı oldu.

On ildən sonra Mehriban xanım bir müsahibəsində xatırlayacaq:

"Fondun əsas məqsədi Azərbaycan mədəniyyətini təbliğ etmək idi. O vaxt mən "Azərbaycan – İrs" jurnalını təsis etmişdim.

Jurnal fondun fəaliyyətini işıqlandırmaqla məşğul idi və hər nömrə müəyyən bir mövzuya həsr olunurdu; jurnalda həm populyar materiallara, həm də tədqiqat materiallarına yer verilirdi. Fəxrlə deyə bilərəm ki, bizə qədər heç kim Azərbaycan mədəniyyəti haqqında bu qədər maraqlı yazmamışdı. Məsələn, miniatür sənəti, yaxud memarlıq haqqında yazmaq üçün biz akademiyanın alimlərini, jurnalistləri sənətşünasları dəvət edirdik…"

Mehriban Əliyeva 2004-cü ildə yaradılmış Heydər Əliyev Fondunun da rəhbəri oldu və Azərbaycan Prezidenti cənab İlham Əliyevə dəstək verən ictimai fəaliyyəti ilə milli dövlətçilik tariximizdə yeni bir dəyər for-

malaşdırdı. Bu tarixdə birinci xanım ənənələrinin banisi oldu.

* * *

"First Lady" – "birinci xanım" ifadəsi ilk dəfə Amerika Birləşmiş Ştatlarında formalaşmış və dünyanın siyasi terminologiyasına daxil olmuşdur. Belə nəql edirlər ki, ABŞ-ın 4-cü prezidenti Ceyms Medisonun (1809-1817) hakimiyyəti zamanında Vaşinqton ingilislər tərəfindən işğal edilərkən prezidentin xanımı Dolli Medison (Dolley Madison, 1768-1849) Ağ evdəki bir çox mühüm sənədləri və qiymətli əşyaları xilas edə bilib. Və sadə amerikalılar bu qəhrəmanlığı unutmayıblar. Dolli Medisonun bu şücaəti qeyri-rəsmi səviyyədə dillərdə dolaşan "birinci xanım" titulu ilə dəyərləndirilib.

1849-cu ildə Dolli Medisonun dəfn mərasimindəki nitqi zamanı ABŞ-ın ozamankı prezidenti Z.Taylor onu ölkəsinin "birinci xanımı" adlandırıb. Təxminən bir əsrdən – ABŞ-da xanım Medisonun şərəfinə nümayiş etdirilən teatr tamaşasından sonra bu titul daha da populyarlıq qazanıb.

Başqa faktlarsa bu ifadənin formalaşma tarixinin ABŞ-ın dövlətçilik tarixi ilə təxminən eyni vaxtdan başladığını göstərir. ABŞ-in ilk prezidenti Corc Vaşinqtonun həyat yoldaşı Marta Vaşinqtonu (1731-1802) da birinci xanım adlandıranlar vardı.

...Amerikanın ən görkəmli birinci ledisi Franklin Ruzveltin həyat yoldaşı Eleonor Ruzvelt sayılır. O, İkinci Dünya müharibəsi illərində hərbi hissələrə baş çəkmiş, həmin dövrdə ABŞ-ın mülki müdafiə idarəsi rəisinin birinci müavini vəzifəsini icra etmişdir. Ərinin vəfatından sonra isə ABŞ-ın BMT-də nümayəndəsi kimi çalışmışdır.

Jaklin Kennedi ABŞ-n ən cəzibədar birinci xanımı olmuşdur. O, Ağ evdə ən məşhur artistlərin konsertlərini təşkil etmişdir. Ledi Conson qarşısına ABŞ-ı gözəlləşdirmək məqsədi qoyaraq küçələrə çiçək əkdirmişdir. Betti Ford ağıldankəm uşaqların qayğısına qalmış, yetim uşaqlar üçün Ağ evdə qəbul təşkil etmişdir. Nensi Reyqan və Barbara Buş narkotiklərlə və alkoqolla mübarizə sahəsində xüsusi fəallıq göstərmişlər. Lora Buşun siyasi ambisiyası olmasa da, kitab oxumağı təbliğ etmiş, kitabxanalara dəstək vermişdir. Hillari Klinton yeganə birinci xanımdır ki, senata üzv seçilmiş, ABŞ-ın dövlət katibi olmuşdur...

Sıravi amerikalı belə düşünür ki, onun səs verib öz taleyini etibar etdiyi prezidentin şəxsi həyatının əsas hissəsi olan birinci xanımın mənəvi keyfiyyətləri, sosial maraqları, etiqadları prezidentə təsir göstərə bilər. Ona görə də seçki kampaniyalarında birinci xanımın ictimai obrazı önəmli bir amil kimi nəzərə alınır...

* * *

Qərb cəmiyyətində birinci xanım institut ilə bağlı formalaşmış ənənələrə rəğmən keçmiş SSRİ-də bu məsələdə də "dəmir pərdə" asılmışdı. Görünür, hər şey başlanğıcdan asılır...

SSRİ-nin ilk rəhbəri V.İ.Leninin həyat yoldaşı Nadejda Krupskaya pedaqoji fəaliyyətindən xaric, demək olar ki, guşənişin həyat sürmüşdü. İ.V.Stalinin həyat yoldaşı Nadejda Alliluyevanın da (yeri gəlmişkən, o, 1901-ci ildə Bakıda doğulmuşdu) əhatə dairəsi evin, mətbəxin divarlarından kənara çıxmırdı. Ona görə də sovet adamları 1932-ci ildə dünyasını dəyişmiş (bəzi ehtimallara görə isə, intihar etmiş) N.Alliluyeva haqqında indinin özündə də, demək olar ki, çox az məlumata malikdirlər.

Bu dəmir qayda sonrakı dövrlərdə də dəyişmədi. Yalnız bir dəfə – 1961-ci ildə hansısa fotoqraf SSRİ rəhbəri Nikita Xuruşşovla ABŞ Prezidenti Con Kennedinin görüşü zamanı onun ABŞ-ın birinci xanımı Jaklin Kennedi, ABŞ Prezidentinin isə Nina Xruşşova ilə yanaşı dayandığı anı fotoaparatın yaddaşına köçürə bilmişdi. Sonrakı illərdə sovet adamları nə Viktoriya Brejnevanın, nə Anna Çernenkonun, nə də Tatyana Andropovanın üzünü gördülər.

Raisa Qorbaçova isə sovet cəmiyyətində ölkə rəhbərlərinin xanımları ilə cəmiyyət arasında illərdən bəri qorunan dəmir pərdəni 1985-1991-ci illərdə aradan götürdü. Onun təşəbbüsü ilə Sovet Mədəniyyət Fondu təsis edildi. Rəsmi qəbullarda, səfərlərdə həmişə M.Qorbaçovun yanında görünən Raisa Qorbaçova, deyəsən, ölkədə gedən siyasi proseslərdə də təşəbbüsü ələ almışdı.

Nə yazıqlar ki, bu siyasi fəallığın əziyyətini ən çox çəkən Azərbaycan xalqı oldu. Onun mənəvi keyfiyyətlərindəki naqisliklər, erməni lobbisinin bahalı hədiyyələrinə aludəliyi, ermənipərəst mövqeyi ilə Dağlıq Qarabağ münaqişəsinə münasibətdə əri M.Qorbaçova təsiri Azərbaycan xalqı olaraq ötən əsrin 80-ci illərinin sonlarından başımıza gələn bəlalarda az rol oynamadı.

* * *

Azərbaycanda qadın fəallığı və birinci xanım ənənələrinin keçmişi ilə bağlı ən parlaq başlangıc mənəviyyatın yazılı təməli olan ana kitabımız "Kitabi-Dədə Qorqud"-dakı qadın obrazlarında görünür. Qorqudşünas alimlər dastanda Oğuz elinin başçısı Qazan xanın zövcəsi Burla xatunu nəzərdə tutaraq işlənən "Boyu uzun Burla xatun" adındakı "boyu uzun" epitetini bədii ifadə vasitəsi kimi deyil, məhz Burla xatunun birinci xanım statusuna dəlalət edən titul kimi dəyərləndirirlər.

...Dastanın boylarında Qazan xanın ildə bir dəfə xanımının əlindən tutub el arasına çıxması, evindəki sərvəti başqalarına bağışlaması barədə öz əksini tapmış məqamlar da bu qənaəti yetərincə qüvvətləndirir.

Bu da göstərir ki, Azərbaycan-türk xanımının öz nəcib əməlləri ilə birinci kimi önə çıxması nə bugünün, nə də dünənin hadisəsidir.

Sovet dövlət rəhbərlərinin xanımlarının qapalı həyatına rəğmən, yuxarıda qeyd etdiyimiz kimi, bütün SSRİ məkanında məhz Azərbaycan rəhbərinin – Ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı akademik Zərifə xanımın ictimai fəaliyyətlə məşğul olması, yerinə yetirdiyi missiya ilə hələ Sovet Azərbaycanında birinci xanım institutunun təməl ənənələrini formalaşdırması da bu tarixin təqdim etdiyi qürur dolu faktlardandır.

Zərifə xanım Əliyeva sovet idarəetmə sisteminin müəyyən etdiyi dəyişməz qaydalara əsasən, əlbəttə, rəsmi status etibarilə birinci xanım statusu daşımırdı... Sovet ideologiyası xeyriyyəçilik fəaliyyətini, konkret şəxsin mədəni dəyərlərə hamiliyini, ictimaiyyət arasında böyük nüfuza malik insanların müxtəlif sosial problemlərin ictimai səviyyədə həllinə yönələn fərdi təşəbbüslərini inkar edirdi. Ona görə də belə cəmiyyətdə klassik Qərb ənənələrinin sırf birinci xanım üçün müəyyən etdiyi norma və qaydalarla, ictimai gözləntilərlə nüfuz qazanmaq mümkün deyildi. Bununla belə, Zərifə xanım Əliyeva əsl Azərbaycan qadınına xas ideal keyfiyyətləri öz şəxsiyyətində bir araya gətirməsi, ziyalılığı, elmi nailiyyətləri, ən əsası isə dünyaya və insanlara sevgisi ilə bu nüfuzu qazanmışdı.

O, bir sıra protokol tədbirlərində, səfərlərdə, görüşlərdə, qəbullarda, dövrün qaydalarına uyğun olaraq, adətən, Heydər Əliyevin yanında görünməzdi. Amma

mədəni-kütləvi tədbirlərdə, teatr tamaşalarında, konsertlərdə, elm, mədəniyyət, incəsənət təmsilçiləri ilə görüşlərdə cəmiyyət onları qoşa görməyə adət etmişdi. Belə mühitlərdə Heydər Əliyevin xarizması, əsl lider obrazı ilə Zərifə xanım Əliyevanın ana, alim şəxsiyyəti bir-birini tamamlayırdı.

O illərdə Zərifə xanımın birinci xanımlığı hər hansı protokol tələblərini çox-çox aşaraq birinci şəxslə elm adamları, mədəniyyət, incəsənət xadimləri, sadə insanlar, bir sözlə, birinci şəxslə xalq arasında mənəvi körpüyə çevrilmişdi.

"Çox illər sonralar mən Zərifə xanımın bir çox məziyyətlərinin Mehriban xanımın timsalında təzahür etdiyini gördüm. Düz deyiblər ki, gəlin ocağa gələr".

Bu fikirlər 80-ci illərdə Heydər Əliyevin şəxsi mühafizəsinin rəisi işləmiş Aleksandr İvanova aiddir.

Mehriban xanımın özəlliyi budur ki, o, Zərifə xanımdan əxz etdiyi bu nəcib mənəvi mirası etibarlı, səmərəli və inamlı tərzdə davam etdirir. Azərbaycanın müstəqilliyi illərində, ölkənin ən qüdrətli dönəmində ölkədə birinci xanımlıq ənənələrini formalaşdırır və bu ənənələri milli dövlətçilik irsinə çevirir.

Bunun özü Mehriban xanım Əliyevanın üzərinə düşən mənəvi missiyadır...

Zərifə xanım Əliyevanın cismani yoxluğu müstəqillik illərində Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən hüquqi dövlət, sivil, demokratik cəmiyyət quruculuğu prosesində ölkəmizdə birinci xanım ənənələrinin formalaşmasını istisna etdi.

Mehriban xanım Əliyevanın Azərbaycanın birinci xanımı kimi 2003-cü ilin oktyabrında keçirilmiş prezident seçkisinə hazırlıq kampaniyası prosesində başlanan tarixi missiyası isə Prezident İlham Əliyevin rəhbərliyi dönə-

mində Azərbaycanı gözləyən xoşbəxt gələcəyə doğru qapı açdı. Tanrının insana zinət kimi əta etdiyi hissləri – sevgini, mərhəməti, humanizmi həyatımızın əsas dəyərlərinə çevirdi.

* * *

O öz missiyasının icrasına başlayanda, Qərb cəmiyyətlərindən fərqli olaraq, Azərbaycanda birinci xanım statusu daşıyan şəxsin davranış normaları, yerinə yetirməli olduğu vəzifələrlə bağlı istinad ediləsi sistemli qaydalar mövcud deyildi. Ümumiyyətlə, dünyanın heç yerində birinci xanım statusunda necə davranmağın qaydalarını öyrədən universitetlər, təhsil mərkəzləri yoxdur.

Hətta bu statusla bağlı böyük bir ənənənin formalaşdığı, dəqiq adət və normaların sabitləşdiyi Amerika cəmiyyətində də hər yeni seçilən prezidentin həyat yoldaşı birinci xanım kimi öz missiyası boyu çətinliklə qarşılaşır. ABŞ-ın 40-cı prezidenti Roland Reyqanın həyat yoldaşı, zamanının tanınmış aktrisası sayılan Nensi Reyqanın "İndi növbə mənimdir" adı ilə nəşr olunmuş memuarını təkrar vərəqləyirəm. O, toplum qarşısına birinci xanım kimi çıxmağın çətinlikləri barədə belə yazır: "1981-ci ilin yanvarında Vaşinqtona köçəndə, həqiqətən, elə düşünürdüm ki, ölkənin birinci xanımı olmağın bütün tələb və çətinliklərini yaxşı başa düşürəm. Otuz ildən çox idi ki, çox tanınmış bir aktyorun və televiziya ulduzunun həyat yoldaşı idim. Üstəgəl özüm də kino aktrisası kimi tanınırdım. Siyasi mühitə də təzəcə gələnlərdən deyildim: düz səkkiz il ölkənin ən çox əhalisi olan bir ştatının və dünyanın ən fəndgir mətbuatına malik olan bir məmləkətin – Kaliforniyanın birinci xanımı olmuşdum. Vaşinqtonun, hər halda, Kaliforniyadan fərqli olduğunu anlasam da, elə bilirdim ki, hər anı ictimaiyyətin

nəzər-diqqəti altında olan bir həyatı yaşamağa hazıram. Amma elə ilk anlardan başa düşdüm ki, heç nə, heç bir həyat təcrübəsi adamı ölkənin birinci xanımı olmağa hazırlamaq iqtidarında deyil...”

Mehriban xanım Əliyeva isə öz missiyası ilə bütün dünyada birinci xanımlığın mükəmməl nümunəsini, yeni meyarlarını yaradaraq göstərdi ki, ölkənin birinci xanımı statusunu daşıyan bir qadını öz statusuna hazır və layiq edən yeganə qüvvə insanın yer üzərindəki məsuliyyətini dərk etməsi hissidir...

...2009-cu ildə “Bakı” jurnalına müsahibəsi zamanı **“Prezidenti və onun xanımını milyonlarla insan izləyir. Birinci xanım olmaq çətindirmi”** sualına Mehriban xanım Əliyevanın cavabı belə olmuşdu: “Belə deyərdim: asan deyil. Ancaq burada açıqlıq elementi əsas rol oynamır. Tədricən kameralara, sənə dikilmiş baxışlara öyrəşirsən. Bunu öz həyat atributun kimi qəbul edirsən. Ölkə Prezidentinin həyat yoldaşı olmaq məsuliyyətli, çətin işdir. Sən yalnız özünü və ailəni yox, həm də haradasa öz ölkəni təmsil edirsən. Sözlər, hərəkətlər, davranış hamısı yerində olmalıdır. Xoşbəxtlikdən mən hələ uşaqlıqdan öz qarşıma sərt tələblər qoymuşam, həmişə valideynlərimə, ailəmə layiq olmağa çalışmışam. Bu gün eyni məsuliyyət bizim uşaqlarımızın üzərinə düşür və mən fəxr edirəm ki, onlar bu çətin vəzifənin öhdəsindən dəqiqliklə gəlirlər”.

Dünyanın bütün sivil ölkələrində birinci xanımlar cəmiyyət üçün, hər şeydən əvvəl, öz geyim üslubları, dəblərə münasibətləri, ədəbi-musiqi zövqləri, vərdişləri və s. bu kimi incə məqamlarla maraqlıdırlar. Bu məqamlar cəmiyyətin bitib-tükənməyən ortaq müzakirə mövzusudur və bu da, yəqin ki, təbiidir. Çünki birinci xanımlar öz tərzləri, davranışları ilə cəmiyyət üçün nümunə yaradırlar. Sadə şəkildə ifadə etsək, sıravi cəmiyyət üzvü bir çox hal-

larda necə geyinməyi, hansı bədii əsərləri oxumağı, hansı janrdan olan musiqiləri dinləməyi, hansı filmlərə baxmağı və s. onlardan öyrənir. Əlbəttə, zövqlər də, imkanlar da müxtəlifdir və birinci xanımlar qeyd edilən bütün bu məsələlərdə yeganə ehkam sayılmazlar. Amma ictimai rəyə təsir effekti bütün hallarda öz təsir gücünü qoruyur.

Bu mənada, müxtəlif dövrlərə aid müsahibələrində bu kimi məqamlara münasibətini əks etdirən epizodları ümumiləşdirərək Mehriban xanım Əliyevanın protokol fotolorından kənardakı portretini təsəvvür etmək maraqlı olardı.

O öz geyimlərində eleqant təmkinliyə, sakit tonlara və aydın xətlərə üstünlük verir. Təmkinliyi, fikrini tam açıqlamamağı, aydın xətlərə üstünlük verməyi özü də müəyyən dərəcədə xasiyyətinin tərkib hissəsi sayır. Lakin bu qarşılıqlı bağlılıq barədə heç vaxt ciddi düşünmədiyini bu barədə fikirlərinə əlavə edir: *"Tərz xırdalıqlarda, detallarda, nüanslarda, özünü aparmaq tərzində və insandan ayrılmaz olan başqa şeylərdə özünü göstərir. Mənə elə gəlir ki, bunu rasional mövqedən izah etmək çətindir. Bəlkə də, üslub insanın yaratdığı emosional, duyulan təəssüratın yekunudur".*

Onun dünyanın ən gözəl və ən zövqlü birinci xanımlarından biri kimi həmişə qüsursuz görünməsinin sirri dəbə, moda arenasında tez-tez bir-birini əvəz edən rəngarəngliklərə xüsusi həssaslıqla bağlı deyil. Azərbaycanın birinci xanımı bugünün dəb industriyasını müasir cəmiyyətin miqyaslı və kifayət qədər nüfuzlu tərkib hissəsi kimi qiymətləndirərək bu hadisənin çoxdan adi istehsal çərçivəsindən çıxdığını düşünür: *"Bu, öz kökləri, ənənələri və tendensiyaları olan mədəni təbəqədir. Beynəlxalq moda arenasında hökm sürən rəngarəngliyə baxmayaraq, əsl rəssam və yaradıcılara tək-tük rast gəlmək olar. Bu, zaman və kütləviliyin sınağından keçmiş yüksək incəsənətdir.*

*Mənim üçün dəb – maraqlı yaradıcılıq prosesidir. Bundan artıq heç bir şey".*

Gözəlliyi, o cümlədən qadın gözəlliyini uğur qazanmağın başlıca şərti də saymır. Əgər insanın zahiri gözəlliyi onun daxili dünyası ilə harmoniya təşkil edirsə, bu, başqa məsələ: *"Əgər gözəllik intellektlə vəhdət təşkil edirsə, uğur qazanmaq şansları xeyli yüksəkdir. Xarici gözəllik, yəni harmonik və biçimli görünüş hardasa taleyin hədiyyəsidir. Ancaq tez və ya gec, biz hamımız bizim iç dünyamızı əks etdirən görünüşü alırıq. Demək, məhz görünüşün məzmunu həm insanın uğurlu olmasında, həm də insanın, həqiqətən, gözəl olmasında həlledici rol oynayır".*

Zəngin ədəbi ənənələri olan ailənin davamçısı kimi ədəbiyyat onun üçün də insan ruhunun əsrarəngiz ərazisidir... Uşaqlıqda bacısı, gələcəyin filologiya professoru olacaq Nərgiz xanımla birgə vaxtlarını babaları Nəsir İmanquliyevin evindəki böyük kitabxanada keçirməyi sevərlərmiş. O kitabxanadakı kitabları birnəfəsə oxumaq onlar üçün ən xoş uşaqlıq zövqünə çevrilibmiş: "İndiyə kimi oxumaqdan böyük zövq alıram. Nə kinematoqraf, nə müasir kompüter oyunları mənim üçün maraqlı kitabı əvəz etməz. Təəssüf ki, həyat tempi o qədər sürətlidir ki, sakit kitab oxumaq üçün imkan olmur".

...Müasir ədəbiyyat barədə fikirləri təxminən belədir: *"Onu deyə bilərəm ki, yaxşı və asan oxunan ədəbiyyat az deyil, lakin daim belə sual doğur ki, bunu ədəbiyyat adlandırmaq olarmı? Ona görə də biz yenidən klassikaya qayıtmağa məcburuq. Məsələn, mən bir qədər əvvəl təkrarən Dostoyevskini oxuyurdum, bir çox şeyləri yenidən kəşf etdim. İndiki qavrayış gənclik illərindəkindən daha fərqlidir".*

2017-ci ilin iyun ayının sonlarında sovet və Rusiya yazıçısı, "Zavtra" qəzetinin redaktoru, tanınmış ictimai xadim **Aleksandr Proxanov** Azərbaycana səfəri zamanı

ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə görüşdən sonra təəssüratlarını belə dilə gətirmişdi:

"Mən bu qadına valeh oldum – onun məlahəti, gözəlliyi, düşünülmüş fikirləri, bugünümüzün mürəkkəb təzahürləri barədə dərin düşüncəsinə heyranam. Söhbətimizin əvvəlində o, mənim bəşəriyyətin hazırda yaşadığı dəyişikliklərə münasibətdə mövqeyimlə maraqlandı. Yeni bəşər hansı hissləri doğurur və hansı taleyin müjdəçisidir? Bu, nə dərəcədə təhlükəli və hansı dərəcədə gözəldir? Söhbətimizin ilk 15 dəqiqəsini biz onunla bəşəriyyətə gələn və köhnə ideyaları silib aparan yeni ideyalar – düşmənçilik, nifrət, rəqabət və dominantlıq barədə fikir mübadiləsində keçirdik.

Mən eyni zamanda ondan soruşdum ki, hazırda nə ilə məşğuldur və nələrlə maraqlanır. Cavab verdi ki, yeni vəzifəsinin onun üzərinə qoyduğu xeyli sayda qayğılara baxmayaraq, mütaliə edir. Belə ki, bu yaxınlarda Lev Nikolayeviç Tolstoy və onun həyat tarixçəsi barədə kitab oxuyub... Biz onunla çox maraqla və dərin şəkildə bu dünyada birlik, bütün varlıqların birliyini axtaran Tolstoy barədə müzakirə apardıq. O, Tolstoy və insanda inkişaf etmiş bu həyat ideyası barədə çox maraqla danışırdı.

...Mən ona Bakıda "İzbor" klubumuzun filialının açılması barədə arzumu çatdırdım ki, bu yolla Azərbaycan və Rusiya ziyalılarının özünəməxsus birliyini yaradaq. Və belə birgə mənəvi yaradıcılıqda Rusiya və Azərbaycan düşüncəsi arasında daimi əlaqələr quraq.

Jurnalistin: **"Dünən Siz Azərbaycan Prezidenti İlham Əliyevlə, bu gün isə birinci xanım, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə görüşmüsünüz. Siz Birinci vitse-prezidentlə dövlət başçısının tövsiyəsi əsasında görüşdünüz? Bu görüşlər hər hansı şəkildə bağlıdır"** sualına Aleksandr Proxanov belə cavab verir: "Dü-

zünü deyim, məndə belə bir təəssürat yaranıb ki, bu, bir görüş idi və iki hissəyə bölünmüşdü. Bir görüşün bu iki hissəsini bir sutkalıq zaman fasiləsi ayırdı. Prezident İlham Əliyevlə görüş zamanı hiss etdiyim o səmimiyyət bu gün xanım Əliyevanın iqamətgahında təkrarlandı.

Bu, bir insanla görüşə bənzəyirdi. Lakin biri hansısa məqamda prezident, digəri isə vitse-prezident rolunu yerinə yetirirdi. Bu insanlarla ünsiyyət məndə isti təəssürat yaratdı. Söhbətlərimiz çox mürəkkəb və təhlükəli mövzuları əhatə etsə də, onlar mənə ailə çevrəsində söhbəti xatırlatdı. Bu, protokol söhbəti deyildi, müşavirə deyildi, düşüncələrin gizlədilməsi ilə bağlı bir şey deyildi. Bu, açıq həyəcanlar, ən kəskin və həmsöhbət üçün xoşagəlməz təzahürlər barədə fikirlər idi. Bugünkü dünya çox sirli və mübhəmdir. Və bu sirri açmaq üçün çox ehtiyatlı olmalısan ki, səhv etməyəsən və dünyaya zərər verməyəsən. Bu görüşlərdən təəssüratlarım bu cürdür...”

Bu görüşdən iki ay sonra yazıçı Aleksandr Proxanov Mehriban Əliyevanı doğum günü münasibətilə təbrik edir və bir daha onun ağlına, incə mühakimələrinə və səmimiyyətinə heyran olduğunu bildirir. Məşhur yazıçı təbrik məktubunda yazır: “Şübhə etmirəm ki, bu qədər yüksək dövlət vəzifəsi tutmaqla bərabər, Siz çətin vəziyyətlə üzləşmiş insanların imdadına çatmağa, sənətkarları ruhlandırmağa və həvəsləndirməyə, mübahisəli məsələləri sülhpərvərliyiniz, kompromis və təmkinliyiniz sayəsində həll etməyə vaxt tapırsınız. Bu gün Sizə müraciət edərkən Sizin ecazkar ölkəni, sizin lacivərd dənizi, sizin bərəkətli bağları xatırlayıram. Mən Azərbaycanı müəyyən mənada həm də öz vətənim hesab edirəm. Mən molokanlardanam, Azərbaycandakı İvanovka kəndi mənim ulu vətənimdir. Sizə böyük uğurlar və ruh yüksəkliyi arzu etmək istəyirəm”.

Siyasi karyerasının yüksəlişi və Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə layiq görülməsi, Mehriban xanımın bir ictimai-siyasi xadim kimi dövlət idarəçiliyində yer tutması ölkə üçün böyük bir qazancdır.

Bəli, o, çətin və məsuliyyətli bir yol seçib, siyasət meydanına atılıb və bu meydandakı fəaliyyəti və ən əsası, böyük ürəyi ilə az qala bütün dünyanın diqqətini özünə cəlb edib...

V.Sekspirin "Maqbet" pyesində dahiyanə bir fikir var: "Yüksəkliyə qalxmaq hünər deyil, hünər bu yüksəklikdə ağıl və mətanətlə dura bilməkdir".

Mehriban xanım Əliyevanı həmsöhbət olduğu insanlara, eləcə də öz xalqına sevdirən belə gözəl keyfiyyətlər çoxdur! İndi öz müasirlərinin nəzərində onun gözəl və ağıllı, müdrik xanım kimi olduqca müsbət imici, gündən-günə artan nüfuzu var...

Bir neçə xarici dildə sərbəst danışması diplomatik münasibətlərdə ona geniş imkanlar yaradır. Qısa və yığcam danışmağı sevir, yorucu nitqlər, sözçülük onun üslubundan kənardır. Bu keyfiyyətlərini onun kübar xanımlara xas təvazökar, elitar davranışları tamamlayır.

Onun üçün insana xas ən üstün keyfiyyət saflıq, mənlik hissi, səmimilik, xeyirxahlıq, ağıl və peşəkarlıqdır. Sünilik çaları olan hər hansı bir ifadə Mehriban xanım üçün qəbuledilməzdir.

Bu epizodların üzərinə Azərbaycanın birinci xanımının həyat devizini də əlavə etsək, yəqin ki, gözlərimiz önündə Mehriban xanım Əliyevanın tam və bitkin portreti canlanar. Onun həyat devizi isə belədir: "Həmişə öz ləyaqətimi saxlamaq. Özümə və prinsiplərimə sadiq olmaq".

Bəli, onun portret cizgiləri müasirlərinin yaddaşında məhz bu cür əbədiləşməkdədir. Bir aforizmdə deyildiyi

kimi: "Gözəlsənsə, sənə baxırlar, ağıllısansa, valeh olurlar, ağıllı və gözəlsənsə, səni unuda bilmirlər..."

Azərbaycanın birinci xanımının illərin yaddaşına yazılan xeyir əməlləri, mərhəmət dolu qəlbi onun özünü xeyirin, mərhəmətin canlı simvoluna çevirib. Sanki xeyirin, mərhəmətin özü insan siması qazanaraq Mehriban xanım Əliyevanın obrazında təcəlla tapıb!

Mehriban xanım öz mənəvi obrazı ilə ictimai şüurda xeyirxahlıq, mərhəmət nuru saçır. İnsanları xeyir əməllərə, xeyirxah təşəbbüslərə, şəri deyil, məhz xeyiri paylaşmağa, bu yolda cəsarətli və inadkar olmağa səsləyir.

* * *

Bu gün Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub. Keyfiyyətcə yeni mərhələdə elə Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi başlıca hədəflərdən biri də məhz aktual çağırışlara cavab verə bilən idarəetmə modelinin formalaşdırılmasıdır. Ona görə aparılan islahatların mühüm bir istiqaməti də məhz struktur dəyişiklikləri, idarəetmənin təkmilləşdirilməsidir.

Bu mənada 2017-ci ildə ölkə həyatında baş verən ən əhəmiyyətli hadisələrdən biri də müvafiq konstitusiya dəyişikliklərindən irəli gələrək, dövlət idarəçilik sistemində təsis edilmiş Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə görkəmli ictimai xadim Mehriban Əliyevanın təyin edilməsi oldu. Ölkə vətəndaşlarının böyük sevinc və ümidlə qarşıladıqları bu təyinat respublikamızda aparılan islahatların məntiqi davamı və ölkədə yeni bir tarixi reallığın başlanğıcıdır. Bu reallığın xarakterini, Azərbaycanın gələcəyi üçün yaratdığı möhtəşəm perspektivləri ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmuş şəxsiyyətin mənəvi keyfiyyətləri, Azərbaycan xalqına və dövlətinə olan sevgisi, indiyə qədər

daşıdığı bütün vəzifələrdə cəmiyyətimizə və ümumən bəşəriyyətə qazandırdığı nailiyyətlər təyin edir.

Bu, təsadüfi bir təyinat olmayıb, uzun illərdən bəri ölkəmizin, eləcə də dünyanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayan Mehriban Əliyevaya ümumxalq rəğbətindən, cəmiyyətin sosial sifarişindən, eyni zamanda belə həlledici mərhələdə islahatlar prosesinə böyük dəstək ola biləcək bacarıqlı təşkilatçı, yüksək səriştəli menecer kimi Mehriban xanımın peşəkar imkanlarından dövlət idarəçiliyində də istifadə zərurətindən irəli gələn bir qərardır.

O, indiyə qədər yerinə yetirdiyi bütün vəzifələrdə öz potensialını, yüksək məsuliyyət hissini, təşkilati-idarəetmə məharətini ortaya qoyduğu parlaq nəticələrlə təsdiqləyib. Mehriban Əliyeva sıralarında 700 minə yaxın üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının sədr müavini kimi xeyli müddətdən bəri siyasi proseslərin fəal iştirakçısıdır. Onun partiyanın ali rəhbərliyində təmsilçiliyi bu qurumun gücünü daha da artırıb, cəmiyyətin ictimai-siyasi həyatında qadın fəallığı ənənələrinin inkişafına stimul yaradıb. Mehriban xanım Əliyeva ötən əsrin 90-cı illərinin ortalarından bəri genişmiqyaslı, sistemli, ardıcıl layihələrlə milli mədəniyyətimizi bütün dünyada təbliğ edir. 2004-cü ildən fəaliyyət göstərən və bu gün regionun ən böyük və nüfuzlu ictimai təşkilatlarından birinə, insanların ümid yerinə çevrilmiş Heydər Əliyev Fondunun prezidenti kimi o, hər biri Azərbaycan və ümumilikdə bəşəriyyət üçün tarixi əhəmiyyət daşıyan proqramlar, layihələr gerçəkləşdirir. Bu proqram və layihələrin nəticələrindən milyonlarla adam faydalanıb və bu gün də faydalanmaqdadır.

Təlqin etdiyi xeyirxahlıq, mərhəmət, maarifçilik kimi ali dəyərlər, Yer üzündə sülhə, mədəni dəyərlərin qorun-

masına, sivilizasiyalararası dialoqa verdiyi töhfələr beynəlxalq aləmdə Mehriban xanım Əliyevaya böyük nüfuz qazandırıb. UNESCO və ISESCO-nun xoşməramlı səfiri kimi o, bütün dünyada Qərb və Şərq dünyasının bu iki yüksək statusunu eyni vaxtda daşıyan ilk və yeganə şəxsiyyətdir.

Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü kimi Mehriban xanım Əliyevanın milli mədəniyyətimizin, Azərbaycan idmanının inkişafında da böyük rolu var. 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsinin, 2015-ci ildə 1-ci Avropa Oyunlarının, 2017-ci ildə 4-cü İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə yüksək səviyyədə keçirilməsi bu mühüm tədbirlərin Təşkilat Komitəsinin rəhbəri kimi Mehriban Əliyevanın gərgin zəhmətinin, yüksək təşkilatçılıq qabiliyyətinin, ölkə rəhbərinin böyük əminliklə ona həvalə etdiyi mühüm vəzifələri qısa bir müddətdə layiqincə yerinə yetirməsinin nəticəsi idi. Bu mühüm beynəlxalq tədbirlərə uğurlu ev sahibliyi ilə Azərbaycan bu standartların yeni meyarlarını müəyyən etdi. Bundan sonra belə tədbirləri təşkil edəcək ölkələrə nümunə yaratdı.

Mehriban Əliyeva həm də Azərbaycan idmanının və idmançılarının əsl qayğıkeşi, ən böyük dəstəkçilərindəndir. Təsadüfi deyil ki, o, Azərbaycan Gimnastika Federasiyasının prezidentidir və bu vəzifədəki missiyasını da çox şərəflə və ləyaqətlə yerinə yetirməkdədir. Bu vəzifəyə 2002-ci ildə seçilən Mehriban Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycan qızları qısa zaman ərzində Avropa və Dünya çempionatlarının, 4-cü İslam Həmrəyliyi Oyunlarının medallarını qazanmağa nail oldular. Onun səyləri ilə Azərbaycan qızları idmanın bu növündə də böyük uğurlara imza atmağa qadir olduqlarını nümayiş etdirdilər. Bu gün gimnastika sahəsində Azərbaycan qızlarımızın əldə etdikləri uğurlarla nəinki türk və müsəlman dünya-

sında liderdir, eləcə də bir çox Avropa və Qərb ölkələrini belə arxada qoyur. Bu da onun – Mehriban xanım Əliyevanın əməyinin bəhrəsidir. Onun gördüyü böyük işlər və beynəlxalq aləmdə artmaqda olan nüfuzu sayəsində Beynəlxalq Gimnastika Federasiyası Bədii Gimnastika üzrə 2003 və 2004-cü illər Dünya Kuboku yarışlarının və 2005-ci il Dünya Çempionatının Azərbaycanda keçirilməsinə dair qərar qəbul etdi. 2007, 2009 və 2014-cü illərdə bədii gimnastika üzrə Avropa çempionatları Azərbaycanda keçirildi. 2019-cu ildə Bədii gimnastika üzrə 36-cı Dünya Çempionatının da Bakıda təşkili nəzərdə tutulub. Bu cür mötəbər yarışların bir-birinin ardınca Azərbaycanda keçirilməsi Mehriban Əliyevanın fəaliyyətinin bariz nümunəsi, bəhrəsi və belə demək mümkünsə, beynəlxalq idman ictimaiyyəti tərəfindən onun fəaliyyətinə verilən qiymət, ona olan etimadın göstəricisi idi. Çox yüksək səviyyədə keçirilən bu yarışlar Azərbaycanın dünyada nüfuzunu və müsbət imicini daha da artırdı və artırmaqdadır. Təsadüfi deyil ki, Azərbaycan Gimnastika Federasiyasının baş katibi Fərid Qayıbov 2017-ci ilin dekabrında Avropa Gimnastika İttifaqının prezidenti seçildi. İlk dəfə olaraq Azərbaycan nümayəndəsi Avropa İdman Federasiyasının rəhbəri oldu. Bu, Azərbaycanda son illər ərzində gimnastika idman növünün sürətli inkişafının Avropa gimnastika ailəsi tərəfindən yüksək qiymətləndirilməsinin təzahürüdür. Gimnastika üzrə dünya və Avropa çempionatlarının Azərbaycanda yüksək səviyyədə keçirilməsi, ölkəmizdə ən yüksək standartlara cavab verən Milli Gimnastika Arenasının və bölgələrdə gimnastika bölmələrinin yaradılması haqlı olaraq Avropa Gimnastika İttifaqı tərəfindən yüksək qiymətləndirildi. Bütün bunlar Mehriban xanım Əliyevanın gördüyü işlərin cəmiyyət həyatında yaratdığı xoş nailiyyətlərdir.

Onun fəaliyyəti təkcə ölkə sərhədləri ilə məhdudlaşmır. Pakistandan Vatikana qədər geniş coğrafiyanı əhatə edən irili-xırdalı yüzlərlə humanitar və mədəni missiya onu artıq dünyada tanınan bir siyasi xadimə çevirib. Mehriban Əliyeva istər siyasi, istərsə də ictimai fəallığına görə dünyadakı birinci xanımların arasında seçilir.

Adətən, digər dövlətlərdə birinci xanımların fəaliyyəti bir neçə xeyriyyə fondu ilə əməkdaşlıqdan o yana keçmir. Azərbaycanın birinci xanımı üçün isə "birinci" sözü təkcə status deyil, həm də fəaliyyəti ilə cəmiyyətdə və dövlət strukturunda qazandığı yerdir. O, təkcə taleyin sayəsində birinci olmayıb, öz işlərilə bu birinciliyi qazanıb.

Onun fəaliyyətinin kökündə mənsub olduğu xalqa, millətə sevgi dayanır. Mehriban Əliyeva bütün hərəkətləri, bütün qərarları ilə millidir. Vətəninə xidmət edir, onun tərəqqisini arzulayır, xalqın sabahının qayğısına qalır, mədəniyyətinin, təhsilinin inkişafına çalışır.

Dünya alimləri insanın bioloji varlıqdan şəxsiyyətə çevrilməsində, onun inkişafında, fitri istedadının püxtələşməsində genetik amillərin rolunu çoxdan təsdiqləyiblər. Artıq inkarolunmaz həqiqətdir: yüksək intellektli valideynlərin ağıllı uşaqlarının olması ehtimalı daha böyükdür...

Biz qeydlərimizdə Mehriban Əliyevanın ziyalı ailəsində doğulduğunu, valideynlərinin Azərbaycan elmində böyük nüfuza malik alimlər olduğunu qeyd etmişik. Babaları da ədəbiyyatımızda, söz sənətimizdə izi olan, sözü, səsi eşidilən, qəbul edilən, yüksək vətəndaşlıq nümunəsi ilə seçilən ziyalılar olub.

Onun fəaliyyətində, şübhəsiz ki, sələflərinin də izi var. O, genetik kodu, qan yaddaşı ilə ona ötürülən əməl-

lərə sadiqdir. Bu həssas mövzuya toxunanda bir məqamı da unutmaq lazım deyil. Ata-baba yolunu onların adına layiq, hələ ondan da artıq davam etdirmək hər övladın, hər xələfin işi deyil.

Mehriban xanımın babası Mir Cəlal Paşayevin ədəbiyyatımızın inciləri sırasında özünə yer alan, hər birimizin təkrar-təkrar oxuduğu, dəyişən zamanlarda belə milli mənəvi dəyərlərə söykənən təsir gücünü, əhəmiyyətini itirməyən təkcə bir əsərini – "Bir gəncin manifesti"ni yada salmaq kifayətdir.

Əsl ziyalılıq etalonu olan bu yazıçının, bu söz adamının, bu alimin, bu ziyalının həmin əsəri gənclər üçün əsl tərbiyə məktəbi idi və indi də bu rolu oynamaqdadır. "Bir gəncin manifesti"ndən hələ də öyrənəcəklərimiz çoxdur. Bir fakt da danılmazdır ki, belə bir əsər yalnız öz millətinə, xalqına, onun mənəviyyatına, mental dəyərlərinə sadiq olan bir insanın qələmindən çıxa bilərdi.

Ana babası Nəsir İmanquliyevin jurnalist məktəbini keçmişik. Bu məktəbi keçən hər bir jurnalist çox yaxşı bilir ki, Nəsir müəllim bu sahəyə iliyinə qədər bələd olan peşəkar idi. Və onun nəzəri-təcrübi məktəbində dərs alıb, ondan nəsə öyrənməmək qeyri-mümkün idi. Nəsir müəllimdən öyrəndikləri müasir dövrümüzün jurnalistlərinin, mətbuat işçilərinin bu gün də əlindən tutur.

Aida İmanquliyeva və Arif Paşayev – bu iki alimin, iki ziyalının da Azərbaycan elmi, Azərbaycan təhsili qarşısında sanballı xidmətləri heç kimə sirr deyil. Mehriban Əliyeva onların ailə tərbiyəsini görüb. Bu insanların nəsihətlərini, tövsiyələrini eşidib.

Sonra da Azərbaycan xalqının böyük övladı, müdrik siyasətçi Heydər Əliyevin və bu kitabın qəhrəmanı, bənzərsiz alim, gözəl insan, akademik Zərifə Əliyevanın gəlini kimi onların məsləhətlərini dinləyib. Və hər iki ailədə

gördüklərini, öyrəndiklərini yaddaşına yazıb. Azərbaycana, azərbaycançılığa bitib-tükənməyən sevgisi də bu yaddaşdan su içir...

Doğru fikirdir ki, xalqın sevimli övladı olmaq, millətin sevgisini qazanmaq taleyin, qismətin işi deyil. Bu sevgini, məhəbbəti qazanmaq lazımdır.

O, xalqına xidməti əsas meyar kimi birinci xanım qismində qəbul etmişdir: "Dövlət başçısının xanımı kimi mənim üçün həmişə ən vacibi o olmuşdur ki, mən öz ölkəm üçün nə edə bilərəm".

* * *

İnsan nə doğulduğu məkan və zamanı, nə də onu bu işıqlı dünyaya gətirmiş valideynləri özü seçir. Gələcək tale yollarını hansısa formada müəyyənləşdirmək də şəxsin öz əlində deyil.

Hər körpənin ömrü bir ağ kağızdır. Bu kağızda yazılan həyat tarixçəsinin müəllifi həmişə zaman olur.

Yer üzündəki milyardlarla fərddən biri digərinə bənzəmədiyi kimi, bir o qədər insan taleyinin də biri başqasının eynisi deyil. Bununla belə, böyüyüb həddi-büluğa çatana qədər ata-anasını, doğmalarını yanında görən körpələr üçün həyat çox vaxt eyni cür başlanır. Ola bilər, maddi təminat, yaşayış şərtləri, ailədə yaradılan imkanlar fərqli olsun, amma xoşbəxtliyin rəngləri onların hamısı üçün oxşardır.

Bəlkə, vaxtilə Tolstoy elə bunu nəzərdə tutaraq yazırdı ki, dünyadakı bütün xoşbəxt insanlar bir-birinə bənzəyir.

Əfsuslar olsun ki, bunu kimsəsiz körpələr haqqında yazmaq mümkün deyil. Onlarla bağlı vəziyyət bambaşqadır. Ömür bu körpələrlə başlamır, davam edir, əslində. Dünyaya gəldikləri gündən kiminsə yanlışlarının,

uğursuzluqlarının, xəyal qırıqlıqlarının davamını yaşamalı olurlar onlar. Bütün bunların bədəlini öz kimsəsizlikləri ilə ödəyirlər.

Həyat əvvəldən onlar üçün acı sürprizlərlə başlanır. Bu uşaqlar öz körpəliklərinin ən qiymətli sərvətindən məhrumdurlar. Bir ana nəvazişinə, bir ata sığalına havasu kimi ehtiyacları var.

Əlbəttə, ailə qayğısı, ev mühiti, ata-ananın sevgi və dəstəyi fərdin cəmiyyətdə öz yerini tutmasında mühüm rol oynasa da, çox zaman bu rol həlledici deyil. Elə kimsəsiz körpələr var ki, böyüyüb yaşa dolandan sonra öz zəhmət və qabiliyyətləri hesabına çox zəngin birinə çevrilir. Cəmiyyətdə hamının ehtiram bəslədiyi, uğurlarına həsəd apardığı, başqalarının özünə ideal seçdiyi görkəmli bir adam kimi tanınır. Amma dünyanın heç bir var-dövləti, ad-sanı körpəlik illərindəki o ana şəfqətinə, ata qayğısına olan ehtiyacı ödəyə bilmir. O ehtiyacı kimsəsiz böyümüş insanlar bütün ömür boyu özlərində daşıyırlar.

Bu, onların həyatında böyük bir boşluğa çevrilir.

* * *

Kimsəsizlik talelərin ən acısıdır. Bu elə bir taledir ki, onu ancaq yaşayanlar bilər. Kimsəsiz böyümüş insanların gözlərindəki kədər dünyanın hər yerində bir-birinə bənzəyir. Bu kədərdə onların ömür boyu çəkdikləri mənəvi əziyyətlər əks olunub. Kimsəsiz insanların bu kədəri onlara səbəb olmuş cəmiyyətin günahıdır həm də. Ona görə də kimsəsiz körpələr cəmiyyətlərin həssas yeridir. Cəmiyyət heç bir qeyd-şərtsiz özünü bu körpələrə borclu bilir. Dünyanın bütün dinləri, eləcə də İslam kimsəsiz körpələrə sahib çıxmağı, onların haqqına girməməyi ən ali mənəvi-əxlaqi normalardan biri kimi müəyyənləşdirir.

Onlara kömək göstərmək xeyir əməllərin ən gözəli kimi təlqin olunur...

* * *

Tarixdə kimsəsiz körpələr üçün etdiklərinə görə insanlığın zirvəsinə ucalmış şəxsiyyətlər var. Elə bu sətirləri yaza-yaza əfsanəvi Yanuş Korçakı xatırlayıram. O, Polşa yəhudisi idi. Həkim, pedaqoq və yazıçı kimi tanınmışdı. İkinci Dünya müharibəsi zamanı çalışdığı kimsəsiz uşaqlar evinin sakinləri ilə birgə faşistlərə əsir düşür. Onları Varşava gettosuna aparırlar. Burada da bacardığı qədər körpələrin qayğısına qalır. Dözülməz və ağır şəraitdə ruhdan düşmür, daim öz şagirdlərinin yanında olur. Uşaqların müalicəsi, təhsil və tərbiyəsi ilə məşğul olur.

Şəxsiyyəti o qədər böyük mənəvi işığa malik idi ki, hətta insanlığını tam itirməmiş faşistlər belə Yanuş Korçakı xilas etməyə çalışırdılar. Düşərgədən qaçıb gizlənməsinə kömək göstərməyi təklif edirdilər. O isə bütün bunlara rəğmən yenə kimsəsiz uşaqlarla birgə idi.

1942-ci ilin 6 avqustunda onun 192 şagirdi vaqonlara mindirilərək ölüm düşərgəsinə göndərilir. Qoca pedaqoq bu ölüm yolçuluğunda da onları tək buraxmır. Vaqona minən zaman SS-çi zabit ona həyatının bağışlanması barədə kağız təqdim etsə də, Yanuş Korçak xilası deyil, uşaqlarla birgə ölümü seçir.

Şahidlər xatırlayır ki, qaz kamerasına aparılarkən pedaqoq sıranın önündə hər şeydən xəbərsiz iki ən kiçik uşağın əlindən tutaraq addımlayır, onlara nağıl danışırdı.

Cəmi bir neçə dəqiqədən sonra qaz kamerasının cəhənnəmi şagirdləri ilə birgə onu da kamına çəkdi. Bu mənzərə isə əbədiyyətin rəsmi kimi ölməzlik qazandı:

ölümə doğru addımlayan kimsəsiz uşaqlar və sıranın önündə iki körpənin əlindən tutub addımlayaraq onlara nağıl danışan eynəkli qoca...

Əgər insanlığı, mənəvi kamilliyi, dünyanın ən ali dəyərlərini, bəşəriyyətin gələcəyinə ümidləri bircə epizodla təsvir etmək lazım gəlsə, yalnız bu mənzərəni xatırlamaq yetər.

Belə şəxsiyyətlər yaşadıqları əsrə işıq salan nur heykəlləridir...

* * *

XXI əsrdə bu şəxsiyyətlər sırasında Mehriban xanım Əliyevanın da işıqlı obrazı görünür...

Onun milli dövlətçilik tariximiz və ümumilikdə bəşəriyyət qarşısında yerinə yetirdiyi ən böyük missiya özü kimi uca şəxsiyyətlərin keçmişdən gələn insanlıq işığını bugündən gələcəyə daşımasıdır. Getdikcə gərginləşən dünyamızda insan ruhunun ərazisini hifz etməyə can atmasıdır.

Tənhalığın, ümidsizliyin, çarəsizliyin yeganə əlacı olan sevginin nümunəsini yaratmasıdır. Həyata və insanlığa belə bir tükənməz sevgi üçün öz xeyir əməllərinin xoş nəticələri ilə saysız-hesabsız səbəblər göstərməsidir.

Kimsəsiz bir uşağın üzündəki gülüş...

Övladının ağır xəstəlikdən qurtuluş xəbərini eşidən bir ananın, bir atanın sevinci...

Yeni dərs ilini abad, işıqlı məktəbdə, qəttəzə parta arxasında qarşılayan şagirdlərin köks dolusu fərəhi...

Müstəqil həyatın astanasında ona doğru uzanmış ana əlləri kimi hərarətli əllərdən yapışaraq xoş gələcəyə doğru addımlayan kimsəsiz bir yeniyetmənin ümidləri...

Hər gün günəşə doğru bir zərrə boy atıb torpağın köksündə möhtəşəm rəsm əsərinə çevrilən fidanların yaşıl yarpaqları...

Getdikcə abadlaşan, müasirləşən, dünyaya ün salan ölkə...

Bütün bunları görüb-duymaq hər dəfəsində həyata yenidən aşiq olmaqdan ötrü ən böyük səbəblər deyilmi?!

* * *

Mehriban xanımın rəsmi internet səhifəsinə baxıram. Bir çox şəkillərində o, valideyn himayəsindən məhrum uşaqların əhatəsindədir. Mehriban xanım o uşaqları ani bir nəvazişin ifadəsi kimi qucaqlamır, onları bir ANA kimi bağrına basır...

Onlara bir ananın əbədi sevgisini, şəfqətini ötürür…

Uşaqlar ona öz doğma anaları kimi sarılırlar...

O, bir ana təlaşı, bir həkim şəfqəti ilə kimsəsiz körpələrin peyvəndi qayğısına qalır. Onların yüksək şəraitli yerdə yaşayıb təhsil almaları, yemək-içmək, geyim-kecim sarıdan heç bir korluq çəkməmələri üçün əlindən gələni əsirgəmir...

İnsan doğum gününü ona ən əziz insanların əhatəsində keçirmək istər. Mehriban xanım doğum günündə kimsəsiz körpələri başına toplayır. Onlarla birgə gülür, onlarla birgə duyğulanır...

Bu şəkillərin hər biri danışan faktlardır, əslində...

Əlbəttə, dünyanın az-çox imkanlara malik heç bir ölkəsində dövlət valideyn himayəsindən məhrum uşaqları başlı-başına buraxmayıb. Bütün ölkələrdə dövlət qurumları, beynəlxalq təşkilatlar bu uşaqların sosial müdafiəsi üçün bacardığını etməyə çalışır. Onların böyüyüb

boya-başa çatması, minimal yaşayış, təhsil və tərbiyə şərtləri ilə təmin olunması üçün imkan daxilində işlər görülür.

Azərbaycanınsa bu ölkələrdən fərqi odur ki, bizdə bu uşaqlar ana sevgisi ilə əhatə olunublar. Mehriban xanım Əliyevanın timsalında bu uşaqların hər birinin daim onları düşünən, qayğılarına qalan, bu körpələrin gələcək talelərinin işıqlı olmasından ötrü hər gün nələrsə etməyə çalışan QAYĞIKEŞ ANAları var...

* * *

Müqəddəs günlərdə, niyyətlərimiz, dualarımız başa varanda qurban kəsib imkansızlara paylamaq elimizin adətidir. Səbəbli, ya səbəbsiz, imkan olduqca kimsəsizlərin qarnını doyurmaq, sınıq könüllərini sevindirmək xalqımızın mənəvi dünyasında nəcib əməl kimi dəyərləndirilir.

Elə düşünürük ki, bu addımımız Allaha xoş gedər. İnsan bununla mənəvi rahatlıq tapır. Adətən, belə məqamlarda bir çoxları öz qurbanlıq sovqatlarını kimsəsiz körpələrə aparmaq istəyir.

Hərdən dostlarla qurban kəsib uşaq evlərinə aparmağa biz də təşəbbüs göstəririk. Amma nə gizlədim, çox hallarda bizi yaxşı mənada məyus edirlər. Sovqatlarımızı heç yerdə götürmürlər ki, buna ehtiyacımız yoxdur, dövlətin himayəsindəyik. Mehriban xanım bu uşaq evinə xüsusi diqqət yetirir. Bunu bütün uşaq evlərində, kimsəsizlərin yaşadığı hər bir təlim-tərbiyə müəssisəsində eşidirik.

Deməli, Mehriban xanım Əliyevanın nəzər-diqqətindən kənarda qalan heç bir kimsəsiz körpə yoxdur. Onun Ana əlləri valideyn himayəsindən məhrum bütün körpələrin üstündədir...

Nə xoş ki, Mehriban xanımın bu xeyir əməllərini onun övladları da davam etdirirlər. Gördüyü bir çox nəcib işlərdə, həyata keçirdiyi xeyriyyə tədbirlərində qızları Leyla və Arzu da onunla birgədirlər. Onlar da hələ bu yaşdan öz işıqlı fəaliyyətləri ilə dünyamızı nurlandıran, həyata dəyər gətirən uca şəxsiyyətlərin yolunu seçiblər. Həyat Mehriban xanımın özü kimi, övladlarını da insanlığa kömək missiyası ilə şərəfləndirib. Onları seçilmişlər mərtəbəsinə ucaldıb.

Bir ana üçün etdiyi yaxşılıqların belə saleh övladlardan dəyərli mükafatı nə ola bilər ki?!

* * *

Yeniyetməliyimi xatırlayıram. Əyalətdə orta məktəbi başa vuran kimi kamal attestatını götürüb arzularının dalınca doğma paytaxta doğru qanadlanan bir çox həmyaşıdlarımtək, özüm də 17 yaşdan həyatımı Bakı ilə bağlamışam. Burada təkbaşına yaşamışıq, işləmişik, min bir zəhmətə qatlaşıb, ali məktəb imtahanları kimi həyatın ağır imtahanlarından da çıxmağa çalışmışıq.

Xoş günlərimiz kimi, çətinliklərimiz də çox olub. Bəzən üzləşdiyimiz sınaqların vahiməsindən bir anlıq qorxub üşənmişik də. Amma həmişə əyalətdəki doğmalarımızın varlığından gələn hərarət canımızı isidib. Onlara güvənmişik. Ata-anamızdan güc almışıq. Düşünmüşük ki, paytaxtla bağlı hətta bütün ümidlərimizi itirdiyimiz məqamlarda da yenə üz tutmağa bir evimiz, sevgilərindən güc alıb əllərindən tutaraq özümüzü toparlaya biləcəyimiz ata-anamız var.

Uşaqlıq, yeniyetməlik 16-17 yaşla bitmir. Bu yaşdan sonra uşaqların müstəqil həyata atılmaları, xəyallarının dalınca uzun bir yola çıxmaları sadəcə görüntüdür. İnsanın bütün yaşlarda valideyn himayəsinə ehtiyacı var.

Uşaqlıq insan öz valideynlərini itirəndə tamamlanır. Valideynlər nə qədər yaşayırsa, hələ körpəsən, onların dəstəyi, himayəsi, kömək əli yenə üzərindədir.

Kimsəsiz körpələrlə bağlı məsələ də böyüyüb boya-başa çatana qədər dövlətin onları himayəsinə götürməsi ilə tamamlanmır. Onların həddi-büluğa çatandan sonrakı həyatları da çox mühümdür. Müstəqil həyat bu yeniyetmələri necə qarşılayır, onlar həyatlarını necə qururlar, harada yaşayırlar, harada işləyib dolanışıqlarını necə çıxarırlar, ailə qurub ev-eşik, oğul-uşaq sahibi ola bilirlərmi?!

Bu suallar düşüncələrimdə həmişə boy göstərib. O uşaqların sonrakı taleyinə görə hər zaman narahat olmuşam. İstehsalatda çalışdığım zamanlarda hansısa bir gəncin kimsəsizliyini öyrənincə belələrinə dəstək olmağı, hətta başqalarına qarşı azacıq ədalətsizlik etsəm belə, onları digərlərindən bir qədər üstün tutmağı hər zaman özümə mənəvi borc sanmışam.

Düşünmüşəm ki, valideyn himayəsindən məhrum etməklə həyat onsuz da bu kimsəsiz gənclərə qarşı ən böyük ədalətsizliyini edib. Belə gənclərin müstəqil həyatda da hansı sınaqlarla qarşılaşdıqları bəlli deyil. Fürsət varkən, heç olmasa, rastlaşdıqlarıma bacardığım qədər dəstək olum.

Amma belə nə qədər kimsəsiz gəncin həyatını dəyişmək olar ki?!

Mehriban xanım Əliyeva nümunəsindən sonra isə indi belə gənclərlə bağlı çox rahatam. Hətta fikirləşirəm ki, bu gənclər öz gələcək həyatlarında atalı-analı həmyaşıdlarından da çox uğurlu olacaqlar. Çünki onların Mehriban xanım kimi anaları var. Onun ana sevgisi hər zaman bu gənclərlə birgədir. Bu sevgi bir ömür boyu onları müşayiət edir.

Mehriban xanım məktəbi başa vurandan sonra mənzillər inşa etdirir bu gənclərə, yeni müəssisələr açdırıb işə düzəlmələrinə kömək göstərir, ailə qurmalarına bir ana kimi mənəvi dəstək olur.

O, təkcə öz övladlarının anası deyil!

Mehriban xanım Əliyeva Azərbaycandakı bütün kimsəsiz körpələrin anasıdır!..

* * *

Dünyada, yaşadığımız cəmiyyətdə hər gün başqalarına nəsə bir kömək göstərən, təmənnasız xeyirxahlıq edən milyonlarla insan var. Əgər belə olmasaydı, Yer üzündə şər xeyirə qalib gələrdi, dünya məhvərindən qopardı.

Xeyirxahlıq miqyasından və kim tərəfindən edilməsindən asılı olmayaraq çox gözəldir. Ən kiçik xeyirxahlıq da cəmiyyət üçün böyük faydalar gətirir. Ən azı cəmiyyətin bir üzvü özü boyda bir xeyir işığı yandırır. Amma biz sıravi insanların gündəlik həyatlarında, adi məişət situasiyalarında başqalarına hansı yaxşılıqlar etdiklərini görə bilmirik. Ona görə ki, bu insanların ictimai fəaliyyəti, cəmiyyətin başqa üzvləri ilə sosial münasibətləri gözümüzün qabağında deyil.

Mehriban xanım Əliyeva isə sadəcə xeyirxahlıq etmir, şəxsiyyətinin miqyası ilə cəmiyyətimiz üçün yeni dəyərlər formalaşdırır, ictimai meyarlar yaradır. Xeyirxahlığı, mərhəməti, insanlara sevgini həyat normalarına çevirir. Çünki belə şəxsiyyətlər cəmiyyət üçün ictimai bələdçidirlər. İnsanlar onlardan öyrənir, görüb-götürür, nəyin doğru, nəyin yanlış olduğunu, hansı dəyərlərə tapınmağın düzgünlüyünü onların fəaliyyətindən əxz edir və məqam düşəndə bu şəxsiyyətlərin geyim, davranış, danışıq tərzləri kimi, əməllərini də təkrarlamağa çalışır.

Beləcə, yaxşılıqları, nəcib təşəbbüsləri daha çox adam paylaşmış olur, xeyirin çevrəsi böyüyür, şər onun qarşısında bir addım da geri çəkilir və bu minvalla dünyamız aydınlığa çıxır.

* * *

Mehriban xanım Əliyeva qayğıkeş, fədakar ana olduğu qədər, həm də xeyirli bir ÖVLADdır. Ölkəmizdəki uşaq evlərində yaşayan kimsəsiz körpələr kimi, qocalar evlərinin yaşlı sakinləri də onun himayəsindədir. Bu müəssisələrdə yaşayan vətəndaşlarımız da onun daimi qayğısı ilə əhatə olunublar.

Bu insanların, bəlkə, kimsəsiz körpələrdən çox diqqətə ehtiyacları var. Çünki körpələr üçün bütün həyat hələ qabaqdadır. Ümid və xəyallar onlara tükənməz güc verir. Qocalar evləri isə ümidlərin tükəndiyi yerdir. Bura, adətən, ömrünün əsas qismini başa vurmuş, üstəlik yaşın qürubuna doğru ya övladların nankorluğundanmı, ya hansısa başqa bir səbəbdənmi kimsəsiz qalmış ixtiyarlar yaşamağa gəlir.

İndi onların həyatdan, yaşadıqları cəmiyyətdən yeganə təmənnaları sevgidir, xoş bir diqqətdir, layiq olduqları hörməti onlara göstərməkdir.

Nə zamansa oxumuşdum ki, bəzən cəmiyyətdəki durumu yaşlı insanların gözlərindən oxumaq olar. Əgər yaşlı insanların gözlərindən rahatlıq, əminlik, qayğısızlıq oxunursa, deməli, o cəmiyyətdə hər şey yerli-yerindədir. Əgər o gözlərdə övladlara yük olmağın ürkəkliyi əks olunubsa, ixtiyar gözlər sabaha ümidsizliyin təlaşı ilə baxırsa, o cəmiyyətdə yerbəyer edilməli olan hələ çox şeylər var.

Azərbaycanda yaşlı sakinlərin sosial təminatı arzu etdiyimiz səviyyəyə doğru ilbəil yüksəlir. Ölkəmizin sosi-

al-iqtisadi potensialı gücləndikcə bu istiqamətdə də haradan-hara gəldiyimizi illərin və ölkələrin müqayisəsində aydın şəkildə görə bilirik.

İndi yaşlı vətəndaşlar üçün yaradılmış sosial təminat onların bir çox ehtiyaclarının qarşılanmasına yetir. Dövlət yaşlıları övlad-uşaq yanında heç bir sıxıntı çəkməyə qoymur.

Qocalar üçün yaradılmış yaşayış müəssisələri də dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən irəli gələn belə faydalı sosial layihələrdəndir.

Və son illər Azərbaycanda bu sahə müasirləşdiriləræk, həmin müəssisələrin sakinləri üçün rahat, hüzurlu bir məkana çevrilir.

Milli mentalitetimiz, müqəddəs inancımız ata-ananın üzünə ağ olan, ömrün sonlarında onları tərk edən övladların bu davranışlarına qarşıdır. Yaşlı insanlarımız bizim başımızın tacı, evimizin bərəkətidir. Ənənələrimizə görə, ata-ana övladların min bir əziyyətini çəkib onları boya-başa çatdırdığı kimi, yaşlananda da valideynlərinin qayğısını çəkmək övladların mənəvi borcudur. Şükür ki, dəyişən zaman, qlobal proseslərin mənfi təsirləri Azərbaycanda bu ənənəni zəiflədə bilmir. Yaşlılarımız yenə də ocağın qoruyucuları, evin ağsaqqalı, ağbirçəyi statusundadırlar.

Amma, necə deyərlər, bəzən beş barmağın beşi də bir olmur. Ömrün son illərində yalnızlığa məhkum olan yaşlılarımız dünən də vardı, bu gün də var, güman ki, sabah da olacaq. Belə məqamlarda ən etibarlısı dövlətin hərtərəfli himayəsinə sığınmaq, həyatın son illərini nəsildaşlarla paylaşmaq, birgə maraqların, ortaq xatirələrin əhatəsində keçirmək üçün ən uyğun yer elə qocalar evləridir.

Yeri gəldiyindən bir məqamı da qeyd edim ki, cəmiyyətdə də bu cür müəssisələrə münasibətin dəyişməsinə

ehtiyac var. Hər il müxtəlif əlamətdar günlərdə qocalar evlərində videoçəkilişlər edib, sentimental cümlələrlə televiziya efirindən onları cəmiyyətə atılmış, yazıq, zavallı obrazında təqdim etməkdən artıq əl çəkməliyik. Valideynlərinə asi çıxan övladlara hansısa ictimai qınaq olmalıdır, – anlayıram. Amma bu, qocalar evlərinin sakinlərinin miskin obrazı hesabına edilməməlidir. Çünki bu insanlar miskin və atılmış deyillər, kim tərk etsə də, dövlət bu insanların əlini buraxmayıb, onları qanadları altına alıb, sosial qayğı ilə əhatə edib. Bizim missiyamız bu müəssisələrin sakinlərinin yaşayış şəraitini, güzəranını ictimai nəzarətdə saxlamaq, bu şəraitin daha da yaxşılaşmasına, ixtiyar insanların burada özlərini evlərindəkindən də rahat bir ortamda hiss etmələrinə çalışmaqdır.

Mehriban xanım Əliyevanın bu istiqamətdə həyata keçirdiyi layihələrin, onlara himayəçilik təşəbbüslərinin məramı da elə budur. O, qocalar evlərinin bütün sakinləri qarşısında bir övladın öz valideynləri qarşısındakı mənəvi borcunu şərəflə, üz ağlığı ilə yerinə yetirir.

Bu müəssisələrdə yaşayan bütün ixtiyarlar onu doğma övladları gözündə görürlər. Hər zaman yolunu gözləyirlər. Bilirlər ki, öz doğma övladları unutsalar da, Mehriban xanım onları heç zaman unutmayacaq. Onlara tez-tez baş çəkəcək və hər gəlişində də gözlədikləri ən böyük sovqatı, ən dəyərli hədiyyəni – ÖVLAD SEVGİSİni pay gətirəcək.

* * *

Bir milyondan çox insan var ki, hamımızın qohumları, dostları arasında onlara rast gələ bilərik...

İnsan bircə manatını itirəndə bütün günü dilxor dolaşır, bu itkiyə rəvac vermiş diqqətsizliyini özünə bağışlaya bilmir.

Bu adamlarsa özlərinin də, onlardan əvvəlki əcdadlarının da bir ömür boyu qurub-yaratdıqlarını cəmi bir neçə saatın içində itiriblər. Dünyanın ən böyük sərvətindən – doğma yurddan məhrum olublar...

Bir zamanlar cah-calallı imarətlərə, axar-baxarlı bağ-bağatlara sığmayan bu insanlar çadırlara, ən yaxşı halda isə bəzən səkkiz, on nəfərlik ailə ilə yataqxana küncündəki xəfəli, boğanaq, darısqal bir otağa sığınıblar. Məcburi köçkün taleyi ilə baş-başa min bir məhrumiyyət, sıxıntı çəkiblər.

Dövlət son illər bu insanları sıxıntıdan qurtarır. Ölkənin müxtəlif yerlərində məcburi köçkünlər üçün şəhərciklər salınır, binalar tikilir. Yeni evlərlə təmin olunan bu insanların güzəranı düzəlir, işğal olunmuş yurd yerlərimizdə itirilən calal yenidən həyat və məişətlərinə qayıdır. İndi onların əksəriyyətinin heç bir sıxıntı çəkmədən qonaq qəbul etməyə, övladlarına toy büsatı qurub gəlin gətirməyə, qız köçürməyə layiqli mənzilləri var.

Mehriban xanım Əliyeva da Azərbaycanın Birinci vitse-prezidenti kimi öz missiyasının icrasına məhz bu problemin həllinə yeni töhfələrlə başladı. Onun sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi ilə bağlı geniş müşavirə keçirildi. Və bundan qısa müddət sonra Qaradağ rayonunda məcburi köçkünlər üçün yaşayış kompleksinin təməlini qoydu. Birinci mərhələdə ən qəzalı binalarda yaşayan 4 min ailənin köçürülməsinə dair tədbirlər planı bu sətirlərin qələmə alındığı anlarda Mehriban xanımın rəhbərliyi ilə uğurla yerinə yetirilməkdədir.

Bütün bu layihələr sosial əhəmiyyəti ilə yanaşı, eyni zamanda böyük mənəvi dəyərə malikdir. Bu o deməkdir ki, xalqımızın Ümummilli lideri, Ulu öndər Heydər Əli-



Zərifə xanım Əliyeva



Zərifə xanım SSRİ Ali Sovetinə seçkilər zamanı.
1977-ci il



Azərbaycanın görkəmli ziyalıları Fikrət Əmirov, Toğrul Nərimanbəyov və Zakir Bağırov ilə. 1978-ci il



Sov. İKP Baş katibi L.İ.Brejnev Bakıda olarkən.
1978-ci il



Azərbaycanın görkəmli ziyalıları ilə



1980-ci il





1980-ci il



1981-ci il



Zərifə və Heydər Əliyevlər.
1981-ci il



1981-ci il



Müslüm Maqomayev və Tamara Sinyavskaya ilə.
1981-ci il





Azərbaycan və Rusiya musiqi xadimlərini
qəbul edərkən. 1981-ci il



Mədəniyyət xadimləri Əliyevlərin evində.
1982-ci il



1982-ci il



Zərifə Əliyevanın xatirə gecəsi.
27 aprel 1995-ci il



Heykəltəraş Ömər Eldarov Zərifə Əliyevanın
heykəl-portretinin ilkin versiyası üzərində işləyərkən



“Elegiya” abidəsi və albomunun təqdimat mərasimi.
15 aprel 1997-ci il




“…Mənim bircə sərvətim var – qəlbimi isidən surətin”





Ümummilli lider Heydər Əliyev ailəsi ilə birgə Zərifə Əliyevanın məzarını ziyarət edərkən. 1997-ci il




Ukraynanın İrpen şəhərində
akademik Zərifə Əliyevanın abidəsinin açılış mərasimi.
4 iyun 2004-cü il

yevin irsi, qoyduğu ənənələr yaşayır, Azərbaycan insanının həyat və məişətinə möhtəşəm töhfələr verir.

Ölkəmizin mərkəzi şəhərlərindəki əksər yaşayış binaları ötən əsrin 70-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdi. O illərdə Ulu öndərin vətəndaşlara yaratdığı maddi imkanlar hesabına yosma kərpic daxmaları əvəz edən ikimərtəbəli daş evlərlə Azərbaycan kəndlərinin qiyafəsi dəyişmişdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış misilsiz sosial-iqtisadi nailiyyətlər dövründə həyata keçirilən tikinti-quruculuq tədbirləri ilə ölkəmiz az qala ev-ev, kənd-kənd, şəhər-şəhər yenidən qurulur. Azərbaycan dünyanın ən modern, gözəgəlimli məkanlarından biri kimi dünyanın diqqətini cəlb edir. Mehriban xanım da qaçqın və məcburi köçkünlərimiz üçün inşa etdirdiyi binalarla bu prosesə tarixi töhfələrini verir.

Bütün bunlarla bu şəxsiyyətlər Azərbaycanı bütün vətəndaşlar üçün gözəl, doğma, abad, işıqlı bir evə çevirirlər…

Onların nəcib əməlləri vətən evini abad edir…

Bu, Allahı sevən və Allahın sevdiyi insanların missiyasıdır…

Bu missiyanın yaratdığı daha bir mənəvi dəyər dünya musiqi mədəniyyətinin nadir hadisəsi olan muğama Mehriban Əliyevanın sahib çıxmasıdır. Onun dəstəyi ilə muğam Azərbaycanda görünməmiş inkişaf səviyyəsinə çatdı; muğam sənətçilərinin, musiqiçilərin, xanəndələrin parlaq qalaktikası yarandı. Burada birincilik çələngini haqlı olaraq Qarabağın şöhrətli muğam ustaları aldı.

Bakıda beynəlxalq muğam festivalları keçirildi. Beynəlxalq Muğam Mərkəzi tikildi. Deyilənlərə “Qarabağ

xanəndələri" musiqi albomunun nəşrini, "Muğam dəstgahları" layihəsini, 2005-ci ildən başlayaraq hər il keçirilən televiziya muğam müsabiqələrini əlavə edək…

Heydər Əliyev Fondu memarlıq abidələrinin bərpasında da fəal iştirak edir. Son vaxtlar ölkəmizdə bir çox tarixi və dini abidələr bərpa edilib. Gəncənin sonuncu xanı Cavad xanın qəbri üzərində məqbərənin tikintisi isə fondun təkcə paytaxtda yox, bölgələrdə də uğurlu fəaliyyətinin göstəricisidir.

Müqəddəs ziyarətgahlarımızın abadlaşdırılması da Mehriban xanımın fəaliyyətinin olduqca təqdirəlayiq hissəsidir. Pir Həsən ziyarətgahının, Möhsün Səlim məscidinin yenidən qurulması, digər layihələr Azərbaycanın birinci xanımının öz xalqının adət-ənənələrinə, dini dəyərlərinə hörmət və ehtiramını nümayiş etdirir.

Fondun gerçəkləşdirdiyi "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" kitabçalarından ibarət "Qarabağ həqiqətləri" toplusu isə Mehriban Əliyevanın Qarabağ hadisələri ilə bağlı yorulmaz fəaliyyətinin təsdiqidir. Real faktlara söykənən bu zəngin toplu beynəlxalq ictimaiyyəti Qarabağ həqiqətləri, Xocalı soyqırımı, Ermənistanın təcavüzkar, işğalçılıq siyasəti haqqında məlumatlandırmaq məqsədi daşıyır.

"Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabı isə Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində – Xankəndi, Xocalı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Qubadlı, Füzulidə düşmən tapdağında qalan və dağıdılan tarixi-memarlıq abidələrimiz haqqındadır. Bu kitab ermənilərin qənim kəsildiyi tarixi mədəniyyət abidələrinin xilasına çağırışdır. Fondun bu istiqamətdə davamlı

və məqsədli işi isə müsbət nəticələr əldə olunacağına inam yaradır...

Qaçqın və məcburi köçkünlərin gün-güzəranından, onlara göstərilən dövlət qayğısından bəhs edən "Vətən həsrəti... Sönməyən ümidlər" sənədli filminin çəkilişləri zamanı AzTV-nin əməkdaşı Firuzə Nadir qeyd edir ki, görüşdüyüm insanların hamısının dilinin əzbəri idi Mehriban xanım. Onlar Prezident İlham Əliyevlə birgə Azərbaycanın birinci xanımının da yurdunu itirmiş insanlara qayğısından ağızdolusu danışırdılar. Mingəçevirdə dövlətin abad ev-eşiklə təmin etdiyi Xocalı köçkünü Nəsibə Allahyarovanın dedikləri indi də yaddaşımdadır: "Qəsəbəmizin açılışında Prezident İlham Əliyev və Mehriban Əliyeva bizdə də oldular. Onların sadəliyi, səmimiliyi bizi çaşdırmışdı. Elə bildim, qardaşım, bacım qonaq gəlib bizə... Problemlərimizlə maraqlandılar. Qızımızın nişanlı olduğunu biləndə Mehriban xanım dedi ki, onun bütün cehizini alacağıq..."

Bunu dilə gətirmək həm də onların Mehriban xanıma ərkləri, güvənmələri idi. Ərki isə yalnız doğma adama edərlər. Onlar Mehriban xanıma ona görə güvənirlər ki, o özü buna imkan, şərait yaradır, onların arzularını, qayğılarını paylaşır...

Təkcə qaçqın və məcburi köçkünlərin yox, dara düşən hər kəsin dayağıdır, xeyirxahıdır Azərbaycanın birinci xanımı. Bəxtimizə düşən bu qarışıq dünyada, yoxsulluğun, terrorun, xəstəliklərin tüğyan etdiyi dünyada məhz onun kimi insanlar sönmüş ümidlərə işıq verir...

* * *

Mehriban xanım Azərbaycan xalqının elçisi olub. Xalq yalnız sevdiyi insanlara bu müqəddəs kəlməni etibar edir. Onu "elçi" adlandırır, onu özünə vəkil seçir.

Mehriban xanım Əliyevanın Azərbaycan Respublikası Milli Məclisinin deputatı olduğu 12 il müddətində öz seçiciləri üçün gördüyü işlərin, ümumilikdə Azərbaycan vətəndaşları üçün imza atdığı nəcib əməllərin təfərrüatları kitablara sığmaz!

Onun parlament seçkilərində iştirakı ilə bağlı üç fakt diqqətimi çəkir.

2005-ci il noyabrın 6-da Milli Məclisə seçkilər zamanı namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 14 saylı Əzizbəyov (indiki Xəzər) ikinci seçki dairəsindən irəli sürülmüş Mehriban Əliyeva 92,12 faiz səs toplayıb və bununla seçici dəstəyinin müqyasına görə respublika üzrə birinci olub!

2010-cu il seçkilərində o, 14 saylı Xəzər 2-ci seçki dairəsindəki seçicilərin 94,49 faizinin səsini qazanıb.

2015-ci ildə isə 14 saylı Xəzər 2-ci seçki dairəsindəki seçicilərin 96,7 faizi Mehriban xanım Əliyevaya səs verib.

Düşünürəm ki, bu, getdikcə artan, möhkəmlənən qarşılıqlı inamın təntənəsidir. O ərazidə yaşayan, ölkənin birinci xanımının onların rifahı üçün gördüyü işlərdən faydalanan vətəndaşların bütün bunlara görə Mehriban xanıma təşəkkürüdür.

2005-2010-cu illərdə Mehriban xanım Əliyeva Azərbaycan–Amerika kimi çox vacib bir parlamentlərarası dostluq qrupuna rəhbərlik edirdi.

2006-cı ildə ABŞ-a səfəri zamanı bu ölkənin ictimai-siyasi xadimləri ilə görüşündə Azərbaycan qadınlarının seçib-seçilmək haqqını nəinki müsəlman Şərqi, hətta Birləşmiş Ştatların qadınlarından da əvvəl 1918-ci ildə müstəqil Azərbaycan Xalq Cümhuriyyəti dövründə əldə etdiklərini xüsusi vurğulayan Mehriban xanım Əliyeva o görüşdə yaratdığı müsbət təəssüratla Azərbaycan qadınının adını ucalara yüksəltdi.

Onun ABŞ-da keçirdiyi görüşlər iki ölkə arasında əlaqələrin və əməkdaşlığın daha da genişlənməsi, Amerikanın Azərbaycanı daha yaxından tanıması, Azərbaycan həqiqətlərinin, mədəniyyətinin daha geniş təbliğ olunması baxımından mühüm nəticələrlə əlamətdar oldu.

Deputatlıq fəaliyyətinin son günlərinədək Mehriban xanım Azərbaycan–Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri oldu. Onun Avropa ölkələrindəki yüksək nüfuzu Azərbaycanın Avropa məkanına inteqrasiyası prosesinə böyük töhfə verdi. Şübhəsiz ki, parlament üzvü olmaq istər-istəməz siyasi işdir. Mehriban xanım Əliyeva isə deputat olduğu illərdə bu fəaliyyətə də yeni məzmun qazandırdı...

* * *

O, bütün Azərbaycan cəmiyyəti üçün humanizm simvoludur. Ölkənin birinci xanımı üzərinə götürdüyü xoşməramlı missiya ilə insan hüquqlarının qorunması, vətəndaş cəmiyyəti ideyalarının cəmiyyətdə bərqərar olması, cəza siyasətinin humanistləşdirilməsi prosesində əməyini əsirgəmir.

Dünya ədəbiyyatı adlı ucalığın ən yüksək zirvəsində qərar tutan fransız yazıçısı Viktor Hüqo bir zamanlar yazırdı ki, əfv insanlıq dilinin ən şirin kəlməsidir.

Nə vaxtsa bir müdrikdən **“ƏFV ETMƏK YAXŞIDIR, YOXSA CƏSARƏT?”** deyə soruşduqda o belə cavab verib ki: “Əfv etmək, çünki əfv etməyi bacaranın cəsarətə ehtiyacı yoxdur!”

Tanrı da bağışlayan və əfv edəndir...

Ulu öndər Heydər Əliyev bu keyfiyyəti uca Tanrıdan əxz etmişdi. O, humanizm, şəxsiyyətə inam və hörmət, insanpərvərlik prinsiplərini önə çəkirdi. Bağışlamaq mümkün olan yerdə bağışlamağı bacarırdı.

...Heydər Əliyev 1993-cü ildə ölüm hökmü cəzasının tətbiqi üzərində moratorium qoydu. 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq ölüm hökmünün ləğvinə qərar verdi.

4 may 1995-ci il tarixli fərmanı ilə əfvetmə institutunu bərpa etdi. İmzaladığı müvafiq fərman və sərəncamlarla minlərlə insanı azadlığa qovuşdurdu.

Tarix üçün bir faktı xatırlayaq: Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis 1996-2003-cü illərdə amnistiya haqqında 7 qanun qəbul etmiş, 21325 məhkum azadlığa buraxılmışdı. Ümumilikdə 78 mindən artıq məhkuma amnistiya aktları şamil edilmişdi.

Bu siyasəti inamla davam etdirən Prezident İlham Əliyev də imzaladığı əfv sərəncamları əməllərindən səmimi peşmançılıq hissi keçirən günahkar şəxslərin islah olunaraq düz yola qayıtmasına səbəb olur və onların ailə üzvlərinə bir aləm sevinc bəxş edir.

* * *

Millət vəkili olduğu dövrdə Mehriban xanım Əliyeva da Ulu öndər Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü münasibətilə ilk dəfə 2007-ci ilin may ayında parlament qarşısında amnistiya aktı layihəsi ilə çıxış etdi.

Sonralar da Mehriban Əliyevanın təşəbbüsü ilə bir neçə dəfə gerçəkləşən amnistiya aktları nəticəsində minlərlə şəxs cəzadan azad olundu, onların yolunu intizarla gözləyən ailəsinə qovuşdu. "İnsanları bağışlamaqla biz həm onları normal həyata qaytarırıq, həm də müasir Azərbaycanın humanizm prinsipləri əsasında inkişafını nümayiş etdiririk. Cəmiyyətdə olan bütün ağır problemləri mərhəmətlə, insansevərliklə həll etməyə çalışmaq lazımdır. Fikrimcə, vətəndaş cəmiyyəti elə bir cəmiyyətdir

ki, orada bütün azadlıqlar, qanunun aliliyi mövcuddur, vətəndaşlar fəaldırlar, cəmiyyətdə birlik və həmrəylik var. Bu, vətəndaş cəmiyyətinin formalaşmasında ən əsas prinsiplərdən biridir", – bu da Mehriban Əliyevanın fikridir...

2016-cı ilin oktyabr ayında onun təklif etdiyi növbəti amnistiya qanunu qəbul edildi və nəticədə 2800 məhbus azadlığa buraxıldı.

Bu sətirlərin müəllifi kimi mən lap ən xırda bir cinayət olsa da, onu törədən şəxsin cəzasız qalmasına tərəfdar deyiləm. Amma unutmayaq ki, Tanrının xəlq etdiyi hər bir bəndənin nə zamansa yaxşı biri olmaq şansı da var. İnsan olaraq bizim ali missiyamız başqalarının bu şansını tanımaqdır.

Viktor Hüqonun "Səfillər" əsərində təsvir etdiyi yepiskop onun gümüş çəngəl-bıçaqlarını oğurlamış Jan Valjanı polislərin əlindən alıb, üstəlik gümüş şamdanlarını da ona bağışlarkən keçmiş katorqa məhbusuna son olaraq bu kəlmələri söyləyir: "Qardaşım, siz artıq şərə tabe deyilsiniz, xeyirin ixtiyarındasınız. Mən sizin ruhunuzu satın alıram. Mən sizin ruhunuzu qara fikirlərdən və zülmət dünyasından xilas edib Allaha tapşırıram".

Mehriban xanım Əliyevanın amnistiya təşəbbüsləri ilə minlərlə məhbusun azadlığa buraxılması da onların ruhlarının qurtuluşudur.

Şərin yoldan çıxardığı insan ruhlarının mərhəmət işığında qaranlıqdan xilası və Allaha əmanət edilməsidir...

* * *

Mehriban xanım deyir: "Bəzən cəmiyyətdə insan elə bir vəziyyətə düşür ki, bütün döydüyü qapılar onun üzünə bağlı qalır. O öz dərdi ilə, öz problemi ilə təkbaşına qalır və ona elə gəlir ki, heç bir şey və heç kəs ona kömək

edə bilməz. Bu halda o, üzünü bizim fonda tutur. Mən demək istəmirəm ki, biz dərhal onun bütün problemlərini həll edirik. Amma o insan burada nə biganəliklə, nə soyuq münasibətlə rastlaşmaz və hökmən onun problemlərinin həlli üçün mümkün olan bütün vasitələrdən istifadə ediləcəkdir. Yəqin ki, xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq bu ənənələri davam etdirməyə çalışırıq".

Bir neçə il əvvəl özəl müəssisələrin hansındasa istehsalat xəsarəti alaraq əlil olan və bu statusun verdiyi sosial hüquqları tələb edən İftixar Ağayev adlı gənc fəhlənin ən radikal müxalifət qəzetlərinin birində Heydər Əliyev Fonduna müraciətinə verilmiş reaksiyanı əks etdirən ibrətamiz fikirləri dərc edilmişdi.

"Sifarişli teleqramımı Mehriban Əliyevaya göndərdim. Allaha dua etdim ki, teleqramım çatsın və məni qəbul etsin".

Bir müddət keçəndən sonra Mehriban xanım Əliyeva şəxsən özü onu qəbul edir: "Cavab məktubu gəldu ki, Mehriban Əliyeva sizinlə görüşmək istəyir. Mehriban xanımla görüşdüm və ona başıma gələn hadisəni danışdım. Dediklərimi eşitdikcə gözündən yaş süzülürdü. Məni təhlükəsizlik xidmətinin əməkdaşlarına tapşırdı. Onlarla birlikdə nahar etdim, mənə kostyum aldılar, sonra 100 manat pul verdilər. Üstündən bir neçə saat keçəndən sonra dedilər ki, Mehriban xanım sizi yenidən qəbul otağında gözləyir".

Bu dəfə Mehriban xanım Əliyeva onu aidiyyəti sahəyə məsul səlahiyyətli şəxslərlə birgə qəbul edir: "Mehriban xanım mənə dedi ki, narahat olma, başına gələnləri danış. Bütün başıma gələnləri bir daha danışdım".

Beləliklə, əlil gəncin problemi qısa zamandan sonra həllini tapır.

Görəsən, əlavə şərhə ehtiyac varmı?!.

* * *

Daha bir məqamı xatırlatmaq, fikrimcə, çox yerinə düşərdi. Rusiyanın paytaxtı Moskvada yaşayan, 4 əkiz uşağı doğulan azərbaycanlı ailənin keçirdiyi böyük sevinc hissini, yəqin, çoxları xatırlayır... Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyeva o zaman onların mənzil problemini həll etmişdi. Bir anlıq təsəvvürünüzə gətirin, 4 övladı dünyaya gəlmiş azərbaycanlı ailəsi vətəndən uzaqda olsa da, Mehriban xanımın həssas münasibətini, ana qayğısını duyurdu. Bu münasibətin, kömək əlinin qürur və sevincini yaşayırdı...

Əlbəttə, belə faktlar çoxdur və bu, böyük bir missiyanı, xeyirxahlıq missiyasını həssas ürəklə yerinə yetirən Azərbaycan xanımının insansevərlik və nəcibliyindən soraq verir...

* * *

Mehriban Əliyevanın xeyriyyəçilik fəaliyyəti artıq Azərbaycan sərhədlərini çoxdan aşıb. Təsadüfi deyil ki, humanistliyini, başabaş xeyirxahlığa köklənən arzu və ideyalarını həyata keçirmək istiqamətində bacarıq və qabiliyyətini təkcə öz xalqı yox, bütün dünya qiymətləndirdi.

"Mehriban xanım Əliyevanın fəaliyyəti sayəsində Azərbaycanla UNESCO arasında sıx əməkdaşlıq yaranmışdır" – bu, UNESCO-nun keçmiş baş direktoru Koişiro Matsuuranın fikridir.

UNESCO-nun xoşməramlı səfiri olandan iki il sonra Mehriban Əliyeva müxtəlif sahələrdə genişmiqyaslı fəa-

liyyəti, ehtiyacı olan uşaqlara qayğısı, təhsilə, həmçinin İslam aləmində görülən işlərə böyük dəstəyinə görə də diqqəti çəkdi. 2006-cı il noyabrın 24-də 51 müsəlman dövlətinin təmsil edildiyi nüfuzlu beynəlxalq mədəni-humanitar qurum olan İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının – ISESCO-nun Xoşməramlı səfiri adına layiq görüldü.

Ulu öndərin zəngin irsini, həmçinin müəllifi olduğu azərbaycançılıq fəlsəfəsini, azərbaycançılıq ideyasını təbliğ etmək, gələcək nəsillərə çatdırmaq missiyasını öhdəsinə götürən Heydər Əliyev Fondu zamanın tələblərinə cavab verən vəzifələr müəyyənləşdirdi. Dəyərli layihələr həyata keçirməyə başladı. Fondun gerçəkləşdirdiyi proqram və layihələr Azərbaycan təhsilinin, mədəniyyətinin qarşısında yaşıl işıq yandırdı...

Heydər Əliyev Fondu bir sıra xarici ölkələrdə də təhsilə qayğı göstərir, məktəblər tikdirir, xeyriyyəçilik işləri görür. Məsələn, Əfqanıstan və Pakistanda artıq belə məktəblər tikilib. Fondun dünyanın bir neçə ölkəsində yaradılan nümayəndəliklərinin xeyriyyəçilik işləri gündən-günə daha da artır...

1990-cı illərin əvvəllərində çətin təsəvvür etmək olardı ki, müharibə nəticəsində əldən düşmüş, dağıdılmış ölkə on ildən sonra zəlzələdən zərər çəkmiş Pakistana kömək əli uzadacaq, orada məktəb tikəcək. Bu, xüsusilə ölkənin iqtisadi gücünün etibarlı göstəricisidir.

* * *

Mehriban xanım Əliyeva xidmətlərinə görə bir çox saysız-hesabsız mükafatlara və diplomlara, o cümlədən 13 aprel 2012-ci ildə MDB iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurasının və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq

Fondunun "Birlik Ulduzları" dövlətlərarası mükafatına, Pakistanın "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı – 2013" mükafatı, 2014-cü ilin mayında "The Business Year" jurnalının "İlin Birinci Xanımı" mükafatı, 2014-cü ilin mayında sivilizasiyalararası dialoqa verdiyi töhfələrə, həmçinin Almaniyada türk dünyasının tanıdılmasına, Azərbaycan–Almaniya əlaqələrinin inkişafındakı xidmətlərinə görə Türk–Alman Dostluq Federasiyasının fəxri mükafatına layiq görülüb.

Olimpiya dəyərlərinin təbliğindəki xidmətlərinə görə 2014-cü ilin iyununda Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı ilə təltif olunub. 2016-cı ilin yanvar ayında Avropa Olimpiya Komitəsi Mehriban Əliyevanı Avropa Olimpiya Oyunlarının təşkil edilməsində gördüyü işlərə görə mükafatlandırıb. 29 iyun 2015-ci ildə Azərbaycanda "Heydər Əliyev" ordeni ilə təltif olunub.

* * *

Onun Milli Məclisin iclasında deputat kimi son çıxışını xatırlayıram. Həmin gün parlamentin sədri Oqtay Əsədov Birinci vitse-prezident təyin olunması münasibətilə Mehriban xanım Əliyevanı təbrik edərək onun 12 illik müddətdə gördüyü işlər haqqında müxtəsər məlumat verdi. Mehriban xanım Əliyeva isə Milli Məclisdəki vida çıxışında bunları söylədi:

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamına əsasən yeni vəzifəyə təyin edilməyimlə əlaqədar olaraq Azərbaycan Respublikası Milli Məclisində fəaliyyətimi dayandırmalı oluram. Mən on ildən artıq parlament üzvü olmuşam. Bu illər ərzində Azərbaycan Milli Məclisinin deputatı adını daşımaq mənim üçün böyük şərəf idi. Müstəqillik illərin-

də ölkəmizin nüfuzlu dövlət kimi formalaşdırılmasında Milli Məclisin deputat korpusunun böyük rolu olub.

Azərbaycanda həyata keçirilən islahatların hüquqi bünövrəsini millət vəkillərinin birgə səyi nəticəsində hazırlanıb müasir reallıqlara və çağırışlara cavab verən qanun layihələri təşkil edir. Əziz həmkarlar, millət vəkili kimi çalışdığım müddət ərzində burada daim işgüzar ab-havanın şahidi olmuşam...

Humanizm və ədalət ideyalarına əsaslanaraq, 2007, 2009, 2013, 2016-cı illərdə irəli sürdüyüm amnistiya aktlarının qəbul edilməsi ilə bağlı təşəbbüsüm həmkarlarım tərəfindən daim dəstəklənib. Bu qərarlar əsasında ümumilikdə 39 min 887 məhkum cəzadan azad edilib".

Deputatı olduğu Xəzər rayonunda 2005-ci ildən bu günə qədər aparılan işlər haqqında məlumat verən M.Əliyeva dedi ki, bu müddət ərzində Xəzər rayonunda 42 məktəb, 44 uşaq bağçası, 16 uşaq evi və internat məktəbi, o cümlədən 3 uşaq evi üçün yay düşərgəsi inşa edilib və əsaslı təmir olunub. 17 sənaye müəssisəsi, 10 idman obyekti, o cümlədən 6 stadion, mədəniyyət evləri, kitabxanalar, muzeylər daxil olmaqla 28 mədəniyyət obyekti istifadəyə verilib. Onların sırasında tikilmiş, yaxud bərpa olunmuş 7 məscid və ziyarətgah da var. Bundan əlavə, rayonun Şüvəlan, Binə, Türkan və Zirə qəsəbələrində əhalinin qaz və elektrik enerjisi ilə təminatı yaxşılaşdırılıb. Şüvəlan, Binə və Qala qəsəbələrində su xətləri çəkilib, rayon ərazisində ümumi uzunluğu 190 km olan yollar salınıb: "Bu illər ərzində irimiqyaslı, uzunmüddətli layihələrlə yanaşı, gündəlik həyatda insanları narahat edən problemlərin araşdırılmasını və həllini də daim ön plana çıxarmışam. Mənə müraciət edən insanlara dəstək olmağa çalışmışam. Fəaliyyətimin bütün mərhələlərində rayon sakinlərinin dəstəyini hiss etmişəm. Bizim ünsiy-

yətimiz formal deyil, hər zaman səmimi olub. Mən tam əminliklə deyə bilərəm ki, əldə olunan bütün nailiyyətlərə birgə fəaliyyət nəticəsində nail olmuşuq. Bu illər ərzində məni dəstəkləyən hər kəsə öz minnətdarlığımı bildirirəm. Gələcəkdə də Xəzər rayonunun inkişafı üçün çalışacağam".

Mehriban xanım Əliyeva qeyd etdi ki, bütün çıxışlarında Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonun işğalı faktını, 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün şəraitində yaşaması haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırıb:

"...Ölkəmizdə keçirilən islahatlar və dövlətçiliyin inkişafına töhfələrini verən digər sahələrdə çalışmışam. Fəaliyyətim dövründə insanlara yardım etməyə və edilən müraciətləri yerinə yetirməyə çalışmışam. Yeni təyin olunduğum vəzifədə də çalışacağam ki, hər zaman insanlara kömək edim".

Birinci vitse-prezident Azərbaycanda sağlam ailənin formalaşması və bu istiqamətdə risklərin azaldılması məqsədilə 2014-cü ildə nikaha daxil olmaq istəyən şəxslərin məcburi tibbi müayinədən keçməsi təşəbbüsü ilə çıxış etdiyini söylədi:

"Həmkarlarımla ətraflı müzakirədən sonra Ailə Məcəlləsinə müvafiq dəyişikliklər edilməsi haqqında qanun qəbul edildi. Mənim təşəbbüsümlə dünyada Azərbaycanı çoxmillətli, tolerant, çoxkonfessiyalı ölkə kimi tanıtmaq üçün bir çox tədbirlər keçirilib. Həmçinin Heydər Əliyev Fondu tərəfindən Xocalı faciəsi haqqında hazırlanan nəşrlər bütün dünyaya yayılıb. **Mən Milli Məclisdə 12 illik fəaliyyətimi böyük bir ömür məktəbi kimi qiymətləndirirəm.** Bir millət vəkili kimi əldə etdiyim təcrübə əvəzsizdir. Vəzifəmdən, fəaliyyətimin

istiqamətindən asılı olmayaraq, mən həyatda sadə prinsiplərə arxalanmışam. Vicdan, ləyaqət, mərhəmət və xoş niyyət, ədalət, qarşılıqlı hörmət Tanrının insana verdiyi ən ali, ən gözəl xüsusiyyətlərdir. Bu yüksək tribunadan mənə inanan hər bir insanı əmin etmək istərdim ki, gələcək fəaliyyətimdə də mənəvi dəyərləri üstün tutacağam. Azərbaycanın müstəqilliyinin qorunmasına, ölkəmizin hərtərəfli inkişafı üçün bütün gücümlə çalışacağam".

Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi son nitqinin bir hissəsi də ona ünvanlanan təbriklərlə bağlı idi:

"Son günlər mənim ünvanıma soydaşlarımızdan təbriklər gəlir. Sadə insanlardan aldığım hər bir məktub, hər bir təbrik mənim üçün çox dəyərlidir. Səmimi ürək sözləri və dəstəklərə görə hər birinə öz dərin minnətdarlığımı bildirirəm. ...Mən sizin hər birinizə möhkəm cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik, işlərinizdə uğurlar arzulayıram. Bu illərdə birlikdə keçirdiyimiz fəlaiyyətə görə sizə dərin minnətdarlığımı bildirirəm. Ümidvaram ki, gələcəkdə də bizim əməkdaşlıq davam edəcək. Tanrı Azərbaycanı hər zaman qorusun!"

Milli Məclisin Sədri Oqtay Əsədov deputatlar adından Mehriban Əliyevaya təşəkkür etdi:

"Hörmətli Mehriban xanım, biz hamımız sizin əhatəli və səmimi çıxışınıza görə minnətdarıq. Əmin olun ki, Milli Məclis deputatları olaraq biz hər zaman sizin işlərinizə dəstək verəcəyik".

Telejurnalist Firuzə Nadir "Birinci xanımın portret cizgiləri" (Modern.az – 26.08.2013) yazısında Mehriban xanım Əliyevanı "Tarix və millət qarşısında məsuliyyətin zirvə örnəyi – amalı insanlığa xidmət olan ictimai xadim" adlandıraraq yazır:

“...Həyatda hər kəsin, hətta torpağın, daşın, yarpağın, dənizin, suyun da öz nəğməsi var, – deyirlər. Hərə öz dilində oxuyur nəğməsini. Mehriban xanım da təkrarsız bir nəğmənin müəllifidir: mərhəmət, şəfqət, xeyirxahlıq nəğməsinin. Bu nəğmə milyonların qəlbini ələ alır, insanları həyəcanlandıra, sevindirə bilir, onların dərdinə şərik çıxır, ağrılarını azaldır. Ən zalım insan belə bu musiqinin qüvvəsi ilə ram olur, dəyişir, saflaşır, nəcibləşir. Bu nəğmə həm də sabaha ümid nəğməsidir...

“Dünyanı gözəllik xilas edəcək” – bu, Dostoyevskinin fikridir. Metyu Arnold isə deyib: “Bizi poeziya xilas edəcək”. Böyük idrak sahiblərinin bu qənaətlərinə sayğı göstərməklə yanaşı, sonda olduqca adi və sadə bir fikrin üzərində dayanmaq istəyirəm: dünyanı humanizm, xeyirxahlıq və mərhəmət xilas edəcək.

Qadın gözəlliyinin zərif örnəyi, mübarək bir lövhəsi olan Mehriban Əliyeva bütün dünyaya xeyirxahlığın zirvə nümunəsini sərgiləməkdə davam edir. Ən parlaq işlər isə hələ qabaqdadır. Onun getdikcə yeni çalar qazanan ictimai-siyasi fəaliyyəti bunu diktə edir.

...Nə yaxşı, indi də abidə insanlar var dünyamızda! Yer üzü onların çiyinlərində saxlayır müvazinətini! Tanrı həmin insanların üzünə bağışlayır çox şeyi. Sağlığında bu mərtəbəyə qalxanlar, abidəyə dönənlər isə ikiqat qəhrəmanlardır.

Və qəhrəmanlıq təkcə meydanlarda qılınc çalmaqda deyil! Qəhrəmanlıq dünyanı fəth etməkdə deyil! Qəhrəmanlıq böyük ürəyi ilə insanların qəlbini fəth etməkdədir. Qəhrəmanlıq insanların beyninə, düşüncəsinə xeyirxahlıq toxumu səpərək onların qəlbində abidəyə dönməkdədir!..

...O da bu yuxusu qaçan dünyamızın, daim səksəkə içində olan zəmanəmizin qəhrəmanlarındandır. Etinasız,

laqeyd sıra nəfərlərindən deyil. Ən yaxşıların ilk sırasında, birinci cərgəsindədir.

...Mehriban Əliyeva fəaliyyəti ilə insanların ağıl, düşüncə, ürək və göz yaddaşında heç vaxt pozulmayacaq bənzərsiz bir lövhə yaradıb. Bu lövhə ən mahir rəssam tərəfindən min bir sevgi ilə kətana köçürülən, dünyanın məşhur sərgi salonlarını bəzəyən, tamaşaçıların qəlbini riqqətə gətirən ən möhtəşəm tablodan da məncə qiymətlidir . Ən azı o səbəbdən ki, mənəvi ucalıqdan xəbər verən nəcibliyi tərənnüm edir, insanlığa xidmət edir – böyük hərflərlə yazılmış İNSANLIĞA...

O, taleyinə, qismətinə düşən dövrün nəbzini tutaraq ağlı, bəlkə də, yaşına uyuşmayan müdrikliyi, ən əsası, bunu gözəlləşdirən əməlləri ilə onun fövqünə ucalmağı bacardı, zamanın parlaq zərrəsinə çevrildi. İndi heç bir mübaliğəsiz, şişirtməsiz, hamının birmənalı qəbul etdiyi şəxsdir. Və etiraf edək ki, müxtəlif səviyyəli, fərqli dünyagörüşlü insanların qəlbinə nüfuz etmək, hamını razı sala biləcək qərarlar qəbul etmək asan deyil...

Əslində, o, insanları sevməklə özünü sevdirdi. Sadəliyi və xeyirxahlığı ilə az zamanda Azərbaycan sevgisini qazandı, amma təkcə bu məmləkətə sığmadı, dünyanın da diqqətini özünə cəlb etdi. Dünya bu zərif, incə xanımın insan sevgisi ilə dolu ürəyinə heyran qaldı, onun təəssübkeşliyi, xeyir-duası, dəstəyi ilə həyata keçirilən qlobal layihələri alqışladı. O, indi dünyada zəif və zərif cinsin ən güclü, ən qüdrətli simalarından biri kimi tanınır və qəbul olunur. O, indi dünyanın ən gənc və sevilən, hörmətlə yanaşılan lider xanımlarındandır. Ölkədə birinci xanım institutunu formalaşdıran Mehriban Əliyeva az zamanda Azərbaycan qadınının kimliyini göstərdi dünyaya. Bu gün heç tərəddüd etmədən belə deyə bilərik: zəngin tarixi keçmişi, bu keçmişdə gözəl

örnəkləri olan Azərbaycan qadınının ən parlaq səhifəsi indi açılır..."

* * *

Ötən ilin avqustunda rusiyalı siyasətçilər, mədəniyyət xadimləri, tanınmış teleaparıcılar və ictimai xadimlər ad günü münasibətilə Mehriban xanım Əliyevaya təbrik məktubları və teleqramları ünvanladılar.

Rusiyanın mədəniyyət naziri **Vladimir Medinski** təbrik məktubunda yazırdı: "Mehriban Arif qızı Rusiyada mədəniyyət işçiləri və mədəniyyət xadimləri arasında böyük hörmət qazanıb. Hamı onu təkcə Azərbaycan Prezidentinin xanımı və ölkənin ali vəzifəli şəxslərindən biri kimi deyil, həm də mədəniyyət məsələlərinə dərindən bələd olan və mədəni proseslərə təəssübkeşliklə yanaşan bir insan kimi tanıyır. Tretyakov qalereyasında "Abşeron ulduzları" sərgisində yaranmış izdiham, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi ilə bizim birgə tədbirlərimiz, Mehriban Arif qızının himayəsi altında keçirilən Rostropoviç müsabiqəsi – bütün bunlar Rusiya ilə Azərbaycan arasında mədəniyyət sahəsində yaranmış yaxşı, səmərəli və məhsuldar münasibətlər mozaikasında yalnız kiçik elementlərdir. Bu elementlər həm də Mehriban Arif qızının himayədarlığı sayəsində bu dərəcədə parlaq və uğurlu olub".

Vladimir Medinski Azərbaycanın Birinci vitse-prezidentinə bundan sonra da bu cür xoşniyyətli, məsələlərin təfərrüatına varmağı bacaran, xeyirxah, səmimi insan, Rusiyanın, Azərbaycanın, Qafqazın çoxsaylı mədəniyyət xadimlərinin əsl hamisi kimi qalmasını arzu edib.

Tanınmış teleaparıcı **Evelina Zakamskaya** isə Azərbaycanın Birinci vitse-prezidentinə ünvanlanmış təbri-

kində yazırdı: “Sizə, ilk növbədə, qadın, ana və ailə xoşbəxtliyi arzu etmək istəyirəm. Ona görə ki, qadın yalnız bu halda, həqiqətən, xoşbəxt olur və yalnız xoşbəxt insan ətrafdakılara nur, şəfqət və sevinc bəxş edə bilər. Siz isə bütün bunları Azərbaycan xalqı ilə bölüşürsünüz”.

“Spravedlivaya Rossiya” Partiyasının lideri **Sergey Mironov** Azərbaycanın birinci xanımına ünvanlanmış təbrikində vurğulayır: “Mehriban Əliyeva ilə görüşmək nəsib olmuş insanların hər biri onun səmimiyyətini, erudisiyasını, problemlərin optimal həllini axtarmaq səyini qeyd edir”. S.Mironov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və tutduğu yüksək vəzifədə uğurlar arzulayır.

Müğənnilər Kristina Orbakayte və Vera Brejneva, İslam Biznes Assosiasiyasının prezidenti Marat Kabayev, teleaparıcı Angelina Vovk, Böyük Teatrın baş direktoru Vladimir Urin də Azərbaycanın Birinci vitse-prezidentinin ünvanına təbriklər göndəriblər.

Rusiya Liberal Demokrat Partiyasının lideri **Vladimir Jirinovski** təbrik məktubunda Azərbaycanın birinci xanımının bioqrafiyasının parlaq səhifələrini qeyd edərək yazır: “Hazırda Mehriban Əliyeva Azərbaycanda ikinci şəxsdir. Onun üzərinə millət, xalq üçün böyük məsuliyyət düşür. Hətta güclü kişilər də həmişə bu cür yükü daşıya bilmir, xanım Əliyeva isə bu yükü özünəməxsus məharət və bacarıqla daşıyır, eyni zamanda, bu cür qayğıkeş və başqalarının ehtiyaclarına həssas insan kimi qalır. Bəlkə də, bu, onun daxili qüvvəsi, gözəl ailəsi və qüsursuz bioqrafiyası, bircə dəqiqə belə boş vaxtı olmayacaq həyat sürməyə hazır olması ilə bağlıdır”.

Rusiya–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri **Dmitri Savelyev** Azərbaycanın Birinci

vitse-prezidenti Mehriban Əliyevanı təbrik edərək onun dünya arenasında Azərbaycanın mövqelərinin gücləndirilməsinə, respublikanın çoxdankı strateji tərəfdaşı olan Rusiya ilə dostluq əlaqələrinin möhkəmlənməsinə yönəlmiş çoxşaxəli fəaliyyətindən danışır. Rusiya siyasətçisinin təbrik məktubunda deyilir: "Sizin şəksiz hərtərəfli istedadınız, qeyri-adi iradəniz və heyrətamiz intuisiyanız Sizi zəmanəmizin ən erudisiyalı siyasətçilərindən birinə çevirir, istər Azərbaycanda, istərsə də bütün dünyada uğurlu qadınların çoxu Sizdən nümunə götürür".

Politoloq Yevgeni Kriştalyov Mehriban Əliyevanı bu cür xarakterizə edir: "O, mahiyyət etibarilə lider qadındır, özünün dəqiq mövqeyi, vətəndaş mövqeyi, ictimai mövqeyi olan qadındır. O, birinci xanım vəzifəsinin yükünü "elə-belə" sadəcə daşımır, ölkə parlamentinin deputatı, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ISESCO-nun xoşməramlı səfiri kimi ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrdə bilavasitə iştirak edir. O, həmin vəzifələri sadəcə zərurət xatirinə, Azərbaycan Prezidentinin xanımı olduğuna görə deyil, səmimi qəlbdən, düşünülmüş şəkildə yerinə yetirir. Mehriban xanımın insani keyfiyyətləri ona bu dünyanın güclü simalarının çoxu ilə dil tapmaqda kömək edir".

Mehriban xanım Əliyevanın missiyası haqqında yazdıqlarıma yekun olaraq Prezident **İlham Əliyev**in bir fikrini xatırlatmaq istəyirəm:

"O, insanlara xoş münasibəti, xoş niyyəti, xoş ünsiyyəti ilə seçilib. Bu, onun xasiyyətinin ən fərqləndirici cəhətidir. Mən əminəm ki, Mehriban Əliyeva xeyriyyəçilik, insansevərlik, mərhəmət, Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, düşüncəsinə, əsrlərdən bəri

formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətləri davam etdirməyə çalışacaq".

* * *

Azərbaycan tarixində igid, cəsur, qeyrətli diplomat qadınlar çox olub. Tarixə nəzər salsaq, çox şəxsiyyətlərlə qarşılaşarıq. Amma tarix boyu Azərbaycanı dünyada, beynəlxalq aləmdə Mehriban Əliyeva kimi təbliğ edən ikinci qadın olmayıb. Bu, onun missiyasıdır. Şəfqət dolu "qızıl ürəyi", ölkənin səhiyyə, mədəniyyət, təhsil sistemlərində gördüyü işlər Mehriban Əliyevanı Azərbaycan xalqının ürəyinə yazıb. Bu ürəkdə onun yeri əbədidir.

...Mehriban xanım dünyaya üç övlad gətirib.

O, Azərbaycan Prezidentinə üç övlad, Azərbaycan dövlətinə üç dəyərli vətəndaş bəxş edib.

Mehriban xanım övladlarını sadəlik zinəti ilə bəzəyib.

Mehriban xanım anası Aida xanımdan, qayınanası Zərifə xanım Əliyevadan aldığı tərbiyəni, görüb-götürdüklərini öz övladlarına münasibətində yaşadır. O da, bütün analar kimi, öz övladlarını çox sevir.

Amma bu sevgidə sevgidən üstün bir məsuliyyət hissi də var...

Çünki onun dünyaya gətirdiyi övladlar Heydər Əliyev ocağının yetirmələridir.

Prezident İlham Əliyevin övladlarıdır...

...Və Mehriban xanım Əliyevanın ana tərbiyəsini almış övladları – Leyla, Arzu, Heydər öz davranışları ilə bu məsuliyyəti hər zaman doğruldurlar. Mehriban xanım Əliyeva bir ana kimi övladlarının davranışları ilə dünyadakı bütün analara nümunə göstərir.

Atalarımız "ot kökü üstə bitər" demişlər. Bu gün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım

Əliyevanın milli ideallar naminə məqsədyönlü fəaliyyəti onun istedadlı və vətənpərvər gənc olduğunu nümayiş etdirməklə yanaşı, həm də irsi-genetik kökdən, sağlam ailə ocağından irəli gəlir. Leyla xanım Əliyeva Azərbaycanın dünya miqyasında tanınmasına, ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasına çalışır. O, Azərbaycanın milli-mənəvi dəyərlərinin, mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının təbliği, diaspora hərəkatının genişləndirilməsi istiqamətində də bütün zəruri tədbirləri həyata keçirir.

* * *

Jurnalistlərdən birinin "Sizin üçün ən sevimli insan kimdir" sualına Heydər Əliyev qısaca cavab vermişdi: "Zərifə xanım".

İlham Əliyev müsahibələrindən birində Heydər Əliyevin öz nəvələrinə olan sevgisindən də söhbət açır:

"Yeri gəlmişkən deyim ki, baba balaca nəvəsini həddindən çox sevirdi. Ümumiyyətlə, o, bütün nəvələrini sevirdi. Demək olar, hər gün onlarla telefonla danışırdı. Nəvələri tez-tez ona baş çəkirdilər. Heydər Əliyev onların necə nəfəs aldıqlarını da çox yaxşı bilirdi. Onun nəvələri az deyil: üç mənim uşağım, üç də bacımın uşağı. Düzü, o biri uşaqlar bir az böyükdür, ona görə də baba əsas diqqətini mənim oğluma verirdi. Uşaq hər gün onu bizim adətimiz üzrə yola salırdı: arxasınca su atırdı. Balaca Heydər bu "vəzifəsi" ilə fəxr edirdi. Yeri gəlmişkən onu da deyim ki, mənim oğlum Azərbaycan və rus dillərini bərabər səviyyədə yaxşı bilir. Bizim evdə uşaqların hamısı ikidillidir.

Mehriban mənim böyük dayağımdır. Mən tamamilə əminəm ki, ailə, hər şeydən əvvəl, müttəfiqlikdir. Ailə, yəni kişi və qadın – iki adam oxşar həyat prinsip-

lərinə və mənəvi dəyərlərə malikdirlər. Buna görə mən düşünürəm ki, ailədə "radikal müxalifət" olmamalıdır. Bir çox məsələdə mənim fikrim Mehribanın baxışları ilə üst-üstə düşür. Biz təxminən oxşar ailələrdə böyümüşük. Biz Azərbaycanın ziyalı ailələrindənik, elə ailələrdən ki, keçən əsrin bütün çətinliklərinə baxmayaraq, öz ideallarına, mənəvi dəyərlərinə və milli ənənələrə olan inamını qoruyub saxlamışdılar. Belə köklərə malik olmaq – həqiqi xoşbəxtlikdir.

Qadın, o, hətta prezidentin həyat yoldaşı olsa da, qadın olaraq qalır. O, ailədə sakitliyin, harmoniyanın, məhəbbətin qarantıdır. Mənim üçün çox xoşdur ki, gərgin iş günündən sonra evə qayıdarkən məni başa düşürlər və mənə kömək edirlər".

Zərifə xanımın yüksək ailə vəzifəsini davam etdirmək Mehriban xanımın qismətinə düşüb və o öz vəzifəsinin öhdəsindən bacarıqla gəlir.

## İyirmi birinci fəsil

# BİR DÜNYA NUR ÇEŞMƏSİ

*Ana! Ana!.. O adın qarşısında bir qultək*
*Həmişə səcdədə olmaq mənə fəxarətdir;*
*Onun əliylə bəla bəhrinə yuvarlansam,*
*Yenə xəyal edərəm bəzmi-istirahətdir.*

Böyük Azərbaycan ədibi Cəfər Cabbarlının ana məhəbbətinin müqəddəsliyindən bəhs edən “Ana” şeiri anaya həsr olunmuş ən böyük himn, ən gözəl simfoniyadır.

Ana məhəbbəti Kainat qədər sonsuz, həyat qədər şirindir. Şifahi xalq ədəbiyyatımızda, folklor nümunələrimizdə, dastanlarımızda, bayatılarımızda, el nəğmələrimizdə ana obrazı olduqca müqəddəs bir varlıq kimi özünün geniş poetik əksini tapmışdır. Əfzələddin Xaqani anasının tərifini olduqca mənalı və təsirli qələmə alıb: “Əgər olmasaydı ana zəhməti, qazana bilməzdim heç bu şöhrəti”.

Azərbaycan atalar sözlərində ana haqqında deyilir: “Öz anasını sevməyən özgə anasını sevməz”. “Ata-anasına xeyri olmayanın elinə də xeyri olmaz”.

Mirzə Ələkbər Sabir də həmişə böyük ustalıqla təsdiqləyirdi ki, elmli ananın övladı kamil olar. Məhəmmədhüseyn Şəhriyar isə söyləyirdi ki, "...biz min aləmin yaradıcısı olsaq da, bizim hər birimizi ana yaratmış".

Hüseyn Cavid isə "anasız nəinki övlad, millət belə yetimdir" söyləmişdir.

XX əsrdə Türkiyənin modern şairi Can Yüceldən soruşmuşlar: "Niyə heç vaxt ananız haqqında heç nə yazmırsınız?"

Şair cavabında deyir: "Anama olan sevgimi yazacaq qədər şair deyiləm..."

Müasir Azərbaycan şairi Çingiz Əlioğlu isə görün nə deyir: "Bir ana borcunu qaytarmaq üçün taledən beş ömür alasan gərək..."

*Dünyanın paytaxtı ana qəlbidir,*
*Dünyanın ilk himni ana laylası.*

Ana haqqında danışanda, heç şübhəsiz, çoxumuzun yadına bəstəkar Cahangir Cahangirovun İslam Səfərlinin sözlərinə yazdığı və unudulmaz Rəşid Behbudovun ifasında həmişə ekrandan-efirdən eşitdiyimiz "Ana" mahnısı düşür:

*Gözümün nuru, canım ana,*
*Böyütdün sən məni yana-yana.*
*Odlusan gün kimi, bu qaynar həyat kimi,*
*Borcluyam mən sənə, sənə bir övlad kimi,*
*Əziz ana!*

...Və ilk ifaçısı dünya şöhrətli müğənni Müslüm Maqomayev olan başqa bir kövrək "Ana" mahnısı. Onu da qeyd edim ki, sözləri Azərbaycanın Xalq Şairi Fikrət Qocaya aid bu mahnının bəstəkarı Zərifə xanım Əliyevanın qızı Sevil xanım Əliyevadır.

*ANA*

*Əziz anam, şirin sözlü anam,*
*Qəlbin kövrək, eşqin solmaz bahar.*
*Gülər üzlü, qara qözlü anam.*
*Hara getsəm, gözün mənə baxar.*
*Ana, qəlbim bu laylalarla gəzər,*
*Doğma səsin ömrü gül bəzər.*
*Laylay dedin, ana, laylay dedin mənə,*
*Həyat verdin mənə, əziz ana.*
*Laylan hələ yaşar, laylan ellər aşar,*
*Günəş kimi yana-yana, ana.*
*Ana, səsin aydın səhər ola,*
*Ana, qəlbin keşik çəkər bizə.*
*Yolum üstə uzaq səfər ola,*
*İşıq dolar nurdan düşən gözə.*
*Mənim görən gözüm sənsən, ana,*
*Ömrüm-günüm özüm sənsən, ana.*
*Laylay dedin, ana, laylay dedin mənə,*
*Həyat verdin mənə, əziz ana.*
*Laylan hələ yaşar, laylan ellər aşar,*
*Günəş kimi yana-yana, ana.*
*Laylay dedin, ana, laylay dedin mənə,*
*Həyat verdin mənə, əziz ana.*
*Laylan hələ yaşar, laylan ellər aşar,*
*Günəş kimi yana-yana, ana.*
*Həyat verdin mənə, əziz ana.*
*Günəş kimi yana yana, ana.*

* * *

Klassik alman fəlsəfəsinin yaradıcılarından olan Hegel tarixi şəxsiyyətlərin xarizması haqqında belə yazırdı:

"Tarixi simalara fərdlərin maraqlarını, beləliklə, həm də ehtiraslarını təşkil edən ümumi cəhətlər baxımından yanaşmaq lazımdır. Onlar məhz ona görə böyük simalar sayılırlar ki, böyük, özü də təxəyyüldə canlandırılan və saxta işlər deyil, ədalətli və zəruri işlər görmək istəmiş və görmüşlər".

"Zərifə xanım Azərbaycana cənab İlham Əliyev kimi Prezident bəxş edən bir ana olaraq hər zaman tarixdə qalacaqdır. Ölkəmizin sürətli inkişafı, dünyadakı nüfuzu, möhtəşəm uğurları ilə fəxr edərkən Azərbaycan Prezidentinin bilik və bacarığının, qətiyyət və müdrikliyinin təməlində Ulu öndər Heydər Əliyevlə yanaşı, sözsüz ki, Zərifə xanımın da təsirini görürük". Bu sözləri Zərifə xanım Əliyevanın 90 illik yubileyində Azərbaycan Respublikasının Səhiyyə naziri **Oqtay Şirəliyev** söyləmişdir.

2013-cü ilin fevralında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinin keçirilməsi haqqında mühüm sərəncam imzaladı.

## AKADEMİK ZƏRİFƏ ƏLİYEVANIN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ilin aprel ayında Azərbaycanın görkəmli alimi, tibb elmləri doktoru, professor, Əməkdar Elm Xadimi, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın 90 illiyi tamam olur. Akademik Zərifə xanım Əliyeva respublikamızda tibb elminin inkişafına mühüm töhfələr verərək oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə böyük şöhrət qazanmışdır. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə tibb elminin inkişafında əvəzsiz xidmətləri olan akademik Zərifə Əliyevanın 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə akademik Zərifə Əliyevanın 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 fevral 2013-cü il***

* * *

2013-cü il aprelin 27-də Azərbaycan Dövlət Musiqili Komediya Teatrında görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edərək nitq söylədi:

– Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün yubiley tədbirində iştirak etmək üçün Azərbaycana gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmişsiniz.

Zərifə xanım Əliyeva böyük həkim, böyük alim idi. Onun 90 illik yubileyini dövlət səviyyəsində qeyd etmək üçün mən Prezident kimi müvafiq sərəncam imzalamışdım. Sərəncam əsasında müxtəlif tədbirlər keçirilmişdir. Bu tədbirlərin çox böyük mənası var idi. Çünki bu tədbirlərdə, elmi simpoziumlarda oftalmologiya elmində gedən proseslər bir daha təhlil edilmiş, çox dəyərli fikirlər səslənmiş və bu tədbirlər oftalmologiya sənətinə, oftalmologiya elminə yeni bir töhfə olmuşdur.

Zərifə xanım, sözün əsl mənasında, böyük həkim idi. O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir. Eyni zamanda, insanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir. Bu laboratoriyalarda bir tərəfdən insanların sağlamlığına zərərli istehsalların təsiri öyrənilmiş, eyni zamanda, xəstələrin müalicəsi də təşkil edilmişdir.

Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir.

Bir alim kimi Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir, eyni zamanda, Sovet İttifaqının oftalmologiya elmində ən yüksək mükafat olan Averbax mükafatına layiq görülmüşdür.

Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o, həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi və hər bir həkimdə bu iki amil birləşməlidir. Çünki həkim peşəkar olmalıdır, insanlara xidmət göstərməlidir. Eyni zamanda, həkim xeyirxah insan olmalıdır. Zərifə xanımın bu məsələlərlə bağlı da fikirləri, məqalələri var idi. Həkimin etik davranışı ilə bağlı onun çox dəyərli fikirləri olmuşdur. Hesab edirəm ki, bu fikirlər bu gün də hər bir həkim üçün əsas olmalıdır.

Zərifə xanım böyük lider, Ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər, əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni ailədə tərbiyəni valideynlərin münasibətlərini görərək alırdıq. Əlbəttə, 1970-ci illərdə – Heydər Əliyev Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının, əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin – birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi.

Bir daha demək istəyirəm ki, heç vaxt heç bir sözü, addımı ilə göstərmirdi ki, onun cəmiyyətdə hansısa xüsusi statusu vardır və bu da təbiidir, əslində, belə də ol-

malıdır. Ancaq biz bilirik ki, bir çox hallarda belə deyil və müəyyən statusa malik olan insanlar, yaxud da ki, onların yaxınları özləri üçün xüsusi imtiyazlar tələb edirlər. Zərifə xanımın bu sahədəki hərəkətləri, davranışı da nümunə olmalıdır. Zərifə xanım çox yüksək mədəniyyətə malik olan, çox istedadlı, bilikli insan idi. Nəinki öz peşəsində, eyni zamanda hərtərəfli istedadlı bir insan idi və bəziləri üçün o, necə deyərlər, son ümid yeri, ümid ünvanı idi. Hətta tanımadığı adamlar belə müxtəlif xahişlərlə, müxtəlif şikayətlərlə onun iş yerinə gəlirdilər. O çalışırdı ki, hər kəsə kömək göstərsin. Tanımadığı adamların xahişlərini gəlib atama çatdırırdı və o məsələlərin böyük əksəriyyəti öz həllini tapırdı. Yəni daim insanlara xidmət etmək, kömək göstərmək arzuları, amalları ilə yaşayırdı.

Əlbəttə ki, onun unudulmaz obrazı bu gün də mənim üçün çox əzizdir, doğmadır. Eyni zamanda, Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda, yüksək mədəniyyət, alicənablıq – bütün bu gözəl amillər onda birləşmişdi. Zərifə xanım əsl ziyalı idi, Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi, onları təcəssüm etdirirdi.

Bununla bərabər, çox istedadlı insan idi, hərtərəfli istedadlı idi, musiqini çox sevirdi, istənilən melodiyanı, istənilən mahnını notlarsız çox böyük məharətlə, ustalıqla pianoda ifa edə bilirdi. Teatrı çox sevirdi və yadımdadır ki, 1970-ci illərdə onunla bərabər dəfələrlə Azərbaycan teatrlarında olmuşam, bütün tamaşalara baxmışam. Elə tamaşalar var idi ki, biz o tamaşalara bir neçə dəfə bir yerdə baxırdıq.

Bu teatrı da çox sevirdi. O vaxt bu teatrın adı Musiqili Komediya Teatrı idi və demək olar ki, hər həftə bu teatra gəlirdik. Elə bir tamaşa yox idi ki, biz onu görməyək. Elə

tamaşalar da var idi ki, o tamaşaları bir neçə dəfə seyr edirdik. Bəlkə də, bu gün Zərifə xanımın yubileyinin məhz bu teatrda, yenidən əsaslı təmirdən çıxmış teatrda keçirilməsi də rəmzi xarakter daşıyır.

Hər bir insan üçün onun valideynləri, onun anası əzizdir, müqəddəsdir. Bu da təbiidir. Hər bir insan doğmalarını öz qəlbində yaşadır. Zərifə xanımın adı əbədiləşdirilib, onun adına küçə vardır. Onun yaşadığı küçə onun adını daşıyır. Onun böyük töhfəsi olan Oftalmologiya Mərkəzi onun adını daşıyır və Mərkəzlə üzbəüz onun abidəsi ucaldılıbdır. Əlbəttə ki, onun xatirəsi, onun obrazı onu tanıyanların qəlbində yaşayır. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur. Ancaq əfsuslar olsun ki, biz onu tez itirdik. Vaxtından əvvəl həyatdan getdi, hələ çox iş görə bilərdi.

Ancaq həyat belədir ki, heç kim deyə bilməz nə vaxt nə baş verəcəkdir.

Biz bu gün yubiley tədbirlərini keçirməklə bərabər, eyni zamanda, ölkəmizdə səhiyyə sahəsində aparılan işlərə bir daha nəzər salırıq. Xüsusilə nəzərə almalıyıq ki, bu gün bizim qonaqlarımızın arasında görkəmli alimlər, həkimlər iştirak edirlər. Son illər ərzində Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsi üçün böyük işlər görülmüşdür, islahatlar aparılmışdır. Səhiyyənin maddi-texniki bazası gözlənilməz dərəcədə möhkəmləndirilmişdir. Təkcə onu demək kifayətdir ki, son 10 ildə Azərbaycanda 500-dən çox tibb müəssisəsi tikilmiş və ya əsaslı şəkildə təmir edilmişdir. Həm Bakıda, həm bütün bölgələrdə indi lazımi tibb xidməti almaq üçün bütün şərait vardır. Bakıda bizim, demək olar ki, bütün əsas tibb ocaqları ya yenidən tikilmiş, ya da orada təmir-bərpa işləri aparılmışdır.

Oftalmologiya Mərkəzi yenidən tikilmişdir və dünya miqyaslı bir mərkəzdir. Onkologiya Mərkəzinin yeni

korpusları tikilmişdir. Uroloji xəstəxana yenidən qurulmuşdur – Neyrocərrahiyyə, Cərrahiyyə mərkəzləri, Perinatal Mərkəz, Talassemiya Mərkəzi, keçmiş "Semaşko" xəstəxanası, – indi kliniki xəstəxana adlandırılır, – Mərkəzi Kliniki Xəstəxana yenidən bərpa edilmişdir. Bu xəstəxananın yeni böyük korpusu tikilməkdədir. Uşaq xəstəxanaları əsaslı şəkildə təmir olunubdur. Yəni Bakıda son illər ərzində görülmüş işlər səhiyyənin maddi-texniki bazasını böyük dərəcədə gücləndirmişdir. Hazırda tikilməkdə olan Bakı Sağlamlıq Mərkəzi bir neçə böyük xəstəxananı birləşdirəcəkdir. Biz ilin sonuna qədər Bakı Sağlamlıq Mərkəzinin açılışını qeyd edəcəyik.

Eyni zamanda, bölgələrdə səhiyyə müəssisələrinin yaradılması, tikilməsi prosesi gedir. Hər bir şəhərdə ya diaqnostika mərkəzi, ya mərkəzi rayon xəstəxanası tikilib, yaxud da ki, təmir edilibdir. Hazırda yeddi şəhərdə təmir işləri gedir. Qarşıya vəzifə qoyulmuşdur ki, biz bir-iki il ərzində Azərbaycanda hər bir yaşayış məntəqəsində, hər bir şəhərdə, hər bir rayonda ən yüksək tibbi xidmətə nail olmalıyıq. Azərbaycana ən müasir avadanlıq gətirilir. Yəni dövlət öz tərəfindən lazımi işləri görür. Təkcə onu demək kifayətdir ki, son on il ərzində səhiyyə xərclərinə ayrılan vəsait 11 dəfə artmışdır. Həkimlərin maaşı 6 dəfə artmışdır. Halbuki bu gün də o maaşların səviyyəsi bizi qane edə bilməz. Bu məsələlərin gələcəkdə daha da səmərəli şəkildə həlli üçün indi hökumət işləyir. Yəni maaşlar daim qaldırılacaqdır. Ancaq biz bu dinamikanı görürük. Çox müsbət dinamikadır. Azərbaycanın ümumi inkişafına uyğun olan dinamikadır. Eyni zamanda biz burada dövlət siyasətinin təzahürlərini də əyani şəkildə görürük. Çünki bizim siyasətimizin mərkəzində, – bunu mən dəfələrlə demişəm, – insan amili, Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı sağlam olmalı-

dır. Gənc nəsil sağlam böyüməlidir. Bunu etmək üçün ilk növbədə yüksəksəviyyəli tibbi xidmət olmalıdır.

Biz indi iqtisadi cəhətdən güclənmişik. Yenə də deyirəm, siyasətimizin əsasında, mərkəzində Azərbaycan vətəndaşı dayandığı üçün biz maliyyə resursları cəlb etmişik. Ancaq təkcə maliyyə resurslarının cəlb edilməsi ilə iş bitmir. Eyni zamanda peşəkarlıq artmalıdır. Kadrların hazırlanması sahəsində daha da böyük işlər görülməlidir. Hazırda bu işlər inkişafdadır. Azərbaycan həkimlərinin bir qrupu xaricdə təlim keçir. Xaricdən gələn görkəmli mütəxəssislər, alimlər Azərbaycanda fəaliyyət göstərirlər. Yəni biz gələcəkdə bu işlərə daha da çox vəsait ayıracağıq ki, peşəkarlıq artsın, Azərbaycanda səhiyyənin nəinki maddi-texniki bazası, eyni zamanda səviyyəsi, ümumiyyətlə, dünya standartlarına cavab versin.

Hesab edirəm ki, buna nail olmaq üçün bizim bütün imkanlarımız vardır. Yenə də deyirəm, son illər ərzində Azərbaycanda uşaq ölümü kəskin şəkildə aşağı düşmüşdür. Statistik göstəricilər də, onların dinamikası da çox müsbətdir. Həkimlər yaxşı bilir, əfsuslar olsun ki, bütün dövrlərdə Azərbaycanda körpə ölümü yüksək idi, Sovet İttifaqı dövründə digər respublikalarla müqayisədə həmişə yüksək idi. İndi uşaq ölümü kəskin şəkildə azalmışdır. İnsanların ömrünün uzunluğu artır, bu da hər bir ölkənin ümumi inkişafını şərtləndirən bir amildir. Çox sevindirici haldır ki, bu proses də müsbət istiqamətdə gedir. Azərbaycanda əhali artır. Son on il ərzində Azərbaycanda əhalinin sayı bir milyondan çox artmışdır. Azərbaycanda əhalinin artım templəri Avropa qitəsində ən yüksəkdir.

Əlbəttə, bütün bu amillər tələb edir ki, səhiyyə sahəsində daha da ciddi islahatlar aparılmalıdır. Həm struktur islahatları aparılmalı, eyni zamanda, ilk növbədə peşəkarlıq artmalıdır. Əminəm ki, əgər biz bundan sonra

da bu templərlə inkişaf etsək, bu məsələlər də öz həllini tapacaqdır.

Azərbaycanda bu sahədə görülən işləri beynəlxalq təşkilatlar da qiymətləndirir. Bir müddət bundan əvvəl Bakıda Dünya Səhiyyə Təşkilatı Avropa Komitəsinin konfransı keçirilmişdir və orada qeyd edilmişdir ki, Azərbaycanda səhiyyə sisteminin təkmilləşdirilməsində çox böyük inkişaf və tərəqqi vardır.

Yəni bu, reallıqdır. Ancaq o da reallıqdır ki, hələ bəzi hallarda tibbi xidmət lazımi səviyyədə deyildir. Bəzi həkimlərin peşəkarlığı bizi qane edə bilməz və elə tibb müəssisələri var ki, orada əsaslı təmirə ehtiyac vardır. Ancaq əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda bütün bu məsələlər ardıcıllıqla və yüksək templə öz həllini tapır. Bu məsələlərin həlli, bir daha demək istəyirəm ki, dövlət siyasətimizin əlamətidir. Sosial məsələlərin həlli bizim üçün prioritetdir və həmişə prioritet olaraq qalacaqdır.

Bu gözəl yubiley bir daha imkan verir ki, biz bu məsələlərə toxunaq, fikirlərimizi bildirək və böyük ümidlərlə gələcəyə baxaq. Çünki gələcəkdə Azərbaycan hər bir istiqamət üzrə inkişaf etmiş ölkəyə çevrilməlidir.

Zərifə xanımın nurlu obrazı həmişə bizim ürəyimizdədir. Onu tanıyanlar və tanımayanlar, haqqında kitablarda, məqalələrdə oxuyanlar da, hesab edirəm ki, onun nurlu obrazını daim öz ürəyində saxlayır. Zərifə xanım böyük həkim, böyük alim, böyük insan idi. Onun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır. Sağ olun.

* * *

Azərbaycan Respublikasının Səhiyyə naziri Oqtay Şirəliyev yubiley mərasimində görkəmli alim və həkim, tibb elmləri doktoru, professor, Əməkdar Elm Xadimi,

akademik Zərifə Əziz qızı Əliyeva haqqında geniş nitqlə çıxış etmişdir.

Onun çıxışından iki fraqmenti diqqətə çatdırmaq istərdim:

**Birinci fraqment:**

"...Belə bir fikir vardır: əzmlə işləyən insanların günləri qısa, ömürləri uzun olur. Bu mənada Zərifə xanım Əliyevanı uzunömürlü hesab etmək olar. Onun elmi əsərləri, tədqiqatları, çoxsaylı kitabları yaşadığı 62 illik ömrünə sığmır. İşıqlı xatirəsi bu gün də insanların yaddaşında, təkcə yaxınlarının və həmkarlarının deyil, həm də gözlərinə rəngarəng dünyanın nurunu bağışladığı xəstələrinin qəlblərində yaşayır. Həyatda belə böyük sevgi qazanmaq, özündən sonra belə əziz duyğular, nurlu xatirələr qoyub getmək – belə xoşbəxtlik çox az adamın taleyinə yazılır.

Akademik Zərifə Əliyevanın ömür kitabında Azərbaycan naminə misilsiz xidmətləri olan görkəmli dövlət xadimlərinin taleyi yaşayır".

**İkinci fraqment:**

"Zərifə xanım əsl ziyalı qadın idi. Bu ziyalılıq bir tərəfdən onun biliyində və savadında, digər tərəfdən, simasındakı nurda, xasiyyətindəki təmkin və nəciblikdə özünü göstərirdi. Onun ən gözəl cəhətləri bəşəriyyətə və insanlara sevgisi, sevimli işinə hədsiz bağlılıq və ailəsinə vurğunluq idi...

Tale Zərifə xanıma onu sevən, ona dəyər verən, yolunda hər cür fədakarlığa hazır olan qüdrətli bir insanı – müasir müstəqil Azərbaycanın qurucusu, bütün ömrü boyu xalqına, vətəninə sədaqətlə xidmət etmiş Heydər Əliyevi bəxş etdi. Bu iki insanı bir-birinə təkcə sonsuz məhəbbət hissi bağlamırdı, onlar ruhən də çox yaxın idilər. Zərifə xanım Heydər Əliyev kimi bir dahi üçün təkcə sədaqətli ömür-gün yoldaşı olmamışdı, həm də

mənəvi dayağa, əsl dosta çevrilmişdi. Həyatının sonunadək onu qorumuşdu...

Ulu öndər Heydər Əliyevin düz 12 il əvvəl, 2001-ci il aprelin 28-də Zərifə xanımın xatirəsinə həsr olunmuş gecədə çox kövrəkliklə söylədiyi bir fikri xatırlatmaq istəyirəm: "...Mənim üçün o, birinci növbədə böyük bir insan idi. Zərifə xanım sədaqətli həyat yoldaşı, çox mehriban ana, mənim ailəmi, mənim uşaqlarımı, mənim nəvələrimi yaşadan, böyüdən bir fədakar insan kimi qəlbimdə yaşayır..."

....Bu gün bu mötəbər tədbirdə Zərifə xanımın ömür yoluna nəzər salarkən bir daha şahid olduq ki, o, əfsanəvi bir həyat yaşayıb. Çox təəssüf ki, taleyin Zərifə xanıma yazdığı ömür payı qısa oldu, o, müstəqil Azərbaycanı – sürətlə inkişaf edən, gələcəyə inamla baxan, gündən-günə gözəlləşən, müasirləşən vətənimizin bu gününü görmədi. Lakin qəlbimizdə bu təəssüflə yanaşı, bir inam da vardır: səhiyyəmizin tərəqqisi, tibb elmində qazanılan uğurlar görkəmli alimin xatirəsinə ucaldılan ən möhtəşəm abidədir. Əsl yaradıcılıq, əsl elm daimidir. Akademik Zərifə xanım Əliyevanın işıqlı obrazı heç zaman ürəklərdən silinməyəcəkdir".

* * *

Sonra Rusiya Tibb Elmləri Akademiyasının akademiki, tibb elmləri doktoru, professor, Diplomdan Sonrakı Tibbi Təhsil Akademiyasının rektoru **Larisa Moşetova** yubiley mərasimində çıxış edərək dedi:

– Çox hörmətli cənab Prezident!

Çox hörmətli ali mərasim iştirakçıları! Mən ilk növbədə belə ali məclisdə iştirak və çıxış etməyə dəvət olunduğuma görə minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun!

Akademik Zərifə Əliyeva! Bu ad tədbirdə iştirak edənlərə son dərəcə əzizdir və çox təəssüf ki, biz bu gün Zərifə xanımı yubiley münasibətilə təbrik edə bilmirik, yalnız onun haqqında xoş xatirələrimizi danışır, hörmət və ehtiramımızı bildiririk. XX əsrin böyük qadını, müdrik, savadlı, gözəl ziyalısı olan Zərifə xanım görkəmli oftalmoloq alim, bununla yanaşı, həm də sadə və çox ünsiyyətcil insan idi. Mən taleyimə minnətdaram ki, bəxtim gətirib, bu böyük qadınla ünsiyyətdə olmuşam və həyat yolumun müəyyən hissəsini onunla yanaşı keçmişəm. Zərifə xanımla tanışlığa qədər mən onun barəsində həmkarlarından və öz müəllimlərimdən xeyli xoş sözlər eşitmişəm. Sonralar Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunun və Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun iki kafedrasının rəhbərlərinin xoş münasibətləri bu iki kollektivin sıx dostluq etmələri üçün təməl oldu. Biz Bakıda birgə məşğələlər keçirirdik. Çox yaxşı yadımdadır, o vaxt mən gənc pedaqoq idim və çox həyəcanlanırdım. Çünki mühazirələrdə Azərbaycan kafedrasının zəngin təcrübəli pedaqoqları iştirak edirdilər və çox vaxt Zərifə xanım da gəlirdi. Amma özünün dövlət statusuna baxmayaraq, o, gənc pedaqoqlara münasibətdə son dərəcə diqqətli və xeyirxah idi. Biz Bakıda unudulmaz günlər keçirdik, gündən-günə yaxşılaşan bu gözəl şəhər haqqında çox şey öyrəndik.

Zərifə xanımla bilavasitə tanışlıq isə bizim gələcək elmi əməkdaşlığımızın bünövrəsini qoydu, birgə monoqrafiyalar dərc edildi, əcnəbi dillərə tərcümə olunan oftalmologiyanın, terapevtik oftalmologiyanın aktual məsələləri işıq üzü gördü. Zərifə xanım nəşrlərin keyfiyyətinə son dərəcə həssaslıqla yanaşırdı. Bu məsələdə Heydər Əliyev bizə çox kömək edirdi. Mən onlarla həmin kitablar üzərində işi başa çatdırmaq üçün Bakıya

gələndə görüşdüm. Bu, unudulmaz, xeyirxah və son dərəcə peşəkar görüşlər idi. Mənim yadımda Zərifə xanımın Helmqolts adına Göz Xəstəlikləri İnstitutunda Oftalmoloqların Moskva Elmi Cəmiyyətində çıxışı qalıb. O, gənclərin hazırlığı və tərbiyəsi haqqında çıxış edirdi. Bu, siyasi xadimin, pedaqoqun, müdrik ziyalının çıxışı idi və biz hamımız – gənclər də, zəngin təcrübəli pedaqoqlar və alimlər də nitqin gözəlliyinə, məruzənin dərin məzmununa və ifadə tərzinin səlisliyinə heyran qalmışdıq.

Təəssüf ki, Zərifə xanımın ömür yolu çox qısa oldu, yaddaşımızda onunla vidalaşmanın kədərli günləri qaldı. İllər keçdi, lakin Azərbaycan və Rusiya oftalmoloqlarının xoş münasibətləri yeni keyfiyyət kəsb etdi. Hazırda elmi kadrlar birgə hazırlanır, elmi konfranslar, praktik məsləhətləşmələr keçirilir. Elə dünən keçirilmiş gözəl konfrans buna nümunə ola bilər. Azərbaycanın Həkimləri Təkmilləşdirmə İnstitutu, həqiqətən, elmi, praktik həkim kadrlarının hazırlanması üzrə böyük məktəbə çevrilib. Bu gözəl instituta daxil olarkən özünü saraydakı kimi hiss edirsən. Bizim Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutu isə artıq akademiyaya çevrilib. Həmin akademiyanın rektoru və Oftalmologiya kafedrasının müdiri kimi mən münasibətlərimizin tarixinə çox doğma yanaşır və onları maksimum dərəcədə inkişaf etdirməyə çalışıram.

Larisa Moşetova iki təhsil müəssisəsi arasında əməkdaşlıq haqqında müqavilənin imzalandığını qeyd edərək bu sənədin gələcək əlaqələr, MDB Ölkələri Həkimləri Təkmilləşdirmə İnstitutları Assosiasiyasının yaradılmasına əsas ola biləcəyini dedi. Larisa Moşetova Zərifə xanım Əliyevanın diplomdan sonrakı tibbi təhsilə verdiyi önəmi diqqətə çatdıraraq dedi:

– Tibbi kadrların hazırlanması sahəsində əməkdaşlığımız, – mən tamamilə əminəm ki, təbabət sərhədsizdir,

– hansı dildə danışmalarından asılı olmayaraq, – bizim bütün pasiyentlərimiz üçün, yəqin ki, çox faydalı olardı. Əlbəttə, çox təəssüf ki, bütün bunları mənə çox əziz olan iki insan – nə Zərifə xanım, nə də Heydər Əliyev görmürlər. Mən onlara minnətdaram. Bu böyük şəxsiyyətlərlə ünsiyyətdə olmaq xoşbəxtliyinə görə çox sağ olsunlar, hazırda həyatda olanların vəzifəsi onları yadda saxlamaq və xatirələrini gələcək nəslə çatdırmaqdır. Mən Azərbaycan xalqına və sizə, Azərbaycan Prezidenti İlham Əliyevə yeni uğurlar, tərəqqi və bir səhiyyə işçisi kimi cansağlığı arzulayıram. Çox sağ olun!

* * *

Yubiley mərasimində Rusiya Elimlər Akademiyasının akademiki, Rusiya Federasiyasının Əməkdar Elm Xadimi, professor Alevtina Fyodorovna Brovkina öz çıxışında Zərifə xanım Əliyevanın daxilən çox ziyalı insan olduğunu qeyd edərək onun təvazökarlığını xüsusi vurğuladı, Zərifə xanımın insanlarla çox gözəl, səmimi ünsiyyət qurduğunu, qayğıkeş ana, təəssübkeş olduğunu bildirdi:

– İlham Heydər oğlu, burada Sizin və ailənizin ünvanına çox xoş sözlər deyildi. Ümumiyyətlə, mən hesab edirəm ki, Siz çox xoşbəxt insansınız, çünki Sizin bu cür ananız və atanız olmuşdur. Sağ olun.

* * *

Türkdilli Ölkələrin Oftalmologiya Cəmiyyətinin sədri xanım **Sunay Duman** yubiley mərasimində çıxış edərək dedi:

– Hörmətli Prezident.

Hökumətin hörmətli üzvləri.

Dəyərli qonaqlar, hörmətli xanımlar və cənablar, əziz həmkarlarım.

Sizə, dost və qardaş Azərbaycan xalqına ölkəmin ən səmimi duyğularını, sevgilərini, salamlarını çatdıraraq çıxışıma başlamaq və məni bu toplantıya dəvət etdiyinizə görə təşəkkürlərimi bildirmək istəyirəm.

Akademik Zərifə Əliyevanın adının niyə bir çox müəssisəyə verildiyi, xatirəsinə hər il nə üçün beynəlxalq yubiley tədbirləri keçirildiyi, xalqının onu niyə bu qədər sevib millətinin anası qəbul etdiyi onun həyat hekayəsindəki yaşadıqlarındadır.

Zərifə xanım hələ orta məktəbdə oxuyarkən traxomadan əziyyət çəkən insanların iztirabını hiss edir və onun öhdəsindən gəlməyi qarşısına məqsəd qoyur. Tibb İnstitutunu müvəffəqiyyətlə bitirir. Məzun olduqdan sonra yalnız xəstəxanada çalışmır, respublikanın ən ucqar yerlərinə qədər gedib traxomanın öhdəsindən gəlmək üçün bir sıra araşdırmalar aparır və nəticədə bu xəstəliyə qalib gəlməyi bacarır.

Bununla yanaşı, Zərifə xanım sənaye müəssisələrində zərərli amillərin insan gözlərinə təsiri ilə də məşğul olur. Bu sahədəki uğurlu işləri nəticəsində Averbax mükafatı ilə təltif edilir. Bu mövzuda yazdığı elmi əsərləri ona böyük nüfuz qazandırır və 1983-cü ildə akademik seçilir.

Sizdə də, bizdə də istifadə edilən belə bir atalar sözü vardır: yuvanı quran ana quşdur, ya da hər bacarıqlı kişinin arxasında bacarıqlı bir qadın vardır. Atatürk “Qadının ən böyük dühası dünyaya övlad gətirmək və böyütməkdir” – demişdir.

Böyük zəka və düha sahibi olan Zərifə xanım da analıq vəzifəsini ən yüksək səviyyədə yerinə yetirmiş, övladları ilə dost olmuş, istedadlı gəncliyin yetişməsinə çalışmış, onlarla elm xadimi yetişdirmişdir.

Təvazökarlığı və xalqına qucaq açması ilə vətənin anası olmuş, könüllərdə taxt qurmuş Zərifə Əliyeva 62

illik qısa ömrünə elə şeylər sığdırmışdır ki, heyranlıq duymamaq mümkün deyildir. Vəfatından bu yana 28 il keçməsinə baxmayaraq, Azərbaycan xalqını Zərifə Əliyevanın xatirəsinə göstərdiyi qədirbilənliyə görə ürəkdən təbrik edirəm. Qəbri nurla dolsun.

Təəssüf ki, Zərifə xanım ilə tanış ola bilmədik. Ancaq böyük dövlət xadimi, möhtərəm Heydər Əliyev ilə 2000-ci ildə tanış olduğum üçün özümü çox şanslı sayıram. Mərkəzi Klinik Xəstəxananın açılışında, çox soyuq bir havada hörmətli Prezidentin sevgiyə, hörmətə, etimada çağıran, qəlbləri isidən, insanları coşduran bir saatdan çox çıxışında tez-tez təkrarladığı "bir millət, iki dövlət" kəlamı hələ də qulaqlarımdadır. Bu kəlam dostluq və qardaşlığımızın ən gözəl ifadəsidir. Hörmətli sabiq Prezidentin ruhu şad olsun.

Azərbaycan Prezidenti İlham Əliyevin elmin inkişafına, elm adamlarına yüksək qayğı göstərdiyini vurğulayan Sunay Duman Heydər Əliyev Fondunun gördüyü işlərin dünyada böyük maraq doğurduğunu bildirərək dedi:

– Həmkarımız Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi xidmətləri dünyada izlənməkdə və çox təqdir qazanmaqdadır. Fondun dəstəyi ilə Milli Oftalmologiya Mərkəzinin səyyar klinikasının fəaliyyəti ilə Zərifə Əliyevanın arzuları gerçəkliyə çevrilmişdir. Hazırda Milli Oftalmologiya Mərkəzi Cənubi Qafqazın ən böyük müayinə, müalicə və müasir cərrahiyyə mərkəzidir.

Son on ildə Azərbaycan oftalmologiya sahəsində dünya ilə inteqrasiya istiqamətində ciddi addımlar atmışdır. Azərbaycanda rezidentura təhsilinin 3-4 ilə çatdırılması və təhsili Tibb Universiteti ilə Milli Oftalmologiya Mərkəzinin verməsi çox sevindirici haldır. Beləliklə də Azərbaycan dünya ilə paralelliyi təmin etmişdir.

Azərbaycan ilə Türkiyə arasında qardaşlıq münasibətlərinə toxunan Sunay Duman əlaqələrimizin təməlində fədakarlıq, qarşılıqlı dəstək və vətənpərvərlik hisslərinin durduğunu vurğulayaraq bildirdi:

– Biz bir millət, iki dövlətik. Xocalı qətliamı bizim də içimizi yandırır. Dağlıq Qarabağ münaqişəsi ortaq problemimizdir. Türkiyə türk dünyasının ürəyi, Azərbaycan bu ürəyin şah damarıdır. Ulu öndər Atatürkün dediyi kimi, Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir. Dünən belə idi, bu gün də belədir, sabah da belə olacaqdır. Yaşasın Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı. Hamınıza təşəkkür edirəm.

...Həmin gün görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın 90 illik yubileyi münasibətilə Azərbaycan incəsənət ustalarının iştirakı ilə konsert proqramı təqdim olundu.

Yubiley mərasiminin yekunu olaraq sonda Prezident İlham Əliyev akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinin əks olunduğu fotosərgiyə baxdı.

## İyirmi ikinci fəsil

# NUR HEYKƏLİ

*Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən –*
*həyatın məqsədi məhz budur.*
*C.Məmmədquluzadə*

*Elə şəxsiyyətlər var ki, onların ömür yolu haqqında söhbət açarkən istər-istəməz hansısa tarixi dövrün, müəyyən ənənələrin formalaşması prosesinin də salnaməçisinə çevrilmiş olursan.*

Əsas niyyətim Zərifə xanım Əliyeva haqqında düşüncələrimi qarşımdakı ağ vərəqlərə köçürməkdir.

*Bu gün bu böyük insanın – azərbaycanlı xanımın əbədiyyətə qovuşmasından tam 30 il ötür...*

*Yazımın baş qəhrəmanı da odur...*

*Dünya oftalmologiya elminin parlaq simalarından olan Azərbaycan alimi, tibb elmləri doktoru, akademik...*

Şəfalı əlləri ilə yüzlərlə xəstənin gözlərindəki zülməti qovub, onlara işıq bəxş etmiş loğman...

*Azərbaycan tarixində adı hər zaman rəğbətlə xatırlanan bir kişinin – Əziz Əliyevin övladı...*

*Azərbaycan xalqının Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı...*

*Dünyaya xeyirli övlad bəxş etmiş, dövlətinin və xalqının qüruruna çevrilən bir oğul yetişdirmiş fədakar, qayğıkeş ana...*

*Bütün bunlarla yanaşı, həm də Azərbaycanda qadın fəallığı ənənələrinin parlaq təmsilçisi, bu ənənəni formalaşdıran unudulmaz qadın liderlərimizdən biri...*

* * *

*Adətən, Azərbaycanda qadın fəallığı ənənələrindən söhbət düşərkən tarixin yaxın-uzaq dönəmlərinə nəzər salırıq. O dönəmlərdə qəhrəmanlıqları, sözü, ictimai-siyasi mövqeyi və yaradıcılığı ilə tarixdə özünə əbədi yer tutmuş zəriflərimizi xatırlayırıq.*

*Bu ənənələr bizim üçün Tomrisdən, Məhsəti Gəncəvidən, Sara xatundan, Tuti Bikədən, epos təfəkkürümüzün zərif çiçəkləri olan Banu Çiçəkdən, Nigardan, Həcərdən başlanır.*

İbtidai dövrlərdən Azərbaycan ictimai düşüncəsində qadına olan münasibət Ana Kitabımız – "Kitabi-Dədə Qorqud" dastanlarından süzülüb gələn və dəyərli sənətkarımız Yalçın Rzazadənin azacıq improvizələrlə hər oxusunda qəlbimi riqqətlə dolduran sevgi, vəfa, inam ətirli misralardan boy göstərir:

*Bəri gəlgil, başım baxtı, evim taxtı,*
*Evdən çıxıb yürüyəndə sərvi boylum!*
*Topuğunda sarmaşanda qara saçlım!*
*Qurulu yaya bənzər çatma qaşlım!*
*Qoşa badam sığmayan dar ağızlım!*
*Küz almasına bənzər al yanaqlım!*
*Qadınım, dirəyim, döləyim!*

*Qadının mənəvi dünyamızdakı ucalığı öz igid aşiqi üçün canını belə əsirgəməyən türk xatunlarının sevgi ucalığında qərarlaşır.*

*Bu motivlər epik təfəkkürümüzdə norma kimi sabitləşəndən hələ əsrlər keçəndən sonra da, indi inkişaf etmiş Qərb dünyası kimi qəbul etdiyimiz cəmiyyətlərin orta çağlarında on minlərlə qadın cadugərlik ittihamı ilə inkivizisiyanın tonqallarında yandırılırdı.*

*Amma gəlin bir reallığı da etiraf edək: cəmiyyətimizdə qadın fəallığı ənənələri nə qədər güclü, qadının ictimai təfəkkürdəki məqamı nə qədər uca idisə də, biz bu ənənələrin gücünü XX əsrin əvvəllərinə qədər qoruyub saxlaya bilməmişdik. Yaxud bu ənənələri daha da inkişaf etdirməyə müvəffəq olmamışdıq.*

*Yad mədəniyyətlərin təsiri ilə din, İslam ehkamları altında, əslində, cəhalətin, nadanlığın diktəsi ilə Azərbaycan qadınının həyatı başındakı qara çarşabın rənginə bürünmüşdü. Qızlarımız təhsildən uzaq düşmüşdülər, xurafatın, geriliyin əsirinə çevrilmişdilər.*

*Dastanlarımızın qəhrəman səviyyəsinə yüksəltdiyi, kişilərlə birgə döyüş meydanlarında cəngə girişib at çapan, qılınc vuran Azərbaycan qadını XX əsrin əvvəllərində böyük Sabirin əsərlərindəki Fatma, Tükəzban obrazlarının səviyyəsinə, əslində isə, həyatın dibinə enmişdi.*

*Ona görə də cəmiyyətin düşünən insanları Azərbaycan qadınını bu ictimai bataqlıqdan çıxarmaq üçün yollar axtarırdılar. Azərbaycanın mərkəzi şəhərlərində qız məktəbləri açılırdı. Hacı Zeynalabdin Tağıyev kimi vətənpərvər mesenatlarımız bu cür təşəbbüslərin uğur qazanması, qız balalarımızın oxumaları üçün maddi və mənəvi dəstəklərini əsirgəmirdilər. Əli qələmli müsəlman ziyalıları qəzetlərdə dərc etdirdikləri yazılarda ictimai diqqəti qadınlarımızın vəziyyətinə yönəldirdilər. Onların ictimai fəallığının artırılmasından ötrü qeyrət göstərirdilər.*

*Elə Azərbaycan Xalq Cümhuriyyəti dövründə müsəlman Şərqində ilk dəfə olaraq qadınlara səsvermə hüququnun verilməsi də o cümhuriyyəti qurub yaratmış mütəfəkkir kişiləri-*

*mizin narahat vicdanının diktəsi, uzun illər ərzində bu yolda göstərilən çabaların nəticəsi idi.*

*Qarşıya qoyulmuş məqsəd bütün bunlardan sonra cəmi bir neçə gün və ya ay, il içində əldə edilməyəcəkdi. Bunun üçün bir neçə onilin tamamını gözləmək lazım gələcəkdi.*

*Və bir neçə onildən sonra Azərbaycan ictimai mühitində Zərifə xanım Əliyeva kimi qadın liderlərimizin görünməsi xalqın düşünən zəka sahiblərinin o illərdəki nəcib əməllərinin xoş bəhrəsi idi.*

* * *

*Həmişə bu fikirdə olmuşam ki, istənilən bir insanın həyat uğurlarında onun aldığı ilk tərbiyə ən mühüm amildir.*

*Azərbaycanın görkəmli yazıçı və maarifpərvəri Məhəmməd Tağı Sidqinin bir fikrini müxtəlif çevrələrdə tez-tez yada salmaqdan usanmıram. Düşünürəm ki, bu məqamda xatırlamağımda da fayda var. O yazırdı ki, bir insanın xoşbəxtliyi dörd əsasdan ibarətdir: təmiz nəsil, saf ürək, təmiz əllər və niyyətin dürüstlüyü.*

*Məncə, digər üç keyfiyyət də elə təmiz nəsildən gəlir. İnsanın mənəvi kökləri sağlam olanda onun qəlbi saf, əlləri təmiz, niyyəti dürüst olur.*

*Bu mənada Zərifə xanım Əliyeva, əslində, çox xoşbəxt bir insan idi...*

*O, Əziz Əbdülkərim oğlu Əliyevin ailəsində dünyaya gəlmişdi. Daxili azadlığı, Azərbaycan sevdası, ləyaqəti, comərdliyi, nəcibliyi ilə cümhuriyyətdən sonrakı milli ziyalılığımızın zirvəsində qərar tutan bir kişinin qızı idi.*

Əziz Əliyev öz sələfləri N.Nərimanov, S.Əfəndiyev, T.Musabəyov, T.İsrafilbəyov, T.Şahbazi, T.Vəkilov və başqaları kimi fədakar mücahid və maarifçilərin şanlı ənənələrini davam etdirən ziyalılarımızdan sayılırdı. O, Azərbaycanda ilk səhiyyə ocağının qurucularından idi.

Ömrünün müxtəlif dönəmlərində üzləşdiyi məhrumiyyətlərə, təzyiq və təhdidlərə rəğmən Əziz Əliyev həm insanlara şəfa bəxş edən tanınmış həkim, həm də görkəmli ictimai-siyasi xadim kimi həyatda çox uğurlar qazanmışdı.

*Və onun həyatı boyu əldə etdiyi ən böyük uğurlardan biri də nümunəvi ailəsi, ömür-gün yoldaşı Leyla xanımla birgə ailəsində böyütdüyü övladlar Ləzifə, Dilbər, Zərifə, Gülarə, Tamerlan və Cəmil idi. Həkimlik sənətinə könül vermiş iki qardaşı və bir bacısı kimi Zərifə xanım Əliyeva da atasının yolunu davam etdirməyi qərara almışdı.*

* * *

*Valideynlərinin mənəvi dünyasından, böyüyüb boya-başa çatdıqları ailə ocağından gələn nəciblik, kübarlıq, insanlara sevgi, şəfqət hissi bu ocaqdan çıxmış övladları bir ömür boyu müşayiət edən ali keyfiyyətlər idi.*

*"Sizlərdən yaxşılıq edənlər, saleh əməl sahibi olanlar və günahlardan çəkinənlər, həqiqətən, nicat tapanlardır" – bu, müqəddəs Qurani-Kərimin təlqinidir.*

*Zərifə xanım Əliyeva da aid olduğu bütün sahələrdə – həm praktik həkimlik fəaliyyətində, həm elmdə, həm də ictimai fəaliyyətində, insanlarla münasibətlərində öz şəxsiyyəti ilə saleh əməllər sahibinin gerçək portretini yaradırdı.*

* * *

*Həyat onun qismətinə xalqının milli dövlətçilik tarixində müstəsna xidmətləri olan tarixi şəxsiyyətin – Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin ömür-gün yoldaşı olmaq taleyini yazacaqdı...*

Öz parlaq həyatını bölüşdüyü şəxsin uğurlarında onun da əməyinin, istedadının, ürək atəşinin bir zərrəsi, qığılcımı parlayacaqdı.

*Heydər Əliyev kimi tarixi şəxsiyyətin həyat yoldaşı timsalında tale yolları boyunca onunla birgə addımlamaq, Ulu öndərin yüksəlişinə mənəvi dəstək vermək, bəlkə də, Zərifə xanım üçün həyatın o qədər də asan olmayan bir sınağı idi.*

*Heydər Əliyevlə Zərifə xanım Əliyevanın qurduqları ailə ocağı saf sevgiyə, sarsılmaz sədaqətə əsaslanırdı. Bu sevgi taleyin və tarixin sərt imtahanlarından keçmişdi.*

*Müasir gəncliyə də örnək olası bu məhəbbətin maraqlı tarixçəsi haqqında çox mənbələrdən oxumuşuq. Heydər Əliyevin ömrünün gənclik çağlarına həsr olunmuş "Əsl məhəbbət haqqında" sənədli filmində Ulu öndərin riqqətli etirafını da eşitmişik: "Mən onu, həqiqətən, sevirdim. Onun da məni sevdiyini hiss edirdim. Belə fikirləşirəm ki, bizim bir-birimizə məhəbbətimizin köklərinin nə qədər dərin olduğunu sübut etməyə ehtiyac yoxdur".*

*Repressiya rejiminin qüdrətli və nüfuzlu əlaltılarından olan Mir Cəfər Bağırovun Əziz Əliyev şəxsiyyətinə qısqanc münasibətini və bu üzdən müxtəlif illərdə ona qarşı bitmək bilməyən təzyiqləri nəzərə alaraq xüsusi xidmət orqanlarının perspektivli gənc zabitini bu sevdadan çəkindirməyə çalışanlar da tapılacaqdı...*

*Və Əziz Əliyevin öz ailə üzvləri ilə birgə Azərbaycandan sürgün edilməsinin an məsələsi olduğu 1953-cü ilin lap əvvəlində hətta Heydər Əliyevin bu münasibətlərə görə xüsusi xidmət orqanlarında qalıb işləməsi sual altına düşəcəkdi...*

*Amma nə olursa-olsun, Heydər Əliyev gələcək həyatını Zərifəsiz təsəvvür etmirdi və öz sevgisi uğrunda ən təhlükəli sınaqlara belə hazır idi.*

İllər sonra Ulu öndər xatırlayacaqdı: "Bilirsiniz necə fikirləşirdim. Mən DTK-da işləyirdim, bilirdim ki, onun atasının ətrafında nələr baş verir, onu necə izləyirlər. Mən bilirdim, eşitmişdim ki, onların ailəsini Qazaxıstana sürgün etmək istəyirlər. Mən fikirləşirdim ki, əgər onları

sürgün etsələr, mən də Zərifənin ardınca Qazaxıstana gedəcəyəm. Orada iş tapmaq, bəlkə, buradan da asan oldu".

*Amma onların qovuşmağı, birgə həyatı taleyin qədəri idi və tarixin təlatümləri, insanların təshih cəhdləri bu qədəri dəyişə bilməzdi.*

* * *

*Peşə, elmi fəaliyyət, insani münasibətlər, ailə...*

*Ayrı-ayrılıqda bunların hər birində böyük uğurlara çatmış insanlar var. Amma bir insanın bunların hər birinə eyni dərəcədə nail olması yalnız taleyin xoş bir bəxşişidir. Etiraf edin ki, bu, çox az adama nəsib olan bir səadətdir.*

Öz sənətində qibtəediləsi uğurlara çatmış, amma xarakterindəki naqisliklər, ziddiyyətlər haqqında tez-tez eşitdiyimiz nə qədər insan tanıyırıq?!

*Yaxud da bunun əksi, öz şəxsi keyfiyyətləri ilə hamının rəğbətini qazanan, amma peşəsində, sənətində, lap elə yaradıcılığında da yarımçıq olan nə qədər adamlar var.*

*Bunların hər ikisinə nail olmuş, lakin ailə həyatında uğursuzluqla üzləşmiş insanlar da, əfsus ki, az deyil. Görünür, həyat belə məsələlərdə insanlarla çox xəsis davranır.*

*Amma həyat, tale ilahəsi Zərifə xanım Əliyevadan öz səxavətini əsirgəməmişdi. O, çox az şəxsiyyətlərdən idi ki, insanlarla münasibətləri də, ailə ocağının hərarəti də, elmdə, həkimlik fəaliyyətindəki uğurları da harmoniya təşkil edirdi, tam idi.*

*Və bu tamlığı təmin edən Zərifə xanım Əliyevanın özünün bütöv şəxsiyyəti idi.*

*Tanrı Zərifə xanım Əliyevaya misilsiz nəciblik, zəriflik bəxş etmişdi. Ünsiyyətdə olduğu hər bir xəstənin, onun şəfalı əllərinə ehtiyacı olan hər bir şəxsin ürəyinə yol tapa bilirdi.*

*Xarakterindəki yüksək ali keyfiyyətlər, ətrafındakılara mənəvi təsir gücü ona insanların böyük rəğbətini qazandırmışdı.*

*Ona hamı böyük rəğbətlə yanaşır, sözünə, mövqeyinə böyük dəyər verirdi. Zərifə xanım bundan heç zaman sui-istifadə etməzdi, təkəbbürü, qeyri-təvazökarlığı özünə yaxın buraxmazdı, ətrafdakı hər kəsin şəxsiyyətinə, mövqeyinə böyük hörmətlə yanaşardı.*

*Zərifə xanım üçün ən böyük dəyər, həyatın mənası başqalarına lazım olduğunu, insanların onun köməyinə ehtiyac duyduqlarını hiss etdiyi məqamlar idi. O həmişə deyərdi ki, xəstələr həkimin yanına ümidlə gəlib ondan yardım istəyəndə hiss edirsən ki, sən insanlara nə qədər lazımsan.*

* * *

*Tanıyanlar öz xatirələrində onu dünyanın ən təvazökar qadını kimi yada salırlar. Geniş qəlbi, sadəliyi, insanlara sevgi dolu şəfqətli baxışları onun ən böyük zinəti idi.*

Şəfa üçün ona pənah gətirən xəstələrin çoxu Zərifə xanım Əliyevanın Azərbaycanın birinci şəxsinin həyat yoldaşı olduğunu bilmirdi. Özü də heç zaman bunu nəzərə çarpdırmazdı. Bütün insanlar onu, hər şeydən əvvəl, bir şəxsiyyət kimi sevir, hörmətini tuturdular. O, son dərəcə alicənab bir qadın idi. Tərifdən zəhləsi gedər, kiməsə boşboğazlıq, yaltaqlıq fürsəti verməzdi. Bir çoxları onun nəzakətli davranışlarından nümunə götürərdilər.

*Zərifə xanımın kabineti həm xəstələrin, həm də hər hansı problemin həllində onun şəxsi nüfuzuna güvənən insanların ümid ünvanı idi. Zərifə xanım ziyarətçilərinin heç birini ümidsiz və yardımsız yola salmazdı, adamlar arasında sosial status fərqi qoymazdı. Bu böyük şəxsiyyətin kabinetinin qapısı hər kəsin üzünə açıq idi.*

*Onun insanlara çox böyük məhəbbəti vardı. Bu, qəlbin genişliyindən, səxavətindən, müdrikliyindən irəli gəlirdi.*

* * *

*Zəmanəsinin görkəmli oftalmoloq-alimlərindən biri kimi Zərifə xanım Əliyeva öz tədqiqat sahəsində fundamental əsərlərin müəllifi idi. Onun elmi irsi, nailiyyətləri, pedaqoji təcrübəsi bu gün də tədqiqatçılar üçün böyük maraq doğurur və müasir tibdə tətbiq olunur.*

*Zərifə xanım Əliyeva üçün elm də, praktik həkimlik də bir könül işi idi. O öz peşəsini ürəkdən sevirdi. Elmi axtarışlardan, tədqiqatçıların nəzər-diqqətini nisbətən az cəlb etmiş, daha doğrusu, çətinliyinə görə onları yayındırmış müxtəlif istiqamətlər üzrə elmi araşdırmaların aparılmasından böyük mənəvi zövq alırdı.*

*O, oftalmologiyada yeni, çətin və az tədqiq olunmuş bir sahəni seçmişdi və bu sahənin inkişafına öz töhfələrini vermişdi. Həyatda da, elmdə də Zərifə xanım öz yolu ilə addımlamağı sevərdi və yaşadığı ömür nümunəsi, həyat və fəaliyyəti ilə təlqin etdiyi dəyərlər bu yolda Zərifə xanımın ardıcıllarını yetişdirirdi.*

*Respublika Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri vəzifəsində çalışarkən o öz tələbələrinə böyük məhəbbətlə elmin incəliklərini öyrədir, gənc oftalmoloq alimlərin yetişməsinə ömür sərf edirdi. Tələbələrinin mehriban, qayğıkeş hamisi idi Zərifə xanım. Yetirməsi olan gənclər onu ana gözündə görürdülər.*

*Onun öz mənəvi övladlarına ən mühüm tövsiyəsi isə harada olurlarsa-olsunlar, səmimiyyət hissini qorumaqları, həyatda da, elmi fəaliyyətdə də səmimi olmaları, çətinliklərdən, həyatın sınaqlarından çəkinməmələri idi.*

* * *

*Zərifə xanım Əliyevanın elmi fəaliyyəti bütün sovet məkanında yüksək qiymətləndirilirdi. Təsadüfi deyil ki, o dövr üçün oftalmologiya sahəsində T.İ.Averbax adına ən yüksək mükafat məhz Zərifə Əliyevaya verilmişdi.*

Ötən əsrin 70-80-ci illərində Zərifə Əliyevanın təşəbbüsü ilə bir sıra sənaye müəssisələrində elmi-tədqiqat

laboratoriyaları yaradılmışdı. Bu laboratoriyaların təşkilində əsas məqsəd zərərli istehsal prosesinin insanların görmə qabiliyyətinə təsirinin tədqiqi idi.

*Həmin sənaye müəssisələrində çalışan insanlar bu laboratoriyalarda peşəkar tibbi yardım alır, Zərifə xanımın təməlini qoyduğu bu nəcib iş minlərlə insanın gözünə işıq verirdi.*

* * *

*O, əsas fəaliyyət istiqaməti olan oftalmologiya ilə yanaşı, həkim etikası, kadrların təkcə professional baxımdan yox, mənəvi baxımdan da tərbiyə edilməsi məsələlərinə ciddi diqqət yetirirdi.*

*Elmi dünyagörüşlərini mümkün qədər genişləndirmək Zərifə xanımın gənc həkimlərə, öz tələbələrinə ən mühüm tövsiyələrindən idi. O, gənclərə peşə maraqları dairəsində qapanıb qalmamağı, dar bir çərçivənin mütəxəssisi olmamağı təlqin edirdi. İnsanların həyat və sağlamlığı uğrunda mübarizə aparmaqdan ötrü hər bir insana sevgi göstərmək, onları başa düşmək qəhrəmanımızın gənc nəslə daimi nəsihəti idi.*

*Həkim və xəstə münasibətlərində ortaya çıxan problemlər onu həmişə narahat edirdi.*

*Bu narahatlıqlar günümüz üçün xüsusilə aktualdır.*

*Tibb sahəsində də informasiya texnologiyalarının fantastik inkişafı, səhiyyə sahəsində tətbiq olunan innovasiyalar, yeni aparat və cihazların ixtirası müxtəlif profilli həkim, texnik və laborantlar mühitini formalaşdırır.*

*Bütün bunlar çox yaxşıdır, tibb sahəsində texniki yeniliklər müayinənin, diaqnozun dəqiqliyinə, müalicənin düzgün təyin olunmasına çox kömək göstərir. Amma bunun təəssüf doğuran məqamlarını da izləməkdəyik. Texnologiyalar inkişaf etdikcə insanın peşəkarlığı geriləyir. Texnikanın gücünə arxayınlıq insanın peşəkar vərdişlərini korşaldır.*

*Bir zamanlar xəstənin çöhrəsinin rənginə, gözlərinin ifadəsinə, əllərinin hərəkətinə baxan kimi onun canındakı mərəzi*

*üzə çıxaran, ibtidai alətlərlə ən çətin cərrahiyyə əməliyyatlarını mükəmməl həyata keçirən həkimlərin sayı indi bütün dünyada azalmaqdadır.*

Çünki texnologiya xəstə ilə həkimin arasına girir, onların canlı təmasına müəyyən qədər xələl gətirir və həkimdə peşəkar qabiliyyətlərin formalaşmasına mane olur.

*Zərifə xanım Əliyeva isə tibdə yeni texnologiyaların tətbiqini, müasir müalicə üsullarını təqdir etsə də, xəstə ilə həkimin birbaşa canlı təmasını müayinə və müalicə prosesinin ən vacib halqası hesab edirdi. Bildirirdi ki, bu cür ünsiyyət xəstənin psixi qüvvələrinin və imkanlarının, xəstəliklə mübarizə üçün iradəsinin səfərbər edilməsinə, onda nikbinlik ruhunun oyanmasına təkan verir.*

*Vəzifəsindən, sosial statusundan, məqamından, maddi vəziyyətindən asılı olmayaraq, xəstəyə mənəvi dayaq olmağı, onun həyat iradəsini ayaqda saxlamağı Zərifə xanım hər bir həkimin əsas vəzifə borcu kimi önə çəkirdi. İnsanın ruhi-mənəvi sağlamlığını fiziki sağlamlığının əsası hesab edirdi.*

*Həkimləri insanın təkcə konkret xəstəliyini deyil, həm də ruhunun sağalması qeydinə qalmağa çağırırdı və bunun düsturunu təklif edirdi. Onun insanlara ünvanladığı bu fikirlər bütün zamanlarda, tarixin bütün dövrlərində ruhun sağlamlığını qorumağın yeganə yoludur. "Milli xarakterin ən yaxşı xüsusiyyətlərini, sadəliyi, ürək genişliyini qoruyun, – deyirdi Zərifə xanım. – Axı ruhun sağlamlığı fiziki sağlamlığın rəhnidir".*

*O, həmişə qeyd edirdi ki, peşə həvəsi ilə yanaşı, həkim həm də yüksək mədəniyyətli bir insan olmalı, incəsənət, musiqi, ədəbiyyat dünyasını anlamalıdır...*

* * *

*Zərifə xanım özü bu dünyaların adamı idi...*

*O, peşəkar musiqi təhsili almışdı. Bu nəcib insanın, böyük qəlb sahibinin ifasına qulaq asmaq fürsəti dinləyicilər üçün hər*

*dəfə böyük bir zövq idi. Royalda ifa edərkən onun şirmayı dillər üzərində gəzişən barmaqları ən zərif hisslərin tərcümanına çevrilir, insanları duyğular aləminə aparırdı.*

*Bir zamanlar o ifaları dinləmiş insanlar xatırlayırlar ki, Zərifə xanımın ifalarında qəribə bir duyumluluq vardı. Musiqi əsərini o, özündən, öz duyğularından keçirə bilirdi. Yaxından tanıyanlar onun təkcə ifalarını deyil, musiqi dinləməsini də böyük rəğbət hissi ilə yada salırlar. Zərifə xanım musiqinin ecazına elə dərindən qapılardı ki, onun işıq saçan aydın çöhrəsində sanki musiqinin özü görünərdi, səsin surəti canlanardı.*

İstənilən musiqi əsərini dinlədikcə bu musiqinin onun qəlbindəki əks-sədasını Zərifə xanımın gözlərindən oxumaq mümkün idi. Akkordlar bir-birini əvəzləyər, əvəzlədikcə də onun gözləri heyranlıq nümayiş etdirər, razılıqla gülümsünər, bəzən isə qəti etiraz ifadə edərdi.

*Amma o gözlərdən heç zaman laqeydlik, biganəlik oxumazdın. Danışan gözləri vardı Zərifə xanımın və o gözlər hər baxışında dünyaya, insanlara bir ömürlük sevgisini çatdırırdı.*

* * *

*Zərifə xanım qayğıkeş, fədakar bir ana idi...*

Ömür-gün yoldaşının vaxtının böyük hissəsi dövlət işlərinə sərf olunduğundan, bir çox analar kimi, övladlarının təhsil-tərbiyəsini ana öz üzərinə götürmüşdü.

Əslində, vaxt Zərifə xanım üçün də həyatın ən çox arzulanan neməti idi.

*Bununla belə, o, övladlarının tərbiyəsinə daim vaxt tapırdı.*

*Tanrının əta etdiyi qısa ömrün övladlara, həyat yoldaşına, ailəsinə aid hissəsini gərgin zəhmət tələb edən elmi işlərinə, sənətinə həsr etməyi özünə rəva görməzdi.*

*Bu məqam məni həmişə düşündürüb. Nədənsə qadının çalışmağı məsələsi bizim cəmiyyətdə hər zaman diskussiya mövzusu olur. Öz qazancı ilə evin firavanlığını tam təmin etmə-*

*yi bacaran bir çox kişilərimiz bəzən qadının çalışmasına qarşı çıxırlar. Onlara elə gəlir ki, nə qədər yüksək təhsil alır-alsın, öz sənətində nə qədər böyük perspektivlərə malik olursa-olsun, qadının yeganə vəzifəsi evə-ailəyə baxmaqdır. Həyat yoldaşının, övladlarının qulluğunda durmaqdır.*

Əfsus ki, bu məsələdə hələ də Səməd Vurğunun "Aygün" poemasının qəhrəmanı Əmirxanın düşüncələrindən çox da uzağa gedə bilməmişik.

*Evin, ailənin qayğıları, bəli, əsasən qadının üzərinə düşür. Qadının ev təsərrüfatını idarə etməsi, uşaqların təhsil-tərbiyəsi ilə daha ardıcıl və sistemli şəkildə məşğul olması, məişət məsələlərinin həllində həyat yoldaşına fədakarcasına dəstək verməsi bizim milli mentalitetimizin xoş, gələcək nəsillərə ötürülməli olan cəhətlərindəndir. Amma cəmiyyətin inkişafı, qadınların ictimai fəallığı, iqtisadi azadlığı, sosiallaşması üçün onların çalışması çox mühümdür.*

*Bu mənada Heydər Əliyevin ailəsi hələ o illərdən cəmiyyət üçün bir nümunə sayılırdı. O illər Sovet İttifaqında yüksək vəzifə tutan şəxslərin, baş katib də daxil olmaqla Mərkəzi Komitə katiblərinin və ittifaq respublikalarının partiya katiblərinin, nazirlərin, hətta aşağı rütbəli məmurların həyat yoldaşları ümumiyyətlə heç yerdə işləməsə də, Zərifə xanım Əliyeva istisna təşkil edirdi.*

*Onun öz elmi işlərini, həkimlik fəaliyyətini davam etdirməsi peşəsini qəlbən sevən Zərifə xanım qədər Heydər Əliyevin də arzusu idi və Ulu öndər bu məsələdə həyat yoldaşına mənəvi köməyini heç zaman əsirgəmirdi.*

Ömür-gün yoldaşına, övladlarına fədakarlıqla qulluq etməyi həkimlik borcu ilə, elmi fəaliyyəti ilə ahəngdar şəkildə birləşdirməyə müvəffəq olmuş Zərifə xanım bununla da bir həyat örnəyi yaradırdı.

* * *

*Uşaq tərbiyəsi məsələlərinə onun özünəməxsus yanaşması vardı.*

Övladlarını nə qədər sevsə belə, onlara nə qədər böyük məhəbbət göstərsə də, bir çox məqamlarda əsla güzəştə getməzdi.

*Ana tərbiyəsi ilə övladlarına çox dəyərlər ötürmüşdü Zərifə xanım. Atası Əziz Əliyevin, həyat yoldaşı Heydər Əliyevin ailə ocağından gələn halallığı, nəcabəti, comərdliyi, kübarlığı, ziyalılığı, intellekti, insanlara məhəbbəti...*

*Amma Azərbaycan sevgisi, torpağa, yurda, onun dəyərlərinə bağlılıq bütün bunların başında gəlirdi.*

Öz valideynlərinə bağlılıq, ata-anaya sevgi dünyanın ən saf, ən səmimi və doğma hissləridir.

*Zərifə xanımın, Heydər Əliyevin verdiyi tərbiyə isə bu ocağın övladları üçün ata-ana sevgisi ilə vətən sevgisini bərabərləşdirmişdi, eyniləşdirmişdi.*

*Və bu gün İlham Əliyevin Azərbaycan naminə, Azərbaycan adına gördüyü işlər, etdiyi tarixi fədakarlıqlar, əslində, bu sevginin izharıdır.*

İlham Əliyevin Azərbaycana olan sevgisi bir övladın anaya olan sevgisidir.

*Necə ki, bir zamanlar Zərifə xanım öz sevimli oğluna Vətənə də Ana kimi sevgi bəsləməyi öyrətmişdi...*

# ƏBƏDİYYƏT DASTANI

*İnsanın həyatda məqsədi özünə əbədi şöhrət*
*qazanmaqda deyil, ömrün hər gününü*
*kiçik bir əbədiyyətə çevirməkdədir.*
*Andre Morua*

Həyatımız qəribə qurulub… Göz açıb-yumunca o, artıq sona yaxınlaşır… Güzəştsizdir, amansızdır… Yer kürəsinin yaşı ilə müqayisədə o, cəmi qısa bir işartıdır. Kimisi parlaq yanır, kimisi piltə kimi tutqun, yavaş-yavaş işarır. Burada iş qətiyyən illərin sayında, qocalıqda, uzun ömür yaşamaqda deyil, daha mühümü odur ki, həyat izsiz keçməsin. Gələcək nəsillər üçün iz qoymamısansa, ürəyinin bir hissəsini onlarla bölməmisənsə, demək, qətiyyən yanmamısan. Boşluq və faydasızlıq… Bir xatirə belə yoxdur.

Öz adını tarixin səhifələrində əbədiləşdirən şəxsiyyətlərin vəziyyəti isə başqa cürdür. Zərifə xanım belə şəxsiyyətlərdən biri idi. O, ömrü boyu fədakarlıqla yanmışdır. Zərifə xanım öz işıqlı xarakteri ilə taleyin onunla eyni yolda addımlamağı qismət etdiyi adamların da, öz ömür yolunda onunla bircə dəfə qarşılaşanların da qəlbində parlaq bir mələk kimi silinməz iz qoymuşdur. O, cismən axirət dünyasına köçsə də, qoyub getdiyi yadigar İŞIQ öz nurunu bircə zərrə belə azaltmayıb. Əksinə, bu

işığın NURU onun yenidən günəşi, səmanı, dənizi, dağı görmək imkanını qaytardığı adamların yaddaş saxlancında Zərifə xanımla bağlı kövrək xatirələrdə əbədiləşmişdir.

Biz hamımız bu dünyada qonağıq. İnsanın xatirəsi yaşadıqca, özü də yaşayır. İnsan öz əməlləri, yaradıcılığı, nümunəvi həyatı sayəsində öz ömrünü uzadır. O, yaşayır və əbədiyyətə qovuşana qədər sözlə, işlə yaxşılıq etməyə tələsir.

Gözəl rus şairi Andrey Voznesenski hind xalqının böyük övladı İndira Qandinin özündən sonra nəsillərin dünyagörüşünə təsir göstərdiyindən danışarkən belə yazmışdı: “Qandi tarixə qovuşdu”. Öz xalqının tarixinə qovuşmaqdan, Tarix adlanan nəhəng çayın axınını vahid məqsəd üçün idarə etməkdən, öz dövrünün sadəcə şahidi yox, həm də qurucusu olmaqdan, əbədilik qazanmaq və özün haqqında işıqlı xatirə qoymaqdan daha yüksək missiya yoxdur.

Zərifə xanım tariximizin əfsanəvi şəxsiyyətləri arasında layiqli yer tutaraq bu şərəfi və şöhrəti qazanmışdı. Buna görə də onun haqqında əfsanə burada başa çatmır. Bu əfsanə yeni, gur akkordlarla davam edir və tarixə qovuşur. Buna görə də bu kitabın “son söz”ü yoxdur. Onun haqqında xatirələr bitmirsə, Zərifə xanımı şəxsən tanıyan müasirləri keçmiş günlərin xatirələrini danışmağa başlayırlarsa, “son söz” yazmaq olarmı?! Xatirələr öz xeyirxahlığı ilə ürəkləri isitmək üçün doğulan bu böyük şəxsiyyətə məhəbbət və hörmətlə doludur.

Yox, Zərifə xanım tarix yaratmayıb. Onun rolu bu tarixi yaradan böyük insanın ən böyük məhəbbəti olmaqdan ibarətdir.

Filosoflardan biri deyib: “Hər böyük sərkərdənin arxasında bir qadın var”. Zərifə xanım məhz belə qadın-

lardandır – böyük insanlarla yanaşı olduqda, o insanların ulduzlarının daha parlaq bərq vurmasına səbəb olan qadınlardandır. Bu dünyaya məsum, gözəl qız simasında gələn Zərifə xanım mənsub olduğu əsl azərbaycanlı ailəsinin bütün mənəvi dəyərlərini özündə cəmləşdirmişdi. Və bir qadın, bir ana, bir həkim, bir alim, bir ictimai xadim və birinci xanım olaraq o, əfsanəvi taleyə malik olmuş insanların ümumi axınına nə qədər də təbii bir şəkildə qoşulmuşdu!

Zərifə xanım, bəlkə, dindar olmamışdır, lakin öz xalqının dininə böyük hörmət ruhunda tərbiyə almışdır. Böyüdüyü ailədə ona Allaha və vətənə məhəbbət aşılamışdılar. O, uşaqlıq illərindən bilirdi ki, bu vətənin bir hissəsidir, öz yurdunun kiçik bir zərrəsidir.

Onun xeyirxah ürəyi sanki nadir tapılan qızıl külçəsi idi – çox az tapılan və qəlblərə sevinc bəxş edən tapıntı idi. Onunla rastlaşan hər kəs ilk növbədə təsəlli, inam və sakitlik tapırdı. Az tanıdığı adamlar belə onunla ünsiyyətdə olanda bu alicənablıqdan enerji alırdılar, qəlbləri xeyirxahlıqla dolurdu. Üzləri onun üzünün nuru ilə işıqlanırdı.

Zərifə xanımın mərhəməti Böyük Yaradanın bizə bağışladığı insani keyfiyyətlərin, ən yüksək ləyaqətin etalonu ola bilər. Və az sayda adam bu yüksək keyfiyyətləri taleyin o cür sınaqları qarşısında qoruyub saxlaya bilər. Təmiz olmayan niyyətlər çox adamı bu yüksək keyfiyyətlərdən məhrum edir.

Zərifə xanımın xarakterində sosial motivlər – xeyirxahlıq və başqalarının dərdinə şərik olmaq – o qədər güclü idi ki, o, həkim peşəsini seçmək qərarına gəlmiş və bu peşəni ləyaqətlə yerinə yetirmişdir. O, bu yolu seçmişdi. Peşəsini sevirdi və ona böyük qüvvə sərf edirdi.

Zərifə xanım adamları qiymətləndirməyi bacarırdı. Xəstələr ona inam və ümidlə müraciət edirdilər; hər biri ayrı-ayrılıqda ondan xoş münasibət görür, onun kabinetindən xoş əhvali-ruhiyyə ilə çıxırdı. Onun ürəyi insansevərlik hissi ilə dolu idi. Buna görə də o, insanların qəlbinə yol tapmağı bacarırdı. Bu onun xəstələrlə münasibətinin başlıca prinsipi idi.

Zərifə xanım belə yazırdı:

"Xəstəyə xeyirxah, mərhəmətli münasibət həkim peşəsinin əsas mahiyyətidir. Həkimin gündəlik işi onu əhatə edən adamlara – hər şeydən əvvəl köməyə ehtiyacı olan adamlara müraciət formalarını öyrənməyi tələb edir".

Həkimlik – böyük bir missiyadır. Həkim səbirli olmaq, dinləməyi öyrənmək məcburiyyətindədir.

Şərqdə boş yerə demirlər: **"Səbir – on iki elmin zirvəsidir".**

Zərifə xanım həkim kimi tez-tez filosofların kəlamlarından sitat gətirirdi. Onun sevdiyi kəlamlardan biri antik yunan filosofu Platonun sözü idi:

"Həkimlərin buraxdığı ən böyük səhv ondadır ki, onlar qəlb haqqında düşünməyərək, birinci növbədə bədəni müalicə edirlər".

Həqiqətən, Zərifə xanım həkim yox, həkim-filosof idi. Şərqdə belə həkimləri loğman adlandırırlar. Zərifə xanım Qədim Şərq loğmanlarının ənənələrini əxz etmişdi və XX əsrdə bu ənənələrin təbliğatçısı idi.

O, daşqəlbli olmağı, laqeyd qalmağı bacarmırdı; o, başqalarının dərdinə ürəkdən şərik olur, kömək etməyə çalışır, xəstəlikdən əzab çəkəni sağaltmaq üçün çıxış yolu axtarırdı.

O, həmişə işığın tərəfində dayanırdı və bununla qaranlığı qorxuda bilirdi…

Zərifə xanım belə deyirdi:

"Mənim fəaliyyət spektrim İşıqla Qaranlıq arasındadır".

Sənətə, ailəyə, xalqa, vətənə sevgi – onun nadir təbiətini nəcibləşdirən bir böyük hissdə birləşmişdi. O, Allahın ona bağışladığı həyatın qiymətini bilirdi; bilirdi ki, insan ömrü elə də uzun deyil və bu ömrü bəşəriyyətə xidmətə sərf eləmək lazımdır.

Zərifə xanım bir gəlin kimi Əliyevlər ailəsinin kandarına ayaq basanda artıq ən qiymətli insani keyfiyyətlərə yiyələnmişdi. Təmkinlilik, ziyalılıq, ailəyə sədaqət, milli qürur, ərinə sonsuz məhəbbət, mətinlik və vətən sevgisi onun qəlb xəzinəsinin ən qiymətli inciləri idi.

Bu ailə böyük məhəbbət bünövrəsi üstündə qurulmuşdu. Etiraf etmək lazımdır ki, Heydər Əliyev kimi böyük şəxsiyyətin məhəbbətinə layiq olmaq təkcə böyük xoşbəxtlik yox, həm də böyük məsuliyyət idi. Bu, hər kəsə qismət olan şey deyil. Ancaq seçilmiş bir insan belə məhəbbətə layiq ola bilərdi!

Zərifə xanım heç vaxt Heydər Əliyev şəxsiyyətinin arxasında daldalanmamışdı. Əksinə, özünün xarakterinin gücü, səyi, zəhmətli əməyi, ağlı, iradəsi və xeyirxahlığı sayəsində özünə canlı abidə ucaltmışdı.

* * *

Bu məqamda jurnalist **İlqar Rüstəmov**un "Sevgisinin və peşəsinin mücahidi" yazısından diqqətimi cəlb edən bu cümlələri xatırlayıram:

*"Son illərdə bu qoşa taleyin əbədiyyət dastanından bir-birindən fərqli, bəlkə, yüzlərlə məclisdə, tədbirdə, elmi-praktik konfranslarda olmuşam. Qəribədir, Heydər Əliyevin adı harada, hansı məclisdə, tədbirdə çəkilirsə, orada Zərifə xanım Əliyevanın adı da mütləq çəkilir. Zərifə xanımın işıqlı ruhuna hara-*

*da dualar oxunursa, orada mütləq Heydər Əliyevin müqəddəs ruhu anılır və Uca Tanrıdan ona rəhmət dilənir. Adamı vəcdə gətirən odur ki, bu, Allaha ən mərhəm dilək kimi milyonların qəlbindən sadəcə söz kimi yox, bakirə istək və arzu kimi dünyaya gəlir..."*

Düşünən insan həmişə kamilliyə can atır. Düşüncə kamilliyi isə, bir qayda olaraq, əxlaqla peşə dünyagörüşünün düz mütənasibliyindən yaranır.

Təbabət aləmində əxlaqla tibbi dünyagörüşün vəhdəti həmişə yüksək professionallığın təminatçısı kimi təzahür edir. Zərifə xanımın bir nəcib İNSAN kimi daim tibbi praktikada əxlaqi meyarlara böyük üstünlük verməsi ilk növbədə onun yüksək intellektual mövqeyindən irəli gələn ən mühüm amillərdən biri idi.

* * *

*Bir göz həkimi olaraq Zərifə xanım bütün ömrünü insanlara işıq bağışlamağa həsr etmişdi. Bu mənalı insan ömrünün missiyası zülmət və qaranlıqla mübarizə aparmaqdan ibarət idi. Bəli, işığını itirmiş gözlərə nur çiləmək istəyi, arzusu onun parlaq obrazını İLAHİ bir nəcibliyə qovuşdururdu.*

Həkimin həyatı bir adamın həyatından daha uzun və məzmunludur. Homer deyirdi: "Bir bacarıqlı həkimin həyatı çox adamın həyatına dəyər".

Zərifə xanım məhz belə həkim idi və ola bilsin ki, ona əbədi şöhrət gətirən də bu xüsusiyyəti idi. O, hələ 1969-cu ildə respublika rəhbərinin həyat yoldaşı, Azərbaycanın birinci xanımı olmuşdu, sonrakı tarix sübut etdi ki, onun bu şərəfə layiq olmaq haqqı vardır. Təəssüflər olsun ki, həyat yoldaşının və oğlunun prezident seçildiyi o xoşbəxt günləri görmək Zərifə xanıma qismət olmadı. Yəqin ki, bir prezidentin həyat yoldaşı və digərinin anası olduğu xəbərini biləndə onun ruhu şad olmuşdur.

Hər dəfə Heydər Əliyevin – müstəqil Azərbaycanın şanlı simvolunun həyat və fəaliyyətinə həsr olunan filmə baxdıqda ürəyimdə incə hisslər baş qaldırır. Onun öz həyat yoldaşına bəslədiyi müqəddəs məhəbbət ürəkləri riqqətə gətirir. Mən Zərifə Əliyeva ilə vidalaşma səhnəsini – Heydər Əliyevin öz əbədi məhəbbəti ilə ayrılığına acı göz yaşı ilə ağladığı səhnəni nəzərdə tuturam… Zərifə xanım gül dənizinin içində, sanki həyat yoldaşının, öz əbədi məhəbbətinin göz yaşlarını görməmək üçün gözlərini açmaq istəmir...

Aman Allah, itkiylə barışmaq istəməyən kəsin yanıb-qovrulan ürəyini necə sakitləşdirmək olar?.. Heç vaxt heç bir dərdin, bədbəxtliyin qarşısında baş əyməyən, mərdlik və igidliyin təcəssümü olan bu güclü insan taleyin o ağır zərbəsinə dözə bilməyərək ömründə ilk dəfə acı göz yaşları axıtdı. Sevimli həyat yoldaşı son mənzilə yola düşdüyü, əbədiyyətə qovuşduğu vaxt onun əli hər şeydən üzülmüşdü.

Lakin əbədi həyat və əbədi məhəbbət haqqında əfsanə davam edir. Allahın böyük işlər görmək üçün yaratdığı böyük insan tezliklə gərgin mübarizəyə girişməli idi. Zərifə xanım onu bu mübarizədə tək qoymamışdı. Onun üçün İlham kimi oğul böyütmüşdü. Bilirdi ki, oğlu atasının şərəfini hər şeydən yüksək tutan layiqli övlad kimi böyüyüb.

Ayrılıqlar da, qovuşmalar da taleyin qismətidir… Məhəbbətlə dolu iki ürək on səkkiz ildən sonra əbədi qovuşdu.

Bu gün Fəxri xiyabanda – bütün azərbaycanlıların and yeri olan bu müqəddəs guşədə Əbədiyyət dastanının iki qəhrəmanının məzarları üstündə, sanki keçmiş xoşbəxt günlərdə olduğu kimi, bir-birini sözsüz başa düşən iki qranit abidə ucalır…

Onlarla, yüzlərlə, minlərlə azərbaycanlı əllərindəki gül dəstələri ilə bu məzarların önündə baş əyib, xeyir-dua almağa gəlir...

İki qəlbin əbədi məhəbbəti ilə möhkəmlənmiş uzun və xoşbəxt bir həyata xeyir-dua almaq üçün...

*Bakı, 2007-2010-cu,*
*2017-2018-ci illər*

# ZƏRİFƏ XANIM ƏLİYEVANIN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

**1923, 28 aprel** – Zərifə Əziz qızı Əliyeva Naxçıvanda, Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

**1932-1942** – orta məktəbdə təhsil illəri.

**1942-1947** – Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinin tələbəsi.

**1948** – Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə kurslar.

**1949-1950** – Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun ordinatoru.

**1950-1953** – aspiranturanı bitirib, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi olmuşdur.

**1954** – Heydər Əliyevlə ailə qurmuşdur.

**1955, 18 oktyabr** – Zərifə və Heydər Əliyevlərin qızları Sevil dünyaya gəlmişdir.

**1960** – Zərifə Əliyeva tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.

**1961, 24 dekabr** – Zərifə və Heydər Əliyevlərin oğulları İlham dünyaya gəlmişdir.

**1967** – Zərifə xanım Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasının dosenti olmuşdur.

**1977** – tibb elmləri doktoru alimlik dərəcəsi almışdır.

**1980** – "Azərbaycanın Əməkdar Elm Xadimi" fəxri adına layiq görülmüşdür.

**1981** – M.İ.Averbax adına mükafata layiq görülmüşdür.

**1982** – "Əmək veteranı" medalı ilə təltif olunmuş, Ümumittifaq miqyasında çap olunan "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin, Ümumittifaq Oftalmologiya Cəmiyyətinin və Sülhü Müdafiə Komitəsinin üzvü olmuşdur.

**1983** – Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki olmuşdur.

**1985, 15 aprel** – Moskvada vəfat etmişdir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


## Dövri nəşrlər

"Azərbaycan dünyası", 1983, №-1.

"Azərbaycan qadını", 1981, №-10; 1995, №-1.

"Azərbaycan kommunisti", 1983, №-1.

"Elm və həyat", 1982, №-5.

## Kitablar

Abbasov Vaqif. Liderlik fəlsəfəsi. Bakı, 2004.

Axundova Elmira. Heydər Əliyev: Şəxsiyyət və zaman. Bakı, 2008.

Akademik Zərifə Əliyeva. Bakı, 1996.

Akademik Zərifə Əliyeva: Xatirələr. Bakı, 2003.

Əliyeva Alimə. Mənim mənəvi anam. Bakı, 2008.

Əliyeva Zərifə xanım. Yüksək əqidə (Həkim etikası). Bakı, 2003.

Qarayev Əbülfəs. Heydər Əliyev və mədəniyyət. Bakı, 2008.

Maqomayev Müslüm. Xatirələr məndə yaşar. Moskva, 2009.

Mehdiyev Ramiz. Dünyanı heyran qoyan insan. Bakı, 2004.

Ozerov Mixail. İlham Əliyev: Mən mənim Azərbaycanıma inanıram. Bakı, 2008.

Seyidov Mirkazım, Rzayev Məmməd. Zamanı qabaqlayan dahi. Bakı, 2008.

Talıblı Tahir. Əziz Əliyev: dövrü, həyatı, şəxsiyyəti. Bakı, 1997.

Ülkü İrfan. Qızıl ulduzdan hilala: Heydər Əliyevin həyatı. Bakı, 1994.

Zeynalov Əsgər. İrəvan xanlığı... gerçəkliyin aydınlığı. Bakı, 2016.

Zenkoviç Nikolay. Heydər Əliyev: Tale yolları. Bakı, 2007.

Budaqova Sevinc. Ümid qapısı, mərhəmət ünvanı, Bakı, 2011.

Mirələmov Hüseynbala. Missiya, İstanbul, 2014.

*Burada qeyd edilənlərdən başqa müxtəlif vaxtlarda "Kommunist", "Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Panorama", "İki sahil", "Yeni Azərbaycan", "Bakinski rabo-çi", "Günay", "Şəfqət", "Elm qəzeti", "525-ci qəzet", "Mədəniyyət", "Qarabağa aparan yol" qəzetlərində, "Modern.az" saytında və "Bakı" jurnalında çap olunan çoxsaylı materiallardan istifadə edilmişdir.*

# MİNNƏTDARLIQ

Müəllif Zərifə xanım Əliyeva haqqında kitabın hazırlanması işində ona dəstək verən hər kəsə səmimi minnətdarlığını bildirir.

İlk növbədə:

Əliyev İlham Heydər oğluna,
*Zərifə xanımın oğlu,*
*Azərbaycan Respublikasının Prezidenti;*

Əliyeva Mehriban Arif qızına,
*Zərifə xanımın gəlini,*
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,*
*Heydər Əliyev Fondunun prezidenti,*
*UNESCO-nun xoşməramlı səfiri,*
*ISESCO-nun xoşməramlı səfiri;*

Paşayev Arif Mir Cəlal oğluna,
*akademik, fizika-riyaziyyat elmləri doktoru,*
*Azərbaycan Milli Aviasiya Akademiyasının rektoru;*

Əliyeva Leyla İlham qızına,
*Zərifə xanımın nəvəsi,*
*Heydər Əliyev Fondunun vitse-prezidenti.*

Həmçinin:

Mehdiyev Ramiz Ənvər oğluna,
*Azərbaycan Respublikası*
*Prezidenti Administrasiyasının rəhbəri;*

Əliyev Cəmil Əziz oğluna,
*akademik, tibb elmləri doktoru,*
*Azərbaycan Səhiyyə Nazirliyinin baş onkoloqu;*

Qarayev Əbülfəs Mürsəl oğluna,
*Azərbaycan Respublikasının*
*Mədəniyyət və Turizm naziri;*

Axundova Elmira Hüseyn qızına,
*yazıçı, jurnalist, Milli Məclisin deputatı;*

İbrahimov Eldar Rza oğluna,
*Milli Məclisin deputatı, komitə sədri;*

Mirzəzadə Reyhan Sabir qızına,
*publisist, politoloq;*

Mahmudov Əli Əbülfət oğluna,
*şair, publisist;*

Muğanlı Nurəddin Ədil oğluna,
*yazıçı-publisist;*

*Azərbaycan Milli Arxiv İdarəsinin,*
*M.F.Axundov adına kitabxananın və*
*Azərbaycan Milli Elmlər Akademiyası*
*kitabxanasının əməkdaşlarına.*

# MÜNDƏRİCAT

*Ön söz.*
Tale yolları . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 7

*Birinci fəsil.*
"Bala İstanbul"dan başlanan yol . . . . . . . . . . . . . . . . 15

*İkinci fəsil.*
"Heydər və Zərifə" dastanının əvvəli . . . . . . . . . . . . 29

*Üçüncü fəsil.*
Hippokrat və oftalmologiya . . . . . . . . . . . . . . . . . . . 39

*Dördüncü fəsil.*
Əvəzolunmaz insan . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65

*Beşinci fəsil.*
Səkkiz il dağlar ölkəsində . . . . . . . . . . . . . . . . . . . . 85

*Altıncı fəsil.*
Böhtan . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 107

*Yeddinci fəsil.*
Çətin sınaqdan keçən sevgi
(Zərifə və Heydər) . . . . . . . . . . . . . . . . . . . . . . . . 119

*Səkkizinci fəsil.*
Nura qənşər uzanan yol . . . . . . . . . . . . . . . . . . . . . 131

*Doqquzuncu fəsil.*
Xatirələr, xatirələr… . . . . . . . . . . . . . . . . . . . . . . . 149

*Onuncu fəsil.*
...İnsanları xeyrə çağıran . . . . . . . . . . . . . . . . . . . . 165

*On birinci fəsil.*
Köklər . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 185

*On ikinci fəsil.*
Kondisionerlər və… oftalmoskop . . . . . . . . . . . . . 209

*On üçüncü fəsil.*
Vəzifə – tale – ömür . . . . . . . . . . . . . . . . . . . . . . . 243

*On dördüncü fəsil.*
"Mən Moskvadayam..." . . . . . . . . . . . . . . . . . . . . . 257

*On beşinci fəsil.*
Moskvanı tilsimə salan ruh... . . . . . . . . . . . . . . . . . 269

*On altıncı fəsil.*
Gəldim çiçəklərlə vidalaşmağa... . . . . . . . . . . . . . . 285

*On yeddinci fəsil.*
İnsanlara qalan işıq . . . . . . . . . . . . . . . . . . . . . . . 301

*On səkkizinci fəsil.*
Unudulmaz insan . . . . . . . . . . . . . . . . . . . . . . . . . 313

*On doqquzuncu fəsil.*
İşığın davamı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 327

*İyirminci fəsil.*
Zərifə xanımın gəlini . . . . . . . . . . . . . . . . . . . . . 347

*İyirmi birinci fəsil.*
Bir dünya nur çeşməsi . . . . . . . . . . . . . . . . . . . . . 407

*İyirmi ikinci fəsil.*
Nur heykəli . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 427

Əbədiyyət dastanı . . . . . . . . . . . . . . . . . . . . . 441

Zərifə xanım Əliyevanın həyat və
fəaliyyətinin əsas tarixləri . . . . . . . . . . . . . . . . . 449

İstifadə olunmuş ədəbiyyat . . . . . . . . . . . . . . . . . 451

Minnətdarlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 455

Жизнь ®
ЗАМЕЧАТЕЛЬНЫХ
ЛЮДЕЙ

*Серия биографий*

Основана в 1890 году
Ф. Павленковым
и продолжена в 1933 году
М. Горьким

Гусейнбала Мираламов

# ЗАРИФА АЛИЕВА

МОСКВА
МОЛОДАЯ ГВАРДИЯ
2010

Mirələmov Hüseynbala Fazil oğlu.
"Зарифа Алиева" ("Zərifə Əliyeva").
Moskva: "Молодая гвардия" ("Molodaya qvardiya"),
2010-cu ildə nəşr olunmuş
"Жизнь Замечательных Людей"
("Görkəmli Adamların Həyatı") seriyasından,
1255-ci buraxılışına əlavələrlə.

Zərifə Əliyeva (1923-1985) Azərbaycan xalqının Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin həyat yoldaşı və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin anasıdır. Lakin o, ancaq buna görə tanınmamışdı; öz ölkəsində sıravi fəhlə və qulluqçulardan tutmuş yüksək partiya və dövlət xadimlərinə, elm və incəsənət adamlarına qədər hamının hörmət və məhəbbətini ancaq buna görə qazanmamışdı. Onun bütün həyatı insanlara xidmətə həsr edilmişdi. Zərifə xanım məşhur həkim-oftalmoloq, tibb elmləri doktoru, akademik, parlaq alim və eyni zamanda həssas və qayğıkeş pedaqoq, müdrik təşkilatçı idi. Bu görkəmli qadının ömür yolu haqqında hekayə arxiv materiallarına və onu yaxından tanıyan adamların xatirələrinə əsasən yazılıb, qəhrəmanın obrazını daha yaxşı təsvir etməyə kömək edən fotoşəkillərlə zənginləşdirilib.

Moskva: "Молодая гвардия", 2010 (rusca)
Redaktoru: Y.V.Smirnova
Bədii redaktorları: Y.V.Koşeleva, İ.İ.Suslov
Texniki redaktoru: M.P.Kaçurina
Korrektorları: L.M.Loqunova, Q.V.Platova

ISBN 978-5-235-03359-7

"Молодая гвардия" nəşriyyatı,
127994, Moskva, Suşevskaya küç., 21

Görkəmli Adamların Həyatı®

*Biografiya seriyası*

Hüseynbala Mirələmov

# ZƏRİFƏ ƏLİYEVA

Redaktorlar:
İxtiyar Hüseynli
Suğra Osmanova

Buraxılışa məsul:
Rəşad Cəfərli

Texniki redaktor:
Rauf Kərimli

Korrektor:
Kəmalə Cəfərova

Yığılmağa verilmişdir: 17.10.2017. Çapa imzalanmışdır: 18.02.2018.
Ölçü: 84x108 1/32. Çap vərəqi: 35. Sifariş: 048/18. Say: 2000 ədəd.

**NURLAR**
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, Zərdabi pr. 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az

9789952507775